AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 12

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2020

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Nizami Xudiyev, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Sevil Mehdiyeva, filologiya elmləri doktoru, prof. Buludxan Xəlilov, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2020, №12

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2020

www. filologiyameseleleri.com

DİLÇİLİK

QULU MƏHƏRRƏMLI
(BDU)
Filologiya elmləri doktoru,
professor
meherremli@gmail.com

HƏSƏN BƏY ZƏRDABİ VƏ "BAKİNSKİ LİSTOK" QƏZETİ

XÜLASƏ

Mətbuat tarixinə dair araşdırmalarda Azərbaycanda ilk qəzetin 1871-ci ildə çap olunduğu göstərilir. Həftədə bir dəfə rus dilində nəşr edilmiş "Bakinski listok"un qısa müddətdə (1871-1872) cəmi 50 nömrəsi çıxsa da, XIX əsrin 70-ci illərinin Bakısının ictimai-mədəni həyatında ciddi rol oynayıb və həmin dövrün özünəməxsus salnaməsinə çevrilib. Burada bir maraqlı məqam ondan ibarətdir ki, çar Rusiyasının ucqarı sayılan Bakıda qəzetin nəşrinə icazə verilərkən tatar (türk- Q.M.) dilində yazılar çap etməsi də məqbul sayılıb. Amma müxtəlif səbəblərdən, o cümlədən qəzetin çap olunduğu "Erməni insansevərlər cəmiyyəti"nin mətbəəsinin tatar dilində material çapından imtina etməsi ucbatından qəzetdə Azərbaycan dilində yazılar getməmişdir.

"Bakinski listok"un naşiri və redaktoru Azərbaycan milli mətbuatının banisi, görkəmli maarifçi-demokrat Həsən bəy Zərdabinin müəllim həmkarı, Bakı Realnı gimnaziyasının alman əsilli əməkdaşı Xristian Sink idi. Belə ehtimal etmək olar ki, "Əkinçi" ideyasında Zərdabinin X.Sink və onun qəzeti ilə sıx təması da müəyyən rol oynanmışdır. Yerli əhaliyə, tatar adlandırılan azərbaycanlılara böyük sevgi bəsləyən X.Sink onların ictimai həyatda fəallığı üçün çalışmışdır.

H.B.Zərdabinin ilk mətbu məqaləsi də məhz "Bakinski listok"da nəşr olunmuşdur. Qəzetin 26 fevral 1872-ci il tarixli (N.9) nömrəsində çap edilmiş məqalə "Bakı salanaməsi. 26 fevral" başlığı ilə verilmişdir. Yazıda Bakının ictimai-mədəni həyatının problemlərindən, keçirilən tədbirlərin məzmunsuzluğu və cansıxıcı olmasından, şəhərə gələn konsert truppalarının repertuar problemlərindən, ədəbi axşamların təşkili məsələlərindən danışılır və şəhərin müsəlman əhalisinin Avropa sivilizasisiyasından bəhrələnməsinin, xüsusən uşaqların təhsilə cəlb edilməsinin vacibliyindən bəhs edilir.

Açar sözlər: mətbuat, maarifçi-demokrat, qəzet, sivilizasiya, tatar dili, təhsil, ictimai həyat, naşir, redaktor, mətbəə, salnamə.

Azərbaycan milli mətbuatının tarixi böyük maarifçi-demokrat, ictimai fikir tariximizin görkəmli nümayəndəsi Həsən bəy Zərdabinin 1875-ci il iyulun 22-də əsasını qoyduğu "Əkinçi" qəzeti ilə başlayır. Həmin qəzetin təşəkkül tapdığı tarixi şəraiti və nəşrin özəlliklərini araşdıran tədqiqatçılar (1;2) haqlı olaraq "Əkinçi"yə qədərki ictimai mühit barədə də danışır və ilk milli qəzetin meydana gəlməsini şərtləndirən sosial-mədəni amilləri təhlil edirlər. Azərbaycanda dövri mətbuatın tarixinə dair son araşdırmalarda həmin amillər sırasında 1865-ci ildə çar II Aleksandrın "Ölkə mətbuatına bəzi rahatlıq və yüngüllük verilməsi haqqında" fərmanından irəli gələn tədbirlər, XIX əsrin 70-ci illərində Bakıda başlanmaqda olan iqtisadi yüksəliş və bu dövrdə güclənməkdə olan rus ictimai fikri və rusdilli mətbuatın rolu qabardılır (3, 57-64). Təbii ki, rusdilli mətbuat dedikdə, 1871-ci il martın 6-da nəşrə başlamış "Bakinski listok" qəzeti nəzərdə tutulur. Həftədə bir dəfə rus dilində nəşr edilən bu qəzetin naşiri və redaktoru H.B.Zərdabinin müəllim həmkarı, Bakı Realnı gimnaziyasının alman əsilli əməkdaşı Xristian Sink idi. O, 1868-ci ildə rus çarı II Aleksandrın sərəncamı ilə Sankt-Peterburqdan Bakıya alman dili müəllimi kimi göndərilmişdi. X. Sink qəzetin nəşrinə icazə ilə bağlı Bakı Hərbi qubernatoru, general-leytenant M.P.Kolubyakinə müraciət edərkən, həm də dövlətdən bu həftəlik nəşrin mətbəə xərclərini ödəmək üçün borc pul da istəmişdi. Lakin qubernator qəzetin çapına icazə versə də, pul ayırmaq üçün əsas görmədiyini bildirmiş, bunu "qəzetin istiqamətinin faydalı olacağına tam əminliyinin olmaması" ilə izah etmişdi (3,59).

İlk nömrəsi ilə şəhərin ictimai həyatında müəyyən canlanma yaratmış "Bakinski listok" oxuculara "ictimai-siyasi və ədəbi" nəşr kimi təqdim olunurdu. XIX əsrin 70-ci illərinin özünəməxsus salnaməsi sayılan qəzetin iki il ərzində 50 nömrəsi (1871-ci ildə 17, 1872-ci ildə 23) çapdan çıxıb. Birinci il dörd səhifə, ikinci il isə iki səhifə həcmində və A-3 formatında çap edilmişdi. Təəssüflər olsun ki, Bakıda çıxmış bu ilk dövri mətbuat nümunəsi Azərbaycanda saxlanmamışdır, amma elmi kitabxanalarda və biblioqrafik qeydlərdə qəzet haqqında ümumi bilgi verilmişdir. Sovet dövründə mətbuat tariximizi araşdıran tədqiqatçıların bu qəzetin nüsxələrini əldə etmək cəhdi uğursuz olmuşdur. Ona görə də mətbuat tarixini araşdıran alimlərin çoxu uzun illər bu qəzetin fəaliyyəti və materialları haqqında yalnız ehtimallarla danışmışlar. (2;7). Bir neçə il əvvəl "Bakinski listok"un izinə düşmüş BDU-nun jurnalistika fakültəsinin əməkdaşı, filologiya elmləri namizədi, tədqiqatçı Lalə Hacıyeva ciddi axtarışlar nəticəsində qəzetin nüsxələrini Rusiya Milli kitabxanasında (Sankt-Peterburq) aşkar edə bilmişdir. Bununla mətbuat tariximizin araşdırılması işinə ciddi töhfə vermiş araşdırmaçı L.Hacıyeva həm də fədakarlıq göstərərək qəzetin bütün nüsxələrini qısa izah və şərhlərlə birlikdə kitab şəklində ictimaiyyətə təqdim etmişdir. Bu gün həmin kitab Azərbaycan tarixinin bəlli dövrünün öyrənilməsi üçün gərəkli mənbə rolunu oynayır, çünki "burada əksini tapan fakt, hadisə və problmlər,həmin dövrün milli, tarix mənzərəsini bütöv şəkildə öyrənməyə yardımçı olur" (4, 4-5).

Qəzet qaynar Bakı həyatının bütün sahələrini – rəsmi, ictimai, iqtisadi-mədəni və sosial həyatını dolğunluğu ilə işıqlandırmışdır. Qonşu ölkələrdə, dünyada baş verən hadisələr haqqında Rusiya və Avropa mətbuatından istifadə etməklə öz səhifələrində məqalələr çap edən qəzet, həm də Azərbaycanda sənayeləşmə, gəmiçilik, balıqçılıq, kənd təsərrüfatı, neft sənayesi, mühəndislik, şəhər həyatı, adi məişət və s. onlarca sahəni işıqlandıran kiçikhəcmli yazılar da verirdi.

"Bakinski listok"la bağlı bir maraqlı məqam da ondan ibarətdir ki, X.Sink qəzetində tatar (türk- Q.M.) dilində yazılar verilməsinə icazə almışdır. O, qəzetin 5-ci sayında rəhbərlik etdiyi dövri nəşrin üstünlüklərini nəzərdə tutaraq yazırdı ki, "… birincisi, biz Xəzəryanı Diyarın maraqlarına xidmət edirik, ikincisi isə yerli əhali arasında sivilizasiyanın yayılmasına yönələn vasitələrdən biri kimi tatar (türk-Q.M) dilində məqalələr əlavə edirik (4,51). Təəssüf ki, bir çox səbəblərdən, o cümlədən qəzetin çap olunduğu "Erməni insansevərlər cəmiyyəti"nin mətbəəsinin bu dildə material çapından imtina etməsi ucbatından öz məqsədinə nail ola bilməmişdir. Amma bu X.Sinkin türk əhalisinə sevgi və rəğbətini azaltmamışdır. Onun "Bakinski listok"da Hacı Zeynalabdın Tağıyevin xeyriyyəçiliyi haqqında sevgi ilə yazması da bunu sübut edir (yeri gəlmişkən deyək ki, bu qəzet haqlı olaraq erməni varlılarının fəaliyyəti haqqında çox vaxt tənqidi yazılarla çıxış etmişdir). Qəzet halal zəhmət hesabına sərvət qazanmış müsəlman xeyriyyəçisi Z.Tağıyev haqqında yazısında (№ 11, 11 mart 1872) onun aclıq çəkən insanlara yardımından bəhs edilir. Göstərilir ki, ötən "ilin oktyabrında (1871) İrandakı aclığın nəticəsində bizdə yaranmış bahalıq Bakının çörək istehsalçılarının tamahını artırdı, onlar kasıbların əzabı hesabına öz ciblərini daha çox doldurmaq arzusu ilə bahalaşmanı son həddə çatdırmaqda maraqlı oldular. Onlar öz anbarlarının ağzını bağladılar, yükdaşıma dayandı və bizim şəhər çörəksiz qaldı. "Uğur" alverçilərin gözlədiyindən də qat-qat artıq oldu. Çörəyin qiyməti sürətlə qalxdı, tağar 12 manatdan 40 manat və ondan da artıq bahalaşdı. Bu zaman qubernator, rəhmətlik M.P.Kolyubakinin yanına Bakı sakini, müsəlman Zeynal Tağıyev gəldi və təklif etdi ki, şəhərdə ucuz qiymətə kasıblara çörək satan dükanlar açılsın. Təklif əlbəttə ki, qəbul edildi; təcili başqa şəhərlərə çörək almaq üçün adamlar göndərildi. Bakının mərkəzində dükan tikildi, burada çörəyin tağarı 22-28 manata satılırdı, halbuki həmin çörək yerində 25-31 manata alınırdı. Bu qiymətlə satış 4 ay - noyabr, dekabr, yanvar, fevral aylarına qədər davam etdi" (4, 325-326).

"Bakinski listok"un bizim üçün bir dəyəri də ondan ibarətdir ki, milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin ilk mətbu məqaləsi bu qəzetdə çap olunmuşdur. Belə ehtimal etmək olar ki, "Əkinçi" qəzetinin çapı ideyasında H.B.Zərdabinin X.Sink və onun qəzeti ilə sıx təması da müəyyən rol oynamışdir, çünki Zərdabi qəzetin fəaliyyətini mütəmadi izləyir, onun qaldırdığı problemləri görür, həm də təbii ki, qəzetin ictimai dəyərinni, onun millət üçün gərəkliliyini dərk edirdi. Bəs Zərdabinin "Bakinski listok"da 148 il əvvəl (№ 9, 26 fevral 1872) *"Bakı salnaməsi. 26 fevral"* başlığı ilə verilmiş məqaləsində nədən bəhs olunurdu?

Məqalədə əsasən dörd ciddi problem qoyulur: Bakının mədəni həyatının canlandırılması, kütləyə təqdim olunan kütləvi-mədəni tədbirlərin məzmununa diqqət yetirilməsi, kitabxanaların canlandırılması və müsəlman uşaqlarının təhsilə (məktəbə) cəlb edilməsinin vacibliyi. Məqalə bu fikirlərlə başlanır: "Daha bir maskarad bu gün, bir rəqs gecəsi də sabah olacaq – bununla da bizim şənliklər zənciri qırılır və ictimai həyatımız özünün yeni mərhələsinə, böyük Pəhriz dövrünə qədəm qoyur. İlin yerdə qalan heç bir vaxtı, uzun sürən bu yeddi həftəlik müddət qədər özəllikləri ilə başqa zamanlardan belə kəskin şəkildə fərqlənə bilməz. Biz bu pəhriz dövrünün dini mahiyyətini bir kənara qoyub, onun mülki-ictimai həyatımızdakı əhəmiyyətinə toxunmaq istərdik. İndiyə kimi Pəhriz günləri Bakıda bəziləri üçün ancaq darıxdırıcı sıxıntı dövrü, bir başqaları üçün isə yalnız iş-güc ayı sayılırdı. Səviyyəcə yüksək olmayan həvəskar-artistlərin təşkil elədikləri 2-3 konsert çox süst keçirdi, Məclisdəki çay axşamları adama heç yapışmırdı, Nuh əyyamından qalmış gözübağlıca, siçan-pişik və s. kimi bəsit, uşaq səviyyəsində olan və çox uzun çəkən əyləncə oyunları gərginlikdən başqa bir şey deyiliydi"(5;6).

Daha sonra Həsən bəy göstərir ki, "... indi Bakıda ildən-ilə həyat canlanır və ümid edirik ki, gələn Pəhriz dövrü bizə hələ görüb ləzzətini dadmadığımız çox yeni şeylər bəxş edəcəkdir. Bunu deyəndə mən, hər şeydən əvvəl, haqqında eşitdiyimiz ədəbi axşamları və kütləvi mühazirələri nəzərdə tuturam. Zira, bizim ümidlərimiz hələlik gümanlara və şayiələrə əsaslanır. Amma bununla yanaşı biz xeyli tərəqqi etmiş ruc icmasının yetkinliyinə inanırıq, bu səbəbdən də onun əvvəlki illərdə olduğu kimi təkcə çay içib gözbağlayıcı oyunları ilə kifayətlənəcəyinə inanmırıq. Bundan başqa c-b Esterreyxin iltifat göstərib bizlərə iki-üç yaxşı konsert əta edəcəyinə də ümidimiz vardır. Bu konsertlərin böyük uğur qazanacağına da indidən inanırıq, o səbəbdən ki, əvvəla, bizim orkestr o cənabın səyləri sayəsində çox cilalanmışdır. İkinci bir tərəfdən də c-b Esterreyxin özü musiqi aləmində çox yaxşı tanınan, nüfuzu olan, haqlı şöhrətə sahiblənmiş bir zatdır. Bundan sonra isə bir də görəcəksiniz ki, hansısa Beranek və ya Bosko gəlib şəhərin o biri ucunda çadırlarını quracaq və əhalimizə yemək paylamağa başlayacaq. Allah xatirinə, xoş gəlirsiniz! Biz cəmaatımızın əyləncələrinə rəng qatacaq, onları boş vaxtlarında kart oynamaq və dedi-qodu ilə məşğul olmaq kimi bəd əməllərdən xilas edəcək hər şeyə şadıq, hətta bunun üçün qəpik-quruşumuzu da əsirgəmərik" (5).

Məqalədə toxunulan ən ciddi problem şəhərin **müsəlman** əhlinin Avropa sivilizasisiyasının bizlərə fayda gətirən nəfini hələ də anlamasını ifadə etməklə bağlıdır. Böyük millət fədaisi bunun səbəbini Bakı Realnı gimnaziyasına gələn şagirdlərin arasında müsəlman uşaqlarının azlığında görür və bunları qeyd edir: "Vilayətimizin İranla gediş-gəlişi, yaxın əlaqələri olmayan başqa şəhərlərində elm və maarifə tələbat hiss olunur, fəqət Gimnaziyanın oralardan uzaq olması və müsəlmanların həddən ziyadə kasıblığı şagirdlər arasında bu toplumun nümayəndələrinin faizini çox aşağı edir. İndi öz uşağını xəzinə hesabına Gimnaziyanın pansionuna göndərmək istəyənlərin sayı günbəgün artır, amma çoxu

ora düşə bilmir, çünki bunun üçün bir neçə il gözləməlidirlər, növbələri çatanda isə artıq gec olur, onlar təlimsiz qalır, ötüb keçən yaşları isə Gimnaziyanın aşağı sinfinə daxil olmağa imkan vermir.

Bu vaqiəni nəzərə alaraq biz Bakı şəhərində müsəlman şagirdlərə yardım etmək məqsədi ilə bir Xeyriyyə cəmiyyəti təsis etməyi vacib sayırıq. İlk zamanlarda cəmiyyətin fəaliyyəti Bakıda mənzil tutmaqla məhdudlaşacaq ki, başqa şəhərlərdən gəlib oxumaq istəyində olan şagirdlər bu mənzillərdə sığınacaq tapıb gimnaziyaya rahat gedib-gələ bilsinlər" (5).

Böyük maarifçi məqaləsində göstərir ki, xeyriyyəçilik hər bəndəyə xas olan savab iş, Allaha xoş gedən vacib bir əməldir, bizim bu cəmiyyət yalnız xeyriyyəçiliklə məşğul olacaqdır. O səbəbdən də cinsindən, milliyətindən, dini mənsubiyyətindən asılı olmayaraq hər kəs bizim bu cəmiyyətə üzv ola bilər. Hazırda biz cəmiyyətin nizamnaməsini tərtib edirik və arzu olunandır ki, bu sahədə səriştəli və mötəbər insanlar öz məsləhətləri ilə bizləri tək qoymasınlar.

GULU MAHARRAMLI

SUMMARE
HASAN BEY ZARDABI AND THE NEWSPAPER "BAKINSKI LISTOK»

Research on the history of the press shows that the first newspaper in Azerbaijan was published in 1871. Although only 50 issues of "Bakinski Listok", published once a week in Russian, were published in a short period of time (1871-1872), it played a significant role in the socio-cultural life of Baku in the 1970s and became a unique chronicle of that period. An interesting point here is that while the newspaper was allowed to be published in Baku which was thought as a remote part of Tsarist Russia, it was considered acceptable to publish articles in the Tatar (Turkish-G.M) language. However, due to various reasons, including the refusal of the printing house of the "Armenian Humanitarian Society" where the newspaper was printed, to publish material in Tatar, articles in Azerbaijani were not published in the newspaper.

The publisher and editor of "Bakinski Listok" was Christian Sink, a German-born employee of the Baku Realni Gymnasium, a teacher colleague of Hasan bey Zardabi, the founder of the Azerbaijani national press and a prominent enlightener-democrat. It can be assumed that Zardabi's close contact with Ch.Sink and his newspaper also played a role in the idea of "Akinchi". Having a great love for the local population, the Azerbaijanis who were called Tatars, Ch.Sink worked for their active participation in public life.

H.B. Zardabi's first printed article was published in "Bakinski listok". An article published in the newspaper on February 26, 1872 (№9) was given under the

headline “Baku Chronicle. February 26 ”. The problems of Baku's socio-cultural life, the banality and boredom of events, the repertoire of concert troupes, the organization of literary evenings and the importance of the city's Muslim population benefiting from European civilization, especially the importance of involving children in education are mentioned in the article.

Key words: press, enlightener-democrat, newspaper, civilization, the Tatar language, education, public life, publisher, editor, printing house, chronicle.

ГУЛУ МАГЕРРАМЛИ

РЕЗЮМЕ
ГАСАН БЕК ЗЕРДАБИ И ГАЗЕТА «БАКИНСКИЙ ЛИСТОК»

Согласно исследованиям касательно истории печати первая газета в Азербайджане увидела свет в 1871 году. Несмотря на то, что выходивший на русском языке еженедельная газета «Бакинский листок» за свою короткую жизнь (1871-1872) издал всего 50 номеров, сыграл существенную роль в социально-культурной жизни Баку 70-х годов XIX века и стал своеобразной хроникой той эпохи. Занимательным фактом является то, что когда давали разрешение на издание газеты в Баку, считавшийся в то время окраиной царской России, было приемлемо печататься и на татарском (тюркском – Г.М.) языке тоже. Но в силу разных причин, в том числе из-за отказа типографии «Армянского человеколюбивого общества», где издавалась газета, печатать материалы на татарском языке на страницах газеты так и не появились новости на азербайджанском языке.

Издателем и редактором газеты «Бакинский листок» был коллега основоположника Азербайджанской национальной прессы, видного просветителя-демократа Гасан бека Зердаби учитель Бакинской Реальной Гимназии немец по национальности Христиан Цинк. Принимая во внимание этот факт можно утверждать, что тесные контакты Зердаби с Х. Цинком и его газетой сыграли определенную роль в возникновении идеи «Экинчи». Х. Цинк, питавший теплые чувства к местному населению, азербайджанцам называемым татарами, трудился ради активного участия их в социальной жизни города.

Первая изданная статья Г. Б. Зердаби увидела свет именно в газете «Бакинский листок». Статья, напечатанная 26 февраля 1872 года в 9-м номере газеты, носила заголовок «Хроника Баку. 26 февраля». В статье говорилось о проблемах в социально-культурной жизни Баку, о бессодержательности и скучности проводимых мероприятий, о проблемах связанных с репертуаром, приходивших в город концертных трупп, об организации литературных вечеров и отмечалось важность вдохновления мусульманского населения европейской цивилизацией, особенно привлечение детей к образованию.

Ключевые слова: печать, просветитель-демократ, газета, цивилизация, татарский язык, образование, социальная жизнь, издатель, редактор, издательство, хроника.

Ədəbiyyat siyahısı:

1.Zeynalzadə A. Azərbaycan mətbuatı və çar senzurası (1850-1905). Bakı, Elm, 2006.
2.Hüseynov Ş. Mətbu irsimizdən səhifələr. Bakı, Adiloğlu, 2007.
3.Hacıyeva L. Azərbaycanın rusdilli mətbuatıbnın tarixindən (1871-1918). Bakı, Elm və təhsil , 2017.
4.Гаджиева Л. Бакинский листок (1871-1872). Баку, Элм ве техсил, 2013.
5.Məlikov Həsən-bəy. Bakı salnaməsi. 26 fevral. “Bakinski listok”, 26 fevral 1872.
6.Məhərrəmli Q. Həsən bəy Zərdabinin ilk mətbu məqaləsi. “525-ci qəzet”, 21 iyul 2020-ci il.
7.Ахундова Э. Теория журналистики и современные проблемы периодической печати. Баку, Мутарджим, 2012.

Redaksiyaya daxil olma tarixi: 28.11.2020
Capa qəbul olunma tarixi: 02.12.2020
Rəyci: filologiya elmləri doktoru, professor Alxan Məmmədov capa tovsiyə etmişdir.

AFAQ RAMİZ qızı AĞAYEVA
filologiya elmləri doktoru, professor
e-mail: afag.agayeva 58@ gmail.com
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

KOMMUNİKASİYANIN QEYRİ-VERBAL ELEMENTLERİ : DURĞU İŞARƏLƏRİ

(Texniki ali məktəblərdə "Azərbaycan dilində ıışgüzar və akademik kommunikasiya" fənni üçün mühazirə materialı)

XÜLASƏ

Aristotel göstərirdi ki, Heraklitin əsərlərində durğu işarələrinin qoyulması çox böyük xidmət oldu. Çünki onlarsız oxucu oxuduğunun məna və mahiyyətini başa düşə bilmirdi.

Durğu işarələrini dilçilik ədəbiyyatlarında müxtəlif cür adlandırırlar:"yazılı nitqin konstitusiyası","punktuasiya","ikinci əlifba" və s..İlk durğu işarələrindən e.ə. 400 il əvvəl istifadə edilmişdir.Məşhur yunan alimi Aristofanın yazıya tətbiq etdiyi qrafik işarələr,əsasən, abzas və nöqtəni ifadə etmişdir.Nöqtənin 3 formasından istifadə edilirdi:tam nöqtə~ sətri yuxarısı üçün,ara nöqtə ~ orta hissə üçün və alt nöqtə ~ aşağı hissə üçün. Bu da nöqtə, 2 nöqtə,nöqtəli vergülün /bəzi qaynaqlara görə,indiki sual işarəsinin / funksiyasını daşıyırdı.Əgər nöqtə hərfin aşağı hissəsində qoyulurdusa,nöqtənin özünü ifadə edirdi.Orta hissəsində qoyulurdusa,vergülü ifadə edirdi.Üzərində qoyulduqda isə 2 nöqtəni əvəz edirdi.Orta əsrlərdə bütün yazı sistemi unuduldu.7~ci əsrdə Böyük Kralın sarayında Akademiya yaradıldı.Burada alimlər yeni durğu işarələri üzərində işləməyə başladılar.Həmin alimlər yeni sual işarəsi tərtib etdilər.Bu işarə intonasiyanı bildirirdi.Nöqtəli dalğavarı işarə ilə verilirdi.X1V əsrdə isə nida işarəsi meydana gəldi.Nida işarəsi əvvəllər sağa doğru meyil edən adi 2 nöqtəli xətdən ibarət idi. Bu nöqtələr xəttin üzərində qoyulurdu.

XV~XV1 əsrlərdə Ald Manutsi durğu işarələrini indiki səviyyəyə gətirib çıxartdı.Qədim Roma yazılarında sözlər arasına bəzən nöqtə qoyulmuş,bəzən də sarmaşıq yarpağı çəkilmişdir.Tədqiqatçıların fikrincə, bunlar tarixi durğu işarələridir.Eləcə də, Quranın istər əlyazma,istərsə də,çap nüsxələrində ayələr arasına nöqtə yerinə ulduz yaxud gül şəkli çəkilmiş və ya müəyyən rəqəmlər qoyulmuşdur.

Məqalədə həmçinin qədim türk yazılı abidələrində istifadə olunan durğu işarələrindən də bəhs edilir. Qədim türk yazısında "Kitabi~Dədə Qorqud"un Drezden nüsxəsindəki durğu işarələri barədə məlumat verilir.Azərbaycan dilində işlənən durğu işarələrinə rus dilinin təsiri haqda fikirlər söylənilir.Müasir dilimizdə işlənən 10 durğu işarəsi tarixilik və müasirlik prizmasından təhlil edilir.Yeri gəldikcə, nümunələr verilir.

Açar sözlər: kommunikasiya, durğu işarələri, nöqtə,vergül,nida.

Aristotelə görə, Heraklitin əsərlərində durğu işarələrinin qoyulması çox böyük xidmət oldu. Çünki onlarsız oxucu oxuduğunun məna və mahiyyətini başa düşə bilmirdi. Düzgün danışıb yazmaqda, fikri başqasına dəqiq çatdırmaqda, ümumiyyətlə, nitq mədəniyyətində durğu işarələri müstəsna əhəmiyyət kəsb edir. Durğu işarələri orfoqrafiya qaydaları kimi dil üçün olduqca vacib və əhəmiyyətlidir. Ona görə, həm orfoqrafiya qaydaları, həm də durğu işarələri "**yazılı nitqin konstitusiyası"** hesab olunur.

Müasir Azərbaycan dilində durğu işarələri tam şəkildə dilçiliyin **punktuasiya** adlı bölməsində öyrənilir. **Punktuasiya** latın mənşəli **(punktum)** söz olub, Azərbaycan dilində **nöqtə** mənasını ifadə edir.

Durğu işarələrinin yazıdan, əlifbadan sonra kəşf olunmasına baxmayaraq, dilçilikdə yazı qədər böyük əhəmiyyət kəsb edir. Buna görə də, əksər dilçilik ədəbiyyatlarında durğu işarələri bəşəriyyət üçün **ikinci əlifba** kimi qiymətləndirilir. \6, S.162\.

Durğu işarələri **kommunikativ** funksiya daşımaqla, yazılı nitqdə hərflərlə, müəyyən şərti işarələrlə göstərilə bilməyən məqamların ifadə olunmasına xidmət edir. **Şifahi nitqi yazıda dəqiq ifadə etmək üçün durğu işarələri insanların icad etdiyi ən yaxşı qrafik vasitədir.** Yalnız bir cür yazdığımız "hə" və "yox" sözlərini durğu işarələrinin köməyi ilə müxtəlif formalarda tələffüz edirik: Məsələn: Hə. Hə? Hə! Hə?! Hə,; Hə-; Hə:; Hə-; Hə;, Hə.... Göründüyü kimi, burada bir yazılışın 10 tələffüz variantı verilmişdir.

İlk durğu işarələrindən eramızdan 400 il əvvəl yaşamış məşhur yunan alimi, bizanslı Aristofan istifadə etmişdir. İstifadə olunan ilk durğu işarəsi nöqtə olmuşdur. Lakin həm Aristofanın, həm də onun müasirlərinin yazıda işlətdiyi qrafik işarələr indiki durğu işarələrindən məzmun və formaca fərqlənmiş, əsasən, **abzas və nöqtənin** ifadəsinə xidmət etmişdir.

Onlar sətrin yuxarısında **tam nöqtə**, ortada **ara nöqtə** və aşağıda **alt nöqtə** işlətmişlər. Bu üç nöqtə, daha doğrusu, eyni bir nöqtənin üç ayrı-ayrı yerdə qoyulması mahiyyətcə nöqtə, iki nöqtə, nöqtəli vergülü (bəzi qaynaqlara görə, indiki sual işarəsini) bildirir. Nöqtə hərfin aşağı hissəsində qoyulduqda nöqtənin özünü, orta hissəsində qoyulduqda vergülü, üzərində qoyulduqda isə iki nöqtəni əvəz edirdi. Lakin orta əsirlərdə bütün yunan yazı sistemi unudulur. VII əsrdə Böyük Kralın sarayında yaradılan akademiyada alimlər yeni durğu işarələri üzərində işləməyə başlayırlar. Onların tərtib etdikləri sual işarəsi tələffüzdəki intonasiyanı bildirmək üçün nöqtəli dalğavarı işarə ilə verilirdi: **~.** Yazıdakı nida işarəsi isə yalnız XIV əsrdə meydana gəlir. Əvvəllər nida işarəsi sağ tərəfə yönələn adi iki nöqtəli xətdən ibarət idi (nöqtələr xəttin üzərinə qoyulurdu). Yalnız XV-XVI əsrlərdə Ald Manutsi yazıdakı durğu işarələrini indiki vəziyyətə gətirib çıxarır.

Antik Roma yazılarında isə sözlər arasına bəzən **nöqtə** qoyulmuş, bəzən də **sarmaşıq yarpağı şəkli** çəkilmişdir ki, araşdırıcılar bunları da tarixi durğu işarələri

saymaqdadırlar. Qədim türk yazılı abidələri oxunandan bəri açıq-aydın məlumdur ki, dünyanın ən əski durğu işarələrindən biri qədim türk runik (Orxon-Yenisey) yazılarında sözləri bir-birindən ayırmaq üçün işlədilən qoşa nöqtə (:) olmuşdur. Yazıları ilk dəfə oxuyan V.Tomsenin göstərdiyi kimi, bu işarə nəinki söz arasında, həm də cümlənin və sətrin sonunda da qoyulur \4, s.7\. Musa Adilov göstərir ki, qədim türklər yazıda romb şəklində düzülmüş dörd nöqtədən, qara nöqtəni əhatə edən qırmızı çevrədən yaxud iki qara nöqtənin ətrafını bürüyən səkkizguşəli ilgəkdən və s. durğu işarəsi kimi istifadə edirdilər \2, s.210\. Maraqlıdır, həmin işarələrin əlamətlərinə "Kitabi-Dədə Qorqud"un XVI əsrdə köçürülmüş Drezden nüsxəsində rast gəlmək olur. Burada cümlələr bir-birindən **ləhn** "not" işarəsi ilə ayrılmışdır ki, alimlər buna ümumiləşmiş durğu işarəsi kimi yanaşırlar.

Ərəblərdə durğu işarələri haqqında aydın təsəvvürün olmaması sonralar ərəb yazısından istifadə edən başqa xalqlara, o cümlədən, türklərə də öz təsirini göstərmişdir.

İslami yazılarda bütün orta əsrlər ərzində heç bir durğu işarəsi işlədilməmişdir. Mətndə cümlələri bir-birindən ayırmaq üçün bəzi kəlmələrin, həmçinin əvvəla, əvvələn, birinci, saniya (ikinci), vəli (ancaq) və s. bu kimi sözlərin üstünə qısa bir xətt qoymaq da adi qayda hesab edilir. Bu isə qismən abzas və ya yeni sətirdən başlamanı əvəz edir.

Eyni zamanda, ərəb dilinə və üslubiyyatına xas "və" əvəzliyini göstərən ("vav") hərfinin işlənməsini də müasir baxımdan vergülün işlənməsi ilə müqayisə etmək olar.

Quranın istər əlyazma, istərsə də, çap nüsxələrində ayələr arasına nöqtə yerinə **ulduz**, yaxud **gül** şəkli çəkilmiş və ya müəyyən **rəqəmlər** qoyulmuşdur. Müasir **durğu işarələri** bir sistem olaraq, Avropada mətbəənin yayılması və kitab çapının inkişafı ilə ortaya çıxmışdır. XV-XIX yüzilliklər arasında formalaşmışdır. Bu sahədə italyan çapçısı Aldo Manutsinin (Aldus Manutius 1449-1515) əməyi ayrıca fərqləndirilməlidir. Məhz XIX yüzillikdən başlayaraq, çağdaş durğu işarələri sistemi Avropadan Şərq ölkələrinə, o cümlədən, Azərbaycana da keçmişdir.

Azərbaycan dilində durğu işarələrinin işlədilməsi, əsasən, **rus dilinin** təsiri ilə bağlıdır. Əlbəttə, rus dilində ilkin vaxtlarda durğu işarələri kəmiyyət etibari ilə azlıq təşkil etməklə yanaşı, bəsit formada olmuşdur. Hətta Lomonosovun durğu işarələri qaydalarında yalnız **tire**, **çox nöqtə** və **dırnaqdan** danışılmışdır \bax 8\.

Tədqiqatçıların fikrincə, Azərbaycanda durğu işarələrinin işlənmə tarixi təxminən 1830-cu illərdən başlayır və bu istiqamətdə ilk addımı Mirzə Kazım bəy (1802-1870) öz qrammatika kitablarında atmışdır. Professor Kamal Abdulla maraqlı mülahizə söyləyir: Mirzə Kazım bəy türk mətnlərində feili bağlamaların, feili sifətlərin, müxtəlif bağlayıcıların çox işlənməsini durğu işarələrinin və baş hərflərin yoxluğunun kompensasiya (əvəz) edilməsi kimi izah edir \bax 1\. Sonra M.F.Axundovun (1812-1878) əlifba layihələrində "əlamət" adı ilə durğu işarələrinə də toxunulmuşdur. Ancaq nöqtə, qoşa nöqtə, çox nöqtə, nida, sual, mötərizə, indiki

nöqtə və vergül əvəzinə ulduz (*), defis isə ilk dəfə "Əkinçi" qəzetində (1875-1877) geniş və sistemli şəkildə işlənmişdir \5, s.100-103, 200-230 və s.\.

Durğu işarələrinin işlənmə səbəbləri bunlardır:

1. Mətnin mənasını düzgün vermək üçün. Məsələn, mən belə bir cizgi filmini xatırlayıram. Filmdə durğu işarələrini əhəmiyyətsiz hesab edən şagirdə ana dili müəllimi tapşırıq verir: "Bir nəfərin edam edilib-edilməyəcəyi haqqında qərar çıxarmaq sənə həvalə edilib. Müəllim lövhəyə 3 söz yazır: asmaq olmaz bağışlamaq. Deyir ki, həmin adamın həyatı onun (şagirdin) bu sözlərdə durğu işarələrini necə qoymağından asılıdır. Şagird yenə də durğu işarələrinə etinasız yanaşır. "Orfoqrafik norma"ları öyrənmədən vergülü qoyur. Cümlə bu cür alınır: "Asmaq, olmaz bağışlamaq!" Müəllim işi elə qurur ki, şagird həmin şəxsin edam edildiyini görsün. Şəxsi edama aparırlar. Şagird orfoqrafik normanı öyrənməməyinin nə ilə nəticələnəcəyini görür. Ağlayıb, hakimlərdən 3 gün möhlət istəyir. Gecə-gündüz "Orfoqrafik norma" mövzusunu oxuyur və nəhayət, inamla lövhəyə doğru addımlayır. Ana dili müəlliminin yazdığı sözlərdə durğu işarələrini elə qoyur ki, şəxsi tezliklə həbsdən azad edirlər. "Asmaq olmaz, bağışlamaq!" Şagird kənardan bu prosesi müşahidə edir. Dərsi oxumaqla kimə isə həyat bağışlamış şagirdin sevincinin həddi-hüdudu yox idi".
2. Cümlənin sintaktik quruluşunu düzgün vermək üçün.
3. Nitqin ritmik-melodik axınını, vurğu, fasilə və s. vermək üçün.

Azərbaycan yazısında istifadə edilən durğu işarələri bunlardır: 1. nöqtə; 2. sual işarəsi; 3. nida işarəsi; 4. qoşa nöqtə; 5. nöqtəli vergül; 6. çox nöqtə; 7. vergül; 8. tire; 9. mötərizə; 10. dırnaq.

4. "müəllif durğu işarəsi". Əlbəttə, bəzən yazıçı və publisist müəlliflər fikri nəzərdə tutduqları kimi çatdırmaq üçün durğu işarələrindən "öz zövqlərinə uyğun" istifadə edirlər. Lakin bu halda həddi aşmaq, ifrata varmaq olmaz! Xüsusilə də, dünya üzrə Azərbaycan dilində internet yazışmalarının get-gedə daha da artması durğu işarələrinə özəl diqqət göstərilməsini tələb edir.

Nöqtə. tarixi və bu günü. Nöqtə durğu işarəsi kimi I minilliyin sonundan işlədilməyə başlamışdır. Hətta türk dilində durğu işarələrinə **nöqtələmə işarələri (noktalama işaretleri)** deyilməsi də elə bu özəlliklərdən irəli gəlir. Bu da durğu işarələri içərisində nöqtənin qədimliyi, daha geniş yayılması, bir sıra başqa durğu işarələrinin yaranmasında iştirakı və digər səbəblərlə bağlıdır.

"Nöqtə"nin yazıdakı əhəmiyyətini göstərmək üçün yazdığım bir "yumor"u burada nümunə gətirmək istəyirəm: Valideyn Azərbaycan dili müəllimindən soruşur:

– Oğluma niyə "2" yazmısınız?
– Çünki o, nöqtə haqqında heç nə bilmir.
– Eh, belə kiçik şeydən ötrü də uşağın xətrinə dəyərlər?!

Amma bu belə deyil, necə deyərlər," bir balaca boyu var, dam dolusu toyu var":

Müasir Azərbaycan ədəbi dilində bir durğu işarəsi kimi, nöqtənin əsas funksiyası mikro və makromətnlər (kiçik və böyük mətnlər) arasında sərhədi müəyyənləşdirməkdən ibarətdir. Nöqtədən, əsasən, nəqli və sakit intonasiya ilə deyilən əmr cümlələrinin sonunda istifadə edilir. Bundan əlavə:

1. İnternet ünvanları, saytların adları "domen" adlandırılan bir neçə elementdən ibarət olub, nöqtə ilə ayrılır. Məs.: **www.tqdk.gov.az** **www.edu.gov.az, www.socar.gov.az**, və s..

2. Rəsmi səciyyə daşıyan sənədlərdə – fərman, sərəncam, əmr, qanun, konstitusiyada və s. maddələr **(gəlinən nəticələr, verilən qərarlar, göstərilən müddəalar, icrası nəzərdə tutulmuş vəzifələr** və s.) müəyyən bir ardıcıllıqla verildikdə sıra məzmunu bildirən ərəb rəqəmlərindən sonra nöqtə qoyulur.

3. Müşahidələr göstərir ki, bir çox hallarda şagirdlər, tələbələr və s. əməli yazı növlərindən istifadə zamanı nöqtədən qaydalara uyğun şəkildə istifadə etmir, yanlışlığa yol verirlər. Çünki **ərizə, rəy, akt, tərcümeyi-hal, izahat, raport, hesabat** və s. kimi əməli yazı növlərindən istifadə edərkən müvafiq olaraq, sətrin ortasında yazılan **ərizə, rəy, akt, tərcümeyi-hal, izahat, raport, hesabat** sözlərindən sonra nöqtə qoyulması hallarına rast gəlinir. Əslində, **rəy, hesabat, tərcümeyi-hal, akt** və s. sözlərdən sonra nöqtə qoymaq olmaz.

4. Təqvimi bildirmək üçün gün, ay və il bildirən müəyyən miqdar saylarının arasında (əslində, sıra bildirən) da nöqtə qoyulur. Məs.: **12.12.12, 01.01.91, 18.05.1992, 12.11.2015, 28.02.2016, 26.03.2016** və s..

5. Kəsr saylarını ifadə etmək üçün də bəzi hallarda tamı bildirən saydan sonra nöqtə qoyulur. Bu zaman nöqtə işarəsi eyni məqamda və vəzifədə işlənən vergülün ekvivalenti kimi işlənir. **Məs.: 1.5 AZN, 22.5 AZN, 3.7 AZN** və s \bax 4\.

Vergül. **Tarixi və bu günü.** Vergül, fransız sözüdür, "aşağısı qatlanan" deməkdir. Apostrof isə yunan sözüdür, "yuxarısı qatlanan" mənasını əks etdirir. Deməli, sözlər hər iki işarənin zahiri forması ilə bağlı yaranıb.

İlk vergül XV-XVI əsrlərdə Venesiya naşiri (kitab çap edən) Aldo Manutsi tərəfindən işlədilmişdir \7, s.430\. İrəlidəkinə əlavə olaraq deyə bilərik ki, vergül termini fransızca virgule – latın. virguka sözündən olub, "çubuq, incə budaq" sözündən götürülmüşdür. Şəmsəddin Saminin "Qamusi-Türki" əsərində göstərildiyi kimi, XIX yüzillikdə vergül anlayışı türkcədə ərəb köklü **fasilə** (fasıla) sözü ilə ifadə edilmişdir \bax 3, s.47\. Bu işarə nöqtənin əksinə olaraq, davamlılıq, sadalama məzmununu ifadə edir. Maraqlıdır ki, Avropa dillərində durğu işarələri daha az işlənir. Məsələn: dünyanın inkişaf etmiş ədəbi dillərindən olan ingilis dilinin yazısında vergülə nadir hallarda rast gəlmək olur. Vergüldən, onun işlənməsi fonetik baxımdan zəruri olan hallarda istifadə edirlər.

Azərbaycan dilində isə vergülün 54 işlənmə yeri göstərilir və hər bir halda onun qoyulması tələb edilir.

Vergül cümlə sərhədi ilə bağlı deyil, cümlə daxilində işlənən durğu işarəsidir. Vergülün əsas funksiyaları aydındır və əksərən yazıda ondan düzgün istifadə edilir.

Müşahidələr göstərir ki, çətinliklər daha çox feili bağlama tərkiblərindən, xüsusiləşmələrdən sonra vergülün işlənməsi ilə bağlıdır.

Nöqtəli vergül. Nöqtəli vergül – nöqtə ilə vergül arasında orta mövqe tutan, nöqtədən az, vergüldən çox fasilə tələb edən bir durğu işarəsidir.

Qoşa nöqtə. Qoşa nöqtəyə (:) bəzən iki nöqtə yaxud da alt-üst nöqtə deyilir. Qoşa nöqtə ayrıca funksiyanı yerinə yetirməklə yanaşı, eyni zamanda, aydınlaşdırıcı keyfiyyətə malikdir.

Çox nöqtə (üç nöqtə). Yan-yana qoyulan üç nöqtə bəzən çox nöqtə də adlanır, ancaq bu çoxluqda üç nöqtənin (...) göstərilməsi daha geniş yayıldığı üçün terminin **"üç nöqtə"** kimi verilməsi daha məntiqlidir. Cümlə və ya sözün bitmədiyini, düşüncənin yarımçıq kəsildiyini, mətndə hansısa yerlərin buraxıldığını, dayanılaraq ara verildiyini və s. bildirmək məqsədi ilə işlədilən durğu işarəsidir. Yazılı nitqdə çox nöqtənin işlənməsi müxtəlif səbəblərlə bağlıdır. Cümlənin sonunda qoyulan çox nöqtə fikrin bitmədiyini, davam etdirilə biləcəyini göstərir. Fikrin kəsilməsi bir neçə səbəbdən ola bilər: onu davam etdirməyi ya müəllif lazım bilmir, ya gizli saxlamaq məqsədi ilə demir, ya da elə sözlər olur ki, onun deyilməsi cəmiyyət üçün məqbul deyildir, ya yaddan çıxmış olur, ya fikir başqası tərəfindən kəsilir, ya da natiq həyəcanlı olduğu üçün fasilələrlə danışmalı olur.

Bəzən emosional nitqdə müəllif fikri qəsdən yarımçıq saxlayır, hadisələrin sonrakı inkişafını oxucu zövqünün estetik duyumuna buraxır. Bu halda fikrin ifadəsi daha obrazlı, daha canlı səslənir. Məsələn, İ.Şıxlının "Namərd gülləsi" adlı hekayəsi bu cümlələrlə bitir:

Kərəm qollarının və dizlərinin üstündə sərinlik hiss etdi. Başa düşdü ki, kişinin bədəni soyuyur. Amma üzünə zillənmiş solğun gözlərinin dərinliyində bir intizar var...

Əlini astaca naqanının qoburuna apardı. Barmaqları əsə-əsə düyməni açdı...

Yazıçının hekayəni kağız üzərində bu şəkildə bitirməsinə baxmayaraq, sonda qoyulmuş üç nöqtənin arxasında gizlənmiş fikir, onun davamı, kişinin gözündəki intizarın səbəbi, hadisələrin sonrakı inkişafı hələ də oxucunun təfəkküründə canlanır, davam edir, elə hekayənin sonu da oxucunun təfəkküründə yekunlaşır.....\4, s.107\.

DEFİS. Defis işarəsini ilk dəfə ingilis dilçisi D.Xart XVI əsrdə kəşf etmişdir. Latınca "ayırma" mənasında olan "divisio" (diviziya) sözündəndir. Hərbi termin kimi işlədilən "diviziya" sözü də buradandır. Defislə yazılan sözlər "yarıbitişik yazılan sözlər" hesab edilir.

Əksər hallarda **tire** ilə **defis** qarışıq salınır. İstifadəsində bir sıra çətinliklər meydana çıxır.

Tire **defisdən** bir sıra xüsusiyyətlərinə görə fərqlənir:

1. Tire durğu işarəsi olduğu halda, defis durğu işarəsi deyil.
2. Tire həcmcə defisdən daha böyükdür.

3. Tire sintaktik, defis isə morfoloji anlayışdır. Tiredən daha çox sintaktik kateqoriyalarla, defisdən isə mürəkkəb sözlərin yazılışı və bəzi texniki məqsədlərlə bağlı olaraq istifadə edilir.

1) Tərkibində **vitse** hissəciyi olan sözlər defislə yazılır: **vitse – admiral;**

2) **Nömrə, faiz, paraqraf** və s. kimi xüsusi işarəsi olan sözlərdən sonra (müvafiq olaraq №, %, § və s.) leksik və qrammatik şəkilçi gələrsə, onlar arasında defis işarəsi qoyulur. Məsələn:

Şəhər əhalisinin xüsusi çəkisi **75%-dir**. Yerli isveçrəlilərin **65%-i** alman, **18%-i** fransız, **10%-i** italyan dilində danışır. Ölkə əhalisinin **60%-dən** çoxu və sənaye məhsulları istehsalının **75%-ə** qədəri Havr – Marsel xəttindən şərqdə yerləşir. (Coğrafi ədəbiyyatdan).

3) Bəzi hərbi rütbələr defislə yazılır. Məsələn: **general-mayor;**

4) İki və daha artıq sözün birləşməsindən əmələ gələn və ölçü vahidlərini ifadə edən isimlər defislə yazılır. **kilovat-amper, kilovat-amper-saat, kiloqram-atom, kiloqram-qüvvə** və s..

Tire. Defisdən (-) bir az uzun olan **tire** (–) fransızca **tirer** "dartmaq, çəkmək" sözündəndir. Düşünürəm ki, türk dilindəki "tren" qatar, yəni vaqonları bir-birinə bağlayan, bir-birinin ardınca çəkən qurğu da bu sözdəndir. Defis (-) iki sözü bir-birinə yaxınlaşdırıb, onların bir mürəkkəb söz kimi dərk olunmasına xidmət edir. Tire (–) isə tərəfləri bir-birindən ayırır və onların ayrı-ayrılıqda anlaşılmasını "təmin edir".

Mötərizə. Dilimizdə mötərizənin müxtəlif şəkilləri mövcuddur: [ ] - düz, ( ) – yayşəkilli, { } -bucaqlı.

Vaxtilə mötərizə kimi, cüt işlənən iki əyri xətdən (//) istifadə edilmişdir. Hətta punktuasiyadan bəhs edən dilçilik ədəbiyyatlarında da mötərizə ilə bağlı verilən nümunələr iki əyri xətt (daxilində) vasitəsilə verilmişdir.

Müasir Azərbaycan dilində mötərizədən aşağıdakı məqamlarda istifadə edilir:

1) Müxtəlif ədəbiyyatlarda, lüğətlərdə terminlərin izahı zamanı mötərizədən isitfadə oluna bilər. Məsələn: Abzas **(rusca абзац).**

2) Müxtəlif elmi ədəbiyyatlarda - kurs, layihə işlərində, magistr dissertasiyalarında, monoqrafik tədqiqatlarda, məqalə, dərslik və vəsaitlərdə ayrı-ayrı şəxslər tərəfindən verilən sitatların müəllifi, fikrin mənbəyi, kitab və jurnalların texniki göstəriciləri, istifadə edilmiş ədəbiyyatın sıra nömrəsi, səhifəsi və s. müvafiq olaraq mötərizədə verilir. Qəbul olunmuş qaydaya görə, belə məqamlarda həm adi, həm də kvadrat mötərizədən istifadə etmək mümkündür. Məsələn: (Qeyd: Bu nümunələr şərti xarakter daşıyır.)

3) Ali məktəbə qəbul imtahanlarında, ümumiyyətlə, testlə verilən istənilən imtahanda variantları göstərmək üçün müvafiq hərfdən, bəzən də rəqəmdən sonra yarımmötərizə qoyulur. Məsələn:

572) **Hansı cərgədə ədəbi norma gözlənilmişdir? (orfoepik-orfoqrafik).**

A) qədeş-qərdeş

B) uşax - uşaq
C) sənnən - səndən
D) gəlif - gəlip
E) nöşün – nəşə

Dırnaqlar. Adətən, yazıda dırnaq işarəsinin müxtəlif şəkillərindən (“ ” (vergüllü dırnaq), " " (düz dırnaq), « », < > (bucaqlı dırnaq) istifadə edilir.

Nöqtə (.), vergül (,), nöqtəli vergül (;), iki nöqrə (:) və tire (-) işarələri dırnaq işarəsindən əvvəl deyil, sonra qoyulur. Məsələn: Atası onun vərəqləri cırılmış birinci sinif kitabındakı hekayələri höccələyərək oxuduğunu gördükdə alnından öpmüş və iftixarla: "Bu uşaqdan bir şey çıxacaq" – demişdi. (M.İbrahimov).

Yeri gəlmişkən, onu da deyək ki, açılan və bağlanan mötərizədən əvvəl nöqtə, vergül, nöqtəli vergül, iki nöqtə və tire işarələri qoyulmaz. Bu işarələr bağlanan mötərizədən sonra qoyulur.

ƏDƏBİYYAT

1.Abdulla K.Azərbaycan dilində sadə cümlə sintaksisinin nəzəri problemləri.Bakı,Elm,1983.

2.Adilov M.Azərbaycan dilinin paleoqrafiyası və tarixi orfoqrafiyası.fil.elm.dok.dis.,Baki,2003,351 s..

3.Azərbaycan klassik ədəbiyyatında işlənilən adların və terminlərin şərhi.Tərtib ed.A.M.Babayev.Bakı ,Maarif,1993.

4.Dumanoğlu V.,Əsgər İ.Müasir Azərbaycan ədəbi dilində durğu işarələri.Bakı,Elm bə təhsil,2016,182 s.

5.``Əkinçi` qəzeti\1875~1877.Tam mətn\Ə.Mirəhmədovun redaktəsi ilə\.Bakı, Azərnəşr1979,464 s.

6.Yusifov M.Əlifba yazı mədəniyyətinin əsasıdır\\Nitq mədəniyyəti məsələləri.B.1992,s.161~163.

7.Сто великих идей,изменивших мир.Москва,Вече,2002.

8.Самин Д.Сто великих научных открытий.Москва,Вече,2002,480 с.

А.Р.АГАЕВА

НЕВЕРБАЛЬНЫЕ ЭЛЕМЕНТЫ ОБЩЕНИЯ: ПУНКТУАЦИЯ.
(Лекционный материал “Деловое и академическое общение на азербайджанском языке” в технических вузах)

РЕЗЮМЕ

Аристотель показал, что использование знаков препинания в произведениях Гераклита было большой услугой. Потому что без них читатель не мог понять смысла и сути прочитанного.

В лингвистической литературе пунктуацию называют по-разному: «состав письменной речи», «пунктуация», «второй алфавит» и т. Д. Он

использовался 400 лет назад. Графические символы, использованные известным греческим ученым Аристофаном в письменной форме, в основном означали абзацы и точки. Использовались 3 формы точек: точка ~ для верхней части строки, средняя точка ~ для середины и нижняя точка ~ для нижней части . Эта точка, две точки, выполняла функцию точки с запятой (согласно некоторым источникам, текущий вопросительный знак). Если точка была помещена внизу буквы, это означало саму точку. Если она была размещена посередине, это означало запятую. В VII веке во дворце Великого Короля была создана академия. Здесь ученые начали работать над новыми знаками препинания. Эти ученые разработали новый вопросительный знак, означающий интонацию. Восклицательный знак обычно состоял из обычной 2-точечной линии, указывающей вправо. Эти точки были поставлены на линию. В 15 и 15 веках Альд Манутси довел пунктуацию до современного уровня. В древнеримских письменах иногда ставились знаки препинания, а иногда - плющ. Исследователи считают, что это исторические знаки препинания, а также стихи в рукописях и печатных копиях Корана. вместо звезды или цветка рисуется точка или размещаются определенные фигуры.

В статье также обсуждаются знаки препинания, используемые в древнетюркских письменных памятниках. Древнетюркская письменность дает информацию о знаках препинания в дрезденской версии "Китаби ~ Дада Горгуд". Высказываются мнения о влиянии русского языка на знаки препинания, используемые в азербайджанском языке. 10 знаков препинания, используемых в нашем современном языке, анализируются через призму истории и современности.

Ключевые слова: сообщение, пунктуация, точка с запятой, восклицательный знак**.**

A.R.AGAYEVA

RESUME

NON-VERBAL ELEMENTS OF COMMUNICATION: PUNCTUATION
(Lecture material "Business and academic communication in the Azerbaijani language in technical universities")

Aristotle showed that the use of punctuation marks in the works of Heraclitus was a great service. Because without them, the reader could not understand the meaning and essence of what he was reading.

Punctuation is variously called in the linguistic literature: "constitution of written speech", "punctuation", "second alphabet", etc. It was used 400 years ago. The graphic symbols used by the famous Greek scientist Aristophanes in writing mainly represented paragraphs and dots. . This dot, 2 dots, had the function of a semicolon

(according to some sources, the current question mark). If the dot was placed at the bottom of the letter, it meant the dot itself. In the 7th century, an academy was established in the palace of the Great King. Here, scientists began to work on new punctuation marks. These scholars developed a new question mark. This sign signified intonation. The exclamation mark used to consist of the usual two-dotted line tilted to the right. These points were placed on the line.
In the 15th and 15th centuries, Ald Manutsi brought punctuation to its present level. In ancient Roman writings, words were sometimes punctuated and sometimes ivy was drawn. Researchers believe that these are historical punctuation marks, as well as verses in both manuscripts and printed copies of the Qur'an. a dot is drawn instead of a star or a flower, or certain figures are placed.

The article also discusses the punctuation marks used in ancient Turkish written monuments. Ancient Turkish writing provides information about the punctuation marks in the Dresden version of "Kitabi ~ Dada Gorgud". Opinions are expressed about the influence of the Russian language on punctuation marks used in the Azerbaijani language. 10 punctuation marks used in our modern language are analyzed through the prism of history and modernity.
Key words: message, punctuation, semicolon, exclamation mark.

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: Filologiya elmləri doktoru, professor Kamil Bəşirov
tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL DƏNZİYEVA
Lənkəran Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru,dosent
General Həzi Aslanov xiyabanı
konuldenziyeva@mail.ru

AZƏRBAYCAN FOLKLOR MATERİALLARINDAKI BÜTÖV VƏ YARIMÇIQ CÜMLƏLƏRDƏ RASİONAL FİKRİN İFADƏ STRUKTURLARI

Xülasə

Azərbaycan folklor materialları rasional fikrin rəngərang ifadə strukturlarına malik bütöv və yarımçıq cümlələrlə zəngindir. Bu nitq parçalarının toplanılıb araşdırılması mədəniyyət tariximizin öyrənilməsi baxımından çox əhəmiyyətlidir.Bütöv cümlələrdə fikri ifadə etmək üçün lazım olan bütün üzvlər iştirak edir. Belə cümlələrdə mətnin köməyi, situasiya və intonasiya ilə hər hansı bir üzvü təsəvvür və ya bərpa etməyə ehtiyac olmur. Bütöv cümlələr təzə cümlə tipi deyil. Sadə cümlənin əsas növləri cüttərkibli və təktərkibli cümlələrin tam formasıdır. Başqa sözlə, cüttərkibli və təktərkibli cümlələrin heç bir üzvü buraxılmadıqda onların bütöv formaları yaranmış olur. Bütöv cümlələr ikinci dərəcəli üzvlərin iştirakına görə müxtəsər və geniş olur. Müxtəsər bütöv cümlələr ya hər iki baş üzvün iştirakı ilə, ya da baş üzvlərdən birinin iştirakı ilə yaranır. Geniş bütöv cümlələr baş üzvlərlə yanaşı ikinci dərəcəli üzvlərin iştirakı ilə yaranır. Belə cümlələrdə danışan şəxs hər hansı bir hadisənin icra zamanını, yerini, səbəbini, icra vəziyyətini, dərəcəsini, obyektini və s. qeyd edir.

Yarımçıq cümlələr isə bir və ya bir neçə üzvü buraxılan, lakin mətnə, situasiyaya, cümləni təşkil edən üzvlərin forma və məzmununa əsasən asanlıqla bərpa oluna bilən cümlələrdir. Folklor materiallarında yarımçıq cümlələrə daha çox dialoqlarda rast gəlinir. Belə cümlələr nitq prosesində təkrara yol verməmək, fikri daha aydın, sürətlə və emosional şəkildə ifadə etmək məqsədilə işlədilir. Eləcə də bu tipli cümlələr qurularkən bir sıra üzvləri ixtisar edilir və zəruri rasional fikir ifadə edilən üzvlər saxlanılır. Yarımçıq cümlələr iki növə bölünür: mətni yarımçıq cümlələr, situativ yarımçıq cümlələr. Mətni yarımçıq cümlələr nitq prosesində hər hansı bir üzvü buraxılan, lakin mətnin əvvəlki və ya sonrakı cümlələri əsasında buraxılmış üzvləri bərpa və təsəvvür edilə bilən cümlələrdir. Situativ yarımçıq cümlələrdə isə situasiya təsvir edilir. Folklor materiallarında rast gəldiyimiz situativ yarımçıq cümlələr həm monoloji, həm də dioloji nitqdə özünü göstərir. Monoloji nitqdə, əsasən təkrara yol verməmək, fikri yığcam, təbii, canlı şəkildə ifadə etmək məqsədilə belə cümlələrdən istifadə olunur.Bunların toplanılıb araşdırılması tarixi sintaksisə zəngin material verəcəkdir.

Açar sözlər:cümlə, bütöv cümlə, yarımçıq cümlə, rasional fikir

Azərbaycan folklor materiallarındakı cümlə strukturları xalqımızın milli mədəniyyətini özündə əks etdirən tonik, ritmik melodik ahəngdarlığa malik nitq parçalarıdır. Bu nitq parçalarının toplanılıb araşdırılması mədəniyyət tariximizin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Tədqiqata cəlb etdiyimiz bütöv və yarımçıq cümlələr də, belə nitq parçalarından olub, rasional fikrin rəngərang ifadə strukturlarına malikdir.

Tərkibində baş və ikinci dərəcəli üzvlərin işlənib-işlənməməsinə, buraxılıb buraxılmamasına görə sadə cümlələr bütöv və yarımçıq olmaqla iki qrupa bölünür. Bütöv cümlələrdə rasional fikri ifadə etmək üçün lazım olan bütün üzvlər iştirak edir. Belə cümlələrdə mətnin köməyi, situasiya və intonasiya ilə hər hansı bir üzvü təsəvvür və ya bərpa etməyə ehtiyac olmur. Məsələn: Dünya malı dünyada qalacaq. (Atalar sözü) Nərbala meydandan çıxdı, bir dalda yerə çəkilib tükü yandırdı. (Ağ atlı oğlanın nağılı) Bundan sonra İbrahim ata hərgün kişmiş verirdi. (Qara at nağılı) Cəllad Qasımın Tahir Mirzəyə rəhmi gəlib onu öldürmədi. (Tahir-Zöhrə dastanı)

Tut ağacı qırıldı,
Dibində su duruldu.
Hamı atalı oldu,
Mənim boynum buruldu.(Bayatı)-nümunələrdəki cümlələrin hamısı bütöv cümlələrdir.

"Bütöv cümlələr təzə cümlə tipi deyil. Sadə cümlənin əsas növləri cüttərkibli və təktərkibli cümlələrin tam formasıdır. Başqa sözlə, cüttərkibli və təktərkibli cümlələrin heç bir üzvü buraxılmadıqda onların bütöv formaları yaranmış olur.(4,195)

Bu xüsusiyyətlərə malik bütöv cümlələrə folklor materiallarında geniş təsadüf olunur. Məsələn: Bir gün Əhmədi Çekkaşı padşah qonaq çağırdı. (Əhmədi Çeçkaş nağılı) Sübh namazında qarı qılıncı əlinə alıb, oğlanların otağına gəldi, qızlarını oğlanlar hesab edib başlarını kəsdi, yenə qayıtdı. (Üç qardaş nağılı) Qulaq gündə təzə söz eşitməsə kar olar. (Atalar sözü) -cümlələri cüttərkibli; Atdan düşüb eşşəyə minməzlər.(Atalar sözü) Bostançının kar vaxtıdır.(Atalar sözü) Malı malla ölçərlər, canı canla.(Atalar sözü) Günlərin bir günü idi.(Qara at nağılı) - cümlələri isə təktərkibli bütöv cümlə strukturlarıdır.

Bütöv cümlələr ikinci dərəcəli üzvlərin iştirakına görə müxtəsər və geniş olur. Müxtəsər bütöv cümlələr ya hər iki baş üzvün iştirakı ilə, ya da baş üzvlərdən birinin iştirakı ilə yaranır. Məsələn: Hacıleylək göyə qalxdı. Tülkünün bir mənzili var idi. (Tülkü baba və hacıleylək nağılı) Səhər çağı idi. (Çil madyan nağılı) Kökəldin? Qoy canı qurtarsın. (Şəms-Qəmər nağılı) Mənim sənə yazığım gəlir. (Üç qardaş nağılı)

Geniş bütöv cümlələr baş üzvlərlə yanaşı ikinci dərəcəli üzvlərin iştirakı ilə yaranır. Belə cümlələrdə danışan şəxs hər hansı bir hadisənin icra zamanını, yerini, səbəbini, icra vəziyyətini, dərəcəsini, obyektini və s. qeyd edir. Məsələn: Padşah vəzirin tədbirini bəyənmədi.(Barxudranın nağılı) Abbas Pəri xanımla əltəmən olub ayrıldı. Nökərlər Abbası Batman Qılıncın məclisinə apardılar. (Abbas-Gülgəz

dastanı) O saat qız qıçını bağlayıb axsaya-axsaya yeridi. (Xan Çoban dastanı) Ağıllı adam yüksəkdən danışmaz. (Atalar sözü)

"Mübtədası I və II şəxslərdə olub, üslubi məqamla əlaqədar buraxılmış olan cümlələr də bütöv sayılır. Mübtədanın buraxılması ilə yaranan yarımçıqlıq III şəxsə aiddir."(4,196)

Folklor materiallarında belə cümlələrə də geniş şəkildə rast gəlinir. Məsələn: - Gəldim, padşah qızı, gəldim. (Barxudarın nağılı)

Bakılıyam, bakılı,
Başımda var kəkülüm.(Toy mahnısı)

Əmimoğlu, sənmisən?
Sən məni bəyənmirsən?
Eləsinə gedərəm,
Sən onun nökərisən.(Halay mahnısı)

Qaynanam öləndə üç gün ağlaram,
Şiş götürüb dabanımı dağlaram,
Lənkəran sayağı dingə bağlaram. (Toy nəğməsi)

Beləliklə, bütöv cümlələrdə rasional fikri ifadə etmək üçün lazım olan bütün cümlə üzvləri iştirak edir.

Yarımçıq cümlələr isə bir və ya bir neçə üzvü buraxılan, lakin mətnə, situasiyaya, cümləni təşkil edən üzvlərin forma və məzmununa əsasən asanlıqla bərpa oluna bilən cümlələrdir. Folklor materiallarında yarımçıq cümlələr daha çox dialoqlarda işlənir. Məsələn:

Meytər bir gün dedi:

- Siman sən böyüksən, yoxsa Gül?

Dedi:

- Əlbəttə, mən (Gül Simana neylədi? nağılı)- buraxılmış üzvün əvvəlki cümlədə işlənməsi belə cümlələrin xarakterik xüsusiyyətidir.

"Yarımçıqlıq anlayışı – bu və ya digər üzvün buraxılması sadə və mürəkkəb, cüttərkibli və təktərkibli, müxtəsər və geniş olmaqla hər cür cümlələrə aiddir. Bütövlük kimi, yarımçıqlıq da üzvlənən cümlələrin xüsusiyyətidir. Çünki burada bu və ya digər üzvün buraxılmasından, mətnə, situasiyaya əsasən asanlıqla bərpasından söhbət gedir. Həm də buraxılma yalnız baş üzvlərə deyil, eyni dərəcədə ikinci dərəcəli üzvlərə də aiddir."(4,196)

Qeyd etdiyimiz kimi, folklor materiallarında bu xüsusiyyətləri daşıyan yarımçıq cümlələrə geniş təsadüf edilir. Belə cümlələr nitq prosesində təkrara yol verməmək, fikri daha aydın, sürətlə və emosional şəkildə ifadə etmək məqsədilə işlədilir. Eləcə də bu tipli cümlələr qurularkən bir sıra üzvləri ixtisar edilir və zəruri rasional fikir ifadə edilən üzvlər saxlanılır. Məsələn:

Cəllad kəndiri hazırlayanda bənna dedi:

-Padşah sağ olsun günah məndə də deyil.

Padşah dedi:

- Bəs kimdədi?

- Bənna dedi:

-Şəyirdimdə. (Loğmanla şəyirdi nağılı) - nümunəsindəki yarımçıq cümlədə mübtəda ixtisar edilmiş və rasional fikir xəbərlə ifadə edilmişdir. Həmçinin bu cümlə fikri emosional şəkildə ifadə etdiyindən xəbərlik şəkilçisi ellipsisə uğramış və cümlənin sərhədini intonasiya müəyyən etmişdir.

"Yarımçıq cümlələr şifahi nitq üçün daha xarakterik olmaqla bərabər, bədii ədəbiyyatda, xüsusən dialoqlarda və qismən təsvirlərdə işlənir. Yarımçıq cümlələrin dilimizdə işlənən ən əsas növü dialoqun qarşılıqlı replikalarında ibarət yarımçıq cümlələrdir."(1,279) Şifahi nitq nümunələri olan folklor materiallarında, xüsusən dastan və nağıllarımızda surətlərin dilində işlənən belə yarımçıq cümlələrə geniş rast gəlinir. Məsələn:

Məhəmməd gəldi padşahın yanına getməyini söylədi.

Padşah dedi:

- Yaxşı yol. İndi mənnən nə istəyirsən?

Dedi:

- Qara atı. (Şahsonqar nağılı)

Dialoqlarda işlənən belə cümlələrin əksəriyyətində yarımçıqlıq təkrar olunmayan sözlərin əvvəlki cümlələrdə işlənməsi ilə bağlıdır. Folklor materiallarında təsadüf edilən yarımçıq sadə cümlələr də təktərkibli və cüttərkibli olur. Bu tipli cümlələrdə də yarımçıqlıq bu və ya digər üzvlərin buraxılması ilə bağlıdır.Məsələn:

Keçəl getdi darğanın xırmanına, dedi:

- Ay darğa, köpəyoğlu, dünən darvazadan boylanan kim idi?

- Doğma dayın idi. (Noxudu keçəl nağılı) - cüttərkibli yarımçıq cümlədir.

Vəzir qabağa keçib dedi:

- Padşahın kimə acığı tutub?

Kişi cavab verdi:

- Keçələ. (Daş üzük nağılı) - cümləsi isə təktərkibli yarımçıq cümlədir.

Nitq prosesində yarımçıq cümlələr ünsiyyətə tam xidmət edir, ona görə ki buraxılmış üzvlərin mənası mətn, situasiya və cümlədə işlənən üzvlər vasitəsi ilə asanlıqla dərk oluna bilir. Buna görədə belə cümlələr mətnlə, situasiya ilə sıx bağlı olur. Əgər mətn və ya situasiya şəraiti olmasa, yarımçıq cümlələr bitkin fikir ifadə edə bilməz və mənası anlaşılmaz. Məsələn:

Qazı soruşdu:

- Neçəyə deyirsən?

Keçəl dedi:

-İki yüz tümənə. (Keçəllə qazının nağılı) - göründüyü kimi, mətn olmasa bu yarımçıq cümlədə söhbətin nədən getdiyi anlaşılmaz. Bu baxımdan yarımçıq cümlələr iki növə bölünür: mətni yarımçıq cümlələr, situativ yarımçıq cümlələr.

Mətni yarımçıq cümlələr nitq prosesində hər hansı bir üzvü buraxılan, lakin mətnin əvvəlki və ya sonrakı cümlələr əsasında buraxılmış üzvləri bərpa və təsəvvür edilə bilən cümlələrdir. Məsələn:

Yenə padşah iki dəfə dedi:

- Keçəl nə istəyirsən?

- Padşahın sağlığını. (Daş üzük nağılı)

Adın nədir?

- Dərviş.

Pul ilə olur hər iş,

Pulun vardır giriş,

Pulun yoxdur sürüş. (Atalar sözü) - birinci yarımçıq cümlədə mübtəda ilə xəbər, ikincisində isə mübtəda buraxılmışdır və birinci cümlədə əvvəlki, ikinci cümlədə isə sonrakı cümlələr əsasında buraxılmış üzvləri bərpa etmək olar. Həmçinin burada da rasional fikir mövcud üzvlər vasitəsilə ifadə olunmuşdur.

Situativ yarımçıq cümlələrdə isə buraxılmış üzvü situasya, şərait, mimika və jestlərlə müəyyənləşdirmək olur.

"Mətni və situativ yarımçıq cümlələr arasında o qədər də kəskin sərhəd qoymaq olmaz, çünki bədii əsərdə mövcud situasiya təsvir edilir və nəticədə mətnlə situasiya birləşmiş olur."(4,200)

Folklor materiallarında rast gəldiyimiz situativ yarımçıq cümlələr həm monoloji, həm də dioloji nitqdə özünü göstərir. Monoloji nitqdə, əsasən, təkrara yol verməmək, fikri yığcam, təbii, canlı şəkildə ifadə etmək məqsədilə belə cümlələrdən istifadə olunur. Məsələn: Mələk xanım çıxdı şəhərdən, üz qoydu çöllü-bəri-biyabana. Neçə müddət yol getdi, gəlib çatdı bir şəhərə. Atını çəkib karvansarada bağladı, düşdü şəhər içinə gəzməyə. Gəlib çatdı çayçı dükanına. Girib bir o yana, bir bu yana baxdı, gördü ki, burada hər rəng pəhləvan var. Dinməyib başını saldı aşağı. Çay gətizdirdi, içib bir xeylaq oturandan sonra durub getdi öz mənzilinə, yıxılıb yatdı. (Qara vəzir nağılı) - cümlələrin mübtədası olan Mələk xanım yalnız birinci cümlədə işlənmiş, sonrakı cümlələrdə yığcamlıq xatirinə buraxılmışdır.

Dioloji nitqdə də yarımçıq cümlələrə geniş təsadüf olunur. Məsələn:

- Adın nədir?

- Nökər.

- Niyə durmusan bekar?

- Aç qapını, ört qapını! (Atalar sözü)

Məhəmməd pulları yığıb qızın yanına gəldi.

Qız sual verdi:

- Məhəmməd, ceyran üçün nə qədər pul verdilər?

- Min tümən. (Avçı Məhəmməd nağılı)

Qeyd edək ki, yarımçıq cümlələr elliptik cümlələrə bənzəsələr də özünəməxsus müəyyən xüsusiyyətləri ilə onlardan fərqlənir."Yarımçıq cümlənin bütün növlərində müəyyən üzv buraxılır. Lakin elliptik cümlələrdəki "buraxılma" ilə digər yarımçıq

cümlə növlərindəki "buraxılma" bir-birindən əsaslı şəkildə fərqlənir. Yarımçıq cümlələrdə buraxılmış üzv özündən əvvəlki və ya sonrakı cümlələrdə və ya cümlənin mövcud tərkib hissələrində olur, elliptik cümlələrdə isə ya mətnin, ya da cümlənin ümumi məzmununa görə müəyyən edilir."(2,8)

"Yarımçıq cümlə dedikdə fikrin yarımçılığı nəzərdə tutulmur. Hər bir cümlə mətn daxilində işlənmiş olur və mətn daxilində başqa söz və ifadələrlə, başqa cümlələrlə əlaqədə yarımçıq cümlələrin ifadə etdiyi fikir tamamilə aydın olur."(3,203)

Cümlə üzvlərinin buraxılmasına görə folklor materiallarında işlənən yarımçıq cümlələri aşağıdakı kimi qruplaşdırmaq olar.

Mübtədası buraxılan yarımçıq cümlələr. Folklor materiallarında mübtədası buraxılan yarımçıq cümlələrə daha çox təsadüf edilir. Belə cümlələrdə mübtəda, əsasən, aşağıdakı hallarda buraxılır:

1.Təkrara yol verməmək məqsədilə mübtəda əvvəlki cümlədə işlənir, sonrakı cümlələrdə isə ixtisar edilir. Məsələn: Qaraqaş qocanı dəfn eləyib getdi. Neçə gün, neçə gecə yol gedib özünü yetirdi iki dağın arasına. Gördü ki, burada bir quyu var. Dedi, olsa-olsa bu quyu olacaq. (Qaraqaşın nağılı) Padşah çoxdan özunnən getmişdi. Ayılanda heç zad görmədi. Tez qucağına baxdı, gördü alma ordadı. Almanı götürdü, əmr verdi bütün məmləkətin qocaları yığıldı. (Şahzadə Mütalib nağılı) - bu tip yarımçıq cümlələrə folklor materiallarında daha cox təsadüf edilir.

2.Dialoqlarda çox vaxt mübtəda buraxılır. Məsələn: Adın nədir? - Baqqal-Haqq ver, haqq al. Adın nədir? - Daşdəmir.-Yumşalısan, yumşalı (Atalar sözü). Keçəl dedi:- Üzük kimdədi? Üzük hansı siçanda olsaydı, o qabağa gəlib deyərdi: - Məndədir. (Daş üzük nağılı)

"Mübtədası buraxılmış yarımçıq cümlələrin bir növünü tapmacalar təşkil edir. Belə cümlələri işlətməkdə məqsəd zehində tutulmuş mübtədanı tapıb yerinə qoymaqdan ibarət olur. Məsələn: Günəşlə gülər, axşam mürgülər; Ağaca çıxdım adamla, bir nəlbəki badamla. Nə dili var, nə ağzı, hey danışar adamla."(5,297)

Xəbəri buraxılan yarımçıq cümlələr. Folklor materiallarında xəbəri buraxılan yarımçıq cümlələr də geniş işlənir. Məsələn:

Keçəl dedi:
- Ayda nə verərsən?

Qazı dedi:
- Ayda on tümən. (Keçəllə qazının nağılı)

Bağban dedi:
- Padşah sağ olsun, divarı mən hörməmişəm.

Padşah dedi:
- Bəs kim hörüb?

Kişi dedi:
- Bənna. (Loğmanla şagirdi nağılı)

Kərəm evə gəlib oturdu. Arvad onun ağzını açıb dedi:

-Hansı dişin ağrıyır?

- Azı dişim. (Əsli Kərəm dastanı)

Yarımçıq cümlələrdə xəbərin buraxılmasına iki halda rast gəlinir: mətni buraxılma; elliptik buraxılma. Mətni buraxılmada xəbər mətn daxilində əvvəlki cümlədə işlənir və təkrara təkrara yol verməmək məqsədilə sonrakı cümlələrdə buraxılır. Bu xüsusiyyət özünü daha çox dialoqlarda göstərir. Məsələn:

Sonra padşah dedi:

- Keçəl, indi mənnən nə istəyirsən?

Keçəl dedi:

- Sağlığınızı. (Daş üzük nağılı)

- Xan, daha nə lazımdır?

- Daha da bir saz.

- Neçəyə verərlər?

- Bir qoyuna. (Məhəmməd-Güləndam dastanı)

Şah buyurdu:

-Oğlum səni kim saxlayır?

Məhəmməd dedi:

- Nənəm. (Abbas-Gülgəz dastanı)

Elliptik yarımçıq cümlələrdə isə buraxılan xəbəri cümlənin öz üzvlərinə və ya məzmununa əsasən müəyyənləşdirmək olur. Məsələn: Dosta-alqış, düşmənə-qarğış. Ata qamçı, eşşəyə biz. Atasız uşaq, damsız ev. (Atalar sözləri) Padşah dedi: - Vəzir, tədbir. Mən paçcah, gədənin biri belə gözəllərə sahib ola, mən ola bilmiyim. (Bəxtiyarın nağılı)

"Elliptik cümlələr sırasına görüş, ayrılıq prosesində işlədilən Salam! Sabahınız xeyr! Axşamınız xeyr! Salamat! Xudahafiz! Hələlik! Əhvali-şərif? kimi cümlələr də daxildir."(4,202)

Hər iki baş üzvü buraxılan yarımçıq cümlələr. Folklor materiallarında hər iki baş üzvü buraxılan yarımçıq cümlələrə də təsadüf edilir və bu tip cümlələr də rasional fikir ifadə edən üzvlər əsasında formalaşır. Məsələn: Səhər tezdən Bəxtiyar istədi almaları aparsın paçcaha, Hurizad dedi:

- Bəxtiyar, almaları hara aparırsan?

Bəxtiyar dedi:

- Paçcaha. (Bəxtiyarın nağılı)

Atası ona dedi:

- Oğlum, gəldin, harayacan getmişdin?

Oğlan cavab verdi:

- Qızıl bulağa kimi. (Məlik Ducar nağılı).

- Qatır satırsan?

Keçəl dedi:

- Bəli satıram.

Qazı soruşdu:

- Neçəyə deyirsən?

Keçəl dedi:

- İki yüz tümənə. (Keçəllə qazının nağılı)

İkinci dərəcəli üzvləri buraxılan yarımçıq cümlələr.Folklor materillarında ikinci dərəcəli üzvləri buraxılan yarımçıq cümlələrə də rast gəlinir.Belə cümlələrin əksəriyyətində rasional fikir ifadə edən üzvlərdən başqa bir neçə ikinci dərəcəli üzv buraxılır.Məsələn:

- Bu bağı kim saldırıb?
- Sənin rəhmətlik atan.
- Bugünkü şərabı hardan gətirmişdin?
- Meyxanadan, qibleyi-aləm sağ olsun.(Üç şahzadə nağılı)
- Çoban,qoyunu neçəyə satırsan?
- Bəs nəyə verəcəksən?
- Bir saza.(Xan çoban dastanı)-cümlələrində təyin və tamamlıqlar buraxılmışdır.
- Hər gün dükanında nə qədər ət satılır?
- Qəssab dedi?
- İyirmi put.(Şəminin nağılı)
- A ləzgi qızı,bəs indi necəsən?

Qəndab dedi:

- Yağnan bal kimi.(Soltan-Qəndab dastanı)-cümlələrində isə zərfliklər buraxılmışdır.

Beləliklə, Azərbaycan folklor materiallarında rast gəlinən yarımçıq cümlələr rasional fikrin rəngarəng ifadə strukturlarına malikdir.Bu cümlələr rasional fikrin müxtəlif üzvlər vasitəsilə aydın, canlı, yığcam, konkret, sürətlə və emosional ifadəsinə xidmət göstərir. Bunların toplanılıb araşdırılması tarixi sintaksisə zəngin material verəcəkdir.

Ədəbiyyat:

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. “Müasir Azərbaycan dili”, Sintaksis, IV hissə, Bakı-1985, 468 səh.
2. Həbibova K. Müasir Azərbaycan dilində elliptik cümlə, Bakı, 2009, 189 səh.
3. Xəlilov B. Müasir Azərbaycan dili. Sintaksis., Bakı, 2017,427 səh.
4. Kazımov Q. “Müasir Azərbaycan dili. Sintaksis.”, Bakı-2007, 496 səh.
5. “Müasir Azərbaycan dili. Sintaksis.” , III cild, Bakı, 1981, 443 səh.

K.DENZIYEVA

STRUCTURES OF EXPRESSION OF RATIONAL THOUGHT IN COMPLETE AND INCOMPLETE SENTENCES IN AZERBAIJANI FOLKLORE MATERIALS

SUMMARY

Azerbaijani folklore materials are rich in complete and incomplete sentences with colorful expressive structures of rational thought. The collection and study of these pieces of speech is very important in terms of studying the history of our culture.

All the members needed to express an opinion participate in complete sentences. In such sentences, there is no need to imagine or reconstruct any part of the text with the help of the situation and intonation. Complete sentences are not a new sentence type. The main types of simple sentences are full forms of double and single sentences. In other words, when no part of a two-part or one-part sentence is omitted, their whole forms are formed.

Complete sentences are short and extensive due to the presence of secondary part of sentence. Short complete sentences are formed either with the participation of both principal members or with the participation of one of the principal parts. Broad complete sentences are formed with the participation of secondary part along with the principal part. The person speaking in such sentences must indicate the time, place, cause, status, degree, object, etc. of the execution of any event.

Incomplete sentences are sentences in which one or more parts of a sentence are omitted, but which can be easily restored depending on the text, the situation, and the form and content of the members that make up the sentence. In folklore, incomplete sentences are often found in dialogues. Such sentences are used in order to avoid repetition in the speech process, to express ideas more clearly, quickly and emotionally. Also, when constructing such sentences, a number of parts of the sentence are reduced and the parts with the necessary rational thinking are retained.

Incomplete sentences are divided into two types: text incomplete sentences, situational incomplete sentences. Incomplete sentences are sentences in which any member is omitted in the speech process, but whose members are omitted on the basis of previous or subsequent sentences of the text, which can be restored and imagined. Situational incomplete sentences describe the situation. Situational incomplete sentences found in folklore materials manifest themselves in both monologue and dialogic speech. In monologue speech, such sentences are used mainly to avoid repetition, to express the idea in a concise, natural, vivid way. Collecting and studying them will give rich material to historical.

Keywords: sentence, complete sentence, incomplete sentence, rational thought

К.ДЕНЗИЕВА

СТРУКТУРЫ ВЫРАЖЕНИЯ РАЦИОНАЛЬНОЙ МЫСЛИ В ПОЛНЫХ И НЕПОЛНЫХ ПРЕДЛОЖЕНИЯХ В АЗЕРБАЙДЖАНСКИХ ФОЛЬКЛОРНЫХ МАТЕРИАЛАХ

РЕЗЮМЕ

Азербайджанский фольклор богат полными и неполными предложениями с красочными выразительными структурами рациональной мысли. Сбор и изучение этих речей очень важны с точки зрения изучения истории нашей культуры.

Все участники, необходимые для выражения мнения, участвуют в полных предложениях. В таких предложениях нет необходимости представлять или реконструировать какую-либо часть текста с помощью ситуации и интонации. Полные предложения - это не новый тип предложений. Основные типы простых предложений - это полные формы двойных и одинарных предложений. Другими словами, когда ни одна часть предложения, состоящего из двух или одной части, не опущена, формируются их целые формы.

Полные предложения короткие и обширные из-за наличия второстепенной части предложения. Короткие полные предложения формируются либо с участием обоих основных членов, либо с участием одной из основных частей. Широкие полные предложения образуются с участием второстепенной части наряду с основной частью. Человек, говорящий в таких предложениях, должен указать время, место, причину, статус, степень, цель и т. Д. Совершения любого события.

Неполные предложения - это предложения, в которых одна или несколько частей предложения опущены, но которые можно легко восстановить в зависимости от текста, ситуации, а также формы и содержания членов, составляющих предложение. В фольклоре в диалогах часто встречаются неполные предложения. Такие предложения используются для того, чтобы избежать повторения в речевом процессе, чтобы выразить мысли более четко, быстро и эмоционально. Кроме того, при построении таких предложений количество частей предложения сокращается, а части с необходимым рациональным мышлением сохраняются.

Неполные предложения делятся на два типа: текстовые неполные предложения, ситуативные неполные предложения. Неполные предложения - это предложения, в которых любой член опущен в речевом процессе, но члены которого опущены на основании предыдущих или последующих предложений текста, которые можно восстановить и вообразить. Ситуативные неполные предложения описывают ситуацию. Ситуативные неполные предложения, встречающиеся в фольклорных материалах, проявляются как в монологической, так и в диалогической речи. В монологической речи такие предложения используются в основном для того, чтобы избежать повторения,

чтобы выразить идею лаконично, естественно, ярко. Их сбор и изучение дадут богатый материал историческому синтаксису.

Ключевые слова: предложение, полное предложение, неполное предложение, рациональное мышление.

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: Filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏLALƏ QULİYEVA
BDU
Zahid Xəlil küçəsi
selalequliyeva8@gmail.com

RADİODA KÜY SƏSLƏR

Xülasə

Radioda küy səslər xüsusi əhəmiyyət kəsb edir. Radiojurnalistikada bu bölmə ayrıca tədqiqat mövzusu kimi dərindən öyrənilir. "Küyşünaslıq" elmi kənar səslərin xarakterik xüsusiyyətlərini açır, konkret əşya və hadisənin dəqiq ifadəsi ilə bağlı olduğunu əsaslandırır. Küy ətraf aləm və onun səs vasitəsilə qavranılması barədə tam təsəvvür yaradır. İnsan bu səsləri yalnız həyatda deyil, eyni zamanda küylə-reallığın əlaqəsinin mövcudluğunu təsdiqləyən idraki fəaliyyətdə - incəsənətdə dərk etməyə çalışır. Küyşünaslıq elmi üç mərkəzi hissəni araşdırır. Küy səslərin psixoakustikası- idraka akusitik təsiri öyrənir. Küy səslərin semiotikası - təsəvvür yaradan küy səslərin, kodlaşdırılmış yeni küy elementlərinin əhəmiyyəti araşdırılır. Küy səslərin ifadəliyi və musiqiliyi - bədii yükü, musiqi keyfiyyətinin intonasiyası təhlil olunur. Qeyri və əsl musiqili səslərin sintezi ilə yaradılan audiopublisistik məhsul insanın duyğusal aləminə bilavasitə artakustik (səslərlə yaranan obrazlar) təsir gücünə malikdir. Düzgün tapılan və yerində işlədilən səs lövhəsi dinləyiciyə söz və şərh olmadan da böyük informativ təsir edir. Diskussiya, radiomüsahibə, radioşərh, aktual söhbət, radioicmal və s. janrlarda, ictimai-siyasi mövzulara aid verilişlərdə fon musiqisi yerində işlənməsə, diqqəti yayındırır. Küyşünaslığa mediamusiqi ilə anologiya təşkil edən istiqamət kimi də yanaşmaq lazımdır. Lakin burada musiqi deyil, mediadakı küy tədqiq olunmalıdır. "Radio dili" termini sözlə bərabər, həm də istifadə edilən səs effektlərinin, musiqinin birgə vəhdəti olaraq bir tamlıq halında birləşən audiopublisistik əsərin ərsəyə gəlməsi kimi xarakterizə edilməlidir. Bizim gündəlik həyatımız, əhatəmiz alışdığımız səslərlə doludur. Biz uzun müddət onlara fikir verməsək də, qulağımızın iştirak etmədiyi heç bir əşyanı gözümüz qəbul etmir. Radiojurnalistikanın sənədliliyi onun səs palitrasının rəngarəng olması ilə bağlıdır. Müxtəlif səslər bir məna yaradır, insanın diqqətini bir məcraya yönəldir. Bir xətt üzərinə düzülən səslər eyni anda eşidilərkən hər bir dinləyiciyə müxtəlif formada təsir edir. Radioverilişlərdə, bədii əsərlərdə istifadə edilən küylər universal element olaraq tərcümə və ya izahat tələb etmir.

Açar sözlər: Radiojurnalistika, küy səslər, veriliş, efir yaradıcılığı, ətraf aləm, akustika, musiqi, radio dili, kənar səslər, təbiət səsi, janr

Radio materialının təqdimatında səs lövhələri ilə yanaşı, musiqi də müstəqil element kimi çıxış edir. Audiopublisistikada fon musiqisi mətnin məzmununu açan, onun bədii cəhətdən izahına yönələn vasitədir. "*Materialın bədii təşkili prosesində musiqi verilən semantik informasiya sayəsində sujet konstruksiyasının müstəqil hissəsi kimi təmsil oluna bilər*" [7,s.84]. Radio yaradıcılığında küy səslər ətraf aləmdən götürülən, təbiətdən eşidilən qeyri-musiqili səslər adlanırsa, hadisə barədə təxəyyüldə obrazlar yaradırsa, əsil musiqi insan düşüncəsinin məhsulu olaraq not üzərində yazıya alınan sənət əsəri hesab olunur. Qeyri və əsil musiqili səslərin sintezi ilə yaradılan audiopublisistik məhsul insanın duyğusal aləminə bilavasitə artakustik (səslərlə yaranan obrazlar) təsir gücünə malikdir.

Süjetin həcmi ilə verilən musiqinin vaxtı elə bölünməlidir ki, balans pozulmasın. Musiqinin dəqiqəsi qısa olarsa, axıra kimi səslənməlidr. Əgər mahnı çox genişdirsə və ya içərisində kiçik muğam parçası varsa, adətən informasiya yönümlü proqramlarda səhər-səhər ritmik musiqilərə üstünlük verilir, muğamatın səslənməsi düzgün sayılmır, rejissor mahnını yığmaq məcburiyyətində qalarsa, onda montajda ortadakı hissə çıxarılır, əvvəlki və sonuncu nəqarət eyni not üzərində birləşdirilir. Vaxtilə radioda bu prosesi musiqi tərtibatçıları, səs operatorları ilə birlikdə lent üzərində həyata keçirilirdisə, müasir dövrdə musiqi savadı olan səs rejissoru kompüter vasitəsi ilə asanlıqla işinin öhdəsindən gəlir. Yəni həcmi böyük əsərlərdən bitkin, qısa parçalar götürülə bilir. Musiqinin qısa verilməsi deyilən fikirdən uzaqlaşmamaq üçündür. 5 dəqiqəlik süjetdə iki dəqiqəlik mahnı dinləyicini bir müddət həmin mövzu barədə düşünməyə vadar edir.

Süjetin sonluğunda müğənninin qadın olması əsas şərtdir. Mətndə qoyulan sualı, şəhid xanımının nələr fikirləşdiyini rejissor mahnının dili ilə tamamlayırsa, ifaçı sanki mətndəki obraz rolunda çıxış edir. Rejissorun sonda seçdiyi mahnının sözlərində peşmanlıq hisləri verilsə, mətnlə rabitə qırıla bilər. Belə təsəvvür yaranar ki, guya Şəhidlər Xiyabanında gəlin öz taleyini lənətləyir və ya uşaqlar ona həyatda ən ağır yükdür.

Radioverilişlərin musiqi düzümünə həssaslıqla yanaşılmalıdır. Xəbər proqramında işlənən keçid musiqilərlə bədii-publisitik proqramlarda işlənən muqisi parçaları arasında fərq var. İnformasiya buraxılışlarında qısa xəbərlərarası səslənən qonq musiqilərlə (iki, üç saniyəlik) sanki hər xəbərə nöqtə qoyulur. Süjetləri bir-birindən ayıran musiqili keçidlərin həcmi isə 10-15 saniyə olur və mövzunun qayəsinə uyğunluğu nəzərə alınır. Dinləyici musiqinin gedişindən söhbətin hansı məcraya yönəldiyini hiss edir.

Almaniyanın Göttinqen universitetinin elmi əməkdaşı İnna Klause "1920-ci illərdən 1950-ci illərə qədər sovet islah əmək düşərgələrində musiqi və musiqiçilər" mövzusunda araşdırmasında radiomusiqini böyük təsir vasitəsi kimi xarakterizə edir. "Kulak dövründə radioyayımda musiqi" ("Music in Radio Broadcasts in the Gulag") məqaləsində repressiya düşərgələrində bir-birindən fərqli proqramlarla hər bir kazarma üçün xüsusi radioların fəaliyyətini araşdırıb. "*Məhbuslara yeni düşüncə*

tərzi aşılamaq, onların əqidəsini dəyişmək və bir növ onları məqsədəuyun marafləndirmək siyasəti güdən bu radiolar eyni düşərgədə fərqli formalarda tətbiq olunub. Səsləndirilən musiqinin məhbusa təsiri, onu hiddətləndirmək, qəzəbləndirmək əsas məqsəd olub. Nəticədə onun reaksiyasına ciddi diqqət yetirilib. Siyasi məqsədlər üçün nəzərdə tutlan radiomusiqidən tək islah müəssisələrində deyil, həm də məhkəməyə qədər həbs olunanlar arasında, onların nəqliyyatla daşınması zamanı da istifadə olunub. İşgəncə forması kimi tətbiq edilən musiqilər məhbusların narazılığına səbəb olurdu. "Soyuq vaxtlarda, aşağı temperaturda gecə-gündüz susmaq bilməyən radiolar, bəzi kazarmalarda radioları söndürmək qadağan olunmuşdu, onları qıcıqlandırır, acı xatirələr oyadır və sonda dözülməz hal yaradır, etirazlara səbəb olurdu. Dustaqlar radionu dinləməkdən imtina edirdilər. Bəziləri hətta radioötürücüləri dağıltmağa cəhd edirdilər. Ancaq yenə də təzyiqlərlə ən ağır işgəncəyə - radiodakı musiqini dinləməyə məruz qalırdılar" [4, s. 13].

Buradan da aydın görünür ki, radioda səslənən sözün və musiqinin geniş anlamı var. Əksər radio tədqiqatçıları kimi professor Şerel də haqlı olaraq insanın psixikasında, şüuraltında, idrakında səsli məlumatların elm aləmində axıra qədər öyrənilmədiyi, gizli daxili effektləri hərəkətə gətirmək gücünə malik olduğu fikrindədirlər [9, s.140].

Düzgün tapılan və yerində işlədilən səs lövhəsi söz və şərh olmadan da böyük informativ təsirə mailkdir. 1941-44-cü illərdə Leninqradın mühasirəsi zamanı musiqi səsləndirmək üçün vahid ritmdə işləyən cihaz olan metronomdan verilən musiqini şəhər sakinləri ilə yanaşı bütün dünya izləyib. Antihitler koalisiyasının rəhbərlərindən biri, Böyük Britaniyanın baş naziri Çörçil kabinetində, hətta yataq otağında Leninqrad dalğasına köklənmiş radionu tez-tez açıb, Neva çayı üzərindəki şəhərdən metronomun səsinin efirdə eşidilib-eşidilmədiyini yoxlayırmış. "*Metronomun taqqıltısı o demək idi ki, şəhərdə elektrik enerjisi var, deməli hərbi texnikanı təmir edən zavodlar işləyə bilir…., şəhər bu gün də faşistlərə təslim edilməyib, həyat öz axarındadır*" [6, s. 270].

Hər söhbətin fonuna musiqi salmağı düşünən rejissorlar səhvə yol verirlər. Bu məsələ son illər radiojurnalistikada aydın nəzərə çarpır. Diskussiya, radiomusahibə, radioşərh, aktual söhbət, radioicmal və s. janrlarda, ictimai-siyasi mövzulara aid verilişlərdə fon musiqisi yerində işlənməsə, diqqəti yayındırır [5, s.165]. Süjetlərarası səslənən mahnılarda da problemlər olur. Bəzən müxbirin, aparıcının, diktorun səsi ilə aşağı fonda işlənən musiqinin sinxron hissəsi üst-üstə düşür. Belə məqamlarda hər iki sözü eşitmək mümkün olmur. Danışıq qurtaran zaman mahnının bəndi səslənməlidir. Bunun üçün həcm tutumu düzgün bölünməldir. Rejissor əvvəlcədən mahnının musiqi və sinxron hissəsi arasında olan vaxtı ölçməlidir. Aparıcının, diktorun danışığının sonuna yaxın musiqini aşağı səslə fona əlavə etməli və mətn qurtaran anda mikşerlə səsi yuxarı qaldırmalı, sinxron başlamalıdır. Elektron texnologiya dövründə canlı efir zamanı professional rejissor tərəfindən mövzu ilə

bağlı fon musiqisinin anındaca tapılması və efir danışığına uyğun tənzimlənməsi olduqca rahatdır.

Canlı yayımda musiqidən istifadə ilə bağlı milli radioda 2015-ci ilin qışında səslənmiş "Gəl səhərim" musiqili informasiya prorqamının bir buraxılışını təhlil edək. Verilişin çağırış musiqisi Şövkət Ələkbərovanın səsləndirdiyi eyni adlı mahnı üzərində qurulub. Ümumiyyətlə, radionun daimi dinləyiciləri verilişi musiqisi ilə tanıyırlar. Məsələn, "Axşam görüşləri", "Bulaq", "Xəbərlər", "Dan yeri", "Ovqat" və s. xeyli sayda verilişlərin "musiqili başlanğıc"ı yaddaşlarda əbədiləşib.

Günorta vaxtı gecəni, ay işığını vəsf edən nəğmələrin səslənməsi düzgün sayılmır. Gecə konsert proqramlarında da eyni problem yaşanır. Radioda gün boyu xeyli sayda konsert proqramı və müxtəlif verilişlərdə mahnılar səslənir. Bəzən bir verilişdə səslənən musiqi 10 dəqiqə sonra konsert proqramında yenidən verilir. Belə halların qarşısını almaq məqsədilə veriliş hazırlanan gün rejissorlar musiqi redaksiyasının əməkdaşları ilə əlaqə yaratmalı, günün konsert proqramında verilən mahnıların, musiqi nömrələrinin siyahısına baxaraq ona uyğun hərəkət edilməlidir. Vasif Adıgözəlov haqqında veriliş hazırlanırsa, onun "Qərənfil" mahnısı günün konsert proqramında varsa, həmin vaxt bəstəkarın digər bir əsərinə müraciət edilməlidir. Eyni gündə bir mahnı bir neçə dəfə səslənməsin deyə, yaradıcılıq zamanı bu məsələyə ciddi yanaşılmalıdır. Bu da efirin səslər palitrasını zənginləşdirmək, efir incəliklərini düşünmək baxımından önəmli amildir.

Özəl radiolarda daha çox diqqət çəkən bir məqam var. Aparıcı elan edir: "İndi Rəşiddən bir ifa gələcək". "Ana" mahnısı oxunur. Rəşid Behbudov kimi azman bir sənətkarı belə cılız, adi şəkildə təqdim etmək doğru deyil. Səriştəsiz aparıcılar böyük sənətkarın hörmətini nüfuz altında qoyurlar. Elə təbliğ etmək lazımdır ki, yeniyetmələr qüdrətli sənətkarı tanısın. Bu möhtəşəm əsərin müəllifi və bəstəkarı da deyilmir. Şair İslam Səfərlinin, bəstəkar Cahangir Cahangirovun adı çəkilmir.

XX-XXI əsrlərdə bədii yaradıcılıqda və mediada səslərin rolu mühüm əhəmiyyət kəsb edir. Məsələn, biz simfonik musiqidə zərbli səslərin harmoniyasını, kinoda səsli sauntrek avanqard musiqini, radioverilişlərdə artakustika (səslərlə obraz yaratmaq) küylərinin get-gedə vüsət aldığını görürük. Radioverilişlərdə, bədii əsərlərdə istifadə edilən küylər universal element olaraq tərcümə və ya izahat tələb etmir. Küy səslər həmişə son dərəcə konkretdir və əşyanı, hadisəni olduğu kimi ifadə edir, nitq və musiqidəki kimi yalnız simvolik əhəmiyyət daşımır, dəqiq məna bildirir. Küy səslərin əsas xüsusiyyəti də elə budur.

M.V.Bısko bütün həyatı boyu müxtəlif səslərin əhatəsində olan insanın eşitdiyi və anladığı küyləri 3 qrupda, təbii, süni və fon səsləri halında cəmləşdirir. Musiqi və nitqdən başqa yerdə qalan səsləri gündəlik həyatda təsadüfi, çox zaman fəaliyyətin arzuolunmayan məhsulu sayır. "Küyşünaslıq" kitabında "audiologiya" haqqında da ətraflı məlumat verilir. Hər iki terminin ayrı-ayrılıqda izahı göstərilir, fərqli elm sahələri olduğunu dəlillərlə əsaslandırır. Audiologiya - səslər haqqında elmdir. Səsin vəziyyətini, bəm və zilinin səbəblərini öyrənir, həmçinin səsin diaqnostikasının,

profilaktikasının metodlarını müəyyənləşdiir. “Küyşünaslıq” elmi isə kənar səslərin xarakterik xüsusiyyətlərini açır, konkret əşya və hadisənin dəqiq ifadəsi ilə bağlı olduğunu əsaslandırır.

Küy ətraf aləm və onun səs vasitəsilə qavranılması barədə tam təsəvvür yaradır. İnsan bu səsləri yalnız həyatda deyil, eyni zamanda küylə-reallığın əlaqəsinin mövcudluğunu təsdiqləyən idraki fəaliyyətdə - incəsənətdə dərk etməyə çalışır. Küyşünaslıq elmi üç mərkəzi hissəni araşdırır:

Küy səslərin psixoakustikası - idraka akusitik təsiri öyrənilir;

Küy səslərin semiotikası - təsəvvür yaradan küy səslərin, kodlaşdırılmış yeni küy elementlərinin əhəmiyyəti araşdırılır;

Küy səslərin ifadəliyi və musiqiliyi - bədii yükü, musiqi keyfiyyətinin intonasiyası təhlil olunur.

M.V.Bıskonun elmə təqdim etdiyi hər üç istiqamətin araşdırılması üçün böyük fəaliyyət sahəsi tələb olunur. Ayrılıqda hissələr kifayət qədər həcmli hesab edilsə də, bir-biri ilə sıx əlaqəli olan bölmələrin təqdqiqində fizika, texnika, psixologiya, dil elmləri, sənətşünaslıq və kultrologiya sahələrində kifayət qədər məlumatlı olmaq gərəkdir. Küyşünaslığa mediamusiqi ilə anologiya təşkil edən istiqamət kimi də baxmaq olar. Lakin burada musiqi deyil, mediadakı küy tədqiq olunmalıdr. “Radio dili” termini sözlə bərabər həm də istifadə edilən səs effeklərinin, musiqinin birgə vəhdəti olaraq bir tamlıq halında birləşən audiopublisistik əsərin ərsəyə gəlməsi kimi xarakterizə edilməlidir. Bizim gündəlik həyatımız, əhatəmiz alışdığımız səslərlə doludur. Biz uzun müddət onlara fikir verməsək də, qulağımızın iştirak etmədiyi heç bir əşyanı gözümüz qəbul etmir.

“Küy səslər”in radio verilişlərində tətbiqi üçün rejissorların əlinin altında kifayət qədər müxtəlif səslər olmalıdır. Radionun fəlsəfi mahiyyətini ustalıqla qavrayan əsl rejissor geniş həcmli fond yaratmalı, zəruri məqamlarda yararlanmaq üçün qruplaşdırılmış nümunələrdən istifadə etməlidir. Müasir dövrdə internetdə çoxlu sayda belə fondlar mövcuddur. “Küy səslər”lə bağlı zəngin resurslar var.

Xüsusən audiomateriallarda tətbiqi üçün nəzərdə tutulan səs elementlərinin daha da zənginləşməsi məqsədi ilə sayt tərtibçiləri tərəfindən hər bir internet istifadəçisinə onların əhəməyyəti izah edilərək müxtəlif səslərin portallara yerləşdirilməsindən ötrü asan imkanlar yaradılır. Bir vaxtlar radiojurnalist küy səslərinin axtarışına özü çıxırdısa, bugünkü gündə milyonlarla küy səsi internetdən əldə etmək olur.

Elmi işi araşdırarkən noisefx.ru, wav-library.net, givemp3.com və s. saytlarda “küy səslər”in toplandığı mənbələr diqqət çəkdi. Saytlarda bütün audiotexnologiyanın rahat şəkildə dəstəklədiyi MP3 formatına uyğun yazılan səslər müxtəlif adlar altında qruplaşdırılıb. Eyni zamanda radioda səs effektlərindən istifadə metodları ilə bağlı ustad dərsləri də verilib. Amerika prodüseri Aleks Van Ossun 6 hissədən ibarət radiossenariləri, müəllifin “küy səslər”dən məharətlə istifadə təcrübəsi tədris məqsədi ilə yerləşdirilib.

Bir milyondan çox səs effektinin toplandığı mənbələrdən biri də http://findsounds.com saytıdır. Saytda 10 min fayl yaradılıb, hər bir faylın içərisində təxminən 250 minə yaxın səs effekti var. Faylar adına, bölündüyü kateqoriyaya, götürüldüyü mənbəyə açar sözlərlə, vaxtına, formatına və tipinə görə ayrılıb. Saytda eyni səsin müxtəlif versiyalarını dinləmək mümkündür. İnternetdə yeganə saytdır ki, yalnız səs effektlərinin audio tətbiqi üçün nəzərdə tutulub. Hollivud səs rejissorlarının yaradıcılıq məhsulu olan saytda onların əməli fəaliyyəti, audio faylların sürətini dəyişməklə alınan maraqlı və faydalı səs effektləri də nümayiş etdirilir. Bu saytda bir audiosəsin 25 müxtəlif sürətli dəyişkən formasını görmək olur. Səs effektləri heyvanlar, quşlar, bayramlar, evdə, məişətdə işlənən əşyaların səsi (blender, yumurtanın qaynaması, saat, çaydan, açar, kibrit, radio, qayçı və. s.), həşəratlar, musiqi alətləri, təbiət hadisələri, ofis (printer, kağız, telefon, klaviatura və s.), insan (dişləmək, ağlamaq, gülmək, körpə, öskürək, kişi, qadın, asqırmaq, əsnəmək), idman növləri, alətləri, nəqliyyat vasitələri, kino, cizgi qəhrəmanları və s. bölmələrdə qruplaşdırılıb.

http://freesound.org saytı 2005-ci ildə İspaniyanın Barselona şəhərində (Music Technology Group - Universitat Pompeu Fabra) yaradılıb. Buradan hər bir insan istədiyi səsi sayta əlavə etmək və yükləmək üçün axtarış bölməsindən faydalana bilər. http://www.soundboard.com saytı 2007-ci ildə istifadəyə verilib. Sayt yaradıcılarının əsas məqsədi dünyanın zəngin səs kolleksiyasını toplamaqdır. Bu mənbə vasitəsilə radiorejissorlar deyilən fikirləri asanlıqla müxtəlif səslər vasitəsi ilə ifadə etməyi bacarırlar. İstənilən "küy səslər"in asanlıqla axtarışı üçün səslər müxtəlif qruplar üzrə bölüşdürülüb. Digər saytlardan fərqli olaraq burada tarixi şəxsiyyətlərin də səsləri toplanıb. Məsələn, Adolf Hitlerin müxtəlif illərdəki çıxışları - müharibə elan edilən gün, yəhudilər əleyhinə etdiyi çıxış və s. http://soundbible.com saytı da audioverilişlər üçün nəzərdə tutulub. Fərqlilik ondadır ki, bu saytda tərtib olunan qruplar müəyyən əlamətlərinə görə əlavə konkret sahələrə bölünüb. Gülməli, qorxulu, təbiət hadisələri, okean, dəniz səsləri, müharibə - silah, bomba və s. Saytın radio adlı xüsusi bölməsində efirdə ən çox istifadə olunan musiqi parçaları, yayım səsləri mövcuddur. http://www.soundsnap.com və https://soundcloud.com, saytlarının isə bir milyondan çox istifadəçisi var.

Əfsuslar olsun ki, "küy səslər"ə aid Azərbaycanda heç bir internet resursu yoxdur. Zəngin təbii səslərin əhatəsində yaşasaq da, meşə, su, quş və s. fon səsləri bolluğunda olsaq da, onların virtual mühitdə sistemli toplanışı üçün heç bir cəhd edilməyib. Müasir informasiya texnologiyaları, informasiya münasibətləri, KİV sahəsinin çoxlu sayda problemlərinin aradan qaldırılmasına imkan verir, informasiyanın həm istehsalçıları, həm də istehlakçıları üçün əlverişli şərait yaradır.

Elmi axtarışlar zamanı internetdə Rusiya da daxil omaqla inkişaf etmiş ölkələrdə audiopublisistikanın inkişafı mərhələsinə uyğun olaraq sistemli arxiv materiallarına, radio verilişlərinə rast gəldik. "Köhnə Radio" adlı elektron mənbədə -

www.staroeradio.ru saytında Rusiyanın radio mühitinin dolğun əks olunması, SSRİ dövründəki bütün inkişaf tarixini əks etdirən materialların toplanması, verilişlərin illər üzrə siyahısı və audio variantı, efirdə səslənmiş tanınmış insanların çıxışlarının ayrıca fayl şəklində qruplaşdırılması, elmi araşdrıma aparan istifadıçilərin ixtiyarına verilməsi texnologiyanın nailiyyəti hesab olunmaqla bərabər, həm də radionun fəaliyyətinə olan diqqətin bariz göstəricisidir. Səs salnaməsinin əsası qoyulan radionun vaxtilə önəmli əhəmiyyət daşıdığını xatırlatmaq baxımından onun inkişaf prosesinə nəzər salmaq və televiziyanın mövcud olmadığı dövrdə radiolarda getmiş mühüm səs kadrlarının qorunması üçün hər bir ölkədə radiomaterialların mühafizəsinə ciddi fikir verilir. Bu baxımdan əhəmiyyətli olan daha bir mənbəni - mükəmməl hazırlanmış www.tvmuseum.ru saytını nümunə kimi göstərə bilərik. "Radio, televiziya verilişlərinin internet muzeyi"ndə yaranışdan üzü bəri yaradıcı və texniki heyətin bütün üzvləri haqqında informasiyalar, onların yaradıcılıq prosesində tətbiq etdiyi yenilklər, malik olduğu şəxsi keyfiyyətlər, fərdi sənətkarlıq xüsusiyyətləri və təqdim etdikləri radioproqramların orjinal məhsulları əks olunub. Bu internet resursunda müxtəlif aspektlərdən tədqiqatlar aparmaq üçün kifayət qədər audiomaterial var.

CNN, BBC, Euronews və başqa radioların fəaliyyətini araşdıranlar üçün də virtual aləmdə kifayət qədər audioresurs var. Hətta Amerika radiosunun ilk serialı, 1920-50-ci illərdə səslənmiş "AMOS`n` Andy"-nin 15 dəqiqəlik verilişlərinin hər bir nömrəsi internetdə yerləşdirilib [8, s.81-87].

Azərbaycanda da bu istiqamətdə işlərin görülməsi mütləqdir. Şərqin ilk radiosu olan Azərbaycan radiosunun ötən illərdəki verilişlərinin heç biri internetdə yoxdur. Radionun tarixi ilə bağlı məlumatlar yalnız Azərbaycan Televiziya və Radio verilişləri QSC-nin aztv.az saytında verilmiş informasiya xarakterli məqalələrdən əldə etmək mümkündür. Yeganə mənbə olan bu saytı təkmilləşdirmək, digər xarici təcrübələrdən istifadə edərək fond verilişlərinin internet resurslarını yaratmaq lazımdır. "*Radio televiziya verilişlərini informasiya daşıyıcılarında xüsusi yazılış aparılmadan təkrar izləmək mümkün deyil. Amma internet mediaya çap mətbuatı kimi istənilən vaxt müraciət etmək olar*" [2, s.11]. Araşdırmamız zamanı müstəqilliyin ilk illərində radionun fondundan dövrə yararsız minlərlə səs nümunələrinin məhv edildiyinin şahidi olduq. Mahiyyətinə varmadan, sadəcə yer tutduğu üçün səs yazılarının fonddan silinməsi Azərbaycanın səs tarixinin məhvinə aparmaqla yanaşı, araşdırmaçılar üçün də problemlər yaradır. Hər bir radio verilişi internetə yüklənməlidir. Dünya radiolarının bu təcrübəsindən, yəni radioəsərə sənədli fakt-əşyayi dəlil kimi yanaşılmasından yararlanmaq, dəyərli audioresursların itib-batmasının qarşısını almaq ümumi işin xeyrinədir.

Uzun müddətdir ki, ənənəvi texnologiyalar əsasında fəaliyyət göstərən radio, televiziya yayım qurumları "qızıl fond", "fonoteka", "filmoteka" və s. adlar altında çox az verilişləri yadda saxlaya bilir və elə indinin özündə də əksəriyyəti itib gedir.

"*Son zamanlar böyük həcmli yaddaş tutumuna və emal imkanlarına malik sistemlərin və qurğuların, informasiyanın həyat tsiklinin idarə olunması, informasiyanin yadda saxlanması şəbəkələri, informasiyanın avtomatik miqrasiyası və s. kimi mütərəqqi texnologiyaların meydana gəlməsi radio və televiziya kanallarında yayımlanan bütün verilişləri tam şəkildə və istənilən müddətə saxlamağa imkan verir*" [3,s.16-18]. İnformasiya texnologiyaları üzrə araşdırmaçı, prof. R.Əliquliyev fikirlərini belə əsaslandırır: "*Bu qurumların yaddaş sistemlərində toplanmış informasiyaların müxtəlif əlamətlərə görə təsnifatını və intellektual analizini aparmaq üçün mövcud analitik informasiya texnologiyaları (OLAP, Data mining, Web mining, Text mining və s.) jurnalistlər üçün olduqca mühüm dəstəkdir. Jurnalistikanın ən çətin istiqaməti olan analitika sahəsində bu texnologiyaların tətbiqi ilə istənilən mövzu çərçivəsində çox böyük həcmə malik olan məlumatları sistemləşdirmək, strukturlaşdırmaq, tendensiyaları aşkarlamaq, yeni biliklər əldə etmək və bu kimi digər intellektual işləri xüsusi aparat-proqram sistemləri vasitəsi ilə həyata keçirmək mümkündür. Dünyanın aparıcı radio və televiziya yayımı şirkətləri (CNN, BBC, Euronews və s.) bu texnologiyalardan geniş istifadə edirlər*" [3, s. 22].

Adobe Audition (bir çox radio peşəkarlarının işlətdiyi proqram), Audacity, JetAudio kimi audioproqramlardan istifadə, səsin WAV formatında (sıxılmamış) yazılması, onların MP3 formatına çevrilməsi, audioproqramların bir-birindən fərqli və üstün cəhətlərinin izahı, ən geniş yayılmış MP3, WMA (Windows Media), Real (Real Audio), MPEG-4 (QuickTime), MPEG-4 AAC (iTunes), WAV ("veyv" kimi tələffüz olunur), AIFF (Apple-in standart formatı) kimi rəqəmli audioformatlar radiojurnalistikada geniş tələb olunur. Bu formatlardan ən mükəmməli MP3 formatında təqdim ediləndir. "*Çünki virtual olaraq hər bir kompüter MP3 formatını ifa edə bilər. iTunes, Windows Media Player və ya Real Player kimi proqramlar da onları ifa edə bilər. Ancaq onlar başqa özəl formatları ifa edə bilməz. Misal üçün, siz Windows Media formatında olan sənədi iTunes-da, yaxud da Real Media formatındakını Windows Media Playerdə ifa edə bilməzsiniz. Ancaq MP3 formatında olanı onların hamısında ifa etmək mümkündür*" [1, s.74]. Müasir dövrdə audioslaydların hazırlanması və internetde yerləşdirilməsinə də maraq güclüdür. Radioda səslənən süjetin təkrar eşidilməsi üçün "görüntüsünü canlandırmaq" məqsədi ilə internet versiyası hazırlanır və şəbəkələrdə, müxtəlif saytlarda paylaşılır. Bu amil radionun reklamı, auditoriyanın marağını kəsb etmək baxımından faydalıdır. Audioslaydların əsas gözəlliyi, bir çox ekspertlərin də fikrinə görə, onu izləyicini düşündərəcək formaya gətirməsidir. Bu zaman istifadə olunan səs effektləri mühüm rol oynayır.

Ədəbiyyat siyahısı

1. Briqs, M. Jurnalistika 2.0. Necə qurtulmalı və irəli getməli / M.Briqs. – tərcümə edəni A.Həsrət. – Bakı: Oskar, – 2010. – 136 s.
2. Əliquliyev, R. İnternet medianın meydana gəlməsi və inkişafı: əsas istiqamətlər və xüsusiyyətlər / R.Əliquliyev, R.Mahmudov. – Bakı: İnformasiya Texnologiyaları, – 2012. – 52 s.
3. Əliquliyev, R. İnternet-jurnalistikanın formalaşmasının bəzi aspektləri / R.Əliquliyev, C.Valehov, R.Mahmudov. – Bakı: İnformasiya Texnologiyaları, – 2008. – 32 s.
4. Grant, M. The Soundtrack of Conflict: The Role of Music in Radio Broadcasting in Wartime and in Conflict Situations / M. Grant. – Hildesheim: Georg Olms Verlag, – 2013. – 253 p.
5. Лебедева, Т. Жанры радиожурналистики / Т.Лебедева. – Москва: Аспект Пресс, – 2012. – 224 с.
6. Məhərrəmli, Q. Radio dərsləri / Q.Məhərrəmli. – Bakı: Nurlan, – 2007. – 496 s.
7. Məhərrəmli, Q. Radio verilişlərinin dili və üslubu / Q.Məhərrəmli. – Bakı: Elm və təhsil, – 2011. – 204 s.
8. Hilmes, M. Радио Voices: American Broadcasting, 1922-1952 / M.Hilmes. – Minneapolis: University of Minnesota Press, – 1997. – 79 p.
9. Щерель, А. Радиожурналистика / А.Щерель. – Москва: МГУ, – 2000. – 480 с.

Sh.Kuliyeva

RADIO NOISE

SUMMARY

There is a special significance of radio noise. In radio journalism this section is learnt deeply as a research topic. The science of radio noise is about characteristic features of extraneous sounds and it substantiates that each noise is related to the specific thing or event. Radio noise makes imagine about be comprehended by means of environment and sound. People try to comprehend these sounds not only in real life, they also try to perceive them in cognitive activity – in the art. The science of radio noise explores three main parts. The first part which is called psychoacoustics of radio noise is about the acoustic effect to the congition. Semiotics of radio noise explores the importance of encrypted new radio noise elements. Expression and musicality of radio noise – is analyzed the artistic meaning, intonation of music quality. An audio-journalistic product created by the synthesis of non-real and real musical sounds has a direct effect on the emotional world of man

through the art acoustic (images created by sounds). Found correctly and properly used soundboard has a great informative effect to the listeners without any word or comment. If the background music isn`t used properly, it can distract in different genres as a discussion, radio interview, radio commentary, topical conversation, radio review, also in programs on social-political issues. It is necessary to approach the radio noise as a direction in analogy to media music. However, it has to be applied the noise in the media, not the music here. The term "radio language" should be characterized as the creation of audio-publicist works of the combination, which work both verbally and in sound, in the development of music as a whole. Our daily lives and surroundings are full of the sounds we are used to. Although we do not pay attention to them for a long time, our eyes do not perceive anything that our ears do not have. The documentary of radio journalism is due to the diversity of its sound palette. Different sounds create a unique meaning, attract people's attention to one direction. When sounds in a line are heard at the same time, they affect each listener differently. Noises used in radio broadcasts and works of art do not require translation or explanation as a universal element.

Key words: Radio journalism, radio noise, broadcast, transmission, environment, acoustic, music, radio language, extraneous sounds, nature sound, genre

Ш.КУЛИЕВА

ШУМОВЫЕ ЗВУКИ В РАДИО
РЕЗЮМЕ

Шумовые звуки в радио имеют особое значение. В радиожурналистике этот раздел подробно изучается, как отдельная тема исследования. Наука о шумах выявляет характеристики шумовых звуков, обосновывает, что они связаны с точным выражением конкретного объекта и события. Человек пытается понять эти звуки не только в жизни, но и в познавательной деятельности – в искусстве. Наука о шуме изучает три центральные части: Психоакустика изучает шума - акустического воздействия на познание. Семиотика – исследует важность новых шумовых элементов, закодированных в воображаемых шумовых звуках. Выразительность и музыкальность звуков - анализируется художественная нагрузка, интонация музыкального качества. Образованный в результате синтеза необычных и стандартных музыкальных звуков аудиопублицистический продукт, влияющий на чувственный мир человека, непосредственно арт акустически (образы, образованные из звуков). Правильно подобранная и использованная своевременно звуковая доска без слов и комментариев действует на слушателя информативно. Такие жанры, как

дискуссия, радиоинтервью, радиокомментарий, актуальный разговор, радиообзор и т.д. если будут вместо музыкального фона в передачах но, общественно-политические темы, то они развеят внимание. К шумоведению нужен подход как к направлению аналогии с медиа музыкой. Однако , в этом случае должны использоваться не музыка, а шум в медиа. Термин “язык радио” наряду со словом, использованные звуковые эффекты вместе с музыкой должны характеризоваться как единое целое в аудиопублицистическом произведении. Повседневная жизнь, окружающий мир полны звуками. Мы можем не обращать на них внимание длительное время, однако, то, что не воспринимает наше ухо, глаз не видит. Документальность радиожурналистики связана с многоцветной звуковой палитрой. Различные звуки создают один смысл, сосредотачивают внимание человека на одном звуки, расположенные на одной прямой , услышанные слушателем, действуют на него в различной форме. Использованные в радиопередачах, художественных произведениях шумы, как универсальный элемент, не переводятся или не требуют объяснения.

Ключевые слова: радиожурналистика, шумовые звуки, радиопередача, окружающая среда, акустика, музыка, радио язык, посторонние звуки, голос природы, жанр

Redaksiyaya daxil olma tarixi: 01.12.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: Filologiya elmləri doktoru, professor Nəsir Əhmədli
tərəfindən çapa tövsiyə olunmuşdur

LƏTAFƏT ƏLIYEVA
BDU-nun Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru
Zahid Xəlilov küç., 23
latafat_aliyeva@mail.ru

NİTQ VƏ MƏTNİN İNTERFERENSİYASI

XÜLASƏ

Məqalədə nitq interferensiyası müasir dil situasiyasının aktual problemi kimi araşdırılmışdır. Azərbaycan və rus dillərinin qarşılıqlı əlaqəsindən yaranan interferensiya mühüm faktor kimi tədqiqata cəlb olunmuşdur. Bu dillərin əlaqəsi zamanı nitq bir dildə formalaşır, yaxud da digər dillə münasibətdə meydana gəlir. Məqalədə nitq prosesində interferensiyanın fonetik, leksik və qrammatik səviyyələrdə yaratdığı norma pozuntuları göstərilmişdir. Həmçinin interferensiyanın nitq və mətndə dərəcələri , xarakteri də açılmışdır.

İnterferensiya dillərarası kontaktdan meydana gələn ikidillilik prosesidir. Bilinqvizm (ikidillilik) iki dilin praktikasında yaranır. Bu prosesdə nitq fəaliyyəti individ (fərdi) xarakter daşıyır. İnterferensiyanın dildən kənar səciyyəsi onun linqvokulturoloji xüsusiyyətləri ilə ələqədardır. Həmin əlamət aktiv ünsiyyətdə müşahidə olunur. Dildən kənar interferensiya həmçinin prosodik səviyyədə özünü göstərir. Müxtəlif intonasiya konturları iki dilin arasında olan qarşılıqlı əlaqəni və fərgi aşkara çıxarır.

Məqalədə interferensiyanın yazılı nitqdə sitat tipi kimi işlənməsindən də bəhs edilir. Bu tədqiqatda sitat bir linqvistik hadisə kimi öyrənilmiş, sitatın nitq mexanizmi, mətndə funksionallaşması nəzərə çatdırılmışdır.

İnterferensiyanın bir sıra formaları canlı nitq prosesində, bədii ədəbiyyatda, müasir mətbuatın dilində işlədilir.

İnterferensiya bir dil və nitq hadisəsi kimi müəllifin öz nitqindən ibarət olan mətnlərin də yaranmasında fəal iştirak edir. İnterferensiya alınma sözlərdən fərqlənir, digər dilin təsiri ilə meydana çıxır. İnterferensiya həmişə dilin strukturu ilə əlaqədardir. Dillərin qarşılıqlı əlaqəsində formalaşır. Beləliklə, interferensiya olduqca maraqlı, dayanıqlı, davamlı bir hadisədir, bir neçə istiqamətdə dərk olunur. Nitq strukturunda müxtəlif sistemli dillərin mətn quruluşunda interferensiya geniş yer tutur.

Açar sözlər: bilinqvizm, ikidillilik, dil interferensiyası, interferensiya növləri, interferens nöqsanlar, dilin sistemi, leksik interferensiya, sintaktik interferensiya, linqvistik interferensiya, dil kontaktı.

Dillərin qarşılıqlı əlaqəsi probleminin tarixi qədimdir. Dillərin əlaqəsi bilinqvizm nəzəriyyəsini doğurur. Bilinqvizm həm də millətlərarası kommunikasiyanın nəticəsidir. Bilinqvizm- ikidillilik şəraitidir. Biz bu məqalədə həmin şəraitin daxili linqvistik və nitq aspektlərini öyrənməyi qarşıya məqsəd qoymuşuq.

İkidillilik-iki müxtəlif dili eyni dərəcədə bilmə; müxtəlif ünsiyyət şəraitində zəruri olan iki dili öyrənmə deməkdir. İkidillilik qarşılıqlı əlaqədə material baxımından reallaşır. Bu sahədə, demək olar ki, kvalitativ tədqiqatlar aparılmışdır. Belə tədqiqatların əsasını interferensiya hadisəsi təşkil edir.

"İnterferensiya dil normasından kənara çıxma, uzaqlaşma anlamındadır, iki və daha çox dildə insanların, yaxud kollektivin nisbi istifadə etdiyi kommunikasiyadır" (5,s.42).

«İnterferensiya» termini XX əsrin 40-50-ci illərində Uriel Vaynraxın «Languages in Contact: Findings and Problems» əsərində işlənmişdir. Bu haqda S.Q.Vasilyeva, R.A.Yusupov, Z.İskakova, Q.R.Qaliullina və b. da yazmışlar.

Sitatlı vasitəsiz nitqin bu növündə özgə nitqinin daxilində digər bir özgənin ifadələri işlədilir. T.B. Bulqakova bu haqda qeyd edir: "Nitq daxilində nitq, ifadə daxilində ifadə verilməklə birinci sitatın tərkibinə ikinci sitat pərçimlənir. Sitat tiplərinin mətndə təsviri və aydınlaşdırılması əsas məsələlərdəndir"(5, s.136).

«İnterferensiya» termini bir sıra elm sahələrində istifadə olunur. Y.Deşeriyeva yazır: "İnterferensiya danışılan ana dilinin təsiri ilə şərtləndirilir, dillərarası-dildaxili adı daşıyır. İnterferensiya qarşılıqlı təsir forması və modelidir, bu modellər didə öyrənilir, dildaxili yaxud daxili amillərlə səciyyələndirilir" (8, s.95).

«İnterferensiya» termini latın mənşəlidir, dilçilik termini olaraq *«inter» arasında, «ferens-daşıyıcı, aparıc*ı mənasındadır (11, s.50).

L.Barannikova interferensiyanın nitqlə bağlı mahiyyətini, onun meydana çıxma spesifikasını aydınlaşdırır, onun valentlik xüsusiyyətini qabardır (4, s.88).

İnterferensiya ikidilliklə bağlı məsələdir. Azərbaycan və rus dilləri müxtəlif dil qruplarına aid olduğu üçün bunlar arasındakı nitq əlaqəsində həmin hadisə yaranır. İkidillilik, öz növbəsində, dayanıqlı, davamlı xarakter daşıyır.

Nitq interferensiyası müasir dil situasiyasında aktual problemlərə çevrilir, qlottogenez prosesində meydana çıxır. Dil kontaktının müəyyən səbəb və şərtləri mövcuddur. Ona görə də dillərarası əlaqələr interferensiyanın mühüm faktorudur.

Linqvistikada interferensiyanın növləri səviyyələr əsasında müəyyənləşir.

Öncə, interferensiya tərcümə mətnlərində üzə çıxır. Bunlar linqvomədəni interferensiyadır.

Eqosentrik nitqdə interferensiya uşaqların danışığında özünü göstərir. Monosentrik nitqdə interferensiya assosiasiya yaradır, kontaminasiyaya yol açır.

Məs.: *Ladno, toqda, davay mən getdim. Davay, poka! Davayte, çay gətir!* Qrammatik interferensiyanı sadə cümlənin strukturu səviyyəsində də öyrənmək mümkündür. Bu, sintaktik interferensiyadır. Bilinqvizm sintaktik nitq fəaliyyətində

müəyyən nəticələr verir. Sintaktik interferensiya tipləri sadə cümlənin baza strukturu səviyyəsində - sadə cümlənin Azərbaycan və rus dillərinin tipik modelləri əsasında müəyyənləşir.

İnterferensiyanın dildə və nitqdə mühüm sosiolinqvistik aspektləri vardır. Həmin aspektlər dil və sosial həyatın faktları arasında səbəbiyyət əlaqələrini, əlaqədə olan dillərin sosial differensiasiyasını öyrənir. Linqvistikanın və sosiologiyanın kəsişməsində ikidillilik şəraitində sosial durum, onun cəmiyyətdə istifadəsi qaydaları, insanların müxtəlif sosial təbəqələrinin öz dilinə və başqa dildən əxz etdiyi interverent sözlərə və s. münasibətini tədqiq edir. Buraya daxildir: 1) Dilin inlənməsində sosial önəm daşıyan normanın müəyyənləşdirilməsi (kim harada, necə, hansı dil situasiyasında danışır). Bu vaxt insanların dildən nə cür istifadə etmək prinsiplərini statistik hesablama ilə təyin etmək asanlaşır; 2) Sırf linqvistik yöndə dil sistemlərinin prinsip etibarilə müxtəlifliyindən çıxış edənlər kəmiyyət metodundan istifadə edərək dil valentliyini sosial özəlliklərdən asılı olaraq (sosial qrup, yaş fərqi və s.) öyrənir . Buna adətən varitasiya dilçiliyi də deyilir.

Azərbaycan nitqinə rus nitqinin təsiri sovet dövründən başlanır. Bu dillərin kontaktı elə bir hadisə doğurmuşdur ki, bu zaman nitq bir dildə formalaşır ,yaxud digər dillə münasibətdə meydana gəlir. Bilinqvizm (ikidillilik) də qeyd etdiyimiz kimi, iki dilin praktikasında yaranır və bu prosesdə nitq fəaliyyəti individ (fərdi) xarakter daşıyır.

Beləliklə, interferensiya ikidilli nitqin nəticəsidir. İnterferensiya obyektiv prosesdir, «bu zaman dil kontaktında danışanın arzuolunmaz meyilləri gerçəkləşir» (10, s.127).

Linqvistikada «interferensiya» termini ilə yanaşı, «transferensiya» terminindən də istifadə olunur. «Transferensiya»- inkarlıq hadisəsidir, nitqi transfer etmək deməkdir. Bu, keçid nitqidir, alternativ interferensiyadır.

Nitq interferensiyası tipologiyasının müxtəlif səviyyələri vardır: fonoloji, leksik , qrammatik və paradiqmatika, sintaqmatika , transformatika planlarında. “İnterferensiyanın kommunikativ effekti ünsiyyət-relevant səciyyəlidir. Bu, «aydın olmayan» və «gizli» interferensiyalardır “(10, s.127). Belə interferensiyalarda norma pozuntularına rast gəlmək olur.

Linqvistik interferensiya dil kontaktları nəticəsində meydana çıxır. Yəni, «iki dil kollektivi arasında nitqin qarşılıqlı əlaqəsi» fonunda nəzərdə tutulur. Bu cəhətdən, interferensiya- bilinqvizmin səhv addımıdır.

Mədəniyyətlərarası kommunikasiyada interferensiyanın bir sıra növləri öyrənilir: fonetik-fonoloji interferensiya, orfoqrafik interferensiya, qrammatik interferensiya, leksik interferensiya, semantik interferensiya, üslubi interferensiya, dildaxili interferensiya.

Göründüyü kimi, interferensiya - bilinqvizm nitqin dil sistemindəki kontaktının proses və nəticəsidir.

İnterferensiyanın dildənkənar səciyyəsi onun linqvokulturoloji xüsusiyyətləri ilə əlaqədardır. Həmin əlamət aktiv ünsiyyətdə müşahidə olunur. Dildənkənar

interferensiya həmçinin prosodik səviyyədə özünü göstərir. Müxtəlif intonasiya konturları iki dilin arasında olan qarşılıqlı əlaqəni və fərqi aşkara çıxarır.

Nitqdə qrammatik interferensiya uyğunluq, ahəng və qeyri-uyğunluq prinsipinə əsaslanılır.

Leksik interferensiyalar əsasən danışıq nitqi üçün xarakterikdir. Ona görə ki, interferent hadisələr və onun dərəcələri, funksional əlamətləri danışıq nitqində özünü göstərir. Xüsusən də, sponton nitqdə yaşlı nəslin (qrupun) nitqində bu məsələ sosial status qazanmışdır. Bunları linqvistik amil saymaq olmaz. Leksik interferensiyalar birbaşa psixoloji və sosiomədəni amillərlə bağlı məsələdir.

Azərbaycanlıların nitqində rus sözlərindən ibarət leksik interferensiya daha çoxdur. Məs.: Kooperativ- qapretiv, komsomol-qamsomol və s.

Nitq fəaliyyəti növlərindən biri də qrammatik interferensiya tipləridir. Xüsusən də, sintaktik intenrferensiyadır, nitqin önəmli tərəfini təşkil edir.

Bundan əlavə, interferensiya yazılı nitqdə sitat tipi kimi istifadə olunur. Bu termin-anlayış dilçilikdə vasitəsiz nitqin terminoloji vahidi kimi də işlədilir. "İnterferensiya sitatlı vasitəsiz nitqin ən çox işlədilən növüdür, lakin yazılı nitqdə sitata xas olan əlamətlərin hamısını özündə əks etdirmədiyindən bəzən diqqəti cəlb etmir" (6, s.42).

Sitat özgə nitqin formasıdır. Sitat müxtəlif nitq sisteminə malik hər hansı funksional üslublarda istifadə olunur. Sitatın mətndə müxtəlif struktur-semantik tipləri, mövqeləri, mətndə funksionallaşması və təsvir olunması mexanizmi mövcuddur.

Sitat eynilik və fərqlilik əlamətlərinə görə invariant və variantlara bölünür; bunlar mətndə əsas funksiyaları yerinə yetirir. Sitat struktur-semantik cəhətdən kommunikativliklə sıx əlaqədədir, özgə sözünün kommunikativ –funksional xüsusiyyətlərini işıqlandırır.

Sitata linqvokulturoloji baxış mədəni informasiyanı təmin edir, dil kollektivinin mühüm sosial və tarixi aspektlərini aydınlaşdırır (9, s.18).

Bizim tədqiqatda sitat bir linqvistik hadisə kimi öyrənilir. Sitatın nitq mexanizmi, mətndə funksionallaşması əsas diqqət mərkəzindədir. "Sitatın tərkibinə sitat əlavə olunur. Özgə nitqinin tərkibində interferensiya kimi verilən digərinin söz və ifadələri quruluş etibarilə bir leksik vahiddən, bir neçə leksik vahiddən, hətta bütöv cümlədən də ibarət olur"(11, s.3).

Alınma terminlərin bir qismi dilimizdəki öz sözlərimizlə sinonimdir. Bu komponentlərdən hansı birinin dildə qalmasına *«öz sözümüz daha yaxşıdır»* məntiqi ilə yanaşmaq, eynilə də alınma termini internasionallığına görə dilə gətirmək düzgün deyildir. Burada «öz sözümüz daha yaxşıdır» cümlədən ibarət interferensiyadır.

Digər bir nümunə: «Türk dillərinin tədqiqi sübut edir ki, bu dillərdə tədricən bağlayıcılı cümlələr çoxalmışdır. Lakin elə türk dilləri də var ki, onlarda bağlayıcısız tip üstünlük təşkil edir. N.Z.Hacıyeva bunu bağlayıcısız cümlələrin bağlayıcılı cümlələr üçün *«çox güclü konkurent olması ilə»* əlaqələndirmişdir» . Mətn

Q.Ş.Kazımovun "Seçilmiş əsərləri" nin VII cildindən götürülmüşdür. İnterferensiya olunmuş "cox güclü konkurent olması ilə" isə N.Hacıyevanın əsərindən həmin mətnin arasına daxil edilmişdir (7, s.11).

İntenferensiyanın işləkliyi mətndə sözçülüyün qarşısını alır və bu proses ətraflı üslubi məqamları formalaşdırır. Bəzi hallarda bir neçə cümlə ilə verilməli olan sitat və ya bədii mətn parçası bir neçə sözlə özgə nitqinin tərkibində özünü göstərir. Demək, bir özgə nitqinin (mətninin) içində digər bir özgənin sözlərinin qarışdırılıb, uyğunlaşdırılıb, qütbləşdirilib, həqiqətən də, vasitəsiz nitqin komponentlərindən biri olan özgə sözlərinin tərkibində özgə ifadələrinin söz və yaxud vahid cümlə durumunda verilməsi interferensiya faktıdır. İnterferensiyanın ilk seçilmə xüsusiyyəti dırnaqlarda verilməsidir. Məsələn: İki gün sonra Səadət xanımdan məktub aldım. Zərif kağız, göy astarlı paket, bənövşəyi mürəkkəb. Bunların hamısı, nədənsə, nəcib, təmiz, saf bir qəlbin nişanəsi kimi mənə xoş gəldi. Stansiyadakı görüşü xatırladım. Məktubunda, nigaran qaldığını yazırdı. *«Tənəzzül buyurarsa»,* ona *«təskini-qəlb»* üçün balaca bir cavab yazmağı xahiş edirdi. Onun xahişinə əməl etdim. Bir açıq məktub göndərdim(3,s.177).

Bu mətnin qapanmasında «tənəzzül buyurarsa» budaq cümlənin hissəsi və «təskini –qəlb» izafət tərkibli birləşmə interferensiyadır. Dırnaq içərisindəki bu konstruksiyalar sitatdır, amma sitat deyil, interferensiyadır; konstruksiyaların dırnaqlar arasında verilməsi onu göstərir ki, bunlar kiməsə məxsusdur. Sitatla interferensiya bir qədər fərqlənir. Adəti üzrə sitata məxəz göstərilir, interferensiya üçün isə məxəz göstərilmir, onu oxucu, yaxud dinləyici özü təyin edir.

İntenrferensiyadan publisistikada sitat növü kimi istifadə olunur, bu cəhət nitqin emosionallığını artırır. İnterferensiyanı yalnız sitatın bir növü kimi lokallaşdırmaq olmaz. Onun bir sıra formaları canlı nitq prosesində, bədii ədəbiyyatda, müasir mətbuat dilində işlədilir:

Canlı danışıqda:

Hello

Privet, privet.

Bədii ədəbiyyatda: Davay-davay; Poka, pokalar.

Mətbuatda: Neujeli, o etmiş olar.

Proqram və dərsliklərdə: «Doğrudur, II-VIII siniflər üzrə eyni 8 mövzu saxlanır və həmin mövzuların müxtəlif cəhətdən dərinləşdirilməsi, genişləndirilməsi nəzərdə tutulur. Amma, məncə, girişdə qeyd etmək olardı ki, *«Nitq inkişafı üçün mövzular»* elə də toxunulmaz deyildir, münasib şəkildə dəyişdirilə, bəzən genişləndirilə bilər. Çünki, məsələn, II sinifdə *«günəşin doğması, hər tərəfə işıq saçması»* kimi qeydlər proqramda artıqdır» (2, s.289).

Elmi dildə:" Mübtədanın ifadə oluna bilməsi və *«təsəvvür edilməməsi»* faktı dilin tarixi inkişaf prosesində bir neçə səbəblə bağlı olmuşdur və bu səbəblərdən hər biri XIX əsrin ədəbi dilində də özünü göstərməkdədir" (2, s.201).

İnterferensiyalar eyni və müxtəlif qaynaqlara əsaslanır. İnterferensiyanın əslini, məxəzini söz və ifadələr təşkil edir. Sitatda özgə sözləri dəyişilməz olduğu halda, interferensiya kimi özgə sözlərinin tərkibində istifadə olunan başqasının ifadələrinin strukturunda, müəyyən dəyişiklik əməliyyatı aparmaq olur.

Bir çox qaynaqlarda dırnaqda görünən sözlərə çox vaxt diqqət yetirmirik, bunun hansı bir səbəbdən işləndiyinin fərqinə varmırıq. Məs.: Mən çox utanırdım: bir küncdə oturmuşdum. Qonaqlar bir-bir gəlirdilər. Addım səsi eşidən kimi ürəyim döyünürdü. Təzə toyun nəzakət qaydalarını yadıma salırdım. Elə bil bibim qabağımda və ya çiynimdə oturub, qulağıma pıçıldayırdı: «Belə otur, elə otur!» (3, s.198).

Burada mətni yaradan sonuncu cümlə (belə otur, elə otur) interferensiyadır. Bunların əslini axtardıqda bəlli olur ki, bu interferensiya əks olunmuş düşüncənin mahiyyətini inikas etdirir və bununla da mətnin emosional yükü çoxalır, nitq yüngülləşir.

Xəyalda, düşüncədə interferensiyalar formalaşır: Hüsən istədi soruşsun, bəs indi nə məqsədlə gəlmisən, düşündü ki, *«qoy özü gəlib çıxsın ora»* Sonuncu interferensiya yenidən mətndə təkrarlanır, (bir qədər dəyişilmiş formada) mətni yaradır: *O ora gəlib çıxanadək,* bir göyçək gəlin gəldi (1, s.306).

Bədii ədəbiyyatda əks olunan interferensiyaların çoxu kinayə, tənə, lağ, məcaz və təşbeh (bənzətmə) bildirən sözlərlə öz ifadəsini tapır. Məs.: Son sovacağı görüb buranın işləklərini araşdırmaqla Hüsən qəti qərara gəlmişdi. Hər şeyi dib-dəhnədən öyrənməli, bilməlidir. *«Bazarkom»un* bir sözü onu hey düşündürürdü. Kişi çanaq papaqlı qadına demişdi: «Sən ki, bələdsən, bizə qan köçürürlər. Bir qolumuzdan alıb o birinə vururlar(1, s.311).

Burada «bazarkom» interferensiyasında kinayə çaları üstünlük təşkil edir.

İnterferensiya bir dil və nitq hadisəsi kimi müəllifin öz nitqindən ibarət olan mətnlərin də yaranmasında fəal iştirak edir.

Nəhayət, göstərmək olar ki, interferensiya hadisəsi adi danışıq dilində, bədii, elmi və publisistik əsərlərin dilində öz gerçək semantikasını, qrammatik vəzifəsini sitatın maraqlı bir növü kimi əks etdirir. Hər cür interferensiya seçilmə xüsusiyyəti kimi, dırnaqlar arasında verilir, məxəz (sitatın alındığı yer, əsil yer, mənbə) göstərilmədən yazılır, kimə və nəyə dair olması əksər durumda düşünmə, zehni və axtarıcılıq, yaradıcılıq tələb edən motivə çevrilir.

İnterferensiya müəllif nitqinin arasında verilən özgə nitqdir, cümlənin bir üzvünü əvəz edir.

Beləliklə, interferensiya olduqca maraqlı, dayanıqlı, davamlı bir hadisədir. Bir neçə istiqamətdə dərk olunur. Biz iki yöndə dərk edilən interferensiyadan bəhs etdik.

Qrammatik interferensiyanın feili forma səviyyəsində istifadəsi paradiqmatik, sintaqmatik, bəzən də qarışıq xarakter daşıyır. Azərbaycanlıların nitqi dillərarası interferensiyada əsas etibarilə dil forma və modellərinin identifikasiyası, onların

semantikası, iki dildə funksionallaşması ilə, dildaxili mənimsəmə qanunauyğunluqları ilə müşahidə olunur.

Azərbaycanlıların nitqində qrammatik interferensiya hadisəsinin öyrənilməsi təsdiq edir ki, bu arzuedilməz hadisə rus dili sintaktik vahidlərinin istifadəsi ilə korlanır.İnterferent nöqsanlar cümlədə sözlərin sırası ilə bağlı meydana çıxır. Ana dilində feili xəbərin mənimsənilməsi prosesində də bu kimi səhvlərlə qarşılaşmaq olur. İdarə və uzlaşma əlaqələrində.

Ümumiyyətlə, nitq strukturunda müxtəlif sistemli dillərin mətn quruluşunda interferensiya geniş yer tutur və onun mətnyaradıcı funksiyalarının tədqiqinə çox ciddi ehtiyac var.

Ədəbiyyat

Azərbaycan dilində :

1.Əhmədov S. Seşilmiş əsərləri.2 cilddə,1-ci cild.Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1989, 462s.

2. Kazımov Q. Ş. Seçilmiş əsərləri. 10 cilddə, 8-ci cild.Bakı:"Nurlan", 2010, 544s.

3. Mir Cəlal.Seçilmiş əsərləri.1 ci cild.Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1956, 499s.

Rus dilində:

4.Баранникова Л.И. Сущность интерференции и специфика ее проявления. Проблемы двуязычия и многоязычия. М.,Наука, 1972.

5.Булгакова Т.В. Грамматическая интерференция и иные факторы, влияющие на русскую речь узбеков. Ташкент: Гос.ун-т им.В.И.Ленина , 1977,84 стр.

6.Васильева С.Г. Разноязычие (смешанная речь) и типология билингвизма личности.Афтореф. дис. пед.наук. М., 2000.

7.Гаджиева Н.З. Синтаксис сложноподчиненного предложения в азербайджанском языке. Изд-во АН СССР, М., 1963,223 стр.

8.Дешериева Ю.Ю. Проблема интерференции и языкового дефицита. Дис. канд. филол. наук. М., 1976

9.Лотман Ю.М. Текст в тексте \\Труды по знаковым системам. Тарту:Тартуский гос. Ун-т. , 1981.-Вып. 567

10.Петрова Е.В. Цитация в письменном научном произвендении: Автореф. дис.канд.филол.наук. М., 1987.

11.Розенцвейг В.Ю. Проблемы языковой интерференции. Автореф. Дис. докт. филол.наук. М., 1975

12. Уман Л.И. Проблема грамматической интерференции. Автореф. Дис. канд.филол.нак. М., 1964

АЛИЕВА ЛЯТАФЕТ АЛИШАХ ГЫЗЫ, БГУ

ИНТЕРФЕРЕНЦИЯ РЕЧИ И ТЕКСТА

РЕЗЮМЕ

Ключевые слова: билингвизм, языковая интерференция, виды интерференции, интерференционные недостатки, языковая система, лексическая интерференция, синтаксическая интерференция, лингвистическая интерференция, языковые контакты

В статье речевая интерференция рассматривается как актуальная проблема языковой ситуации. Интерференция, возникающая в результате взаимодействия русского и азербайджанского языков, исследуется как важный фактор. При контактировании языков речь формируется в одном из них или же возникает в связи с другим языком. В статье раскрывается характер интерференции в процессе речи на фонетическом, лексическом и грамматическом уровнях, а также её различные степени в речи и тексте.

Интерференция - двуязычный процесс, возникающий в результате межъязыковых контактов. Билингвизм (двуязычие) формируется в практике двух языков. В данном процессе речевая деятельность носит индивидуальный характер. Внеязыковой характер интерференции связан с её лингвокультурологическими особенностями. Этот признак наблюдается в процессе активного общения. Внеязыковая интерференция проявляется и на просодическом уровне. Различные интонационные контуры выявляют взаимосвязь и различие между двумя языками.

В статье также говорится об употреблении интерференции как вида цитаты в письменной речи. Цитата рассматривается как лингвистическое явление, исследуется её речевой механизм и функционирование в тексте. Ряд форм интерференции используется в живом разговорном языке, в художественной литературе, в языке современной печати.

Интерференция как языковое и речевое явление активно участвует и в создании текстов, состоящих из авторской речи. Интерференция отличается от заимствованных слов, она возникает под воздействием другого языка. Интерференция всегда связана со структурой языка. Она образуется как результат взаимосвязи языков.

Таким образом, интерференция - весьма интересное, устойчивое и продолжительное явление, воспринимаемое в нескольких направлениях. Интерференция занимает значительное место в структуре речи и в структуре текста разносистемных языков.

LATAFAT ALIYEVA

INTERFERENCE OF SPEECH AND TEXT

SUMMARY

Keywords: bilingualism, linguistic interference , types of interference, interference shortcomings, language system, lexical interference,syntactic interference, language contacts

The article deals with the speech interference which is considered as an urgent problem of the language situation. Interference that occurs as a result of the interaction of the Russian and Azerbaijani languages is studied as an important factor. When languages come in contact speech is formed in one of them or arises in connection with another language. The article reveals the nature of interference in the process of speech at the phonetic, lexical and grammatical levels, as well as its various degrees in speech and text.

Interference is a bilingual process resulting from interlingual contacts. Bilingualism is formed in the practice of languages.Speech activity has individual character in this process. The non- linguistic nature of interference is associated with its linguoculturological peculiarities. This feature is observed in the process of active communication. Non- linguistic interference manifests itself at the prosodic level. The different intonation contours reveal relationship and difference between the two languages.

The article also highlights the use of interference as a type of quotation in writing.The quotation is considered as a linguistic phenomenon, its speech mechanism and functioning are studied. A number of forms of interference are used in spoken language, in fiction, in the language of the modern press.

Interference as a linguistic and speech phenomenon is actively involved in the creation of texts consisting of the author's speech. Interference differs from borrowed words, it occurs under the influence of another language. Interference is always related to the structure of the language.It is formed as a result of the interconnection of languages.

Thus, iInterference is a very interesting, stable and long-lasting phenomenon perceived in several directions. Interference takes a significant place in the structure of speech and in the structure of text of the multi-system language.

Redaksiyaya daxil olma tarixi: 25.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **filologiya üzrə fəlsəfə doktoru, Səidə Abbasova** tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRMİN ŞAHMƏMMƏDOVA
ADU
Rəşid Behbudov 134
E-mail: narmin@yahoo.com

QRAMMATİKA DİL SƏRİŞTƏSİNİN KOMPONENTİ KİMİ

Xülasə

Ənənəvi qrammatika bir elm sahəsi olaraq çoxşaxəli və rəngarəng bilgilər tarixidir və bu tarixin dərin mərhələlərində hələ də açılmamış qapılar, ziddiyətli məsələlər qalmışdır (2003,səh.16). Sürətlə dəyişən dünyamızda hər şey dəyişdiyi kimi dilçilik elmi də, xüsusilə qrammatika sahəsi ilk yarandığı gündən indiki dövrə qədər xeyli dəyişmiş, fərqli meyillər, yeni tendensiyalar, mövzulara müxtəlif yanaşmalar ortaya çıxmışdır. Qrammatikanı bir elm sahəsi kimi daha dəqiq və ətraflı öyrənmək, araşdırmaq və analiz etmək üçün, sözsüz, onun bünövrəsi qoyulduğu andan hal-hazırkı vəziyyətinə qədər keçdiyi zaman yoluna nəzər yetirmək lazımdır.

Hər hansı bir fenomenin və ya konseptin istər tarixi inkişafını, istərsə də strukturasını analiz etməkdən əvvəl başlanğıc olaraq, həmin fenomenin nə olduğuna, nəyi ifadə etdiyinə nəzər salmaq lazımdır. Belə ki, ilk öncə qrammatika nədir, qrammatikaya müxtəlif yanaşmalar hansı şəkildədir deyə diqqət yetirək. Qrammatika termini qədim yunan sözü olan grammatikē sözündən götürülmüşdür. Gram yazı, yazılmış, tikē isə incəsənət deməkdir, bütövlükdə grammatikē yazının incəsənəti mənasına gəlib çıxır. Qədim Yunanıstanda və qədim Romada qrammatikē və qrammatika terminləri bütövlükdə dilçilik elmini əhatə edən bir sahə kimi başa düşülsə də, erkən orta əsrlərdə qrammatika Latın dilinin öyrənilməsi kimi qeydə alınmağa başladı. İngiltərədə bu fikir 16-cı əsrin sonlarına qədər davam etdi və Latın dilinin qrammatikası məktəblərdə tədris olunan yeganə qrammatika idi. Bu dövrə qədər İngilis dilinin qrammatikası barəsində düşünülməmişdir.

Açar sözlər: **deskriptiv qrammatika, stabilləşmə, dil fenomeni, neo-qrammatika, dil mexanizmləri**

İngilis dilinin qrammatikası haqqında ilk kitab 1585-ci ildə Vilyam Bullokar tərəfindən yazılmış "İngilis dili üçün yığcam qrammatika" kitabı (Bref Grammar for English) oldu. Amma ən təsiredici və daha çox marağa səbəb olan kitab 1762-cı ildə dərc olunan və müəllifi R.Louz olan "İngilis dilinin qrammatikasına qısa giriş" (Short İntroduction to English Grammar) adlı kitab idi. Bu kitabla ilk dəfə preskriptiv, yəni normativ qrammatika erası başladı. Preskriptiv qrammatikaya üstünlük verən alimin fikrincə, qrammatika dilin düzgün istifadə qaydaları haqqında elmdir, və onun məqsədi müəyyən dövrdəki aktual istifadəsini deyil, hansı istifadənin daha doğru olduğunu araşdırmaqdır.

Dilçilik tarixi dövr baxımından müxtəlif mərhələlərə bölünür ki bu mərhələlərdə müvafiq olaraq dilçiliyin obyekti fərqli mövzular olmuşdur. Erkən dövrlərdə Avropa dilçilik məktəbində, daha dəqiq desək Qədim Yunanıstanda dili tanrıların bir hədiyyəsi kimi qəbul edirdilər (Platon), yaxud da ruhlar qrupunun yaratdığı bir istehlak kimi başa düşürdülər (Aristotel). Bu dövrdə diqqət mərkəzində dilin mexanizmləri və ya strukturası deyil, sadəcə dil fenomeni idi. Bununla yanaşı, qədim yunanlar və romalılar sözlərin təbiəti ilə bağlı müxtəlif araşdırmalar aparmış və hələ də istifadə olunan isim, fel, sifət və s. kimi geniş leksik kateqoriyaları dilçiliyə gətirmişlər.

Qədim qrammatikadan danışarkən Hindistanın bu sahədə xidmətlərini qeyd etməmək mümkün deyil. Eramızdan əvvəl 4-cü əsrdə yaşamış hindistanlı alim Panini öz dövründən əvvəlki zamanların da qrammatikası haqqında məlumat verərək, sanskrit dilinin fonetik qurumunu daha dərindən açıqlamışdır. Panininin böyük əməyi ilə sanskritin kəşfi nəinki yeni dilin strukturasını öyrənməyə şərait yaratdı, həmçinin Hindistanın zəngin qrammatika ənənəsini araşdırmağa köməklik etdi.

Mətnin formalaşmasında, onun özünün kommunikativ təyinatını yerinə yetirilməsində dilin bütün səviyyələrinin vahidləri öz töhfələrini verməlidir. Janr mənsubliyyətindən asılı olmadan istənilən mətnin yaranmasında hər bir səviyyənin vahidi iştirak etməlidir. Burada dilin fonoloji, morfoloji, leksik, sintaktik səviyyələri ilə yanaşı dilxarici amillər – kontekst, situasiya, konsituasiya, intonasiya və s. xüsusi əhəmiyyətə malikdir. Bu amillər içərisində qrammatik kontekst də vardır.

E.Makkormak qrammatik kontekstlə bağlı fikirləri xüsusi maraq kəsb edir. Onun fikrincə, qrammatik kontekst "vasitələrin təşkil olunması, kontekstlərin təşkili və kontekstlərə istinad kimi, məlumatın verilməsi üçün verbal və ya qeyri-verbal vasitələrin təşkili"dir (3, s. 97). Müəllifin qeydinə görə, qrammatik kontekst aşağıdakı kontekstlərin məcmusundan təşkil olunur: "linqvistik kontekst, paralinqvistik kontekst, situativ kontekst, mədəniyyət konteksti, psixoloji kontekst" (3, s. 98).

Müasir linqvistik paradiqmdə qrammatik proseslərin öyrənilməsinə müraciət xüsusi əhəmiyyət daşımaqdadır ki, bu da informasiyanın ötürülməsi üsullarının dərk olunmasına zəmin yaradır.

Mətnə xas olan semantik çoxcəhətlilik özünü leksik və sintaktik vahidlərin birbaşa və ya məcazi mənalarında ifadə olumuş implisitlikdə nümayiş etdirir. Bu baxımdan mətnin kontekstlə bağlı informativliyinin öyrənilməsi əhəmiyyəti ilə səciyyələndirilə bilər. Dil işarəsinin strukturunda müşahidə olunan spesifik münasibətlər forma və mənanın müəyyən avtonomluğu ilə səciyyələnən məzmun və ifadə planlarının korrelyasiyasında öz əksini tapır. Dilin funksional və məzmun planları konqruent deyil, onlar linqvistik işarənin asimmetrik dualizmi ilə determinəşmişlər. Bununla bağlı əlavə etmək lazımdır ki, ifadə planının çoxfunksionallığı və məzmun planının vahidinin omonimliyi tutumlu və çoxsaylı

struktur təşkilli məzmun planı və nisbətən sadə və sayca az ifadə planı vahidi ilə üst-üstə düşmür.

A.N. Kojin qrammatik konteksti makro- və mikrokontekst olmaqla iki yerə bölür. Müəllif mikrokontekst dedikdə "söz birləşməsi və cümlə səviyyəsində xüsusi linqvistik konteksti" başa düşürsə, makrokontekst altında isə kommunikantın söyləmi mənasını başa düşməyə qabil biliklərinin cəmi kimi presuppozisiyanın mövcudluğunu başa düşür. Presuppozisiya ekstralinqvistik əsasda, situasiyanı bilməyə əsaslana bilər (4, s. 76).

Hər bir mətn üçün onun baş vermə konteksti olur. Bu kontekstin (konsituasiya) həm dildaxili, həm də dilxarici formaları vardır. Dildaxili şərait danışıqda iştirak edənlərin nitqinin əlaqələnməsinin sual və cavabların məzmunundan asılı olub, nitq aktının nitq iştirakçılarından birindən digərinə keçməsinin linqvistik xüsusiyyətləri ilə səciyyələnir. Dilxarici şərait isə nitqin baş verməsinə və onun strukturuna, digər xüsusiyyətlərinə təsir göstərən vəziyyətlə bağlıdır. Nitq şəraiti ünsiyyətin baş verdiyi şəraitin bütün elementlərini əhatə edir. Şifahi nitq aktında bilavasitə nitq şəraiti ilə bağlı olaraq danışıqda özünə yer alan dil vahidləri işlədilir. Belə vahidlər situativ vahidlər adlanır (1, s. 90).

Mətnin struktur bütövlüyü triadası və onun komponentləri daxili məna bütövlüyünün xarici ifadəsidir. Sonuncu isə mətnin dinamik təşkillik aspektini əks etdirərək onun kommunikativliyində ifadə olunur. Bu o deməkdir ki, mətnin hər bir sonrakı tərkibi özündən əvvəlkinə istinad edir və bununla da söyləmi məlum olandan yeniyə doğru hərəkətə gətirir. Lakin mətnin məna baxımdan bütövlüyü tema aspektində şərh edilir. Mətndə temanın müəyyənləşdirilməsində xarakterik strukturu diqtə edən fakt və ya informasiya, əsas fikir və əsas ideya kimi predmet sahəsi ön plana çıxır (3, s. 81).

Aydındır ki, istənilən mətndə məlumatın implisitliyi konkret kontekstlə formalaşır və bu da, öz növbəsində, resipiyentə cümlədə, abzasda, mətndə aşkar və gizli formada qeydə alınmış məlumatı (informasiyanı) qavramağa və şərh etməyə imkan verir. A.N. Kojinin fikrincə, kontekst "hər hansı bir dil vahidinin məzmununun (leksik, qrammatik və s.) birmənalı aşkarlandığı formal cəhətdən qeydə alınmış şəraitlərin məcmusudur, bu zaman birmənalılıq altında verilmiş şəraitdə dil formasının (məsələn, sözün bir mənasını, qrammatik formanın bir mənasını və s.) konkret bir məzmununun təzahürünü başa düşmək lazımdır" (2, s. 21). Bununla bəqabər, A.N. Kojin öz tədqiqatında kontekstin üç növünü fərqləndirir:

a) cümlə və ya söyləmin hüdudları ilə məhdudlaşmış mikrokontekst;
b) abzasın həcmini əhatə edən / dialoji vəhdət – makrokontekst;
c) əksər hallarda bədii mətnin həcmi ilə üst-üstə düşən meqakontekst (2, s. 30).

Koqnitiv qrammatikada qrammatika, semantika və leksika ayrılıqda öyrənilən proses kimi deyil, hamısı bir arada təcəssüm edən kontinuum kimi qəbul edilir. Dilə olan bu cür yanaşma koqnitiv dilçiliyin bir mövqeyi kimi qəbul edilir.

5-ci və 10-cu əsrlərdə demək olar ki, dilçilik sahəsi öz qaranlıq illərini yaşamış və əvvəlki statusunu qazanmaq üçün ən yavaş hərəkət edən bir elm institutu olmuşdur. Bu əsrlər ərzində dil fenomeni öyrənilməsi vacib olmayan bir elm sahəsi kimi qələmə verilmiş, və ona daha çox din sahəsi kimi baxılmışdır. 15-ci əsrdə Stefen Skrop və Antoni Vudvil öyrənməni, xüsusilə də dil öyrənməni daxili inkişaf adlandıraraq buna yalnız bu elmləri araşdıraraq və öyrənərək nail olmaqdan bəhs edirdilər. Beləliklə, intibah dövrü ilə bu tənəzzülə son qoyulmuş və 18-ci əsrdən etibarən dilçilik müstəvisində bir çox yeni istiqamətlər meydana gəlmişdir. Bəzi alimlər, məsələn Svift, dildə yaranan köklü yeni meyillərin qarşısını almaq üçün dəyişiklikləri azaltmaqla müəyyən dili stabilləşdirməyə çalışmışlar. Bu stabilləşmənin bir parçası kimi standard leksika və yazı formasının yaradılması idi. Ədəbi dili dialektdən ayırmaq da qarşıda duran əsas vəzifələrdən biri idi. Lakin 18-ci əsrdə dil stabilləşdirilməsinin əsas məqsədi dildə standard elmi qrammatikanın yaradılması idi. Svift qeyd edirdi ki, tamamilə mükəmməl olmayan qrammatika dəyişkən qrammatikadan daha yaxşıdır. Bütün deyilənləri nəzərə alaraq deyə bilərik ki, tarix boyunca bütün alimlər və ya dilşünaslar az və ya çox dərəcədə qrammatikanın nə olduğunu bilir və öz fərziyyələrini irəli sürürdülər. Amma qrammatika təbiəti ilə bağlı dəqiq tərif vermək bir az çətin görünürdü. 20-ci əsrə qədər dilçilik elminin əsas qayəsini qrammatika təşkil edirdi və bu minvalla, qrammatika alimləri elə təsiredici qüvvəyə malik oldular ki, dilçilik sahəsi qrammatika kimi tanınmağa başladı. Yalnız 20-ci əsrin 60-cı illərində müasir linqvistikanın atası hesab olunan Ferdinand de Sössür özündən əvvəli linqvistlərdən fərqli olaraq qrammatika elmini bütövlükdə dilçilik elmi kimi qələmə almamağa başladı. Onun bu fikirləri öz dövrünün məhsulu idi, nəticə etibarı ilə Ferdinand de Sössür qrammatikanı dilin ideallaşdırlmış forması kimi qələmə verən 18-ci və 19-cu əsr linqvistləri ilə və neo-qrammatika alimləri ilə mübarizə aparırdı. Sössürə görə dil danışıq və yazı sayəsində həyata keçir və qrammatika ayrıca bir elm sahəsi kimi dilçilikdən qopa bilməz (Sössür, səh.81).

Yuxarıda qeyd edilən qrammatika haqqında yeni, müasir düşüncə yalnız 19-cu əsrdə elmi deskriptiv qrammatikanın yaranması ilə meydana gəldi. Deskriptiv qrammatikanın tərəfdarı olan dilşünaslar qrammatikanın dilin strukturasının sistematik təsviri olduğunu irəli sürürdülər. Struktural deskriptiv dilçiliyin yaranması ilə bərabər qrammatika müəyyən zaman kəsiyində müəyyən dilin söz strukturası və söz sıralaması mənasını verməyə başladı. Onlardan fərqli olaraq transformasional-generativ qrammatika alimləri qrammatikanı cümlələri tələffüz etmək üçün bir mexanizm adlandırırlar. Belə ki, qrammatikaya aktual tərif vermək praqmatik faktorlarla müəyyənləşdirilir. Ümumilikdə, müəyyən dildə danışmağı və yazmağı öyrənmək istəyən həmin dilin qaydalar toplusuna diqqət ayırır, dilin strukturunu öyrənmək istəyən dili formalaşdıran amilləri və onların əlaqəsini öyrənməyə çalışır və sonda, həmin dilin istifadəçilərinin fikirlərini necə ötürməsini və qəbul etməsini öyrənmək istəyən istifadə olunan qaydaların təbiəti və istifadəsi ilə maraqlanır. Belə

ki, qrammatikanın əsas olaraq iki növündən bəhs edilir- praktiki və nəzəri qrammatika. Praktiki qrammatika dil strukturasının istifadəsi haqqında praktiki qaydaları təqdim etsə də, nəzəri qrammatika dilçiliyin və dilçilik məktəbləri və yanaşmalarının ümumi prinsipləri əsasında dil strukturasının analizi haqqında bilikləri dil müstəvisinə yatırır. Tarix boyunca, İngilis dili qrammatikası ümumi məqsədlərinə və hədəflərinə uyğun olaraq bu növlərə ayrılır- a) ənənəvi qrammatika (preskriptiv və struktural olmayan deskriptiv qrammatika), b) struktural deskriptiv qrammatika və c) transformasional-generativ qrammatika.

Illər ərzində qrammatika konseptinə verilmiş izahatlar ərzində ən çox diqqət cəlb edən 1954-cü ildə Nelson Françisin "Qrammatikanın üç mənası" (The Three Meanings of Grammar) adlı kitabında verdiyi təriflərdir. Birinci mənada müəllif qrammatikanı dildə olan sözlərin müəyyən məna kəsb etməsi üçün bir-birini əvəzləməsi qaydaları adlandırmışdır. Burada qeyd edilən qaydalar şüurlu şəkildə öyrənilmiş deyil, 5-6 yaşlarında uşağın istifadə etdiyi dil nəzərdə tutulurdu. İkinci mənada qrammatika linqvistikanın bir qolu kimi analiz edilir və onun mənası dilin quruluşu, strukturası, tərkibi sayəsində açıqlanır. Müəllifin fikrincə, necə ki Nyuton qravitasiyanı kəşf edənə qədər qravitasiya mövcud idi, eləcə də qrammatika tarixi bir elm kimi araşdırılmamışdan qabaq qrammatika elmi mövcud idi. Üçüncü mənada qrammatika dil etiketi mənasında işlədilir. Nelsonun fikrincə, ikinci mənada qrammatikanın düzgün öyrədilməsi birinci mənada qrammatikanın istifadəsini səriştəli edər və üçüncü mənada qrammatikada üslubları inkişaf etdirər.

Hal-hazırda qrammatika sahəsində yeni tendensiyalar bir-birini əvəz edir. Vaxtilə dil öyrənmədə əsas nüans götürülən qrammatika və hər hansı bir dilin tədrisində dominant metod olan qrammatika-tərcümə metodu yavaş-yavaş öz aktuallığını itirərək dil qrammatikasından kommunikativ qrammatikaya keçid dövrü başlamışdır. Buna səbəb olaraq dünya qloballaşmasını götürən filoloqlar və müəllimlər bugünkü dövrdə bəzən qrammatikaya soyuq yanaşır. Halbuki, A.P.Martiniçin aforizmində deyildiyi kimi, bu bir faktdır ki, yaxşı fəlsəfənin yarısını yaxşı qrammatika təşkil edir.

ƏDƏBİYYAT

1. De Saussure, F. (1966). B. Wade Trans. Course in general linguistics. New York: McGraw-Hill. p. 81
2. Fəxrəddin Y. Veysəlli (2003) "German dilçiliyinə giriş". Bakı. "Təhsil" NPM. səh. 16-17
3. Lowth, R. (1775). A Short Introduction to English Grammar. London.
4. William Bullokar (1586) *Bref Grammar for English*.London
5. W. Nelson Francis (1954) "Revolution in Grammar," Quarterly Journal of Speech, 40, p.299-312

SHAHMAMMADOVA N.

GRAMMAR AS A COMPONENT OF LINGUISTIC COMPETENCE

SUMMARY

The article deals with the historical development of the concept of grammar from ancient times until modern world. It gives detailed information about the distinct approaches on the structure of grammar and focuses on the various definitions given to this term in different periods of time.

This article is based on the materials of the well-known scholars-linguists' books who are studying grammar as a main component of the linguistics.

Traditional grammar, as a field of science, is a multifaceted and colorful history of knowledge, and in the deepest stages of this history, unopened doors and conflicting issues remain. Just as everything has changed in our rapidly changing world, the science of linguistics, especially grammar, has changed significantly from its inception to the present day, with different tendencies, new trends, and different approaches to topics. In order to study, research and analyze grammar more accurately and in detail as a field of science, it is necessary to look at the way in which it has passed from its foundation to its present state.

Before analyzing either the historical development or the structure of any phenomenon or concept, it is necessary to first look at what that phenomenon is and what it means. So, first of all, let's pay attention to what grammar is and how different approaches to grammar are. The term grammar is derived from the ancient Greek word grammatical. Gram writing means writing, and tik means art, and grammar means art as a whole.

Key words: **descriptive grammar, stabilization, language phenomenon, neo-grammar, mechanisms of a language**

ШАХМАМЕДОВА Н.

ГРАММАТИКА КАК СОСТАВЛЯЮЩАЯ ЯЗЫКОВОЙ КОМПЕТЕНЦИИ

РЕЗЮМЕ

Данная статья посвящена историческому развитию грамматики прошлого и настоящего. В центре статьи стоят различные объяснения грамматики на разных этапах времени и разные подходы к ее структуре.

Статья основывается на материалах собранных из книг известных авторов-лингвистов, изучающих грамматику как составную часть лингвистики.

Традиционная грамматика, как область науки, представляет собой многогранную и красочную историю знаний, и на самых глубоких этапах этой истории остаются неоткрытые двери и противоречивые вопросы. Так же, как все изменилось в нашем быстро меняющемся мире, наука лингвистика, особенно грамматика, значительно изменилась с момента своего зарождения до наших дней, с разными тенденциями, новыми тенденциями и разными

подходами к темам. Чтобы изучать, исследовать и анализировать грамматику более точно и подробно как область науки, необходимо взглянуть на то, как она прошла путь от основания до нынешнего состояния.

Прежде чем анализировать историческое развитие или структуру какого-либо явления или концепции, необходимо сначала взглянуть на то, что это за явление и что оно означает. Итак, в первую очередь обратим внимание на то, что такое грамматика и насколько разные подходы к грамматике. Термин грамматика происходит от древнегреческого слова грамматический. Грамматика - это письмо, тик - искусство, а грамматика - искусство в целом.

Ключевые слова: **описательный грамматика, стабильность, феномен языка, нео-грамматика, механизм языка**

Redaksiyaya daxil olma tarixi: 24.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: Filol.f.d., dos. C.M.Babayev
tərəfindən çapa tövsiyə olunmuşdur

NƏZAKƏT HƏSƏNOVA
ADU
Təbriz küçəsi
nezakethasanova.a@gmail.com

BƏDİİ MƏTN ÜZRƏ METAFORLARIN XÜSUSİYYƏTLƏRİ

Xülasə

Metaforu ixtisar olunmuş müqayisə adlandırmışlar. Müqayisə predmetləri metaforun əsasını təşkil edir. Müqayisə modeli ilə metafor modeli arasında fərq yaranır, çünki müqayisənin əsasında tutuşdurma, müqayisə durursa, metaforlarda müqayisə sanki qizli qalır, məna köçürülməsi ön plana keçir. İxtisar nəticəsində yaranan model metafor bənzətmədən əsaslı şəkildə fərqlənir.

Metaforların əsas xüsusiyyətlərindən biri onların nominativliyə malik olduğundan ləqəblər bu yolla yaranır. Məsələn, E. Heminqveyin məhşur əsəri "The old man and the sea" əsərinin adı və yaxud M. Ondaatjinin məhşur romanının adı "The English Patient" və s. leksikada bu üsulla yaranan söz yaradıcılığı texniki üsul adlanır.

Bəzən başqa predmetlərə aid əlamətlər insanların üzərinə köçürülməklə bəzi sifətlər ritorik mühitə daxil olur, yəni onlar sifətlik anlayışından uzaqlaşıb nominativ mənanı daşıyır. Məsələn, Artson was too acute to wonder.

Ümumilikdə, metaforikləşmə zamanı əlamət köçürülməsi insan-təbiət, təbiət-insan və s. modelləri üzrə baş verir. Məsələn:

I wish I was the fish he thought, with everything he has against only my will and my intelligence.

Burada metaforik model məhz məna köçürmələri əsasında formalaşmışdır. Metaforlar təkcə məzmun köçürülməsi deyil, metafor müstəvisinə çıxarılarkən əlamət, keyfiyyət və s. məzmunlu sözlərin yeni mühitdə, yeni situasiyada yenidən dəyərləndirilməsidir.

Bədii diskurs üzrə metaforları araşdırdıqca aşağıdakı dörd xüsusiyyət diqqəti cəlb edir:

1. Obrazlı metafor. Oxşar mənanın predikativliyə keçməsi və dilin sinonimik cərgəsinin zənginləşməsi.
2. Nominativ metaforlar. Bir təsviri mənadan digərinə keçid.
3. Koqnitiv metafor. Predikativ birləşmələrin, omonimlərin yaranması.
4. Koqnitiv metaforların sonu – nəticəsi. Bu ritorikada sözün məntiqi sərhəddinin silinməsi, daha ümumi məna yaratması kimi izah edilir.

Göründüyü kimi, metaforlar subyektivdir, daşıdığı informasiya baxımından isə qeyri-müəyyəndir, birmənalı deyil. Eyni zamanda, metaforların əsas yayılma və törəmə səhnəsi müxtəlif ədəbi mətnlərdir.

Açar sözlər: bədii mətn, bədii diskurs, obrazlı metafor,nominativ metafor, məzmun köçürülməsi, sinonimik cərgə, predikativ birləşmə, konseptual sahə.

Metaforlarda predmetin əlamətindən hadisəyə, situasiyaya, fakta, fikrə, konsepsiyaya doğru köçürmə baş verir. Ardıcıllıq, səbəb, məqsədyönlülük və s. mənaları ifadə edən məntiqi predikat aşkar edir.

Bədii mətn üzrə metaforları araşdırdıqca aşağıdakı dörd xüsusiyyət diqqəti cəlb edir:

1. Obrazlı metafor. Oxşar mənanın predikativliyə keçməsi və dilin sinonimik cərgəsinin zənginləşməsi.

2. Nominativ metaforlar. Bir təsviri mənadan digərinə keçid.

3. Koqnitiv metafor. Predikativ birləşmələrin, omonimlərin yaranması.

4. Koqnitiv metaforların sonu - nəticəsi. Bu ritorikada sözün məntiqi sərhəddinin silinməsi, daha ümumi məna yaratması kimi izah edilir.

Dilin mühüm qanunlarından biri dilin daim dəyişməsi və inkişaf etməsidir. Dilin dəyişməsi anlayışı isə bütövlükdə dilin bütün parametrlərini əhatə edir. Bu mənada tədqiqatda araşdırdığımız metaforalar getdikcə metaforik məzmun baxımından zəifləyərək standart semantikaya daxil olur, yəni subyektiv ölçülərdən çıxaraq ümumdil kontekstinə daxil olur.

Göründüyü kimi, metaforlar subyektivdir, daşıdığı informasiya baxımından isə qeyri-müəyyəndir, birmənalı deyil. Bundan təkcə bədii mətnlərdə deyil, kütləvi informasiya vasitələrində də geniş şəkildə istifadə olunur. Ancaq siyasi, məhkəmə və s. mətnlərində mümkün qədər az işlədilir, çünki bu üslub ciddi üslub sayılır, fikrin birmənalı, dəqiq ifadəsi əsas tutulur. Deməli, metaforalar praktik nitqdə nitqin praktik-emosional aspektlərində fəal surətdə tətbiq olunur.

Bədii mətnlərdə uzaq mənaların bir-biri ilə əlaqələnməsi, fikirlə obrazm bütövlüyü, məna diffuzluğu və s. əlamətlər xüsusi nəzərə çarpır. Demək olar ki, metaforaların əsas yayılma və törəmə səhnəsi müxtəlif ədəbi mətnlərdir.

Metaforikləşmə zamanı leksik vahidi təşkil edən semlər toplusundan birində fakültativ funksiya meydana gəlir və fəallaşır. Nəticədə sözün semantik quruluşunda zənginləşmə baş verir. Bildiyimiz kimi, sem dil vahidlərinin məzmun planında sərbəst olmayan minimal vahididir [1, s. 16]. Dilçilərin fikrincə, semlər dil vasitəsi ilə təxmini şəkildə ifadə olunur. Semlər toplusuna daxil hər bir semin semantik baxımdan müəyyən çəkisi olur. Haqqında danışılan funksional semlər denotata və digər hərəkətə münasibəti bildirmə qabiliyyətinə görə müəyyənləşmiş fakültativ semdir. Məsələn, *"golden ring (qızıl üzük)"* birləşməsində *"gold"* leksemi ilə *"ring"* lekseminə yeni sem əlavə olunur. Bu, funksional semdir, fakültativ xarakter daşıyır, semler toplusuna əlavə olunan kütlədir.

Metaforik birləşmələrdə funksional sem bəzən referentə adəti üzrə xarakterik olmayan əlaməti birləşdirir, onun işlək tezliyi, bədii mətndə işlənmə radiusu artdıqca silinmiş metaforalara doğru inkişaf edir və onun semi yavaş-yavaş funksionallıqdan çıxır. Məsələn, zəhərli baxış, iti baxış, acı gülüş və s.

Digər qrup metaforalarda isə, iki mənanın birləşməsi nəticəsində, hər hansı bütöv bir kompleks yaranır və qavrayışda bir mənadan digərinə keçid üzrə hərəkət

baş verir, sanki hər bir məna digərini dəlib keçir. Nəticədə isə bir məna digəri üzərində dominantlıq edir.

Beləliklə, metaforik inkişafın semantik törəmə mexanizmi, aşağıdakı məsələlərə ehtiva edir:

1. Semantik topluda mövcud olan semlərdən birinin fəallaşaraq ön plana çıxması.

2. Semantik topluya metaforik anlayışı ifadə edən yeni semin əlavə olunması.

3. Mətnin sonrakı hərəkətinə, inkişafına stimul verən metafora obyektlərinin predikativ səciyyəsinin genişlənməsi.

Görkəmli ingilis filosofu Maks Blək bunları filtr adlandırır [2]. Metaforaların öyrənilməsinin digər aspekti törəmə-sintaktik aspektdir. Bunu aydınlaşdırmaq üçün aşağıdakı misala müraciət edək:

The sun was on the old man's left arm and shoulder and on his back [5, p.5]. (Günəş qoca kişinin sol qolunun, çiyninin və belinin üstünə düşürdü).

Əgər, Someone was on the old man's left arm and shoulder and on his back (Kimsə qoca kişinin sol qolunun, çiyninin və belinin üstündə idi), desək, belə halda bu, baza strukturu hesab olunur. Lakin *the sun was* introduktiv (yəni təqdimat) struktura daxildir. Əslində, qeyd olunan baza strukturunu yenidən *the sun* obyekti ilə mənalandırır. Nəticədə cümlə strukturu metaforik dona bürünür, köhnə strukturda yeni məna meydana gəlir.

Məlum olduğu kimi, ingilisdilli bədii mətn böyük mətnlər toplusu olur. Bu ədəbiyyat intertekstuallığı, müəllif siması, ziddiyyəti, diskretliyi, fraqmentliyi, nəqli prosodiya modulluğu və s, xüsusiyyətləri ilə səciyyəvidir. Bu xüsusiyyətlər əsasında dünyanın saysız-hesabsız fikirlərini, mənzərələrini, müxtəlif mədəni kodların geterogen (ingilis dilində *heterogeneous* - bir-birindən fərqli, ayrı) cəmliyi yaranır.

İngilisdilli bədii mətndə "insan" konsepti xüsusi əhəmiyyət kəsb edir, daha doğrusu, insanın fiziki ruhu, onun emosional-psixoloji mühiti, həyatı bu baxımdan xüsusi önəm daşıyır.

Bildiyimiz kimi, metafor təfəkkür mexanizmini özündə əks etdirir, idrakı qavrayışı, dünyanın konseptləşdirilməsi və kateqoriallaşmasını ifadə edir. Biz buna əsaslanaraq mədəni freym kimi, metaforik konsept anlayışından istifadə edəcəyik. Metaforlar geniş anlayış mühitinin düşünülüb tapılmasında, insanın yeni assosiasiyaların duyulmasında və konseptin strukturlaşmasmda xüsusi rol oynayır. Metaforik yaradıcılığın əsasını, analogiyaya görə iki mental sahənin köçürülmə təmasına söykənən koqnitiv proses təşkil edir.

Araşdırdığımız bədii mətndə insan konseptini nəzərdən keçirək. Müxtəlif sayda qəhrəmanlar, obrazlar, xarakterlər yazıçının bədii sistemində insan konseptini meydana gətirir. İnsan konsepti ingilisdilli yazıçıların düşüncəsində fəlsəfi, sosial, dini, mədəni, emosional və həyatın digər sahələrində qazanılan təcrübəni əks etdirir.

I. İnsanın fiziki ruh freymi: Aparılan tədqiqatlar əsasında ingilisdilli ədəbiyyatda həmin freymlərin metafora modeli əsasında verildiyi müəyyənləşir. Bəzi

tədqiqatçılar belə modelin sayca 390-a qədər olduğunu qeyd edirlər [4, s. 48]. Bunların içərisində ən çox işlənəni *Human beings are animals (Bəşər evladları heyvandırlar), Human beings are plants (Bəşər evladları bitkidirlər), Human beings are inanimate objects (Bəşər evladları cansız əşyalardır), Human beings are artifacts (Bəşər evladları artifaktlardır), Human beings are abstract notions (Bəşər evladları mücərrəd məfhumlardır)* modelləri daha fəaldır.

Animalistik (heyvan məfhumlu) konseptual metafora kimi *Human being are animals* modeli hər şeydən əlavə ilan, yarasa, kərtənkələ və s. heyvanlarla müqayisə əsasında yaranır. Qeyd olunan bu assosiativ əlaqələr mənfi konnotasiyanın (mənalı çaların) yaranmasına xidmət edir.

Fitomorf metaforlar geniş konnotativ mənaya malikdir *(looking like a strange vegetable growth (göyərmiş qəribə bir tərəvəzə bənzəyən), a permanent vegetable (dəyişməz insana deyilir), a showy flower (diqqət mərkəzində olmağa çalışan insana deyilir));* neytral məna *(as brown as a berry (giləmeyvə kimi qonur rəngli - günəş vannası qəbul etdikdən sonra qaralan insana deyilən bənzətmədir));* müsbət məna *(perfect adorable English rose (gözəl və cazibədar ingilis qadını)).*

İngilisdilli ədəbiyyatda insanın xarici görkəmi cansız obyektlərlə assosiasiya yaradır. Belə metaforlar xüsusi keyfiyyətə malik olmaqla, ilkin obraz əlavələr hesabına genişlənir, bütöv mətnin daxili modeli əlaqələnir, bir-birinə bağlanır. Məsələn:

Human being - antropomorf metafor ilə əlaqələnir.

Human beings are artifacts **-** insanın fiziki görkəmi insan tərəfindən yaradılan süni obyektlə müqayisə olunur.

Human beings are abstract notions **-** konseptual metaforda insanın fiziki görkəmi mücərrəd anlayışlarla müqayisə olunur.

Ayrı-ayrı slotlarda insanın fiziki canı freymi əzabdan, hamiləlikdən, xəstəlikdən yaranan konstruktlarla verilir.

Beləliklə, insanın fiziki canı freymi insan konseptini tam açır. Bu da iki formada özünü göstərir:

1. Bir sosium olaraq insanın fiziki xassəsi kimi;
2. İnsanın ətraf aləmi dərk etməsi üçün fizioloji xüsusiyyəti kimi.

II. İnsan freyminin psixoemosional tərəfi, metaforik modeli.

Bu freymə insana aid aşağıdakı əlamətlər aşkar edilir: şəxsiyyət və onun fərdi xüsusiyyətləri, xarakter və temperament, şəxsiyyətin emosional aləmi, yaddaş, qavrayış, təfəkkür və diqqət. Bu xüsusda ingilisdilli ədəbiyyatda müşahidə olunan metaforik model metaforik köçürmə modelləridir.

İnsanın psixoloji emosional tərəfi "mad" freym konseptual metafora kimi *personaiity is multilevel (şəxsiyyət çoxsəviyyəlidir); personality is a fragile thing (şəxsiyyət kövrək bir şeydir); feelings are embodied (hisslər kök salır); human mind is a machine (insan yaddaşı bir maşındır)* modelləri daha fəaldır.

Qeyd olunan metaforlar ingilisdilli bədii ədəbiyyatda insan xüsusiyyətinin mürəkkəbliyinə, çoxlaylılığına dəlalət edir.

Freym kimi öyrənilən metaforik model müasir insanın qorxusu, həyəcanını ifadə edir. Konseptual metafor kimi, *feelings are embodied* insanın fizioloji və psixoloji başlanğıcını təmsil edir:

Human mind is a machine freymi insan şüurunun işini bildirməyə xidmət edir.

Beləliklə, ingilisdilli ədəbiyyatda insanın emosional - psixoloji əhval-ruhiyyəsini əks etdirən metaforlar bir freym olaraq insan şəxsiyyətinin bütün sferaları əks etdirir.

III. İnsan həyatı freymi aşağıdakı metaforalarla verilmişdir:

Human life is a journey; Human lif e is a plant animal; Human lif e is an art (theatre, cinema, etc). *Human life is a journey* metaforikləşmə modeli insanın hər hansı nəqliyyat vasitəsi və ya piyada səyahəti ilə bağlı yaranan freymdir.

Bu tipli metaforalar metafor şəbəkəsini təşkil edir, oxşar semantik sahə yaradır. Semantik sahə kimi metaforik şəbəkə iyerarxiya prinsipinə əsaslanır.

Metaforik şəbəkə daxilində hər bir metafora müxtəlif əlamətlərinə görə digər metaforalarla kəsişir. Kəsişmə nöqtələri oxşar semantik komponentlər və ya semlərdir. Belə freymlər daha geniş fikri əlaqələr yaradır.

IV. İnsanı əhatə edən təbiət və sosial sahə freymi.

Tarix, sosium, təbiət konseptləri bu tipli freymlərin əsasında durur. İngilis postmodemist ədəbiyyatında həmin terminin konkretləşməsinə görə "konseptual sahə" terminindən də istifadə olunur. Bu termin milli və sosial dil qrupları üçün sə-ciyyəvi olan mental vahidlər keyfiyyətində müəyyən konseptlər toplusu anlayışından fərqlənməyə imkan verir. Bundan əlavə dilçilikdə işlənən "sahə" anlayışı koqnitiv poetikada çox effektli səslənir.

Aparılan tədqiqatlar göstərir ki, konseptual sahə anlayışına sosium (insanı əhatə edən sosial mühit; buraya sivilizasiya, şəhər, müharibə, cinayət və s.); tarix (milli və dünya tarixi haqqında təsəvvürlər), təbiət (insanı əhatə edən aləm, canlı təbiət, cansız təbiət freymləri də buraya daxil olmaqla) və s. aiddir.

V. Funksional tarix konsepti. Bu, aşağıdakı modellər əsasında reallaşır:

History is a text (Tarix bir mətndir), Narrative and History is a circle (Təhkiyyə və tarix bir dairədir). Göstərilən metaforlar ingilisdilli bədii diskursda işlənir və onları müxtəlif cür izah etmək olar:

History is a circle (Tarix bir dairədir) konseptual metaforu *History is like water (Tarix su kimi axıb gedir)* təbii modeli üzrə oxşarlaşır. Burada müqayisə üçün əsas suyun əvvəlki axarına düşməsidir. Burada əlavə slot təbii şəraitdir.

VI. Sosium konsepti. Buraya *Power is up (Güc hər şeydir); Society is opposed to individuals (Cəmiyyət fərdlərin rəqabətidir); reality is subjective (reallıq subyektivdir), Society is a failure (Cəmiyyət məğlubiyyətə məhkumdur)* kimi konseptual metafora modelləri misal ola bilər. Bu konseptual metafor modelləri onun

yaradıcılarının dünyagörüşü əsasında sosium obrazını modelləşdirir. *Power is up* konseptual metaforu oriyental tipə aiddir və özündə sosial qurumu barədə insanın təsəvvürləri ideyası ilə bağlıdır:

Society is opposed to individuais (Cəmiyyət fərdlərin rəqabətindən ibarətdir) konseptual metafora cəmiyyətin fraqmentlərini verən fikirlərlə, ilkin sosial əlaqələrin qırılması, müasir insanın ətraf aləmdən özünü ayırması cəhdləri ilə əlaqədardır;

Modern society is a failure (Müasir cəmiyyət uğursuzluğa məhkumdur) konseptual metaforu cəmiyyətdəki böhranla bağlıdır.

Təbiət konsepti. Ümumi şəkildə deyə bilərik ki, *inanimate objects (cansız obyektlər)* freymi *physical world (fiziki dünya)* və *weather (hava)* slotu *living nature (canlı təbiət)* freymi *animals (heyvanlar)* və *plants (bitkilər)* slotunda təmsil olunur. Həmin freymlər *animals are like humans (heyvanlar insanlar kimidir)* metaforik modelinin tərkibinə daxil olur.

İngilisdilli bədii mətnlərdə insanın xarici aləmi, xarakteri və davranışı heyvanlarla oxşarlıq əsasında metaforikləşir. Məsələn:

Let him think I am more man than I am. And I will be so. I wish I was the fish, he thought, with everything he has against only my will and my intelligence [5, p.50]. (Qoy fikirləşsin ki, mən olduğumdan daha artığam. Və elə də olacam. O özünün iradəsi və zəkasına yönəlmiş nə varsa hamısının əksinə düşündü ki, kaş o, balıq olaydı).

İnsanın öz varlığını konkret olaraq balıq vasitəsi ilə təcəssüm etdirməsi çox güclü assosiasiyalar yaradır. Cansız təbiətlə bağlı olan metafora modelləri digər hadisələrlə, məsələn artefaktlarla, canlı təbiətlə, insanla tutuşdurma əsasında reallaşır.

İngilisdilli bədii mətndə metafora modellərini təhlil edərkən *Nature* konsepti ilə bağlı deyə bilərik ki, ilkin anlayış sahəsi olan *physical world* fəal insan əlaməti və təbiətini aktuallaşdırır, daha doğrusu, törədir.

Ədəbiyyat siyahısı:

1. Рахилина Е.В. Лексическое значение и структура // Науч.-тех,информ. Сер.2, 1992, №4, 16-27 с.
2. http://www.jstor.org/stable/
3. Priestley J.B. An Inspector Calls, Publisher: Klett (Ernst) Verlag,Stuttgart, 1945, 310 p
4. Brown A.L., Smiley S.S. Rating the importance of structural units of prose passages // A problem of metacognitive development. Child Development, 1977, pp.48-58.
5. Hemingway E. The Old Man and the Sea, Publisher: Charles Scribner's Sons, 1952, 127 p.

N.HASANOVA

THE FEATURES OF METAPHORS IN LITERARY TEXT

SUMMARY

Metaphors were called abbreviated comparison. The objects of comparison form the basis of the metaphor. There is a difference between the model of comparison and the model of metaphor. Because if the comparison is based on comparison, the comparison in metaphors seems to be hidden, the transfer of meaning comes to the fore. The model resulting from the reduction is fundamentally different from the metaphor analogy.

One of the main features of the metaphors is having nominative status. Nicknames are formed in this way. For example, the name of E. Hemingway's famous novel "The old man and the sea", and M. Ondaatje's well known novel "The English patient" have been formed through this way and is called technical way in lexicology.

Sometimes, when the attributes of other objects are transferred to people, some adjectives enter the rhetorical environment, that is, they move away from the concept of the adjectives and have a nominative meaning. For example: Artson was too acute to wonder.

In general the transfer of a sign during metaphorization is human- nature, nature-human, and occurs on models. For example:

I wish I was the fish, he thought, with everything he has against only my will and my intelligence.

Here, the metaphorical model is formed on the basis of semantic transfers.

Metaphor is not only a transfer of content, but also a reevaluations of words with qualitative content in a new environment, in a new situation, when taken to the level of metaphor.

As you explore the metaphors of artistic discourse, the following four features stand out:

1. Figurative metaphor. Transition of similar meaning to predicative and enrichment of synonymous line of language.
2. Nominative metaphors. Transition from one descriptive meaning to another.
3. Cognitive metaphor. Formation of predicative compounds, homonyms.
4. The end result of cognitive metaphors. In this rhetoric, the removal of the logical boundary of the word is explained as the creation of a more general meaning.

As can be seen, metaphors are subjective, and in terms of the information they convey, they are vague and ambiguous. At the same time, the main scenes of the spread and derivation of metaphors are various literary texts.

Key words: literary text, artistic discourse, figurative metaphor, nominative metaphor, content transfer, synonymous line, predicative combination, conceptual field.

Н.ГАСАНОВА

ОСОБЕННОСТИ МЕТАФОР В ХУДОЖЕСТВЕННОМ ТЕКСТЕ
РЕЗЮМЕ

Метафоры называют сокращенным сравнением. Объекты сравнения составляют основу метафоры. Существует разница между моделью сравнения и моделью метафоры. Потому что если сравнение основано на сравнении, то сравнение в метафорах кажется скрытым, на первый план выходит передача смысла. Модель, полученная в результате редукции, принципиально отличается от метафорической аналогии.

Одной из главных особенностей метафор является их номинативный статус. Таким образом формируются прозвища. Так, например, название знаменитого романа Э. Хемингуэя “Старик и море” и хорошо известного романа М. Ондатье “Английский пациент” образовались именно таким образом и в лексикологии называются техническим способом.

Иногда, когда атрибуты других объектов переносятся на людей, некоторые прилагательные входят в риторическую среду, то есть отходят от понятия прилагательных и имеют номинативное значение. Например, Artson was too acute to wonder.

В общем, перенос знака при метафоризации происходит по образцам человек - природа, природа-человек. Например:

I wish I was the fish he thought, with everything he has against only my will and my intelligence.

Здесь метафорическая модель формируется на основе семантических переносов.

Метафора - это не только перенос содержания, но и переоценка слов с качественным содержанием в новой среде, в новой ситуации, когда они доведены до уровня метафор.

При изучении метафор художественного дискурса выделяют следующие четыре особенности:

1. Образная метафора. Переход аналогичного значения в предикативность и обогащение синонимического ряда языка.

2.Номинативные метафоры. Переход от одного описательного значения к другому.

3.Когнитивная метафора. Образование предикативных союзов, омонимов.

4. Конец и результат когнитивных метафор. Это объясняется в риторике как стирание логической границы слова, создание более общего смысла.

Как видно, метафоры субъективны, и с точки зрения информации, которую они передают, они расплывчаты и неоднозначны. В то же время, основными путями распространения и деривации метафор являются различные художественные тексты.

Ключевые слова: художественный текст, художественный дискурс, образная метафора, номинативная метафора, передача содержания, синонимический ряд, предикативная комбинация, концептуальное поле.

Redaksiyaya daxil olma tarixi: 21.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: filaloqiya üzrə fəlsəfə doktoru, dosent Kəmalə Cəfərova
tərəfindən çapa tövsiyə olunmuşdur

FƏRİDƏ CƏMİLLİ
Bakı Dövlət Universiteti
23 Akademik Zahid Xəlilov küçəsi, Bakı 1148
Faridajamillih@gmail.com

GENDERIN KIŞI VƏ QADIN YAZIÇILARIN NƏSRININ DILINDƏ TƏZAHÜRÜ

Xülasə

Məqalədə gender probleminin qadın və kişi yazıçılarının əsərlərində nə kimi rola malik olduğunu və fərqlərin nədən ibarət olduğunu müəyyənləşdirmək qarşıya məqsəd qoyulmuşdur. Dünya miqyasında bütün elmlərdə olduğu kimi dilçilik elmində də gender tədqiqatları aparılır. Bu prosesə dünya ölkələrində uzun zamandır başlanılmışdır.

Müasir cəmiyyətimizdə qadın azadlığı və müstəqilliyi, qadın hüquqlarının qorunması kimi məsələlərin ön plana çıxarılması qadın yazarların nəsrinin geniş miqyaslı yayılmasına səbəb oldu. İndiki dövrdə dünyada qadın statusu kimi qadın yazıçıların nəsri problemi də diqqət mərkəzindədir. Onu da qeyd etmək lazımdır ki, feminist alimlər sayəsində "qadın nəsri" və "qadın mütaliəsi" anlayışları elmi mühitə gətirilmişdir.

Azərbaycanda isə genderin dil baxımından araşdırılmasına və tədqiqat obyektinə çevrilməsinə yeni addımlar atılır. Buna görə də bu məqalə bu istiqamətdə atılmış addımlardan biri kimi qiymətləndirilə bilər. Məqalədə qadın və kişi yazarların nəsrində gender fərqlərinin təzahür formaları öz əksini tapmışdır.Elein Şovalterin fikirləri haqqında təhlil aparılmışdır.Mövzunun aktuallığı bir daha vurğulanmışdır.

Açar sözlər: gender problemi, dilçlikdə gender, yazıçıların dili, feminlik, muskulinlik

Gender elm və elmdənkənarda olan təsəvvürlərin geniş spektrini özündə ümumiləşdirən tədqiqatların yeni istiqaməti kimi çıxış edir. Bu tədqiqatlar, cəmiyyətdə kişi və qadınlar arasında mövcud olan qarşılıqlı əlaqə və münasibətlərin açıqlanmasına və eləcə də cinslərin social rolunun mədəniyyət və yüksək dəyərlərdən asılı olaraq müəyyən edilməsinə istiqamətləndirilmişdir. Gender formalaşmış yeni dünyagörüşünün metodoloji əsasını təşkil edən istiqamətlərdən biridir. O kişi və qadınların cəmiyyətdə olan rolunu, yerini və əhəmiyyətini nəzərdən keçirən yeni fəlsəfi cərəyanın əasını təşkil edir [1, s.6].

Yaşından, cinsindən və təbəqəsindən asılı olmayaraq insanların əsas ünsiyyət vasitəsi dildir. Bildiyimiz kimi dünyada müxtəlif dillər vardır və bu dillər zəngin dil

xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Şəxsiyyətin fikrini dolğun şəkildə ifadə etməsi üçün zəngin dil xüsusiyyətlərinə malik olan dilin müxtəlif formalarından istifadə edilir. Təbii ki, qadın və kişinin fikrini ifadə etmə tərzi və üslubu bir-birindən müəyyən qədər fərqlənir. Buna səbəb cəmiyyətimizdə əsas obyekt olan gender məsələsinin təsirləridir.

Dilçilikdə qadın və kişi nitqinə gəldikdə çox maraqlı faktlarla üzləşmiş oluruq. Bu məsələyə gəlməzdən əvvəl dillərdə cins kateqoriyasına toxunduqda, ya ərəb dilindəki kimi kişi, qadın, ya da rus dilindəki kimi 3 cinslə kişi qadın və orta cinslə rastlaşırıq. Lakin ingilis, fars, bir sıra Qafqaz dillərində olduğu kimi, ümumilikdə türk dillərində, həmçinin Azərbaycan dilində qrammatik cins kateqoriyası yoxdur. Cin s kateqoriyasının olmamasıheç də onu göstərmir ki, danışıqda anlaşılmazlıq yaranır. Sadəcə, qıza, qadına işarə etdikdə əlavə olaraq "o" işarə əvəzliyindən sonra "qız", "qadın", "xanım" sözlərindən istifadə olunur. Qeyd edək ki, kişiyə isə belə işarə nadir halda olur, yəni "o" deməklə kifayətlənilir. Deməli, kişi cinsinə bir qədər üstünlük verilir [2, s.138].

Ümumi aparılan sorğu, təsviri yanaşma və sorğu zamanı əldə edilən nəzəri materiallara əsaslanaraq belə nəticəyə gəlmək olar ki, kişi nitqi ilə müqayisədə qadın nitqi daha emosionaldır.

Qadın və kişi dilindəki fərqlərə nəzər saldıqda dilin müxtəlif yaruslarında özünü sərgilədiyini aydın görmək olur. Məsələn: Qadınlar daha çox əzizləmə, kiçiltmə mənasını bildirən şəkilçilərdən istifadə etməyə meyl edirlər. Rus dilçiliyində də bu şəkilçilər "уменьшительно – ласкательные суффексы" adı altında istifadə olunur. Məsələn; дом – домик. Sözə əlavə olunan şəkilçi ilə söz daha mülayim, incə səslənir. Sadəcə olaraq söz forma və səslənmə cəhətdən dəyişikliyə uğrayır. Mənada isə heç bir dəyişiklik özünü göstərmir. Eyni funksiyanı (əzizləmə, kiçiltmə funksiyasını) yerinə yetirmək üçün Azərbaycan dilində də müxtəlif şəkilçilərdən istifadə olunur. Azərbaycan dilində -cıq, - cik, - cuq, - cük, -ça, -çə, cığaz şəkilçiləri vasitəsilə isimlərdən kiçiltmə mənalı sözlər qadınların dilində daha çox işlənir. Bəzi hallarda isə bu şəkilçilərdən bir qismi mənsubiyyət şəkilçisi ilə işlənərək, mənsubluqdan çox əzizləmə funksiyası daşıyır.

1) Qohumluq bildirən isimlərdə əzizləmə mənası; məsələn, anacığım, nənəciyim, anacığımız, anacığınız və s.

2) Əşya və heyvan adlarının mənsubiyyət şəkilçisi ilə əzizləmə, kişiltmə mənası; məsələn, evciyim, evcik, pişikciyim və s.

3) Bəzi əşya və yer adlarında kiçiltmə mənası; məsələn, təpəcik, dərəcik və s. [3, s.573-574].

Gender dilçiliyi (linqvistik genderologiya) fənlərarası gender tədqiqatlarının bir hissəsi olaraq, bir dil konsepsiya aparatının köməyi ilə cinsi tədqiq edən bir elmi istiqamətdir [6].

Gender üzrə tədqiqatlar müasir dilçilikdə aktual mövzuya çevrilmiş və müstəqil dilçilik cərəyanı statusu almışdır. Bu günün ən maraqlı sualları kişinin

qadına münasibətinə və insanların cinsinə görə davranışına təsir edən sosial amillərin araşdırılması ilə əlaqədardır. Şəxsiyyətin cinsi dünyadakı sosial, mədəni və idrak şəxsiyyətinin oriyentasiyasını dil vasitəsi ilə təyin edən vacib mövcud və sosial xüsusiyyətlərdən biri hesab olunur. Mədəniyyətin təkamülündə genderin rolunun araşdırılması və fəlsəfə, tarix, dil, ədəbiyyat və incəsənətdəki simvolik və semiotik ifadəsi cəmiyyətin inkişafının yeni tərəflərini açmağa və mövcud prosesləri daha dərindən anlamağa kömək edir.

Linqvistik genderologiya problemlərinin daha ətraflı və sistemli bir təhlili aparan A.V.Kirilina, həm konseptual, həm də öyrənilən materialın metodologiyası və təbiəti baxımından fərqləndirilə bilən altı əsas sahəni müəyyənləşdirir:

- Sosiolingvistik gender tədqiqatları.
- Feminist Dilçilik.
- Əslində gender tədqiqatları hər iki cinsin dil davranışını öyrənərək düzgün aparılır.
- Muskulinlik araşdırmaları (20-ci əsrin sonlarında meydana çıxan ən yeni istiqamət)
- Psixolonqvistik tədqiqat (Bu istiqamət çərçivəsində, nitqin ontogenezinin öyrənilməsi, neyrolinqvistika sahəsində işlər aparılır, bu, kişilər və qadınlar arasında idrak xüsusiyyətlərini və fərqlərini və nitqdəki təzahürlərini araşdıran biodeterministik istiqaməti də əhatə edir).
- Gender alt mədəniyyətlərinin fərziyyəsini əhatə edən mədəniyyətlərarası, linqvokulturalı məntiqi tədqiqatlar [5].

Eyni zamanda A.V.Kirilina bu təsnifatın çox şərtli olduğuna inanır və sadalanan qrupların hamısı oxşar problemlərlə və tədqiqat obyektləri ilə xarakterizə olunduğundan bütün bu sahələrin ümumi cəhətlər olduğunu bildirir.

Gender tədqiqatlarının ortaya çıxması ilə feminist dilçilik son onilliklərdə qadın ədəbiyyatının və ya qadın nəsrinin, yəni "qadın yazısı" nəzəriyyəsinin zəruriliyinin ortaya çıxmasına təkan verir. Beləliklə, müasir inkişaf etmiş qadın nəsrinin dilinin təhlili çox aktualdır. Şübhəsiz yeni oxu və dil-üslublu yazılan bədii mətnlərin şərhi qadın müəlliflər tərəfindən ənənəvi ədəbi tənqiddən və ictimai-siyasi təriflərdən çəkinməyi və tarixi prosesdə mədəniyyət anlayışlarını dəyişdirən "qadınlıq" və "kişilik" anlayışları sayəsində əsərləri təhlil etməyi mümkün etdi.

Cəmiyyətdə qadın azadlığı və müstəqilliyi və qadın hüquqlarının qazanılması kimi məsələlərin yüksəlməsi qadın yazarların nəsrinin geniş miqyaslı meydana çıxmasına səbəb oldu. Xatırladaq ki, indi müasir dünyada qadın statusu kimi qadın nəsri problemi də maraq doğurur. Vurğulamaq lazımdır ki, feminist alimlər sayəsində "qadın nəsri" və "qadın mütaliəsi" anlayışları elmə daxil edilmişdir.

Bu baxımdan qadın bədəni və qadın cinsi qadın ifadəsinin əsas forması olan "qadın yazısı" nın əsas mənbəyidir. Feministlər dilçiliyinin bu cür işlərinin əsas məqsədi qadınların dildə qüsurlu imicinin və nitqdə mövcud olan seksist

asimmetriyanın aradan qaldırılmasına yönəlmiş patriarx zehniyyəti və dil islahatını tənqid etməkdir.

Elein Showalter «Feminist poetika sualına» adlı məqaləsində qadın ədəbiyyatında üç əsas yazı növünü araşdırır:

- Üstün / patriarx ədəbi ənənələrin kanonlarını təqlid edərək formalaşan gender sənət standartlarının və sosial rolların mənimsənilməsini ifadə edən "qadın" təmsilçiliyi.
- Üstün / patriarxa qarşı etiraz ifadəsi ilə əlaqəli standartlar, mədəniyyət və dil dəyərləri, azlıq hüquqlarının müdafiəsi və qadının muxtariyyəti tələbi də daxil olmaqla "feminist" dəyərlərin təmsil olunması;
- Xüsusi bir qadın şəxsiyyəti olaraq "qadın"ın təmsil olunması kişi təmsil və yazı kanonundan fərqli idi [4, s.477].

Ortaya belə bir sual çıxır ki, mətndə biz cinsi hansı şəkildə öyrənə bilərik? Şübhəsiz oxucunun cinsi və müəllifin cinsi bədii mətnin yaradılması və qavranılması prosesinə təsir göstərir. Feminist ədəbi tənqid nəzəriyyələrindəki ən maraqlı sual qadın müəllif mətni ilə kişi müəllif mətni arasındakı xarici, yəni formal fərqlərlə əlaqədardır. Bir çox elm adamı bədii mətndə müəllifin cinsinin müəyyənləşdirilməsi imkanını rədd edir. Cinsiyyət nəzəriyyəsi, bədii əsərlərin kişi və ya qadın dünyagörüşünün təqdimetmə vasitələrini, yəni kişinin və qadının dil baxışının xüsusiyyətlərini təhlil edərək bizə yeni bir şərh yolu verir. Bu işdə kişi müəllifləri tərəfindən yazılmış bədii mətnlər ümumiyyətlə nəzərə alınmır və üstəlik kişi və qadın mətnlərinin müqayisəli təhlili aparılmır. Cins təbəqələşmə, genderin sosial təbəqələşmənin əsasını təşkil etdiyi bir müddətdir. Əslində hər cəmiyyətdə sosial xüsusiyyətlərinə görə iki cins növü mövcuddur və bu səbəbdən bir bioloji cinsin mədəni olaraq ikinci dərəcəli sayılan sosial rolu var. Qadına xas olan stereotipik anlayış, gender bərabərsizliyi ilə əlaqəlidir. Sosial bir quruluş olaraq cinsiyyət bərabərsizliyi, qadın və kişi arasındakı təbii bioloji fərq əsasında ortaya çıxdı. Sosial normalar və rollar zaman keçdikcə dəyişir, lakin cinsi asimetriya dəyişməz olaraq qalır.

Qadın nəsrini müəyyənləşdirmək ədəbiyyat və cəmiyyətin qadının vəziyyəti ilə əlaqədar olması həqiqətini nəzərə almaq deməkdir.

Qadın nəsrinin oxucusu başlıqların köməyi ilə müəllifin qoyduğu problem və məqdsədini asanlıqlar anlaya bilər. Başlıqlar müəllifin nəsrinin əsas məğzinin kodları hesab olunur. Qadın yazarların əsərlərinin dilində daha çox qadının yaşam tərzi, mentalitetin qadın üzərində qoyduğu qaydalar və məsuliyyətin təsviri əsk olunur. Bununla da əsərin sujetinin ana xəttində qadın hisslərinin üstünlük təşkil etdiyini aydın görmüş oluruq.

Lakin bu o demək deyil ki, kişi yazarların nəsrində həmişə kişi cinsinin nümayəndələri üstün tutulur. Elə kişi yazarlar da var ki, qadın azadlığı və qüdrətini qabarıq şəkildə təsvir edir və onu ucaldır. Buna nümunə olaraq XX əsr Azərbaycan ədəbiyyatının nümayəndəsi olan "Cəfər Cabbarlının "Sevil" pyesini nümunə

göstərmək olar. Yazıçı bu əsərində qadını əzməyi və alçaltmağı bir məharət hesab edən dövrün kişilərinin tənqidi ön plana çəkilir. Və gender bərabərliyi məsələsi öz əksini tapmış olur. Belə ki, Sevil öz ayaqlarının üstündə dayanmaqla Balaşa heç də ondan geri qalmadığını göstərmiş olur.

Qeyd olunan bütün xüsusiyyətlər günümüzdə çox vacib və aktualdır, çünki qadın nəsri sürətlə inkişaf edir və dünya miqyasında xalqın müəyyən hissəsini təmsil edir. Qadın müəlliflərinin nəsrlərinə aid olan bədii mətnləri xüsusi dünyagörüşü və genderi əlaqələndirən dil xüsusiyyətləri ilə xarakterizə olunan qadın danışıqlarını və qadın dilini təmsil edir. Müasira qadın nəsrinin mətnləri ilə, şübhəsiz ki, qadının dünyadakı rolu və yerinin yeni cəhətlərini əks etdirən qadın-kişi münasibətlərinin möhkəm stereotipləri və müasir cəmiyyətdə çatışmazlığı hiss olunan qadın modeli yaratdılar.

Ədəbiyyat

1. Axundov A. Gender sosiologiyası. - Bakı: Poliqrafiya Mərkəzi, - 2002, - 182 s.
2. Əlizadə F. Dil və gender (linqvistik, fəlsəfi, dini, tibbi-psixoloji yanaşma). Dilçilik İnstitutunun əsərləri. - Bakı: Elm və təhsil, - 2017, - № 2, - s. 137-148.
3. Cəmilli F.H. Dilçilik və gender anlayışının qarşılıqlı əlaqəsi. “Dil və ədəbiyyat” beynəlxalq elmi-nəzəri jurnal. - Bakı: 2018, 4 (108), - s.573-575
4. Zayneta R. Khachmafova, Irina S. Karabulatova, Svetlana A. Lyausheva. Gender Features of Discourse in Women's Literature as a Reflection of Changes in the Modern Society. Mediterranean Journal of Social Sciences MCSER Publishing, Rome-Italy. Vol 6, №3, S2, 2015, p.p. 476-481
5. http://www.owl.ru/win/books/articles/goroshko.htm
6. https://sites.google.com/site/yazyk13/podgotovka-k-ekzamenu/gendernaa-lingvistika

ДЖАМИЛЛИ ФАРИДА

ПРОЯВЛЕНИЕ ПОЛА В ЯЗЫКЕ ПРОЗЫ ПИСАТЕЛЯМИ-МУЖЧИНАМИ И ЖЕНЩИНАМИ

АННОТАЦИЯ

Статья направлена на определение роли гендерной проблематики в творчестве писателей-женщин и мужчин и выявление различий между ними. Гендерные исследования проводятся в лингвистике, как и во всех науках мира. Этот процесс в странах мира запущен давно.

В нашем современном обществе акцент на таких вопросах, как свобода и независимость женщин, защита прав женщин привел к широкому распространению женской прозы. В современном мире проблема прозы женщин-писательниц, а также статус женщин находятся в центре внимания. Следует также отметить, что благодаря ученым-феминисткам в научное сообщество вошли понятия «женская проза» и «женское чтение».

В Азербайджане предпринимаются новые шаги по изучению гендера с точки зрения языка и превращению его в объект исследования. Поэтому данную статью можно рассматривать как один из шагов, предпринятых в этом направлении. В статье отражены формы гендерных различий в прозе женщин и мужчин. Взгляды Елейн Шовалтера были проанализированы. В очередной раз подчеркнута актуальность вопроса.

Ключевые слова: гендерная проблема, гендер в лингвистике, язык писателей, женственность, мускулистость

JAMILLI FARIDA

MANIFESTATION OF GENDER IN THE LANGUAGE OF PROSE BY MALE AND FEMALE WRITERS

SUMMARY

The aim of the article is to determine the role of gender issues in the works of women and men writers and what the differences are. Gender studies are conducted in linguistics, as in all sciences worldwide. This process has been started in the countries of the world for a long time.

In our modern society, the emphasis on issues such as women's freedom and independence, the protection of women's rights has led to the widespread dissemination of women's prose. In today's world, the issue of the prose of women writers, as well as the status of women, is in the spotlight. It should also be noted that thanks to feminist scholars, the concepts of "women's prose" and "women's reading" have been brought into the scientific community.

In Azerbaijan, new steps are being taken to study gender in terms of language and make it the object of research. Therefore, this article can be considered as one of the steps taken in this direction. The article reflects the forms of gender differences in the prose of women and men. Elein Shovalters views were analysed. The urgency of the issue was emphasized once again

Rəyçi: Zemfira Şahbazova.

Key words: gender problem, gender in linguistics, language of writers, femininity, muscularity

Redaksiyaya daxil olma tarixi: 24.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya elmləri doktoru Zemfira Şahbazova**
tərəfindən çapa tövsiyə olunmuşdur

AYTƏN HACIYEVA
ayten.haciyeva.73@mail.ru
BDU, baş müəllim

ŞƏRT BUDAQ CÜMLƏLİ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRDƏ ZAMANLARIN UZLAŞMASI PROBLEMİ

Xülasə

Şərt budaq cümləsi baş cümlədəki hal – hərəkətin şərtini bildirir. Baş cümlənin bir üzvünə aid olan budaq cümlələrdən fərqli olaraq, şərt budaq cümləsi baş cümlənin ümumi məzmunu ilə bağlı olur və orada (baş cümlədə) ifadə olunan məzmunun şərtini bildirir. Başqa cür demiş olsaq, baş cümlədə görülən iş, budaq cümlədəki işlə şərtlənir. Şərt budaq cümlələrində bildiyimiz kimi daşlaşmış və norma kimi qəbul olunan zamanların uzlaşması məlumdur. İndiyə qədər bu budaq cümləni araşdıran iranistlər şərt budaq cümləsində hərəkətin indiki və keçmiş zamana aid olması baxımından iki təsnifat növünü göstərmişlər: real şərt budaq cümlələri və qeyri – real şərt budaq cümlələri. Əgər şərt budaq cümləsindəki hərəkətin icrası indiki və gələcək zamana aiddirsə, o zaman budaq cümlə indiki zaman iltizam şəkli ilə, baş cümlə isə indiki zamanla ifadə olunur. Şərt budaq cümləsində aparılan araşdırmalar göstərir ki, tabeli mürəkkəb cümlənin bu növündə zamanların uzlaşması, deyə bilərik ki, zaman budaq cümləsindən daha rəngarəngdir. Baş cümlədəki işin icrasının məhz budaq cümlə ilə şərtlənməsi, budaq cümlənin ümumi olaraq baş cümlənin bütün məzmununa aid olması burada zamanların uzlaşmasında heç bir məhdudiyyət yaratmır, yəni mənanı və məntiqi uzlaşmanı qorumaq şərtilə komponentlərin xəbərlərini istənilən zamanda vermək mümkündür.

Açar sözlər: **Tabeli mürəkkəb cümlə, şərt budaq cümləsi, zaman anlayışı, zamanlarn uzlaşması**

Şərt budaq cümləsi baş cümlədəki hal – hərəkətin şərtini bildirir. Baş cümlənin bir üzvünə aid olan budaq cümlələrdən fərqli olaraq, şərt budaq cümləsi baş cümlənin ümumi məzmunu ilə bağlı olur və orada (baş cümlədə) ifadə olunan məzmunun şərtini bildirir. Başqa cür demiş olsaq, baş cümlədə görülən iş, budaq cümlədəki işlə şərtlənir.

Şərt budaq cümlələrində məlum olduğu kimi hərəkət və ya hal – vəziyyət ya icra edilib, ya icra edilməyib, ya da icra olunacağı təxmin edilir. Bu nöqteyi – nəzərdən Azərbaycan alimlərindən Ə. Abdullayev şərt budaq cümləli tabeli mürəkkəb cümlələrin baş cümlələrini üç qismə ayırmışdır:

1. İşin icra olunduğunu bildirən baş cümlələr
2. İşin icra olunmadığını bildirən baş cümlələr
3. İşin icra olunacağı ehtimal edilən baş cümlələr (1, s. 323)

Ə.Abdullayevdən fərqli olaraq Q.Kazımov şərt budaq cümlələrinin təsnifatını verən zaman “budaq cümlə + baş cümlə” modelini göstərmişdir (3, s.388). Müəllif

Ə.Abdullayevin qeyd etdiyi təsnifatın məhz budaq cümlənin baş cümlədən əvvəl gələn hallarında baş verdiyini göstərmişdir (3, s.388). Bundan əlavə şərt budaq cümləsindən danışan zaman Q.Kazımov budaq cümləni baş cümləyə bağlayan bağlayıcıların növlərinə görə aşağıdakı təsnifatı vermişdir:

1. Asindetik şərt budaq cümlələri
2. Sintetik şərt budaq cümlələri
3. Analitik şərt budaq cümlələri
4. Analitik – sintetik şərt budaq cümlələri (3, s.388 – 390)

Lakin fars dilində şərt budaq cümləli tabeli mürəkkəb cümləli cümlələrdə budaq cümləni baş cümləyə bağlayan bağlayıcılar rəngarəng olmadığı üçün bu məsələyə görə təsnifat verməyə ehtiyac duymuruq.

Yuxarıda adlarını qeyd etdiyimiz müəlliflərlə yanaşı İ.Rəhimov ingilis dilində şərt budaq cümləsindən danışan zaman hər iki müəllifdən fərqli olaraq, işin icrasını zaman baxımından təsnif edərək aşağıdakı fikirlərini qeyd etmişdir:

1. Real şərt budaq cümlələri
2. İndiki və gələcək zamana aid olan qeyri – real şərt budaq cümlələri
3. Keçmiş zamana aid olan qeyri – real şərt budaq cümlələri (5, s.253)

Bundan əlavə İ.Rəhimov ingilis dilində şərt budaq cümləsinin hər üç növündə zamanların uzlaşmasını izah etmişdir (5, s.254 - 256).

Ə.Abdullayev Azərbaycan dilində şərt budaq cümləsini araşdıran zaman aşağıdakı zaman uyuşmalarını göstərmişdir:

1. Budaq cümlənin xəbəri xüsusi şərt şəkli ilə, baş cümlənin xəbəri müzarə zamanla ifadə olunur
2. Xəbər, budaq cümlədə felin xüsusi şərt şəkli ilə, baş cümlədə isə qəti gələcək zamanla ifadə olunur
3. Xəbər, budaq cümlədə xüsusi şərt şəkli ilə, baş cümlədə isə əmr şəkli ilə ifadə olunur
4. Xəbər, budaq cümlədə xüsusi şərt şəkli ilə, baş cümlədə isə iltizam şəkli ilə ifadə olunur
5. Xəbər, budaq cümlədə felin xüsusi şərt şəkli ilə, baş cümlədə isə vacib şəkli ilə ifadə olunur (1, s.331 – 333)

Yuxarıda qeyd etdiyimiz bəndlərin hər birinə aid misallar göstərən müəllif zamanların bu cür uzlaşmasının səbəbini aydınlaşdırmamışdır.

Müəllif qeyd etmişdir ki, şərt budaq cümlələrində baş cümlənin xəbəri, demək olar ki, şühudi və nəqli keçmiş zamanla ifadə olunmur, çünki şərt budaq cümləsində ifadə olunan iş baş cümlədəki işdən irəli düşməlidir. Əks təqdirdə budaq cümlədəki işin icrası üçün şərt ola bilməz (1, s.335).

Bizdə müəlliflə razılaşaraq qeyd etmək istəyirik ki, Azərbaycan, ingilis və s. digər dillərdə bəlkə də bu hadisəyə təsadüf olunmur. Lakin fars dili haqqında bu sözü deyə bilmərik. Çünki fars dilində baş cümlənin xəbərinin şühudi keçmiş (ماضی مطلق) zamanda gəlməsi hadisəsinə təsadüf olunur. məs.:

اگر نفوذ پدرش نبود، خودش در زمینه ی کار و فعالیتهای اجتماعی عرضه ی ابراز وجود نداشت.
(9, s.36)
Əgər atasının nüfuzu olmasaydı, özünü ictimai iş və fəaliyyət sahəsində göstərmə qabiliyyəti yox idi.

Həmin nümunədə baş cümlənin xəbərinin (وجود نداشت) şühudi keçmiş zamanda gəlməsinin şahidi olduq. Lakin Azərbaycan dilinə tərcümə olunan zaman keçmiş zamanın hekayəsində verilmişdir. Bu da Fars və Azərbaycan dillərində zamanların təsnifatının müxtəlifliyindən irəli gəlir.

Şərt budaq cümlələrində bildiyimiz kimi daşlaşmış və norma kimi qəbul olunan zamanların uzlaşması məlumdur. İndiyə qədər bu budaq cümləni araşdıran iranistlər şərt budaq cümləsində hərəkətin indiki və keçmiş zamana aid olması baxımından iki təsnifat növünü göstərmişlər: real şərt budaq cümlələri və qeyri – real şərt budaq cümlələri. Əgər şərt budaq cümləsindəki hərəkətin icrası indiki və gələcək zamana aiddirsə, o zaman budaq cümlə indiki zaman iltizam şəkli ilə (مضارع التزامی), baş cümlə isə indiki zamanla (زمان حال) ifadə olunur. Topladığımız nümunələrin sayından da məlum olur ki, bu hala dildə daha çox təsadüf olunur.

اگر همسرت به این رفتارش ادامه بده، من دیگه پا به خونه ی شما نمی گذارم. (9, s.16)
Əgər arvadın bu rəftarına davam etsə, mən artıq sizin evinizə ayaq qoymaram.

اگر سکوت کند، فاجعه ی بزرگی به وقوع می پیوندد. (9, s.53)
Əgər sakit dursa, böyük bir faciə baş verər.

اگر هم طوری بشه می ریم خارج زندگی می کنیم. (9, s.75)
Əgər başqa cür olsa, gədər xaricdə yaşayarıq.

Göstərilən nümunələrin hər üçündə baş cümlədəki işin həyata keçməsi, budaq cümlədəki iş – hərəkətin reallaşmasından asılıdır. Yəni, əgər budaq cümlədəki hərəkət həyata keçsə, baş cümlədəki hərəkət hökmən icra olunacaq.

Bundan əlavə şərt budaq cümləli tabeli mürəkkəb cümlələrdə hərəkət keçmiş zamana aid olarsa, məlum olduğu kimi, hər iki komponentin xəbəri keçmiş davamedici (ماضی استمراری) zamanda verilir. məs.:

اگر حسام هزار گاهی برای اشخاص با نفوذ خوش خدمتی می کرد، او هم به چنین اقداماتی دست می زد.
(9, s.36)
Əgər Hesam xoş nüfuzlu şəxslər üçün min addım xidmət göstərirdisə, o da belə işlərə əl qoyurdu.

اگر حسام دنبال کاری غیر از شغل اصلی خود می رفت، او هم بی درنگ دست به دامن پدرش می شد.
(9, s.36)
Əgər Hesam öz əsil peşəsindən başqa bir iş arxasıyca gedirdisə, o da dərhal atasının ətəyindən yapışırdı.

اگر دلش می خواست به یک اشاره می توانست تمام ثروت پدرش را از شوهرش پس بگیرد. (9, s.13)
Əgər ürəyi istəsəydi, bir işarə ilə atasının bütün sərvətini ərindən ala bilərdi.

Yuxarıda qeyd etdiyimiz bu nümunələrdə hər iki cümlənin davamlı keçmiş zamanda verilməsinin şahidi olduq. Bu cümlələrdəki hərəkətlərin danışılan anda və ya ondan sonra həyata keçməsi artıq mümkün deyil. Hərəkətlərin icrasının indiki

zamanla heç bir əlaqəsi yoxdur. Keçmiş zamanda da bu iş və hərəkətin qəti olaraq reallaşması məlum deyil. İndiki zamana aid olan budaq cümlələrdə olduğu kimi, burada da baş cümlələrdəki hərəkətlərin reallaşması budaq cümlədəki hərəkətin icrası ilə şərtlənir.

Qeyd olunan nümunlərə şərt budaq cümlələrində zamanların uzlaşmasında norma kimi qəbul olunan qaydalardır. Lakin toplanılan nümunələr, aparılan araşdırmalar göstərir ki, şərt budaq cümlələrində zamanların uzlaşması heç də bunlarla məhdudlaşmır. Budaq cümlənin tələbi ilə baş cümlədəki hərəkətin reallaşması baxımından müxtəlif zamanlardan istifadə olunur. Bu hallarda felin zamanlarının da ifadə etdikləri mənalar önəm kəsb edir. məs.:

اگه قرار شد فامیل شوهرت به دیدنت بیاد چند تا دونه اسپند زیر تشک و بالشت قایم کن. (9, s.6)

Əgər qərar oldu ki, ərinin ailəsi səni görməyə gəlsin, döşşək və balışın altında bir neçə üzərik gizlət.

اگر آن تابستان مه بانو تصمیم نداشت عروسی پسرش را در خانه به راه بیندازد، بدون شک دلش می خواست تمام تابستان را به مسافرت برود. (9, s.77)

Əgər o yay Mehbanu qərar verməsəydi ki, oğlunun toyunu evdə yola versin, şübhəsiz, ürəyi istəyərdi ki, bütün yayı səfərdə keçirsin.

Birinci nümunədə budaq cümlənin xəbərinin şühudi keçmiş zamanda verilməsinə baxmayaraq, hərəkətin icrası gələcəkdə nəzərdə tutulub. Bu cümlədə hərəkətin hələ də reallaşması mümkündür. Çünki onların (ərinin qohumlarının) gəlib gəlməməsi məlum deyil, ola bilsin ki, gəldilər və baş cümlədəki iş icra olundu.

İkinci şərt budaq cümləsində də budaq cümlənin xəbəri şühudi keçmiş zamanda verilmişdir. Lakin birinic nümunədən fərqli olaraq burada baş cümlədəki işin artıq reallaşması mümkün deyil. Çünki budaq cümlənin felinin məzmunundan məlum olur ki, bu iş keçmişdə artıq bitib qurtarıb. İndiki zamanla heç bir əlaqəsi yoxdur. Yəni, artıq qərar verilib ki, oğlunun toy məclisini evdə keçirsin.

Azərbaycan alimlərindən Ə.Abdullayev qeyd etmişdir ki, Azərbaycan dilində şərt budaq cümləsində baş cümlənin xəbəri, demək olar ki, şühudi və nəqli keçmiş zamanla ifadə olunmur. Çünki şərt budaq cümləsində ifadə olunan iş baş cümlədəki işdən irəli düşməlidir. Əks təqdirdə budaq cümlədəki iş baş cümlədəki işin icrası üçün şərt ola bilməz (1, s.335).

Qeyd edə bilərik ki, müəllifin bu fikri məhdud dil materiallarına əsaslanır və biz bu fikri fars dilinə şamil edə bilmərik. Çünki fars dilində hər iki komponentin şühudi keçmiş zamanda verilməsi məlumdur. Şərt budaq cümləsində zamanların uzlaşmasını araşdıran Pərviz Natel Xanləri qeyd etdiyimiz kimi nümunələr əsasında bunu sübuta yetirmişdir.

Bundan əlavə toplanılan nümunələrdən məlum oldu ki, fars dilində baş cümlənin nəinki şühudi keçmiş zamanda, hətta nəqli keçmiş zamanda gəlməsi də məlumdur. məs.: اگر جا بزند، برای همیشه باخته است. (8, s.13)

Fars dilində şərt budaq cümlələrinin xəbərinin uzaq keçmiş (ماضی بعید) zamanda gəlməsinə də təsadüf olunur. məs.:

اگر اشکان در منزل بود، مرجانه به کمک و حمایت او، می توانست هر طوری دلش می خواست بازی کند و هر رفتاری که دوست داشت در پیش بگیرد. (9, s.40)

Əgər Əşkan evdə oldu, Mərcanə onun köməkliyi və himayəsi ilə ürəyi necə istəyirdisə oynaya bilirdi və sevdiyi hər rəftarı edirdi.

اگر عروسی در تهران بود، به دیده ی مینا می آمدیم. (9, s.70)

Əgər toy Tehranda olsaydı, Minanı görməyə gedərdik.

Birinci nümunənin məzmunundan belə aydın olur ki, baş cümlədəki hərəkətin reallaşması, həyata keçməsi mümkündür. Bu hadisə keçmişdə də icra oluna bilər, gələcəkdə də. Budaq cümlənin xəbərində gələcək zaman mənası da mövcuddur. Budaq cümlə ilə baş cümlənin məzmunlarından belə məlum olur ki, baş cümlədəki iş ya icra olunmuşdur, yaxud o mövcuddur, real bir vəziyyətdədir.

İkinci cümlədə isə artıq baş cümlədəki işin reallaşması mümkün deyil, onun indiki zamanla əlaqəsi yoxdur. Yəni, toy Tehranda olmadı, biz də Minanı görə bilmədik. Kaş olaydı, görərdik. Baş cümlədəki iş reallaşmamışdır. Budaq cümlə ilə baş cümlə elə bir münasibətdədir ki, baş cümlədə ifadə olunan məzmun həyata keçməmişdir, başqa şəkildə desək, qeyri – real bir vəziyyətdədir.

Bundan əlavə şərt budaq cümləsinin xəbərinin keçmiş zaman iltizam şəklində, baş cümlənin isə qəti gələcək zamanda verilməsinə də təsadüf olunur. məs.:

اگر اشکان با مرجانه ازدواج نکرده باشد، من از خانه فرار خواهم کرد. (9, s.94)

Əgər Əşkan Mərcanə ilə evlənməmiş olsa (evlənməsə), mən evdən qaçacağam.

Burada baş cümlədəki hərəkətin icra olunub olunmaması hələki məlum deyil. İcra olunması sual altındadır. Əgər reallaşsa, budaq cümlədəki hərəkət qəti şəkildə gələcəkdə yerinə yetiriləcək.

Şərt budaq cümlələrində hər iki komponentin xəbərinin davamlı keçmiş zamanda (ماضی استمراری) gəlməsi də məlumdur. məs.:

اگر سوزن خیاط گم نمی شد روزی یک قبا می دوخت. (امثال و حکم).

Əgər dərzinin iynəsi itməsəydi, bir gün qəba tikərdi.

Cümlənin məzmunundan da aydın olur ki, işin həyata keçməsi artıq mümkün deyil. Davamlı keçmiş zamanda verilməsinin səbəbini bu cür izah etmək olar ki, bu hərəkət keçmişdə müntəzəm olaraq, davamlı şəkildə icra olunub. Yəni, dərzinin iynəsi həmişə itib və o, qəba tikə bilməyib. Bu hadisə bir dəfə baş verməyib, dəfələrlə təkrar olunub.

Şərt budaq cümləsində aparılan araşdırmalar göstərir ki, tabeli mürəkkəb cümlənin bu növündə zamanların uzlaşması, deyə bilərik ki, zaman budaq cümləsindən daha rəngarəngdir. İndiyə qədər yazılmış fars dili dərsliklərində, qrammatika kitablarında bu budaq cümlənin iki, üç zamanı verilirdisə, araşdırmalar göstərdi ki, şərt budaq cümləli tabeli mürəkkəb cümlələrdə zamanların uzlaşmasının geniş tədqiqata ehtiyacı vardır. Baş cümlədəki işin icrasının məhz budaq cümlə ilə şərtlənməsi, budaq cümlənin ümumi olaraq baş cümlənin bütün məzmununa aid olması burada zamanların uzlaşmasında heç bir məhdudiyyət yaratmır, yəni mənanı və məntiqi uzlaşmanı qorumaq şərtilə komponentlərin xəbərlərini istənilən zamanda

vermək mümkündür. Fars dilinin zənginliyi, xüsusilə də poeziya dilinin rəngarəngliyi və şərt budaq cümlələrinin daha çox danışıq dilində işlənməsi bu budaq cümlələrdə zamanların uyuşmalarını geniş tədqiqata cəlb edir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə., Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr, Bakı, Maarif nəşriyyatı, 1974.
2. Axundov A., Felin zamanları, Bakı, ADU nəşriyyatı, 1961.
3. Kazımov Q., Müasir Azərbaycan dili, Bakı, Təhsil nəşriyyatı, 2007.
4. Kərimov A., Fars dili, Bakı, Adiloğlu nəşriyyatı, 2011.
5. Rəhimov İ., Hidayətzadə T., İngilis dilinin praktik qrammatikası, Bakı, Maarif nəşriyyatı, 1966.
6. Sultanov R. Fars dilinin tədrisi metodikası, Bakı, ADU nəşri, 1973.
7. Şəfai Ə., Rüstəmova T., Ələkbərova A., Zülfüqarova F., Müasir fars ədəbi dilinin morfologiyası, Bakı, ADU nəşri, 1982.
8. نسرین قدیری (کافی)، حاکم کیست؟ حاکم چیست؟ تهران، نشر پیکان، ۱۳۷۸
9. نسرین قدیری (کافی)، عشقی به لطافت باران، تهران، نشر پیکان، ۱۳۷۹

А.Гаджиева

ПРОБЛЕМА СОГЛАСОВАНИЯ ВРЕМЕНИ В СЛОЖНЫХ ПРЕДЛОЖЕНИЯХ С УСЛОВНЫМИ ПРИДАТОЧНЫМИ ПРЕДЛОЖЕНИЯМИ

РЕЗЮМЕ

Условно придаточное предложение выражает условие действия. В отличие от ветвящихся предложений, которые принадлежат одному члену главного предложения, условное придаточное предложение связано с общим содержанием основного предложения и выражает состояние содержания, выраженного в нем (в основном предложении). Другими словами, работа, проделанная в основном предложении, обусловлена работой, проделанной в придаточном предложении. Как мы знаем, в условных предложениях есть согласование времен. До сих пор иранисты, изучавшие придаточное предложение, выделяли два типа классификации в условно придаточном предложении с точки зрения того, принадлежит ли действие настоящему и прошедшему времени: реальные условные придаточные предложения и нереальные условные придаточные предложения. Если действие в условно придаточном предложении относится к настоящему и будущему времени, то ветвь выражается в настоящем времени в форме обязательства, а главное предложение выражается в настоящем времени. Исследование условного придаточного предложения показывает, что по комбинации времен в этом типе, сложноподчиненные предложения более красочны, чем придаточные предложение. Условность согласования главного предложения с придаточным,

принадлежность придаточного предложения главному предложению не создает никаких ограничений временным согласованиям, т.е указывание компонентов возможно в любое время, при условии сохранения смысла и логической последовательности.

Ключевые слова: сложноподчинённое предложение, придаточное предложение, понятие времени, согласование времен.

A.Gadjieva

THE PROBLEM OF MATTERING TIMES IN COMPLEX SENTENCES WITH CONDITIONAL BRANCH SENTENCES

Summary

The conditional clause refers to the terms of the condition of the action in the main clause. Unlike branch sentences, which belong to one member of the main sentence, the conditional branch sentence is related to the general content of the main sentence and expresses the condition of the content expressed therein (in the main sentence). In other words, the work done in the main sentence is conditioned by the work done in the branch sentence. As we know in conditional clauses, it is known that there is a coincidence of petrified times and accepted as the norm. So far, Iranians who have studied this branch sentence have identified two types of classifications in the conditional branch sentence in terms of whether the action belongs to the present and the past tense: real conditional branch sentences and unreal conditional branch sentences. If the conditional action in the branch sentence refers to the present and future tenses, then the branch sentence is expressed in the present tense in the form of an obligation, and the main sentence is expressed in the present tense. Research in the conditional branch sentence shows that the combination of tenses in this type of subordinate compound sentence, we can say that time is more colorful than the branch sentence. The fact that the execution of the work in the main sentence is conditioned by the branch sentence, the fact that the branch sentence belongs to the whole content of the main sentence does not create any restrictions on the harmony of tenses, ie the messages of the components can be given at any time.

Key words: Subordinate complex sentence, conditional branch sentence, concept of time, coordination of times

Redaksiyaya daxil olma tarixi: 25.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **f.e.d., prof. Anar Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur

SALIFOVA AYTƏKIN YUSIF QIZI
ADPU-nun Müasir Azərbaycan dili kafedrası
a.salifova@mail.ru

SƏMƏD VURĞUN VƏ BƏDİİ TƏRCÜMƏLƏRİNİN DİLİ

Xülasə

Dünya ədəbiyyatı əsərləri arasında ünsiyyət yaradan yeganə vasitə bədii tərcümədir. Ədəbiyyatların yaxınlaşması, dostluğu, millətlərin birləşməsi deməkdir. Bədii tərcümə geniş anlayış bildirən termindir. Bu filoloji termində birbaşa yaradaıcılığın konkret bir növünü nitqdə bildirməyə xidmət göstərir. Bədii tərcümənin nəzəri və təcrübi məsələləri filologiyada xüsusi yer tutur. Bu məsələlər bir-birindən ayrılmazdır. Ayrılmaz olduqları üçün biri digərinin varlığını təmin edir. Tərcüməçilik sahəsində gördüyü dəyərli işlər, apardığı dəyərli araşdırmalar Səməd Vurğun yaradıcılığının çox maraqlı, müstəqil qolu adlandırıla bilər. Həmin tərcümələr milli dilimizin mövzu və məzmun baxımından zənginləşməsində olduqca vacib rol oynayan dəyərli nümunələrdir. Gürcü ədəbiyyatının ədəbi şəxsiyyəti Şota Rustavelinin məhəbbət və qəhrəmanlıq dastanı "Pələng dərisi geymiş pəhləvan" (S.Rüstəm və M.Rahimlə birlikdə) Puşkinin dahiyanə əsər statusu qazanmış "Yevgeni Onegin" və Vurğunun böyük sələfi Nizaminin "Leyli və Məcnun"unu böyük ustalıqla tərcümə etməsi Azərbaycan poeziyasında qiymətli hadisədir. Ustad şair bədii tərcüməyə öz yaradıcılığının ayrılmaz bir hissəsi kimi baxmışdır. S.Vurğun xalq dilini ürəkdən sevən, onu həmişə dərindən öyrənməyə çalışan yazıçı olmuşdur. Xalq dilinin şeirlərini yaxşı bilməsi ona tərcümə işində böyük uğurlar qazandırmışdır. "Leyli və Məcnun" əsərinin tərcüməsində bunu aydın görürük. Ana dilində yazmasına qadağa qoyulmuş dahi Nizamini öz xalqı ilə danışdırması S.Vurğunun böyük xidmətidir. S.Vurğun tərcümə işində yaradıcı yanaşmaya üstünlük vermişdir. O, Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərində də Azərbaycan dilinin bədii imkanlarından məharətlə istifadə etdiyini nümayiş etdirmişdir. Puşkinin "Yevgeni Onegin" əsərinin tərcüməsində Puşkin dilinin sadəliyini qorumağa çalışdığını bildirmişdir. Tərcümədə təkrar sözlərdən istifadə etməməyə, orijinallığı qorumağa çalışmışdır. Bədii tərcümə işində şair S.Vurğunla tərcüməçi S.Vurğunun bağlılığını, vəhdətini görürük.

Açar sözlər: Müqəddimə, Poetik, Biblioqrafiya, Sxematizm, Beynəlmiləl

Bədii tərcümə məsələsi həmişə filologiyanın aktual poblemlərindən sayılmış, onun mühüm, başlıca tədqiqat obyekti, predmeti olmuşdur.Azərbaycan filologiyasının zəngin təcrübəsi göstərir ki, Azərbaycan ədəbiyyatında tərcümə işinin qədim bir tarixi vardır.Filoloji qaynaqlara söykənib XIX əsrdən başlayaraq yaradıcılığın bu çoxcəhətli, mürəkkəb qolunda daha böyük uğurlar qazanıldığını, XX əsrin əvvəllərində isə bədii tərcümə ilə bir çox görkmli, tanınmış sənətçilərin məşğul

oluqlarını göürük.Məşhur sənətçilər içərisində dahi söz ustadı Səməd Vurğunun inkaredilməz xidmətləri vardır. v

Səməd Vurğunun bədii tərcümə sahəsində böyük xidmətlər göstərməsi danılmaz həqiqətdir. O, "Bədii tərcümənin nəzəri və təcrübi məsələləri haqqında"(4, s112-119) başlıqlı məqaləsində həmin məsələlərlə bağlı öz dəyərli fikir və mülahizələrini söyləmiş, adı göstərilən məsələlərin geniş təhlilini vermişdir. Səməd Vurğun yetərincə böyük və çox yüksək istedadlı şair kimi tanınsa da, çoxcəhətli, zəngin xüsusiyyətli ictimai hadisə sayılan dillə bağlı söylədiyi orijinal, çox dəyərli nəzəri dilçiliyin tələblərinə layiqincə tam cavab verən həmin elmin prinsiplərinə uyğun yazdığı geniş və dərin məzmunlu məqalələri, çıxışları, irəli sürdüyü, söylədiyi qiymətli, əvəzsiz fikir və mülahizələri ilə yetərincə yetkin, zəngin bilikli, professional dilçi olduğunu da sübut etmişdir.

Səməd Vurğun dünya ədəbiyyatının məşhur əsərlərinin klassik nümunələrinin dilimizə uğurlu tərcümələrini çox müsbət qiymətləndirmiş, onlara əsaslanıb Azərbaycan dilinin böyüklüyündən, möhtəşəmliyindən və zənginliyindən söhbət açmışdır. Səməd Vurğun "Bədii tərcümənin nəzəri və təcrübi məsələləri haqqında" başlıqlı yazısında demişdir: "Biz hamımız, ölkəmizin cənubunda yaşayanlar, Qafqaz adamları böyük rus dili vasitəsilə-dünya ədəbiyyatı ilə tanış olmuşuq. Rus dilinin bizim üçün böyüklüyü məhz bundadır. Məsələn, şəxsən mən Şekspiri, Höteni, Avropanın dünya şöhrətinə malik olan ədiblərindən heç birini orijinaldan oxumamışam. Buna görə də, demək olar ki, rus yazıçıları şərq və qərb dillərindən tərcümə edərkən nəzərdə tutmalıdırlar ki, onlar yalnız rus oxucuları üçün tərcümə etmirlər, öz yaradıcılıq işləri və ölkəmizdə yaşayan bütün xalqların ziyalılarına böyük tarixi kömək göstərmiş olurlar. Elə buna görə də, milli respublikanın yazıçıları və ziyalıları bizi dünya mədəniyyətinin ən gözəl nümunələri ilə tanış etmiş rus mütərcim yoldaşlarımıza minnətdarıq."(4, s.112-113)

Səməd Vurğunun tərcüməçilik fəaliyyətindən danışarkən onun dilimizdə işlənən alınmaz sözlərə münasibəti məsələsinə toxunmaq vacibdir. O, nitqdə ümumişləklik keyfiyyəti qazanmış alınma sözləri saxlamağı, işlətməyi lazım bilmişdir.

Səməd Vurğun Azərbaycan dilinin hər bir milli dil kimi sosializm dövründə özünün daxili imkanları, xəzinəsi zəminində zənginləşdiyini söyləmişdir. O, iyirmi il müddətində dilimizin keçdiyi inkişaf yolunu gözdən keçirərərək belə düzgün qənaətə gəlmişdir ki, doğru yöndə aparılan milli siyasət nəticəsində Azərbaycan dili gözəlliyi, qüvvət və qüdrəti qorunmaqla yüz illik bir inkişaf yolu keçə bilmiş, ərəbçilik, farsçılıq və osmançılıqla aparılan mübarizə öz müsbət nəticəsini verdiyi üçün bu gün ədəbi dilimizlə canlı dilimiz arasında heç bir ziddiyyət qalmamışdır.

Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin və tarixinin çox qeyrətli daşıyıcısının, qoruyucusunun, eləcə də inkişaf etdiricisinin mikronitqini olduğu kimi diqqətə çatdırağı özümüzə borc bilirik:

"Lakin heç bir dil yalnız öz xəzinəsi hesabına yaşaya bilməz. Təbiətdə heç bir dil saf, təmiz bir dil deyildir. Çünki bütün xalqlar arasında iqtisadi, ictimai-siyasi əlaqələr olduğundan dillər bir-birinə təsir edir. Burada bir nazik məsələyə toxunmaq istəyirəm. Heç bir vaxt xarici sözlərin dilimizdə işlədilməsi bu dili sıxışdıra bilməz. Əksinə olaraq dil zənginləşə bilər" (4, s. 30-31).

Səməd Vurğun bir çox tərcüməçilərin isə vicdansız yaşadıqlarını, o tərcüməçilərin xalqımızın dilini sevmədiyini göstərərk yazmışdır:

"Biz xalq təsərrüfatını gözləyirik. Xalqın böyük bir dövləti də vardır. Əlbəttə müqəddəs bir dövləti də vardır. O da xalqımızın dilidir. Dil xalqın namusu deməkdir, tarixi deməkdir, vicdanı deməkdir. Biz dil məsələsini hər bir yerdə göz bəbəyimiz kimi gözləməliyik. Dilimizi korlamaq istəyən adamlar da vardır ki, mən bir neçə misal göstərmək istəyirəm. əgər o adamlar təmiz adamlardırsa nə üçün demirlər ki, səhv edirik. Madam ki, susurlar deməli onlar şübhəli adamlardır. Xalq düşmənlərindən başqa bir çox savadsızlar da, mərifətsizlər də dilimizə ziyan vururlar ki, o yoldaşları da başa salmaq lazımdır. Belə bir sual verirəm: nə üçün bizim qəzetimiz "kapitalizm okrujeniyası" yazsın? Dilimizdə kapitalist əhatəsi yaxud mühasirəsi varkən "okrujeniye" sözü kimə lazımdır? Artıq bir sözün gəlməsi dilin başına nə qədər oyun aça bilər. Sonra «мобилизация» sözünü götürək. «Мобилизация» - bunu nə edəcəksən. Bizim gözəl səfərbərlik sözü vardır. Nə ehtiyac varmış ki, onun əvəzində «мобилизация» işlədək." (4, s. 30-31)

Səməd Vurğun öz tərcüməçilik fəaliyyətində müxtəlif xalqların klassik ədəbi nümunələrinə müraciət etməyə üstünlük vermişdir. Elə buna görə də yüksək talantlı şairin Nizaminin "Leyli və Məcnun", Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan", A.S.Puşkinin "Yevgeni Onegin", Maksim Qorkinin "Qız və ölüm" əsərlərinə aid tərcümələri uğurlu yaradıcılıq nümunələri kimi müsbət dəyərləndirilmişdir.

Səməd Vurğun tərcümənin iki tipi barədə söhbət açmış və onlara münasibətini bildirmişdir. O, bəzi tərcümələrin dəqiq olmağa çalışdıqlarından, başqalarının isə dəqiqlikdən uzaq qaçdığını və demək olar ki, tərcümə etdikləri zaman həm də yaratdıqlarını söyləmiş, ikinci tip tərcüməçilərin işində yaradıcılıq prosesinin daha üstün yer tutduğunu diqqətə yönəltmişdir. Səməd Vurğun ikinci tip tərcüməçiləri üstün tutduğunu və sevdiyini demişdir. Onun fikirlərinə diqqət yetirək: "mənim fikrimcə, tərcüməçi gərək sözlərin hərfi tərcüməsi ilə məşğul olmasın. O, gərək yaratsın. Bu haqda hələ Puşkin demişdir ki, dəqiqliyin heç bir mənası yoxdur. Bu nə deməkdir? Mən bunu belə başa düşürəm: əgər tərcüməçi obrazları da, sözləri də, cinasları da qoruyub saxlayırsa nə üçün bunun mənası olmasın. Görünür şeir təkcə bunlardan ibarət deyildir, bu dəqiqlikdə şeiriyyət yoxdur və puşkin məhz bunu demək istəyir ki, belə tərcümədə hər şey olur, lakin şeir olmur."(4, s.113)

S.Vurğun Azərbaycan dilinə tərcümə etdiyi əsərlərdən birinci Nizaminin "Leyli və Məcnun"unun adını ehtiramla çəkmişdir. Professor Buludxan Xəlilov "Dil, Ədəbiyyat, Mədəniyyət" kitabında yazır: "S.Vurğun Azərbaycan dilinin işlənmə

imkanlarına biganə qalmamış, bu barədə N.Gəncəvinin "Leyli və Məcnun" poemasının fars dilində yazılma səbəbinə milli qürur hissi keçirməklə aydınlıq gətirmiş, poemadan verdiyi nümunələr əsasında əsl həqiqəti çatdırmağa çalışmışdır. O, haqlı olaraq qeyd etmişdir ki, N.Gəncəvi və onun müasirləri tarixi şəraitlə bağlı olaraq fars dilində yazmaq məcburiyyətində olublar. Bu məcburiyyətə baxmayaraq türk dili (Azərbaycan dili) nüfuzlu olması baxımından Axsitanı təmin etməmiş, ona görə də "Leyli və Məcnun" poemasının fars dilində yazılmasını söyləmişdir:

Bu təzə gəlinə çəkəndə zəhmət,
Fars, ərəb diliylə vur ona zinət,
Türk dili yaraşmaz şah nəslimizə
Əskiklik gətirər türk dili bizə
Yüksək olmalıdır bizim dilimiz,
Yüksək yaranmışdır bizim nəslimiz.

S.Vurğun Axsitanın belə səhv mövqedən əsərin yad dildə yazılması fikrini irəli sürməsinə Nizaminin qəzəbləndyini və öz etirazını bildirməsini də oxucunun diqqətinə yönəltmişdir:

Qulluq halqasına düşdü qulağım,
Qan vurdu beynimə, əsdi dodağım." (1, s. 173)

Professor Buludxan Xəlilovun adını qeyd etdiyimiz kitabında oxuyuruq: "Bundan başqa "Leyli və Məcnun" poemasının əvvəlcə Azərbaycan (türk) dilində yazıldığını ehtimal etmişdir və Axsitanın aşağıdakı sözlərinin də bunu təsdiq etdiyini söyləmişdir:

Sözün sərrafıyam sən ki, bilirsən,
Təzəni köhnədən tez seçirəm mən.
Kamal cövhərinin xəzinəsindən
Gör kimin sapına inci düzürsən" (1, s. 174)

Buludxan Xəlilovun məlum əsərində Səməd Vurğunun poetik əsərlərinin dili (nitqi) məsələsinə son dərəcə həssas bir mövqedən yanaşmaq, hətta bu yönümdə onu iddi mübarizə kimi dəyərləndirmək çox vacib, dövrün tələbləri səviyyəsində həllinə zəruri ehtiyac duyulan bədii, poetik dil məsələsini heç zaman ötəri, bəsit hal hesab etməmək haqqında düşündüyünü öyrənirik.(1, s.175)

Səməd Vurğun Nizaminin öz məşhur "Leyli və Məcnun" poemasının müqəddiməsində-başlanğıcında qəzəblə dediyi bu sözlərə diqqəti yönəltməyi vacib saymışdır: "Nə vaxta qədər öz başını alçaq adamlar qarşısında əyəcək, nə vaxta qədər namussuzların əlaltısı olacaqsan?... Çiyinlərini qaya kimi ucalt ki, başını yumruqla vurmasınlar. Müstəbidlər əleyhinə tikan olmaq, mərd olmaq lazımdır. Qızılgül dəstəsini azad qucaqlamaq istəyirsənsə, qızılgülü qoruyan tikanlar kimi ol, silahını hazır tut.(4, s.34)

Bu tərcümə Nizami əsərlərinin tərcümələri arasında ən yaxşılarından biri,bəlkə də birincisi sayıla bilər.Tərcümənin dilindəki təbiilik,axıcılıq,poetiklik möhtəşəm şəkildə oxucuya çatdırılmışdır.Oxucu sanki tərcümə əsəri deyil, öz doğma

dilinin məhsulunu mütaliə edir.Əsərdən göstərilmiş nümunədə də bunun bariz nümunəsini görmək olar:

Leyli-qış görməmiş yasəmən kimi,
Məcnun-xəzan vurmuş bir çəmən kimi,
Leyli parlayırdı sübhün qızı tək,
Məcnun da sönürdü dan ulduzu tək.(2, s.73)

S.Vurğun Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemasının bir hissəsini da Azərbaycan dilinə tərcümə etdiyni ehtiramla xatırlamışdır. S.Vurğun Şota Rustavelini gürcü xalqının milli aftixarı, dahi şairi, mütəfəkkiri kimi tanımış, onun dünya ədəbiyyatı tarixində şərəfli yer tutduğunu, Azərbaycan xalqının şeir dühası Nizami Gəncəvi ilə bir dövrdə yaşadığını, orta əsr dünyasında humanizmin, azadlıq, qardaşlıq və dostluğun carçısı olduğunu, Gürcüstanın mənəviyyat zirvəsi sayıldığını bildirmişdir.

Səməd Vurğun böyük gürcü yazıçısı və ictimai xadimi İ.Çavçavadzenin "Müqəddəs kitab" adlandırdığı bu əsəri tərcümə edərkən onun əsas sujet xəttinin Tinatinlə Avtandilin, Tariyellə Məstan-Darecanın saf məhəbbəti və bununla bağlı hadisələr üzərində qurulan məhəbbət dastanı olduğunu nəzərə almışdır. Ustad şair hər tərcüməsinin, tərcümə etdiyi əsərin ideya-məzmun istiqamətinə əsaslanmasını vacib saymışdır.

Səməd Vurğun öz tərcüməsinin uğurlu nəticələnməsi üçün Şota Rustavelinin həyat və yaradıcılığını dərindən öyrənməyə çalışmışdır. O, Şota Rustavelinin XII əsrin əvvəllərində yaşayıb-yaratdığını, şairin həyatı haqqında çox az məlumat qaldığını, böyük söz ustadının poemasının, daha doğrusu, onun başlanğıc və nəticəsinin məlumat verən əsas məxəz, qaynaq funksiyasını yerinə yetirdiyini göstərmişdir. Əsərin başlanğıcından şairin öz poemasını gürcü hökmdarı Tamaraya həsr etdiyini müəyyən etmək mümkündür.Səməd Vurğun apardığı araşdırmalardan belə qənaətə gəlmişdir ki, Gürcüstan XII əsrdə Tamaranın hakimiyyəti zamanı siyasi, iqtisadi və mədəni baxımdan inkişaf etmiş güclü, bir feodal dövləti olmuşur.

S.Vurğun Şota Rustavelini Azərbaycan dilinə tərcümə etməsi ilə bağlı yazmışdır: "Mən Şota Rustavellinin dahi poeması haqqında öz təəssüratımı demək istəyirəm. Mən onu tərcümə edənlərdən biri kimi bir neçə kəlmə söz söyləmək istəyirəm. Tərcümə üzərində iş nəinki mənə mənəvi qida verdi, bu bədii əsərdə nə isə elə bir qüvvə var ki, onu həmin saat dərk etmək qeyri-mümkündür. Onun üzərində uzun düşünmək, çox işləmək lazımdır. Mən elə güman edirəm ki, Şota Rustaveli poemasının Azərbaycan dilinə tərcüməsi Azərbaycan poeziyasını daha da zənginləşdirəcəkdir."(3, s.76)

Böyük, qüdrətli düha statusunu qazanmış ustad sənətçilərin əsərlərinin dilimizə tərcüməsi bir daha Azərbaycan dilinin geniş imkanlarının, poetik zənginliyinin parlaq göstəriciləridir. belə faktlar S.Vurğun kimi qüdrətli yazıçıların doğma Azərbaycan dilinə yazıb-yaratmaq həvəsini gücləndirir, onlarda böyük ruh yüksəkliyi yaradır. S.Vurğunun yaradıcılıqla tərcümə etdiyi bədii sənət nümunələri

hər bir oxucuda Azərbaycan dilinin çox böyük qüdrəti, zəngin bədii imkanları haqqında dolğun təsəvvür formalaşdırır. Azərbaycandilli oxucular əsərləri dilimizə tərcümə edilmiş Puşkinin, Şota Rustavelinin yaradıcılığına xüsusi rəğbətlə, məhəbbətlə yanaşıblar. Onların qəlbində bu qüdrətli yazıçılara sevgi, məhəbbət hissini yaradan dilimizin geniş bədii poetik imkanları olmuşdur.

Səməd Vurğunnun Puşkinin "Yevgeni Onegin" əsəri ilə bağlı fikirləri özünün "A.S.Puşkinin "Yevgeni Onegin" poemasının tərcüməsi haqqında" başlıqlı yazısında öz əksini tapmışdır.

İstedadlı və zəngin bilikli, dünyagörüşlü şair Puşkinin "Yevgeni Onegin" əsərinin tərcüməsi ilə bağlı yazmışdır: "A.S.Puşkinin ən böyük əsəri "Yevgeni Onegin" mənzum romanının tərcüməsi üzrində mən dörd il işləmişəm. Bu iş həcm etibarilə olduqca böyük, məzmun etibarilə çox mürəkkəb, gərgin və məzmunlu idi.

İndiyədək "Yevgeni Onegin" romanını heç kəs Azərbaycan dilinə tərcümə etməmişdir. Bu mənim üzərimə böyük məsuliyyət qoyurdu. Mən öz qarşıma belə bir məqsəd qoymuşdum ki, Puşkinin bu böyük və gözəl əsərini Azərbaycan xalqına bütün gözəlliyi ilə çatdıram. Mən əsər üzərində nə qədər çox işləyirdimsə, əsər məni o qədər həvəsləndirirdi. Mən öz tərcüməmdə məşhur Onegin strofasını-misraların sayını və qafiyələnmə qaydasını bütünlükdə qoruyub saxlamışam, bəzi yerlərdə imkan daxilində hətta qafiyələri də qorumağa çalışmışam.(4, s.19)

Puşkin dilinin sadəliyini və onun fikir dərinliyini qorumağa böyük diqqət vermişəm. Tərcümə etdiyim zaman mən həmişə bir sual verirdim: Görəsən Puşkin özü burada öz fikrini Azərbaycan dilində necə ifadə edərdi? Bu sual məni məcbur edirdi ki, Puşkinin obrazlarını daha diqqətlə və dərində dərk edim, onları mümkün qədər dəqiq, sadə və ifadəli tərcümə edim." S.Vurğun tərcümə zamanı Puşkinin yaradıcılığı haqqında tarixi materialların, tənqid və biblioqrafiyanın ona çox kömək etdiyini, bu materiallardan bəhrələnərək Puşkinin nə cür şəraitdə yaratdığını, onun həyəcanlarını və s. öyrəndiyini diqqətə yetirmişdir.

Tərcümə zamanı əsərin Azərbaycan xalqına aydın olması üçün daim sxematizmə yol verməməyə, tərcüməni canlı, dolğun etməyə çalışdığını göstərmişdir.(4, s.20)

O, "Yevgeni Oneginin" tərcüməsində həmçinin Azərbaycan dilinin saflığını, əlvanlığını, ahəngdarlığını, orijinallığını qoruyub saxlamağa çalışdığını, əsrlər boyu bu dili zibilləyən ərəb, fars sözlərini və ifadələrini rədd etdiyini söyləmişdir.

Ustad qələm sahibi və yüksək istedadlı şair bu yaradıcılıq işi ilə həm də mahir, gözəl tərcüməçi, tərcüməşünas olduğunu sübut edə bimişdir. Puşkinin əbədi yaşamaq hüququ qazanmış, formaca mükəmməl, məzmunca dolğun əsərinin tərcüməsi ilə bağlı yazmışdır: "Yevgeni Onegin romanının tərcüməsinin öhdəsindən necə gəldiyimi mən özüm deyə bilmərəm. Tərcümənin ayrı-ayrı parçalarını və fəsillərini dəfələrlə Puşkinin yaradıcılığını yaxşı bilən yoldaşlarıma oxumuşam. "Yevgeni Onegin" romanı Puşkinin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan dilində ayrıca nəşr ediləcəkdir. Lakin mən bu əsər üzərində işimi bitmiş

hesab etmirəm, sonrakı nəşrlərdə mən tərcüməmi təkmilləşdirəcək və daha da yaxşılaşdıracağam. Qoy mənim tərcüməm bizim beynəlmiləl birliyimizin və qardaşlığımızın yeni bir sənədi olsun.”(4, s.20)

Səməd Vurğun tərcümə etdiyi əsər üzərində bütün gücü və enerjisi ilə çalışmış,düşüncəsinin, qəlbinin odunda şam kimi ərimişdir.Şairin yazdığı misralar onun tərcümə etdiyi əsər üzərində çəkdiyi böyük zəhmətindən xəbər verir:

Axıtdım alnımın inci tərini,
Yanmadım ömrümün iki ilinə,
Rusiya şeirinin şah əsərini
Çevirdim ilk dəfə türkün dilinə.(1, s.228)

Səməd Vurğun tərcümə sənətinə qəlbən bağlanmasaydı, “Yevgeni Onegin”in tərcüməsinə sərf etdiyi vaxtda çox gərgin ,çoxşaxəli yaradıcılıq işi görmüşdür.Buna görə də “Yevgeni Onegin”in Azərbaycan dilində tam hüquqlu müəllifi olmaq şərəfi ona qismət olmuşdur.

Dünyada çox nadir insanlar üçdən çox dil bilir. Bədii ədəbiyyatı, mütaliəni, müxtəlif xalqların ədəbi nümunələrini öyrənmək yalnız həmin əsərlərin müxtəlif dillərə tərcümələri vasitəsilə mümkün olur. Bu baxımdan bədii tərcümənin əhəmiyyəti danılmazdır. Fikrimizcə, hər bir yazıcı, şair, ədib şəxsi yaradıcılığı ilə yanaşı digər dillərdə yaradılan ədəbiyyat nümunələrinin tərcüməsi işinə öz tohfələrini verməli və bununla da ədəbiyyatın ümumbəşər hadisə kimi insanlara təsirinə kömək etməlidirlər. Səməd Vurğun da bu məsələdə xüsusilə fərqlənmiş, bədii tərcümə sahəsindəki yaradıcılığı ilə ədəbiyyatımıza böyük töhfə vermişdir.

Ə d ə b i y y a t

1. Buludxan Xəlilov. Dil, ədəbiyyat, mədəniyyət. Bakı, “Bakı Çap evi”, 2013, 484 səh.
2. Nizami Gəncəvi. “Leyli və Məcnun”. Bakı, “Lider nəşriyyat”, 2004, 288 səh.
3. Səməd Vurğun. Əsərləri. Altı cilddə. V cild, “Elm” nəşriyyatı, Bakı, 1972, 270 səh.
4. Səməd Vurğun. Seçilmiş əsərləri. 5 cilddə, V cild, Bakı, “Şərq-Qərb”, 2005, 384 səh.
5. Səməd Vurğun. Seçilmiş əsərləri. 5 cilddə, I cild, Bakı, “Şərq-Qərb”, 2005, 264 səh.

САЛИФОВА АЙТЕКИН ЮСИФ КЫЗЫ

САМЕД ВУРГУН И ЯЗЫК ХУДОЖЕСТВЕННЫХ ПЕРЕВОДОВ

РЕЗЮМЕ

Художественный перевод - единственное средство общения между произведениями мировой литературы. Означает сближение литературы, дружбу, объединение народов. Художественный перевод - это широкий термин. Этот филологический термин непосредственно служит для выражения в речи определенного типа творчества. Особое место в филологии занимают теоретические и практические вопросы художественного перевода. Эти

вопросы неразделимы. Поскольку они неразделимы, одно обеспечивает существование другого. Его ценную работу в области перевода, его ценные исследования можно назвать очень интересной, самостоятельной ветвью творчества Самеда Вургуна. Эти переводы являются ценными примерами, которые играют очень важную роль в обогащении нашего национального языка с точки зрения тематики и содержания. Литературная личность грузинской литературы. Эпос любви и героизма Шота Руставели «Борец в тигровой шкуре» (совместно с С.Рустамом и М.Рахимом) Это ценное событие в азербайджанской поэзии. Художественный поэт считал художественный перевод неотъемлемой частью своего творчества. С. Вургун был писателем, любившим народный язык и всегда старающимся его глубоко выучить. Его хорошее знание стихов на местном языке дало ему большой успех в переводе. Мы ясно видим это в переводе «Лейли и Меджнун». Огромная заслуга С. Вургуна в том, что гений Низами, которому запретили писать на родном языке, общался со своим народом. С. Вургун предпочел творческий подход в переводческой работе. Он также продемонстрировал свое умение использовать художественный потенциал азербайджанского языка в произведении Шота Руставели «Борец в тигровой шкуре». В переводе пушкинского «Евгения Онегина» он сказал, что старался сохранить простоту пушкинского языка. Он старался не использовать в переводе повторяющиеся слова и сохранить оригинальность. В художественном переводе мы видим связь и единство поэта С. Вургуна и переводчика С. Вургуна.

Ключевые слова: Введение, Поэтический, Библиография, Схематизм, Международный

SALIFOVA AYTEKIN YUSIF

SAMAD VURGUN AND THE LANGUAGE OF LITERARY TRANSLATIONS

SUMMARY

Literary translation is the only means of communication between works of world literature. It means the rapprochement of literature, friendship, the unification of nations. Literary translation is a broad term. This philological term directly serves to express a specific type of creativity in speech. Theoretical and practical issues of literary translation have a special place in philology. These issues are inseparable. Because they are inseparable, one ensures the existence of the other. His valuable work in the field of translation, his valuable research can be called a very interesting, independent branch of Samad Vurgun's work. These translations are valuable examples that play a very important role in the enrichment of our national language in terms of subject and content. Literary personality of Georgian literature Shota Rustaveli's epic of love and heroism "Wrestler in tiger skin" (with S.Rustam and M.Rahim) It is a valuable event in Azerbaijani poetry. The master poet considered

literary translation as an integral part of his work. S. Vurgun was a writer who loved the vernacular and always tried to learn it deeply. His good knowledge of the poems of the vernacular gave him great success in translation. We see this clearly in the translation of "Leyli and Majnun". It is a great merit of S. Vurgun that the genius Nizami, who was forbidden to write in his native language, spoke to his people. S. Vurgun preferred a creative approach in translation work. He also demonstrated his skillful use of the artistic potential of the Azerbaijani language in Shota Rustaveli's "Wrestler in Tiger Skin." In the translation of Pushkin's "Eugene Onegin" he said that he tried to preserve the simplicity of Pushkin's language. He tried not to use repetitive words in the translation and to preserve the originality. In the work of literary translation we see the connection and unity of the poet S. Vurgun and the translator S. Vurgun.

Keywords: Introduction, Poetic, Bibliography, Schematism, International

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **prof. B .Ə. Xəlilov**
tərəfindən çapa tövsiyə olunmuşdur

ZENFİRA NİFTƏLİYEVA
SƏİDƏ ZEYNALOVA
Azərbaycan Dövlət İqtisad Universiteti
Xarici Dillər kafedrasının müəllimləri
İstiqlaliyat küç.5
zenfirasəidə@gmail.ru

İNGİLİS DİLİNDƏ LEKSİK ALINMALARIN FONETİK MƏNİMSƏNİLMƏSİ

XÜLASƏ

Alınma sözlərin o cümlədən beynəlmiləl termin və sözlərin qrafik mənimsənilməsi onların alan dilin qrafik vasitələri,hərfləri,qrafemləri ilə yazılışını nəzərdə tutulur.

Transliterasiya(latın dilindəki trans+litera birləşməsindən alınmışdır) - bir yazı sistemindəki hərflərin başqa yazı sisteminin hərfləri ilə verilməsidir. Sözün və ya cümlənin bir əlifba qrafiki ilə yazılışının digər əlifba qrafiki ilə yazılması. Bu zaman hər bir hərf digər əlifbanın hərfi ilə deyildiyi kimi yazılır.

Qrafik transliterasiyanın konversiyanın 4 tipi vardır:

1. bir qrafik element digər qrafik element ilə əvəz edilir;
2. bir qrafik element bir neçə digər qrafik element ilə əvəz edilir;
3. bir neçə qrafik element digər bir qrafik element ilə əvəz edilir;
4. bir neçə qrafik element digər bir neçə qrafik element ilə əvəz edilir;

Transliterasiyaya ehtiyac **XIX** əsrin sonunda yaranmışdır. Belə ki, Prussiyada elmi kitabxanalar yaranarkən latın, kiril, ərəb, hind və digər əlifba sistemləri ilə yazılmış mətnlərin vahid kataloqunu yaratmaq lazım idi. Bunun üçün hətta xüsusi təlimat da tərtib etdilər. Transliterasiyadan milli dildən başlıq və ya bir hissə materialı digər dildə verərkən istifadə edilir. Həmçinin mobil telefonlar vasitəsi ilə **SMS** göndərərkən də istifadə edilir.

Termin - hansısa elm sahəsində, texnikada,incəsənətdə və s. hansısa anlayışın adı. Terminlər hansısa sahənin, halları, predmetlər anlayışları üçün ixtisaslaşmış məzmun daşıyır. Adi sözlərdən fərqli olaraq terminlər birmənalıdır və ədəbi izah deyil.

1. Термин ~ terim ~ termin – hər hansı elm, texnika, incəsənət və s. sahədə müəyyən anlayışın adı olan söz və ya söz birləşməsi.
2. Терм ~ term ~ term – hesabi, simvollu və ya məntiqi ifadənin tərkib hissələrinə ayrılmayan elementi.
3. “Terminal emulyatoru” ifadəsinin qısaltması.

Açar sözlər: termin,transliterasiya,transkripsiya,fonetika,fonem.

Milli termin yaradıcılığının ədəbi dilə əsaslanması şübhəsiz ki, terminlərin asan başa düşülməsinə, tələffüzünə və tez yadda qalmasına xidmət edir. Ayrı-ayrı sahələrdə olan yeniləşmə dildə də yeni anlayış və məfhumların adlanmasına səbəb olur.

B.Çobanzadə yazır ki, elmin vətəni yoxdur, insan fikirləri arasında beynəlmiləl, cahani olaraq doğulan birinci əsər elmdir. Dünyanın hər yerində faydalı və doğru olmayan fikir elm sayıla bilməz. Bu elmin dili cahani və beynəlmiləl olmalıdır. Bugünkü elmlərdə isə cahanilik dildə də özünü göstərməkdədir.Müasir dövrdə terminoloji leksikanın zənginləşməsi prosesi daha sürətlə gedir. Çex dilçisi K.Soxovun hesablamalarına görə, müasir dünya dillərində meydana gələn yeni sözlərin 90%-ni terminlər təşkil edir. Bu, hər şeydən öncə, ayrı-ayrı sahələrdəki dildə təzahürü ilə bağlıdır.(1-s.114)

1926-cı ildə keçirilmiş türkoloji qurultayda türk dillərinin terminoloji məsələlərinin müzakirəsi zamanı qeyd olunurdu ki, yeni anlayışları adlandıran terminlərin yaranması üçün türk dillərinin müraciət etdiyi üç əsas baza mövcuddurYeni terminlərin yaradılması üçün Azərbaycan dili hər cür imkanlara malik olsa da, diqqət nədənsə dilin daxili imkanlarından çox, alınma sözlərə yönəldilir. Söhbət ümumişlək sözlərin, qədim abidələrimizdə, dialekt və şivələrimizdə işlənən dialektizmlərin və ədəbi dilin söz yaradıcılığı üsullarından istifadə etməklə sözlərin terminləşməsindən gedir..

Akademik M.Şirəliyev də xalq dilini termin yaradıcılığında əsas mənbə hesab edirdi: “Canlı xalq dilində, onun lüğət tərkibində həyat və məişət, adət və ənənə, təsərrüfatçılıqla bağlı istənilən qədər sözlər yaşamaqdadır. Ədəbi dildə isə bunların əvəzində alınma sözlər işlənir”. Əlbəttə, bu istiqamətdə problemlər hələ də qalmaqdadır. Orta əsrlərdə ana dilimizin inkişafından söz düşəndə öncə göz önünə klassiklərimiz gəlir. Bu gün həmin missiyanı kütləvilik baxımından ədəbi dilin publisistika qanadı yerinə yetirir. Ancaq necə? Çağdaş mətbuatda dil sorunları daha çox nitq mədəniyyətsizliyi ilə müşayət olunur. Məsələn, Milli Məclis əvəzinə kimsə “deputatxana” ifadəsi işlədirsə, demək, S.Sadıqova da yazır ki, əgər biz elmi dilimizi inkişaf etdirmək istəyiriksə, xalqın dilində olan zəngin lüğət ehtiyatını toplamalı, ondan termin yaradıcılığında hərtərəfli istifadə etməliyik. Bu fikir sanki keçən əsrin əvvəllərində deyilib: axı xalq dilindəki zəngin söz ehtiyatı hələ keçən əsrin 20-30-cu illərindən toplanmağa başlanıb, bu istiqamətdə çox sanballı əsərlər yazılıb, dialektoloji lüğətlər çap olunub! Azərbaycan dili omonimlik və çoxmənalılıq baxımından dünyanın ən zəngin dillərindən biridir. Omonimlik dilin qədimliyindən və qədimliyin saxlanılmasından xəbər verir. Sinonimlərlə zəngin olan dillər isə daha çox assimilyasiyaya uğrayır, yad dil etkisi ilə üzləşir.

Oxucu üçün tam aydın olsun deyə terminlərlə bağlı bir qədər ətraflı qeyd edək. Qısa şərhlə kifayətlənirik:

1. Semantik üsulda sözün semantik yükü artır, yəni məna genişlənir. Məsələn, ağıl, bölmə, daraq, qüvvə, yuva, güc, ailə, başlıq, yaddaş və s. Dilimizdə belə

sözlərin sayı minlərlədir. Belə terminlər semantik konversiya yolu ilə yaranır.
2. Morfoloji üsul daxili imkanlar hesabına söz–termin yaratmada ən məhsuldar paya malikdir. Azərbaycan dilinin termin yaradıcılığını morfoloji üsulsuz (şəkilçilərsiz) təsəvvür etmək mümkün deyil. Çox təəssüf ki, termin yaradıcılığında bu üsuldan yetərincə faydalanmırıq. Şəkilçilər söz yaradıcılığında milliliyi təmin edir. Məsələn, çeşmək, eynək və gözlük sözlərinə diqqət edək: çeşm (fars) və eyn (ərəb) sözləri sonradan göz sözü ilə paralel şəkildə işlənsə də, morfoloji üsul, yəni dilin daxili gücü həmin sözləri assimilyasiyaya uğradaraq (çeşm-ə-k, eyn-ə-k) milliləşdirə bilib. Bu fakt dilin mühafizəkarlığından, güclü olmasından xəbər verir.

3. Sintaktik üsulla termin yaradıcılığı iki və daha artıq sözün birləşərək mürəkkəb söz və söz birləşməsi şəklində elmi anlayış ifadə etməsidir. Məsələn, yetərsay, yaddaş qurğusu, izafət birləşməsi, sürət qutusu və s.

4. Terminoloji sistemin zənginləşməsində kalka üsulu ilə söz yaradıcılığının da mühüm əhəmiyyəti var. Kalka - hərfi tərcümə yolu ilə yad dildən alınmış ifadənin qəlibi, struktur eyniliyi əsasında yaranır. Tərcümə prosesində elə terminlər olur ki, ya onları çevirmək münasib, ya da mümkün olmur. Bu zaman həmin terminlər olduğu kimi saxlanılır. Olduğu kimi saxlanılan terminlər beynəlxalq termin kimi qəbul edilir. Buna görə də dili beynəlxalq terminoloji leksikanın təsirindən sona qədər qorunmaq mümkün deyil. Örnək üçün Türkiyə türkcəsində işlənən bəzi dilçilik terminlərini gözdən keçirək: qrammatika (dilbilgisi), dilbilimci (dilşünas, dilçi), sinonim (eş anlamlı), antonim (zıt anlamlı), fonetika (səsbilim), sintaksis (sözdizimi) və s. Türkiyədə alınmalara və hətta bizim ehkam kimi qəbul etdiyimiz beynəlmiləl (uluslararası) terminlərə qarşı 80 ildir ki, çaba göstərilir, bəzən bizim üçün süni görünən dil faktları onlar üçün tam doğaldır. (2-s.76-79)

Terminlərin yaradılması üsullarından ən yenisi və az işlənəni abreviaturlaradır. Bu üsul digər üsullardan forma və məzmunca xeyli fərqlənir. Abreviatura ayrı-ayrı terminoloji sistemlərdə sözə qənaət edilməsinə, çoxsözlülüyün konkret terminlərlə əvəzlənməsinə xidmət edir.

Son illər başqa dillərdən təkcə ixtisas leksikasına deyil, habelə məişət leksikasına xeyli sayda abreviatur terminlər daxil olub. Lakin əksər abreviaturaların mənası dil daşıyıcıları üçün çox zaman aydın olmur. Məsələn, KAMAK/CAMAK (Computer Application for Measurement and Control). Bu məsələyə orfoqrafiya qaydalarında aydınlıq gətirilməli, milli hərfi ixtisarlarla alınma və beynəlxalq ixtisarların mahiyyəti istifadəçilər üçün aydın olmalıdır. Axı termin - sözdən fərqli olaraq - kontekstdən asılı olmur, o, hər yerdə neytral və xüsusi funksiya daşıyır. Məsələn, ixtisas leksikasında “ANS” dedikdə avtomatik nəzarət sistemi, məişət leksikasında isətelekanal adı kimi başadüşülür. (3-43-45)

Qarışıq və heca-termin ixtisarlarında vəziyyət daha acınacaqlıdır. Bu problemi aradan qaldırmaq üçün məişət və ixtisas leksikasında işlənən abreviaturaların lüğəti hazırlanmalıdır.

İnsan dilində, fonem məna üçün vacib olan ən kiçik bir ünsiyyətdir. Fonemlər fiziki seqmentlər deyil, öz abstraksiyaları deyil. Fonemlər adətən bir xətt daxilində qeyd olunur (məsələn, / t /).Fonem müxtəlif səslər və ya alofonlar içərir. Məsələn. "M" məktubu ana və tramvay tərəfindən fərqli sözlərlə danışılır. Birinci nümunədə ikiqat, digər diş macunu isə; Üçüncü yol, bomba sözü ilə Xorvat dilində "m" sözünü tələffüz etməkdir.(стр:123)

İki alofonun eyni fonemə aid olub olmadığını müəyyənləşdirmək üçün adi test minimum cütləri axtarır: biz yalnız bir fonemdə oxuyuruq. Dilimizdəki fonemlər birləşdirmək üçün tamamilə azad ola bilməz, onların paylanmasında müəyyən bir məhdudiyyət var (paylama)

ƏDƏBİYYATLAR

1.Tahirov.İ. Göstərilən əsər. Terminlərinin mənimsənilməsi.səh:114.
2.İsrafilova S.İnformatika terminlərinin mənimsənilməsi. Terminologiya məsələləri.Bakı,Elm,2006.səh:76-79.
3.Гак В.Г. Сопоставительная лексикология.М.1977.стр:43-45.
4.Розенталь Д.Э..Словарь справочник терминов. Москва. Просвешение,1 976.с.123.

З.Нифталиева,С.Зейналова

ФОНЕТИЧЕСКОЕ ВЛАДЕНИЕ ЛЕКСИЧЕСКИМИ ЗАИМСТВОВАНИЯМИ АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

Графическое и фонетическое принятие международных терминов теоретически и практически были изучены в статье. В частности, были определены формы принятия международных терминов на языках.

Фонетические и грамматические стандарты дали возможность заимствовать международные слова в обогащении словарного запаса языка. В некоторых случаях заимствования используются в круговом круге и даже доминируют над коренными словами, более того, последние превращаются в арксаизм.

В статье рассматриваются сонорные звуки в фоносистеме английского языка и их сопоставление в азербайджанском языке. В статье также рассматриваются ротовые и носовые звуки сонорного типа в фоносистеме английского языка, их произношение в отдельных слогах, и словах данного языка. Английская фонетика сравниваются с фонетикой Азербайджанском языком.

Статья рассматривает общие свойства интонации предложения,которые являются характерной чертой всех языков,так же как английского и азербайджанского.В статые была сделана попытка изучиты компоненты интонации,которые изменяются и приобретают особые специфические свойства в разных языках.

Данная статья посвящена рассмотрению рациональных путей формирования навыков аудиролвания у студентов, изучающих английский язык в профессиональных целях. В условиях глобализации основная цель обучения иностранным языкам и из изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации.

Ключевые слова: терминология, транскриптивность, транскрипция, фонетика, фонема.

Z.Niftalieva,S.Zeynalova

PHONETIC MANAGEMENT OF LEXICAL DRAWINGS IN ENGLISH

SUMMARY

Graphic and phonetic adoption of international terms has theoretically and practically been studien in the paper.In particular,forms of adopting international terms in languages have been determined. Phonetic and grammatical standards gave the oppurtunity to stud the international words in enriching the vocabulary of a language some cases borrowings are used in winder circle and even dominate native words, moreover, the latter turn into arxaismus. *Sonant sounds in the phonosystem of English language and their contrasting in Azerbaijan language are considered in the article. The article also speaks mouth and nasal sounds of sonant types in the phonosystem of English their pronunciation in separate words of this language. English phonetics is compared with the Azerbaijani phonetics.* The article deals with the common nature of sentence intonation which is the characteristic features of all languages,as well as the English and Azerbaijani languages.In the article an attempt is made to study the components of intonation in a general way which vary and acquire specific character in various languages.

The article deals with the problem of working out, effective ways of listening skills of the students learning English for professional purposes. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learner´ ability to use the target, language for communication. Listening comprehension is one of the most basic and important of the four skills in language teaching learning. One of the main goals of language learning is to acquire the ability to communicate effectively. Special attention should be paid to preparing materials and activities for listening comprehension..

Key words: terminology, transcriptivity, transcription, phonetics, phoneme

Redaksiyaya daxil olma tarixi: 23.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **filologia üzrə fəlsəfə doktoru,dosent Yusif Süleymanov**
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏSƏDULLAYEVA AKİF QIZI
AMEA-nın akad.Z.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun İran filologiyası şöbəsi
Hüseyn Cavid prospekti, 115
parvin-03@mail.ru

NIZAMI GƏNCƏVİ "XƏMSƏ"SİNDƏ FELİN KEÇMİŞ ZAMAN FORMALARI
(ikinci məqalə)

Xülasə

Məqalə Nizami Gəncəvinin "Xəmsə"sində felin keçmiş zamanlarının öyrənilməsinə həsr olunmuşdur. Şairin əsərlərində felin keçmiş zamanlarının həm müasir, həm də arxaik formaları işlənir. Şair felin müxtəlif formaları ilə keçmiş zamanın ən müxtəlif çalarlarını ifadə edir. Bu əsərlərdən gətirilən faktlar şairin dilini klassik fars dili ilə müqayisə etməyə və şairin müxtəlif zaman çalarlarına münasibətini müəyyən etməyə imkan verir. Felin bitməmiş keçmiş zamanı Nizami Gəncəvi əsərlərində klassik fars dilinin qaydaların uyğun şəkildə ifadə olunur. Nizami bu zamanın ifadə olunmasında bütün vasitələrdən istifadə etmişdir və onları aşağıdakı şəkildə qruplaşdırmaq olar: 1) müasir fars dilində olduğu kimi "mi" می hissəciyi vasitəsilə ifadə olunur; 2) همی"həmi" hissəciyi vasitəsilə ifadə olunur; 3) ی "i" şəkilçisi vasitəsilə formalaşan şəkillə ifadə olunur; 4) ی "i"şəkilçisi və بـ "be" hissəciyi ilə yaranan forma ilə; Nəqli keçmiş zaman forması Nizami Gəncəvinin Xəmsəsində əsasən iki şəkildə özünü göstərir: 1) müasir fars dilində olduğu kimi ifadə olunur: keçmiş zaman feli sifəti və qısa xəbər şəkilçiləri; 2) keçmiş zaman feli sifəti və xəbər şəkilçisi. Bu forma müasir fars dili üçün arxaikdir. Uzaq keçmiş zaman forması Nizami Gəncəvinin Xəmsəsində müasir fars dilində olduğu kimi ifadə olunur.

Açar sözlər: klassik fars dili – feil – zaman – qrammatik üsul – qrammatik forma

Felin bitməmiş keçmiş zamanı ماضی استمراری [mazi-ye estemrari] Nizami Gəncəvi əsərlərində klassik fars dilinin qaydaların uyğun şəkildə ifadə olunur və Nizami bu zamanın ifadə olunmasında bütün vasitələrdən istifadə etmişdir və onları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1) müasir fars dilində olduğu kimi mi می hissəciyi vasitəsilə ifadə olunur:

چون شمع به زهر خنده می زیست
شیرین خندید و تلخ بگریست(11,s.109)

(Şam kimi acı gülüşlə yaşayırdı, şirin gülüb acı ağladı)

میکرد نیایش از سرسوز
تا زان شب تیره بردمد روز (11,s.99)

(Yanğı ilə dua edirdi ki, o qaranlıq gecədən gün doğar)

در این غم روز و شب اندیشه می کرد

(9,s.239)وزین اندیشه هم روزی قفا خورد

(Qəm içində gecə-gündüz fikirləşirdi ki, bu fikirlə də bir gün zərbə aldı)

2) همیhəmi hissəciyi vasitəsilə ifadə olunur:

دگر باره سر در بیابان نهاد

(10,s.1314)بر و بوم خود را همی کرد یاد

(Yenə baş tutdu biyabana öz vətənini elə hey yad edirdi)

همی گفتند خسرو با نکوئی

(9,s.170)به آتش خواستن رفته است گویی

(Deyirdilər Xosrov bir gözəllə sanki od istəməyə getmişdi)

(10,s.1262)چو حلوای شیرین همی ساختم

زحلواگری خانه پرداختم

(Şirin halva düzəldirdim halvaçılıqla evi dolandırırdım)

P.N.Xanləri bu hissəcik haqqında yazır: "Dəri fars dilində bitməmiş keçmiş zaman forması همی/همیmorfoloji hissəcik vasitəsilə ifadə edilir və bu hissəcik orta fars dilində də həmin halda işlənirmiş. Orta fars dilində همیsözü müstəqil söz olmuşdur və "həmişə" mənasında işlənmiş və keçmiş və indiki zaman formaları ilə zərf kimi hərəkətin davamlı olduğunu ifadə etmişdir. Dəri fars dilinin birinci mərhələsində də bu söz hələ də müstəqilliyə malik idi, yəni felin morfoloji hissəciyi kimi deyil, zərf kimi işlənirdi, buna görə də bəzən isimlə, bəzən feildən əvvəl, bəzən də feildən bir və ya bir neçə söz əvvəl, bəzən isə feildən bilavasitə sonra və ya aralı işlənir. Bu söz dəri fars dilinin ən qədim dövründən ixtisar olunmuş, yəni onun birinci hecası düşmüş və همیşəklini almışdır. Lakin bu dəyişiklik bir dəfəyə və hər yerdə eyni şəkildə və zamanda baş verməmişdir, bəzi hallarda tez hallarda isə daha gec همیşəkli همیşəklini almışdır. Dəri fars dilində əldə olan əsərlər və sənədlərdən heç birində همیforması təkcə görünmür, yalnız bu əsərlərin bəzilərində daha qədim forma, yəni همیüstünlük təşkil edir, bəzilərində isə daha yeni forma, yəni می. Belə bir fərziyyə mövcuddur ki, همیforması yalnız feil davamlı olduğu vurğulandığı zaman işlənmişdi. همیvə ya همیsözü bu dövrün daha qədim əsərlərində zərfdir və felin morfoloji hissəciyi hesab olunmur, yəni همه، همیشه، پیوسته، پیاپیmənalarından birində işlənir və başqa sözlərlə tərkibində همی از ناگاه همیvə ya همی ناگاه همیvə همی یکباری şəklində "birdən, qəflətən" mənasında işlənir."(8,s.221-224)

3) یşəkilçisi vasitəsilə formalaşan şəkillə ifadə olunur.

هر شب ز فراق بیت خواتان

(11,s.90)پنهان بشدی به کوی جانان

(Hər gecə ayrılıqda beyt oxuya-oxuya cananı dağında gizlədirdi)

زمانی پیش او بگریستی زار

(6,s.230)پس از گریه نمونه عذر بسیار

(Bir zaman onun yanında ağlayırdı ağlamaqdan sonra çox üzr istədi)

غریبی گر گذر کردی بر آن راه

بدانستی که کرد آنجا گذر شاه(9,s.255)

(Əgər bir qərib o yoldan keçsəydi bilərdi ki, oradan şah keçib)

4) ی şəkilçisi və ب hissəciyi ilə yaranan forma ilə;

چشم ادب بر سر ره داشتی

کلبه ی بقال نگه داشتی(7,s.272)

(Ədəb gözü ilə baxırdı yola, baqqal dükanını saxlayırdı)

گرش صد باغ بخشیدندی از نور

نبردی منت یک خوشه انگور(9,s.142)

(Əgər ona yüz işıqlı bağ versəydilər, bir salxım üzümün minnətini çəkməzdi)

مجنون ز مشقت جدایی

کردی همه شب غزل سرایی(11,s.93)

(Məcnun ayrılığın məşəqqətindən bütün gecəni qəzəl oxuyurdu)

M. Bəhar ی şəkilçisini "ya-ye məchul" adlandırır və qeyd edir ki, bəzi hallarda "ya-ye məchul" felin davamlılığını ifadə etmək üçün işlənir və felin əvvəlində davamlılığın əlaməti olan همی əvəzinə işlənir və "ya-ye estemrari" işlənərkən çox vaxt همی işlənməmişdir. (4,s.346-347,I c.)

L.P.Smirnova bu formalar haqqında yazır: "Keçmiş zaman affiksal forma"(گفتی tipli) növ və modal planda hərəkəti xarakterizə edir: 1) hərəkətin çoxdəfəli xarakterinə və ya onun bitməmişliyinə işarə edir; 2) modal sözlərlə birləşmədə və budaq cümlələrdə lazım şəklinin mənasını ifadə edir. Öz növ mənalarına görə həm بگفت، گفت formaları, həm də همیگفت، میگفت formalarına qarşı qoyulur, belə ki, گفتی tipli affiksal forma öz-özlüyündə hərəkətin davamlılığını (uzun müddətli olmasını) ifadə etmir. İndikativ mənalarda forma əsasən aşağıdakı hallarda işlənir: 1) adi, daimi hərəkətlərin ifadə olunması, habelə hər hansı predmetin cəhətlərinin təsviri zamanı işlənir; 2) keçmişdə hərəkətin çoxdəfəliliyini ifadə edir. بگفتی tipli keçmiş zaman affiksal forma da xəbər və lazım şəklinin mənalarında işlənir: 1) indikativ planda bu formanın əsas formanın əsas mənası bitmiş, çoxdəfəli hərəkətin ifadəsidir; 2) bir sıra hallarda بگفتی tipli affiksal forma, çox güman ki, گفتی tipli formadan mənaya görə fərqlənmir və bu formanın üslubi variantı kimi çıxış edir." (3,s.78-81)

Nəqli keçmiş zaman forması ماضی نقلی [mazi-ye nəqli] Nizami Gəncəvinin "Xəmsə"sində əsasən iki şəkildə özünü göstərir:

1) müasir fars dilində olduğu kimi ifadə olunur: keçmiş zaman feli sifəti və qısa xəbər şəkilçiləri

ما که جوانی به جهان داده ایم

پیر چراییم گزو زاده ایم(7,s.110)

(Biz cavanlığımızı dünyaya vermişik onda doğulmuşuq niyə qocayıq)

دماغش را چنان سواد گرفته است

کز آن سواد ره صحرا گرفته است(9,s.226)

(Elə sevdalanmışdır ki, o sevdada səhraya yol aldı)

به دانا رسید این سخن گنج یافت

به نادان رسیده اند و رنج یافت(10,s.1265)

(Ağıllıya çatdı bu söz xəzinə tapdı, nadana çatdı əziyyət tapdı)
2) keçmiş zaman feli sifəti və xəbər şəkilçisi. Bu forma müasir fars dili üçün arxaikdir.

شنیدستم که دولت پیشه ای بود
(9,s.132)که با یوسف رخیش اندیشه ای بود

(Eşitmişəm ki bir dövlət adamı var idi ki, Yusif üzlü ilə narahatlığı vardı)

خیالت را شبی در خواب دیدست
(9,s.161)از آن شب عقل و هوش ازوی رمیدست

(Sənin xəyalını bir gecə yuxuda görüb o gecədən ağlı-huşu başından uçub)

مرا هم بخت بد دامن گرفتست
(9,s.231)که این بدبختی اندر من گرفتست

(Qara bəxt yaxamdan yapışıb bu bədbəxtlik məni tutub)

R.Sultanov "Gülüstan" əsərində nəqli keçmiş zaman forması haqqında yazır: "Nəqli keçmiş məna etibarilə feli xəbər olduğu halda, forma cəhətdən ismi xəbərlərə də oxşayır. Fikrimizi aydınlaşdırmaq üçün aşağıdakı müqayisəni veririk:

نماینده ام گفته ام
نماینده ای گفته ای
نماینده است گفته است

Əgər burada ام ای şəxs sonluqları kimi, است isə xəbər şəkilçisi kimi götürülsə, bizim fikrimizə görə, tamamilə doğru hərəkət edilmiş olar, çünki I, II şəxsin cəm və təki, III şəxsin isə cəmi şəxs sonluğu qəbul etdiklərindən öz xəbər şəkilçisi است lərini itirmiş, III şəxsin təki isə şəxs sonluğu qəbul edə bilmədiyi üçün xəbər şəkilçisini mühafizə etmiş və beləliklə, özünün cümlədə xəbər olduğunu, yəni vaxtilə yalnız III şəxsin təkinin deyil, başqa şəxslərin də است xəbər şəkilçisi qəbul etdiyini göstərmək üçün Sədinin aşağıdakı şerini misal gətiririk:

آن شنیدستی که وقتی تاجری...
دربیابانی در افتاد از ستور

Burada II şəxsin təkində də شنیده ای əvəzinə شنیدستی yazılmışdır ki, buna əsasən شنیدستم, شنیدستید, شنیدستند yazmaq olar, lakin Sədidə bu formalara təsadüf edilməmişdir. Nəqli keçmişin bir tərəfdən feli xəbər, digər tərəfdən şəkil etibarilə ismi xəbər kimi çıxış etməsi alimlərin ona müxtəlif cəhətdən yanaşmasına səbəb olmuş və buna görə də onun tərəfində ixtilaf meydana çıxmışdır." (1,s.220-221)

Pərviz Natel Xanləri bu zaman formasına tarixi aspektdən yanaşaraq yazır: "Orta fars dilində nəqli keçmiş zaman feli sifəti ilə ایستادن [istadən] felinin indiki zaman formasının birləşməsindən əmələ gəlir:

آمد ایستید = آمده است
گفت ایستید = گفته شده است

Nəqli keçmiş zamanın bu forması pəhləvi dilindən dəri fars dilinə keçməmişdir və onun yerinə yeni forma meydana gəlmişdir. Bu quruluş keçmiş zaman feli sifəti ilə "ah" felinin indiki zaman formalarının birləşməsidir. "Ah" (بودن) felinin indiki zaman forması (kökü) feil sonluqları ilə birləşir və köməkçi feil formalarını meydana

gətirir və dəri fars dilində də ən qədim vaxtlardan bu günə qədər işlənir.” (8,s.249-250) Müəllif nəqli keçmiş zaman formasını “be” hissəciyinin işlənib-işlənməməsindən asılı olaraq iki qrupa ayırır: “ “be” hissəciyi olmadan işlənən nəqli keçmiş və “be” hissəciyi ilə işlənən nəqli keçmiş. Bu iki formanın işlənmə halları arasındakı fərqlər məlum deyil. “Be” hissəciyi morfoloji əlamət olmadıqda, felin önşəkilçisi olduqda və felin mənasında dəyişiklik yaratdıqda həmişə nəqli keçmiş zaman formasında qeyd edilir, lakin bu formanın subyekti əvəzlik olduqda “be” hissəciyi olmadan işlənir. Önşəkilçili (prefiksli) feillərin nəqli keçmiş zaman formasında bu feillərin nəqli keçmiş zaman formasında olduğu kimi heç vaxt “be” hissəciyi işlənmir. Mürəkkəb feillərdə də əsasən nəqli keçmiş zaman forması “be” hissəciyi olmadan işlənir. Tərkibi feillərdə də ümumi qayda odur ki, “be” hissəciyi feil qarşısında işlənmir.” (8, s.253-255)

Uzaq keçmiş zaman forması ماضی بعید Nizami Gəncəvinin “Xəmsə”sində müasir fars dilində olduğu kimi ifadə olunur:

در آن مدت که من در بسته بودم
سخن با آسمان پیوسته بودم(9,s.145)

(Bağlı olduğum müddətdə səma ilə söhbət edirdim)

طمع در زندگانی بسته بودم
امید اندر جوانی بسته بودم(9,s.231)

(Həyata tamah salmışdım, cavanlığa ümid bağlamışdım)

شاه روزی رسیده بود ز دشت
درخورنق به خرمی می گشت(5,s.135)

(Bir gün şah səhradan gəlmişdi, Xəvərnəqdə sevincli gəzirdi.)

Felin keçmiş zaman formalarının Nizami Gəncəvinin “Xəmsə”sində ifadə vasitələri haqqında deyilənlər aşağıdakı nəticələri əldə etməyə imkan verir:

1) əsərdə keçmiş zamanın ayrı-ayrı çalarları müxtəlif formalarda ifadə edilmişdir;

2) Nizami Gəncəvi feilin zaman formalarının, demək olar ki, hamısından istifadə etmişdir;

3) felin zaman formalarının ayrı-ayrı mənalarının həm arxaik, həm də müasir formalarla ifadə olunması şairin dil qaydaları üzrə biliklərinin mükəmməl olduğunu göstərir;

4) əsərdən gətirdiyimiz nümunələr klassik fars dilində felin zaman kateqoriyası haqqında tam təsəvvür yaratmağa imkan verir

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Sultanov R., Sədi yaradıcılığında Gülüstan, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1961, 334 s.

2. Шарова Е.Н., К вопросу об использовании глагольного префикса bi в классическом персидском/таджикском языке, 278-281, Индийская и иранская филология, Наука, М., 1976, 311 с.

3. Смирнова Л.П., Язык Тарих-и Систан (грамматическое описание), Сталинабад, 1959, 143 с.
4. بهار تقی محمد، سبک شناسی، جلد ۱، انتشارات امیر کبیر، ۱۳۷۳، ٤٦٧ص
5. ثروتیان بهروز، هفت پیکر نظامی گنجه ای، تهران، انتشارات امیر کبیر، ۱۳۸۲، ۷۳۱ ص
6. ثروتیان بهروز، لیلی و مجنون نظامی گنجه ای، تهران، انتشارات امیر کبیر، ۱۳۸٦، ٦۸۳ص
7. ثروتیان بهروز، مخزن الاسرار نظامی گنجه ای، تهران، انتشارات امیر کبیر، ،٤۰۰،۱۳۸٦ص
8. خانلری پرویز ناتل، تاریخ زبان فارسی، جلد دوم، تهران، ۱۳۷۷، ٤۰۸ ص
9. دستگردی وحید، کلیات نظامی گنجوی (خسرو و شیرین)، جلد ۱، تهران، انتشارات سمیر، ۱۳۹۲، ۸٤۸ص
10. دستگردی وحید، کلیات نظامی گنجوی (اقبال نامه) جلد ۲، تهران، انتشارات سمیر، ۱۳۹۲، ۷۰۰ص
11. زنجانی برات، لیلی و مجنون نظامی گنجوی، تهران، انتشارات دانشگاه، ۱۳۸۵، ۷٥٦ ص
12. لازار ژیلبر ، دستور زبان فارسی معاصر، تهران،۱۳۸٤، ۳۰۲ص

Парвин Асадуллаева

ФОРМЫ ПРОШЕДШЕГО ВРЕМЕНИ ГЛАГОЛА В ХАМСЕ НИЗАМИ ГЯНДЖЕВИ

РЕЗЮМЕ

Статья посвящается к изучению прошедших времен глагола в “Хамсе” Низами Гянджеви. В произведениях поэта употребляются и современные и архаические формы прошедших времен глагола. С помощью разных форм глагола поэт выражает самые различные оттенки прошедших времен. Факты из этих произведений дают нам возможность сопоставить языка поэта с классическим персидским языком и определить отношения поэта к разным оттенкам времени. Прошедшее длительное (незавершенное) время в произведениях Низами Гянджеви выражается по правилам классического персидского языка. Поэт употребляет почти все формы прошедшего длительного времени, в том числе: 1)при помощи ми; 2)при помощи همی; 3)при помощи суффикса и; 4)при помощи суффикса и и префикса бэ. Перфект в произведениях Низами Гянджеви выражается при помощи двух форм: 1)эта форма не отличается от формы современного персидского языка; 2)причастие прошедшего времени и суффиксы связки. Эта архаическая форма. Форма давнего прошедшего времени глагола в произведениях Низами Гянджеви ни чем не отличается от современного персидского языка.

Ключевые слова: классический персидский язык – глагол – время – грамматический способ – грамматическая форма

Parvin Asadullayeva PhD candidat of

THE PAST TENSE FORMS OF THE VERB IN NIZAMI GANJAVI'S KHAMSA

SUMMARY

The article is dedicated to the study of the past tense forms of the verb in Nizami Ganjavi's Khamsa. In the works of the poet are used either modern or archaic tense forms of the verb. By using the different forms of the verb poet expresses the different tints of the past tenses. The facts from these works give us the opportunity to compare the linguistic style of the poet with the classical persian and to determine his attitude to the different tints of times. The past continuous tense form in the works of Nizami Ganjavi is expressed by the rules of the classical persian. The poet uses all the possible forms of the past continuous tense. 1)bu using particle mi; 2)by using particle همی; 3)by using suffix i; 4)by using suffix i and the particle be; The past perfect tense form is expressed in Khamsa of Nizami Ganjavi with two forms: 1)it is expressed with the same form of modern Persian; 2)the past participle and the auxiliary verb. This is an archaic form. The pluscuamperfect is expressed in Khamsa of Nizami Ganjavi with the same form in modern Persian.

Key words: classical persian language – verb – grammatical way – grammatical form

Redaksiyaya daxil olma tarixi: 27.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **f.e.d.,prof. Şəfəq Əlibəyli**
tərəfindən çapa tövsiyə olunmuşdur

SEVINC CƏFƏROVA
Azərbaycan Tibb Universiteti
Xarici Dillər kafedrasının müəllimi
Bakı, Mərdanov qardaşları
sevinc@mail.ru

DİLİN SİYASİ-İQTİSADİ AMİLLƏRİ

XÜLASƏ

Müxtəlif təbəqə, vəzifə, peşə, yar və cinslərə eyni zamanda xidmət göstərən və möhtəşəm, ən möcüzəli ünsiyyət vasitəsi dildir. Əlbəttə, bu cür fikir leksikası zəngin olmayan dillər haqqında demək çətindir. Düzdür, belə də istər Afrika tayfaları istərsədə Amerika hinduları sözlə də olmasa, digər vasitələrə – jest, mimika və s. işarəvi yollarda öz fikirlərini çatdırmağa nail olurlar. Elə dillər var ki, onun leksik omonimliyini ton tənzimləyir. Eyni zamanda dil elə sistemli bir materialdır ki, ondan varlı da kasıb da, vəzifəli də, vəzifəsiz də, uşaq, böyük də və nəhayət, kişi də qadında öz mövqeyindən, öz aləmindən çıxış edə bilər. Dildə qadın və kişi nitqinə gəldikdə isə, çox maraqlı faktlarla üzləşmiş oluruq. Bu məsələyə gəlməzdən qabaq dillərdə cins kateqoriyasına toxunduqda 3 cinslə kişi, qadın və orta cinslə rastlaşırıq. Lakin ingilis fars, bir sıra Qafqaz dillərində olduğu kimi, ümumilikdə türk dillərində, həmçinin Azərbaycan dilində qrammatik cins kateqoriyası yoxdur. Cins kateqoriyasının olmaması heç də onu göstərmir ki, danışıqda anlaşılmazlıq yaranır.

Sadəcə qıza, qadına işarə etdikdə əlavə olaraq "o" işarə əvəzliyindən sonra "qız", "qadın", "xanım" sözlərindən istifadə olunur. Qeyd edək ki, kişiyə işə belə işarə nadir halda olur, yəni "o" (şə\xs əvəzliyi) deməklə kifayətlənir. Deməli, kişi bir qədər üstünlük verilir. Bir çox dillərdə özünəməxsus "adam" dedikdə, ilkin mənasına görə "kişi" nəzərdə tutulur. Məsələn: ingilis dilində "mən" "kişi" – adam, fars dilində də mərd "kişi" "adam" deməkdir. Cins kateqoriyası ingilis dilində isimlərdə açıq aşkar cins ayrımı yoxdur. Bununla bərabər, bəzi isimlər müxtəlif affikslər və ya mürəkkəb söz yaratma vasitəsilə bu və ya digər cinsə aid edilirlər. Bəzi hallarda isə isim özlüyündə bu və ya digər cinsi ifadə edir. Məsələn: a host-hostess, a boy – friend, a girl – friend, a lion – a lioness, a landlord – a landlady. Azərbaycan dilində isə hər hansı bir ismn bu və ya digər cinsə mənsubiyyətini bildirən bir affiks və ya digər element yoxdur, mövcud fərqlər isə ancaq alınma sözlərdə müşahidə olunur.

Açar sözlər: dil, bilinqvizm, sosiolinqvistika, ideologiya, milli düşüncə, danışıq, meyar, söz

Müasir dövr dünyanın qloballaşması ilə səciyyələnir. Texniki tərəqqinin indiki səviyyəsində dünya xalqları bir-birini elmi, ədəbi və mədəni nailiyyətlərindən istifadə edə bilir. Bu da xalqları bir-birinə daha da yaxınlaşdırır. Bu yaxınlaşma və

inteqrasiya prosesində dil amili əsas rol oynayır. Bu tendensiya Azərbaycanda da müşahidə olunur ki, bu da təbii olaraq Azərbaycanın inteqrasiya kursundan irəli gələn məsələdir. Həmin məsələ və biliklərin ən vacibləri sırasına müasir qloballaşma anlayışını, eləcə də keçid cəmiyyətlərini və dövrlərinin xarakterik xüsusiyyətlərini dərk etmək kimi zəruri amilləri şamil etmək olar.

Əvvəl məlum olmayan predmet və hadisələrin adlandırılması zərurəti başqa dildən sözalmanın səbəbinə çevrilir. Lakin qeyd olunan sözalmanın dilxarici amillərdən asılı olduğu yalnız bir səbəbdir. Belə səbəblər isə az deyildir.

Ekstralinqvistik amillər cərgəsində psixoloji estetik, evfemistik ifadəyə canatma olduğu kimi, sözalma prosesində əhəmiyyətli rol oynayan tarixi şərait, dini mənsubluq, ölkənin siyasi vəziyyəti kimi şərtlər də az deyildir.

Müasir sosiolinqvistika dil situasiyasını sosiolinqvistik, etnolinqvistik, linqvistik komponentlərin məcmusu kimi nəzərdən keçirməlidir. Biz də A.N.Baskakovun nöqteyi-nəzərini qəbul edirik, lakin makrososial ümumiliyin sosial və kommunikativ situasiya ilə şərtlənən dil kommunikasiyanın sinxron vəziyyətini vurğulaya bilmərik.

Dil siyasəti təkvə dil situasiyanı formalaşdıran ən mühüm faktorlardan biri deyil, həm də onun mühüm aspektlərdən biridir. Bununla belə, dil siyasəti nəzəriyyəsində hələ çoxlu həll edilməmiş mübahisəli problemlər mövcuddur. Bəzi tədqiqatçılar dil siyasəti dedikdə təkcə təhsil problemlərini, dilin təhsil prosesində tətbiqi problemlərini, çoxdilli ölkələrdə tədrisin hansı dildə aparılması və s. bu kimi məsələləri nəzərdə tuturlar. Məsələn, Y.D.Deşeriyev haqlı olaraq yazır ki, dil siyasəti milli siyasətin bir hissəsidir və onun çoxmillətli və birmillətli dövlətdə həyata keçirilməsinin öz xüsusiyyətləri vardır (3, 255). Sosiolinqvistikanın vəzifəsinə hər hansı dil siyasətinin həyata keçirilməsi, onun ideoloji əsasları və praktik nəticələri məsələlərini öyrənmək daxildir. Lakin Y.D.Deşeriyevin sosiolinqvistikaya həsr olunmuş əsərinin dil siyasətinə toxunan bəhsində çoxmillətli (çoxdilli) dövlətdə dil quruculuğu prosesində dövlətin yeritdiyi dil siyasəti araşdırılır (3, 254-266). Buna görə də hər şeydən əvvəl dil siyasətinin nə olduğunu, dil siyasətinin özünü dəqiqləşdirmək, bu anlayışın "dil quruculuğu" və "dil planlaşdırılması" anlayışlarına münasibətini müəyyənləşdirmək lazımdır. Bu terminlər yaxın mənalı olsa da, onları fərqləndirmək olar.

Sosiolinqvistika məsələlərinə həsr edilmiş əsərlərdə bu terminlər sinonim olaraq işlədilir. Dil siyasəti "sosial dil fəaliyyətinin məqsədyönlü və şüurlu rəhbərliyi" (7, 806) olaraq subyektin müxtəlif növləri tərəfindən həyata keçirilir. N.B.Meçkovskayanın qeyd etdiyi kimi, birincisi, bunlar dövlət və onun məxsusi orqanları, ikincisi, məktəb işlərini təşkil edən komitetlər, kütləvi kommunikasiya, teatr, kino və nəhayət, müxtəlif institut və təşkilatlar – siyasi partiya, müəllim heyəti, şair, jurnalist və s.-dir (5). "Dil siyasəti milli siyasətin bir hissəsidir və onun çoxmillətli və birmillətli dövlətdə həyata keçirilməsinin öz xüsusiyyətləri vardır. Dil siyasəti cəmiyyətin dilə şüurlu təsiri ilə bağlı kateqoriyalara aiddir. O, bu və ya digər sosial və ideoloji prinsiplərə əsaslanır" (8, 57).

Bir sıra tədqiqatçılar üç anlayışın sinonim kimi işlədilməsinə şübhə ilə yanaşır, etiraz edirlər. V.A.Avrorinə görə, dil siyasəti anlayışını dilin funksional cəhətinə, onun vasitəsilə isə müəyyən dərəcədə dilin strukturuna şüurlu, tənzimləyici tədbirlər sistem müəyyən ictimai siniflərin, partiyaların, dövlətin dil siyasətini təcəssüm etdirir. Bu tərifə aşağıdakıları da əlavə etmək düzgün olardı, dil siyasəti dövlətin ictimai qrupların, siniflərin, partiyaların ümumi siyasətinin bir hissəsidir, yəni onların öz mənafeləri naminə, qarşılarına qoyduqları siyasi məqsədlər naminə yürütdükləri siyasətin bir hissəsidir. N.A.Kataqoşşına isə belə bir tərif verir ki, dil siyasəti terminiilə dövlət miqyasında və müəyyən dil şəraitində mərkəzləşdirilmiş şəkildə həyata keçirilən tədbirlər yolu ilə funksional vahid kimi dilə göstərilən şüurlu və məqsədyönlü təsir kimi nəzərdə tutur. Bu halda dilə göstərilən şüurlu və məqsədyönlü təsir təşəbbüsləri, cəhdləri diqqətdən kənarda qalır ki, onlar dövlət orqanlarından nəşət etmir və mərkəzləşdirilmiş və ya məcburi səciyyə daşımır, lakin bununla yanaşı, dil siyasəti müəyyən ictimai qüvvələrin, partiyaların, siniflərin və s.siyasi kurslarının bir hissəsidir. Məsələn, Amerika Birləmiş Ştatların hökuməti və ABŞ-ın hakimi dairələri ingilis dilinin ingilisdilli ölkələrin hüdudlarından kənarda yayılması, habelə inkişaf etməkdə olan ölkələrdə onun mövqelərinin saxlanması və möhkəmlənməsi üçün geniş fəaliyyəti bol-bol maliyyə vəsaiti ilə təmin edir. İngilis dilinin Asiya, Afrika və Latın Amerikası ölkələrində ikinci (xarici) dil kimi öyrənilməsi məsələləri ilə dövlət tərəfindən maliyyələndirilir. Dünyanın onlarla ölkəsində ingilis dilini öyrənmək üçün pulsuz kurslar açılmışdır. Hər il dünyanın müxtəlif ölkələrində ingilis dilində müxtəlif müsabiqələr keçirilir və həmin müsabiqələrin qalibləri dilini (ingilis dilində danışmasını) təkmilləşdirmək üçün müəyyən müddətə (əksər hallarda bir illiyə) Amerika Birləşmiş Ştatlarına dəvət edilir. Bütün bu tədbirləri ABŞ hökuməti müliyyələşdirir.

Milli-homogen dövlətdə bu və ya digər dövlətin sinfin və ya partiyanın ümumi siyasi kursunun bir hissəsi olan dil siyasətindən istənilən qədər nümunələr gətirmək olar. Belə siyasətin obyekti bu və ya digər millət, xalq və ya etnik qrup olmur, müəyyən sinif və ya sosial qruplar olur. Bu baxımdan diqlossiyanın mövcud olduğu situasiya daha səciyyəvidir. Məsələn, Norveçdə dil situasiyası iki ədəbi standartın və bir neçə dialektin mövcudluğu ilə səciyyələnir. 1951-ci ildə Norveç stortinqi (parlamentin) dil komissiyasının qarşısında iki ədəbi dilin xalq danışıq nitqi əsasında yaxınlaşmasına kömək etmək vəzifəsi qoymuşdu. Məhz xalq danışıq nitqi şəhər burjuaziyasının mənafeyini əks etdirən partiyaların kəskin müxalifətinə səbəb olmuşdur (2, 224).

Beləliklə, dil siyasəti – istər milli-homogen dövlətdə bu və ya digər sinfə və ya sosial qruplara münasibətlərə görə daxili siyasət olsun, istərsə də bu və ya digər ölkəyə və ya bir qrup ölkəyə münasibətdə xarici siyasət olsun, istərsə də çoxmillətli dövlətdə milli siyasət olsun, həmişə bu və ya digər siyasi kursun üzvü, tərkib hissəsi olmuşdur.

İnsan ilə cəmiyyətin görüşdüyü yer olan dil çox mühüm hadisə kimi, heç zaman siyasətdən, onun müdaxilələrindən kənarda qala bilməz. Dil siyasəti və dil quruculuğu da bu problemlərdən biridir. Dil siyasəti siyasətin müxtəlif şəkillərindən biridir. Dil siyasəti dövlətin, ictimai qrupların, siniflərin, partiyaların, hətta ayrı-ayrı şəxslərin ümumi siyasətinin bir hissəsidir.

Dil siyasətinin ümdə vəzifələri, adətən, dilin funksional cəhəti, cəmiyyətdə fəaliyyət göstərməsi, onun yerinə yetirdiyi sosial-kommunikativ funksiyalar və onun tətbiqi dairəsi ilə əlaqədardır. Lakin bunlara bənzər vəzifələri həll etmək, dilin strukturuna müəyyən təsir göstərmədən, çətin ki, mümkün olsun. Dilçilik ədəbiyyatında bir struktur vahid kimi bu cinsdən olan şüurla və məqsədyönlü təsir haqqında kifayət qədər yazıya rast gəlmək olar.

Dilin struktur cəhətinə şüurlu təsir adətən, məktəb, ədəbiyyat, teatr, şifahi təbliğat və digər kütləvi kommunikasiya vasitələri ilə, yəni son nəticədə dilin funksional cənhəti ilə bilavasitə əlaqədar olan faktor və şəraitlərlə həyata keçirilir. Şüurlu idarə dilin strukturuna yalnız funksional cəhət vasitəsilə təsir göstərir. Bu təsir zamanı keçdikcə artır, yenə də hər halda kortəbii inkişafla müqayisədə olduqca məhdud hüdudlara malikdir və təbii dildə çətin ki, nə vaxtsa tam dəf edilsin.

Tədqiqatçılar belə şüurlu və məqsədyönlü təsirə ümumtəhsil normalarının (tələffüz, ortoqrafik, leksik, qrammatik) müəyyənləşdirilməsini, söz işlətmənin reqlamtləşdirilməsi üzrə işlərin, terminologiyanın yaradılması və təkmilləşdirilməsini, ümumməcburi dil normalarının tətbiqini və yayılmasını aid edirlər.

Dil siyasəti, əslində kifayət qədər müərkkəb strukrura malik hadisədir, hər şeydən əvvəl ona görə ki, burada dilin təbii imkanları, tarixi situasiya və subyektiv maraqlar, yaxud iddialar qarşılaşır, yəni, bu və ya digər dil siyasəti konkret bir dilin mövqeyindən mövcud beynəlxalq, sosial-siyasi şərait nəzərə alınmaqla aparılır.

Dil siyasəti: a) aktiv və passiv; b) humanist və mürtəcc; c) qlobal, regional və milli ola bilər. Bizim fikrimizcə, aktiv dil siyasəti tarixi şəraitdə şəxsiyyətin iradəsi ilə həyata keçirilir. Passiv dil siyasəti isə bir növ dillərin təbii inkişafının diktəsinə əsaslanır. Humanist dil, prinsip etibarilə, dillərin təbii inkişafının məntiqinə əsaslanmaqla aparıldığı halda, mürtəce dil siyasəti bu məntiqin ziddinə, yaxud onun detallarını nəzərə almadan yürüdülür və bir qayda olaraq, konyuktur səciyyə daşıyır.

Digər dövlət içərisində mərkəzləşdirilmiş və mərkəzləşdirilmiş dil siyasətini fərqləndirmək lazımdır. Dövlətin həyata keçirdiyi və ümumi məcburi tədbirlə sistemini nəzərdə tutan dil siyasəti mərkəzləşdirilmiş dil siyasəti adlanır. Yerli hakimiyyət orqanlarının həmin regionin hüdudlarından kənarda məcburi qüvvəsi olmayan dil siyasəti, habelə ayrı-ayrı partiyaların və ictimai cərəyanların dövlət tərəfindən dəstəklənməyən dil siyasıtləri mərkəzləşdirilməmiş siyasətdir. Məsələn, Qəl liqasının proqramını buna misal göstərmək olar, belə ki, bu liqa irland milli-azadlıq hərəkatının çərçivəsində irland dilinin bərpa edilməsi və onun milli dilə çevrilməsi uğrunda mübarizə aparırdı.

Dil siyasəti dilin cəmiyyətə şüurlu təsiri ilə bağlıdır. Bu nöqteyi-nəzərdən o, müəyyən bu və ya digər dövlət-siyasi sistemi ideoloji və praktiki münasibətlərini təyin edən metodoloji və sosial bazanın məqsədyönlü ifadəsidir və sistem xalq və ya xalqların həyatındakı rolu, dillərin əlaqəsini və inkişafını özündə təcəssüm etdirir. Dil siyasətinin diqqə mərkəzində daha iri həcmli ideoloji və sosial cəsiyyəli milli-dil münaqişələri və problemləri durur, çox vaxt bu xırda dəyişikliklər və reformalar, məsələn, otfoqrafiyada bəzi dəyişikliklər, dil mədəniyyətinin keyfiyyətinin qaldırılması və s. onun hərəkət dairəsinə daxil olmur.

Dil siyasəti, əsasən, leksik-semantik sistemə, xüsusən ictimai-siyasi leksikaya, eləcə də dövlət tərəfindən aparılan reformalar nəticəsində ədəbi dilin üslubi diferensiallaşmasına, dilin dialekt üzvlənməsinə, dialekt fərqlərin aradan qaldırılmasına böyük təsir göstərir. Mədəniyyət sahəsində müəyyən siniflərin ideoloji mənafeyi ilə əlaqədar olaraq dil siyasəti perspektiv və retrospektiv ola bilər. Sovet elmi ədəbiyyatında belə siyasət dil quruculuğu, Avropa və amerika elmi ədəbiyyatında dil planlaşdırılması adlanır. Sosialist cəmiyyətində əsas diqqət millətlərin bərabərliyi, onların dil problemlərinin həlli, milli dövlətlərin yaradılması, doğma dilin bazasında milli mədəniyyətin qurulması məsələləri durur ki, bu məsələlərin həlli üçün hər cür şəraitin yaradılması ümdə məsələlər sırasındadır. Bu zaman yazısı olmayan dillərin əlifbalarının yaradılması, doğma dildə təhsil, milli dillərin əsasında elm və mədəniyyətin inkişafı, kütləvi mətbuatda (radio, televiziya, kino, mətbuat) doğma dilin istifadəsi, həmçinin rəsmi yazışma zamanı doğma dildən istifadı prinsiplərinin hazırlanması ön plana çəkilir.

Dil siyasəti dövlət və ya müəyyən ictimai sinfin dillərin funksional bölüşdürülməsi və yeni və ya köhnə dil normalarının yeridilməsi üçün aparılan işlərin məcmusudur. Bu, bir növ dövlət siyasətidir. Formalaşan dil siyasəti ictimaiyyətin müxtəlif siniflərinin maraqlarını yerinə yetirməyə çalışır: a) müəyyən siniflərin maraqları; b) etnodil cəmiyyətinin maraqları; c) mədəniyyət sahəsində məqsədlər; ç) dini maraqlar və s. (6, 161).

Yuxarıda qeyd etdiyimiz kimi dil siyasətində retrospektiv və perspektiv istiqamətlər vardır. Perspektiv dil siyasəti dil quruculuğunu, məsələn, yazısız dillərin əlifbalarının yaradılmasını nəzərdə tutur. Retrospektiv, məsələn, yazısız dillərin əlifbalarının yaradılmasını nəzərdə tutur. Retrospektiv istiqamət geniş mənada dil mədəniyyəti və ya nitq mədəniyyətini göstərir, yəni bu zaman ədəbi dil normalarının saxlanılması və onların cəmiyyətə məqsədyönlü yeridilməsi, dil daşıyıcılarında normaların işlədilməsi prosesini önə çəkir.

Retrospektiv dil siyasətini belə təsəvvür etmək olar:

a) Normaların təyini (bu suala ancaq bu sahədə peşəkar olan dilçilər cavab verə bilər);

b) normaların kodlaşdırılması, yəni lüğət və qrammatikada bu normaların möhkəmlənməsi. Qrammatika və lüğətlərdə nəinki normalar göstərilir, həm də bu normalardan sapma öz əksini tapmalıdır;

c) normaların yeridilməsi. Bu, icraedici prosesdən asılıdır, yəni bu zaman dilçilərin icraedilmiş fəaliyyətinin nəticəsi olan qrammatika və lüğətlərə müraciəti özündə əks etdirir.

Dil siyasətinin əsas alətləri – 1) qrammatika və lüğətləri yaradan akademik institutlar. Bu institutlar, bir növ, dil siyasətinin bazis, nəzəri, passiv alətləridir; 2) dillə bağlı icraedici orqan olan dövlətdir.

Dil siyasəti dünya ictimaiyyətində milli dilin vəziyyəti ilə bağlıdır. Bu və ya digər dildə ünsiyyətin funksional rəngarəngliyinin həcmi dilin kommunikativ səviyyəsini təyin edir. Kommunikativ səviyyə aşağıdakılardfn: 1) bu dildə danışanların sayından; 2) bu dildə danışan etnosun kəmiyyətindən; 3) dilin digər dövlətlərdə işlənmə dairəsindən; 4) bu dilin sosial və ictimai funksiya daşımasından asılıdır.

Dil siyasətini cəmiyyətdə olan qayda-qanun kimi də nəzərdən keçirmək lazımdır. Qeyd etmək lazımdır ki, dil siyasətinin iştirakçıları çox vaxt dil situasiyasını görüb təyin etmək iqtidarında, baş verəmləri aradan qaldırmaq üçün alətlərə, təhlil metodlarına malik deyildir.

Dil siyasətinin praqmatik strategiyasını müəyyən dəyərlər və iqtisadi düşüncələrə görə siyasi elita təyin edir. Bu strategiyaya parlaq nümunə kimi Sinqapur Respublikasını misal göstərmək olar. Millətarası ünsiyyət üçün 1826-cı ildən koloniya yaradıldıqdan bəri rəsmi dil olaraq ingilis dili seçilmişdir. İndiki dövrdə bir neçə rəsmi dil, ingilis, çin, malay və tamıl dilləridir. Bütün bu dillərdə qəzet çıxarılır, radio və televiziya verilişləri aparılır. Aşağı siniflərdə uşaqlar öz doğma dillərində təhsil alırsa, yuxarı sinif və ali müəssisələrdə təhsil ibgilis dilində aparılır (9).

Bundan əlavə, böyük bir kütlənin ingilis dilini mənimsəməsi mürəkkəb xüsusi işlərin, müasir texnologiya və texnikanın asanlıqla öyrənilməsi prosesini asanlaşdırır. Belə situsasiya on illiklərdir ki, davam edir, daxili siyasətin effektiv iqtisadi təməlin və daxil stabilliyin qorunub saxlanılması milli siyasi elitanın formalaşmasına gətirib çıxarmışdır. Dövlət hələ kolonial dövrdə çinli və malaylar arasında baş vetən münaqişəni yadda saxlayaraq gələcəkdə belə münaqişələrin qarşısını almaq məqsədilə ölkəsində heç bir etnos üçün doğma dil olmayan ingilis dilini "neytral" dil kimi önə çəkmişdir. Bu təcrübənin effektliyi özünü çox keçmədən doğrultdu. Xalqın böyük bir hissəsinin ingilis dilini bilməsi faktoru regional bazarda Sinqapurun xüsusi mövqe tutmasına gətirib çıxardı. Müasir dövrdə Sınqapur ən vacib iqtisadı mərkəzdir, onun portalında böyük həcmdə Asiyanın şərq və qərbi üçün vacib strateji yüklər keçirilir. Bütün bunlar bir daha sübut edir ki, düzgün qurulmuş dil siyasəti gələcəkdə bır çox problemlərin qarşısını almaq iqtidarındadır.

Dil siyasəti tarixi şahidlik edir ki, dilin inkişafına cəmiyyətin şüurlu qarışmasının bütün uğurlu cəhətlərində dilin inkişafının daxılı ənənələri nəzərə alındığı kimi dilin fəaliyyət göstərməsinə təsir edəri sosial faktorlar da nəzərə alınmalıdır.

Azərbaycan dili bugünkü səviyyəyə çatanadək dil sahəsində müəyyən maneələrlə rastlaşmışdır. Lakin hər bır ictimai-siyasi quruluş öz izlərini dildə əks etdirmiş,

müəyyən dərəcədə dilin inkişafına zəmin yaratmışdır: "Azərbaycan ədəbi dili ümumxalq Azərbaycan dilinin yüksək fomasıdır və bu dil birdən-birə təşəkkül tapmamışdır. O, əsrlərin məhsuludur və əsrlər boyu azərbaycanlılara fikir mübadilə-sində ləyaqətlə xidmət edən kamil bir ünsiyyət vasitəsidir. Azərbaycan ədəbi dili müstəqil dil olsa da, dünya dilləri sistemində türk dillərinə mənsub dillərdən biridir və onun da inkişafı, əsasən, dünya dillərinin ümumi inkişaf qanunauyğunluqlarına müvafiq olmuşdur. Zaman keçdikdə bu ədəbi dil xidmət etdiyi xalqın ehtiyac və tələblərinə görə dəyişmiş, təkmilləşmə, səlisləşmə yolu ilə inkişaf etmişdir" (1, 3).

Böyük insan, dahi siyasətçi, müdrik dövlət xadimi Heydər Əliyev xalqın təkidi və tarixin hökmü ilə Azərbaycanda yenidən hakimiyyətə qayıtdıqdan sonra dövlətçiliyimizin qorunub saxlanmasına, ölkədə iqtisadı, ictimai-siyasi, ideoloji-mənəvi həyatın normallaşmasına, sabitləşməsinə nail oldu. Onun hərtərəfli yaradıcı fəaliyyətində ana dili, dil və dövlət, dil və mədəniyyət, dil quruculuğu kimi önəmli məsələlər - dövlət səviyyəsində inkişaf etdi.

Azərbaycana hələ sovet dönəmində rəhbərlik etdiyi vaxtdan Heydər Əliyev öz zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması sayəsində ardıcıl milli dil siyasəti işləyib hazırlamış və bütün çətinliklərə sinə gərərək onu dönmədən həyata keçirmiş, Azərbaycan dilinin dövlət dili olması uğrımda ardıcıl mübarizə aparmışdır.

1974-cü ildə "Müasir Azərbaycan dili" dərsliyinin müəllifləri – Ə.Dəmirçizadə, S.Səfərov. M.Hüseynzadə, Ə.Abdullaycv, Y.Seyidov və A.Həsənova dövlət mükafatı verilməsi Azərbaycan dilinə, Azərbaycan dilçiliyinə, azərbaycandilli təhsilə böyük qiymət idi.

Dil siyasəti konstruktiv səciyyə və desktruktiv səciyyə də daşıya bilər. Konstruktiv dil siyasəti deyəndə dillərin funksiyalarının, onların tətbiq dairəsinin sosial-kommunikativ rolunun genişləndirilməsinə, ədəbi dillərin yaranması və inkişafına yonəlmiş siyasət nəzərdə tutulur. Destruktiv dil siyasəti dedikdə, elə buir siyasət nəzərdə tutulur ki, həmin siyasət, azlıqda qalan xalqların arasında hər cür dövlətçilik rüşeymlərini öldürsün, mədəniyyəti əlil etsin, dili sıxışdırsın, onları cəhalətdə saxlasn və nəhayət, imkan dairəsində onlar ruslaşdırsın.

Qlobal dil siyasəti, ümumən dünyada gedən dil proseslərini nəzərə almaqla apardığı halda, regional dil siyasəti dillərin qarşılıqlı əlaqəsində bu və digər regionu əhatə edir. Milli dil siyasəti isə bir ölkə, yaxid dövlət daxilində aparılır.

Dil quruculuğu terminini hər hansı dil siyasti üçün işlətmək olmaz. Bu terminin ifadəsi dillərin ictimai funksiyasının genişləndirilməsi, onların terminoloji sistemlərinin mükəmməlləşdirilməsi və tamamlanması, ədəbi dillərin yaradılması və kodlaşdırılmasıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, dil situasiyalarının tipindən asılı olaraq dil siyasətinin şəkillərini fərqləndirmək lazımdır. Əvvəla, birdilli dövlət şəraitində dil siyasətini, ikincisi, çoxdilli dövlət şəraitində dil siyasətini, üçüncüsü, həmin dövlətin hüdudlarından kənarda dil siyasətini fərqləndirmək lazımdır.

Dil siyasətinin bu tipləri tam mükəmməlliyə iddia etmir. Lakin sadalanan əlamətlərin nəzərə alınması, dil siyasətinin əsas tiplərini müəyyənləşdirməyə imkan verəcəkdir. Dilin müstəqil inkişafı, zənginləşməsi və nüfuzu dövlətçiliklə bilavasitə bağlı olduğu üçün dil dövlətçiliyin ən aparıcı atributlarından biri hesab olunur.

Ədəbiyyat.

1. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, Maarif, 1973, 233 səh.
2. Dəmirçizadə Ə.Ə. Azərbaycan ədəbi dilinin tarixi. Bakı, 1979, 270s.
3. Rəcəbli Ə.Ə. Sosiolinqvistika. Bakı, Nurlan, 2004, 520s.
4. Дешериев Ю.Д. Социальная лингвистика. М., 1977, 382с.
5. Дешериев Ю.Д. Языковая политика // Лингвистический энциклопедический словарь. М., 1990, с.616
6. Мечковская Н.Б. Национально-языковая политика // Социальная лингвистика пособие для студентов гуманит. вузов и учащихся лицеев. М., 1996, с.117-127
7. Самойлов И.Н. Языковая ситуация и языковая политика в современном обществе. Вестник Волг.гос.ун., серия 2, языкоз., 2009, № 9, с.160-165
8. Скворцов Л.И. Языковая политика. Культура русской речи: энциклопедический словарь-справочник. М., Флинта: Наука, 2003, с.806-809
9. Carol L. Social science. Oxford University Press. 2001, 232p.
10. Аюпова Л.Л., Салихова Э.А. Роль языковой компетенции и ценностных ориентаций индивида при описании языковой ситуации.
http//www.work.vegu.ru/vegu/vestnik/DocLib/Аюпова,Салихова_14-23pdf
11. Арнольд И.В. Стилистика современного английского языка. М., 1990, с.500

Sevinc Cafarova

LANGUAGE POLICY
SUMMARY

The article is considered about language policy. The authors show that the society must take care if the language and the language great influence in the society. If the language died, the society died, too. The authors thought that the every government have its own language policy and develop it.

İn English, grammatical gender is a property of only nouns and pronouns. It is one of the simplest parts of English grammar for the concept is clear and consistent. This is because gender in English is based on natural gender (i.e.maleness and femalenes) rather than grammar (i.e. morphology). It is not so in many other languages, where the concept of grammatical gender is based on morphology and may apply not only to nouns and pronouns but as so to other parts of speech such as adjectives and verbs. A male person or male animal belongs to the gender-class: a

female person or female animal belongs to another. If English had grammatical gender then nouns, pronouns, even other parts of speech would have belonged to different gender groups depending upon their word-endings-and even these would have had exceptions. The pronoun he and the nouns lion, man, actor refer to male persons or animals. They belong to one class of gender.

The pronoun she and the nouns lioness, woman and actress refer to female persous and animals. Nowadays some words in the Masculine Gender are used as common Gender.

In this article the author proves it as a lexical category but not a grammatical category but a grammatical category. The article also speaks about the simple and compound nouns, the use of the category of gender in relations and analyses the English words. This article is about grammatical rules of agreement with nouns. For uses of language associated write men and women, see Language and gender. For methods of minimizing the of gendered forms, see Gender-neutral language. Common gender divisions include masculine and feminine: masculine, feminine and neuter or animate and inanimate. In a few languages, the gender assignment of nouns is solely determined by their meanings or attributes, like biological sex, humanness or animacy. In this case, the gender assignment can also be influenced by the morphology or phonology of the noun, or in some cases can be apparently arbitrary.

Key words: language, bilingualism, sociolinguistics, ideology, national thinking, conversation, criterion, word

Севиндж Джафарова

ЯЗЫКОВАЯ ПОЛИТИКА

РЕЗЮМЕ

В статье рассказывается о языковой политике. Автора показывают что, общество должно заботиться о языке и язык имеет большое влияние на общество. Если язык умрет, то общество тоже погибнет. Автор считают, что каждое правительство должен иметь свою собственную языковую политику и развивать его.

Языковой материал для изучения гендерных различий составляют одушевленные существительные со значениям лица, извлеченные методом сплошной выборки из словарей английского и азербайджанского языка. Для исследовании современного английского языка использовалось 658 наименований лиц, извлеченных из словаря современного употребления английского языка Лонгмана с приложением новых слов. Цель исследовании изучить и описать становление категории гендера на древне английском, средне и ранненово английском гендерных асимметрий английского языка носит масштабный характер. Наибольшие изменения претерпевает

семантический способ выражения рода, который становится основным в обозначений пола лица. У одушевленных существительных принадлежность лица к мужскому или женскому полу закреплена преимущественно в лексическом знании слова. Существительные женского рода имеют в словарях пометы, накладывающие ограничение на их употребление, а также отражающие шутливое и негативное отношение к лицам, которых они обозначают.

О грамматической категории рода то есть изменений в составе предложения, связанных с родом существительного, в английском языке нет. Это значит, род в английском языке проявляется только через существительные и местоимения. К среднему роду относятся практически все неодушевленные предметы, а так же растения, птицы и животные. Исключение составляют домашние животные. Логика здесь такая, если какое-то существо или предмет кажется одушевленным, то есть буквально имеющим душу, способным переживать, чувствовать, вы можете «дать» ему местоимения мужского или женского рода в зависимости от его пола. Но если о стране идет речь как о государстве, имеющем свои политические и экономические особенности, культуру и традиции, уместно говорит she.

Многие слова в английском языке называет немаркированными, то есть не имеющими категории рода вообще, нейтральными – без дополнительного уточнекния по ним нельзя понять, о мужчинах и женщинах идет речь.

Ключевые слова: язык, билингвизм, социолингвистика, идеология, национальная мышление, разговор, слова, критерии.

Redaksiyaya daxil olma tarixi: 27.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Rəna Hüseynova
tərəfindən çapa tövsiyə olunmuşdur

AYTƏN ƏFƏNDİYEVA
Gəncə Dövlət Universiteti
ayten.efendiyeva13@gmail.com
Gəncə şəhəri, Heydər Əliyev 187

ANLAMA LINQVİSTİK HADİSƏ KİMİ

XÜLASƏ

İstənilən ünsiyyət və idrak prosesləri şərhlə yaxından əlaqəlidir. Gündəlik həyatda insan jestləri, sözləri, geyim əşyaları, makiyaj xüsusiyyətləri, digər insanların spesifik hərəkətləri və s. şərh etməlidir. Bu cür şərh, təsvir müxtəlif sosial faktları və hadisələri anlamaq üçün lazımdır. Şərh çox vaxt insanların peşə fəaliyyətinin xüsusiyyətləri ilə də əlaqəli, bağlıdır. Həqiqəti dərk edən insan, müəyyən bir şəkildə ətraf aləmin hadisələri ilə əlaqəlidir. Bu münasibət subyektiv, fərdi xarakter daşıyır və hisslərdə, duyğularda təmsil olunur. Subyektiv anlama danışanın nitqin məzmununa münasibətinin müxtəlif aspektlərini əks etdirir. Bu, təbiətinə və dilinə görə çox vaxt müxtəlifdir, lakin bu, ən fərqli şəkildə təyin olunur. Üstəlik, danışarkən biz yalnız bir münasibət qurmuruq, əksinə, aksioloji miqyasda hadisələri, faktları və ya danışanı qiymətləndiririk. Məqalədə anlama ilə bağlı dil nəzəriyyələri müzakirə olunur.

Açar sözlər: anlama, yanaşma, sistem, semiotika, anlayış, sahə nəzəriyyəsi

Müasir dövrdə dilçiliyin ayrı-ayrı dil sahələri, eləcə də dilin ümumilikdə sahə xarakteri tədqiq olunur. Çoxsaylı tədqiqatlar dil sisteminin sahə modelinin faydalılığını göstərir, belə ki, burada dil çoxsəviyyəli xarakterə malik periferiya zonalarının qarşılıqlı təsiri ilə bir-birinə keçid edən sahələr sistemi kimi verilir. Dilin sahə kompozisiyası ənənəvi qrammatika çərçivəsində həll oluna bilməyəcək məsələlərin həllinə yol açır, dil materialının dərinliklərini öyrənməyə kömək edir. Bu prosesdə kateqoriya vahidlərinin eyni mənanı ifadə etdiyi təqdirdə, o, morfologiya, sintaksis, leksika qarşıdurmasının qarşısını almağa imkan yaradır.

Müasir dilçilikdə hökmran yanaşma funksionaldır. Müasir dilçilik V.fon Humboldt, A.A.Potebnya, Boduen de Kurtenenin ideyalarını əks etdirən dilin funksional şərhinin, inkişafının yeni yanaşmasını göstərir. Funksional aspekt konkret vahid və ya leksik-semantik kateqoriyanın vahidlərindən əlavə, ümumilikdə sahə üçün də vacibdir. Sahə probleminin dərin tədqiq (Q.İpsen, Y.Trir, V.Porsiq, E.Koseriu, V.P.Abramov, B.D.Qorodeskiy, Y.S.Stepanov və s.) tarixinə malik olmasına baxmayaraq, indiki dövrdə onun optimal şərhi, tərəfləri və funksiyalarının müəyyənləşməsində axtarışlar davam edir. Sahə nəzəriyyəsi funksional (sintaqmatik)

və paradiqmatik aspektlərdə tədqiqi tam deyil. Semantik sahələr (prosessual, əlamət, predmet) tipologiyası də tam həllini tapmamışdır. Bununla belə, qeyd olunmalıdır ki, dil vahidlərinin semantik aspektlərinin təsvirinin tədqiqi ilə bağlı işlərin sayı son dövrlər artmışdır. Dünyanın konseptual modeli və dünya dil modeli problemləri ilə bağlı işlərdə müxtəlif dil səviyyələrinin, dil sisteminin təsvirinin tədqiqi həyata keçirilir. Belə işlərdə leksik-semantik strukturun xarakterik xüsusiyyətlərinin və əsas parametrlərin təsviri verilir, semantik əlamətlər, müxtəlif semantik sahələr nəzərdən keçirilir. Semantik sahə məna əsasında dil vahidlərin ən böyük, geniş qruplaşmasıdır ki, özündə dil vahidlərinin onomasioloji və semantik birləşməsini təcəssüm etdirir [12, 209].

Semantik sahə anlayışı Q.İpsenin işindən sonra geniş vüsət aldı. O, semantik sahəni ümumi mənaya malik sözlərin məcmusu adlandırır. Y.Trir isə leksikanın təsvirində "sahə" terminini deyil, "sistem" terminini işlədir. Belə yanaşma Q.S.Şurun "Dilçilikdə sahə nəzəriyyəsi" işində də öz əksini tapır. Sahə anlayışı termin kimi İ.Trir tərəfdən 1931-ci ildə dilçilikdə işlənmişdir. O yazırdı ki, sözü tələffüz edərkən insanın şüurunda bir çox söz meydana gəlir ki, mənaya görə tələffüz olunan sözlə qoşalaşır: bu, onun "anlayış qohumlarıdır". Onlar öz aralarında və eləcə də tələffüz olunan sözlə məcmu əmələ gətirir ki, bu da söz sahəsi adlanır [13, 7]. Y.Trir isə "leksik sahə" və "anlayış sahə" anlayışlarını fərqləndirir. Biz nəzəri planda V.fon Humboldt, T.İpsen, Q.Matore və başqalarının ideyaları əsasında anlama anlayış sahəsini tədqiq edirik.

"Anlama" linqvistik fenomeni insanın əqli dünyası sferinə daxil olaraq dil daşıyıcıları tərəfindən aktuallaşan hər hansı bir təbii dilin semantik konstantı və təfəkkür kateqoriyasıdır. Verilən əqli fəaliyyət fikir, hökm, təsəvvürlərin formalaşmasına cavab verir, qiymətləndirici və qavrayıcı funksiyasını özündə əks etdirir. Onun anlayışları da və sözlərin mənasında təqdimi verbal manifestasiya formasında dünyanın dil xəritəsi səviyyəsində reallaşır. "Anlama" dil işarəsi digər feili işarələrə oxşar olaraq konkret "qavrama" hadisəsini obyektivləşdirir, funksional yükü özündə təcəssüm etdirir və feil mənası ilə kateqorial məna arasında konseptual əlaqəni əks etdirir. Dilçilikdə anlama kommunikativ sferdə (ünsiyyətdə kommunikativ xüsusiyyətlərin müəllif tərəfindən verilməsi və ya personajların ünsiyyəti), eləcə də anlama feillərinin köməyi ilə nəzərdən keçirilir. Sonuncu halda ünsiyyət müəllif və dinləyici arasında müəyyənləşir. "Anlama" elmlərində anlama obyekti ünsiyyəti daxil etməklə, bütün dünya ola bilər. Qeyri-linqvistik sferdə anlama problemi ənənəvidir. Müasir dövrdə semantika sahəsində tədqiqatların böyük əksəriyyəti prosessual sahənin tədqiqi təşkil edir. Bu sahənin semantik əsası identifikatorlar kimi çıxış edən feillərdir [5, 48]. Bu feillərin əsasına nəinki feillərin semantik sinifləri, eləcə də daha mürəkkəb semantik strukturlu və üslubi səciyyəli vahidlər daxildir. Bu identifikatorlardan istifadə edərək, hər hansı bir dilin semantik sahələrinin təsnifi problemini həll etmək olar. Oxşar identifikatorlara görə feilləri qruplara təyin etmək və onları bu qrupların əsas vahidləri kimi nəzərdən keçirmək

lazımdır [9, 7]. Feillərin semantik sahələrinin əsas vahidləri rolunda ingilis və Azərbaycan dillərində understand/başa düşmək və mean/nəzərdə tutmaq feilləri çıxış edir. V.P.Abramov qeyd etdiyi kimi, leksikanın sistem təşkili ondadır ki, leksik-semantik qruplarda sözün mənası hər bir sözün mənasına təsir edir və onlarda sistem sözlər arasında və söz daxilində məna əlaqələrinin şəbəkəsi kimi verilir [1, 338]. V.A.Zveqinsev [7, 30], Y.N.Karaulov [8, 8], Y.D.Stepanov [11, 54] qeyd edirlər ki, hər bir sistem müəyyən strukturla səciyyyələnir, dilin müxtəlif səviyyələrinin sistemləri bir-birləri ilə qarşılıqlı təsirdə olur, məhz buna görə də dil məlumatın saxlanılması və ötürülməsi vasitəsinə çevrilir.

Leksikologiya və leksikoqrafiya sahələrindəki müasir tədqiqatlar leksikanın bir sistem kimi öyrənilməsində faydalı yanaşmanı şübut edir. Dil vahidlərinin məcmusunun vacib fraqmentlərinin müxtəlif şərhlərini təqdim edən işlər çoxalmışdır. Bu tədqiqatlara R.A.Budaqov, L.M.Vasilyev, V.Q.Qak, Y.D.Karaulov, E.V.Kuznetsov, L.A.Novikova, A.A.Ufimseva, D.N.Şmelev, Q.S.Şur və başqalarının tədqiqatlarını aid etmək olar.

Anlama geniş mənada semiotik olaraq kommunikativ sferdə məna ilə korrelyasiya edir, o, eləcə də evrestik anlamda yeni mənaların törədicisi kimi başa düşülə bilər. Kommunikativ sferdə anlama qavranılan məlumatın referent eyniləşdirmə bacarığı kimi çıxış edir. Kommunikativ sferdən kənarda anlama dünyanın konseptual məzmunu, incəsənət dünyasının, gözəlliyin, praqmatika və s.ni mənimsəmə kimi qavranılır.

Semiotika sahəsində anlama dil substansiyası (onun müxtəlif səviyyələrində) və siqnifikativ dəyərlər aləmi arasında münasibətlərdir. Bu metodologiya strukturalizmlə bağlıdır və diaxronik xarakter daşıyan Hegelin fenomenologiyasının sinxronik kəsiyidir. Hermenevtik nöqteyi-nəzərdən anlama şərhçinin şüurunda digər insanın niyyət, fikir, hiss, motivasiyasının empatiyası prosesi kimi nəzərdən keçirilir, belə ki, onlar onun davranış və hərəkətlərində, eləcə də mənəvi mədəniyyətdə öz obyektləşməsini tapmışdır. Hermenevtikanın əsasını qoyan Fr.Şleyermaxerin fikrincə, anlama danışan və dinləyici, yazan və oxucu, müəllif və şərhçi arasında dialoq prosesində baş verir. Bu dialoq əsnasında şərhçi mətnin və ya nitqin rekonsruksiyasını həyata keçirir, yəni onda hansı mənanın olduğunu aşkarlayır, onu anlamağa çalışır. V.Diltey isə belə hesab edir ki, anlama vasitəsilə biz digər şəxslərin mənəvi aləmini aşkarlayırıq. Hermenevtikanın anlamaya yanaşmasında əsas əskiklik anlama prosesinin psixoloji və subyektiv nöqteyi-nəzərdən keçirilməsindədir. Bununla belə, hermenevtikanın inkişafı bu prosesdə bir çox məsələlərin aşkarlanmasında, yeni problemlərin və nöqteyi-nəzərin irəli sürülməsinə köməklik edir. Hermenevtika çərçivəsində anlama prosesində bütöv və hissənin qarşılıqlı təsiri əməliyyatı aşkarlanmışdır. Hermenevtikada aşkarladığımız anlama prosesi sistem xarakter daşıyır və bəzi işarə strukturu çərçivəsində bütöv və hissələrin qarşılıqlı təsiri nəticəsində baş verir. Belə ki, məhz struktur bütöv çərçivəsində hissələrin qarşılıqlı əlaqə və təsiri səciyyələnir, anlamanın şərhinin hər bir mərhələsi elmi

hökm, sübut, nəzəriyyənin komponentləri və ya nitq, mətnin ünsür hissələrinin qarşılıqlı təsirinin spesifik xarakteri ilə müəyyənləşir.

Hər hansı bir anlamanın mənanın təyini ilə bağlı olduğunu nəzərə alsaq, deyə bilərik ki, bu məna məhz kontekstdə açılır, buradan da görmək olar ki, hər hansı bir anlama sistem xarakterə malikdir. Bunu, əsasən, nitqin anlanmasında görmək olar. Yaxşı məlumdur ki, sözün mənası bitmiş fikri ifadə edən, ən kiçik nitq vahidi kimi cümlə kontekstində müəyyənləşir. Öz növbəsində, onu nitqin fraqmentləri və ya ayrı-ayrı ifadələrini cümlələrlə, daha geniş hissələrlə uyğunlaşdırdıqda anlamaq olar. Bu hissələr digər hissələrə münasibətdə yeni bütöv halında birləşir, belə ki, bütöv çərçivəsində onlar öz funksional və struktur mənasını əldə edir. Beləliklə, hər hansı anlama prosesinin əsasında hər hansı bir tədqiqatın konkret sahəsində sistem metodunu tətbiq etməklə bütöv və hissənin qarşılıqlı təsiri prinsipi durur. Anlama həm insanların davranışı, həm də onların mədəni-tarixi fəaliyyətində bu yolla baş verir. Məlumdur ki, anlama dil ifadəsində mənanın aşkarlanması ilə əlaqəlidir, ona görə də semiotik təhlildə məhz şərh əsas rolu oynayır, bu da semantikanın öyrənilməsində onun predmetini təşkil edir. Semiotik nöqteyi-nəzərdən anlama semiotik sistemdə (nitq, sübut, nəzəriyyə, ədəbiyyat və ya mədəniyyət parçası vəs .) mənanın aşkarlanmasına yönəlir, məna isə insan vasitəsilə onun fəaliyyəti nəticəsində baş verir. Beləliklə, anlama nitqdən başlayaraq, elmi nəzəriyyə və mədəniyyət parçasında qurtararaq həmin fəaliyyətin obyektlərinə aid olur. Buradan aşkarlamaq olar ki, biz bizi əhatə edən təbiət proses və predmetlərin anlaması haqqında danışa bilmərik, belə ki, onların nə məqsədi, nə də mənası var. “Biz daş və ya ağacı başa düşə bilmərik, lakin botanika və ya minerologiya ilə bağlı nəzəriyyə və fərziyyələrini başa düşə bilərik. Bu vəziyyət anlama probleminin tədqiqatçılarından çox vaxt nəzərindən qaçır” [10, 141].

Semiotik sistemin praqmatik təhlili dil ünsiyyətinin prosesində və ya elmi məqsədlər üçün bu sistemin istifadəsi və ya dilin praktikada işlənməsi ilə bağlıdır. Birinci növbədə dilin anlanması sözlərin mənası biliklərindən asılıdır, belə ki, anlama dilin tətbiqinin baş verdiyi konkret situasiya və şərtlərlə tanışlığı ehtimal edir.

Anlamaya semiotik yanaşma bu prosesin mexanizminin bütün vacib xüsusiyyətlərini aşkarlayır. Anlama dərəcəsi və ünsiyyətin ümumilikdə müvəffəqiyyəti təkcə ünsiyyətin iştirakçılarının bilikləri və onların “ümumi yaddaşı” ilə deyil, onlara açıq olan “məna sahə”sinin ümumi strukturu ilə şərtlənir.

Hermenevtika mənbələrindən məlum olduğu kimi, bilik və anlama bir-biri ilə tam üst-üstə düşməyən, bir-birini ehtimal edən ətraf aləmlə insanın qarşılıqlı təsirinin müxtəlif anlarıdır. Bu prosesdə insanlar dünya hadisə və obyektləri haqqında müəyyən məlumat əldə edir, onu təcrübəyə yönləndirir, lakin biliklərin toplanması və inkişafının prosesi onun periodik nizamlanması və düşünülməsini təxmin edir, bu da dünyanın anlanması və fəaliyyəti üsullarını dərinləşməsinə xidmət edir.

Anlamanın yenidən düşüncə kimi nəzərdən keçirilməsi müxtəlif fəlsəfi ənənələrə yönlənməyimizi labüd edir. Bununla bağlı demək olar ki, anlama problemi

ilə bağlı Qərb fəlsəfəsində iki əsas ənənə maraq doğurur. Birinci ənənə müxtəlif formalaşmış dillər və təbii dilin semantik və məntiqi təhlilinə yönəlmiş ingilisdilli dil fəlsəfəsi çərçivəsində olan analitik ənənədir. İkincisi, mədəniyyət hadisələri və mətnlərin şərhi prosedurlarına yönlənmiş hermenevtika ənənəsidir. O, insan tərəfindən ümummədəni mətnlərin, gerçəkliklərin, insanın digər insanı, insanın digər mədəniyyətlər və ya dövrləri düşünməsinə kömək edir. Müəyyən bir məlumatı eşitdikdə və qavradıqda ünsiyyətin ayrı-ayrı mərhələlərində biz anlama dərəcəmizə görə cavab veririk. Bu zaman müxtəlif kontekstləri ehtimal edən, xaricən mətnlərin qurulmasında bütün qaydalara əməl edən sual-cavab konstruksiyaları meydana gələ bilər. Analoji proseslər bir mədəniyyətdən digər mədəniyyətə fərqli qavranılır. Bununla belə, dialoq qarşılıqlı anlaşmaya gedən bir yoldur. M.M.Baxtin qeyd edir ki, dialoq həmişə formal olaraq ünsiyyət prosesində iştirak etməyən üçüncü iştirakçının mövcudluğunu ehtimal edir. Bu üçüncü iştirakçı müəyyən mənada "hesablama nöqtəsi" olaraq real iştirakçıların mövqelərinin tənzimlənməsində rol oynayır [3, 20]. İnsan ünsiyyətə digər insanların mümkün cavab davranışını nəzərə alaraq girir. Hər bir subyekt tərəfindən istifadə edilən gözləntilər və ehtimal olunan qiymətləndirmələr ümumi məhdudiyyətlər daxilində ictimai münasibətlər tərəfindən müəyyən edilir və insanın fərdi təcrübəsində əks olunur. Anlama təhlilinə müasir yanaşmaların xüsusiyyəti hər hansı insan fəaliyyətinə xas olması və onun universal xarakterində özünü büruzə verir. İnsanın qavrama fəaliyyəti ətraf aləm haqqında dəqiq təsəvvürlərin formalaşmasına yönəlir, dünyada məqsədəuyğun yaşamasına kömək edir. Ona görə də gerçəkliyin əksinin müxtəlif yollarını təmin edən təhlil prosedurları qədimdən fəlsəfi tədqiqatlarda vacib yer tutmuşdur. Elmin inkişafı ilə anlamanın bu spesifik formasına maraq artmışdır. Anlama situasiyası cümlə-söyləmin: bütün ünsürlərinin inteqrasiyası nəticəsində obyektləşmiş hadisədir. Anlama feilləri və onların vacib semantik aktantları epistomik modusun predikatları kimi çıxış edir. Göstərilən predikatlar iki vacib valentliyə - subyekt və qurma obyektinə malikdir [2, 2].

İnsan ruhu, təfəkkürü ilə bağlı olan anlama hadisəsi insanın daxili xüsusiyyəti kimi nəzərdən keçirilir. Digər feil işarələri kimi "anlamaq" dil işarəsi [4, 123] "anlama"nın konkret hadisəsini obyektləşdirir, özündə funksional yükü daşıyır və kateqorial məna halında olan hadisə və göstərilən feil mənası arasında konseptual əlaqəni əks etdirir. Anlama feilləri hadisə mənasından əlavə, stativ məna ifadə edə bilər [6, 157]. Onlar subyektin inkişafı və əqli hazırlığını, onun analitik təfəkkürə qabiliyyətini tələb edən müəyyən vəziyyəti göstərir. Bu halda predikatın denotatı anlayışın formalaşmasının real anından mücərrədləşib: I *understand* that you are not to be blamed. Bu söyləmdə bu, danışan tərəfindən faktın konstatasiyasıdır. Digər əqli feillər kimi, anlama semantikalı predikatlar digər söz sinifləri ilə uyğunlaşır [2, 10].

Nəticə etibarilə, qeyd etmək lazımdır ki, anlamanı qavrama faəliyyətinin nəticəsi, subyektin qavramasının müəyyən vəziyyəti, subyekti anlama vəziyyətinə gətirən qavrama əməliyyatlarının məcmusu kimi fərqləndirmək lazımdır. Anlama nəticə kimi bütün qavrama metodların məqsədidir.

Ədəbiyyat:

1. Абрамов В.Г. Семантические поля русского языка: Монография. М.; Краснодар: Акад. пед. и соц. наук РФ, Кубан. гос. ун-т, 2003.

2. Арутюнова Н. Д. Типы языковых значений: Оценка. Событие. Факт. – М.: Наука, 1988.

3. Бахтин Н.М. Разговор о переводах // Н.М. Бахтин. Из жизни идей. М., 1995.

4. Болдырев Н. Н. Когнитивные аспекты функциональной поликатегоризации английского глагола // Когнитивные аспекты языковой категоризации: сб. научн. трудов / отв. ред. А. А. Манерко. – Рязань: РГПУ им. С.А. Есенина, 2000. – С. 123-128.

5. Болдышева Е.Г. Герменевтико-семасиологический метод // Атриум. Серия "Филология", 1999, № 1. - С. 48-53

6. Булыгина Т. В. Языковая концептуализация мира. – М.: Языки русской культуры, 1997.

7. Звегинцев В.А. Предложение и его отношение к языку и речи. М.: Наука, 1976.

8. Караулов Ю.Н. Лингвистическое конструирование и тезаурус литературного языка. М., 1981.

9. Кузнецова Э.В. Категория типичных идентификаторов как основа для выделения лексико-семантических групп глагола // Актуальные проблемы лексикологии. Ч. 1. Томск, 1971.

10. Немец Г.П. Прагматика метаязыка. Киев: КДУ, 1993.

11. Степанов Ю.С. Комментарий к книге: Бенвенист Э. // Общая лингвистика. М.: Прогресс, 1976.

12. Хашимов Р.И. Семантическое поле слов и его элементы. Филологические науки. Вопросы теории и практики, № 4 (46) 2015, часть 2. С. 209-213.

13. Trier J. Der deutsche Wortschatz im Sinnbezirk des Vers-tahdes. Die Geschichte eines sprachlichen Feldes. Ed. 1-Heidelberg: Carl Wintere Universitatsbuchandlung, 1991. 5 347 /Germanische Bibliothek.

AYTEN EFENDIEVA

UNDERSTANDING AS A LINGUISTIC PHENOMENON

SUMMARY

Any communication and cognition processes are closely related to interpretation. In everyday life, a person has to interpret gestures, words, items of clothing, makeup features, specific actions of other people, etc. Such an interpretation is necessary to understand a variety of social facts and phenomena. Interpretation is often associated with the characteristics of people's professional activities.A person, cognizing reality, in a certain way relates to the phenomena of the surrounding world. This attitude is subjective, personal in nature and is

represented in feelings, emotions. Subjective understanding reflects various aspects of the speaker's attitude to the content of the utterance. It is very diverse, but by its nature and in language it is designated in the most different ways. Moreover, when we speak, we not only establish an attitude, but also assess events, facts or a partner, but on an axiological scale. The article discusses understanding in the linguistic theories.

Key words: understanding, approach, system, semiotics, notion, field theory

АЙТЕН ЭФЕНДИЕВА

ПОНИМАНИЕ КАК ЯЗЫКОВОЕ ЯВЛЕНИЕ

РЕЗЮМЕ

Любые процессы коммуникации и познания тесно связана с интерпретацией. В обыденной жизни человеку приходится интерпретировать жесты, слова, предметы одежды, особенности макияжа, конкретные действия других людей и др. Такая интерпретация необходима для понимания самых разных социальных фактов и явлений. Часто интерпретация связана с особенностями профессиональной деятельности людей.Человек, познавая действительность, определенным образом относится к явлениям окружающего мира. Это отношение носит субъективный, личностный характер и представлено в чувствах, эмоциях. Субъективное понимание отражает различные аспекты отношения говорящего к содержанию высказывания. Оно весьма разнообразно но своей природе и в языке обозначаются самыми разными способами. При этом, когда мы говорим, мы не только устанавливаем отношение, но и производим оценку событий, фактов или партнера, а по аксиологической шкале. В статье понимание рассматривается по теориям присущим лингвистике.

Ключевые слова: понимание, подход, система, семиотика, понятие, теория поля

Redaksiyaya daxil olma tarixi: 29.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya elmlər doktoru, dosent Nərmin Əliyeva Əbülfəz qızı**
tərəfindən çapa tövsiyə olunmuşdur

X.M. İSMAYILOVA
Sumqayıt Dövlət Universiteti,
Bakı küçəsi 1, 43cü məhəllə
ismailovakhayala@gmail.com

İNGİLİS DİLİNDƏ SİNONİMİYA VƏ FEİLİ TƏRKİBLƏRİN SİNONİMLİYİ

Xülasə

İngilis dilində sinonimliyin mahiyyəti, feili tərkiblər arasındakı sinonim münasibətlər çoxdan semasiologiya problemlərini inkişaf etdirən dilçilərin diqqətini çəkir və cəlb edir. Bunun başlıca səbəblərindən biridə odur ki, sinonimiya hadisəsi eyni zamanda antonimiya və polisemiya ilə sıx əlaqəlidir. İngilis dilində feili tərkiblərin sinonimliyinin öyrənilməsi tək semasiologiya üçün deyil, leksikoqrafiya, ədəbi tənqid və dil tədrisi metodlarını inkişaf etdirmək üçün də vacibdir. Sinonimiyanın müxtəlif aspektlərinin açıqlanmasına həsr olunmuş çox sayda tədqiqatların mövcudluğuna baxmayaraq, sinonimlərin tərifi, onların öyrənilməsi metodları, sinonimlərin müəyyənləşdirilməsi və təsnif edilməsi prinsipləri, sinonim seriyaların sərhədləri ilə bağlı yekun fikir birliyi hələ də mövcud deyil. Əksər elm adamları sinonimiyanı bütövlükdə dilin leksik sisteminin tərkib hissəsi kimi gəbul edir. Feili tərkiblərin sinonimliyinin tərifinə gəldikdə, burada da bir fikir birliyi yoxdur. Bəzi tədqiqatçılar bir tərkibin ümumi mənasından, digərləri - tərkibə daxil olan sözlərin semantik və subyektiv-məntiqi prinsiplərin korrelyasiyasından, digər qrup alimlər isə - tərkiblərin ümumi struktur modelindən istifadə edərək yarandığını iddia edir. Bu təriflərin analizi bir çox rus və xarici müəlliflərin əsərlərində verilmişdir. Buna misal olaraq, Pautinskayanın "Sinonimiya məsələsinə dair ədəbiyyatın icmalı", V.A.Zvegintsevanın "Semasiologiya", "Dil nəzəriyyəsi və tarixinin sualları", "Nəzəri və tətbiqi dilçilik" və V.T.Vilyumanın "Müasir İngilis dilində feili tərkiblərin sinonimlik qaydaları haqqında"əsərrlərini nümunə göstərə bilərik. Bir çox dilçilər, feili tərkiblərin sinonimliyini tədqiq edərkən onların semantik cəhətdən əlaqəli hissələrinin bir-biri ilə müqayisə edilməsini məqsədəuyğun hesab edir. Bu, hər tərkibin leksik elementlərini araşdırmağa, aralarındakı təsadüf məqamlarını işarələməyə və müqayisə etməyə imkan verir. Eyni zamanda bu vasitə ilə ingilis dilində hər bir tərkibin və ya sözlərin semantik konturlarının niyə fərqli olduğunu izah etməyə imkan verir. Müqayisəli tədqiqatlar sinonimliyin tipoloji universalığının inkişafı üçün əsas rolunu oynayır. Bu müqayisə nəticəsində ingilis dilindəki feili tərkiblərin sinonimliyinin eyni olmayan və ya müxtəlif elementlər üzərində qurulduğunu təhlil etmək mümkündür.

Beləliklə, görürük ki, ingilis dilində sinonimiya və feili tərkiblərin sinonimliyi uzun illər ərzində tədqiq olunmuşdur. Buna baxmayaraq, alimlər tərəfindən yekun bir qayda qəbul edilməmiş, konkret bir tərif verilməmişdir. Sinonimlik dilin ifadəli vasitələrlə zənginləşmə mənbələrindən biridir. Buna görə də

bədii ədəbiyyat və natiqlik sənətinin, stilistikasının və üslublarının öyrənilməsində, düzgün danışıq mədəniyyətinin formalaşdırılması uğrunda mübarizədə, və bununla bağlı problemlərin aradan qaldırılmasında xüsusi maraq doğurur. Dilçilik sahəsi üzrə tədqiqat aparan mütəxəssislər bilirlər ki, nitq hissələri içərisində feil bəhsi digər bəhslərə nisbətən daha mürəkkəb bir sistemə malikdir. Məşhur, tanınmış rus alimi V.V.Vinoqradov feil bəhsini "sistemlər sistemi" adlandırmışdır. Feili tərkiblərin öyrənilməsi və tədqiqi hazırda da ingilis dilində aparıcı rol oynayır.

Açar sözlər: *sinonim, ingilis dili, gerund, feili sifət, məsdər*

Giriş

Sinonimiya (yunan dilində "synonymia" - "eyni ad") dil sisteminin bir sözə bir neçə oxşar ifadə tapa bilmə qabiliyyətinə əsaslanır və minimum dil vasitələrindən istifadə edərək obyektiv dünyanın müxtəlif xüsusiyyətlərini dildə əks etdirməyə kömək edir. Sinonimlik dilin bütün səviyyələrində təzahür edir, buna görə sinonimlər frazeoloji, qrammatik və leksik olaraq fərqlənir. Leksik sinonimlik geniş mənada, sözün semantik və üslub çalarlarındakı fərqləri qoruyarkən dil vahidlərinin mənalarının qismən üst-üstə düşməsi kimi başa düşülür [5, 251].

İngilis dilində sinonimliyin mahiyyəti. İngilis dilində sinonimliyin mahiyyətini nəzərdən keçirtmək üçün əvvəlcə bu mövzuda əsas anlayışlara nəzər yetirək.

Sinonim - başqa bir sözlə desək, bir ifadəyə uyğun gələn və ya məna baxımından yaxın olan söz və ya ifadələrdir.

İngilis dilində sinonimlərin bir neçə nümunəsinə baxaq:

Accidentally – casually,
Think – consider,
Violent – furious,
Life – activity və s.

Beləliklə, sinonimlər dildə eyni nitq hissəsinə, semantik və üslubi məna çalarlarına məxsus olan, bir-birinə yaxın və ya eyni məna ifadə edən, kontekstdən asılı olaraq bir-birini tamamilə və ya qismən əvəz edə bilən söz və ya söz birləşmələridir.

Danışıqda sinonimlər iki əsas funksiya ilə xarakterizə olunur - danışarkən fikir və ifadələri təkrarlamamaq və semantik cəhətdən adekvat olan bir vahidlə əvəz olunduqda söz və ya ifadəni düzgün şəkildə əvəz etmək, yəni aydınlaşdırmaq.

Eyni fenomenləri, əşyaları, işarələri, hərəkətləri, hadisələri adlandırmaq üçün bir-biri ilə əlaqəli olan iki və ya daha çox leksik sinonimlərin dildə müəyyən bir qrup təşkil etməsinə sinonim sırası (synonymous series) deyilir .

To shout – to yell – to bellow – to roar.
To surprise – to astonish – to amaze – to astound [4, 828].

Sinonim sırasında öz əksini tapan sözlər eyni nitq hissəsinə aid olmalıdır. Bu sırada yalnız bir söz dominant ola, yəni əsas məna daşıya bilər. Dominant sinonim sırada həmişə birinci yazılır. Yuxarıdakı nümunələrdə dominant sinonimlər ilkin olaraq qeyd edilmişdir: "to surprise" və "to shout".

Sinonim qruplarının quruluşunu təhlil edərkən sinonim sırasının dominantını (açar sözünü) müəyyənləşdirmək problemi üzərində dayanmaq lazımdır. Bu baxımdan Ş.Balli, sinonimiyanın öyrənilməsinin yalnız tədqiq olunan vahidlərin dominant identifikator ətrafında, yəni fikri sadə və adi formada ifadə edən bir söz ətrafında toplanması halında mümkün olduğuna inanırdı [3, 2224].

Dominant (Latın d. dominans, dominantis – əsas, hakim) əsas mənanın daşıyıcısı olaraq seçilən, sıranın digər üzvləri tərəfindən ifadə edilən bütün əlavə semantik və üslubi məna çalarlarını özünə tabe edən sinonim sırasının üzvlərindən biri, hakim olanıdır.

To shine *– to flash – to blaze – to gleam – to glisten – to sparkle – to glitter – to shimmer – to glimmer.*

To tremble *– to shiver – to shudder – to shake.*

To make *– to produce – to create – to fabricate – to manufacture.*

To agitate *– to disturb – to worry – to stir up – to excite* [6, 384]

Məsələn: əsəbi gərginlik vəziyyətinə gətirib çıxaran bir hərəkəti ifadə etmək üçün ingilis dilində *"agitate – disturb – worry – stir up – excite"* sinonim sırasından istifadə olunur.

Sinonim sırasında bir qayda olaraq, semantik cəhətdən mümkün qədər əhatəli və üslub baxımından neytral (əlavə üslub xüsusiyyətləri olmayan) bir söz seçilir. Bu söz sırada dominant söz olur. Yuxarıda qeyd etdiyimiz nümunədə bu *"agitate"* sözü olacaqdır. Sözlərin qalan hissəsi isə əsəbilik, gərginlik vəziyyətinə gətirmək, sözün əsas mənasına əlavə olaraq, dominant söz tərəfindən ifadə olunan əsas mənanın əlavə, semantik və üslub çalarlarını ifadə edir.

Bu baxımdan leksiko-frazeoloji, qrammatik və sintaktik sinonimiyanın öyrənilməsi yalnız nəzəri deyil, həm də praktik əhəmiyyət daşıyır. Sinonimlik bir dilin inkişaf istiqamətini, müxtəlif aspektlərini, dəyişdirmə yollarını və vasitələrini izah etməyə imkan verir, eyni zamanda ifadəli nitq vasitələrinin zənginliyinə çatmağı asanlaşdırır, nitqdə və yazıda layiqincə təmsil olunmalarına imkan verir,

İngilis dilində sinonimlərinin təsnifatı. İngilis dili üçün bir çox sinonim təsnifatı mövcuddur, çünki bir çox dilçi xarici ədəbiyyatda bu mövzuya müraciət etmişdir: V.V. Vinoqradov, G.B. Antruşina, V.V. Eliseeva, I. V. Arnold və b. Bəzi dilçilərin nəzəriyyələrinə diqqət yetirək.

Görkəmli alim, akademik V.V. Vinoqradov sinonimlərin üç növünü təsbit etmişdir: ideoqrafik, üslubi, mütləq. İdeoqrafik sinonimləri eyni konsepsiyanı ifadə edən, lakin məna çalarlarına görə fərqlənən sözlər kimi təyin edilmişdir. Məsələn, konkret bir şeyi başa düşmək üçün *"understand",* həyata keçirmək üçünsə *"realize"*

sözlərindən istifadə edilir. Üslubi sinonimlər bir ifadəyə emosional rəng qatmaq üçün istifadə olunur. Məsələn: *enemy* (neytral) – *adversary* (kitab dili) - *foe* (poetik dil).

Mütləq sinonimlər, tərifə görə bir-birindən nə məna, nə də ifadə çalarlarına görə fərqlənməməlidir. Belə bir sinonim qruplarının seçilməsi dilin leksik, qrammatik qanunlarına uyğun gəlmir. Sinonimlərin dildə qorunub saxlanan istənilən cütündə, ya ideoqrafik, ya da üslub fərqləri meydana çıxa bilər [6, 395].

Sinonimlərin linqvistik-ensiklopedik lüğətə görə təsnifatı sinonimlərin tam *(strike-walkout),* nisbi *(big-large),* eyni kökdən *(to clean- to cleanse),* və müxtəlif kökdən *(old-ancient)* əmələ gəlməsinə görə təsnifatlandırılmışdır [6, 395].

Digər bir təsnifat G.B. Antruşinaya məxsusdur. Onun təsnifatı sinonimlərin məna növlərinə görə, yəni bir sözün müəyyən mənada işlədilməsi prinsipinə əsaslanır. Bu təsnifata əsasən aşağıdakı növlər fərqləndirilir:

• dərəcə və intensivlik (***to surprise – to astonish – to amaze – to astound*** – təəccübləndirmək, heyrətləndirmək; - ***satisfy – to please – to content – to gratify – to delight – to exalt*** - məmnun etmək, sevindirmək);

• müddət, davamlılıq (***to stare – to glare – to gaze – to glance – to peep – to peer-*** nəzər salmaq - baxmaq);

• emosionallıq ***(to stare – смотреть в изумлении, to glare*** - diqqətlə, hirslə baxmaq);

• qiymətləndirmə (***well-known – famous – notorious – celebrated*** bu sırada ***notorious-***mənfi, ***celebrated-***müsbət məna ifadə edir);

• səbəb (***to shiver*** - soyuqdan titrəmək***, to shudder*** - qorxudan titrəmək);

• hərəkət istiqaməti ***(to stroll – to stride – to trot – to pace –to swagger – to stagger – to stumble*** gəzmək, addımlamaq, sürünmək , büdrəmək [7, 448].

Mütləq sinonimlər mənasına görə eyni sözlərdir. Ancaq danışıq dilində belə fenomenə çox nadir hallarda rastlanır və daha çox bu cür sinonimlərə terminologiyada rast gəlinir. Mütləq sinonimlərə misal olaraq aşağıdakı nümunələri göstərə bilərik:

- ***Screenwriter – scriptwriter – scripter – scenarist***- ssenari müəllifi
- ***Airman – flyer – flying man*** – pilot [7, 448].

Sinonimlərin müxtəlif elm adamları tərəfindən təsnifatlarını araşdıraraq, sinonimlərin məna fərqinə görə tam və qismən, ideoqrafik, üslubi, kontekstual və mütləq, quruluşuna görə isə bir kökdən və ya bir neçə kökdən əmələ gələ biləcəyi qənaətinə gələ bilərik.

Feili tərkiblər. XVIII əsrin əvvəllərində ingilis dilinin qrammatikasının tədqiq olunması ilə yeni dilçi alimlər - Con Braytlend, Ceyms Qrinvud və Tomas Dilvort məşğul olmağa başlayır. Onların da əsərlərində sintaktik məsələlər nəzəri cəhətdən tədqiq olunmuşdur. Bu alimlər arasında C. Qrinvud feili birləşmələrin tədqiqi ilə məşğul olmamış və öz qrammatikasında xüsusi yeri ismi birləşmələrə vermişdir [2, 289-295].

P. Roberts feili söz birləşmələrinin fərqli yollarla yarandıqlarını söyləyirdi. O, feili birləşmələrin çox hallarda köməkçi feil və feildən yarandığını yazırdı. Məsələn, “was coming”“had come”,“may come” və sairə.

Həm ingilis dilində, həm də azərbaycan dilində nitq hissələri içərisində feil bəhsinin öyrənilməsi və tədqiq olunması bir qədər çətin proses hesab edilir. Çünki feil bəhsi bir neçə kateqoriyalara bölünür. Bu kateqoriyaların hamısının təhlil və tədqiq olunması olduqca qəliz məsələdir [1, 77-79].

İngilis dilində feilin üç əsas şəxssiz forması (non-finite forms of the verb) bunlardır: məsdər (the infinitive), feili sifət (the participle), cerund (the gerund). Feilin hər üç şəxssiz formasının ikili xüsusiyyəti daşıması onların tədqiqində bir sıra çətinliklərə, mübahisələrə səbəb olur və bu problem hələ də davam edir. Feili sifətin də həm feil, həm də sifət xüsusiyyətinə sahib olması və sintaktik mövqeyi (müxtəlif cümlə üzvləri vəzifəsində işlənə bilməsi və s.) onun tədqiqi işini mürəkkəbləşdirir və dilçilikdə müxtəlif düşüncələrin meydana gəlməsinə səbəb olmuşdur. Belə ki, feili sifət bəzən ayrıca nitq hissəsi hesab edilmiş, bəzən feil, bəzən sifət bəhsinə daxil edilmiş, müxtəlif terminlərlə izah olunmuş və bəzən də feildən yaranan sifətlərə aid edilmişdir.

Həm feilin, həm də sifətin, eləcə də zərfin xüsusiyyətini özündə daşıyan birləşmələrə feili sifət deyilir. İngilis dilində feili sifətin iki növü vardır:

feili sifət I (participle I)

feili sifət II (participle II).

Qaydalara uyğun olaraq feili sifət I indiki zaman feili sifəti (present participle), feili sifət II isə keçmiş zaman feili sifəti (past participle) adlanır. Məsələn:

She **would have been expecting** me. (present participle)

She had **whispered** him the answer (past participle) [3, 2281].

Feilin şəxssiz formalarından biri də cerunddur (the gerund). Cerund ancaq ingilis dilinə xas olan bir nitq hissəsidir. Nə german qrupuna daxil olan başqa dillərdə, nə də Hind-Avropa dillərində cerunda müvafiq nitq hissəsi yoxdur. Cerund məsdər kimi ikili xarakterə malikdir. Onun həm feili, həm də ismi xüsusiyyətləri var. Məsdərdən fərqli olaraq, cerund davamlılıq məna çalarlarına malikdir. Cerund məsdərin sonuna (to ədatsız) - ing sonluğu əlavə etməklə düzəlir. Əmələ gəlmə formasına görə cerund feili sifətdən (participle) fərqlənmir. Öz əsas feili xüsusiyyətlərinə görə cerund feili sifətin və məsdərin xüsusiyyətlərinə uyğun gəlir. İsmi xüsusiyyətlərinə görə isə cerund məsdərə uyğun gəlir. Məsələn:

Do you mind my ***borrowing*** these supplies?

Filing papers can give you a paper cut [3, 2281].

Feilin sonuncu şəxssiz forması isə məsdərdir (the infinitive). İngilis dilində məsdərin göstəricisi özündən əvvəl qeyd edilən “to” hissəciyidir. Məsdərə “qeyri-müəyyən və ya ilkin forma” da deyilir, çünki hərəkəti kimin etdiyi və hərəkətin nə

vaxt yerinə yetirildiyi göstərilmir. Ümumiyyətlə, feillər lüğətdə bu formada olur. Məsələn: *to look, to leave, to stay, to solve, to lose, to dance* və s.

Feili tərkiblərin sinonimliyinin təhlili aralarında məna əlaqələrinin müxtəlifliyini təsbit etməyə imkan verir. Feili tərkiblərin sinonimliyinin fərqli kontekstlərdə differensial xüsusiyyətlərinin həm üst-üstə düşməsi, həm də fərqliliyi məna çaları, eyni zamanda ifadə baxımından olduqca əhəmiyyətlidir. Tərkiblərin əmələ gətirdiyi sinonim cərgəsi ümumi dil norması tərəfindən qəbul edilən məna çalarlarını özündə birləşdirir, eyni zamanda bu sinonim cərgəsini təşkil edən söz və ifadələr özündə leksik və sintaktik səviyyələrin qarşılıqlı əlaqəsini ehtiva edir. Tədqiq etdiyimiz nəzəriyyələri praktik cəhətdən əsaslandıraq. Charlotte Brontenin "Jane Eyre" əsərindən götürülmüş hissədə seçdiyimiz feili tərkiblər və onların sinonimlərinə nəzər salaq:

There is something truly **forbidding in a child taking up** her elders in that manner./ There is something truly **banning in a child receiving up** her elders in that manner (gerund).

Daylight began **to forsake** the red-room./ Daylight began **to leave** the red-room (infinitive)

They **were talking** too much and got a detention./ They **were speaking** too much and got a detention (participle)

NƏTİCƏ

Sinonimiya dilçilikdə xüsusi əhəmiyyətə malikdir və bu anlayış dilçiliyin bütün sahələrində tədqiq olunur. Buna görə də sinonimlik müxtəlif dilçi alimlər tərəfindən bir çox növlərdə təsnif edilmişdir. Dilçilik sahəsi üzrə tədqiqat aparan mütəxəssislər bilirlər ki, nitq hissələri içərisində feil bəhsi digər bəhslərə nisbətən daha mürəkkəb bir sistemə malikdir. Məşhur, tanınmış rus alimi V.V.Vinoqradov feil bəhsini "sistemlər sistemi" adlandırmışdır. Həm ingilis dilində həm də azərbaycan dilində nitq hissələri içərisində feil bəhsinin öyrənilməsi və tədqiq olunması bir qədər çətin proses hesab edilir. Çünki feil bəhsi bir neçə kateqoriyalara bölünür. Bu kateqoriyaların hamısının təhlil və tədqiq olunması olduqca qəliz məsələdir. Tədqiq etdiyimiz ədəbiyyatlara əsasən feili tərkiblərin yaranma yollarını, səciyyəvi xüsusiyyətlərini və feili tərkiblərin sinonimliyini izah etdik, eyni zamanda praktik nümunələrlə əsaslandırdıq.

ƏDƏBIYYAT

1. Dilçilikdə "feili sifət və feili sifət tərkibləri" probleminin tədqiqi tarixinə dair qeydlər // Dil və Ədəbiyyat, BDU, Bakı, 2014, № 3 (91), s. 77-79
2. Müasir ingilis və Azərbaycan dillərində feili sifət xüsusiyyətlərinin təhlili // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya Məsələləri, Bakı, 2014, № 8, s. 289-295

3. Longman Dictionary of Contemporary English. под ред. Chris Fox, Rosalind Combley. 5th Edition. - Pearson Education, 2014. – 2224-2281 с.
4. The Oxford Dictionary of the English language / Хокинс Дж. М. под ред. Поповой Л.П. - М.: Астрель, 2007. – 828 с.
5. В.В. Виноградов. Лексикология и лексикография. Избранные труды. М., Наука, 1977. 251
6. Литвинов Н.И. Англо- русский и русско-английский синонимический словарь с тематической классификацией. учеб. пособие для самообразования / Н.И Литвинов. - М.: Яхонт, 2002. – 384-395 с.
7. Крылова И.П., Гордон Е.М. Грамматика современного английского языка. Москва, 2006. 448 с

Исмайлова Х.М.

СИНОНИМИЯ И СИНОНИМИЧНОСТЬ ГЛАГОЛОВЫХ КОМПОНЕНТОВ АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

Суть синонимии в английском языке, синонимичные отношения между компонентами глагола давно привлекают внимание лингвистов, которые разрабатывают проблемы семантики. Одна из основных причин этого заключается в том, что феномен синонимии также тесно связан с антонимией и полисемией. Изучение синонимии глаголов в английском языке важно не только для семиотики, но и для развития лексикографии, литературной критики и методов обучения языку. Несмотря на наличие многочисленных исследований, посвященных интерпретации различных аспектов синонимии, до сих пор нет единого мнения по поводу определения синонимов, методов их изучения, принципов идентификации и классификации синонимов, границ синонимических рядов. Большинство ученых рассматривают синонимию как неотъемлемую часть лексической системы языка. Что касается определения синонимии компонентов глагола, то здесь тоже нет единого мнения.

Одни исследователи утверждают, что оно образуется из общего смысла композиции, другие - из соотношения смысловых и субъективно-логических принципов слов, входящих в состав, а третьи группы ученых - из общей структурной модели композиции. Анализ этих определений дан в работах многих российских и зарубежных авторов. Например, «Обзор синонимической литературы» Паутинской, «Семасиология» В.А. Звегинцевой, «Вопросы теории и истории языка», «Теоретическая и прикладная лингвистика» и «О правилах синонимии глаголов в современном английском языке» В.Т. мы можем показать пример.

Многие лингвисты при изучении синонимии спряжения глаголов считают целесообразным сравнивать их семантически родственные части между собой.

Это позволяет исследовать лексические элементы каждой композиции, отмечать и сравнивать совпадения между ними. В то же время этот инструмент

позволяет объяснить, почему семантические контуры каждого компонента или слова в английском языке различны.

Сравнительные исследования играют ключевую роль в формировании типологической универсальности синонимии. В результате этого сравнения можно проанализировать, основаны ли синонимы глаголов в английском языке на разных или разных элементах. Таким образом, мы видим, что синонимия и синонимия глаголов в английском языке изучаются много лет. Однако окончательного правила учеными не принято, не дано конкретного определения. Синонимия - один из источников обогащения языка выразительными средствами. Поэтому особый интерес представляет изучение художественной литературы и публичных выступлений, стилистики и стилей, борьба за формирование культуры правильной речи и устранение связанных с этим проблем. Лингвистам известно, что времена глаголов имеют более сложную систему, чем другие части речи. Известный русский ученый В.В. Виноградов называл глагол «система систем». Изучение и исследование времен глаголов играет сегодня ведущую роль в английском языке.

Ключевые слова: синоним, английский, герундий, глагол прилагательное, инфинитив

Ismayilova Kh.M.

SYNONYMY AND SYNONYMY OF NON-FİNİTE VERBS IN ENGLISH

SUMMARY

The essence of synonymy in English, synonymous relations between the components of the verb have long attracted the attention of linguists who develop semantics problems. One of the main reasons for this is that the phenomenon of synonymy is also closely related to antonymy and polysemy. The study of the synonymy of verbs in English is important not only for semiotics but also for the development of lexicography, literary criticism, and language teaching methods. Despite the presence of numerous studies devoted to the interpretation of various aspects of synonymy, there is still no consensus on the definition of synonyms, methods of their study, principles of identification and classification of synonyms, the boundaries of synonymous series. Most scholars consider synonymy as an integral part of the lexical system of the language. As for the definition of the synonymy of the components of the verb, there is also no consensus here. Some researchers argue that it is formed from the general meaning of the composition, others from the ratio of semantic and subjective-logical principles of the words that make up the composition, and third groups of scientists - from the general structural model of the composition. The analysis of these definitions is given in the works of many Russian and foreign authors. For example, "Review of Synonymous

Literature" by Pautinskaya, "Semasiology" by V.A. Zvegintseva, "Questions of the theory and history of language", "Theoretical and applied linguistics" and "On the rules of synonymy of verbs in modern English" V.T. we can show an example. Many linguists, when studying the synonymy of the conjugation of verbs, consider it expedient to compare their semantically related parts with each other. This allows you to explore the lexical elements of each composition, mark and compare the coincidences between them. At the same time, this tool allows you to explain why the semantic contours of each component or word in English are different. Comparative studies play a key role in the formation of the typological universality of synonymy. As a result of this comparison, you can analyze whether the synonyms of verbs in English are based on different or different elements. Thus, we see that synonymy and synonymy of verbs in English have been studied for many years. However, scientists have not accepted the final rule, no specific definition has been given. Synonymy is one of the sources of enrichment of language by expressive means. Therefore, there is a special interest in the study of fiction and public speaking, stylistics and styles, the struggle for the formation of a culture of correct speech and the elimination of related problems. Linguists know that verb tenses have a more complex system than other parts of speech. Well-known Russian scientist V.V Vinogradov called the verb "basis of systems". The study and research of verb forms plays a leading role in English today.

Key words: *synonym, English, gerund, participle, infinitive*

Redaksiyaya daxil olma tarixi: 21.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: Dos. Nəcəfova Şəfiqə Yusif qızı
tərəfindən çapa tövsiyə olunmuşdur

XƏLİLOVA G.Ş.
Odlar Yurdu Universiteti,
2 Koroğlu Rəhimov küçəsi, Bakı
gultekin_xelilova@mail.ru

MÜASİR İNGİLİS DİLİNDƏ NEOLOGİZMLƏRİN FORMALAŞMA YOLLARININ TƏHLİLİ

Xülasə

Müasir dünyada baş verən yeni hadisələr, habelə yeni anlayışlar, fenomenlər, kəşflər nəticəsində dildə yaranan yeni sözlərə, eləcə də ifadələrə Neologizm deyilir. İngilis dilində meydana gələn yeni sözlərin böyük axınını və onların düzgün təfsir edilməsi üçün meydana gələn ehtiyac ayrı bir elm - neologiya elminin yaradılmasına səbəb oldu. Hər hansı bir dilin leksik tərkibi daim olaraq yenilənir. Bu, ilk növbədə dilin inkişafı zamanı sözlərin böyük dövriyyəsi ilə əlaqədardır. Əksər sözlər nitqdən əbədi olaraq yox olur, bəziləri isə yeni yaranmasına baxmayaraq bir müddət sonra işlək sözlər sırasına daxil olurlar. Müxtəlif dillərin lüğət ehtiyatlarını zənginləşdirməyin müxtəlif üsul və vasitələri var. Əvvəla, sözsüz ki, birinci üsul başqa dildən söz ehtiyatı götürməkdir. Bu üsul bir çox dillərdə olduqca tez-tez istifadə olunur. Təbii ki, ingilis dilində yeni sözlərin yaranmasında da tez-tez istifadə olunan üsullardan biridir. Müasir ingilis dilindən danışırıqsa, burada dildə söz ehtiyatını yeniləməyin və zənginləşdirməyin başqa bir üsuluna da diqqət yetirmək lazımdır. Bu, müxtəlif metodlardan istifadə edərək ana dilində yeni sözlərin meydana çıxmasıdır. Neologizmin formalaşma yollarını təhlil edərkən, yaranan yeni sözləri öyrənərək eyni zamanda onların yaranma yollarını da öyrənmiş oluruq. Bunun nəticəsində ingilis dilindəki neologizmlərin təhlili yeni yaranmış sözlərin zamanla insanların söz ehtiyatına çevrilməsindəki ən xarakterik tendensiyaları görməyə imkan verir. İngilis dilindəki söz ehtiyatları davamlı dəyişikliklərə məruz qalır. Dilin yeni vahidlərlə intensiv şəkildə zənginləşmənin nəticəsi olaraq, yeni lüğətlərin linqvistik olaraq başa düşülməsi xüsusi praktik əhəmiyyət kəsb edir. Bu tədqiqat çərçivəsində neologizmlərin cəmiyyətin müəyyən bir tarixi dövrü və inkişaf mərhələsi üçün tamamilə yeni leksik vahid olan sözlər kimi başa düşdüldüyü qənaətinə gəldik. Bu cür sözlər hələ dildə işlənmə baxımından aktiv istifadə vəziyyətinə gəlməmişdir. Məhz buna görədir ki, onların mahiyyəti ümumişlək qrupa daxil olana qədər hər kəs üçün aydın olmur. Dildə neologizmlərin yaranması müxtəlif səbəblərdən, ilk öncə sosial və elmi-texniki tərəqqinin, elmi-texniki sahələrdə yeni kəşflərin, mədəniyyət sahəsində əldə edilmiş nailiyyətlərin və yeni sosial-iqtisadi sahədə meydana gələn yeniliklərin inkişafı ilə bilavasitə bağlıdır. Yeni yaranmış sözün mütləq yeniliyi neologizminlərin əsas əlamətidir. Neologizmlər gündəlik həyata fəal şəkildə daxil olandan və əksər insanların söz ehtiyatını təşkil etdikdən dərhal sonra yenilik əlamətini itirir və ümumişlək söz qrupuna keçir.

Açar sözlər: *neologizm, affiks, abreviatura, metod, söz birləşməsi*

Giriş

Bir dilin lüğət tərkibinin əsas xüsusiyyəti, mövcudluğunun ilkin mərhələsindən etibarən yeni sözlər meydana gətirərək onu sonsuz dərəcədə zənginləşdirə bilməkdir. Neologizmlərin əmələ gəlməsi, bütövlükdə cəmiyyətdəki bəşəriyyətin tərəqqisinin əks olunduğu dilin çiçəklənməsinin sübutudur.

Bu dil fenomeninin elm adamları arasında yüksək populyarlığına baxmayaraq, "neologizm" termininin dəqiq tərifini tapmaq olduqca çətindir. Bu konsepsiya sözün əsl mənasında Yunan dilindən tərcümə olunursa (yun. Neos - yeni, logos - söz), o zaman kifayət qədər ümumiləşdirilmiş bir məna əldə edirik. Meydana gələn yeni sözlər gündəlik həyatda tez-tez istifadə olunmağa başladıqda neologizm olmaqdan çıxır (Розентал, 1976:543).

Efremovanın "İzahlı lüğəti" çərçivəsində neologizmlərin dildə meydana çıxması ilk növbədə cəmiyyətin inkişaf mərhələsinin xüsusiyyətləri və yeni reallıqların adlanması və ya yeni konsepsiyaların təyin edilməsi üçün daha ifadəli vasitələrin yaradılması ehtiyacından qaynaqlanan sözlər, ifadələr və ya mövcud sözlərin yeni mənaları kimi başa düşülür (Ефремова Т.Ф, 2000:1209).

Bu gün bir sıra linqvistik nəzəriyyələr mövcuddur ki, bunların yaradılması neologizm kimi bir fenomenin mahiyyətini izah etmək cəhdi idi. Mixelsonun nəzəriyyəsinə əsasən yeni sözlər dilin ruhu ilə fikir ayrılığı içərisindədir (Михельсон А.Д, 1865 :361).

Böyük ensiklopedik lüğətlərdə bu cür neologizmləri bir neçə semantik qrupa bölmək olar:

1) yeni obyektləri göstərmək və ya yeni anlayışları ifadə etmək üçün yaradılmış yeni sözlər və ifadələr. Alınma sözlərdə neologizmlərə aiddir;

2) yeni sözlər və söz birləşmələri, hansı ki qeyri-adiliyi ana dilində danışanlar tərəfindən aydın hiss olunur (Виноградов В.В, 1953: 3-29).

Aparılan təhlillər onu göstərdi ki, neologizm ilk növbədə yeni bir söz, dilin bütün səviyyələrində neoloji transformasiyalardakı bütün dəyişiklikləri, müəyyən bir dil daxilində özünü göstərən qrammatik bir xüsusiyyəti özündə birləşdirən linqvistik yenilik (nitq dövriyyəsi), "dil yeniliyi" kimi başa düşülməlidir.

Yeni sözlərin yaranma yolları. Dildə yeni sözlərin meydana çıxması iki şəkildə baş verir. Birinci metodun mahiyyəti başqa dildən söz götürməkdir, ikinci metod isə məhsuldar metodlardan istifadə edərək yeni sözlərin dilin öz hesabına yaranmasını, dilin özündə formalaşmasını təmin edir.

Müasir ingilis dilində söz əmələ gətirmə üsulları məhsuldar (productive) və məhsuldar olmayan (unproductive) olaraq təsnifatlandırılır. Əvvəlcədən qeyd edək ki, bir çox dilçi fərqli sayda söz əmələ gətirmə metodundan bəhs etmişdir. Bu, hər şeydən əvvəl müxtəlif metodların fəaliyyətdə dəyişikliyə məruz qalması və bu və ya digər zamanda məhsuldar olub olmaması ilə əlaqədardır. Qeyd etmək vacibdir ki, dil modelinin məhsuldarlığı, elementlərin tərkibi məhdud olmayan bir paradiqma kəşfi

yaratmaq qabiliyyətinin meyarı əsasında müəyyən edilə bilər. (Мельцер E.M, 1957: 17-27).

Ümumiyyətlə qəbul edilmiş həqiqət budur ki, bu gün ingilis dilində yeni sözlərin yaradılmasında ən məhsuldar üç yol nəzərdə tutulur, bunlar arasında şəkilçilərin köməyi ilə ("kök + şəkilçi" modeli, məsələn, *dishonest, beautiful*), söz birləşməsi ("kök + kök" modeli, məsələn, *handicraft, renfriend*,) və substantivləşmə (model V (feil) > N (isim) və ya N > V, məsələn, a hand > to hand və a go > to go). Lakin bu metodların hamısı eyni dərəcədə istifadə olunmur və yeni söz əmələ gətirmə müddətində hər birinin nisbəti eyni deyil. (Елисеева B.B. 2003: 35).

Araşdırılan materialların hərtərəfli təhlili nəticəsində neologizmin formalaşmasında ən çox istifadə olunan metodları müəyyən etdik: məhsuldar (productive) növə aiddir:

Bu metodların sırasına aid olmayan, qeyri –mehsuldar (unproductive) hesab edilən ənənəvi metodlarda yeni sözlərin əmələ gəlməsində fəal iştirak edir. Hər bir metodu daha ətraflı nəzərdən keçirək.

Affiksasiya. Neologizmlərin əmələ gəlməsinin ən məhsuldar yolu affiksasiya metodudur, bu da öz növbəsində şəkilçi (suffix) və prefikslərə bölünür.

Suffikslərin köməyi ilə meydana gələn sözlər gündəlik ünsiyyətdə daha çox istifadə olunur və daha çox jarqon (slang) məna ifadə edən yeni sözlər yaradır. Beləliklə, ən çox istifadə olunan jarqon şəkilçisi kimi istehza mənası ifadə edən -y / -ie şəkilçisin göstərə bilərik . Bu şəkilçinin istifadəsi ilə yaranan sözlərin, bir qayda olaraq, istifadəsi bir qədər məhduddur və müstəsna olaraq qeyri-rəsmi ünsiyyət çərçivəsində, əsasən gənc nəsil arasında istifadə edilir. Məsələn: ***groupie***- pop ansamblının pərəstişkarı və ya hər yerdə onları müşayiət edən bir ulduz; ***roadie***- avadanlıqların daşınması və quraşdırılması üçün məsuliyyət daşıyan bir qrup üzvü; ***weapy***- sentimental film; ***preppie***- xüsusi imtiyazlı bir məktəbin şagirdi (orta sinif

nümayəndələri tərəfindən istehza ilə istifadə olunur); **tekky** (techno-freak)- texniki yeniliklərə qapılmış insan.

İngilis dilində yeni sözlərin yaranmasında öz produktivliyi ilə seçilən digər şəkilçilərə nəzər salaq: *-ist; -ness; -less; -ing; -er; -ish; -able; -ism; -ed.* Nümunə:
Hopeless (hope + less) – ümidsiz, çarəsiz, çarəsiz;
Eatable (eat + able) – yemeli;
Foolish (fool + ish) – ağılsız, mənasız, səfeh;
İnteresting (interest + ing) – maraqlı, mənalı, məzmunlu;
Dudgeoned (dudgeon + ed) - incik, qəzəbli. Sonralar, tez-tez 'high-dudgeoned' olaraq istifadə edilmişdir.

Neologizmlərin təhlili onların formalaşmasında prefikslərin mühüm rol oynadığını aşkar etdi. Prefikslərin əsas mənbəyi Latın, Fransız və Yunan dilləridir: *-tele, -bio, -asro , -micro, -heno, -euro* və.b . Prefikslər bir qayda olaraq, əsasən elmi və texniki sahələrlə bağlı yeni sözlərin yaranmasında istifadə olunurlar. Bəzi ön sözlərin əmələ gəlməsi mürəkkəb sözləri ifadələrdən ayırmaqla həyata keçirilir. Məsələn; dial-a (telefonla sifariş edilə bilən bir xidməti göstərmək üçün) istifadə edilir. *Dial-a-meal, dial-a-bus* və.s. (Брагина А.А. 1981:176).

Söz birləşmələri. İngilis dilində yeni sözlərin formalaşmasının digər bir yolu söz birləşmələridir.Bu prosesin mahiyyəti iki əsasın birləşməsindədir. Məsələn, ***carryback***- "itkilərin əvvəlki dövrə köçürülməsi", ***think-tank***- "kollektiv beyin".

Mürəkkəb tərkiblər olan söz birləşmələrinin yaranmasında əsasən köməkçi nitq hissələri və zərflər fəal iştirak edir, hansı ki daha çox feili bağlamaların və yeni feillərin yaranmasını təmin edir. Məsələn: ***buttoned-down*** son dərəcə mühafizəkar, konservativ, ***switched-off*** heç bir şey hiss etməyən, hissiyatsız.

Son illərdə ən çox yayılmış çoxkomponentli mürəkkəb söz və ifadə modellərinin yaranmasında ***line*** sözündən istifadə edilir: ***straight-line responsibility***- birbaşa məsuliyyət, ***dotted-line responsibility*** iki nəfər arasında bölünmüş məsuliyyət, ***bottom-line*** qəti, son; ***top-of-the-line*** ən yaxşısı. Bu model məhdud xarakter daşıyır və müstəsna olaraq biznes sferasının nümayəndələri ilə qeyri-rəsmi qarşılıqlı münasibətlərdə istifadə edilə bilər.

Çoxkomponentli söz birləşmələrinin istifadəsi Amerika versiyası (American English) üçün daha tipikdir. Məsələn, ***to-nickel-and-dime*** kiçik şeylərə çox diqqət yetirmək; ***meat-and-potatoes*** əsas; ***quick-and-dirty*** ayaqüstü yemek yeyə biləcəyiniz kafe, restoran; ***nuts-and-bolts*** təməl, əsas.

Daha bir neçə nümunəni nəzərdən keçirək:

Spot-up (spot + up) söz birləşməsinin köməyi ilə əmələ gələn yeni bir sözdür, iki əsasdan ibarətdir: spot - yer və up - yuxarı. Topu qəbul etdikdən dərhal sonra oyunçu tərəfindən cari yerindən tərpənmədən, bir sıçrayışla topu dayandırmaq.

Leetspeak (leet + speak) iki sözdən əmələ gəlmişdir : leet-icazə, speak-danışmaq. İnternetdə istifadə edilən qeyri-rəsmi bir dil və ya kod, burada standart

məktublar tez-tez görünüşləri ilə hərflərə bənzəyən rəqəmlərlə və ya xüsusi simvollarla əvəz olunur.

Cloud plans (cloud + plans) havadakı buludlar kimi tez dağıla biləcək planlar.

İxtisar-Abreviatura. Yeni sözlərin yaranmasında iştirak edən metodlardan biridə ixtisarlardır. Bu şəkildə yaranan yeni sözlər dilin rasionalizasiyasını, dil səylərindən qənaətlə istifadə olunma meylini əks etdirir. Qısaltmalar neologizmlərin ümumi sayının yalnız kiçik bir faizini təşkil etsə də, onların sayı dildə gündən-günə artır. Qısaltmalar hesabına dildə meydana gələn neologizmlər əsasən elmi, texniki, iqtisadi sahələri özündə əks etdirir, əsasən şifahi və qeyri-rəsmi dildə istifadə edilir. Məsələn: ***lib-liberation*** radio və televiziya koordinatoru, xəbər proqramlarının təşkilatçısı. Əsasən Britaniya ləhcəsində (British English) istifadə olunan ***lib*** qısaltması qeyri formal xarakter daşıyır və şifahi nitqdə istifadə olunur. Bütün qısaltmalar arasında xüsusi yer abreviaturalara və akronimlərə verilir. Məsələn, ***TM (transsendental meditation)-*** transsendental meditasiya***, Computer-Added-Design (CAD)*** tibbdə işlədilən termin, ***Million İnstruction Per Second (MİPS)*** – bir saniyədə million instruksiya və.s

Substantivləşmə. Tədqiqat materiallarının təhlili İngilis dilində neologizmlərin əmələ gəlməsinin başqa bir yolunun substantivləşmə ilə mümkün olduğunu göstərdi. Bu metod nadir hallarda istifadə olunur və bütün digər söz düzəltmə metodlarından geridə qalır.

Qeyd etmək lazımdır ki, isimlərin olduqca əksər hissəsi sifətlərin substantivləşməsi ilə düzəlir. Məsələn: ***collectbles***- kolleksionistlər tərəfindən toplanan əşyalar, əsasən qədim və nadir əşyalara aid edilir; ***cool-*** özünü idarə, əsasən to keep one`s cool ( özünü idarəni əldə saxlamaq) və to lose one`s cool (özünü idarəni itirmək, özünü saxlaya bilməmək) kimi ifadələrin tərkibində işlənir.

Bu metodun əsas məhsuldarlığı özünü *–ic-* sonlu sifətlərdən isimlərin əmələ gəlməsində özünü göstərir. Məsələn; *transuranic , acrylic, tricyclic.* İsimlər eyni zamanda feillərin dəyişməsi ilə yarana bilərlər. Buna misal olaraq, *work-to-rule* əmək müqaviləsinin bütün bəndlərinə riayət etmək tələbləri ilə işçilərin fəaliyyətini göstərə bilərik.

Beləliklə qeyd etmək lazımdır ki, substantivləşmə nəticəsində dilin lüğət tərkibi öz hesabına yeni sözlərin yaranması ilə zənginləşir. Ərazi parametrləri baxımından substantivləşmiş vahidlər əsasən Amerika (American English) və daha az dərəcədə isə Britaniya (British English) ilə məhdudlaşır.

Bundan əlavə, ingilis dilində eyni vaxtda bir neçə metodun birləşməsi ilə əmələ gələn neologizmlər vardır. Bunlara misal olaraq aşağıda sadalanan nümunələri göstərə bilərik:

Söz birləşməsi + substantivləşmə

Trumpshake- bu iki sözün birləşməsi (trump və shake) eyni zamanda substantivləşmə metodunun köməyi ilə, yəni feildən isimin düzəlməsi yolu ilə əmələ gəlmişdir:

A trumpshake-to trumpshake vaxtından daha uzun sürən kəskin nümayişkaranə bir qarşılama, cəsarətlə əl sıxmaq (əsasən Donald Trampa məxsus görüşlər üçün ifadə olunur).

Affiks + söz birləşməsi

Abibliophobia (a + (affiks) + biblio (söz) + phobia (söz)) oxumağa kitab qalmamağından qorxmaq.

Beləliklə, neologizmlərin əmələ gəlməsi, bir qayda olaraq, məhsuldar (productive) söz əmələ gətirmə modellərinə müvafiq olaraq dilin daxili qanunları və ya başqa dillərdən yeni sözlərin dilin lüğət tərkibinə daxil olması əsasında baş verir. Bəzi hallarda neologizmlərin yaradılması məhsuldar olmayan (unproductive) söz əmələ gətirmə metodlarından istifadə etməklə də həyata keçirilir. Söz əmələ gətirmə vasitələrinin təsir gücü nə qədər qabarıq, nə qədər çox olarsa dilin öz hesabına əmələ gələn və formalaşan neologizmlərin yeri dildə bir o qədər çox nəzərə çarpar.

NƏTİCƏ

Bu gün ingilis dili, digər dünya dilləri kimi, daim dəyişikliyə və transformasiyaya məruz qalır. Dilin ən hərəkətli və dəyişməyə məruz təbəqəsi olan lüğət tərkibi, müəyyən bir dildə danışan insanların sosial, mədəni və digər həyat sahələri üçün xarakterik olan bu cür dəyişikliklərə xüsusilə həssaslıqla reaksiya verir, çünki bir növ "həyat güzgüsü" rolunu oynayır. Bundan əlavə, müasir dilçilik elmi istiqamətinin yeni sözlərin düzəldilməsi prosedurunun müxtəlif aspektlərinə daim artan marağı ilk növbədə sözün dilin mərkəzi vahidi olması ilə əlaqədardır.

Ədəbiyyat

1. Антюфеева Ю.Н. Английские новообразования в развитии: дис.канд. филол. наук. –Тула, 2004. –184 с.
2. Арнольд И. В. Лексикология современного английского языка:учеб. пособие. –М.: ФЛИНТА : Наука, 2012. –376 с.
3. БабенкоН.Г. Окказиональное в художественном тексте. 1997. Режимдоступа:http://vmw.gumer.info/bibliotekBuks/Linguist/Article/babenokk.php. –Загл. С экрана. (Дата обращения: 15.03.2017).
4. Беляева Т.М., Хомяков В.А. Нестандартная лексика английского языка. –Л.: Изд-во ЛГУ, 1985.–136 с.
5. Брагина А.А. Лексика языка и культура страны. –М.: Русский язык, 1981. –176 с
6. Ефремова Т.Ф.Новый словарь русскогоязыка. Толково-словообразовательный. –М.:Русский язык, 2000. –1209 с.
7. Мельцер Е.М. К вопросу о процессах словообразования современного английского языка (на материале неологизмов последних двух десятилетий). –Иностранный язык в школе, 1957. –С.17-27.
8. Михельсон А.Д. Объяснение 25000 иностранных слов, вошедших в употребление в русский язык, с означением их корней. –М., 1865.–361 с.

9. Розенталь Д. Э., Теленкова М. А. Словарь-справочник лингвистических терминов –Москва, 1976 г.–543с.

Халилова Г.Ш.

АНАЛИЗ СПОСОБОВ ФОРМИРОВАНИЯ НЕОЛОГИИ НА СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Новые слова, а также выражения, которые появляются в языке в результате новых событий в современном мире, а также новых концепций, явлений и открытий, называются неологизмами. Большой приток новых слов в английский язык и необходимость их правильного толкования привели к созданию отдельной науки - науки неологии. Лексический состав любого языка постоянно обновляется. В первую очередь это связано с большим оборотом слов в процессе развития языка. Большинство слов исчезают из речи навсегда, а некоторые, хотя и новые, через некоторое время становятся активными. Есть разные способы и средства пополнить словарный запас разных языков. Прежде всего, конечно, первый метод - это взять словарный запас другого языка. Этот метод довольно часто используется во многих языках. Конечно, это также один из наиболее часто используемых методов создания новых слов на английском языке.

Если мы говорим о современном английском, нам нужно обратить внимание на еще один способ обновить и обогатить словарный запас языка. Это появление новых слов в родном языке различными способами. Когда мы анализируем способы образования неологизмов, мы изучаем новые слова, а также способы их образования. В результате анализ неологизмов в английском языке позволяет увидеть наиболее характерные тенденции трансформации новообразованных слов в человеческий словарь с течением времени. Словарь английского языка постоянно меняется. В результате интенсивного обогащения языка новыми единицами лингвистическое понимание новых словарей приобретает особое практическое значение. В ходе исследования мы пришли к выводу, что под неологизмами понимаются слова, являющиеся совершенно новой лексической единицей для определенного исторического периода и этапа развития общества. Такие слова пока активно не использовались с точки зрения языкового развития. Поэтому не всем понятна их суть, пока они не попадут в общую группу. Возникновение неологизмов в языке напрямую связано с различными причинами, в первую очередь, с развитием социального и научно-технического прогресса, новыми открытиями в научно-технических областях, достижениями в области культуры и инновациями в новой социально-экономической сфере. Абсолютная новизна нового слова - главная черта неологизмов. Сразу после того, как неологизмы входят в повседневную жизнь и образуют словарный запас большинства

людей, они теряют признак новизны и превращаются в общую группу слов. Возникновение неологизмов в языке напрямую связано с различными причинами, в первую очередь, с развитием социального и научно-технического прогресса, новыми открытиями в научно-технических областях, достижениями культуры и нововведениями в новой социально-экономической сфере. Абсолютная новизна нового слова - главная черта неологизмов. Сразу же после того, как неологизмы входят в повседневную жизнь и образуют словарный запас большинства людей, они теряют признак новизны и становятся общей группой слов.

Ключевые слова: *неологизм, аффикс, аббревиатура, метод, словосочетание*

Khalilova G.Sh.

ANALYSIS OF WAYS OF FORMATION OF NEOLOGYSIS IN MODERN ENGLISH

SUMMARY

New words, as well as expressions that appear in the language as a result of new events in the modern world, as well as new concepts, phenomena, and discoveries, are called neologisms. A large influx of new words into the English language and the need for their correct interpretation led to the creation of a separate science - the science of neology. The lexical composition of any language is constantly being updated. This is primarily due to the large turnover of words in the process of language development. Most words disappear from speech forever, and some, although new, become active after a while. There are different ways and means to expand the vocabulary of different languages. First of all, of course, the first method is to take the vocabulary of another language. This method is used quite often in many languages. Of course, it is also one of the most commonly used methods for creating new words in English. If we are talking about modern English, we need to pay attention to another way to update and enrich the vocabulary of the language. It is the emergence of new words in the native language in various ways. When we analyze the ways of forming neologisms, we learn new words, as well as ways of forming them. As a result, the analysis of neologisms in the English language allows us to see the most characteristic trends in the transformation of newly formed words into a human vocabulary over time. The vocabulary of the English language is constantly changing. As a result of the intensive enrichment of the language with new units, the linguistic understanding of new dictionaries acquires special practical significance. During the research, we came to the conclusion that neologisms are understood as words that are a completely new lexical unit for a certain historical period and stage of development of society. Such words have not yet been actively used from the point of view of linguistic development. Therefore, not everyone understands their essence until they fall into the general group. The emergence of neologisms in the language is directly related to

various reasons, first of all, with the development of social and scientific and technological progress, new discoveries in scientific and technical fields, achievements in the field of culture, and innovations in the new socio-economic sphere. The absolute novelty of the new word is the main feature of neologisms. Immediately after neologisms enter everyday life and form the vocabulary of most people, they lose the sign of novelty and turn into a general group of words. The emergence of neologisms in the language is directly related to various reasons, first of all, the development of social and scientific-technical progress, new discoveries in scientific and technical fields, achievements in the field of culture and innovations in the new socio-economic sphere. The absolute novelty of a new word is the main feature of neologisms. Immediately after neologisms enter everyday life and form the vocabulary of most people, they lose their sign of novelty and become a common word group.

Key words: *neologism, affix, abbreviation, method, composition*

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: Dos. Ü.Ə.Nəsirova
tərəfindən çapa tövsiyə olunmuşdur

SƏBINƏ SEYIDOVA
Azərbaycan Dillər Universiteti
nane.alili@mail.ru

AZƏRBAYCAN FRAZEOLOGIYASININ TƏDQIQINDƏ FRAZEOLOJI VAHIDLƏRIN EKVIVALENTLIYININ ROLU

Xülasə

Məlum olduğu kimi, frazeologizmlərdə millilik güclü olur; onlar hər bir dilin daşıyıcısı olan xalqın özünəməxsus dünya görüşü, təsəvvürləri, ətraf mühitə münasibəti, etik–fəlsəfi baxışları, məişət, təfəkkür tərzi və s. ilə bağlıdır. Onların bir qisminin (frazeologizmlərin) başqa dillərə tərcümə oluna bilməməsi də əsasən bununla əlaqədardır. Bir sıra hallarda frazeologizmlərin başqa dillərə tərcüməsi zamanı dilin daşıyıcılarının ifadəni qavraması və özününküləşdirilməsi üçün müəyyən zaman keçidi tələb olunur. Bu cür millilik frazeologizmlərin semantik modelləri ilə əlaqələnir.

Bu baxımdan struktur–genetik cəhətdən əhəmiyyətli dərəcədə fərqlənən, coğrafi yaxınlığa və uzunmüddətli mədəni–tarixi əlaqələrə malik olmayan, müxtəlif sistemli dillərdə işlədilən ekvivalent idiomatik ifadələrin bir sıra struktur–semantik və leksik–semantik cəhətləri diqqəti cəlb edir. İlk növbədə belə ifadələrin komponentlərinin işlənməsində, onların qrammatik təşkilində, leksik tərkibində, idiomatik variantlıqda, struktur sinonimlikdə oxşarlıq nəzərə çarpır. Ekvivalent idiomatik ifadələrin struktur təşkilindəki analogiya onların obrazlığının ümumi dil xarakteri ilə şərtlənir.

Dildəki frazeoloji vahidlər müxtəlif meyarlara görə təsnif edilir. Bu elmi işin vəzifələrindən biri də frazeoloji vahidlərin semantik xüsusiyyətlərindən biri olan ekvivalentliyi tədqiq etməkdir. Məqalədə qohum və qohum olmayan dillər arasında işlədilən frazeoloji qrupların yaratdığı ekvivalentliyin xüsusiyyətləri araşdırılır. Onların etnokulturoloji və praqmatik xüsusiyyətləri müqayisəli şəkildə verilir. Məqalədə ekvivalent frazeoloji vahidlərin tərcümə prinsiplərinə toxunulur .

Retsker, Şveyser, Komissarov, Tahirbəyov, Abasquliyevin ekvivalentlik məsələsinə münasibəti verilmişdir.

Açar sözlər: ekvivalentlik, frazeoloji vahid, paremiya, millilik, müqayisə

Frazeologizmlər üçün onların semantikasından asılı olaraq aşağıdakı cəhətlər səciyyəvidir: 1)ekspressivlik; 2)məcazilik; 3)obrazlılıq.Frazeologizm (frazeoloji vahid) nitqə hazır şəkildə daxil edilən, sabit semantikaya malik söz birləşmələridir. Frazeoloji vahidlərin məzmunu ilə müvafiq leksik–qrammatik tərkibi arasında sabit qarşılıqlı əlaqə mövcud olur və bu sabit əlaqə onları bənzər sərbəst sintaktik vahidlərdən fərqləndirir [1, s.17].

Dildəki frazeoloji vahidləri müxtəlif meyarlar əsasında təsnif etmək olar. Təsnif meyarından asılı olaraq frazeoloji birləşmələrin yaranma yollarında da fərqliliklər aşkara çıxarmaq olur. Dildə ən çox işlənən frazeologizmlər sırasında

somatik frazeologizmlər xüsusi yer tutur. Başqa bir meyar əsas götürülərsə, yəni tərkibdəki nitq hissəsinə görə fərqləndirmə aparılarsa feili frazeoloji birləşmələrin müxtəlif sistemli dillərdə çoxluğu aşkar hiss olunur.

Məlumdur ki, frazeologizmlər şərti bazis kimi qiymətləndirilə bilən dil səviyyələrinin (fonetik, leksik, morfoloji və sintaktik) tam təşəkkülü zəminində yaranır. Lakin həmişə olduğu kimi, frazemin doğuluşu da əzablıdır: dil və nitq dixotomiyasına qədər, başqa sözlə hər bir frazem dilin ictimai funksiyaları (kommunikativ, informativ, emotiv…) çərçivəsində dolğun və dəqiq rolunu oynayana qədər uzun bir təkamül və cilalanma yolu keçir. Frazeologizm dil və təfəkkürün əlaqəli abstraksiyasının məhsulu olmasaydı, dilin müdrikliyinin və milli təbiətinin, xalqın etnik psixologiyasının timsalına çevrilməzdi. "Frazeoloji vahidlər ümumxalq dilinin lüğət tərkibi və qrammatik quruluşu məhvərində nitq və təfəkkür vərdişləri, sınaqları nəticəsində formalaşan, xalqın psixologiyasının, təsəvvür və dərrakəsinin, qənaət və zövqünün, ümumiləşdirmə bacarığının əlamətlərini birləşdirdiyinə görə millidir" [2 , s. 5–6].

Frazeologiyanın sistem şəkildə müqayisəli tədqiqi frazeologiyanın ümumi nəzəriyyəsinin işlənməsi, müxtəlif sistemli dillərdə frazeoloji vahidlərin oxşar və fərqli cəhətlərinin aşkarlanması üçün əhəmiyyətlidir. Eyni tipli struktura və funksiyaya malik frazeologizmlərin (feili, komparativ, cümlə quruluşlu, müxtəlif struktur modelli), oxşar komponentli frazeologizmlərin (somatik, onomastik, hərəkət feilli, rəng bildirən söz komponentli), eyni tipli siqnifikativ mənalı frazeologizmələrin(eyni semantikalı frazeoloji vahidlərin sahə və qruplarının), nəhayət, dillərin(həm qohum, həm də müxtəlif sistemli dillərin) tam frazeoloji fondunun müqayisəli aspektdə araşdırılması dilçiliyin bu sahəsinin vacib və aktual elmi məsələlərdəndir. Əlbəttə, belə tədqiqatların indiyədək aparılmadığını iddia etmək olmaz. Bu tipli tədqiqatlar müxtəlif dillərin, o cümlədən də Azərbaycan və ingilis dillərinin materialları əsasında aparılmışdır [1]. Lakin hələlik aparılan bu tədqiqatların müxtəlif aspektlərdən ümumiləşdirilməsinə, frazeologizmələrin yaranma, işlənmə və müxtəlif dillərdəki ekvivalentlərinin müəyyən təsnifatındakı ümumiləşdirilməsinə az yer verilmişdir.

"Frazeologizmləşmə prosesinin nəticəsində sərbəst söz birləşmələrinin komponentləri öz mənalarını itirir və birləşərək bütöv bir mənanın meydana çıxmasına xidmət edir. Bununla da, yeni keyfiyyətli bir dil vahidi yaranmış olur"[1]. Belə vahidlərin müxtəlif dillərdə ekvivalentlərinin olması həmişə mümkün deyildir. Bəzi hallarda bir dildə işlənən frazeoloji birləşmənin digər dildə nə tam, nə də qimsən ekvivalenti olmur.

Ekvivalentin olmamasının semantik sürüşmənin də nəticəsi ola bilər. İdiomlar xalqın adət–ənənəsi ilə bağlı yarana bildiyindən onların ekvivalentlərinin başqa dildə mütləq olması qənaətinə gəlməyə əsas vermir.

Tam və qismən ekvivalentləri olmayan frazeoloji birləşmələrin əksəriyyəti milli adət ənənə, həyat və məişət tərzi ilə bağlı yaranan vahidlərdir. Belə vahidlərə

aid kifayət qədər misallar göstərmək olar. Məsələn, *Dr. Cekylland Mr. Hyde*. ingilis dilində bu birləşmə bir–birinin diametral əksi olan adamlar haqqında işlədilir. *An old cat* frazeloji birləşməsinin hərfi tərcüməsi «qoca pişik» mənası verir. Azərbaycan dilində bu tərkibdə frazeoloji birləşmə yoxdur. Bunun müqabilində Azərbaycan dilində « qoca qurd » frazeoloji vahidi işlənir. Qeyd olunmuş frazeoloji vahidlər indiki dildə işlənmə məqamlarında da fərqlər müşahidə olunur. Azərbaycan dilindəki frazeoloji vahid daha geniş məna dairəsinə malikdir. Bu birləşmə həm müsbət, həm mənfi mənada işlənə bilir. İngilis dilində isə frazeoloji birləşmə ancaq mənfi mənada istifadə edilir.

Frazeologizmlərin, həmçinin atalar sözlərinin, zərbi–məsəllərin, hikmətli sözlərin bir dildən digərinə tərcüməsi və transformasiyası zamanı əsas diqqət semantik oxşarlığa, məzmun eyniliyinə yönəldilməlidir.

Frazeologizmlərin dillərarası struktur, daha dəqiq desək, komponent uyğunluğu ekvivalent frazeologizmlərin müəyyənləşdirilməsinin əsas amillərindən biridir. Müqayisə olunan dillərin eyni sistemli və ya müxtəlif sistemli olması ekvivalentlərin təyin edilməsinə təsir göstərir. Frazeologizmlərin tam struktur–semantik ekvivalentliyi qohum dillər üçün daha səciyyəvidir.

Məlum olduğu kimi, frazeologizmlərdə millilik güclü olur; onlar hər bir dilin daşıyıcısı olan xalqın özünəməxsus dünya görüşü, təsəvvürləri, ətraf mühitə münasibəti, etik–fəlsəfi baxışları, məişət, təfəkkür tərzi və s. ilə bağlıdır. Onların bir qisminin (frazeologizmlərin) başqa dillərə tərcümə oluna bilməməsi də əsasən bununla əlaqədardır. Bir sıra hallarda frazeologizmlərin başqa dillərə tərcüməsi zamanı dilin daşıyıcılarının ifadəni qavraması və özününküləşdirilməsi üçün müəyyən zaman keçidi tələb olunur. Bu cür millilik frazeologizmlərin semantik modelləri ilə əlaqələnir.

Bu baxımdan struktur–genetik cəhətdən əhəmiyyətli dərəcədə fərqlənən, coğrafi yaxınlığa və uzunmüddətli mədəni–tarixi əlaqələrə malik olmayan, müxtəlif sistemli dillərdə işlədilən ekvivalent idiomatik ifadələrin bir sıra struktur–semantik və leksik–semantik cəhətləri diqqəti cəlb edir. İlk növbədə belə ifadələrin komponentlərinin işlənməsində, onların qrammatik təşkilində, leksik tərkibində, idiomatik variantlıq da, struktur sinonimlik də oxşarlıq nəzərə çarpır. Ekvivalent idiomatik ifadələrin struktur təşkilindəki analogiya onların obrazlığının ümumi dil xarakteri ilə şərtlənir.

İdiomatik ifadələrin dillərarası ekvivalentliyini təmin edən amillərdən biri də sabit söz birləşmələrinin metaforik səviyyədə işlədilməsidir. İfadələrin metaforlaşması anlayışı xas olan bu və ya digər əlamət əsasında baş verir: « iti dil » (yaxud dili iti) anlayışı ingiliscə a bitter tongue ilə ifadə edilir. Məcazlaşma əsasında yaranmış analogiya bu nümunələrdə aşkar hiss edilir. Bir sıra hallarda adi hərəkəti əks etdirən sabit söz birləşməsi metaforik məqamda işlədildikdə tamamilə başqa anlayışlarla assosiasiya yarada bilir. Məsələn: fake by the throut(ingilis). Bəzi bədən üzvlərinin fizioloji, yaxud sosial–simvolik aspekti ilə müəyyənləşən semantikaya

malik bir çox ifadələr uydurma obraza əsaslanır: Azərbaycan dilində baş sındırmaq, ingilis dilində break ones head, ingilis dilində tie `smbs tongue, Azərbaycan dilində dilini bağlamaq ifadəsi buna misal ola bilər. Ekvivalent idiomatik ifadələrin metaforlaşması sabit söz birləşmələrinin məzmunundakı anlayışlarla real əlaqə vasitəsilə baş verə bilir. Bir sıra hadisələrə uyğun gələn hərəkətləri əks etdirən söz birləşmələri müvafiq hadisələrin obrazlı ifadəsinə çevrilir.

Atalar sözü və zərb məsəllərin yaranma yollarını, məzmun xüsusiyyətlərini, bədii səciyyəsini ədəbiyyatşünaslıq baxımından izah etmək də geniş yayılmışdır.

Azərbaycan və ingilis dillərində atalar sözlərinin müqayisəli tədqiqatına dair müəyyən işlər, araşdırmalar raparılmışdır. Azərbaycan dilçiliyində bu sahədə ilk tədqiqatlardan birini **T. Abasquliyev** aparmışdır [3]. Onun tədqiqat işində ingilis, Azərbaycan və rus dillərində tam uyğun gələn bir çox atalar sözləri qeydə alınır. Atalar sözlərinin üç dildə uyğun gəlməsi, bu cür atalar sözlərinin beynəlxalq miqyasda yayılmasından xəbər verir. Belə atalar sözlərinin bəzilərinin yaranma mənbəyi müəyyən bir dildə ola bilər. Bir dildə yaranmış atalar sözü sonralar ya şifahi, ya da yazılı tərcümə yolu ilə başqa dillərə keçərək orada da eyni şəkildə işlənmişdir.

Xalq yaradıcılığının bir qolu olan atalar sözlərinin mənbəyi onun məxsus olduğu xalqdır, həmin xalqın tarixi, mədəniyyəti, adət–ənənəsi, həyat tərzi, yaşadığı təbiətdir. Odur ki, atalar sözləri məxsus olduğu xalqın keçdiyi tarixi dövrləri, adət və ənənələrini, təfəkkür tərzini, dünya baxışı və psixologiyasını özündə əks etdirir.

Frazeoloji vahid xüsusi növlü situativ işarədir. Adlandırma və mənalandırma zamanı frazeoloji vahidə situasiyanı səciyyələndirən bütün informasiyalar daxil edilir. İşarənin referensiyasını müəyyənləşdirən bilik, situasiya haqqında bilik, danışanın ifadə edilənə rasional–dəyərləndirmə münasibəti haqqında bilik, danışanın emosional qiymətləndirmə münasibəti, danışıq şəraitinin dərki və s. belə informasiyalara aiddir. Frazeoloji vahidin mənası konseptual strukturdur. Həmin konseptual struktura konsept yaradan semantik, praqmatik və kulturoloji səciyyəli əlamətlər toplusu daxil olur.

Məlumdur ki, bədii əsərin müəllifi müəyyən sosial mühiti, bu mühitdə yaşayanları, onların adət–ənənələrini, həyat tərzini nəzərə alır. Bədii əsərdəki personajlar müəyyən leksik vahidlərdən, ifadələrdən, o cümlədən də frazeoloji vahidlərdən istifadə etməkdə də bir–birindən seçilirlər. Frazeoloji vahidlər, idiomatik ifadələr bədii əsərlərdə çox işlənir. Bədii əsərlərin dili elmi dildən, məişət dilindən fərqlənir. Bu, əsərin emosional bədii təsiri ilə əlaqədardır. Ona görə də bədii əsərdəki frazeologizmlər linqvokulturoloji baxımdan da xüsusi əhəmiyyət daşıyır. Frazeologizmlərin milli–mədəni konnotasiyası, onların aid olduqları xalqın mentaliteti ilə bağlılığı və beləliklə mədəni işarələr rolunu oynaması məlumdur. Frazeologizmlər milli dil və milli–mədəni mənzərəni yaratmaq vasitəsidir. Frazeoloji vahidlərin semantikasında milli–mədəni özünəməxsusluq vardır.

Frazeologizmlərin etnokultroloji və praqmatik xüsusiyyətlərinin açılması onların başqa dillərin frazeoloji vahidləri ilə müqayisəsini tələb edir. Frazeologizmlərin linqvokultroloji aspektlərinin tədqiqi prosesində onların müxtəlif semantik tiplərini ayırmaq mümkün olur. İngilis dili frazeologizmlərinin qeyd olunan aspektdən tədqiqi zamanı aşağıdakı semantik tiplərin aşkara çıxarılmasına diqqət yetirilir: 1) ingilis xalqının adət–ənənələri ilə bağlı olan frazeologizmlər; 2) ingilis realiyaları ilə bağlı olanlar; 3) ingilis antroponimləri ilə yaranan frazeologizmlər; 4) ingilis inancları ilə bağlı olanlar; 5) Böyük Britaniyanın tarixi ilə bağlı olanlar; 6) ingilis folkloru ilə bağlı olanlar; 7) ingilis mifologiyası ilə bağlı olanlar; 8) ingilis ədəbiyyatı ilə bağlı olanlar; 9) şekspirizmlər; 10) bibleizmlər. Əlbəttə, qeyd edilənlər linqvokultroloji və praqmatik səciyyəli bütün frazeologizmləri əhatə etmir. Tədqiqat prosesində başqa tiplərdə aşkara çıxa bilər.

Xalqın məişəti, adət–ənənəsi, həyat tərzi, mentaliteti, tarixi, mədəniyyəti, incəsənəti və s. ilə bağlı olan frazeologizmlər frazeoloji sistemin ayrıca bir qatını təşkil edir. Onların spesifik xüsusiyyətlərinin başqa dildə verilməsi çox çətindir. Ona görə də tədqiqat prosesində müəyyən müqayisə və paralellərin aparılması vacibdir.

İstər qədim dövrdə yaranmış, istərsə də tarixən sonrakı dövrlərin məhsulu kimi qələmə alınmış atalar sözlərinin müxtəlif dillərdə oxşar variantları vardır. Daha qədim dövrə getdikcə atalar sözlərindəki məna yaxınlıqları aydın müşahidə olunur. Əlbəttə, bu və ya digər atalar sözünün məhz hansı dövrdə yaranmasını iddia etmək çətindir. Belə təyinetmə üçün əsas mənbə qədim yazılı abidələr, xalq yaradıcılığının qədim nümunələridir. Atalar sözləri hələ qədim dövrlərdən bir dildən digərinə keçmiş, müxtəlif dillərdə işlənmişdir. B.Tahirbəyov atalar sözlərinin bir dildən başqa dilə keçməsinin birinci yolunu tərcümə ilə bağlayaraq göstərir ki, atalar sözünün dilmanclar vasitəsilə ağızdan–ağıza keçmiş, münasib şəraitdə tam qarşılıqlarının əmələ gəlməsinə gətirib çıxarmışdır. Onun fikrinə görə, həmin şəraitə daxil olan şərtlərdən özünü olduqca aşkar göstərənləri vardır və bunlar dil qohumluğu, mənşə ümumiliyi, təbiət eyniliyi, ictimai oxşarlıq, ərazi vəhdəti, iqtisadi əlaqələrdir. Atalar sözünün tərcümə edilməsi xüsusi münasibət tələb edir. Ümumiyyətlə, atalar sözlərini tərcümə baxımından dörd qismə ayırırlar: 1) transsinonimlər (natamam qarşılıqlar); 2) hipoekvivalentlər – "uyğunsuz uyğunluq"lar; 3) transizonimlər (tam qarşılıqlar)– orta ekvivalentlər – "uyğunlu–uyğunluq" lar; 4) transomonimlər (yanlış qarşılıqlar)– psevdoekvivalentlər – " uyğunlu–uyğunsuzluq"lar. Atalar sözünün ən böyük qismi "uyğunsuz uyğunluq" lardır. Ifadə oxşarlığı olmadan məzmun oxşarlığına yardım göstərən natamam qarşılıqlar (hipoekvivalentlər), yaxud transsinonimlər məhz belə atalar sözlərindəndir. Atalar sözünün ən kiçik qismi "uyğunlu uyğunsuzluq" lardır. Məzmun oxşarlığı olmadan ifadə oxşarlığına bais olan yanlış qarşılıqlar, yaxud transomonimlər məhz belə atalar sözündəndir [6, s. 7].

Atalar sözlərinin tərcüməsi və ya başqa dildə verilməsi, eləcə də başqa dilə məxsus atalar sözünün ana dilinə tərcüməsi müəyyən çətinliklər yaradır. Bu çətinliklərin də öz səbəbləri vardır. Qeyd etmək lazımdır ki, ingilis və rus atalar

sözlərinin əkəsəriyyəti çoxmənalıdır. Çoxmənalılıq atalar sözlərinin müqayisəsi və şərhi prosesində əlaavə problemlər yaradır. Ingilis dili atalar sözlərinin Azərbaycan dili qarşılığının və əksinə, Azərbaycan atalar sözlərinin ingilis dili qarşılığının tapılmasının başlıca meyarı mənanın, adətən əsas mənanın üst–üstə düşməsidir. Bununla belə, yadda saxlamaq lazımdır ki, müxtəlif tarixi dövrlərdə eyni, yaxud yaxın bir fikri ifadə etmək üçün ingilis və Azərbaycan atalar sözlərində müxtəlif obrazlardan istifadə edilmişdir. Bu obrazlar fərqli sosial ukladlardan, iki xalqın fərqlənən məişət tərzindən götürüldüyündən onlar əsasında formalaşmış atalar sözlərinin də mütləq ekvivalentlərini həmişə tapmaq mümkün olmur. Eyni zamanda, göstərmək lazımdır ki, hər bir dildə müəyyən ifadələr, sabit birləşmələr vardır ki, onları hərfi mənada qəbul etmək mümkün deyildir. Belə ifadələri hərfi tərcümə etdikdə onların mənaları qeyri–müəyyən olaraq qalır və bəzən qəribə hisslər oyadır. Atalar sözlərinin hərfi tərcüməsi bəzi hallarda gözlənilməz nəticəyə, anlaşılmaz məzmuna gətirib çıxarır.

Ekvivalent və ya oxşar atalar sözlərinin qohum və qohum olmayan dillərdə işlənməsinin əsasında müxtəlif şərtlər durur. Atalar sözlərinin müəyyən qisminin beynəlxalq miqyasda yayılmasını bir səbəb kimi qəbul etmək olar. Ancaq bu, səbəblərdən yalnız biridir. Şübhəsiz ki, məzmun və mənaya görə yaxın atalar sözlərinin ayrı–ayrı dillərdə, o cümlədən də müxtəlif sistemli dillərdə istifadə edilməsində bir çox başqa amillər də mühüm rol oynayır.

Daha bir məsələnin üstündə dayanmaq zəruridir. Mənbə dildə rast gələn sözün lüğət mənasından kənara çıxan, yaxud lüğətdə olmayan qarşılığının verilməsi halları özünü tez–tez göstərir. Tərcüməşünaslıqda bu vəziyyət leksik transformasiya adlanır. Y.Retsker leksik transformasiyanın yeddi növünü bir–birindən fərqləndirir: 1) mənanın diferensiyası; 2) mənanın konkretləşdirilməsi; 3) mənanın inkişaf etdirilməsi; 4) mənanın generalizasiyası; 5) antonimik tərcümə; 6) tam çevirmə; 7) tərcümə prosesində meydana çıxan itkilərin aradan qaldırılması [5, s. 34].

Qeyd etmək lazımdır ki, bədii tərcümədə ekvivalentlik məsələsi həmişə diqqət mərkəzində olmuş problemlərdəndir. Buna görə də tərcüməşünaslığa aid ədəbiyyatların əksəriyyətində bu məsələnin müxtəlif aspektləri işıqlandırılmışdır.

Adekvatlıq, ekvivalentlik və uyğunluq məsələləri ilə bağlı tərcüməşünaslıqda bir çox araşdırmalar aparılmışdır. Belə araşdırmalar müxtəlif sistemli dillərin müqayisəli şəkildə tədqiqi prosesində də üzə çıxır. Qeyd olunan məsələlər barədə müvafiq elmi ədəbiyyatda ətraflı məlumatlar əldə etmək olar.

A.D.Şveyserin verdiyi tərifə görə ekvivalentlik ilkin məlumatların mənbə dilin daşıyıcılarına göstərdiyi təsirlə bütün əhəmiyyətli cəhətlərinə görə eyni olan tərcümənin verilməsidir [7, s. 92–96]. V.Komissarov ekvivalentliyi tərcümə və orijinalda məzmun ümumiliyi (məna yaxınlığı) kimi qəbul edir [4, s.51].

Bədii tərcümədə belə bərabərqiymətliliyi təmin etmək çətindir. Çünki mənbə dil sistemi ilə obyekt dil sistemi arasındakı fərqlər tərcümədə orijinalın məzmununun tam saxlanması imkanını məhdudlaşdırır. Əsasən, orijinalda olan məna elementərinin

saxlanması ekvivalentliyi müəyyənləşdirmək üçün meyar rolunu oynayır. B.Tahirbəyov bu meyara əsaslanaraq ekvivalentliyin başlıca üç tipini səciyyələndirir: 1) orijinalda yalnız kommunikasiya məqsədinin təşkil edən məzmunun saxlanması; 2) orijinalın və tərcümənin ümumi məzmunu eyni kommunikasiya məqsədini ötürməyə xidmət etməklə yanaşı, eyni bir dilxarici situasiyanı əks etdirir; 3) leksik tərkibdə və sintaktik strukturda paralellərin olmaması orijinalın və tərcümənin quruluşunu sintaktik transformasiya münasibətlərinin əlaqələndirilməsinin qeyri–mümkünlüyü, kommunikasiya məqsədinin və anlayışlarının qorunması ilə təyin olunur [6, s. 52–56]. Bundan başqa, o, sintaktik quruluşun əsas hissəsinin qorunmasını dördüncü tip ekvivalentliyə, orijinalla tərcümə arasındakı maksimal yaxınlığı isə ekvivalentliyin beşinci tipinə aid edir.

Atalar sözlərinin müqayisəli təhlili zamanı onların müxtəlif sistemli dillərdə verilməsinin bəzi xüsusiyyətləri üzə çıxır. Tərcüməsi zamanı aşağıdakı əsas cəhətlər müəyyənləşir: 1) bu və ya digər dildə olan atalar sözlərinin müəyyən qisminin başqa dildə tam ekvivalenti qeydə alınır. Bu halda tərcümə ekvivalentin verilməsi üzrə aparılır; 2) bu və ya digər dildə olan atalar sözlərinin müəyyən qisminin başqa dildə qismən ekvivalentini tapmaq olur. Tərcümə zamanı qismən ekvivalent olan variantın istifadə olunması daha məqsədəuyğundur; 3) bir dildə olan atalar sözünün başqa bir dildə nə tam, nə də qismən ekvivalenti olmur. Bu cür atalar sözləri hərfi tərcümə edilir və onların mənası şərh, izah olunur.

Ədəbiyyat siyahısı

1. Adilov ,M. İ. Sabit söz birləşmələri / M.İ.Adilov, G.Yusifov – Bakı : Maarif, – 1991. – 152 s.
2. Əlizadə S. Frazeologizm dil və təfəkkürün əlaqəli abstraksiyasının məhsulu olmasaydı, dilin müdrikliyinin və milli təbiətinin, xalqın etnik psixologiyasının timsalına çevrilməzdi / S.Əlizadə. Mirzəliyeva M. Türk dillərinin frazeologiyası. –Bakı: Nurlan,– c.1. – 2009. 216 s.
3. Абаскулиев, Т. Английские пословицы и их азербайджанские и русские эквиваленты / Т. Абаскулиев. – Баку: Элм , – 1981. – 208 с.
4. Комиссаров , В. Н. Теория перевода /В. Н. Комиссаров. – Москва: Высшая школа ,– 1990 . –253 с.
5. Рецкер, Я.И. Теория перевода и переводческая практика / Я.И. Рецкер. – Москва : Международные отношения, – 1974. – 216 с.
6. Таирбеков, Б.Г.Краткий русско–азербайджанский и азербайджанско–русский словарь паремий. / Б. Г. Таирбеков , А. Гусейнзаде– Баку: Маариф, –1984.– 405 с.
7. Щвейцер, А.Д. Теория перевода. Статус, проблемы, аспекты / А. Д. Щвейцер. – Москва: Наука, –1988. –215 с.

Seidova Sabina Amir

THE ROLE OF THE EQUIVALENCE OF PHRASEOLOGY IN THE STUDY OF AZERBAIJANI PHRASEOLOGY

SUMMARY

As you know, nationalism is strong in phraseology; they reflect the unique worldview, imagination, attitude to the environment, ethical and philosophical views, lifestyle, way of thinking, etc. of people who speak language. Some of them (phraseological units) cannot be tran+slated into other languages for this reason. In some cases, translation of phraseological units into other languages requires a certain time for native speakers to understand and master the expression. This nationality is associated with the semantic models of phraseology. As this point of view, attention is drawn to a number of structural-semantic and lexical-semantic features of equivalent idiomatic expressions used in different systematic languages, which differ significantly structurally and genetically, do not have geographic proximity and long-term cultural and historical ties. First of all, there is a similarity in the development of the use of components of such expressions, their grammatical organization, lexical structure, in the idiomatic version, and in structural synonymy. The analogy in the structural organization of equivalent idiomatic expressions is due to the general linguistic nature of their images.

Phraseological units in the language are classified according to different criteria. One of the tasks of this scientific work is to study the equivalence, which is one of the semantic features of phraseological units. The article examines the features of equivalence created by phraseological groups that have developed between related and unrelated languages. Their ethnocultural and pragmatic features are compared. The article also provides principles for translating equivalents.

The relation of Retzker, Schweitzer, Komissarov, Takhirbekov, Abaskuliev to equivalence is given.

Key words: equivalence, phraseology, paremia, nationality, comparison

Сеидова Сабина Амир

РОЛЬ ЭКВИВАЛЕНТНОСТИ ФРАЗЕОЛОГИЗМОВ В ИЗУЧЕНИИ АЗЕРБАЙДЖАНСКОЙ ФРАЗЕОЛОГИИ

РЕЗЮМЕ

Как известно, национализм силен во фразеологии; они отражают уникальное мировоззрение, воображение, отношение к окружающей среде, этические и философские взгляды, образ жизни, образ мышления и т. д. людей, говорящих на каждом языке. Некоторых из них (фразеологизмов) невозможно перевести на другие языки по этой причине. В некоторых случаях для перевода фразеологизмов на другие языки требуется определенное время, чтобы

носители языка поняли и усвоили выражение. Такая национальность связана с семантическими моделями фразеологии.

С этой точки зрения обращает на себя внимание ряд структурно-семантических и лексико-семантических особенностей эквивалентных идиоматических выражений, используемых в разных систематических языках, которые существенно различаются структурно и генетически, не имеют географической близости и длительных культурно-исторических связей. Прежде всего, отмечается сходство в развитии использование компонентов таких выражений, их грамматической организации, лексической структуре, в идиоматическом варианте, так и в структурном синонимии. Аналогия в структурной организации эквивалентных идиоматических выражений обусловлена общелингвистической природой их образов.

Фразеологические единицы в языке классифицируются по разным критериям. Одна из задач данной научной работы изучить эквивалентности которая является одним из семантических признаков фразеологизмов. В статье исследуются особенности эквивалентности, создаваемой фразеологическими группами, сложившимися между родственными и неродственными языками. Сопоставляются их этнокультурные и прагматические особенности.

В статье также приведены принципы перевода эквивалентов. Приводится отношение Рецкера, Швейцера, Комиссарова, Тахирбекова, Абаскулиева к эквивалентности.

Ключевые слова : эквивалентность, фразеологизм, паремия, национальность, сравнение.

Redaksiyaya daxil olma tarixi: 28.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **f.e.d. prof. Babayev A. M**
tərəfindən çapa tövsiyə olunmuşdur

İLAHƏ MƏMMƏDOVA
ADU
ilaha_1976 @ mail.ru

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ DİSTANT TƏHSİLİN ROLU

Xülasə

Məqalədə xarici dillərin tədrisində distant təhsilin rolu araşdırılır. Müasir bir insanın həyatının demək olar ki, bütün sahələri kompüter və informasiya texnologiyalarının təsiri altında əhəmiyyətli dərəcədə dəyişmişdir. Təhsil sahəsi də istisna deyil, çünki təhsil prosesinin informasiyalaşdırılması bütün təhsil sisteminin modernləşdirilməsinin əsas istiqamətlərini təsir edən ən vacib mexanizmlərdən biridir.

Nəticədə ənənəvi təhsil formaları ilə yanaşı yeni bir təhsil forması da meydana çıxdı - müasir informasiya və kommunikasiya texnologiyalarına əsaslanan distant təhsil, nəinki öyrənməyə, həm də istifadəçilərinin keyfiyyətlərini artırmağa imkan verir. Distant təhsil ənənəvi təhsilin təkamülünün nəticəsidir ki, bu da virtual sinif otağı istifadəsi üçün hazırlanmış elektron dərslik və proqramları özündə cəmləşdirən elektron lövhə və kompüter tədris sistemlərinin meydana çıxmasına səbəb oldu.

Öz növbəsində, virtual mühazirə kursu, mülahizəyə əsasən məşq müddətini qısaltmağa və ya uzatmağa imkan verir. Müasir dünyada bir kompüter olduğu yerdə "məsafədən təhsil" mümkündür. Materialın şagirdlərə irəli sürülən tələblərə uyğun qurulması asandır. Tələbə özü fərdi ehtiyaclarından asılı olaraq özü üçün əlverişli istənilən vaxt təhsil ala bilər. Müəllif məqalədə distant təhsilin xüsusiyyətlərini qruplaşdırmış, uzaqdan təhsilin mahiyyətini araşdırmış və bir sıra prinsiplərini qeyd etmişdir.

Açar sözlər: distant təhsil, tədris metodları, telekommunikasiya, sinxron, asinxron, interaktivlik.

"21-ci əsr kompyuter əsridir, dövrümüz isə texnologiyalar dövrüdür." kimi cümlələrə gündəlik həyatda tez–tez rast gəlinir. Çünki artıq kompüterin tətbiq olunmadığı bir sahə tapmaq qeyri mümkündür. Kompyuterdən tibbdə, mühəndislikdə və bir çox başqa sahələrdə geniş istifadə olunur. Artıq 21-ci əsrdə savadlılıq anlayışı öz mənasını genişləndirmişdir. Keçən əsrlərdə savadlılıq yazmaq və oxumaq bacarıqları ilə sərhədlənirdisə, indi artıq ona minimal kompüter biliklərinə sahib olmaq da əlavə olunub. Gündəlik həyatımızda biz kompyuterlərdən müxtəlif məqsədlər üçün istifadə edirik, lakin bu zaman bizdən kompüteri mükəmməl bilmək tələb olunmur. Bizə yalnız minimal kompüter bilikləri gərəklidir. Buraya kompüterdə mətn yığmaq, e-poçt ünvanına daxil olmaq, gələn ismarıcları oxumaq,

cavablandırmaq, veb-brauzerlərdə axtarış etmək və s. daxildir. Təbii ki, həyatımızın demək olar ki, hər bir sahəsinə tətbiq olunan kompyuterlər, təhsil sahəsindən də yan keçə bilməzdi. Əgər dövr bizdən kompüter biliklərinə sahib olmağı tələb edirsə, bu ilk növbədə təhsildə öz əksini tapmalıdır. Kompüterin təhsilə cəlb olunması ilə kompyuterlə dil tədrisi də təhsildə öz əksini tapdı və kompüterlə dil tədrisi və ya kompüterə əsaslanan dil tədrisi metodikaya gətirildi.

Distant təhsil nədir? Bu fenomenin tərifləri çoxdur, lakin mahiyyəti ondan ibarətdir ki, tədris sistemində müəllimlə şagird arasında fiziki bir məkan ayrılır ki, bu da müvafiq texnologiyalar vasitəsilə ünsiyyət yolu ilə həyata keçirilir. Çox vaxt ədəbiyyatda "məsafədən təlim" və "məsafədən təhsil" terminləri bir-birinin əvəzinə istifadə olunur. Ancaq öyrənmə müəllim və şagirdlərin qarşılıqlı əlaqəli fəaliyyətlərinin məqsədyönlü, mütəşəkkil bir prosesidir. "Təhsil" termini, məqsədinə görə (ümumi və xüsusi), səviyyəsinə görə (ibtidai, orta, ali), bilik sahəsinə görə (humanitar, təbiətşünaslıq, texniki), sənayelə və kateqoriyaya görə təsnif edilən təlim, tərbiyə və fərdi inkişafın nəticəsidir. Qeyd etmək lazımdır ki, bu terminlər fərqli anlayışlar mənasını verir və "məsafədən təhsil" ifadəsinin istifadə edilməsinə üstünlük verilir. Uzaqdan təhsil əyani və qiyabi təhsil ilə yanaşı, təhsil prosesində ən yaxşı ənənəvi və yenilikçi təhsil metodlarından, kompüter və telekommunikasiya texnologiyalarına əsaslanan təhsil metodlarından, vasitələrindən və formalarından istifadə olunduğu bir təhsil formasıdır. Təhsil prosesinin əsasını fərdi cədvələ uyğun olaraq özü üçün əlverişli bir yerdə təhsil ala bilən, özü ilə bir sıra xüsusi tədris vəsaitləri və müəllimlə telefon, elektron poçt və adi poçt vasitəsi ilə, həm də şəxsən əlaqə qurmaq imkanı əldə edən məqsədyönlü və nəzarət olunan intensiv müstəqil işdir. Təhsil sistemində distant təhsil insanlıq prinsipinə uyğundur, buna görə heç kim yoxsulluq, coğrafi və ya müvəqqəti təcrid, sosial etibarsızlıq və fiziki qüsurları və ya istehsal və şəxsi işlərdə işləməsi səbəbi ilə təhsil müəssisələrinə gedə bilməməsi səbəbindən təhsil almaq imkanından məhrum edilməməlidir. Cəmiyyətin və təhsilin obyektiv məlumatlandırılması prosesinin nəticəsi olaraq və digər formaların ən yaxşı xüsusiyyətlərini özündə cəmləşdirən 21-ci əsrə ən perspektivli, sintetik, humanist, ayrılmaz təhsil forması kimi daxil olacaqdır.

Dünya praktikasında, təlim şəklində və tədris metodları və vasitələrinin xarakterinə görə fərqli iki distant təhsil modeli mövcuddur: "Amerika" (müəllimlə tələbə arasında ya real vaxtda baş verən, ya da dolayı qarşılıqlı əlaqənin olduğu telekomunikasiya istifadə edərək əyani təhsil materialının dinləyiciləri tərəfindən sonrakı baxış rejimi) və "Britaniya" (təlimçi və kursantın məsafədən ayrıldığı və təlimin işlənmiş təhsil və metodik dəstlər əsasında demək olar ki, müstəqil şəkildə həyata keçirildiyi qiyabi təhsil; bu vəziyyətdə "məsafədən təhsil" termini daha yaxındır). Distant təhsil məsafədə təhsil məlumat mübadiləsini təmin edən informasiya və kommunikasiya texnologiyalarının istifadəsinə əsaslanan və təhsil prosesinə dəstək və idarəetmə sistemini həyata keçirən ixtisaslaşdırılmış təhsil mühitinin köməyi ilə bilik əldə etmə, bacarıq və bacarıqların formalaşdırılması

prosesi; öz komponent tərkibinə malik yeni müstəqil təhsil sistemi: hədəflər, məzmun, metodlar, təşkilati formalar və tədris vasitələri. Distant təhsil müəllim və şagirdlərin bir-birindən məkan və müvəqqəti uzaqlıq prinsipinə əsaslanan təlimdir və təlim prosesinin özü kompüter və telekommunikasiya texnologiyalarından istifadə etməklə həyata keçirilir. Bu tip təlimlərin əsas məqsədi dəyişdirmək və ya yeni bir peşə qazanmaq istəyən insanlar üçün imkanları genişləndirməkdir.

Distant təhsilin xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Çeviklik - təcrübəçilər ümumiyyətlə mühazirə və seminar şəklində müntəzəm dərslərə getmirlər. Kursu və seçdiyi ixtisas üzrə lazımi bilikləri mənimsəmək üçün hər kəs şəxsən ehtiyac duyduğu qədər təhsil ala bilər.
- Modulluq – distant təhsil proqramlarının əsasını modul prinsipi təşkil edir. Hər bir fərdi intizam və ya bir tələbə tərəfindən mənimsənilən bir sıra fənlər müəyyən bir mövzu sahəsinə bütöv bir baxış yaradır. Bu, fərdi və ya qrup ehtiyaclarına cavab verən bir sıra müstəqil təlim kurslarından tədris planı yaratmağa imkan verir.
- Paralellik - təlim əsas peşə fəaliyyətini təhsil ilə birləşdirərək həyata keçirilə bilər, yəni nəzəriyyə ilə təcrübə üst-üstə düşərsə möhtəşəm nəticə əldə etmək mümkündür.
- Uzunmüddətli fəaliyyət - tələbənin yerləşdiyi yerdən təhsil müəssisəsinə qədər məsafə təsirli bir təhsil prosesi üçün bir maneə deyil.
- Asinxron - öyrənmə prosesində müəllim və şagirdin tədris və öyrənmə texnologiyasını vaxtında həyata keçirə biləcəyi, yəni hər kəs üçün əlverişli bir cədvəldə və uyğun bir tempdə.
- Əhatə dairəsi - bu xüsusiyyətə bəzən "kütlə" deyilir. Bir çox təhsil məlumat mənbəyinə (elektron kitabxanalar, verilənlər bazaları) daxil olmaqla yanaşı, bir-biri ilə və müəllimlə rabitə şəbəkələri və ya digər İT vasitələrindən istifadə edərək ünsiyyət qura bilirlər.
- Mənfəət - bu xüsusiyyət distant təhsilin iqtisadi səmərəliliyi deməkdir. Distant təhsilin xarici və yerli təhsil sistemlərinin orta qiymətləndirməsi əsasən mövcud təhsil məkanı və İT texniki vasitələrinin daha səmərəli istifadəsi, eyni zamanda tədris materiallarının daha cəmlənmiş və birləşdirilmiş məzmununun təqdimatı nəzərdə tutulur.
- Müəllim - müəllimin idrak prosesinin koordinasiyası, tədris olunan kursun tənzimlənməsi, məsləhətləşmə, təhsil layihələrinin idarə olunması və s. şagirdlərlə qarşılıqlı əlaqə əsasən poçt və ya rabitə sistemlərindən istifadə edərək asinxron şəkildə həyata keçirilir. Üz-üzə təmaslara da icazə verilir və təşviq olunur.
- Öyrənən - öyrənənin yeni rolu və ya distant təhsil sistemində daha çox qəbul edildiyi kimi dinləyicinin məktəbəqədər təhsildən keçmək üçün müstəsna özünütəşkilat, zəhmət və müəyyən bir təhsil səviyyəsinə ehtiyac var.

Son illərdə ən çox müzakirə olunan mövzulardan biri, qlobal internet şəbəkəsindən istifadə edərək təlim və ya məsafədən təhsil kimi xidmətlərin mövzusudur. Bu təhsil formasının məqsədəuyğunluğu barədə fikirlər çox fərqlidir və əksər hallarda tamamilə əksinədir. Bu, tamamilə normaldır, nəzərə alsaq ki, son vaxtlara qədər demək olar ki, hər hansı bir tədris metodikası uzaqdan hesab olunurdu və bu materialların ən azı bir hissəsi müstəqil təhsil üçün verilirdi. Məlumat daşıyıcısı da xüsusi bir rol oynamadı: kağız və ya maqnit.

Yaşadığımız dövrdə demək olar ki, texnologiya artıq bütün sahələrə tətbiq edilir. Daim inkişaf edən texnologiyanın təhsil sahəsinə tətbiqi də ən önəmli məsələlərdən biridir və ingilis dilinin tədrisində də İKT-lərdən istifadə olunması çox aktual bir mövzudur. Lakin bugündə dil tədrisində İKT-lərdən istifadə edilməsi ilə bağlı öz həllini gözləyən bir çox məsələlər vardır. Bu məsələlərdən ən önəmlisi İKT-lərdən istifadə edilərək tədris olunan ingilis dilinin ünsiyyət vasitəsi kimi inkişaf etdirilməsidir. Bu səbəbdən də bugün ingilis dilinin tədrisində kommunikativ dil təlimi metodu əsas hesab olunur. Təhsildə dilin ünsiyyət vasitəsi kimi tədris edilməsi ön plana çəkilir. Müasir ünsiyyətin ən yaxşı vasitəsi isə İKT-lərdən istifadədir. Demək olar ki, təlim prosesində artıq əksər müəllimlər İKT-lərdən məharətlə istifadə edirlər. Bu cür vasitələrdən istifadə edilməzsə, yeni nəsli ənənəvi üsullarla keçilən dərslərə cəlb etmək çox çətin olar. Bu məsələlərin ən önəmli həlli yolu isə, dil dərslərini müasir texnologiyalarla zənginləşdirməkdir.

Distant təhsil proqramları hazırlayarkən, hər birinin məqsəd və öyrənmə məqsədləri qoyulması ilə birlikdə təşkili daxil olmaqla sessiyaları diqqətlə planlaşdırmaq vacibdir. Tələbələr təklif olunan kursların məqsədini anlamalıdırlar. Tələbələrin psixoloji qavrayış, yaddaş, düşüncə, diqqət, yaş xüsusiyyətləri qanunauyğunluqlarını nəzərə almaq lazımdır.

Məsafədən təhsil prosesində mühüm amil müəllimlə tələbə arasındakı əks əlaqədir. Onun mahiyyəti ondan ibarətdir ki, insanlararası ünsiyyətdə məlumat mübadiləsi prosesi daha da mürəkkəbləşir və ünsiyyət bariyerinin yaranması problemi yaranır. Əgər bu baş verərsə, onda məlumat təhrif olunmuş formada təqdim olunur ki, bu da bilik bariyerinin münasibətlər bariyerinə çevrilmə, məlumat və mənbəyə qarşı inamsızlıq və düşmənçilik hissinə çevrilmə təhlükəsi olduğuna gətirib çıxarır. Buna görə ən təsirli psixoloji atmosfer üçün məsafədən təhsil sistemində müəllimlərin şəxsi keyfiyyətləri vacibdir. Uzaqdan təhsilin mahiyyətini araşdırarkən bir sıra prinsiplərin nəzərə alınmalıdır:

- bütün materialların əsas təhsil fəaliyyət növləri ilə əlaqəli və real əməliyyatlara əsaslanan, onları həll etmək üçün tələbənin öz təcrübəsini tətbiq etməyə imkan verən fəaliyyət prinsipi;
- məlumat və psixoloji maneələrini aradan qaldırmağa imkan verən dəstəklənən bir dostluq mühiti formalaşdırma prinsipi. Onların yerinə təhlükəsizlik və özünə inam hissi formalaşır ki, bu da nəticədə tələbənin daxili azadlığına kömək edir;

- şəxsiyyət vasitəçiliyi ilə qarşılıqlı əlaqə prinsipi şagirdin təhsil ehtiyaclarının və uğurlarının vaxtında izlənilməsinin onun yaradıcılıq, ünsiyyət və refleks qabiliyyətlərinin inkişafına kömək etməsidir;
- açıq rabitə məkanı prinsipi qrafika, animasiya, səs və rəng, xüsusi effektlər, hiper mətn istifadəsi ilə müşayiət olunur. Bu prinsip şagirdlərin fəaliyyətinin nəticələrinin müzakirəsini və təhsil işində fərdi yaradıcı yanaşmanın inkişafını nəzərdə tutur;
- interaktivlik prinsipi yalnız tələbələrin müəllimlərlə deyil, həm də tələbələrin öz aralarında (qrup dərsləri halında) təhsil prosesinin intensivliyinə kömək edən təmaslarını əks etdirir;
- həyata keçirilməsi üçün giriş və cari nəzarətin həyata keçirildiyi, fərdi bir təlim proqramının inkişafına imkan verən fərdiləşdirmə prinsipi;
- eyniləşdirmə prinsipi təlimin "saxtalaşdırılması" nın aradan qaldırılmasına yönəlmiş ümumi təhlükəsizlik tədbiridir. Texniki vasitələrindən biri də video konfransdır.

Yuxarıda göstərilən prinsipləri nəzərə alaraq, məsafədən təhsilin faydaları, effektivliyi və səmərəliliyi ilə bağlı bir nəticə çıxarmaq olar. Şagirdlər əlavə təhsil ehtiyacını hiss edirlər, tədris materialları ilə birbaşa onlara uyğun bir rejimdə və həcmdə işləmək imkanı qazanırlar.

Təsiri şagirdin nə qədər müntəzəm məşğul olmasından asılıdır. Nəzarət və diaqnostik tapşırıqların və buraxılış işlərinin ardıcıl həyata keçirilməsi, müəllim-koordinator tərəfindən dəstək biliklərin sistematik mənimsənilməsini təmin edir. Distant təhsilin əsas üstünlükləri bunlardır: 1)əhalinin geniş təbəqələri üçün təhsil imkanı; 2)vaxtı, təhsil yeri və təhsil müəssisəsinin növünü seçməkdə rahatlıq; 3)tələbənin ehtiyacları və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla fərdi yanaşmanın olması; 4)təlimin mövcudluğu və açıqlığı; 5)təlim və peşə fəaliyyətinin birləşməsi; 6)şagirdlər və müəllimlər üçün özünü dərk etmə imkanı; 7)xüsusi proqramlar istifadə edərək aparılan bilik qiymətləndirməsinin obyektivliyi; 8)tələbələrin idrak bacarıqlarının təkmilləşdirilməsi, müstəqilliyin, yaradıcı və intellektual potensialın inkişafı.

Biz texnologiyalar dövründə yaşayırıq, əsrimiz kompyuter əsridir. Müəllimlərdə daxil olmaqla hamının texnoloji cəhətdən bacarıqlı və savadlı olması vacib məsələdir. Müəllimlər kompyuterdən istifadə edərək öz tələbələrinə materiallar yarada bilərlər. Müasir müəllimin əsas funksiyası öyrənənlərə öyrənmyi öyrətməkdir. Buna görə də müəllim daim öz üzərində işləməli və özünü təkmilləşdirməlidir. Hər gün yeni bir elmi bilik artır və təhsilin məzmunu daim dəyişir, yaranan yeni elmi biliklər fasiləsiz olaraq universitet proqramlarına daxil edilir. İngilis dilində də bu inkişafin sürətli olması, hər gün yeni sözlərin və terminlərin yaranması müəllimləri daha məsuliyyətli olmağa sövq edir.

İnternetdən istifadə edilməsi hər bir fəndə olduğu kimi ingilis dilinin tədrisində də böyük irəliləyişlərə yol açdı. Bu həm də tədris metodologiyasında geniş imkanlar yaratdı. İnternet tələbələrə real situasiyalarda iştirak etmə imkanı verməklə yanaşı, həm də beynəlmilər mənbələrdən istifadə edərək birbaşa İngilis dilini eşidərək, danışaraq öyrənə bilmək imkanı verdi.

Bu yolla tələbələr təcrübə əldə edir, dil bacarıqlarını daha da inkişaf etdirir, beynəlxalq perspektivlərini genişləndirir, yeni bilik əldə edir, müxtəlif mədəniyyətləri qiymətləndirir və öz dünyagörüşlərini artırırlar. Texnologiyanın inkişaf etməsi cəmiyyətin də fasiləsiz inkişafına təsir göstərmişdir. Biz həyatımızı texnologiyalarsız təsəvvür edə bilmərik. Buna görə də IKT-nin ingilis dilinin tədrisində istifadə olunması bir çox yeniliklər və üstünlüklər əldə etməyə imkan verir.

"Internet for English teaching " kitabının müəllifləri olan Shetzer, Varschauer, Meloni ingilis dilinin tədrisində internetdən istifadə etməyin 5 əsas səbəbini qeyd etmişlər:

1)Orijinallıq – dil öyrənmə orijinal və mənalı kontekstdə baş verdikdə daha səmərəli olur və daha çox fayda verir . İnternet isə dil öyrənməni orijinal edən ucuz bir metoddur. Tələbələr internet vasitəsilə onları maraqlandıran hər bir mövzuda çoxlu sayda orijinal materiallara sürətlə, 24 saat giriş imkanı əldə edir və onlar burada real ünsiyyət qurur və nəşr imkanlarına giriş əldə edirlər.

2)Savadlılıq- internetdə yazmaq, oxumaq, ünsiyyət qurmaq, tədqiqat aparmaq və nəşr etmək 21–ci əsrdə tələb olunan savadlılığın yeni vacib formalarındandır. Siz ingilis dili və texnikanı vəhdətdə sinifdə tətbiq etməklə öz tələbələrinizin akademik və iş sahəsində bir çox bacarıqlara yiyələnmələrinə kömək etmiş olacaqsınız.

3)Qarşılıqlı əlaqə- bu dil öyrənmədə və mənimsəmədə başlıca şərtlərdən biridir. Yeni kurrikuluma əsasən də dil öyrənmədə interaktiv təlim prinsipi başlıca rol oynayır. İnternet vasitəsilə tələbələr 24 saat ərzində dünyanın hər yerində olan yerli və ya yerli olmayan dil daşıyıcıları ilə qarşılıqlı əlaqədə olmaq imkanına malikdirlər.

4)Canlılıq- çox vaxt tələbələr ingilis dili dərslərində yeni qrammatik qaydaları və kontekstdən kənar lüğəti əzbərləyərək öyrənirlər. Bu cür tədris adi və ya monoton hesab oluna bilər. İnternet isə tədrisə canlılıq gətirir və tələbələrin real həyatdakı ehtiyaclarına uyğun gələn ünsiyyət qurduğuna görə internet tələbələri motivasiya edir.

5)Müstəqillik-internet müəllim və tələbələrə müstəqil tədqiqatçılara çevrilmək imkanı verir. Müəllimlər və tələbələr istədiklərini istədikləri vaxt tapa bilirlər. İnternet bacarığı olan müəllimlər və tələbələr gələcəkdə multimedia yaradıcılarına çevrilə bilərlər. Hal-hazırda kompyuterdən istifadə etməklə dil öyrənmə çoxalıb və onun ikinci dil öyrənən tələbələr üçün bir çox faydaları vardır. Kompyuterlə dil öyrənmə tələbələrə aşağıdakı imkanları verir. [4, 80-82]

Müəllimlər indi tələbələr arasında ünsiyyət yaratmayan və kommunikasiya tələb etməyən ənənəvi fəaliyyətlərdənsə, ünsiyyətə əsaslanan, orijinal, məntiqi və mənalı kommunikasiya yaradan və motivasiya edici tələbə yönümlü kompyuter vasitəsilə fəaliyyətlər təşkil etsələr daha uğurlu olarlar. Bütün müəllimlər öz fəaliyyətində internetdən istifadə etməklə onun faydalarını görə bilərlər. Burada cəld praktik fəaliyyətlər, tapşırıqlar və layihələr var.

Təbii ki, internet heç bir müəllimi əvəz edə bilməsədə, lakin o sinifi son dərəcə materiallarla zənginləşdirir və sizin dil tədrisinə necə yanaşmağınızdan asılı olmayaraq ondan istifadə səmərə verir. İnternet kommunikasiya vasitəsi olduğundan kommunikativ və tapşırıq yönümlü öyrənməyə daha çox uyğun gəlir. Kompyuterdən istifadə edən müəllimlərin sinifdə rolunun dəyişilməsi qaçınılmazdır, lakin bundan narahatlıq keçirtmək lazım deyil. Bu zaman siz həm müəllim, həm köməkçi, həm də internet bələdçisi ola bilərsiniz. [3, 59]

ƏDƏBIYYAT

1. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. ARTPİ-nin elmi əsərləri, 2006.
2. Xudiyeva V. M. İngilis dilinin tədrisində müasir texnologiyalardan istifadə Bakı, 2017.
3. Bates, A.E., Technology, open learning, and distance education. London : Routledge. 1995.
4. Teeler D. With Gray P. How to use the internet in ELT, England: Pearson Education Limited, 2000.
5. Warschauer M., Shetzer H., Meloni C. Internet for English Teaching. Washington: United States Departament of State, 2003.
6. Девтерова З.Р. Современные подходы к организации и управлению дистанционным обучением // Гуманизация образования. № 1, 2010.
7. https://muallim.edu.az/
8. https://pressklub.az/

ILAHA MAMMADOVA

ROLE OF DISTANCE EDUCATION IN LEARNING FOREIGN LANGUAGES

SUMMARY

The article examines the role of distance education in teaching foreign languages. Almost all spheres of life of a modern person have changed significantly under the influence of computer and information technologies. The sphere of education is no exception, since the informatization of the educational process is one of the most important mechanisms affecting the main directions of modernization of the entire educational system.

As a result, along with the traditional forms of education, a new form of education has appeared - distance learning, based on modern information and communication technologies, which allows not only learning, but also improving the qualifications of its users. Distance learning is the result of the evolution of traditional education, which has led to the emergence of an electronic board and computer learning systems, which contain electronic textbooks and programs designed for using a virtual classroom. In turn, the virtual lecture course allows you to shorten or lengthen the training time at your discretion. In the modern world, "distance learning" is possible wherever there is a computer.

And the material is easy to structure in accordance with the requirements that are put forward to the students. The student himself can study at any time convenient for him, depending on individual needs. In the article, the author grouped the features of distance learning, revealed the essence of distance education and noted a number of principles.

Ключевые слова: distance education, teaching methods, telecommunication synchronous, asynchronous, interactivity.

ИЛАХА МАМЕДОВА

РОЛЬ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ В ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ

РЕЗЮМЕ

В статье рассматривается роль дистанционного образования в обучении иностранным языкам. Практически все сферы жизни современного человека существенно изменились под влиянием компьютерных и информационных технологий.

Сфера образования не стала исключением, поскольку информатизация образовательного процесса - это один из важнейших механизмов, затрагивающий основные направления модернизации всей образовательной системы. Вследствие этого наряду с традиционными формами образования появилась новая форма обучения - дистанционная, основанная на современных информационных и коммуникационных технологиях, позволяющая не только учиться, а и повышать квалификационный уровень ее пользователей. Дистанционная форма обучения является результатом эволюции традиционного образования, что привело к появлению электронной доски и компьютерных учебных систем, которые содержат в себе электронные учебники и программы, предназначенные для пользования виртуальной аудиторией. В свою очередь, виртуальный курс лекций разрешает сократить или удлинить время обучения по своему усмотрению.

В современном мире «обучение на расстоянии» возможно в любом месте, где есть компьютер. А материал легко структурировать в соответствие с

требованиями, которые выдвигаются к студентам. Сам же студент может заниматься в любое удобное для него время в зависимости от индивидуальных потребностей. В статье автор сгруппировал особенности дистанционного обучения, раскрыл сущность дистанционного образования и отметил ряд принципов.

Key words: дистанционное образование, методы обучения, телекоммуникация, синхронный, асинхронный, интерактивность.

Redaksiyaya daxil olma tarixi: 26.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya elmləri, professor Çingiz Qaraşarlı**
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏLİYEVA RƏNA MİRZƏBABA QIZI
alieva_rena@hotmail.com
Azərbaycan Dillər Universiteti
Bakı şəhəri, R.Behbudov küç, 2

İSPAN DİLİNDƏKİ *DİOS* "TANRI" KOMPONENTLİ DİNİ FRAZEOLOGİZMLƏRİN FRAZEOSEMANTİK METOD ÜZRƏ TƏHLİLİ

Xülasə

İSPAN DİLİNDƏKİ *DIOS* "TANRI" KOMPONENTLİ DİNİ FRAZEOLOGİZMLƏRİN FRAZEOSEMANTİK METOD ÜZRƏ TƏHLİLİ

İspan dilindəki dini məzmunlu frazeologizmlərin semantik-komponentar planda təhlilinin ən vacib aspektlərindən biri və qrup ifadələr sırasında danışanın intensiyasını, yəni danışıq aktı zamanı bu və ya digər dini məzmunlu frazeoloji vahidə müraciətini labüd etmiş məramı frazeoloji vahidin linqvopraqmatik və eləcə də koqnitiv xüsusiyyətlərinin adekvatlığının izlənilməsindən ibarətdir. Bu baxımdan, son zamanlarda frazeologiya sahəsindəki tədqiqatlarda geniş yayılmış olan frazeozemantik sahə metodundan istifadə etmək, şübhəsiz ki, məqsədəuyğundur.

Məqalədə müəllif "Dios" (Tanrı) komponentli frazeoloji vahidlərin həm gündəlik həyatda, həm də media diskursunda, habelə dini terminologiyada geniş işləndiyini göstərən çoxsaylı nümunələr gətirmişdir. Həmçinin qeyd olunur ki, eyni frazeosemantik sahəyə aid olan "Dios" (Tanrı) komponentli frazeoloji vahidlər öz aralarında işlənmə intensiyasına görə fərqlənə bilirlər.

"Dios" (Tanrı) komponentli frazeoloji vahidlərin geniş sayı, onların müxtəlif diskurslarda işlənməsi dil daşıyıcılarının dinə olan bağlığını göstərməklə yanaşı, uzun əsrlər boyu bu frazeoloji vahidlərin dilin aktiv lüğət tərkibində yerini qoruyub saxladığına dəlalət edir.

Açar sözlər: *frazeoloji vahid, dini termin, koqnitiv model, media diskursu*

İspan dilindəki dini məzmunlu frazeologizmlərin semantik-komponentar planda təhlilinin ən vacib aspektlərindən biri və qrup ifadələr sırasında danışanın intensiyasını, yəni danışıq aktı zamanı bu və ya digər dini məzmunlu frazeoloji vahidə müraciətini labüd etmiş məramı və həmin mərama uyğun olan frazeoloji vahidin linqvopraqmatik və eləcə də koqnitiv xüsusiyyətlərinin adekvatlığının izlənilməsidir. Bu baxımdan son dövr frazeoloji araşdırmalarda geniş şəkildə tətbiq olunan frazeosemantik sahə metodundan istifadə heç şübhəsiz ki, məqsədəmüvafiq

sayılmalıdır. "Semantik sahənin- leksikanın tədqiqi metodu" aspektində araşdırmış M.A.Çiqaşevanın da qeyd etdiyi kimi, bu metodun tətbiqi semantik iyerarxiyanın müəyyənləşdirilməsini qaçılmaz edir və bir qayda olaraq, semantik əlaqəlilik (məna törəməliliyi) iyerarxiyası ümumidən xüsusiyə görə "sıralanır" [3, s.266-268].

"Dios"- Tanrı komponentli frazeoloji vahidlərin ingilis, rus, tatar və türk dillərindəki analoqlarının frazeosemantik sahə metodu əsasında geniş təhlilini aparmış L.V.Bazarovanın araşdırmasında ortaya qoyduğu yanaşma tədqiqatımızda irəli sürülən problemlər silsiləsini diqqətə alınması baxımından xüsusilə maraq doğurur. Dilçi "*ortaq semantik göstəricilərə xas olan dil vahidlərinin məcmusunun təyin olunması üçün "semantik sahə" anlayışının tətbiqinin özlüyündə konseptin sahə strukturunu da təyin etdiyini*" qeyd edir [2, s.27]. Başqa sözlə desək, ortaq məram, nüvə semantika bu və ya digər anlayış ətrafında frazeologizmlərin birləşməsində, yəni eyni bir semantik sahəyə aid olması həlledici rol oynayır. Analoji vəziyyəti ispan dilində "Qiymətləndirmə- Ölçü vahidi- Müqayisə parametri" anlayışına daxil olan "Dios" (Tanrı) komponentli ifadələrin nümunəsində də izləyə bilərik. Məsələn, "*Como Dios manda"* "Tanrı əmr etdiyi kimi", "*Como Dios quiere"* "Tanrı istədiyi kimi", "Allah Kərimdir", *"Como Dios quiera"* "Allaha pənah", "Tanrının əlindədir" ifadələrin hərəkətin icrasının keyfiyyətə görə qiymətləndiriməsini müəyyənləşdirən mikrosahəyə daxil olduğu halda, "*de Dios*" "çox, bol şəkildə, çox sayda" [10] frazeologizmi hərəkətin, fəaliyyətin intensivliyinə işarə edir.

Nümunələrə diqqət edək: *Es como Dios quiere, no como tú digas. Es como Dios ordena, no como tú mandas. Es a la manera de Dios, no como tú quieras. Mejor ríndete. No ganarás. Lo que Dios quiera,*

Como Dios quiera,

Y cuando Dios quiera [16].

Göründüyü kimi, "Como Dios quiera" ifadəsilə yanaşı, eyni frazeosemantik sahəyə daxil edilə biləcək "Que Dios quiera" frazeologizmi də yüksək işlənmə tezliyilə seçilir.

Hoy me voy a enamorar, no me importa que me duela
Haremos una locura la noche entera
Que pase lo que vaya a pasar
Que sea lo que Dios quiera
Si el amor es con dolor, entonces que nos duela [18].

Onu da qeyd edək ki, istənilən digər növ metaforik əsaslı qiymətləndirmə semantikasını ifadə edən frazeologizmlərdən fərqli olaraq, burada implikasiya zəncirinin paralelliyi izlənilmir. Yəni, Tanrının iradəsi və gücü qarşısından ancaq iyerarxik münasibətlər və deməli şaquli bənzətmə və əlaqələndirmələr mümkün olduğundan, heç bir paralel müqayisədən söhbət getmir. "Dios" (Tanrı) mütləq iradə və güc təcəssümü kimi bu və ya digər fəaliyyətin, hərəkətin icrası, hadisənin baş tutması üçün qərar mənbəyi olaraq nəzərdən keçirilir. Bu səbəbdən də, "Dios"

(Tanrı) müdaxiləsi hərəkətin icra keyfiyyətinin ölçü vahidi kimi nəzərdə tutulur: *Las nubes con el viento/ La flor en la pradera/ El ave a su nido/ El mar junto a la arena/ Como Dios Manda/ El hielo con el frío/ Es lo que yo deseo/ Estar siempre a tu lado/ Vivir siempre contigo* [8]. Tanrı həmçinin hərəkət və ya fəaliyyətin nəticəsinin qiymətləndirilməsində də ölçü vahidi kimi nəzərdən keçirilir. "*Dios me haga bien con esto",* yəni "Bu elə mənim bəsimdir", "Mənə elə bu da bəsdir"; "*Ser una cosa para alabar a Dios: es para alabar a Dios"* 1) əla, bundan da yaxşı ola bilməz, yüksək səviyyədə; 2) çox, bol, boğazınacan bol; "*Dios y su madre", yəni* "çox, gözü doyana qədər, xirtdəyinə qədər dolu" və s. Sonuncu nümunələr habelə fəaliyyət və ya hərəkət (habelə onların nəticəsinin) intensivliyinin qiymətləndirilməsinə də xidmət edir.

Haşiyəyə çıxıb bir məqama xüsusilə diqqət yetirmək istərdik ki, ispan dilindəki "Dios" komponentli frazeologizmlərdə təkcə qohum Hind-Avropa dilləri üçün deyil, ümumiyyətlə İbrahimi dinlərə etiqad edən əksər xalqların dilləri üçün keçərli olan hazır koqnitiv modelin geniş işləklik qazanması müşahidə edilməkdədir. Məhz elə "ley de Dios" (Allah qanunu), "dedo de Dios" (Allahın əli), "día de Dios" (Allahın günü), "temor de Dios" (Allah qorxusu), "varón de Dios" (Tanrı bəndəsi) və s. bu kimi "Dios" komponentli dini frazeologizmlərin semantik-komponentar təhlili burada labüd qanunauyğunluğu təsbit etməyə imkan verir. Qeyd edilən frazeologizmlər eyni struktura malik olmaqla yanaşı, eyni teonim komponenti əsasında formalaşmışlar. Semantik struktur ortaqlığı müəyyən koqnitiv modelin eyniyyətindən bəhs etməyə imkan verir.

Məlum olduğu kimi, frazeoloji, o cümlədən parameoloji semantikanı formalaşdıran mədəni-praqmatik amillər sırasında: (1) koqnitiv funksiya, (2) praqmatik funksiya, (3) frazeoloji vahidi törəyən koqnitiv model fərqləndirilir [4, s.14]. Həmin hazır koqnitiv modellər sırasında dünyada baş verən hər bir şeydən xəbərdar olan Tanrının həm ölçü vahidi, həm də qiymətləndirmə oriyentiri kimi nəzərdən keçirilməsini mümkün edən "Allahın (Tanrının) + (bu və ya digər anlayış)" koqnitiv modeli (məsələn, Allahın qulu, Allah adamı və s.) diqqəti xüsusilə cəlb edir. Müqayisə üçün deyək ki, N.Ç.Vəliyevanın azərbaycanca-rusca-ingiliscə frazeoloji lüğətində təqdim edilmiş materiallardan da aydın olduğu kimi, eyni koqnitiv model hər üç adı çəkilən dildə çoxsayda müvafiq semantik strukturlu frazeoloji vahidlərin meydana çıxmasına rəvac vermişdir. Məsələn, *Allahın bəlası- God's punishment- кара божья/ божье наказание, Allahın dilsiz heyvanı* (meek creature/ pure as a lamb- божья коровка); *Allahın fağır quzusu- агнец божий/тише воды, ниже травы (робкий, скромный, незаметный)*; *Allahın gici- олух царя небесного; Allahın heyvanı;Allahın dilsiz heyvanı; Allahın var günü/ Allahın verən günü, Allahın verdiyi(ndən)- to eat what God has sent- чем бог послал / чем господь послал; Allahın verən günü (hər gün)- every blessed day- каждый божий день* və s. [1, s.80].

Heç şübhəsiz ki, bu kimi ifadələrin İbrahimi dinlərə etiqad edən xalqların dillərində geniş çeşiddə və ən fərqli diskurslara tətbiqən işlədilməsi həmin etnoslarda Tanrının mütləq güc, mənəvi dəyərlər sistemi üçün aparıcı oriyentir olmasından qaynaqlanır. (1) Allahın mərhəməti, Allahın gücü, Allahın məhkəməsi, Allahın qəzəbi kimi anlayışlar təkallahlıq doqmalarının əsasında formalaşan əxlaqi-etik prioritetlər sisteminin metaforik səciyyələndirməsinə xidmət edir, (2) Allah adamı, Allahın (hər) günü, Allah payı, Tanrı neməti və s. bu kimi inanclar isə təkallahlıqla bağlı inancların işlək formatda izahını əks etdirir. Bu əsasda demək olar ki, İbrahimi dinlərə etiqad edən əksər xalqların dillərində olduğu kimi, ispan dilində də "Dios" komponentli və məlum koqnitiv modelli həmin qrup ifadələr həm dini doqmaları əks etdirən teoloji anlayış-frazeologizmləri, həm də ümumişlək xarakter kəsb edən frazeoloji vahidləri ehtiva edir.

I. Birincilərin sırasına "Cordero de Dios" (Allahın fağır quzusu), "Siervo de Dios" (Tanrının qulu), "Siervo de los siervos de Dios" (Roma Papasına verilən titul "Tanrının qullarının qulu), juicio de Dios (İlahi hökm), ley de Dios (Tanrı qanunu) frazeologizmlərini;
II. İkincilər sırasına isə "varón de Dios" (Allah bəndəsi), "día de Dios" (Allahın günü), "brazo de Dios" (Allahın əli) frazeologizmlərini aid etmək olar.

1. *Cordero de Dios, siervo de Dios, Cordero de Dios, siervo de los siervos de Dios, juicio de Dios, ley de Dios* tipli frazeoloji vahidlərlə bağlı maraq doğuran məqam onların bilavasitə dini məzmunlu frazeologizm olmaqla yanaşı, eyni zamanda dini anlayış ifadə edən və teoloji mətnlərdə yüksək işlənmə tezliyilə seçilən dini terminologiyanı təcəssüm etdirmələridir. Məsələn, "*tribunal de Dios// tribunal de Cristo"* variantlarında təzahür tapan "Tanrının məhkəməsi" (İlahi məhkəmə) frazeologizmi bilavasitə "İncil" mətnlərində əksini tapan dini doqmalara istinad etməklə yanaşı, müasir katolisizmdə dini istilah statusu kəsb edir. "İncil"də ("Əhli-Cədid") "Həvari Pavelin Korinflilərə yazdığı ikinci məktub"da oxuyuruq: *Porque todos nosotros debemos comparecer ante el tribunal de Cristo, para que cada uno sea recompensado por sus hechos estando en el cuerpo, de acuerdo con lo que hizo, sea bueno o sea malo*. (2 Corintios 5:10) [9].

Həmin termin-frazeologizmin həm dini məzmunlu araşdırmalarda (məsələn, *Muchos creyentes creen que perderán su salvación por tener esta misma confusión, otros esperan con temor el tribunal de Cristo porque creen que serán castigados asignando atributos del infierno a ese momento de encuentro personal con Cristo*. [20]), həm də bədii və media diskursunda (məsələn, *De los últimos secretos de vaticano a los prisioneros de Guantánamo, pasando por las listas de libros prohibidos y los juicios en la Nueva España, el tribunal de Dios examina cómo la concentración del poder por parte de quienes se autonombran "justos" ha sido una de las piedras angulares de la civilización occidental* [21, s.47]) geniş şəkildə işləndiyini müşahidə edirik. "Dios" komponentinə malik məlum koqnitiv modelli

frazeologizmlərin sözünü etdiyimiz qrupun özü də yekcinslikdən uzaqdır. Məhz burada bilavasitə "İncil"dən və ya digər dini mətnlərdən qaynaqlanan və daha sonrakı katolisizm dövrünə təsadüf edən dini anlayışları əks etdirən frazeologizmlər fərqlənləndirilməlidir. Məsələn, *"Temor de Dios"* "Allah qorxusu" frazeologizmi "Əhdi-Ətiq"in psalomlar hissəsində (Libro de los Salmos) oxuyuruq:

25:12 *¿Hay alguien que teme al Señor?*

Él le indicará el camino que debe elegir: (Salmo 25:12) [25].

Bu əsasda formalaşmış "Temor de Dios" anlayışı möminlik göstəricisi kimi qəbul edilir və istər dini mətnlərdə termin kimi, istərsə də media diskursunda dini məzmunlu frazeologizm kimi yüksək işlənmə tezliyi nümayiş etdirir. *El concepto del "Temor de Dios" puede sonar contradictorio con la idea de un Dios amoroso y misericordioso* [15]. "Tanrı qanunu" anlayışını əks etdirən "*ley de Dios"* (məsələn, *La ley de Dios, tal como está contenida en la Biblia, es el medio principal por el cual Dios revela que el pecado es pecado y el pecador es un pecador, y esta revelación es el propósito principal de la ley* [13], habelə (məsələn, *También es importante comprender que el juicio de Dios es un proceso en el cual Él nos observa mientras crecemos en madurez, entendimiento y servicio a través del tiempo* [12] frazeologizmlərini də belə geniş işlənmə sahəsinə malik frazeologizm- dini terminlər kimi səciyyələndirmək olar. "Juicio de Dios" ifadəsinə gəlincə, qeyd edək ki, bu frazeologizm də bilavasitə "İncil" mətninə istinadən formalaşmışdır. *2 Más sabemos que el juicio de Dios contra los que practican tales cosas es según verdad* (Romanos 2:2) [24].

2. Xristianlığın sonrakı mərhələsində formalaşmış və ya sabitləşməsi sonrakı mərhələyə təsadüf edən dini frazeologizm-(dini) terminlər: Bu sırada "siervo de los siervos de Dios" ifadəsini qeyd etmək olar.

El Papa, sea quien fuera, es en sí mismo testimonio de este acto de amor; reconocemos esta forma de servicio cristiano en el título que hemos utilizado para referirnos al Papa a lo largo de 1500 años: Siervo de los siervos de Dios. Para el *Papa Francisco, Siervo de los siervos de Dios no es simplemente un título*... [26].

Mətn nümunəsindən də aydın şəkildə göründüyü kimi, tərcüməsi "Tanrının qullarının qulu" olan həmin frazeoloji vahid ispanların aid olduğu xristian təriqəti-katolikliyin dini liderinin həmin dini mühit üçün statusunu təyin edir. Məlumdur ki, bu frazeoloji vahidin latın dilindəki variantı katolisizm termini kimi Roma Papasının rəsmi möhüründə (episcopus, servus servorum Dei) öz əksini tapmışdır [5]. O da məlumdur ki, ilk dəfə bu ifadədən 590-604-cü illərdə Roma Papası vəzifəsini icra etmiş Papa Qriqorio (Papa Gregorio) istifadə etsə də [23], həmin ifadənin də semantik özülü "İncil" mətnlərinə gedib çıxır. Müqəddəs kitabda deyilir:

25 Entonces Jesús, llamándolos, dijo: Sabéis que los gobernantes de las naciones se enseñorean de ellas, y los que son grandes ejercen sobre ellas potestad.

26 Más entre vosotros no será así, sino que el que quiera hacerse grande entre vosotros será vuestro servidor,

27 y el que quiera ser el primero entre vosotros será vuestro siervo; (Mateo 20: 25-27) [19].

Göründüyü kimi, "Tanrının qullarının qulu" olması ideyasının özü "İncil" mətnlərinə gedib çıxsa da, bu ifadə özünün müasir formatında daha sonralar, yəni xristianlığın yaranıb yayılmağa başladığı ilk mərhələdən sonrakı dövrdə qəlibləşmiş və dini termin statusu qazana bilmişdir. Bu sırada diqqəti çəkən bir frazeoloji vahid haqqında daha ətraflı dəyərləndirmə aparmaq ehtiyacı yaranır. Müasir ispan dilində "Siervo de Dios" frazeologizmi həm dini termin, həm də ümumişlək anlamlı ifadə kimi geniş işlənmə tezliyinə malikdir. Rikardo Paulo Xavier "Siervo de Dios" ifadəsinin xristian doqmaları əsasındakı təfsirindən bəhs edərkən mömin xristianın, Tanrıya ibadət edən, qəlbində Tanrı sevgisi yaşadan insanın idealistik obrazını işarələdiyini vurğulamışdır [17]. Eyni zamanda həmin ifadə ruhanilərin, yəni bilavasitə "Tanrıya xidmət edənlərin" səciyyəndirilməsi üçün də istifadə edildiyi bildirilir [7]. Məsələn, *A la par del término "siervo de Dios" Pablo se considera "apóstol de Jesucristo", es decir un enviado, un emisario, un delegado oficial encargado de una misión* [6]. Bu məna semantikasının, yəni dinə xidmət edən şəxs anlamını verən terminoloji semantikanın hələ "Əhdi-Cədid"də əks olunduğunu da görürük: *Y así nos respondieron, diciendo: "Somos los siervos del Dios del cielo y de la tierra, y estamos reedificando el templo que fue construido hace muchos años, el cual un gran rey de Israel edificó y terminó*. (Esdras 5:11) [27]. Həmçinin xristianlığın katolisizm təriqətində "Siervo de Dios" (Tanrı qulu) titulu müqəddəsləşmə mərhələsinə uca hesab edilən insanların terminoloji cəhətdən fərqləndirilməsi üçün də istifadə olunmaqdadır. *El catolicismo, por ejemplo, nombra como siervo de Dios al sujeto que inicia su camino a su posible beatificación y luego, a la canonización* [22].

Məlum olur ki, katolik təriqətində "Siervo de Dios" frazeologizmi özünün bu məna kontekstində ("Siervo de los siervos de Dios" frazeologizmində müşahidə edildiyi kimi) rəsmi dini termin statusunda, konkret olaraq dini titul ranqında təsbit edilmişdir. *Siervo de los siervos de Dios (en* latín*, Servus servorum Dei) es uno de los títulos* papales *y se usa al comienzo de las bulas papales* [28].

Təhlillərimiz həmin frazeoloji vahidin həm dini diskurs və teoloji araşdırma mətnlərində (məsələn, *A través de las Escrituras vemos que los autores del Nuevo Testamento usan frases para referirse a ellos como "siervo de Dios", "siervo del Señor" y "siervo de Jesucristo" alternativamente* [17], həm də gündəlik danışıq dili və media diskursunda yüksək işlənmə tezliyilə seçildiyini söyləməyə imkan verir. Məsələn, *El amor del siervo de Dios debe ser INCONDICIONAL, de la misma manera que Cristo nos ama* [14, s.5]. Onu da qeyd edək ki, məhz sonuncu anlamda, yəni ümumişlək semantikada "siervo de Dios" frazeologizminin "siervo de Cristo" variantı da işlədilməkdədir. *El siervo de Cristo está muy ocupado en su trabajo, y no tiene tiempo para comparar, criticar o competir con otros siervos* [11].

Araşdırmamızdan da aydın göründüyü kimi, “Dios” (Tanrı) komponentli frazeoloji vahidlər müxtəlif diskurlarda istifadə olunmaqla yanaşı, bir çox dini terminlərin formalaşması zamanı əvəzolunmaz bir tərkib hissə kimi çıxış edir. Bu, ispan dilli xalqların dinə olan bağlığından irəli gəlməklə yanaşı, neçə əsrlər boyu dilin işlək lüğət bazasında öz yerini qorumağı bacarmışdır.

ƏDƏBIYYAT SIYAHISI:

1. Hacıyeva, Ə. Müxtəlifsistemli dillərdə somatik frazeoloji birləşmələr / Hacıyeva Ə.- Bakı: Nurlan, - 2007.- 347 s.
2. Базарова, Л.В. Конструктивный анализ фразеосемантических полей на материале фразеологических единиц, репрезентирующих концепт «Бог», в английском, русском, татарском и турецком языках // Челябинск: Вестник ЧГУ, - 2011. № 20 (235), - с. 25–31. URL: http://www.lib.csu.ru/vch/235/005.pdf
3. Чигашева, М.А. Семантическое поле как метод изучения лексики // Проблемы прикладной лингвистики: Сборник материалов Всероссийского семинара / Под редакцией канд. филол. наук. А.П. Тимониной, - Пенза: - 2002. - с. 266-268.
4. Семененко, Н. Н. Когнитивно-прагматическая парадигма паремической семантики (на материале русского языка): / автореферат *диссертации* кандидата *доктора филологических наук /* - Белград, 2011. - 46 с.
5. Цыпин, В. А. Источники права Католической Церкви / В. А. Цыпин. – Москва: *Круглый стол по религиозному образованию в Рус. Правосл. церкви, - 1994.* URL: http://www.sedmitza.ru/lib/text/432377/
6. Carmona, O. El verdadero Siervo de Dios y Apóstol de Cristo Jesús URL: http://es.catholic.net/op/articulos/19516/cat/674/el-verdadero-siervo- de- dios
7. Carrillo M. R. Pastor de Centro Rey. Los siervos de Dios URL: http://www.centrorey.org/temas8.html
8. Como Dios Manda URL: http://www.musica.com/letras.asp?letra=2240723
9. Corintios 5:10 URL: http://bibliaparalela.com/2_corinthians/5-10.htm
10. Dios // Diccionario de Real Academia Española URL: https://dle.rae. es/dios?m=form
11. Discipulado del Ministerio de alabanza y adoración. Murcia. – 2017, 25 septiembre. URL: https://es.slideshare.net/marcosenri queramoscho quegonza/discipulado-alabanza-yadoracion
12. El juicio de Dios: en qué consiste realmente URL: http://vidaesperanzayverdad.org/profecia/apocalipsis/el-juicio-de-dios/
13. El propósito de la Ley de Dios

URL: http://www.iglesiareformada.com/Boice2.4.pdf
14. El siervo de Dios / Citas bíblicas tomadas de la versión Reina Valera / Sociedades Bíblicas de América Latina, - 1960. - 9 p. URL: http://obrerofiel.s3.amazonaws.com/liderazgo%20espiritual/el%20siervo%20de%20Dios.pdf
15. El Temor de Dios // Estudios Bíblicos. - 2015, 15 junio
URL: http://conociendoadiosporsupalabra.blogspot.com/2015/06/que- para-un-no-creyente-eltemor-de-dios.html
16. Frases célebres de Santa Maravillas de Jesús
URL: http://webcatolicodejavier.org/marafrases.html
17. Javier, R. P. ¿Qué significa ser un siervo de Dios? // Doctrinas Cristianas, Teoligía, - Julio 19, 2009
URL:https://lasteologias.wordpress.com/2009/07/15/%C2%BFque- significa-ser-un-siervo-de-dios/
18. Lo Que Dios Quiera
URL: http://www.musica.com/letras.asp?letra=2234183
19. Mateo 20
URL: https://www.biblegateway.com/passage/?search=Mateo+20&version
20. Matienzo, M. J. El Tribunal de Cristo
URL: https://www.iglesia.net/index.php/estudios-biblicos/leer/el- tribunal-de-cristo/
21. Murphy, C. El Tribunal de Dios / C. Murphy. - México: Océano, 2014. - 320 p.
22. Pérez, P. J. Definición de siervo / Merino M. - 2014
URL: http://definicion.de/siervo/
23. Por qué el Papa firma "siervo de los siervos de Dios"
URL: http://www.curistoria.com/2012/01/por-que-el-papa-firma-siervo-de-los.html
24. Romanos 2 URL: https://www.biblegateway.com/passage/?search=Romanos+2&version=RVR1960
25. Salmo
URL:http://www.vicariadepastoral.org.mx/sagrada_escritura/biblia/antiguo_testamento/39_salmos_03.htm
26. Siervo de los siervos de Dios.
URL:http://adw.org/wp- content/uploads/2014/02/13PapacyPopeFrancisServant-esp.pdf
27. Siervos del Señor.
URL: https://bible.knowing-jesus.com/Espa%C3%B1al/topics/Siervos-Del-Se%C3%B1o
28. Siervo de los siervos de Dios
URL: https://es.wikipedia.org/wiki/Siervo_de_los_siervos_de_Dios

Алиева Рена Мирзабаба гызы

ФРАЗЕОСЕМАНТИЧЕСКИЙ АНАЛИЗ РЕЛИГИОЗНЫХ ФРАЗЕОЛОГИЗМОВ С КОМПОНЕНТОМ DIOS «БОГ» В ИСПАНСКОМ ЯЗЫКЕ.

Резюме

Одним из важнейших аспектов семантико-компонентного анализа религиозных фразеологизмов в испанском языке является интенсивность говорящего в группе выражений, т.е. цель, которая требует использования фразеологизма религиозного содержания во время речевого акта заключается в отслеживании адекватности лингвопрагматических, а также когнитивных характеристик фразеологизма. С этой точки зрения является несомненно целесообразным использование метода фразеосемантического поля, получившего широкое распространение в последних исследованиях фразеологии.

В статье автор приводит достаточное количество примеров широкого использования фразеологических единиц религиозного содержания с компонентом “Dios” (Бог) как в повседневной жизни, так и в медиа дискурсе, включая религиозную терминологию. Также отмечается что, некоторые фразеологизмы с компонентом “Dios” (Бог) отличаются тем что, даже те фразеологические единицы, которые входят в одно фразеологическое семантическое поле, могут различаться частотой использования.

Огромное число фразеологических единиц с компонентом “Dios” (Бог), их использование в различных дискурсах, является показателем тесной связи народа с религией и самое главное то что, на протяжении веков эти фразеологические единицы сохранили своё место в активном словарном запасе языка.

Ключевые слова: *фразеологическая единица, религиозный термин, когнитивная модель, медиа дискурс*

Aliyeva Rena Mirzababa

PHRASEOSEMANTIC ANALYSIS OF RELIGIOUS PHRASEOLOGIES WITH DIOS "GOD" COMPONENT IN SPANISH

Summary

One of the most important aspects of the semantic-component analysis of religious phraseological units in Spanish is the intensity of the speaker in a group of expressions, that is the goal that requires the use of phraseological unit of religious content during a speech act is to track the adequacy of the linguo-pragmatic, as well as cognitive characteristics of the phraseological unit. From this point of view, it is undoubtedly advisable to use the method of phraseosemantic field, which has become widespread in recent studies of phraseology.

In the article, the author gives a sufficient number of examples of the widespread use of phraseological units of religious content with the component "Dios" (God) both in everyday life and in media discourse, including religious terminology. It is also noted that some phraseological units with the "Dios" component (God) differ in that even those phraseological units that are included in one phraseological semantic field may vary in frequency of use.

A huge number of phraseological units with the component "Dios" (God), their use in various discourses, is an indicator of the close connection of the people with religion, and most importantly, over the centuries these phraseological units have retained their place in the active vocabulary of the language.

Key words: *phraseological unit, religious term, cognitive model, media discourse*

Redaksiyaya daxil olma tarixi: 28.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Fil.f.d., prof.əvəzi. İbrahim Ülfət Zakir oğlu**
tərəfindən çapa tövsiyə olunmuşdur

:

HACIYEVA RƏSMİYƏ SƏYAF QIZI
Bakı Dövlət Universiteti,
filologiya üzrə fəlsəfə doktoru

ƏBDÜRRƏHİM BƏY HAQVERDIYEV MILLI ANA DILIMIZIN TƏƏSSÜBKEŞLƏRİNDƏN BİRİ KİMİ

XÜLASƏ

Məqalədə Ə.Haqverdiyevin ədəbiyyatımızdakı xidmətlərindən bəhs edilir. Göstərilir ki, XIX əsrin ikinci yarısında Avropa və Rusiyada baş vermiş Milli Azadlıq hərəkatları Azərbaycana da öz təsirini göstərib. Milli mədəniyyət , milli təfəkkürümüzün inkişafında o dövrün bir çox ziyalıları iştirak edirdilər. Elmi, həmçinin bədii əsərləri ilə ədəbi dilimizi inkişaf etdirən ziyalılarımızdan biri də Ə.Haqverdiyev idi. XIX əsr Azərbaycan milli ədəbiyyatının inkişafında Ə.Haqverdiyevin xidmətləri danılmazdır. Ədib Rusiyada yaşadığı dövrdə və sonralar bir sıra dram əsərləri yazmış və tamaşaya qoymuşdur.Onun tərcüməçilik fəaliyyəti də təqdirəlayiqdir.

Ə.Haqverdiyevin millətimiz qarşisindakı ən böyük xidməti ana dilimizi inkişaf etdirməsi, onun saflığının qurunmasına çalışmasıdır.Yazıçı bədii əsərlərində Azərbaycan dilinin frazeologizmlərindən yerli-yerində istifadə etmişdir. Bununla da əsərlərinin dilinin daha cazibəli , daha oxunaqlı olmasına nail olmuşdur.Ədib dilimizin leksik-semantik , dil üslub, qrammatik qanunlarının qurunmasına çalışmışdır. Elmi əsərlərində dilimizin genefondunun qorunmasını tövsiyyə etmişdir .Dilimizə həsr etdiyi məqalələrdə osmanlı türkcəsi, fars, rus dilindən yersiz istifadəni tənqid edirdi.

Ə.Haqverdiyev Azərbaycanda ərəb əlifbasının dəyişdirilməsinin tərəfdarlarından biri kimi də tanınınr. O, M.F.Axundovun yeni əlifba yaratmaq istəyini alqışlamışdır.Ədibin əlifbamız haqqındakı mülahizələri “Mirzə Fətəli və ərəb əlifbası” adlı məqaləsində öz əksini tapmışdır.

Ə.Haqverdiyevin tədqiqat obyektlərindən biri də Azərbaycan dilinin tarixi qaynaqları idi.O, Orxon-Yenisey , uyğur abidələri haqda elmi araşdırmalar aparıb.Bu tədqiqatlar öz əksini “ Böyük islahatlar” adlı məqaləsində tapıb.Məqalədə ədib türk dillərinin qrammatik quruluşu və tarixi haqda məlumatlar vermişdir.

Ə.Haqverdiyev milli ədəbi dilimizin inkişafında bədii ədəbiyyat və mətbuatın rolunu yüksək qiymətləndirmişdir.O, Azərbaycanda ədəbi dilin inkişafını alqışlamışdır.

Açar sözlər: Əbdürrəhim bəy Haqverdiyev, Azərbaycan dili, nəsr, dramaturgiya, bədii əsər, elmi məqalə.

Hələ XVIII əsrin ortalarında Qərbi Avropada milli burjuaziyanın və kapitalizmin formalaşması prosesi geniş vüsət almağa başladı. Bütün bunlar Avropa xalqlarının bir-birindən ayrılaraq müstəqil bir xalq kimi özünü dərk etməsinə və ayrıca olaraq özlərinin milli incəsənət, mədəniyyət, ədəbiyyat, dil və tarixlərinin formalaşdırmasına səbəb oldu. Bu işdə Avropa XVIII əsr Fransa və Avropa maarifçillərinin xüsusi xidmətləri olmuşdur. Məhz onların verdiyi milli-ideoloji proqram əsasında meydana gələn Böyük Fransa burjua inqilabı nəticəsində o dövrə qədər özlərini hələ də ümumxristiyan cəmiyyətinin və mədəniyyətinin tərkib hissəsi kimi dərk edən avropalılar artıq ayrı-ayrı dövlətlər şəklində yalnız öz sərhədləri çərçivəsində milli hüquq və azadlıqlarını müəyyənləşdirdilər.

Bu işdə Napaleon Bonopartın işğalçı kapitalist yürüşləri də az rol oynamadı. Napoleonun bir-birinin ardınca Almaniya, İtaliya, İspaniya, Avstriya, Danimarka, İsveç, Norveçi işğal etməsi, İngiltərə və Rusiyaya qoşun çəkərək bu ölkələri də tarixdən silinmək təhlükəsi ilə üz-üzə qoyması Avropa xalqlarının milli heysiyyat və özünümüdafiə hisslərinin güclənməsinə səbəb oldu (5).

Məhz bu dövrdən etibarən Avropa xalqları özlərinin milli tarixi – qəhrəmanlıq keçmişlərini, folklorunu, ədəbiyyatlarını, ədəbi dillərini bərpa etməyə başladılar. Bu proses XIX əsrin II yarısından etibarən daha intensiv şəkil alaraq tədricən Rusiyaya və Rusiya vasitəsilə də Azərbaycan ərazisinə yayılmağa başladı.

Bu xüsusda Azərbaycan ziyalılarının da böyük xidmətləri olmuşdu. Rusiyanın Sankt-Peterburq, Moskva və digər mərkəzi vilayətlərinin nüfuzlu universitetlərində müxtəlif ixtisas və peşələr üzrə yüksək ali təhsil alan və bir neçə qabaqcıl Şərq və Avropa dillərini, o cümlədən, türk, ərəb, fars, rus, alman, fransız, ingilis və s. dillərini dərindən və mükəmməl surətdə mənimsəyən və çarizmin milli əsarətindən xalqımızı xilas etməyə can atan Azərbaycan ziyalıları müstəqilliyə gedən yolun məhz milli özünüdərkdən, elmin, maarifin, mədəniyyətin, mətbuatın, ədəbiyyatın, milli ana dilimizin, əlifbamızın formalaşdırılmasından keçdiyini çox gözəl dərk edirdilər. Bu cür ziyalılardan Mirzə Fətəli Axundzadənin, Abbasqulu Ağa Bakıxanovun, Həsən bəy Zərdabinin, Cəlil Məmmədquluzadənin, Cəlal əfəndi Ünsizadənin, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Nəriman Nərimanovun, Nəcəf bəy Vəzirovun, Məhəmməd Tağı Sidqinin, Məhəmməd Ağa Şahtaxtlının, Əbdürrəhim bəy Haqverdiyevin, Yusif Vəzir Çəmənzəminlinin, Mirzə Ələkbər Sabirin, Abbas Səhhətin, Abdulla Şaiqin, Ömər Faiq Nemanzadənin və sairənin adlarını xüsusi qeyd etmək lazımdır. Bu ziyalılar həm elmi məqalələri, həm də bədi əsərləri vasitəsilə milli ədəbi dilimizin, əlifbamızın və bədii təfəkkürümüzün inkişafına çalışırdılar. Bu ziyalılardan biri, bəlkə də birincisi Əbdürrəhim bəy Haqverdiyev (1870-1933) idi.

Əbdürrəhim bəy Haqverdiyev 17 may 1870-ci ildə Şuşa qəzasının Ağbulaq kəndində qəza rəisinin katibi Əsəd bəyin ailəsində dünyaya göz açmışdır. Atasını çox erkən, üç yaşında olarkən itirən Əbdürrəhim bir müddət əmisi Əbdülkərimin himayəsində qalır. Anası ikinci dəfə ərə getdikdən sonra Əbdürrəhim bəy

Haqverdiyev atalığı H.Sadıqbəyovun himayəsində böyüyüb boya-başa çatır. Atalığının istəyi ilə Əbdürrəhim bəy 1880-cı ildə Şuşada Yusif bəyin müvəqqəti yay məktəbində rus dilini və ədəbiyyatını dərindən öyrənir (1, s. 6).

1890-cı ildə Şuşa realni gimnaziyasının altıncı sinfini bitirib Tiflis realni gimnaziyasının sonuncu sinfinə daxil olan Əbdürrəhim bəy Haqverdiyev 1891-ci ildə buranı bitirərək ali təhsil almaq niyyəti ilə Sankt-Peterbuqa gələrək burada Yol Mühəndisləri İnstitutuna qəbul olunur. Peterburqda olduğu səkkiz il müddətində tez-tez Aleksandriysk teatrında baxdığı tamaşalar onda teatr və dramaturgiyaya böyük həvəs oyadır. Məhz bu dövrdə yazıçı "Yeyərsən qaz ətini, görərsən ləzzətini" və "Dağılan tifaq" əsərlərini yazır. 1899-cu ildə Peterburqdan vətəni Şuşaya dönən yazıçı burada qaldığı iki il müddətində "Bəxtsiz cavan" əsərini yazaraq tamaşaya qoyur.

1901-ci ildə Şuşadan Bakıya köçən yazıçı "Pəri cadu" əsərini yazaraq tamaşaya qoyur. Bakıda olduğu müddətdə dövrünün H.Zərdabi, N.Vəzirov, N.Nərimanov, C.Zeynalov, H.Ərəblinski kimi qabaqcıl insanları ilə tanış olan Əbdürrəhim bəy Haqverdiyev burada rejissorluq edərək Azərbaycan teatr sənətinin inkişaf etməsində yaxından iştirak etmişdir. Burada yazıçı həmçinin "Molla Nəsrəddin" jurnalı ilə yaxından əməkdaşlıq etmiş, "Həkimi-nuni-səğir", "Mozalan", "Ceyranəli", "Lağlağı", "Xortdan", "Süpürgəsaqqal" imzaları ilə "Cəhənnəm məktubları", "Mozalan bəyin səyahətnaməsi", "Marallarım" adlı əsərlərini çap etdirir. Bu dövrdə yazıçı həmçinin "Millət dostları", "Ağa Məhəmməd şah Qacar", "Ac həriflər" əsərlərini yazır.

Yazıçı müxtəlif vaxtlarda fəal iştirak etdiyi ictimai işlərlə əlaqədar olaraq Ağdam, Tiflis, Borçalı, İran, Peterburq və s. yerlərdə yaşamış, on il ərzində Bakı Dövlət Universitetində Azərbaycan ədəbiyyatı fənnindən dərs deyərək Şərq fakültəsinin katibi olmuş və "Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti"nin sədr müavini və sonra sədri olmuş, o cümlədən, 1924-cü ildə Rusiya Elmlər Akademiyasının ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdir (1).

Yazıçının "Qırmızı qarı", "Ədalət qapıları", "Ağac kölgəsində", "Köhnə dudman", "Qadınlar bayramı", "Kamran", "Sağsağan", "Yoldaş Koroğlu", "Çox gözəl", "Ağa Məhəmməd şah Qacar", "Yeyərsən qaz ətini, görəsən ləzzətini", "Dağılan tifaq", "Baba yurdunda", "Vaveyla", "Bəxtsiz cavan" və "Röya", "Həmşəri pasportu" və s. kimi müxtəlif hekayələri vardır (6).

Əbdürrəhim bəy Haqverdiyev bədii əsərlər yazmaqdan başqa tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, M.Qorkinin "İzergil qarı", A.P.Çexovun "Dəhşətli gecə" adlı hekayə və novellalar kitabını, Şekspirin "Hamlet", Şillerin "Qaçaqlar", Volterin "Soltan Osman", Zolyanın "Qazmaçılar", Andersenin "Bülbül", "Şahın təzə libası", Lanskoyun "Qəzəvat", Çirikovun "Yəhudilər", Korolenkonun "Qoca zəng çalan" əsərlərini dilimizə tərcümə etmişdir. Bu böyük yazıçı 11 dekabr 1933-cü ildə Bakıda vəfat etmişdir (7).

Yazıçı bütün əsərlərində Azərbaycan dilinin frazeoloji, leksik, semantik, qramatik, dil-üslub xüsusiyyətlərinin gözlənilməsi və inkişaf etdirilməsi məsələlərinə xüsusi diqqət yetirmişdir. Yazıçı bədii əsərlərində Azərbaycan dilinin üslubi imkanlarından məharətlə yararlanmış, yeri gəldikcə atalar sözləri, məsəllər, idiomlardan istifadə edərək əsərlərinin daha oxunaqlı, daha ifadəli olmasına nail olmuşdur. Məsələn, "Mal yiiyəsinə oxşamasa haramdır" (1, s. 54); "Başına gələn başmaqçı olar" (2, s. 192); "El ağzı, çuval ağzı" (1, s. 55); "Durub iki şahıdan ötrü bir də dükançı ilə çənə - boğaza çıxmayaram ki" (1, s. 251); "Gülçöhrə həmçinin analığının əlindən təngə gəlib deyirdi (1, s. 309), "Yıxılan ağaca balta vuran çox olar"(2.s.187)

Yazıçı özünün həm bədii əsərlərində, həm də elmi məqalələrində dilimizin leksik tərkibinin öz doğma sözlərimiz vasitəsilə zənginləşdirilməsinə çalışmış, dilimizdə ərəb, fars, türk, rus, ingilis, fransız və s. sözlərin yersiz işlədilməsi və bununla da dilimizin genefondunun dəyişdirilməsinə qarşı kəskin şəkildə etiraz etmişdir.

Əbdürrəhim bəy Haqverdiyev dilin milli inkişaf qanunauyğunluqlarını dərindən dərk etmiş və ədəbi dilimizin mükəmmələşdirilməsi istiqamətində meydana çıxan nöqsanların aradan qaldırılmasına çalışmışdır. Yazıçı ümumxalq danışıq dilinin linqvistik, leksik, qrammatik, fonetik, semantik və ədəbi-bədii imkanlarına mükəmməl bələd olmuş, əsərlərində dilimizin zəngin lüğət tərkibinin geniş imkanlarından yararlanmışdır. Yaradıcılığa demokratik yazıçı kimi başlayan yazıçı bütün əsərlərində ümumxalq mövqeyindən və mənafeyindən çıxış etmişdir (6).

Ə.Haqverdiyev bəzi ədiblərin öz əsərlərində dilimizdə qarşılığı olan fars, rus, osmanlı türkcəsi leksemlərindən istifadə etməsindən narahat olurdu. O, ədəbi dildə olan bu halları qüsur kimi qəbul edir və mükəmməl, saf bir milli dil yaratmaq istəyirdi. Belə ki, ədib fars dilinin təsiri ilə türk sözlərinin ədəbi dilimizdə fars istilahları ilə ifadə edilməsindən, cümlələrin fars dilinin qramatik quruluşunda olmasından narahat olur və bu tip cümlələri tənqid edirdi. Məsələn, "Mən sənin evinə gəlmərəm, çünki səndən incimişəm"; "Hərgah mənə kağız yazmaq istəsən, bu ünvana yaz" və s. (4, s. 376).

XIX əsrdə Şimali Azərbaycanın Rusiyanın təkibinə qatılmasından sonra bir sıra Azərbaycan ziyalıları Rusiyanın Moskva, Sankt-Peterburq kimi elm, mədəniyyət mərkəzlərində təhsil almağa başladılar. Həmin dövrdə ədəbiyyatla məşğul olan ziyalılarımızın əsərlərində rus ədəbiyyatının, rus dilinin təsiri özünü göstərməyə başladı. Ə.Haqverdiyev də yazıçılarımızın yeri gəldi – gəlmədi rus dilinin qrammatik quruluşuna uyğun cümlələr işlətməsini yersiz hesab edir və ədəbi dilimiz haqda yazdığı məqalələrdə dilimizdə olan bu vəziyyəti tənqid edirdi Məs., "O adamlar, hansılar ki, bu işdə iştirak edirlər", "Mənim qardaşım tarda yaxşı oynayır", "Əhmədin bacısı ərə çıxdı" kimi cümlələrin dilimizin qrammatik quruluşuna uyğun olmadığını göstərirdi.

Ə.Haqverdiyev Azərbaycan dilində osmanlı türkcəsinə məxsus sözlərin yersiz işlədilməsinə də irad tutur. Əlibəy Hüseynzadə, Əhməd Kamal kimi şəxslərin yazılarında bu tip qüsurların olmasını göstərirdi. Ə.Haqverdiyev "Ədəbi dilimiz haqqında" adlı məqaləsində bu məsələyə də diqqət çəkir: "Gənclərimiz özləri hiss etməyərək Azərbaycan qulağını deşən ləfzləri istemal edirlər. Bu sözlər türk sözləri isə də bizim üçün yabancıdır və əvəzlərində başqa türk sözlərimiz də var. Məsələn, "sırt" – çiyin, "erkək" – kişi. "Ərkək" sözü Azərbaycan türkü təsəvvüründə heyvaniyyəti təşkil edən bir sözdür (4, s. 378).

Ə.Haqverdiyev əsərlərinin mövzusunu həmişə sadə xalq həyatından götürmüş və bu əsərləri sadə xalq dilində yazmışdır. Yazıçı o dövrdə bir növ dəb halını alan əcnəbi söz və ifadələrdən yeri gəldi-gəlmədi istifadə etmək dalınca qaçmamış, bacardıqca öz yaradıcılığında xəlqiliyi qoruyub saxlamağa çalışmışdır. Bu baxımdan Qəzənfər Kazımovun Əbdürrəhim bəy Haqverdiyev haqqında vurğuladığı fikirlər mühüm əhəmiyyət kəsb edir: "O heç vaxt öz yazılarını mövcud mətbuatın dilinə uyğunlaşdırmağa çalışmamış, əksinə, mətbuat dilini öz üslubuna uyğunlaşdırmağa cəhd etmişdir. Ədibin orijinal bədii dili və üslubu var idi. Bu üslubun başlıca cəhəti, dediyimiz kimi, canlı dilə son dərəcə yaxınlıq idi. Bu cəhət güclü olduğundan, hətta bəzən, Cəlil Məmməədquluzadə kimi, onun da əsərlərində sadəlik, "adilik", müəyyən mənada şiveçilik özünü göstərirdi. Bunun nəticəsidir ki, bəzi mütərəqqi ziyalılar da Ə.Haqverdiyevi düzgün başa düşməyərək, onun bədii dilindən narazı qaldıqlarını bildirmişlər" (8, s. 54-81).

Yazıçının Azərbaycan əlifbasının təkmilləşdirilməsi uğrunda apardığı yorulmaz mübarizəni də qeyd etmək lazımdır. Yazıçı özünün "Böyük islahat", o cümlədən "Mirzə Fətəli və ərəb əlifbası" əsərlərində türklərin tarixən müxtəlif əlifbalardan istifadə etdiyini qeyd etmişdir. O vaxtilə ərəb əlifbası əsasında hazırlanan əlifbanın dilimizin qramatik quruluşuna uyğun olmadığını vurğulamış, bu sahədə M.F.Axundzadənin yeni əlifba yaratmaq cəhdlərini alqışlamışdır: "Ərəb əlifbasının türk və fars dillərinə uyğun olmaması hamıya aydındır. Həmçinin bu əlifbanın öyrənilməsi, onunla yazmaq və xüsusən bu əlifba ilə yazılmış kitabları oxumaq nəinki uşaqlar, hətta savadlı şəxslərin çoxları üçün də bir çətin məsələdir. Buna da ən böyük səbəb saitlərin yazılmamasıdır. Çünki saitləri əvəz etmək üçün sözlərin altında və üstündə qoyulan işarələr olmadıqda bu əlifba ilə yazılmış mətnləri oxumaq daha da çətinləşir, təkcə kitab sözü hər birinin ayrıca mənası olan aşağıdakı formalarda oxunur: kataba, kutiba, katbun, katbin, katbu, katbi, katba, kutab, kuttabun. Ərəb əlifbasının bu çətinliklərini nəzərə alaraq, onun islahına çalışanlar çox olmuşdur, lakin bunlardan fərqli olaraq, M.F.Axundov kimi cəsur adamlar ruhanilərin və fanatik kütlələrin lənətlərindən qorxmayaraq Avropa əlifbaları tipli yazı təklif edirdilər. Mirzə Fətəli əslində soldan sağa yazılan əlifbanın – Avropa əlifbaları tipində əlifbanın tərəfdarı idi, lakin dinin və fanatizmin hökm sürdüyü bir mühitdə birdən – birə belə bir təklif mümkün deyildi, çünki, soldan sağa yazmaq təklifinə avam kütlə müsəlman dininin əsasını pozmaq kimi baxa bilərdi" (4, s. 363.).

Ədib bu məqalələrində Azərbaycan ədəbi dilinin tərəqqisində bədii ədəbiyyatın və mətbuatın rolunu yüksək qiymətləndirmiş, əlifba, orfoqrafiya, terminologiya məsələlərindən geniş bəhs edərək ədəbi dilimizin inkişafına mane olan bəzi nöqsan və çatışmazlıqları da qeyd etmişdir. Yazıçı burada həmçinin ədəbiyyatımızın o dövrki inkişaf yolunu və ədəbiyyatımızın ədəbi dilimizin inkişafına təsir imkanlarını da geniş və hərtərəfli təhlil və tədqiq etməyə çalışmışdır.

Çünki yazıçı ədəbi dilimizin inkişaf etməsi, zənginləşməsi və mükəmməlləşməsi baxımından bədii ədəbiyyatımızın əvəzedilməz rola və imkanlara malik olduğiunu çox gözəl dərk edirdi. Ə.Haqverdiyev Azərbaycan ədəbi dilinin inkişaf etməsində poeziyamızın rolunu bilavasitə inkar etməsə də, ədəbi dilimizlə ümumxalq danışıq dili arasındakl uçurumun aradan qaldırılmasında nəsr və dram əsərlərinin poeziya və şeirə nisbətən daha çox imkanlara malik olduğuna dərindən inanırdı. Ona görə də o, əsas diqqətini poeziyaya deyil, nəsr və dram əsərlərinə yönəldərək öz əsərləri vasitəsi ilə həm xalqımızın maariflənməsinə, savadlanmasına, tərbiyələnməsinə, həm də ədəbi dilimizin öz yerli sözlərimiz, dialekt və şivələrimizin hesabına formalaşıb nizamlanmasına çalışırdı. Qeyd edək ki, bu tendensiyaya təkcə Ə.Haqverdiyevin baxışlarında deyil, M.F.Axundovdan sonra Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov və başqalarında rast gəlinirdi (5, s.114).

Dilimizə əcnəbi dillərin təsir etməsinə qarşı təxminən otuz ildən çox bir müddətə mübarizə aparan, ədəbi dilimizin inkişafına və tərəqqisinə çalışan Əbdürrəhim bəy Haqverdiyev Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ölkədə geniş vüsət alan əhalinin kütləvi savadlanması prosesində yaxından iştirak etmişdir. Yazıçı həm də öz yeni əsərlərində ədəbi dil normalarına daha çox riayət etməyə çalışır, əvvəlki əsərlərini də yenidən ədəbi dil normalarına uyğun şəkildə çap etdirir, ədəbi dilimizi nəzəri cəhətdən mənimsəməyə çalışaraq dilimizin bəzi mübahisəli məsələlərinə dair elmi məqalələr də yazırdı. Yazıçı Azərbaycan, rus, türk, fransız, ərəb, fars, erməni, tacik, özbək, türkmən və tatar dillərini də çox gözəl bilirdi (7, s.136).

Ə.Haqverdiyev türk dillərinin mənşəyi və qədim türk dilləri, Orxon-Yenisey və uyğur yazılı abidələri haqqında da dəyərli elmi tədqiqatlar aparmışdır. Bunu onun "Böyük islahat" məqaləsindən də aydın şəkildə görmək olar. Ədib bu məqalədə Orxon-Yenisey və uyğur yazılı abidələrinin məzmunu və tarixi haqqında konkret məlumatlar verərək bu yazılı abidələri türk xalqının Böyük Göytürk hökmdarı Bilgə xanın ölümünə qədərki tarixi hesab edir. Yazıçının burada türk runik yazıları barədə ötəri də olsa dəqiq məlumatlar verməsi, bu abidələrin mətnindən misallar gətirərək tərcümə və şərhlər verməsi bir daha onun türk dillərinin qədim yazılı abidələri və inkişaf tarixi haqqında geniş və dəqiq məlumatlara, dərin elmi biliklərə malik olduğunu sübut edir.

Ümumiyyətlə Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan dilinə vətənpərlik və milli təəssübkeşlik mövqeyindən yanaşaraq ona çox böyük önəm vermiş, dilimizin

çox zəngin və qədim bir dil olduğunu, bu dilin əcnəbi dillərdən söz almasına o qədər də ehtiyacının olmadığını söyləmişdir. Azərbaycan xalqı dilimizin və ədəbiyyatımızın indiki inkişaf səviyyəsinə görə Əbdürrəhim bəy Haqverdiyev kimi milli qeyrət sahiblərinə və dəyərli ziyalılarına borcludur.

İstifadə olunmuş ədəbiyyat siyahısı.

1. Ə.Haqverdiyev. Seçilmiş əsərləri, I cild. Bakı, "Azərnəşr", 1956, 490 s.
2. Ə.Haqverdiyev.Seçilmiş əsərləri,2 cilddə,I cild, Bakı, 2005
3. Ə.Haqverdiyev.Seçilmiş əsərləri, 2 cilddə,II cild, Bakı 2005
4. Ə.Haqverdiyev. Mirzə Fətəli Axundovun həyatı və fəaliyyəti. / Seçilmiş əsərləri, 2 cilddə, II cild. Bakı, "Azərnəşr", 1957, 548 s.
5. Əli Sultanlı. Azərbaycan dramaturgiyasının inkişaf tarixindən. Bakı: Azərnəşr, 1964, 300 s.
6. F. Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, "Maarif" nəşriyyatı. 1966. 488 s.
7. K.Məmmədov. Ə.Haqverdiyev. Bakı, "Uşaqgəncnəşr" 1955, 195 s.
8. Q.Ş.Kazımov. Seçilmiş əsərləri, 10 cilddə, I cild, Bakı, "Nurlan", 2008, 560 s.

Hajıyeva Rasmiye Sayaf gızı

ABDURRAHIM BEY HAQVERDIYEV AS ONE OF THE SUPPORTERS OF OUR NATIONAL LANGUAGE

SUMMARY

The article is about Abdurrahim bey Hagverdiyev's serve in our literature.The article is said that the National Liberty actiony which took place in the second half of XIX century in Europe and Russia had been influenced into Azerbaijan too.Many educated people of that time took part in the development of national literature and national thoughts. One of the educated people who took an active part in developing the dramaturgy and national language with his work of arts and scientific work was A.Haqverdiyev.It in impossible to deny A.Haqverdiyev's work in developing national literature of Azerbaijan in XIX century.The writer wrote a number of dramatic work and put them on the stage when he lived in Russia.The writer's translator activity is also well known.

One of A.Haqverdiyev's great server for our nation is that the developed our native language, and defined its transparency.The author used Azerbaijan language phaseology in his work of ats. All of these made his works language more simple, more attractive and readable. The autor tried to define leksiko-semantik, language style, grammatical rules of our language.The writer tried to safe the genofond of our language in his scientific work. He criticized using persian , turkish and russian

expressions in all linguistics articles and literary works.A.Haqverdiyev is also known as one of the supporters to change arabic alphabit in Azerbaijan. He applanded M.F.Akhundov for trying to create the new alphabit. The author's thoughts about our alphabit can be met in his article "Mirza Fatali and arabic alphabit"

The historical sources of Azerbaijan language had been A.Haqverdiyev's critical objects.He also had scientific thoughts about Orkhan-Yenisey , uygur monuments. These researchs can be found in his article "Great reform"s. In his article the author had given concret informations about qrammatic structure and history of turkish languages.

Keywords: Abdurrahim bey Hagverdiyev, Azerbaijani language, prose, dramaturgy, fiction, scientific article.

ГАДЖИЕВА РАСМИЯ САЯФ КЫЗЫ

АБДУРРАХИМ БЕК ХАГВЕРДИЕВ ОДИН ИЗ СТОРОННИКОВ НАШЕГО НАЦИОНАЛЬНОГО ЯЗЫКА

РЕЗЮМЕ

В статье рассказывается о литературной деятельности Абдуррахима бека Хагвердиева по развитию нашего национального языка. Показывается что , во второй половине 19-го века в Азербайджане ,так же как в Европе и России появилось национальное либеральное движение. В развитии национальной культуры и национального языка участвовали многие азербайджанские писатели . Одним из них был Хагвердиев. Он написал много драм, рассказов и научных статей. Услуги Хагвердиева в развитие Азербайджанской литературы неоспоримы. Он написал ряд драм и инсценировал их во время своего проживания в Санкт-Петербурге и после. Нужно так же подчеркнуть его заслуги как переводчика. В своих рассказах и драматических произведениях он сохранял лексико-семантические и грамматические особенности национального литературного языка. В художественных произведениях пользовался фразеологизмами азербайджанского языка. Писатель сохранял лексико- семантические особенности и грамматические формы нашего языка. Научных статьях он критиковал не уместность использование персидских, османско-турецких и русских слов в азербайджанском литературном языке .Хагвердиев был сторонником отмены арабского алфавита в азербайджанском языке. Он поддержал попытки М.Ф. Ахундова создать новый алфавит. Его мысли по этому поводу были изложены в статье «Мирза Фатали и арабский алфавит».

Он, также исследовал происхождения тюркских и древнетюркских языков, Орхоно-Енисейских и уйгурских надписей. Эти научные исследования

он изложил в своей статье «Великая Реформа». Писатель дал конкретные сведения о грамматике и истории тюркских языков.

Хагвердиев был одним из активных участников в развитие литературного языка в Азербайджане. Он высоко ценил роль литературы и прессы в развитии национального литературного языка.

Ключевые слова: Абдуррахим бек Хагвердиев, азербайджанский язык, проза, драматургия, художественная литература, научная статья.

Redaksiyaya daxil olma tarixi: 25.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov**
tərəfindən çapa tövsiyə olunmuşdur

FƏRİDƏ HÜSEYNOVA
Azerbaijan State Oil and Industry University
farida_hus@hotmail.com

SEMANTIC MEANINGS AND BELIEF STATES

Summary

The natural intuition of human beings is very complex. The Information Retrieval and understanding of the semantic meaning requires a clear reasoning of the knowledge of discourse.

The research is concerned with explicit representations of the meanings of utterances. By "explicit representations of meaning" we mean structured variables with a pre-defined interpretation—the kind of thing that semanticists are concerned with.

The word is one of the fundamental units of language. It is a dialectal unity of form and content. Its content or meaning is not identical to notion, but it may reflect human notion, but it may reflect human notion and is considered as the form of their existence. So, the definition of a word is one of the most difficult in linguistics, because the simplest word has many different aspects.

The term semantics is often defined as the study of meaning. It might be more accurate to define it as the study of the relationship between linguistic form and meaning. This relationship is clearly rule-governed, just as other aspects of linguistic structure are. When we study semantics, we are trying to understand this shared system of rules that allows hearers to correctly interpret what speakers intend to communicate. The study of meaning in human language is often partitioned into two major divisions, and in this context the term semantics is used to refer to one of these divisions. In this narrower sense, semantics is concerned with the inherent meaning of words and sentences as linguistic expressions.

Key words: Semantic meaning, belief states, logical form, structure, approach

For a long time, meaning representations were central to successful efforts aimed at linking language to other tasks involving reasoning, perception, and action (a line of work that runs in modern semantic problems. Structured meaning representations were also central to unsuccessful work on translation, syntax, etc. This work uses lots of different representation formalisms—proper logical forms, combinatory logics, other non-logical structures —but if you squint, they're all basically predicate-argument structures implementing a model-theoretic semantics, with perhaps a few free parameters in the bodies of the predicates.

These kinds of approaches seem to be disappearing. Now that everything is end-to-end all the time, it's rare to see models with explicit latent variables taking values in hand-designed logical languages. Utterances come into our models, behaviors come out, and we don't worry too much about the structure of the computation that gets performed in the middle. Besides, there are hyponymy, homonymy, polysemy, synonymy, antonymy and metonymy are different types of lexical relations.

There are still certain kinds of generalization and inductive bias we used to get for free with the old models that we haven't totally figured out how to recreate. The success of hybrid approaches like structured regularizes and our \work suggests we'll get there eventually. This is, with some qualifications, a good thing: in more formal approaches, tight coupling between the machine learning and the representation means that there's always a risk that some new semantic phenomenon shows up in the data and suddenly your model is useless. Sufficiently generic machinery for learning (non-logical) representations makes this a little less scary.

But the attitude of the end-to-end world seems to be that since we're no longer doing logical inference, there is no need to think about meaning at all. Suddenly everyone loves to cite Wittgenstein to argue that we should be evaluating "language understanding" in terms of success on downstream tasks rather than predicting the right logical forms —which is great! - but underlying this seems to be a philosophy that "meaning is use, so if we can predict use with high accuracy, we've understood everything we need to about meaning". In this post I want to motivate the use of explicit representations of belief states of the form world state utterance *as* representations of meaning suitable for "unstructured" machine learning models. These kinds of representations arise naturally in the sorts of decision-making tasks the community is excited about these days, but they also look a lot like classical representational theories in linguistics. The synthesis suggests ways of both training and interpreting language processing models.

Consider the problem of trying to act in a partially observed world where people talk to you in order to help reduce your uncertainty. How should you choose the best possible action to take? Given a single utterance as; *very happy* can be replaced *by thrilled, very tasty-delicious, very fast-quick, very pretty-gorgeous, very calm-tranquil* as they can reveal all possible true states of the meanings of words.

Any listener who hopes to succeed in the world needs to do a good job of at least approximately solving this optimization problem, and in practice the listener will probably need to represent the distribution at least implicitly. In a *belief state*; for it's a function that maps from possible worlds to scalar plausibility judgments—how likely is it that is the true world given that we observed someone saying about it.

Compare this to the notion of an *intension* in Montague semantics: "a function from possible worlds and moments of time to truth values". Most (model-theoretic) semantics programs represent intensions using logical expressions (rather

than e.g., tabular). But a logical form is just one way of expressing a function of the right type; at the end of the day, an "explicit representation of meaning" to the Montagovian tradition is precisely an intension—that is, something that looks like a discretized version.

A belief state is an intension with probabilities. Intentional representations of meaning are useful not just because they help us solve linguistic problems, but also because they approximate a quantity that we know helps language users *do* useful things with the information they've acquired from language. From the other side, what the POMDP tells us we have to understand the meaning upon hearing an utterance is approximately the thing linguists have been telling us to compute all along. Or almost the thing linguists have been telling us about—what would be even better than a black box for answering the queries would be something with a little structure, maybe some kind of factorized representation that let us find the MBR action efficiently by making it possible to inspect the set of properties that all plausible worlds have in common. Perhaps a product of assertions about individuals, their properties, and their relations, etc. If logical semantics didn't exist, we would have had to invent it.

The semantic "meaning" should be precisely understood as a *listener meaning*: an accurate belief state already accounts for Gricean speaker-meaning-type effects (e.g., implicatures) and also further inferences the speaker may *not* have wanted the listener to draw (e.g. the possibility that ww is a lie). Our story here doesn't care where meaning comes from, so it might be vague via something like RSA with a distinct notion of sentence meaning embedded inside.

One last adjustment: real-world listeners don't start with a *tabula rasa*: every utterance is interpreted in the context of an existing belief state p(x)p(x), and we really want to think of the meaning of a sentence as an *update function*;

Practical implications

All very nice, but we led by noting that explicit denotational meaning representations (logical, probabilistic, or otherwise) don't actually show up in the kinds of models that work well in practice. So why does any of this matter?

For language understanding systems to work well, they must be choosing something close to the min Bayes risk action. Hand-wavingly: a suffix of a deep network is a function from input representations to output actions via a fixed circuit; if this suffix can pick a good action for every input representation it's implementing something like an MBR decoding algorithm (though perhaps approximate and specialized to the empirical distribution over representations); whatever representation of language-in-context is presented to this part of the network must then be sufficient to solve the optimization problem.

This is not a great argument: there may in fact be no clear distinction between the "sentence representation" and "optimization" parts of the model. But in practice we do see meaning-like sentence representations emerge (especially in models where

the sentence representation is computed *independent* of whatever initial information the listener has about the state of the world. When using specialized optimization modules within larger networks we can be sure of the distinction.

In any case, the knowledge that some intermediate representation in our model is (or should be) decodable into a distribution over world states gives us two tools:

Interpretability: test whether representations are capturing the right semantics (or identify. Determine whether this corresponds to the real (i.e., human listener's) denotation. We got a bunch of mileage out of this technique in our neuralese papers and other students in the group have been using it recently to analyze pretraining schemes for instruction-following models. But in some ways it's even more natural to apply it to the learning of representations of natural language itself rather than a learned space of messages / abstract actions.

Auxiliary objectives: the normal objective for an instruction following problem is (action | utterance, listener obs)p(action | utterance, listenerobs). But if overfitting is an issue, it's easy enough to tack on an extra term of the form p(speaker obs, listener obs | utterance)p(speaker obs, listener obs | utterance) if it's available. For some problems (e.g. GeoQuery-style semantic parsing) there isn't a meaningful distinction between "speaker observation" and "action"; for others it looks like a totally different learning problem. For referring expression games the denotational auxiliary problem is "generate / retrieve pairs of images for which this would be a discriminative caption"; for instruction following models it's "generate the goal state (but not necessarily the actions that get me there)".

In my view, while dynamic semantics has produced highly informative and unique insights about language, of great relevance to any program for linguistic semantics, it is still properly Platonic. This is so for two reasons. The first reason is conceptual in nature, and the less philosophically inclined reader is welcome to skip it: most dynamic semantics are still ultimately concerned with truth in a classical sense.

Conclusion

Thinking about POMDP-style solutions to language games results in an account of meaning that looks suspiciously like model-theoretic semantics. This analogy provides tools for interpreting learned models and suggests auxiliary objectives for improving their accuracy.

Reference

1. Levinas, E. 1979. Totality and Infinity: An Essay on Exteriority. Dordrecht: Kluwer Academic Publishers. Løgstrup, K. E. 1997. The Ethical Demand. Notre Dame, Indiana: University of Notre Dame Press. Mistzal, B. 2011. Hill, New York. ITIM International retrieved on May 24, 2011 from http://www.geert-hofstede.com/
2. E. McLaughlin, American International Journal of Research in Humanities, Arts and Social Sciences, 2(2), March-May, 2013, pp. 85-91 AIJRHASS 13-141; © 2013, AIJRHASS All Rights Reserved Page 88
3. J. Kacprzyk, S. Zadrozny, Comprehensiveness and interpretability of linguistic data summaries: A natural language focused perspective, in: Proc. of IEEE SSCI CIHLI'13, 2013, pp. 33–40.
4. L. Danlos, F. Meunier, V. Combet, EasyText: An operational NLG System, in: Proc. of ENLG'11, 2011, pp.139–144.
5. G. Moyse, M.-J. Lesot, B. Bouchon-Meunier, Mathematical morphology tools to evaluate periodic linguistic summaries, in: Proc. of FQAS'13, 2013, pp. 257–268.
6. L. Danlos, F. Meunier, V. Combet, EasyText: An operational NLG System, in: Proc. of ENLG'11, 2011, pp. 139–144.

F.Ə. HÜSEYNOVA

SEMANTİK MƏNA VƏ İNANC VƏZİYYƏTLƏRİ

XÜLASƏ

İnsanların təbii intuisiyası çox mürəkkəbdir. İnformasiya axtarışı və semantik mənanın başa düşülməsi diskurs biliklərinin aydın əsaslandırılmasını tələb edir.

Tədqiqat ifadələrin mənalarını açıq şəkildə göstərməklə bağlıdır. "Mənanın açıq şəkildə təqdim olunması" dedikdə, əvvəlcədən müəyyən edilmiş təfsiri olan strukturlaşdırılmış dəyişənlər nəzərdə tutulur - semantistlərin maraqlandığı dəyişənlər. Söz dilin təməl vahidlərindən biridir. Forma və məzmunun dialektal birliyidir. Məzmunu və ya mənası anlayışla eyni deyil, ancaq insan anlayışını əks etdirə bilər, və onların mövcudluğunun forması kimi qəbul edilir. Beləliklə, bir sözün tərifi dilçilikdə çətindir, çünki ən sadə söz çox fərqli cəhətlərə malikdir.

Semantika termini çox vaxt məna öyrənmə kimi müəyyən edilir. Dil forması ilə məna arasındakı əlaqənin tədqiqi olaraq təyin etmək daha doğru ola bilər. Bu münasibət linqvistik quruluşun digər aspektləri olduğu kimi açıq şəkildə idarə olunur. Semantikanı öyrəndikdə, danışanın ünsiyyət qurmaq istədiyini düzgün yozmasına imkan verən qaydalar sistemini anlamağa çalışırıq. İnsan dilində məna öyrənilməsi çox vaxt iki böyük bölgüyə bölünür və bu kontekstdə semantik termini bu bölgülərdən birinə istinad etmək üçün istifadə olunur. Bu mənada semantika dil ifadələri kimi söz və cümlələrin əsas mənası ilə maraqlanır.

Açar sözlər: Semantik məna, inanc vəziyyətləri, məntiqi forma, quruluş, yanaşma

Ф.А.ГУСЕЙНОВА

СЕМАНТИЧЕСКИЕ СМЫСЛЫ

РЕЗЮМЕ

Естественная интуиция человека очень сложна. Информационный поиск и понимание семантического значения требует ясного рассуждения знания дискурса.

Исследование связано с явным отображением значений высказываний. Под «явным представлением смысла» мы подразумеваем структурированные переменные с заранее определенной интерпретацией - то, чем занимаются семантики.

Слово - одна из основных единиц языка. Это диалектное единство формы и содержания. Его содержание или значение не идентичны понятию, но они могут отражать человеческие представления, но могут отражать человеческие представления и рассматриваться как форма их существования. Итак, определение слова - одно из самых сложных в лингвистике, потому что у самого простого слова много разных аспектов.

Термин «семантика» часто определяется как изучение смысла. Было бы правильнее определить его как изучение отношений между языковой формой и значением. Эти отношения явно регулируются правилами, как и другие аспекты языковой структуры. Когда мы изучаем семантику, мы пытаемся понять эту общую систему правил, которая позволяет слушателям правильно интерпретировать то, что говорящие намереваются сообщить. Изучение значения человеческого языка часто делится на два основных раздела, и в этом контексте термин семантика используется для обозначения одного из этих разделов. В этом более узком смысле семантика связана с внутренним значением слов и предложений как лингвистических выражений.

Ключевые слова: семантическое значение, состояния убеждений, логическая форма, структура, подход.

Redaksiyaya daxil olma tarixi: 28.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Məsimova**
tərəfindən çapa tövsiyə olunmuşdur

LEYLA RZAYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Ağcabədi filialı
leyla.rzayeva@agcebedi.adpu.edu.az

HIGHLIGHTS OF THE LIFE AND WORK OF JAMES FENIMORE COOPER

Summary

In the war for independence, the masses showed great heroism, and the victory gained thanks to them was used by large land and industrial owners for their own interests. The American bourgeois revolution did not solve the land and piracy issues as those who joined the struggle wished. Ordinary Americans waiting for freedom, equality, and land were deceived.

This was one of the reasons for American romanticism. Indeed, the works of the first romantics, such as Washington Irving and Fenimore Cooper, reflected the injustice and cruelty of capitalist rule, and the plight of those who were dissatisfied with the attempts of large industrialists, financiers, and planters to plunder the people. It is no coincidence that the protagonists of Cooper's enlightenment novels moved away from "cultural centers" and settled in the romantic worlds - on the western borders of America, in the lands of Europeans and Indians, trying to reconcile the natives with aliens and create a united America.

The war for national independence (1776-1783), a turning point in British colonialism in the New World, resulted in the creation of a large state on the continent - the United States. Although he was born six years later, war was the leading theme in Cooper's work, and for good reason. The Cooper family could not forget the war years for many years.

Keywords: independence, war, heroism, victory, American bourgeois revolution, freedom, equality, Americans, romance, Fenimore Cooper, laws of capitalism

James Fenimore Cooper was born on September 15, 1789, in Burlington, New Jersey, to a wealthy family. Although his father, William Cooper, was a large landowner, he served as a court judge for a long time, valuing literature and art.

That is why the city where he lived (Cooperstown) was later named after him. He often invited writers and poets to his house. The guests' conversations about literature have aroused James's interest in writing since childhood. James received his primary education at a public village school called the Academy.

To continue his education, his parents sent him to Albany, the capital of New York State. Here he studied Latin, memorized the poems of the ancient Roman poet

Virgil, and read a lot. James reads novels by American and British writers, and is interested in plays and poems. He even studies economics, philosophy, agriculture, and the history of religion. In 1803 he entered James Yale College.

Although much younger than his fellow students, he was far superior to them in knowledge. He missed it here, often breaking the rules of the college and being whimsical. That's why he is expelled from school. The father taught his son at home for a while, but he was not interested in reading.

His son's behavior worries his father, who sends him on a merchant ship to Europe as an ordinary sailor. After serving on this ship for a year, James "comes to his senses," becomes disciplined, and becomes proficient in the art of heavy navigation. He then served on military ships for a bit of a period. He is told to stay on the shore for a while and gather sailors for the guard ship. It was then, in 1810, that James met the beautiful eighteen-year-old Susan Delancy, and they married in 1811.

Having inherited enough from his father, C.F. Cooper gave up the seafaring profession and later decided to live in the village and engage in farming. At first, they lived in a village called Mamorenek, which was inherited by Susan and lived near New York, and then they soon considered moving to Cooperstown. Cooper bought a plot of land on the west shore of Lake Ostego, where he built a large stone house for a time and engaged in agriculture.

James, who leased part of his land, traded his money and decided to get involved in politics. He was very confident in his talent and ability and thought that he would soon be able to occupy an important place in the political life of the country. But one coincidence disrupts all his plans and turns his life in a completely different direction. Cooper, who read one of the most popular European novels of the time, boasted that he could write a better work. Susan and her cousin make fun of her and make fun of her.

Disillusioned, Cooper decides to write a novel and prove that he is not talking nonsense, and thus a significant event occurs in his life, as well as in the life of the whole of America. He began his writing career and became known as one of the luminaries of world literature.

The war for national independence (1776-1783), a turning point in British colonialism in the New World, resulted in the creation of a large state on the continent - the United States. Although he was born six years later, war was the leading theme in Cooper's work, and for good reason. The Cooper family could not forget the war years for many years. Relatives and acquaintances (many of whom had served in the war) often gathered in the living room of the mansion to talk about the severe wounds inflicted on American soil on bloody days. As a child, Fenimore grew up to be a historian of the war years.

Cooper was one of the most prolific writers of national American literature. Researchers divide his work into three periods: the first period (1821-1826) "Spy", "Losman", "Pioneers", "The Last Mohican"; In the second period (1826-1833)

"Brave", "Heidenmauer", "Executioner"; In the third period (1833-1850) "Home", "At home", "Mohicans", "Lapirchi", "Wild animal hunter" were created.

C.F. Cooper began to write his first novels, first under the influence of short histories and then of Western European writers. Despite the fact that his first novel "Reserve" was not a success, this young writer is not discouraged and is working on a new work, the novel "Spy". According to the author, it should have been a real American novel.

Indeed, until then, works of art in the New World had been written under the influence of European literature, especially English literature, and had very little national character. On the other hand, the American people had not yet been properly formed. Cooper, who understands this very well, is trying to create national American literature.

After the success of The Spy, Cooper became more enthusiastic about writing national American novels and working on Pioneers. For the first time in the pages of this novel appeared the "white man" Nathaniel (Natti) Bampo and his "red-skinned" Indian friends Chingachkuk and his son Unkas, later known as Leather Socks, Wild Hunter, Shahingoz, Long Carbine and Lapirchi.

A year after the publication of the novel "Pioneers", he wrote his first novel on the sea - "Losman". After the publication of Walter Scott's novel "Pirate", C.F. Cooper decided to compete with this famous English historical novelist and wrote this work on the sea.

The subject of the Boston War was also very popular at the time, and Cooper wrote Lionel Lankoli, a novel about the lives of English nobles.

Cooper traveled to Europe in 1826-1833, traveled to France, Italy, and Germany, witnessed the July Revolution of 1830, and wrote a journalistic work, The European Notes of America, after returning home. A trip to Europe changed the writer's outlook and led him to give a correct assessment of American events.

The first of the renowned Leatherstocking Tales, The Pioneers (1823), followed and adhered to the successful formula of The Spy, reproducing its basic thematic conflicts and utilizing family traditions once again. In The Pioneers, however, the traditions were those of William Cooper of Cooperstown, who appears as Judge Temple of Templeton, along with many other lightly disguised inhabitants of James's boyhood village. No known prototype exists, however, for the novel's principal character—the former wilderness scout Natty Bumppo, alias Leatherstocking.

The Leatherstocking of The Pioneers is an aged man, of rough but sterling character, who ineffectually opposes "the march of progress," namely, the agricultural frontier and its chief spokesman, Judge Temple. Fundamentally, the conflict is between rival versions of the American Eden: the "God's Wilderness" of Leatherstocking and the cultivated garden of Judge Temple. Since Cooper himself was deeply attracted to both ideals, he was able to create a powerful and moving

story of frontier life. Indeed, The Pioneers is both the first and finest detailed portrait of frontier life in American literature; it is also the first truly original American novel.

Both Cooper and his public were fascinated by the Leatherstocking character. He was encouraged to write a series of sequels in which the entire life of the frontier scout was gradually unfolded. The Last of the Mohicans (1826) takes the reader back to the French and Indian wars of Natty's middle age, when he is at the height of his powers. That work was succeeded by The Prairie (1827) in which, now very old and philosophical, Leatherstocking dies, facing the westering sun he has so long followed. (The five novels of the series were not written in their narrative order.) Identified from the start with the vanishing wilderness and its natives, Leatherstocking was an unalterably elegiac figure, wifeless and childless, hauntingly loyal to a lost cause. This conception of the character was not fully realized in The Pioneers, however, because Cooper's main concern with depicting frontier life led him to endow Leatherstocking with some comic traits and make his laments, at times, little more than whines or grumbles. But in these sequels Cooper retreated stylistically from a realistic picture of the frontier in order to portray a more idyllic and romantic wilderness; by doing so he could exploit the parallels between the American Indians and the forlorn Celtic heroes of James Macpherson's pseudo-epic Ossian, leaving Leatherstocking intact but slightly idealized and making extensive use of Macpherson's imagery and rhetoric.

Cooper intended to bury Leatherstocking in The Prairie, but many years later he resuscitated the character and portrayed his early maturity in The Pathfinder (1840) and his youth in The Deerslayer (1841). These novels, in which Natty becomes the centre of romantic interest for the first time, carry the idealization process further. In The Pathfinder he is explicitly described as an American Adam, while in The Deerslayer he demonstrates his fitness as a warrior-saint by passing a series of moral trials and revealing a keen, though untutored, aesthetic sensibility.

The "Leatherstocking" tales are Cooper's great imperfect masterpiece, but he continued to write many other volumes of fiction and nonfiction. His fourth novel, The Pilot (1823), inaugurated a series of sea novels, which were at once as popular and influential as the "Leatherstocking" tales. And they were more authentic: such Westerners as General Lewis Cass, governor of Michigan Territory, and Mark Twain might ridicule Cooper's woodcraft, but old salts like Herman Melville and Joseph Conrad rightly admired and learned from his sea stories, in particular The Red Rover (1827) and The Sea Lions (1849). Never before in prose fiction had the sea become not merely a theatre for, but the principal actor in, moral drama that celebrated man's courage and skill at the same time that it revealed him humbled by the forces of God's nature. As developed by Cooper, and later by Melville, the sea novel became a powerful vehicle for spiritual as well as moral exploration. Not satisfied with mere fictional treatment of life at sea, Cooper also

wrote a meticulously researched, highly readable History of the Navy of the United States of America (1839

Cooper has been uncompromising in the face of injustice since childhood. He was saddened by the auction of Indian lands, the impunity of political adventurers, and the cruel treatment of the local population by the colonialists. After his voyage to Europe, he protested more strongly against the injustices of "Cultural America" and in 1835 wrote an allegorical satire entitled The Mohicans. In this original novel, the writer managed to draw the characteristic features of American life with a skillful artist's brush. The author's other novels also exposed the ugliness of social life.

The American "Patriots" who read these works considered themselves insulted and sued Cooper for allegedly slandering society. The Americans could not reconcile with Cooper for a long time. Even after his famous historical novels were published and his fame spread all over the world, he was unjustly attacked by his contemporaries.

On the other side of the Atlantic, in Europe, Cooper was mentioned along with Walter Scott, Balzac, and even Shakespeare, and was reprimanded in his homeland. In the words of the famous American writer German Merville, "his contemporaries could not properly appreciate the work of a simple man, a great man."

Historical themes have fascinated Cooper throughout his career. It is true that his appeal to history was not successful. During his travels in Europe, he followed in the footsteps of the great Scottish writer Walter Scott and wrote the trilogy "The Brave", "Heidenmauer", and "The Executioner", which he took from medieval European life. These works are weakly derived from the author's previous novels.

The main place in Cooper's art is a series of novels about leather socks. Cooper was born to bring the subject of Hindi to great literature. He carefully studied the life and work of the Indians, their beliefs and convictions. Their folklore has been a source of spiritual nourishment for Cooper. The influence of Indian oral folk literature is most evident in the series of novels about leather socks.

Cooper worked on the epic dedicated to Natti Bampo for eighteen years at short intervals.

The series of novels about leather socks includes five works ("Pioneers", "The Last Mohican", "Lapirchi", "Prairie", "Wild Hunter"). They are known in the treasury of world literature as "Pentalology".

The first novel in Pentalology, The Pioneers, takes place in the forgotten town of Templetown. The city embraced families from various European countries. Here, "Wild America" and "Cultural Europe" face each other. The Indians were considered wild and the Europeans considered civilized. It was on the basis of this principle that the white colonists invaded the Indian tribes and sought to uproot them.

Cooper based his events in his novels on Pentalology on this conflict.

Reflecting America's dramatic and tragic era, Cooper sometimes idealizes his heroes, noting that "if Unkas is the last representative of the Mohicans, Bampo is the

last Pioneer." While the writer depicts the adventures of Leather Socks and his loyal friends in romantic colors, he depicts America's colonization in realistic terms.

Cooper based his events in his novels on Pentalology on this conflict. There is a clash between the benevolent Natti Bampo and her old friend, the Indian Chingachkuk, who are greedy people trying to make money day and night. The famous Russian writer Maxim Gorky wrote about the tragic fate and social significance of the image of Natti Bampo, "who won the sympathy of readers everywhere with his pure and correct thoughts and courageous deeds.

He explored the forests and deserts of the New World and built roads for people in those deserts and woods." Later, they convicted Bampo as a criminal because Bampo had violated the laws that served their interests ... He had worked tirelessly all his life to spread culture among savages on a large geographical scale, and finally to live in the conditions created by that culture for the first time. could not own about. "

Nathaniel Bampo embodies such beautiful human qualities as courage, bravery, friendly loyalty, nobility and honesty. He was a man with "a pigeon's heart and a lion's breast" (V. Belinsky). Natti Bampo could not turn a blind eye to the use of force by "business immigrants" against the charming nature and real people of America. In his youth, he too experienced the pain of injustice and was slandered. So he turned away from the city and the people and took refuge in the wilderness.

Natti Bampo is a defender and savior of the oppressed and the destitute. He is the protector and guarantor of the unwritten pure laws of the vast plains. Close friends and supporters of Chingachkuk - the Great Snake, his brave son, the last representative of the Mohican dynasty, Unkas - were also loyal and sincere and followed in the struggle for the goal.

Cooper even calls his protagonist an "extraterrestrial philosopher." But Natti Bampo runs away from people who can't get rid of cruelty, greed and betrayal. Bampo never stays away from his friends, but is ready to die in their way. He will not leave John Mogican and Uncas until the end of his life. As can be seen from the novel Prairie, Natti Bampo is surrounded by Indians and white like-minded people. It is true that at that time there was no one to bear his name because he did not marry. His friends remember him for a long time. They add songs to his name.

At the time of writing this novel, the author himself did not know that the subject of this work would form the basis of his five-novel "Leather Socks" pentology, which he would write in the future. The novel Pioneers, which entered the American and English book markets in 1823, sold out at that moment.

This novel also has a lot of autobiographical elements. Critics say that one of the protagonists, Judge Marmadiyuk Temple, is most likely a prototype of William (Cooper's father). In any case, the writer knew most of the main characters in the novel - the judge and his daughter, Edwards, Sheriff Richard, and servant Benjamin - very well from childhood.

The events of the novel take place in the forgotten city of Templetown.

Along with Nathaniel Bampo, C.F. Cooper, who showed great interest in the life of American Indians, pays special attention to the images of brave, courageous and brave Hindus. Thus, the backwardness of the Hindu world, which is entirely romantic in this work, the war between different Hindu tribes (Delawars, Korans, etc.) and the British and French armies fighting for supremacy in America, and finally. Against the background of all these historical and political events, the lives and adventures of the white Shahingoz (Natti Bampo) and his red-skinned Hindu Chingachkuk, his son Unkas, Colonel Munro, his daughters Alisa and Kora, Major Duncan and a number of other heroes are depicted.

Natti Bampo, along with her brave Mohican friends Chingachkuk and Unkas, rescues the Munro sisters from the captivity of the hostile Koranic Indians (Bic Fox). True, this is when Unkas and Kora die. The author calls Unkas the last mogikan. Because no one will continue the lineage of this tribe. In this novel, the author describes the struggle of the British and French colonists trying to conquer new lands and the adventures of Shahingoz, who personally took part in this struggle, in a special romantic style, but with some realistic descriptions.

The novel also masterfully depicts the life-and-death struggle of various Hindu tribes.

C.F. Cooper introduced the real America to the world with his novel "Spy". As the first examples of American romantic literature emerged, so did the national identity of this literature. Cooper, who, along with N. Hawthorne, W. Irving, E.A. Poe, H. Longfellow, and G. Melville, created American romantic literature, which has a special place and weight in the history of world literature, almost begins with this work.

America is developing, forming a state, strengthening its economy, expanding trade relations, creating a military force and navy. All these processes became the basis for the creation of the novel "Spy".

Some researchers of the author also claimed that this work was somewhat autobiographical. Rather, they believe that some of the protagonists were prototypes of close relatives of his wife, Susan. Indeed, the prototypes of some of the heroes of the work were well known to James from a young age. Some of them were participants in the war for independence. One such hero was John Jay, who once fought in these wars and later resigned and lived on his farm in Vetchesder, near Cooper's estate. Cooper often visited the war hero and listened intently to his conversations about the war and America's political life

After the publication of Walter Scott's novel "Pirate", C.F. Cooper decided to compete with this famous English historical novelist and wrote this work on the sea. Cooper's novel "Losman", which, like the forest world, is well acquainted with the marine world and spent several years of his youth in stormy seas, depicts dramatic

scenes, the hard lives of sailors and colorful images of the sea. This work also attracts attention with the naturalness and reality of the images.

The main participants in the love story in the novel "Losman" are the young captain of the ship "Ariel" Dick Barnstable and Lieutenant Griffith. The protagonist of the novel is Losman Gray, whose life is full of mysteries.

The protagonists of this novel fight to the death against the forces of nature - storms, storms and humans, although this fight is costly to them - an enemy artillery shell kills the captain, many brave sailors are killed, but Barnstable and Griffith survive with their fiancés. - They return home safe and sound.

LITERATURE:

1.Ceyms Fenimor Kuper. “Sonuncu mogikan” /Tərc.: Ə. Zeynalov; Red.: C.Nağıyev (ön sözün müəllifi), S.Mustafayev.- B.: Öndər, 2005
2.Ceyms Fenimor Kuper. “Ləpirçi” /Tərc. Ə. Zeynalov.- Bakı: Şərq-Qərb, 2006
3.Bruce H. American Romanticism. 1997.
4.Alsen E. The new Romanticism: A Collection of Critical Essays. Garland Publishing, New-York, 2000.
5.Yelizarova M.Y., Kolesnikov B.İ. və b. XIX əsr xarici ədəbiyyat tarixi. Bakı, 1964
6.httpps//www.az.wikipedia.org

Leyla Rzayeva

CEYMS FENIMOR KUPERIN HƏYAT VƏ YARADICILIĞININ MÜHÜM MƏQAMLARI

Xülasə

İstiqlaliyyət uğrunda gedən müharibədə xalq kütlələri böyük qəhrəmanlıq göstərmiş, onların sayəsində qazanılan qələbədən isə iri torpaq və sənaye sahibləri öz mənafeləri üçün istifadə etmişdilər. Amerika burjua inqilabı torpaq və quldurluq məsələlərini heç də mübarizəyə qoşulanların arzuladıqları kimi həll edə bilməmişdi. Azadlıq, bərabərlik və torpaq gözləyən sadə amerikalılar aldadılmışdılar.

Amerika romantizmini yaradan səbəblərdən biri bu idi. Doğurdan da, Vaşinqton İrvinq və Fenimor Kuper kimi ilk romantiklərin əsərlərində kapitalist qayda-qanunlarının insafsızlığı və qəddarlığı, iri sənaye sahiblərinin, maliyyəçilərin, plantasiyaçıların xalqı soymağa can atmalarından narazı qalanların əfval-ruhiyyəsi əks olunurdu. Kuperin maarifçilik ideyaları ilə silahlanan romanlarının qəhrəmanları, təsadüfi deyil ki, "mədəni mərkəzlər"-dən uzaqlaşıb romantik aləmlərdə - Amerikanın Qərb sərhədlərində, Avropadan gələnlərin yerləşdiyi ərazilərlə hindi qəbilələrinə məxsus torpaqlarda məskən salır, gəlmələrlə yerliləri barışdırmağa, vahid Amerika yaratmağa çalışırdılar.

"Yeni Dünya"da ingilis müstəmləkəçiliyinin dönüş mərhələsi sayılan milli istiqlaliyyət uğrunda müharibə (1776-1783) qitədə böyük bir dövlətin - Amerika Birləşmiş Ştatlarının yaranması ilə nəticələnmişdir. Bu hadisədən altı il sonra

dünyaya gəlməsinə baxmayaraq, Kuperin yaradıcılığında müharibə ən aparıcı mövzuya çevrilmişdi ki, bu da səbəbsiz deyildi. Kuperlər ailəsi müharibə illərinin xatirəsini uzun illər unuda bilməmişdilər.

Açar sözlər: istiqlaliyyət, müharibə, qəhrəmanlıq, qələbə, Amerika burjua inqilabı, azadlıq, bərabərlik, amerikalılar, romantizm, Fenimor Kuper, kapitalizm qanunları

Лейла Рзаева

ОСНОВНЫЕ МОМЕНТЫ ЖИЗНИ И ТВОРЧЕСТВА ДЖЕЙМСА ФЕНИМОРА КУПЕРА

Резюме

Войне за независимость массы проявили великий героизм, и победа, одержанная благодаря им, была использована крупными землевладельцами и промышленниками в своих интересах. Американская буржуазная революция не решила земельные вопросы и проблемы пиратства, как того желали присоединяющиеся к борьбе. Были обмануты простые американцы, ожидающие свободы, равенства и земли. Это была одна из причин американского романтизма. Действительно, произведения первых романтиков, таких как Вашингтон Ирвинг и Фенимор Купер, отразили несправедливость и жестокость капиталистического правления, а также тяжелое положение тех, кто был недоволен попытками крупных промышленников, финансистов и плантаторов грабить людей. Неслучайно герои просвещенных романов Купера отошли от «культурных центров» и поселились в романтических мирах - на западных границах Америки, на землях европейцев и индейцев, пытаясь примирить иммигрантов и создать единую Америку. Война за национальную независимость (1776-1783 гг.), Поворотный момент в британском колониализме в Новом Свете, привела к созданию на континенте большого государства - Соединенных Штатов. Хотя он родился шесть лет спустя, война была ведущей темой в творчестве Купера, и не зря. Семья Куперов долгие годы не могла забыть военные годы.

Ключевые слова: независимость, война, героизм, победа, американская буржуазная революция, свобода, равенство, американцы, романтика, Фенимор Купер, законы капитализма

Redaksiyaya daxil olma tarixi: 21.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent
Fəridə Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

TƏRLAN ƏLIYEVA
ADPU-nun Ağcabədi
filialının baş müəllimi
terlan.eliyeva@agcebedi.adpu.edu.az

AZƏRBAYCAN DİLİNİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİNİN TARİXİ ASPEKTDƏ ÖYRƏNİLMƏSİNDƏ TARİXİ KOMMENTARİYALARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Xülasə

Məqalədə dilimizin tarixi vəziyyəti müasir ədəbi dilimizlə müqayisə edilərək araşdırılır. Azərbaycan dilinin tarixi qrammatikasında mühüm bir hissəni əhatə edən sintaksis, tarixi ədəbi nümunələrimiz əsasında araşdırmalara cəlb edilmişdir.

Məqalədə söz birləşmələri, cümlələr, cümlə növləri və cümlə üzvləri haqqında məlumat verilir. Müasir ədəbi dilimizdə olduğu kimi, yazılı abidələrin dilində də məqsədə və intonasiyaya görə dörd növ cümlənin olduğu göstərilir: hekayə cümləsi, sual cümləsi, əmr cümləsi, nida cümləsi. Müasir dilimizdəki həm mətnin məzmunu, həm də cümlə modelləri yazılı abidələrin dilində bu cür cümlələrin (hekayə cümləsi, sual cümləsi, əmr cümləsi, nida cümləsi) inkişafını təyin edərkən nəzərə alınır. Araşdırmadan da aydın olur ki, yazılı abidələrin dilində olduğu kimi, müasir ədəbi dilimizdə də fel zamanları isimlərdən üstün mövqeyə malikdir. Bəzi mətnlərdə isim və fel cümlələri təxminən eyni səviyyədə istifadə olunur.

Məqalədə cümlənin xüsusiyyətləri ümumiləşdirilmişdir. Cümlənin intonasiyasının yüksək tonla başladığı və cümlənin sonunda tədricən zəiflədiyi və dayandığı bildirilir. Sual cümlələrinin müəyyən bir məlumat əldə etmək, hər hansı bir fikrin doğruluğunu təyin etmək üçün xarakterik bir xüsusiyyət kimi istifadə edildiyi bildirilir. Dilimizdə əmr, istək, israr, öyüd, nəsihət, istək, çağırış və s. Olan bir cümlə cümləsi var. kimi mənaları ifadə etmək üçün istifadə olunur. Bu cümlələrə əmr cümlələri deyilir və türkologiyada geniş və sistematik şəkildə tədqiq edilmişdir. Nida cümləsinə gəlincə, rəvayətin, sual və əmr cümlələrinin yüksək hiss və həyəcanla ifadə edilməsinin nida cümləsini yaratdığı aydındır.

Açar sözlər: sintaksis, dilin tarixi, tarixi qrammatika, söz, söz birləşməsi, cümlə, cümlənin növləri, sadə cümlələr, tabeli mürəkkəb cümlələr

Sintaksis mənşəyinə görə yunan sözü olub "birləşmə, tərtibat" deməkdir. Qrammatikanın bir şöbəsi kimi sintaksis sözlərin söz birləşmələri və cümlələr şəklində birləşmə qaydalarından bəhs edir. Sintaksis söz birləşmələri və cümlələr adlanan iki böyük hissədən ibarətdir.

Söz birləşmələri əşyalar arasında, əşyalarla əlamətlər, hərəkətlər arasında əlaqələri ifadə edir və söz birləşmələri əmələ gətirən sözlər əvvəlki mə'nasını itirmir. Sözlərin sintaktik əlaqələr vasitəsi ilə birləşməsi sayəsində əmələ gələn söz

birləşmələrinin mahiyyətini, onların tipləri və əmələ gəlmə yollarını, birləşmədə iştirak edən tərəflərin qrammatik əlamətlərini öyrənmək, söz birləşməsi ilə mürəkkəb sözün, cümlənin oxşar və fərqli cəhətlərini aşkarlamaq sintaksisin ən zəruri məsələlərindəndir.

Sintaksisin məşğul olduğu sahələrdən biri və ən başlıcası cümlə problemidir. Bitmiş bir fikri ifadə edən ən böyük dil vahidi olan cümlənin quruluşca növləri, cümlə üzvləri, əlavə və xüsusiləş-mələr, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan söz-lər, təktərkibli, cüttərkibli, bütöv və yarımçıq cümlələr, məqsəd və intonasiyaya görə sadə cümlənin növləri, budaq cümlənin rəngarəng növ və tipləri və s. bu kimi məsələlər sintaksisin əsas tədqiqat sahələridir.

Sintaksis söz birləşmələri və cümlələrin düzəlmə üsullarını, onların quruluşunu, qrammatik mahiyyətini öyrənir. Azərbaycan dilinin sintaktik quruluşu B. Çobanzadə, Ə. Dəmirçizadə, M. Şirəliyev, H. Mirzəzadə, Ə. Abdullayev, Y. Seyidov, Q. Kazımov kimi alimlər tərəfindən geniş və sistemli şəkildə, həm də daha çox tarixi-linqvistik müstəvidə tədqiq edilmişdir.

Bir cəhəti xüsusilə qeyd edək ki, həmin müəlliflərin əksəriyyəti yazılı abidələrimizin dilinin sintaktik quruluşu ilə Azərbaycan dilinin hazırkı sintaktik quruluşu arasında əsaslı fərq olmaduğunu göstərir. Məsələn, "Kitab"ın sintaktik quruluşundan bəhs edən Q. Kazımov yazır: "Dədə Qorqud" dilinin sintaksisi elə kamil formadadır ki, keçən 1500 ilin ərzində söz birləşməsi və cümlə strukturunda əsaslı bir dəyişiklik baş verməmişdir. Bütün yeniliklər təkmilləşmə, zənginləşmə və səlisləşmə istiqamətində olmuşdur. Sözlərin söz birləşməsi və cümlə şəklində, cümlələrin mətn şəklində əlaqələndirilməsi texnikası yalnız təkmilləşmə, zənginləşmə istiqamətində irəliləmişdir.

"Sintaktik əlaqələr, ismi və feli birləşmələr, sadə cümlələr, genişlənmiş sadə cümlələr, sadə quruluşlu mürəkkəb cümlələr müasir dildə olduğu kimidir. Sonralar, təbii olaraq, söz birləşməsi və cümlə modelləri zənginləşmiş, yönlük, yerlik, çıxışlıq halların qrammatik mənaları xeyli sabitləşmiş, feili tərkiblər inkişaf etmiş, qarışıq tipli mürəkkəb cümlə modelləri və mətnin sintaktik-semantik bağlılığını təmin edən vasitə və üsullar çoxalmışdır" (1, 480). Bu mənada təkcə "Kitab"ın yox, ümumən yazılı abidələrimizin sintaktik quruluşundan bəhs olunarkən təkmilləşmə və zənginləşmə istiqamətləri mütləq nəzərə alınmalıdır. Bəzi məsələlərə diqqət edək: "Oğlı Uruz qarşusında yay söykənib turardı" cümləsində "yay" sözünün asılı tərəf kimi işlənməsini müasir ədəbi dil müstəvisində təsdiqləmək mümkün deyil. Halbuki həmin söz formaca adlıq halda olsa da, yönlük hal mövqeyindədir (yaya söykənib), idarə əlaqəsinin asılı tərəfi kimi çıxış edir.

Azərbaycan dilində cümlənin struktur-semantik təkamülü də məhz tarixi-linqvistik müstəvidə tədqiq olunmuşdur. Məsələn, "Qız yükü – duz yükü"; Turdı, Atına bindi. Yucalardan yucasan ("K.D.Q.") ; Hüsnünə can verirmən (Kişvəri); Bən sənin bimarinəm...(Nəsimi); Eşqə düşdün...(Füzuli) tipli cümlələri təhlil edən N. Cəfərov əsaslandırır ki, subyekt – predikat; subyekt – predikat – subyekt (analitizm);

subyekt – predikat (sintetizm); predikat+subyekt... Bu modellərin nöqsanlı cəhətlərini də müəllif özü müəyyənləşdirir:

- dilin sintaqmatik və paradiqmatik inkişaf təmayüllərinin rolunu həddindən artıq eklektik şəkildə ifadə edir;
- həmin konstruksiyaların müəyyən sinxron mərhələdə kommunikativ mövqeyini nəzərə almır.

Sintaksisin morfologiya ilə əlaqəli şəkildə öyrənilməsi də mühüm məsələlərdən hesab olunur. Bu mənada dilimizin sintaktik quruluşunun ən səciyyəvi cəhətlərini məhz morfologiyaya istinadən dəqiqləşdirmək mümkündür. Məsələn, təyin və tərzi-hərəkət budaq cümlələrinin bəzi tiplərini "öylə" (elə) işarə əvəzliyi kontekstində nəzərdən keçirək: "Ol öylə adam degildir kim, saŋa görünə" ("K.D.Q.") "Öylə zəif qıl tənimi firqətində kim, Vəslinə mümkün ola yetürmək səbanı" (Füzuli)

Birinci cümlədə "öylə" işarə əvəzliyi sifəti əvəz edib, təyin budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümləsində qəlib söz – təyin kimi işlənib. Həmin tabeli mürəkkəb cümlənin budaq cümləsi də məhz qəlib sözü aydınlaşdırır. İkinci cümlədə isə "öylə" işarə əvəzliyi tərzi-hərəkət zərfini əvəz edib, tərzi-hərəkət budaq cümləli tabeli mürəkkəb cümlənin baş cümləsində qəlib söz kimi işlənib. Burada da qəlib söz budaq cümlə vasitəsilə izah edilir.

Beləliklə, hər iki tabeli mürəkkəb cümlənin budaq cümləsi işarə mənasında işlənən, həm də əlaməti ümumi şəkildə ifadə edən "öylə//oylə" (elə) işarə əvəzliyi ilə birbaşa bağlanır, onun məntiqi nəticəsi kimi çıxış edir. Onu da qeyd edək ki, nümunə olaraq gətirilən hər iki cümlə tipi müasir dilimiz üçün də səciyyəvidir.

İki və daha artıq müstəqil sözün sintaktik üsullar əsasında birləşməsindən əmələ gələn söz birləşmələri (sərbəst birləşmələr nəzərdə tutulur) bir sintaktik vahid kimi dilimizin bütün dövrləri baxımından səciyyəvidir.

Yazılı abidələrimizin dilində rast gəlinən ismi və feili birləşmə modelləri, eləcə də təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələr əsasən müasir ədəbi dilimizdəki kimidir. Burada fərqli cəhət müasir ədəbi dilimiz üçün arxaik olan fars və ərəb izafətlərində özünü göstərir. Təyini söz birləşmələri ismi birləşmələrə daxildir, üç növə ayrılır: I növ təyini söz birləşməsi, II növ təyini söz birləşməsi, III növ təyini söz birləşməsi.

Birinci növ təyini söz birləşmələrinin yaranmasında heç bir morfoloji göstərici iştirak etmir, tərəfləri arasında yanaşma əlaqəsi olur, əsas tərəfi (ikinci tərəf) isim və isimləşə bilən sözlərlə, asılı tərəf (birinci tərəf) isə atributiv isim, sifət, say, əvəzlik və feli sifətlə ifadə olunur. Digər tərəfdən, birinci növ təyini söz birləşmələrində asılı tərəf əsas tərəfi izah edir, həm də cümlə daxilində təyin vəzifəsində çıxış edir. Əsas tərəf isə daha çox mübtəda, xəbər və tamamlıq olur. Yazılı abidələrin dilində rast gəlinən birinci növ təyini söz birləşmələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

"Hər iki tərəfi isimlə ifadə olunanlar: ipək xalicə, altun cida, dəmir zəncir, qonca ləb, hərami gözlər - ..."xan Bayandır yerindən turmışdı... Bi ŋ yerdə ipək xalicəsi döşənmişdi... Ağ tozluca qatı yayını əlinə aldı. Altun cidasın əlinə aldı...üç

kişi sol yanından dəmür zəncirlə buğayı tutmışlardı (“K.D.Q.”) Sənə bu qonca ləb xəndandır, ey dust (Xətai); Canumi bir nigah ilən aldı hərami gözlərün (Nəsimi). Birinci tərəfi sifət, ikinci tərəfi isimlə ifadə olunanlar: sücığ sab – şirin söz, bilgə kişi – bilici adam, alp kişi – igid döyüşçü (Orxon-Yenisey abidələri); Oğlı olanı olanı ağ otağa, qızı olanı qızıl otağa qondurı η... Varı η rum elinə mənim oğlım içün yəxşi ərməğanlar gətürün... Quduz qurtlar evimi dəlir gördüm” (2, 277).

Birinci tərəfi say, ikinci tərəfi isimlə ifadə olunanlar. Bu tip birləşmələrin bir neçə semantik variantı müşahidə olunur: Ol qırq namərdi η bir qaçı oğlanı η yanına gəldi... Ol qırq namərdlər aydırlar... Hər atanda on iki batman taş atardı (“K.D.Q.”); Doqquz atə, yeddi anə, dörd dayədən ver xəbər (Nəsimi); Şəbaş ona qıldı yüz təbəq zər (Məsihi).

Birinci tərəfi əvəzlik, ikinci tərəfi isimlə ifadə olunanlar: Oğuzın η, ol kişi təmam bilicisiydi... Böylə oğıl nə ηə gərək? – Oğla η şol günbədi gördü ηmi? (“K.D.Q.”); Çün Nəsimi canımı ol mahə qurban eylədi (Nəsimi). Bu birləşmələrin birinci tərəfi kimi işlənən ol, böylə və şol əvəzlikləri müasir ədəbi dilimiz üçün arxaizm hesab olunur.

Birinci tərəfi feli sifət, ikinci tərəfi isimlə ifadə olunanlar: bu tip birləşmələrdə -an^2 , -ar^2 , -acaq^2 , -dıq^4, -dığı^2, -mış^4 şəkilçili feili sifətlər birinci tərəf kimi çıxış edir. Bu da dilimizin bütün inkişaf dövrləri üçün səciyyəvidir: Ölən adam dirilməz, çıxan can gerü gəlməz (“Kitab”); Toğmadıq oğlana ad qoma (Oğuznamə); Yığ başına dağılan xəyali... Can urmaq rəsmidir, saqi tutulmuş ay üçün (S. Təbrizi)...

Sintaktik vahidlərdən biri olan cümlənin səciyyəvi əlamətləri bunlardır: bitkinlik, predikativlik, modallıq və intonasiya.

Cümləni sintaksisin əsas və mərkəzi vahidi hesab edən Q. Kazımov yazır: “Cümlə dilin fonetik sisteminin, lüğət tərkibi və qrammatik quruluşunun bütün daşıyıcılarını özündə ehtiva edir”. Digər tərəfdən, cümlə özünə qədərki (səs, söz, söz birləşmələri) və özündən sonrakı (sintaktik bütöv) dil vahidləri arasında körpü rolunu oynayır: səs→söz→söz birləşməsi=cümlə→sintaktik bütöv. Təkcə onu qeyd etmək yerinə düşər ki, “K.D.Q.” bütün dil vahidlərini, xüsusilə də sintaktik bütövlər cərgəsini özündə ehtiva edən ən zəngin mənbədir.

Müasir ədəbi dilimizdə olduğu kimi, yazılı abidələrin dilində də cümlənin məqsədinə və intonasiyaya görə dörd növündən bəhs etmək lazım gəlir: nəqli cümlə, sual cümləsi, əmr cümləsi, nida cümləsi.

Yazılı abidələrin dilində bu tip cümlələrin işlənməsi müəyyənləşdirilərkən həm mətnin məzmunu, həm də müasir dilimizdəki cümlə modelləri əsas götürülür. Bu da təsadüfi deyil. Belə ki, “XIX əsrin ortalarına qədər durğu işarələrinin nə olduğu haqqında tam bir təsəvvürün olmaması, hətta ən zəruri və tətbiqi lazım olan ən adi işarələrin – nöqtə (.), sual işarəsi (?), nida və ya əmr işarəsi (!) – yazıda əksini tapmaması öz növbəsində mətnin oxunmasını qismən ağırlaşdırmış, lakin cümlənin real məzmununa heç bir xələl gətirməmişdir. Cümlənin ifadə məqsədinə görə

növlərini formal əlamətlər (durğu işarələri) yox, onun (cümlənin) məzmunu müəyyən edir".

Hər hansı bir əşya, iş, əlamət və s. haqqında məlumat verən nəqli cümlənin səciyyəvi cəhətlərini aşağıdakı kimi ümumiləşdirmək olar: Nəqli cümlənin intonasiyası yüksək tonla başlanır, cümlənin sonunda isə tədricən zəifləyərək kəsilir. Məsələn, Ağ saqallu babası qarşu gəldi ("Kitab")...; Nəqli cümlənin xəbəri ismi və feili olur: ismi xəbərli nəqli cümlələr – Oğuzı η ol kişi təmam bilicisiydi ("Kitab"); Qurtulmağı yoxdurur zərərdən (Məsihi); feili xəbərli nəqli cümlələr – Selcan xatun at oynatdı. Qanturalınıη öginə keçdi ("Kitab").

Yazılı abidələrin dilində, eləcə də müasir ədəbi dilimizdə feili xəbərli nəqli cümlələr ismi xəbərli nəqli cümlələrə nisbətən üstün mövqedə çıxış edir. Bəzi mətnlərdə isə ismi və feli xəbərli cümlələrin təxminən eyni səviyyədə işlənməsi müşahidə olunur.

Müəyyən bir məlumat almaq, hər hansı bir fikrin düzgünlüyünü müəyyənləşdirmək, dəqiqləşdirmək məqsədilə işlədilən cümlələr sual cümləsi adlanır. Orxon-Yenisey abidələri, "Kitabi – Dədə Qorqud" kimi qədim türk mənbələri sual cümlələrinin formalaşma tarixinin qədim olduğunu göstərir. Maraqlıdır ki, bu abidələrin dilində sual cümləsini yaradan vasitələr (intonasiya, sual əvəzlikləri, sual ədatları) müasir türk dillərində, o cümlədən Azərbaycan dilində əsasən eynilə, olduğu kimi işlənir (arxaikləşən, eləcə də fonetik dəyişikliyə uğrayan sual əvəzlikləri və sual ədatları istisna olunmaqla).

Müasir ədəbi dilimizdə -mı[4] sual ədatının köməyilə qurulan sual cümlələri birbaşa həmin mənbələrlə səsləşir: Orxon – Yenisey abidələrinin dilində - Kağan mu kısayın= Onun xan olmasına çalışımmı?; "Kitab"ın dilində - Beyrək adlı yigidə buluşmadınmı?; müasir ədəbi dilimizdə - O şərəfli günlər unudulurmu? (R. Rza).

Müasir ədəbi dilimizdə olduğu kimi, yazılı abidələrin dilində də sual cümlələrinin iki məqsədlə işləndiyi müşahidə edilir:

1. Müəyyən bir məlumat əldə etmək, hər hansı bir fikrin düzgünlüyünü müəyyənləşdirmək məqsədilə işlədilən sual cümlələri: Yigit, gəlişi η qandan?.. İç Oğuzda kimü η nəsisən? ("Kitab");
2. Cavab almaq deyil, bədiiliyi qüvvətləndirmək, fikri emosional tərzdə ifadə etmək məqsədilə işlədilən sual cümlələri (bu tip jümlələr daha çox ritorik sual cümlələri başlığı altında öyrənilir): Əcəl aldı, yer gizlədi, fani dünya kimə qaldı? ("K.D.Q."); Bülbül necə yanında həyadan ağız açsın?! (Q. Təbrizi)...

Yazılı abidələrin dilində işlənən sual cümlələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1) İntonasiyanın köməyilə qurulan sual cümlələri;
2) Sual ədatlarının köməyi ilə qurulan sual cümlələri;
3) Sual əvəzliklərinin köməyilə qurulan sual cümlələri.

İntonasiyanın köməyilə qurulan sual cümlələrinə qədim türk, eləcə də Azərbaycan yazılı abidələrinin dilində az rast gəlinir. Şübhəsiz ki, yazılı abidələrin

dilində işlənən sual cümlələri də mətnin məzmununa, semantik yükünə əsasən müəyyənləşdirilir. Məsələn: ...nagahandan tayanım üzərinə düşəm, qarnı yırtıla? – dedi.

Sual ədatlarının köməyi ilə qurulan sual cümlələrinə nümunə olaraq bəs, məgər,-mı[4] ədatları ilə qurulan cümlələri göstərə bilərik. Məhz belə sual cümlələri dilimizin bütün inkişaf dövrləri üçün səciyyəvidir: ya pəs nedəlim? Məgər sən xan Qazanın oğlı degilsən? Bilürmisən nələr oldı? Nə biləyin, oğıl, arslandanmı oldı, yoxsa qaplandanmı oldı? (“K.D.Q.”)

“Sual əvəzliklərinin köməyilə qurulan sual cümlələri əsasən müasir ədəbi dilimizdəki kimidir. Burada fərq yalnız bəzi sual əvəzliklərinin arxaikləşməsində, yaxud fonetik dəyişikliyə uğramasında müşahidə olunur” (4,88).

Sual əvəzliklərinin köməyi ilə qurulan sual cümlələrinin ümumi mənzərəsi aşağıdakı nümunələrdə daha aydın görünür: Ağam Qazan, sası dinlü Gürcüstan ağzında oturarsan, ordun üstinə kimi qorsan? (“Kitab”); Dəxi kimə eyləyim şikayət? (Məsihi); Bu atəşin üz ilən kim dutar sənin ətəgin? (S. Təbrizi); Nə cövr səni bu rahə saldı? Nə dərd səni bu ahə saldı? (Məsihi)...

Göründüyü kimi, sual əvəzliklərinin əksəriyyəti müasir ədəbi dilimizdə eynilə sabitləşmişdir.

“Dilimizdə bir qrup cümlələr vardır ki, həmin cümlələr əmr, xahiş, təkid, nəsihət, məsləhət, arzu, çağırış və s. kimi mənaları ifadə etmək üçün işlənir. Belə cümlələr əmr cümləsi adlanır və türkologiyada geniş və sistemli şəkildə tədqiq edirlmişdir. Bu baxımdan yzılı abidələrimizin dilində işlənən əmr cümlələrinin səciyyəvi əlamətlərinin məhz həmin mənbələr kontekstində təqdim olunması zəruri hesab edilir” (3, 214). Əmr cümləsinin xəbəri daha çox feilin əmr şəkli ilə ifadə olunur. Məsələn: ...oğlımıŋ at səgirdişin, qılıc çalışın, oq atışın görəyim, sevinəyim, qıvanayım-güvənəyim... İki talusından çəngələ sancun,qıyma-qıyma ağ ətindən çəkün (“K.D.Q.”).

Feilin əmr şəkli və əmr ədatlarının birlikdə işlənməsi ilə düzələn əmr cümlələri yazılı abidələrin dilində intensivliyi ilə seçilir: Qouŋ məni bu ağacla söyləşəyim (“Kitab”); Gəl tərpətmə yarələnmiş könlümü (Vidadi). Bu tip cümlələrdə əmr mənası daha qüvvətli olur.

Xəbəri feilin vacib şəklində olan əmr cümlələrinə az təsadüf olunur: Boyu uzun Burla xatunını gətirüb,sağraq sürdürmək gərək (“K.D.Q.”).

Məsdərlərin köməyilə yaranan əmr cümlələrinin yalnız Füzulinin dilində işləndiyi qeyd olunur:

Canan diləyən cəfaya dözmək,
Gənc istəyən əcdəhaya dözmək.

Xəbəri feilin arzu şəkli ilə ifadə olunan əmr cümlələrinə də təsadüf olunur: ...ərə varan qız qalqa oynaya, mən qopuz çalam (“K.D.Q.”)

“Nəqli, sual və əmr cümlələrinin yüksək hiss və həyəcanla, emosionallıqla ifadə olunması nida cümləsini reallaşdırır. Özünəməxsus formal əlaməti olmayan

nida cümləsinin tarixi-linqvistik müstəvidə nəzərdən keçirilməsi aşağıdakıları qeyd etməyə imkan verir: Müasir ədəbi dilimzdə olduğu kimi, yazılı abidələrin dilində də nida cümləsinin də formal əlaməti yoxdur" (3, 215).

Nida cümləsi nəqli cümlə əsasında düzəlir. Məsələn: Təŋriŋiŋ birliginə yoqdur güman ("Kitab").

Sual cümləsinin yüksək tonla, emosionallıqla ifadə edilməsi nida cümləsinin yaranmasına səbəb olur: Beyrək gedəli Bam-bam dəpə başına çıqdınmı, qız?! Qarğu kibi qara saçıŋ yoldıŋmı, qız?! ("Kitab"); Gəl mana bir söyləgil, kimdir sənin nitqində, kim, söyləyən, söylətdirən, eşitdirən hər yanadan?! (Nəsimi).

Nəqli və sual cümlələri kimi, əmr cümlələri də yüksək tonla ifadə edildikdə nida jümləsi formalaşır: Ağ birçəklü anaŋ yeri behişt olsun! Kölgəliyə qaba ağacıŋ kəsilməsün!("Kitab"); Üzünü məndən nihan etmək dilərsən, etməgil! Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil! (Nəsimi). Nəsiminin dilindən verdiyimiz bu beytdə feli xəbərlərin təsdiq və inkarda qarşılaşdırılması ilə cümlənin hiss-həyəjan ifadəsi qüvvətləndirilmişdir.

1. Nida cümləsi nidaların köməyi ilə qurulur: Ah: Ah kim firqət şərabı bağrımı qan eylədi!(Məsihi); Mərhəba: Mərhəba, gəldün, ey ruhi –rəvanım, mərhəba (Nəsimi); Afərin: Afərin, ey maliki - müliki-cəhan səd afərin (Məsihi); Bərəkallah: Dutdu tərəfi- mürüvvətə rah, İnsafdurur bu, bərəkallah (Məsihi); Tu (tfu): Tu yüzüŋizə, altmış kişi! Bir oğlanı tutamadıŋuz ("KDQ").

2. Nida cümləsi xitabların köməyi ilə düzəlir: Oğul, oğul, ay oğul! Toquz ay tar qarnumda götürdigim oğul! On ay deyəndə dünyaya gətürdügim oğul! ("KDQ.")

Yuxarıdakı nida cümlələri tam formalaşmış vəziyyətdədir, həm də onların hər biri mətnin poetik çəkisini gücləndirən vasitələr kimi çıxış edir. Cümlə üzvlərinin struktur-semantik xüsusiyyətləri istər diaxronik, istərsə də sinxronik baxımdan öyrənilərkən yalnız əsas nitq hissələri və söz birləşmələri ilə ifadə olunan cümlə üzvlərinin yox, həm də köməkçi nitq hissələrinin cümlə daxilindəki rolu müəyyənləşdirilməli, ümumən, cümləyə kompleks şəkildə yanaşılmalı, onun semantik yükü də məhz bu müstəvidə dəqiqləşdirilməlidir.

Cümlə üzvləri həm nitq hissələri, həm də söz birləşmələri ilə ifadə olunur; məsələn: Günbəzin qapısı açıq idi (Sabir Əhmədov) –cümləsində mübtəda (günbəzin qapısı) söz birləşməsi, xəbər (açıq idi) nitq hissəsi ilə ifadə olunmuşdur. Bu cür xüsusiyyətlər yazılı abidələrimizin dili üçün də səciyyəvidir. Məsələn: Mübtəda daha çox adlıq halda olan isim və əvəzliklərlə ifadə olunur: Qazan qara köpəklə xəbərləşdi, görəlim, xanım, nə xəbərləşdi? ("KDQ"); sadə feili xəbərlər yalnız feilin şəkilləri ilə ifadə olunur: Ağır ləşkər bol xəzinə alayın ("KDQ"); Ayrılıq yulduzu batmaz (Əmani) və s. Bu nümunələrdə feili xəbərlər feilin əmr (alayın) və xəbər şəkilləri ilə (batmaz) ifadə olunmuşdur. Sadə ismi xəbərlər isə isim, sifət, say, əvəzlik və digər nitq hissələri ilə ifadə olunur: Həsənoğlu, gərçi sənə duaçıdır, vəli sadiq (İ. Həsənoğlu); Mərə, dəli ozan, ərə varan qız mənəm ("KDQ") . bu nümunələrdə birincisi isim (duaçıdır), ikincisi əvəzliklə (mənəm) ifadə olunmuşdur.

Tamamlıq əsasən yönlük, təsirlik, yerlik və çıxışlıq hallarda işlənən isim və əvəzliklərlə ifadə olunur: ...bu gəz bir qurdatuş oldı. .. Qazan bir tumar ilə köpəyi urdu ("KDQ"); Yəni ki, çox bəlalərə qıl mübtəla məni!.. (Füzuli); təyinin ifadə vasitələri sırasında sifət və feili sifətlər xüsusi yer tutur: ...var, ol dəxi dəli qavatıŋ gözünə göürngil, bəŋizini sarartgil.

Azərbaycan dilinin mürəkkəb cümlələri tabesiz və tabeli mürəkkəb cümlələr olmaq üzrə iki yerə bölünür. Tabesiz mürəkkəb cümlənin tərkib hissələri bir-biri ilə müəyyən məna əlaqələri ilə bağlanır. Bu əlaqələr aşağıdakılardır: zaman, yer, ardıcıllıq, səbəb-nəticə, aydınlaşdırma, ziddiyyət və birləşdirmə əlaqələri. Tabeli mürəkkəb cümlələrdə iki qütb var: baş və budaq cümlələr. Azərbaycan dilində budaq cümlələrin ondan yuxarı növü vardır: mübtəda budaq cümləsi, xəbər budaq cümləsi, təyin budaq cümləsi, tamamlıq budaq cümləsi, zərflik budaq cümləsi (zaman, yer, tərzi-hərəkət, səbəb-məqsəd, kəmiyyət, şərt, nəticə, qarşılaşdırma) budaq cümlələri.

Qeyd etmək istərdik ki, dilimizin tarixən təşəkkül və inkişaf yollarına dair geniş məlumatı özündə əks etdirən bir çox elmi ədəbiyyatlar yazılmış, Azərbaycan dilinin kökündə ən qədim aborigen türk tayfaları dillərinin durduğu inkaredilməz faktlarla sübuta yetirilmişdir.

Ədəbiyyat

1. Q. Kazımov Azərbaycan dilinin tarixi. Bakı, 2003,
2. H. Mirzəzadə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, 1990,
3. Y. Seyidov. Seçilmiş əsərləri. III cild, Bakı-2007
4. B. Çobanzadə, F. Ağazadə. Türk qrameri. Bakı, 1930.
5. "Kitabi-Dədə Qorqud" Bakı, 1982

TARLAN ALIYEVA

THE IMPORTANCE OF THE USE OF HISTORICAL COMMENTARIES IN THE STUDY OF THE SYNTACTIC FEATURES OF THE AZERBAIJANI LANGUAGE IN THE HISTORICAL ASPECT

SUMMARY

The article examines the historical condition of our language by comparing it with our modern literary language. The syntax, which covers an important section in the historical grammar of the Azerbaijani language, is involved in research on the basis of our historical literary examples.

The article provides information about word combinations, sentences, sentence types and sentence members. It is shown that, as in our modern literary language, in the language of written monuments there are four types of sentences according to the purpose and intonation: narrative sentence, question sentence, command sentence, exclamation sentence.Both the content of the text and the sentence models in our modern language are taken into account when determining the development of such sentences (narrative sentence, question sentence, command sentence, exclamation

sentence) in the language of written monuments. It is also clear from the research that in the language of written monuments, as well as in our modern literary language, verb tenses have a superior position over nouns. In some texts, noun and verb sentences are used at about the same level.

The article summarizes the characteristics of the sentence. It is stated that the intonation of the sentence begins with a high tone, and at the end of the sentence gradually weakens and stops. It is stated that the question sentences are used as a characteristic feature in order to obtain certain information, to determine the accuracy of any idea. There are a group of sentences in our language that include command, request, insistence, admonition, advice, desire, call, and so on. is used to express meanings such as. Such sentences are called command sentences and have been extensively and systematically studied in Turkology. As for the nida sentence, it is clear that the expression of the narration, question and command sentences with high feeling and excitement creates the the sentence.

Keywords: syntax, history of language, historical grammar, words, word combinations, sentences, sentence types, simple sentences, subordinate compound sentences

ТАРЛАН АЛИЕВА

ВАЖНОСТЬ ИСПОЛЬЗОВАНИЯ ИСТОРИЧЕСКИХ КОММЕНТАРИЕВ ПРИ ИЗУЧЕНИИ СИНТАКСИЧЕСКИХ ОСОБЕННОСТЕЙ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В ИСТОРИЧЕСКОМ АСПЕКТЕ

РЕЗЮМЕ

В статье исследуется историческое состояние нашего языка в сравнении с нашим современным литературным языком. Синтаксис, охватывающий важную часть исторической грамматики азербайджанского языка, был исследован на основе наших исторических и литературных примеров.

В статье представлена информация о словосочетаниях, предложениях, типах предложений и членах предложений. Как и в нашем современном литературном языке, язык письменных памятников показывает, что существует четыре типа предложений в зависимости от цели и интонации: сказочное предложение, вопросительное предложение, командное предложение, восклицательное предложение. И содержание текста, и модели предложений на нашем современном языке учитываются при определении развития таких предложений (сказочное предложение, вопросительное предложение, командное предложение, восклицательное предложение) на языке письменных памятников. Из исследования ясно, что в нашем современном литературном языке, как и в языке письменных памятников, времена глаголов имеют более высокое положение по сравнению с существительными. В некоторых текстах существительные и глаголы используются примерно на одном уровне.

В статье обобщены особенности приговора. Утверждается, что интонация предложения начинается с высокого тона и постепенно ослабевает и прекращается в конце предложения. Говорят, что вопросительные предложения используются как характерный признак для получения определенной информации и определения правильности любой идеи. На нашем языке это команда, желание, настойчивость, напоминание, увещевание, желание, призыв и так далее. Есть такое предложение. используется для выражения таких значений, как. Эти предложения называются командными предложениями и широко и систематически изучаются в тюркологии. Что касается восклицательного знака, ясно, что повествование, вопрос и заповедь выражены с большим волнением и волнением, что и создает восклицательный знак.

Ключевые слова: синтаксис, история языка, историческая грамматика, слова, словосочетания, предложения, типы предложений, простые предложения, подчиненные составные предложения.

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **filologiya üzrə fəlsəfə doktoru, baş müəllim Aytən Məmmədova** tərəfindən çapa tövsiyə olunmuşdur

MURAD MEHDİZADƏ
Bakı Dövlət Universiteti
Ünvan: Akademik Zahid Xəlilov küçəsi, 23
murad962019@mail.ru

MİKAYIL MÜŞFİQİN DİLİNDƏ BƏDİİ İFADƏLİLİK YARADAN VASİTƏLƏR

XÜLASƏ

Emosionallıq, obrazlılıq, ekspressivlik bədii üslubun əsas xüsusiyyətlərindən-dir. Emosionallıq, obrazlılıq, ekspressivlik bədii üslubun əsas xüsusiyyətlərindəndir. Mikayıl Müşfiqin əsərlərinin dilində fonetik, leksik eyni zamanda sintaktik səviyyədə obrazlılıq, emosionallıq yaradan vasitələr diqqəti cəlb edir.

Anafora, epifora, antiteza və ritorik suallar üslubi fiqurlara daxildir. Alliterasiya müəllif tərəfindən vurğu yaratmaq, yazı üslubuna gözəllik, axıcılıq əlavə etmək və bəzən əhvali ruhiyyənin formalaşmasına kömək etmək üçün istifadə edilir. Müəllif bir sual qaldırır, ancaq cavabı açıqca gördüyü üçün birbaşa cavab vermir. Ritorik suallar təhrik etmək, vurğulamaq və ya mübahisə etmək üçün istifadə olunur. Beləliklə, oxucunun diqqəti birbaşa cümlənin mesajına çəkilir. Bədii təzadlardan poetik nitqdə geniş şəkildə istifadə olunur. Bədii təzadlar fikirin qüvvətlənməsinə xidmət edən qüvvətli vasitələrdən biridir. Antiteza yazı, danışıqda ya əvvəllər bəhs edilən bəzi fikirlərlə ziddiyyət təşkil edən və ya əksinə çevirən bir təklif olaraq yaxud ziddiyyət təsiri üçün iki ziddiyyət bir araya gətirildikdə istifadə olunur.

Antiteza balanslaşdırılmış bir qrammatik quruluş içərisində fikirlərin, sözlərin, bəndlərin və ya cümlələrin görünən bir ziddiyyətini ehtiva edən bir nitq şəkli olaraq təyin edilə bilər. Müəllif məqalədə üslubdakı fiqurlar (antonim, metonimiya, anafora, antitez, metafora və s.) haqqında danışacaqdır.

Açar sözlər: *antiteza, metonimiya, anafora, antiteza, metafora*

Emosionallıq, obrazlılıq, ekspressivlik bədii üslubun əsas xüsusiyyətlərindəndir. Nitqdə ifadəlilik, emosionallıq təkcə öz semantikasında obrazlılıq ifadə edən sözlər vasitəsilə yaranmır, müxtəlif bədii vasitələrdən də istifadə olunur. Dildə emosionallıq və bədiilik yaradan vasitələr özünü müxtəlif səviyyələrdə göstərir: 1) Fonetik səviyyədə (alliterasiya, assonans, intonasiya); 2) Leksik səviyyədə (məcazlar-təsvir və ifadə vasitələri, omonim, sinonim, antonimlik); 3) Sintaktik səviyyədə obrazlılıq (inversiya, bədii sual, təcəssüm və s.). Mikayıl Müşfiqin əsərlərinin dilində fonetik, leksik eyni zamanda sintaktik səviyyədə obrazlılıq, emosionallıq yaradan vasitələr diqqəti cəlb edir.

Epitet. Epitet bədii mətnin formalaşmasında mühüm vasitələrdən biridir. Epitet ədəbi nəzəriyyələrdə "nitqin gözəlliyini artıran vasitə", "sözü qüvvətləndirmək üçün

əlavə edilən sifət” kimi xarakterizə edilir. Ağamusa Axundov Müşfiqin dilində işlənən epitetlərlə bağlı yazır ki, şairin dilində sözlərlə bağlı ən maraqlı dil hadisələrindən biri epitetlərdir, şair təyini söz birləşmələrinin bütün tiplərində gözəl epitetlər yaratmışdır. Xüsusən, birinci növ təyini söz birləşmələri əsasında yaranan epitetlər öz rəngarəngliyi ilə seçilir. Müşfiqin dilində işlənmiş epitetləri iki qrupa bölə bilərik; birinci və ikinci növ təyini söz birləşməsi şəklində şəklində formalaşan epitetlər. Birinci növ təyini söz birləşməsi tipində olan epitetlər şairin demək olar ki, bütün şeirlərinin dilinə xasdır. Bu tip epitetlərin tərəfləri müxtəlif nitq hissələri ilə ifadə olunur, duyğusuz daş, dumanlı keçmiş, dilbər su, qızıl saç, qızıl ürək, dəmir qol və s. Məsələn; Belə mənzərədən кim ayrılar, кim?!. Səncə, bir duyğusuz daşmı müəllim [3, 237]; Zuvanddan gəldiyi bir ay olardı... (Onun bir dumanlı кeçmişi vardı). [3, 232]; Dilbər sular dalğasına dənizlərdə, göllərdə Oxuyaram yeni həyat sevdasilə çırpınan [3, 21]; Çırtlayıb, incə qızıl saçlarını, Saç deyil, od кimi qırbaclarını [3, 58]; Dirəкlərdə tutuşdu, yandı qızıl ürəкlər. Yürüdük, çöllər boyu raylar axdı, uzandı [3, 66]; Yaşasın daş кimi musкullarımız, Yaşasın töкmə, dəmir qollarımız [3, 128]. Ikinci nəyini söz birləşməsi tipində olan epitetlər könül dəftəri, günəş yurdu, səadət yeli, can bağı və s. Məsələn; Könül dəftərini vərəqləyincə Saçıldı boşluğa xalis incilər [3, 22]; Çünкi təbiətdən öyrənmişəm mən, Günəbaxan baxar Günəş yurduna. [3, 197]; Çağlayırкən yurdumuzda yaşayışın selləri, Bəlкə öpsün gözlərini səadətin yelləri [3, 27]; İçin, bu altun şərab torpağımızda, Şirin zəhmətimizlə, can bağımızda Bəslənən [3, 143]. Üçüncü növ təyini söz birləşməsi şəklində formalaşan epitetlər; ağlın ayağı, həyatın dənizləri, yaşayışın selləri, xəyal və s. Məsələn; Ağlın ayağında qara bir tiкən. Ayaqlar altında sərt bir uçurum [3, 287]; Özünü həyatın dənizlərinə! Ordan dəyərli bir sədəf yerinə [3, 307]; Çağlıyorкən yurdumuzda yaşayışın selləri, Bəlкə öpsün gözlərini səadətin yelləri [3, 27].

Metafora. Metafora yunanca “köçürmə” deməkdir, məcazın ən geniş yayılmış növlərindən biri də metaforadır. Metafora sözün, ifadənin, əşya və hadisələrin müəyyən bir cəhətdən bənzərliyinə və oxşarlığına əsasən məcazi mənada işlənməsidir. “Metafora hadisənin mahiyyətini bənzətmə yolu ilə daha yığcam və qısa şəkildə ifadə edərək, əyani və konkret obraz yaradır” [2, 115]. Belə ki, metafora müxtəlif əşya və hadisələr arasında müqayisə prinsipi əsasında meydana gəlir. Metaforanın bədii-estetik əhəmiyyətini qədim antik dövr filosofları da qeyd etmişlər. Aristotelin fikrincə metaforanı heç kimdən öyrənmək olmaz, bu qabilliyyət istedadın əlamətidir. Müşfiqin dilində işlənmiş metaforaları iki iki xüsusiyyətinə görə xarakterizə etmək olar, belə ki, bəzi nümunələrdə şair insana məxsus xüsusiyyətləri cansız əşyalar üzərinə, bir qism nümunələrdə isə cansız əşyalara məxsus xüsusiyyətləri insanlar üzərinə köçürür. Nümunə; Bir tərəfdən onu sarmış qayalar, Qayalar Göygölü burnilə yalar [3, 58]; Məhlə uşaqları daşır qaynayır, Top kimi atılır, düşür oynayır [3, 247]. Şair birinci nümunədə insana məxsus hərəкəti Göy gölün

üzərinə köçürmüş, ikinci nümunədə isə cansız varlığa məxsus xüsusiyyəti insana aid etmiş, bununla da gözəl bir metafora yaratmışdır.

M.Adilov metaforalar haqqında yazır ki, metaforalar təşbehə nisbətən daha qüvvətli təsir yaradır, burada maksimum yığcamlı diqqəti cəlb edir. Metaforlar səciyyəvi xüsusiyyətinə görə iki qrupa bölünür; 1. Ümumişlək metaforalar və 2. Poetik metaforalar. Üslubi metafora haqqında T.Əfəndiyeva yazır ki, poetik metafora sırf bədii dilin məhsuludur, o üslubi məqsədə müvafiq bədii əsərdə əmələ gəlir və bədii üslubun malı olaraq qalır, adətən bu cür metaforalar danışıq dilində işlənmir, onlar fərdi-bədii üslubu fərqləndirən ən qiymətli amildir. Ümumişlək metaforalar sözün çoxmənalığı əsasında əmələ gəlir, sanki bu metaforalar öz poetikliyini müəyyən qədər itirmiş, dildə sabitləşmiş və ümumişlək səciyyə daşımaqdadır. Müşfiqin dilində hər iki metafora növünə aid nümunələr işlənmişdir. Buruq hayqırırdı qəlbində mətləb, Buruq döyüşçülər eyləyir tələb [3, 115]; Çox baxdı buruqlar bizə dıк-dıк, Bilməm nəyə durmuşdu buruqlar? [3, 108]; Bu dünyada zəlzələlər, qiyamətlər qopardı, Yer oynadı, göy kişnədi Arpa çayı daşarkən [3, 79]; O gündən ixtiyar, xəstə кönlümü Dünyaya xoş baxan görməmişəm mən [3, 24]; Bizim halımıza tutuldu göylər, Buludlar belini büкüb ağladı [3, 25]; Çağlıyorкən yurdumuzda yaşayışın selləri, Bəlкə öpsün gözlərini səadətin yelləri [3, 27]; Кöç deyəndə, azar alır canını, Yer süpürür sanкi qaşı-qabağı [3, 112]. Belə ki, yuxarıdakı nümunələr şairin dilinə məxsus olan poetik metaforalardır. Bu metaforalar fərdi xarakter daşıyır və şairin ətraf aləmə olan münasibətini ifadə edir. Başqa sözlər desək, bu poetik metaforalar Müşfiqin yaradıcılıq qabilliyətinin və fitri istedadının bəhrəsidir.

Metonimiya. Metonimiya məcazın geniş yayılmış növlərindən biridir. Metonimiya yunan sözü olub ad dəyişmə mənasını ifadə edir. Metonimiya və metafora bir-birinə bənzəsədə onlar mahiyyət etibarilə tamamilə fərqlənir. Metafordan fərqi odur ki, metonimiya bənzəyiş əsasında deyil, bir-birindən fərqlənən əşya və hadisələrin qarşılaşdırılması nəticəsində meydana çıxır. Metonimiya metafora kimi lüğət tərkibinin zənginləşməsində əvəzsiz rola malikdir. M.Müşfiqin dilində işlənən metaforları iki əsas qrupa bölə bilərik, ümumişlək metaforlar və fərdi, obrazlı metaforlar. Ümumişlək metaforalar adından da bəlli olduğu kimi, artıq öz obrazlılığını itirmiş və ümumişlək xarakterli metaforalardır. Müşfiqin dilində işlənən **ana torpaq, ağ qızıl, odlar yurdu**, **qara qızıl** ifadələri metonimik səciyyəlidir. Məsələn, Bu ana torpaqdan uzaqlaşmalar, Göylərdə ətirli qucaqlaşmalar [3, 268]; Кür işlər, Zahes işlər. Mil düzündə, Baкıda Ağ qızıl, qara qızıl Deyərəк, hər кəs işlər [3, 106]. Yuxarıdakı nümunələrdə işlənmiş metonimiyalar ümumişlək xarakter alsa da, müəyyən qədər öz obrazlılığını qoruyub saxlamışdır. Ümumiyyətlə dilçilik ədəbiyyatlarında metonimiyalar yaranma yollarına görə müxtəlif qruplara bölünür, məkana görə formalaşan metonimiyalar, məntiqi səbəbiyyət əsasında yarananan metonimiyalar. Məsələn, Səsini dinləmiş Şahların, xanların sarayı; Sənin birliкdə inləmiş, Əsirlər alayı [3, 123]; Çıxmışam bir dağa,

qarşımda Bakı Qaynayır, çünкi deyil ruha ilıq. Çınlar hər yanda dərin bir səs-кüy, Duyulur hər кüçədən bir çığlıq [3, 43]; Laкin hönкür-hönкür ağlayır bir кənd, Кəsilmiş ruhları ney кimi bənd-bənd [3, 284]; Nələr öyrənməmiş burda, ay Səhər, Minlərcə Tükəzban, minlərcə Tubu?! [3, 263]. Şair yuxarıdakı nümunələrdə saraydakı insanlar əvəzinə saray ifadəsini, Bakı əhalisi əvəzinə Bakı ifadəsini, ağlayan kənd adamları ifadəsi əvəzinə kənd ifadəsini işlətməklə məkana görə formalaşan metonimiyalar yaratmışdır. Metonimiyaların ikinci qrupu səbəbiyyət əsasında yaranmış metonimiyalardır, bu tip metonimiyalara şəxs adları əsasında yaranan metonimiyalar daxildir. Bu tip metonimiyalar konkretliyi və orijinallığı ilə diqqəti cəlb edir.

Təkrir. Şeirdə emosionallıq və ekspressivlik yaradan vasitələrdən biri də təkrarlardır. Bədii əsərdə eyni sözün və misranın ustalıqla təkrar olunması təkrir adlanır. Təkrir yersiz təkrardan fərqli olaraq bədii əsərin dilini və üslubunu daha da zənginləşdirir. Bədii təkrarlara təkcə müasir dilimizdə deyil, həm də yazılı abidələrimizin dilində rast gəlirik. "Dədə-Qorqud" boylarında söz və ifadələr gah misranın əvvələində gah da sonlarında, gah da ortasında işlədilərək çoxcəhətli üslubi poetic vəzifələr yerinə yetirmişdir. Bəzən vəzni müəyyən edən element kimi, bəzən də şeirin mənа və emosionallığının daşıyıcısı olmuşdur" [1, 173].

H.Həsənovun fikirincə təkrir və təkrar terminləri bir-biri ilə əlaqədardır. Təkrir lüzumsuz təkrardan fərqli olaraq, bədii əsəri mənaca daha da genişləndir, onun dilini və üslubunu daha da qüvvətləndirir. "Məlumdur ki, uğursuzluğa və nitq səhvlərinə (paleonazm, tavtologiya hadisəsi) gətirib çıxaran təkrar əsassızdır. Lakin münasib, xüsusəndə bu və ya digər ünsürün xüsusi olaraq nəzərə çarpdırılması məqsədilə müəllif tərəfindən qurulmuş, məharətlə təşkil olunmuş təkrar bədii priyoma çevrilir" [2, 63]. Təkririn yaranma tarixi qədimdir. Sözün təkrarı dünya dillərinin əksəriyyətində özünü göstərir. Lakin təkrar bütün dillərdə eyni funksiyanı yerinə yetirmir. Türk dillərindən fərqli olaraq analitik quruluşlu dillərdə təkrar qrammatik məna daşıyır, cəmlik semantikasının yaranmasına xidmət edir. M.Müşfiqin dilində təkrarlar şeirə emosionallıq və ekspressivlik verən üslubi vasitə kimi işlənmişdir. Təkririn anafora və epifora olmaqla iki növü var.

Anafora. "Anafora (eyni başlanğıc) eyni nitq vahidinin ardıcıl işlənən və ya bir-birinə yaxın yerləşən misraların, bəndlərin yaxud da cümlələrin (və ya onun hissələrinin) abzasların, hətta fəsillərin əvvəlində təkrar edilməsindən ibarət olan üslubi fiqurdur" [2, 72]. Şairin dilində təkirin hər iki növü işlənmişdir. Məsələn; Olmuş dəstəsilə mədəndə rəhbər, Olmuş mədənçilər dilində əzbər [3, 119]; Ölməкçin doğmadıq, gəlmədiк cahana, Ölməкçin yaşamaq – bu sadə bir işdir [3, 41]; Təbiət кişnəyir yüyənsiz at кibi. Təbiət varlığı əlində oynadır [3, 40]; Hücum et duyduğun varlığa, yoxluğa! Hücum et sökülmüş şəfəqlər yurduna! [3, 41]; Olmuş dəstəsilə mədəndə rəhbər, Olmuş mədənçilər dilində əzbər [3, 119].

M. Müşfiqin dilində bəzən misraların hər biri anafora üzərində qurulur, güclü obrazlılıq yaradır, bunu müəllifin "Rekonsturuksiya" şeirində əyani şəkildə görə

bilərik: Yürüdük, qarşımızda əyildi qarlı dağlar, Yürüdük aramızdan silinsin qolçomaqlar, Yürüdük arxamızca şaxələndi sementlər, Yürüdük, sayəmizdə qucaqlaşdı dağ, dəniz, Yürüdük üstümüzdən çəkildi hər qaraltı, Yürüdük, tunellərlə doldu dağların altı [3, 66].

Epifora. Cümlənin sonununda eyni sözün təkrarlanması, cümlənin eyni ifadə yaxud sözlə tamamlanmasıdır**.** Məsələn; Fantan bulamışdı zərbəçiləri, Sanкi sulamışdı zərbəçiləri [3, 119]; Biz doğduq biləlim güllərin dilini, Dağların, daşların, ellərin dilini [3, 41]; Neyləyim кi, fiкrim кimi qəşəng olsun nəğmələrim? Parlaq bahar səmasilə həmrəng olsun nəğmələrim? Sevinclərlə uğuldayan bir zəng olsun nəğmələrim? Bir işıqlı, bir ətirli çələng olsun nəğmələrim? [3, 174]; Fəqət sən buruğa girəndən sonra, Fantana nəhayət verəndən sonra [3, 119]; Hey o qədər nəğmə var кi: qüvvətdənmi oxuyalım? İşdən, gücdən, cəsarətdən, sürətdənmi oxuyalım? Yoxsa кeçmiş rəzalətdən, dəhşətdənmi oxuyalım? Nurumuzun dağıtdığı zülmətdənmi oxuyalım? [3, 175].

Yuxarıdakı nümunələrdə şairin dilində işlənmiş təkrir növlərinə nəzər yetirdik. Ümumilikdə isə M.Müşfiqin dilindəki təkrarları nitq hissələri üzrə də bölə bilərik; isim, sifət, say, əvəzlik, fel və köməkçi nitq hissələrinin təkrarı. Müşfiqin dilində bəzən eyni misra daxilində təkrarın qoşa şəkildə işlədilməsi ilə də rastlaşırıq. Təkrarın belə növü türk şeirində xüsusilə geniş işlənən bu tip paralellər şeirin estetik gücünü daha da genişləndir. Məsələn; Dəhşət o dəhşətdir, təhqir o təhqir, Sərvət o sərvətdir, zəncir o zəncir [3, 253].

Bədii sual. Bədii vasitələrdən biri olan ritorik sual cümlələri də ekspressivlik və emosionallığın yaranmasında mühüm rol oynayır, bədii sual mahiyyət etibarilə müəyyən suala cavab almaq məqsədilə işlədilən qrammatik sualdan tamamilə fərqlənir, sual cümlələrinin bu tipində heç bir cavab tələb olunmur. Bədii sual istər klassik ədəbiyyatımızda, istərsə də xalq şeirində geniş şəkildə istifadə olunan bədii vasitədir. "Ritorik sual bir sıra əsərlərdə "bədii sual", "poetik sual", "emosional sual cümlələri", "erotema" adı altında da verilir. Mikayıl Müşfiq yeri gəldikcə bədii suala müraciət etmiş və bu bədii vasitə ilə qəhrəmanlarının fikir və hisslərini daha dolğun şəkildə ifadə etmişdir. Məsələn; Vicdanları pəк şəffaf, insanları nurani, Müşfiq, bilə bildinmi, aləmdə şu dövranı?! [3, 16]; Əcəba, neçə şux dilbərin Yasəmən üzünü pul кimi qızartmış? O sarı simlərin lisanı Salmazmı heyrətə insanı? [3, 124]; İstərmisən göylər başımda çaqsın? İnsan olan bəndə hissə qapılmaz [3, 23]; Yaxşı qız! Bəlкə sən də utanaraq məhlədən Vida etmiyorsun o zülmətin övladına? [3, 80]. Sual əvəzlikləri vasitəsilə yaranan bədii suallar; Mənə кim baxacaq? Olma dərbədər. Nə qədər yalvarıb-yaxardımsa mən [3, 23]; Bir yavru quş кimi düşdü dərbədər, Bilməm baş götürüb hara qaçdı o? [3, 23]; Sağ əlində bir şişə, sol cibində bir şişə, Hanкı böyüк bir səbəb onu bu hala salmış? [3, 31]; Ətəyindən əyilib öpdüm mən, Кim qaçar sevgilisin öpməкdən? [3, 60].

Bədii xitab. Şair və nasirin fərdi üslubundan, əsərin janrından asılı olaraq bədii əsərdə rəngarəng xitablar işlənir. Bədii dildə emosional səciyyəyə malik bu tip

xitablar ritorika və dilçilikdə üslubi fiqur adlanır. Obrazların daxili aləmini, xarakterini açmaqda, onların bir-birinə və müəllifin həmin obrazlara olan münasibətini ifadə etməkdə etməkdə xitablar mühüm rol oynayır. Mikayıl Müşfiqin də əsərlərinin dilində xitablara geniş şəkildə müraciət olunmuşdur. Məsələn: Əsrlərcə şərqlilərə kəsildin acı, Sən ey vəhşi, sən ey azğın imperializm [3, 20]; Seyr et, Sabir, bu seyr ediş haqqındır sənin Şünki sən bu zamanı görmədən öldün [3, 75]; Təbidir ki, ay qız, yaz ayları gəlincə, Yarpaqlanıb pərdədə qalmaz örtülü qöncə [3, 81]; İşçi qız, toxuduğun o divar xalısında, Heyran oldum ürəkdən işlədiyin sənətə, Bir gözəllik əsəri verdin bəşəriyyətə [3, 19]. Müəllifin dilində bəzən misra bütövlükdə bədii müraciət üzərində qurulur: Ey yolçu, ey çoban, ey havalı quş, Sizi bəkləməkdən artıq yorulmuş, O qaynayan, axan diqqətli gözlər [3, 22].

Antiteza. Bədii təzadlar da fikirin qüvvətlənməsinə xidmət edən vasitələrdən biridir. Antiteza yunan sözü olub "antithesis" "ziddiyət", "qarşılaşdırma" deməkdir. Prof. T.Ə.Əfəndiyeva antitezadan bəhs edərkən yazır: "Bu üslubi fiqur leksik semantik vahidlərin (antonimlərin və əks mənalı sintaktik vahidlərin tərkiblərin) sayəsində ortaya çıxan qüvvətli ifadə vasitəsidir. Həsərət Həsənov fikirincə ki, antitezalar sadəcə söz vəya ifadə antonimliyi deyil, xalis fikir təzadıdır. Aristotel antitezaya haqqında yazır ki, bu cür təsvir əlverişlidir, çünki ziddiyyətli qarşılaşdırmalar olduqca anlaşıqlıdır. Onlar yanaşı durduqda isə daha anlayışlı olur, həm də ona görə ki, təsvirin bu üsulu sillogizmə bənzəyir: həqiqi sübut ziddiyyətlərin qarşılaşdırılmasıdır. Antiteza poetik nitqdə geniş şəkildə özünü göstərir. Məsələn; Fələкdən bac verib, bac alan кönlüm İndi uşaq кimi ağlar sənинçün [3, 191]; Onunçün çırpındı qolum-qanadım, Onu yerdə deyil, göydə aradım [3, 194]; Çalışdım için-için, Gəncliyimi qocaltdım [3, 201]; Görülməmiş bu dilbər Abşeron civarında, Quzğunun кənarında. Yaxın, uzaq ellərdən [3, 202]; Yenə də uzaq, yaxın Ellərdən axın-axın Gəlirdi baş igidlər, Qəmə yoldaş igidlər [3, 217]; Şirin xəyalınla çoban xan oldu, Xan qızı çobana nigahban oldu, Bu şirin xəyallar güldürdü səni, Lakin həqiqətdə öldürdü səni [3, 199]. Sonuncu nümunə xalq əfsanəsi əsasında yazılmıış "Çoban" poemasındandır. Müəllif bu misralarda zənginliyin insana heç də həmişə xoşbəxtlik gətirməməsini təzadlı misralarla əyani şəkildə ifadə etmişdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. İracoğlu M. Azərbaycan şerinin vəzn və evfoniya problemi. Bakı, Nurlan 2008, 294 s

2. Bəylərova A. Bədii dildə üslubi fiqurlar. Bakı: "Nurlan", 2008, 212 s.

3. Mиkayıl Müşfiq. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004, 352 səh.

M.MEHDİZADE

Stylized figures in the in Mikayil Mushfig's language

Summary

The means of creating emotion and art in language manifest themselves at different levels. In the language of Mikail Mushfig's works, phonetic, lexical, as well as syntactic means that create imagery and emotion at the syntactic level attract attention. Anaphora, epiphora, antithesis and rhetorical questions include in stylized fiqures. Alliteration is used by an author to create emphasis, to add beauty to the writing style, and occasionally to aid in shaping the mood. The author raises a question, but doesn't answer it directly as he/she sees the answer as obvious. Rhetorical questions are used to provoke, emphasise or argue.

Thus, the reader's attention is drawn directly to the message of the sentence. The antithesis is widely used in poetic speech. Antithesis is used in writing or speech either as a proposition that contrasts with or reverses some previously mentioned proposition, or when two opposites are introduced together for contrasting effect.

Antithesis can be defined as "a figure of speech involving a seeming contradiction of ideas, words, clauses, or sentences within a balanced grammatical structure. The author will be speake about stylistic figures (antonym, metonymy, anaphora, antithesis, metaphors) in the article.

Key words: *antonym, metonymy, anaphora, antithesis, metaphor*

М. МЕХДИЗАДЕ

СТИЛИЗОВАННЫЕ ФИГУРЫ НА ЯЗЫКЕ МИКАИЛА МУШФИГА

РЕЗЮМЕ

Средства создания эмоций и искусства в языке проявляются на разных уровнях. В языке произведений Микаила Мушфига привлекают внимание фонетические, лексические, а также синтаксические средства, создающие образность и эмоции на синтаксическом уровне. Анафора, эпифора, антитеза и риторические вопросы включают стилизованные фигуры. Аллитерация используется автором для создания фокуса, а иногда и для формирования настроения. Автор поднимает вопрос, но не отвечает на него, так как видит ответ очевидным. Риторические вопросы используются, чтобы провоцировать, подчеркивать или спорить.

Таким образом, внимание читателя обращено непосредственно на сообщение предложения. Антитезис широко используется в поэтической речи. Художественные контрасты - один из самых мощных инструментов для укрепления мысли. Антитеза, используемая в письме или речи, или в качестве суждения, которое контрастирует или меняет некоторые ранее упомянутые суждения, или когда две противоположности вводятся вместе для противоположного эффекта.

Антитезис может быть определен как «фигура речи» или «противоречие» идей, слов, предложений или предложений в рамках сбалансированной грамматической структуры. В статье автор расскажет о стилистических фигурах (антоним, метонимия, анафора, антитезис, метафоры).

Ключевые слова: *антоним, метонимия, анафора, антитеза, метафора*

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya üzrə elmlər doktoru, professor Tofiq Hacıyev**
tərəfindən çapa tövsiyə olunmuşdur

ДЖАВАИР ГУСЕЙНОВА
БГУ
(г. Баку, ул. Захид Халилова 23)
E-mail: javahir.huseynova.a@bsu.edu.az

ФОРМИРОВАНИЕ И СТАНОВЛЕНИЕ ПОНЯТИЯ «КОНЦЕПТ» В КОГНИТИВНОЙ ЛИНГВИСТИКИЕ

Резюме

Данная статья посвящена исследованию вопроса о формировании и становлении концепта как единицы когнитивной лингвистики. В статье рассматриваются также вопросы о трактовке концепта в качестве термина, приводятся разные интерпретации данного понятия, рассматриваются три подхода к определению сущности и структуры концепта.

Когнитивная лингвистика, являясь сравнительно молодым, но в то же время активно развивающимся лингвистическим направлением, содержит в себе много дискуссионных вопросов, что вызывает потребность в лингвистических работах, базирующихся на опыте практического лингвистического описания языка. Когнитивная лингвистика отражает новый этап исследования сложных взаимоотношений языка и мышления.

Сформировать конкретное определение «концепту» как термин очень сложно. Это связано в первую очередь с тем, что вопрос о концепте в определенные периоды истории рассматривался отдельными дисциплинами. С точки зрения лингвокультурологии концепт рассматривается как многомерная структура, которая содержит в себе, коннотативный, ассоциативный, социальный, национально-культурный компоненты. Являясь предметом психолингвистической дисциплины, концепт предстает перед нами как спонтанно функционирующее в познавательной и коммуникативной деятельности индивида базовое перцептивно-когнитивно-аффективное образование, подчиняющееся закономерностям психической жизни человека. В когнитивной лингвистике же концептом принято считать, сложную структуру, являющуюся результатом сложной мыслительной деятельности, которая содержит в себе интерпретационное поле и описывается как перечень когнитивных признаков.

***Ключевые слова**:* язык, мышление, концепт, понятие, когнитивная лингвистика, лингвокультурология, психолингвистика

Проблема соотношения языка и человеческого сознания испокон веков волновало многие думы своего времени. С развитием лингвистики в языкознании сформировался когнитивный подход к изучению языка.

Центральное место в данном направлении заняло исследование проблемы соотношения языка и мышления, определение роли языка в формировании картины мира, значение средств языка в осуществлении коммуникативных процессов, выявление способов взаимодействия когнитивных способностей человека с языком. С точки зрения когнитивистики язык рассматривается как семиотическая система, сквозь призму которого происходит процесс познания, приобретения новых знаний.

Когнитивная лингвистика является отражением нового подхода к изучению вопросов, связанных с соотношением языка и человеческого мышления. Данное направление лингвистики занимается исследованием главных функций языка, роли человека в языке и роли языка для человека. Объектом исследования когнитивной лингвистики является язык не как отдельное лингвистическое явление, а как явление целостное, которое включает в себя взаимоотношение языка и человека, влияние социального, этнографического и национального статуса на процесс мышления и употребления тех или иных языковых единиц в соответствии с контекстом.

Основоположниками такого подхода к изучению языка в когнитивной лингвистике стати нейрофизиологи, психологи (П. Брокка, К. Вернике, И.М. Сеченов, В.М. Бехтерев, И.П. Павлов и др.) Их труды привели к новому пониманию языка, стало ясным, что языковая деятельность начинает свой процесс в мозге человека, и разные виды языковой деятельности, такие как освоение языка, аудирование, говорение, чтение, письмо и др., зависят от работы разных отделов головного мозга.

На следующем этапе, эволюция проблемы соотношения языка и мышления стала объектом исследования психолингвистики. В рамках данной дисциплины язык рассматривался как семиотическая система, хранящаяся в сознании человека. Сторонниками такого подхода к изучению языка являлись американские психолингвисты, такие как Ч. Осгуд, Т. Себеок, Дж. Гринберг, Дж. Керрол и др, российские лингвисты А.А. Леонтьев, И.Н. Горелов, А.А. Залевская, Ю.Н. Караулов и др. (5, 4-5)

Когнитивная лингвистика как наука складывалась в последние десятилетия XX века, однако предмет данной дисциплины был уже отмечен в XIX веке в теоретических трудах по языкознанию.

Е.С. Кубрякова определяет когнитивную лингвистику как науку о познании, где результат познавательных процессов человеческой деятельности предстает в виде упорядоченных, системных множеств знаний, которые в свою очередь составляют основу когнитивных процессов. Одной из задач когнитивной лингвистики в соответствии с современным представлением, является выявление соотношения мыслительных структур человеческого сознания и единиц языка.

Одним из главных понятий, которые оперируют в когнитивистике, является «концепт». Формирование концептов в языке в первую очередь связано с обеспечением человека умением ориентироваться в мире, что тесно соприкасается с необходимостью человеческого сознания различать и отождествлять объекты и понятия. Каждый концепт являясь совокуплением представлений человека о мире, создает картину мира в сознании человека.

«Концепт» как термин не имеет однозначной интерпретации, так как он является также объектом исследования таких направлений как, семантика и лингвокультурология. В связи с этим существует множество точек зрения связанных с проблемой определения значения термина «концепт».

Как лингвистический термин «концепт» впервые был упомянут в работе С.А. Аскольдова-Алексеева «Концепт и слово», который был опубликован в сборнике «Русская речь» в 1928 году. С.А. Аскольдов-Алексеев определяет концепт как мысленное образование, основная функция, по мнению которого, заключается в замещении неопределенного множества предметов одного и того же рода в процессе мышления. В качестве примера ученый приводит понятие «растения», которое совмещает в себе неопределенное множество существующих в действительности или только в сознании человека, вымышленных видов растений. Однако концепт не всегда является заместителем реальных объектов. Он также может выступить заместителем предикатов или других сторон предмета, как утверждает С.А. Аскольдов-Алексеев. (1, 269-273)

Теория концепта стала объектом исследования многих лингвистов в последующие годы. Введение концепта в более последовательное, регулярное исследование связано с именем Д.С. Лихачева. Д.С. Лихачев так же как С.А. Аскольдов подчеркивал в концепте роль функции замещения. Концепт может замещать не только предметы действительности, но и действия, утверждал он, приводя в пример концепт «справедливость». Существенная особенность функции замещения концептов, по мнению С.А. Аскольдова, заключается в вероятности замещать крайне слабо ощутимой потенции, которая конструирует слаженное языковое общение. Однако в отличие от С.А. Аскольдова Д.С. Лихачев считает, что существование концепта заключается не в общем значении слова, а в его отдельном денотативном значении, в связи с чем концепт можно считать «алгебраическим выражением значения» или «алгебраическим обозначением», которым мы оперируем в процессе коммуникации. В данном случае человек оперирует не комплексом имеющихся у слова лексических значений, а одним денотативным значением данного слова. Это связано с тем, что в процессе общения человек либо не успевает, либо по-своему интерпретирует его. Заместительная функция концепта позволяет при языковом общении преодолевать различия в понимании слов между общающимися, что значительно облегчает коммуникационный процесс.

Какое из лексических значений слова замещается концептом, определяется при помощи контекста, в что доказывает, что концепт является результатом столкновения семантики слова с личным опытом человека. (2, 28-32)

На современном этапе в языкознании сформировалось три подхода к определению сущности и функций концепта.

Представители первого подхода подчеркивают роль культуры в процессе познания. Согласно определению Ю.С. Степанова и В.Н. Телия, концепт является основной составляющей ментального мира человека. Культура предстает в виде совокупности концептов и их отношений.

Основой для второго подхода послужил семантический подход к понятию концепт. Н.Д. Артюнова и А.Д. Шмелев, являясь сторонниками данного подхода, определяют концепт как единицу когнитивной семантики.

Д.С. Лихачев и Е.С. Кубрякова являясь представителями последнего подхода определяют концепт посредником между словами и реальностью. Сторонники третьего подхода считают, что концепт является не продуктом значения слова, а результатом столкновения значения слова и личного опыта человека.

Общим для всех трёх подходов является идея о связи между языком и культурой, расхождения же заключаются в различном понимании роли языка в формировании концепта.

В связи с различными подходами к определению концепта, в трактовке данного термина выслеживаются различия. Период утверждения концепта в лингвистике в качестве термина связан с произвольностью его употребления.

Термин «концепт» в большом энциклопедическом словаре трактуется следующим образом: КОНЦЕПТ (от лат. conceptus - мысль - понятие), 1) смысловое значение имени (знака), т. е. содержание понятия, объем которого есть предмет (денотат) этого имени (напр., смысловое значение имени Луна - естественный спутник Земли).2) Произведение концептуального искусства.

Из данного определения можно прийти к выводу, что концепт заключается в лексическом значении слова, однако, как считают ученые лингвисты, данная трактовка не является полным отражением реального значения термина концепт.

Анна Вежбицкая в своих трудах утверждает, что концептом является объект из мира, носящий номинативную функцию и отражающий представление человека о мире, которое является культурно обусловленным. (3, 155-158)

С точки зрения В.Н. Телия концепт является результатом мыслительной деятельности человека, в связи с этим можно прийти к такому выводу, что концепт присущ не только языку, но и человеческому сознанию в целом.

Иным подходом к определению концепта являются идеи С.Г. Воркачева. Концепт, как определяет Воркачев, является культурно отмеченным

вербализованным смыслом, представленным в плане выражения целым рядом языковых реализаций, которые в свою очередь образуют определенную лексико-семантическую парадигму, предстающей в качестве единицы коллективного знания и имеющую языковое отражение в культурологическом аспекте. (4, 268-272)

На основе психолингвистических исследований Л.С. Выготского, Н.И. Жинкина и И.Н. Горелова, лингвисты З.Д. Попова и И.А. Стернин предложили новое определение термина «концепт», которое понимается как комплексная дискретная единица, при помощи которой осуществляется процесс человеческого мышления. Они считают, что концепты являются единицей хранения человеческого знания и не всегда имеют языковое выражение. Большинству концептов присущ эмпирический характер. Таким образом принимая концепт как дискретную комплексную единицу человеческого мышления, З.Д. Попова и И.А. Стернин утверждают, что в нем заключается совокупность знаний о том или ином явлении объективной или субъективной реальности, представленной в виде информационных данных, а также мнений и представлений человеческого разума.

Исходя из представленных выше определений концепта можно выделить его инвариантные признаки: 1) концепт – минимальная единица человеческого опыта, которая вербализуется при помощи слова и имеет полевую структуру; 2) концепт – комплексная единица, обрабатывающая, хранящая и передающая знания о мире; 3) концепт имеет не статичные границы и выполняет определенные функции, тем самым обладая социальным статусом, он является основной ячейкой культуры. (5, 21-27)

Различная интерпретация термина «концепт» также основана на его структуре. Концепт представляет собой сложную структуру. Как утверждает Ю.С. Степанов, концепт имеет «слоистое» ступенчатое строение, состоящее из актуального, пассивного, и этимологического признаков, где актуальный признак является основным, пассивный - дополнительным признаком, а этимологический признак – внутренней формой. В актуальном слое концепт является средством коммуникации для всех участников общения, пользующихся данным языком. В дополнительном слое концепт актуален только для участников определенных социальных групп. Этимологический слой доступен только людям, пользующимся языком исследований.

С точки зрения лингвокультурологии концепт рассматривается как полимерная глобальная структура, в основу которой входят не только коннотации и ассоциации, но и социальный, национально-культурный, общечеловеческий и индивидуально-личностный компоненты.

Ю.С. Степанов и В.В. Колосев придерживаясь данной теории, определяют концепт как структуру, состоящую из понятий экспрессивно

оценочного блока, этимологии и сжатой истории и выделяют в нем универсальный, общечеловеческий и культурный компоненты.

Структуру концепта как единицу лингвокультурологии можно представить в виде круга, в центре которого лежит ядро концепта, то есть основное понятие, на переферии же находятся понятия, навязываемые контекстом, в качестве которого выступают культурные, традиционные, народные и личные ценности. (6, 28)

В своей работе «Когнитивная лингвистика» З.Д. Попова и И.А. Стернин разграничивают структуру и содержательную сторону концепта. Содержательная сторона концепта базируется на когнитивных признаках, которые отражают отдельные признаки предмета или явления подвергавшегося концептуализации и описывается совокупностью этих признаков. Структуру же концепта составляют базовые компоненты, которые разнятся по своей природе. К составляющим структуру концепта также можно отнести эмотивную сторону информации, а также интерпретационное поле и описывается как перечень когнитивных признаков.

Существуют также подходы М.В. Никитина и В.И. Карасика к определению концепта как термина. В.И. Карасик предлагает рассматривать «слои» как отдельные концепты, а не составляющие его части. В структуре концепта лингвист выделяет образно-перцептивный и понятийный компоненты, а также ценностную составляющую. М. В. Никитин выделяет в концепте образ, понятие, когнитивный и прагматический импликационал.

Многие лингвисты на сегодняшний день сходятся во мнении о том, что концепты являются конституентами концептуальной системы, то есть близкими семантическими частями речи, такие как концепт объекта и его частей, движения, действия, места или пространства, времени, признака и т.п.

Таким образом, несмотря на наличие разных взглядов на определение понятия концепта как лингвистической единицы и его интерпретации, лингвисты сходятся в определении основной структуры, «слоев» концепта, выделяя в ней информационно-понятийное ядро и некоторые дополнительные признаки. Складываясь на основе личного и культурного опыта человека, являясь результатом познания окружающего мира, концепты через единицы языка способствуют отражению языковой картины мира, сознания и мышления человека.

СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. Аскольдов А. С. Концепт и слово / Русская словесность: От теории словесности к структуре текста: Антология / Под общ. ред. В.П. Нерознака. - М.: Academia, 1997. - С. 267-279.

2. Лихачев Д.С. Концептосфера русского языка / Русская словесность: Антология. М.: Academia, 1997. С. 28-37.
3. Вежбицкая, А. Понимание культур через посредство ключевых слов/ Пер. с англ. А Д. Шмелева. - М.: Языки славянской культуры, 2011. - 288 с.
4. Воркачев С.Г. Культурный концепт и значение / Воркачев С.Г. Труды Кубанского Государственного университета. Т.17, ном. 2; 2003 с 268-276.
5. Попова З.Д., Стернин И.А. Когнитивная лингвистика - М.: АСТ: «Восток-Запод», 2007. – 225 с.
6. Болдырёв, Н.Н. Концепт и значение слова / Н.Н.Болдырев // Методологические проблемы когнитивной лингвистики: научное издание.- Воронеж, 2011.- С.25-36

H. JAVAHIR

FORMATION AND DEVELOPMENT OF THE NOTION OF «CONCEPT» IN COGNITIVE LINGUISTICS

SUMMARY

This paper is devoted to the researches about formation and development of a concept as a unit of cognitive linguistics. The article also discusses the treatment of the concept as a term, gives different interpretations of the concept, and discusses three approaches to defining the essence and structure of the concept.
Cognitive linguistics, although a relatively young but rapidly developing linguistic field, contains many debatable issues, necessitating linguistic writings, based on practical linguistic description of the language. Cognitive linguistics reflects a new stage in the study of the complex relationship between language and thought.
It is very difficult to form a specific definition of «concepts» as a term. This is due primarily to the fact that the concept has been dealt with in certain periods of history by separate disciplines. From the point of view of linguistics, the concept is considered as a multidimensional structure that contains in itself, connotative, associative, social, and national-cultural components. As a subject of psycholinguistic discipline, the concept appears to us as spontaneously functioning in the cognitive and communicative activity of an individual basic perceptive cognitive-affective education, subject to the regularities of a person's mental life. In cognitive linguistics, however, the concept is thought to be a complex structure that results from complex cognitive activity that contains an interpretative field and is described as a list of cognitive traits.

Keywords: language, thinking, the concept, the notion, cognitive linguistics, linguoculturology, pshycolinguistics

H. CAVAHIR

KOQNITIV DILÇILIKDƏ «KONSEPT» ANLAYIŞININ FORMALAŞMASI VƏ INKIŞAFI

XÜLASƏ

Bu məqalə koqnitiv dilçiliyi vahidi kimi bir konsept anlayışının formalaşması və inkişafı ilə bağlı araşdırmalara həsr edilmişdir. Məqalədə konseptin bir termin kimi qəbul edilməsindən də bəhs olunur, konseptin fərqli şərhləri verilir və onun mahiyyəti və quruluşunun müəyyənləşdirilməsinə dair üç yanaşma müzakirə olunur.

Koqnitiv dilçilik nisbətən cavan, lakin sürətlə inkişaf edən bir dil sahəsi olsa da, dilin praktik linqvistik təsvirinə əsaslanan dil yazılarını zəruri edən bir çox mübahisəli məsələləri özündə cəmləşdirir. Koqnitiv dilçilik dil və düşüncə arasındakı mürəkkəb əlaqənin öyrənilməsində yeni bir mərhələni əks etdirir.

Bir anlayış kimi «anlayışların» müəyyən bir tərifini yaratmaq çox çətindir. Bu, ilk növbədə tarixin müəyyən dövrlərində konsept ilə ayrı-ayrı fənlər tərəfindən həll olunduğundan irəli gəlir. Dilçilik baxımından konsepta özündə konnotativ, assosiativ, sosial və milli-mədəni komponentləri ehtiva edən çoxölçülü bir quruluş kimi qəbul edilir. Psixolinqvistik intizamın subyekti kimi, konsept bizə insanın əqli həyatının qanunauyğunluqlarına tabe olaraq fərdi əsas qavrayış idrak-affektiv təhsilinin idrak və kommunikasiya fəaliyyətində spontan fəaliyyət göstərən kimi görünür. Koqnitiv dilçilikdə isə konseptin şərh sahəsini ehtiva edən və idrak xüsusiyyətlərinin siyahısı kimi təsvir olunan kompleks bilişsel fəaliyyət nəticəsində yaranan kompleks bir quruluş olduğu düşünülür.

Açar sözlər: dil, təfəkkür, konsept, məfhum, koqnitiv dilçilik, linqvokulturologiya, psixolinqvistika

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya üzrə fəlsəfə doktoru, dosent Cavanşir Xankişi oğlu Muradov** tərəfindən çapa tövsiyə olunmuşdur

LEYLA NOVRUZOVA
Bakı Dövlət Universiteti
Zahid Xəlilov küçəsi
leyla.novruzova594@gmail.com

İSİMLƏRİN LEKSİK-SEMANTİK QRUPLARININ TƏSNİFATI HAQQINDA

Xülasə

İsimlər bizim lüğət tərkibimizin mühüm hissəsini təşkil edirlər. Onlar bütün canlı və cansız varlıqların adlarını bildirirlər. İsmin qrammatik mənası, əşya bildirməsi ilə əlaqədar olaraq nitq hissələrinin sırası isimlə başlanır. Çünki digər nitq hissələri əşyanın varlığı ilə şərtlənir. İsimlər rəngarəngliyinə görə də digər nitq hissələrindən fərqlənir. Bütün isimlərin leksik və semantik xüsusiyyətləri eyni deyildir. Onlar müxtəlif leksik-semantik qruplara bölünürlər. İsimlərin leksik-semantik təsnifatı müxtəlif dilçilərimiz və dünya dilçiləri tərəfindən aparılmışdır. Bütün isimləri əhatə edən təsnifatın hazırlanmasına çalışılmışdır. Bunların bəziləri uğurlu olmuş, bəzi təsnifatlar isə isimləri leksik-semantik cəhətdən tam əhatə edə bilməmişdir. Azərbaycan dilçilərindən Muxtar Hüseynzadə, Yusif Seyidov və s. isimlərin təsnifatını vermişlər. Yusif Seyidov isimlərin leksik-semantik təsnifatının bizim dilimizdəki bütün isimləri əhatə etməsinə ehtiyac olmadığını deyir. O, fikrini belə əsaslandırır ki,dilimizdə rus dilindən fərqli olaraq ismin belə qrupları qrammatik kateqoriyalarla zəif əlaqədardır. Təsadüfi deyil ki, Azərbaycan dilində bu qruplar " İsmin mənaca növləri" adı altında verilir. Rus dilində isə bu hal başqadır.

Qəzənfər Kazımov da isimləri leksik-semantik cəhətdən təsnif edən dilçilərimiz sırasındadır. Onun da təsnifatı maraqlıdır. İsimləri təsnif edən dilçilərimizin təsnifatlarına diqqət yetirək. Biz görəcəyik ki, onların ortaq cəhəti hər birinin isimləri ümumi və xüsusi isimlərə bölməsidir. Lakin həm ümumi, həm də xüsusi isimlərin daxilindəki təsnifatı hər biri fərqli etmişdir. Lakin bu fərq çox böyük fərq deyildir. Oxşar cəhətlər daha çoxdur.

Açar sözlər: isim , xüsusi isim, ümumi isim, leksik-semantik qruplar, məna, isimlərin mənaca növləri.

Muxtar Hüseynzadə müxtəlif varlıqların adlarını bildirmək baxımından isimlərin aşağıdakı növlərini qeyd edir:

1. Şəxs bildirən isimlər ; bunlar da öz növbəsində ümumi və xüsusi olmaqla iki yerə bölünür. Xüsusi isimlər yalnız bir varlığın xüsusi olduğunu göstərmək üçün istifadə olunur və bu isimlər cümlənin hər yerində böyük hərflə yazılır. Məs.:

Qərəz, baş ağrısı da olur, amma yenə gərək deyim; çünki mən bilirəm ki ,bu əhvalatı oxuyan rəfiqlərim artıq təəccüb edəcəklər, necə yəni qəzetçi *Xəlil* və lağlağı *Sadıq*?(C.Məmmədquluzadə)

Ümumi isimlər isə insanlar arasında ictimai və ailə münasibətləri göstərən ümumi insan adlarıdır: ata, baba, nənə, əmi, xala, nəticə və s.:

Elə ki, Hacı Rza və övrəti öldürürlər, Məhəmmədhəsən *əmi* qaldı başsız-paraxsız. (C.Məmmədquluzadə)

M.Hüseynzadə qeyd edir ki, xüsusi insan adları bir varlıq üçün sabitdir dəyişməzdir. Ümumi isimlər isə qeyri-sabitdir.

2. Heyvanların adlarını bildirən isimlər: ceyran, meymun, at, eşşək və s.:

Toyuq-cücəni çağırıb, bir az dən səpdi, tövləyə girib *eşşəyin* qabağına bir-iki ovuc arpa töküb çıxdı küçəyə və öz küçə qapısının ağzında çömbəldi, çıxartdı çubuğunu və kisəsini və çubuğu doldurub başladı çəkməyə.(C. Məmmədquluzadə)

3. Bitki adları bildirən isimlər. Botanikada canlı varlıq hesab edilən bitki adları qrammatikaya görə cansız qəbul edilir: süsən, sünbül, nərgiz, yasəmən, qızılgül və s.:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı,
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı.(bayatı)

4. Bədən üzvlərinin adlarını bildirən isimlər: baş, əl, ayaq, barmaq,dodaq və s.:

Qeyriləri də *gözlərini* dikib yerə, fikrə cummuşdular; çünki vaqeən bu məsələ dərin məsələdir. (C.Məmmədquluzadə)

Dad çəkdim hicrindən, xasiyyətindən,
Sənin *əllərində* aciz oldum mən.
Nə *əlin* mey verdi, *gözün* güldü,
Ancaq əzab verdin ömür boyu sən. (Xaqani Şirvani)

5. Cansız varlıqların adlarını bildirən isimlər: qələm, kitab, dəftər, qutu, qab, divar və s.:

Xudayar bəy girdiyi yer əsla həyətə oxşamırdı; çünki burada dörd *divardan* savayı bir şey yox idi. (C.Məmmədquluzadə)

6. Mənəvi və abstrakt məfhumların adlarını bildirən isimlər:eşq, məhəbbət, həyat, xəyal, düşüncə, və s.:

Ondan ötrü qəşəng əhvalatdı ki, adam gülür, ürəyi saçılır. Yoxsa nəyə lazımdır *qəm* və *qüssə* gətirən hekayət?!

7. Təbiət hadisələrinin adlarını bildirənlər: külək, tufan, yağış, ildırım və s.:

Görəsən, *tufan* vaxtı adam su basmaz ki ?(M.Hüseyn)

8. İctimai və başqa müxtəlif hadisələrin adlarını bildirənlər: təbliğat, təşviqat, vuruş, müharibə, mitinq və s.:

İkinci Qarabağ *müharibə*si Azərbaycanın şanlı qələbəsi ilə başa çatdı.

9. Müxtəlif elm adlarını bildirən isimlər: dilçilik, ədəbiyyatşünaslıq, riyaziyyat, fizika, kimya, fəlsəfə və s.:

Dilçilik maraqlı elm sahələrindən biridir.

10. Zaman bildirən isimlər ümumi isimlər: həftə, ay, il, qış, yaz, yay, payız və s.:

İkin min iyirmici *il* , iyirmi yeddi sentyabr tarixində müharibə başladı.

11. Keyfiyyət və əlamət bildirən isimlər. Bu isimlər çox zaman sifətlərdən düzəlir. Məs.: yaxşılıq, pislik, xəstəlik və s.:

Tənbəllik, avaralıq insan əxlaqını pozur. (A. Bakıxanov)

12. Müxtəlif peşə, vəzifə, dərəcə, rütbə və ixtisas bildirən isimlər: həkim, mühəndis, müəllim, professor, alim və s.:

Müəllim aynadır, şagird ona baxıb özünü düzəldir və həmişə *müəllimini* öyrənir.

13. Hal-hərəkət, vəziyyət bildirən isimlər. M.Hüseynzadə buraya əsasən fellərdən düzələn və hal-vəziyyət məzmunu ifadə edən isimləri daxil edir: vuruş, çaxnaşıq, göstəriş və s.:

Bu söhbətdən sonra iclasda *çaxnaşıq* düşdü.

14. Yer, çay, dağ, göl, kənd və s. Bu isimlər özləri də 2 yerə bölünür:

a) varlıqları tək olan yer adları xüsusi isim hesab olunur: Moskva, Bakı, London, Araz, Nil və s.

b) eyni cinsdən olan yer adları xüsusi isim hesab olunur: ev, küçə, bostan, göl və s.:

Ömrümün *bağında* becərildi qəm,
Qalmadı nə sərvim, nə də ki laləm,
Dərd ilə sovruldu *xırmanım* tamam,
Məhv oldu sünbülüm, samanla bahəm. (Xaqani Şirvani)

Yuxarıda verilənlərdən göründüyü kimi Muxtar Hüseynzadə müxtəlif varlıqların adlarını bildirmək baxımından isimləri on dörd qrupa ayıraraq təsnifat aparmışdır. O, müxtəlif məfhumları ifadə edən bütün isimləri 3 qrupa ayırır:

1.*Konkret və abstrakt varlıqların-məfhumların adlarını bildirən isimlər:* Buraya daxil olan isimlər konkret isimlər canlı və cansız varlıqların adlarını bildirir və məzmununda əşya (canlı və cansız) anlayışı var. Bu tip isimləri ifadə edərkən bizim şüurumuzda müəyyən bir varlıq dərk edilir: alma, meyvə, gül, və s. Abstrakt məfhumları bildirən isimlər isə əşyadan xaricdə dərk edilir. Abstrakt isimlər abstrakt məfhumların adlarıdır. Bu isimlərə misal olaraq bu sözləri göstərmək olar: pislik, çirkinlik, gözəllik, yaxşılıq və s.

Dildə əvvəl konkret məfhumlarları bildirən isimlər yaranmışdır, daha sonra abstrakt məfhumları bildirən isimlər yaranmışdır. Konkret məfhumlar və abstrakt məfhumları bildirən isimlər dildə ayrı-ayrı silsilə təşkil etmir, onlar yanaşı işlənərək bir-birini tamamlayır.

2.Xüsusi və ümumi isimlər: Xüsusi isimlər bir-birinin eyni olmayan əşyanın adını bildirərək həmin əşyanın xüsusiliyini , təkliyini bildirir. Bu isimlərə insan adları və soyadları; təxəllüslər; ölkə adları; şəhər və kənd adları; dağ, dəniz və çay adları; idarə, müəssisə adları; qəzet və jurnal adları; planet adları; heyvanlara verilən adlar daxildir. Ümumi isimlər xüsusi isə bir qrupa daxil olan eynicinsli varlıqların ümumi adlarını bildirirlər.

3. Təklik və topluluq bildirən isimlər: İsimlərin çoxu tək bir sözdən ibarət olub, ayrı-ayrı varlıqların adlarını bildirir. Elə isimlər də vardır ki, cəmlik şəkilçisi qəbul etmədən topluluq mənasını bildirir. Məsələn: camaat, sürü, ilxı, cəmiyyət və s. Həm tək , həm də cəmlik bildirən isimlər cəm şəkilçisi olan -lar , -lər şəkilçisini qəbul edə bilir. Yalnız toplu isim olan camaat sözü cəm şəkilçisini qəbul etmir.

Yusif Seyidov isimləri ümumi və xüsusi isimlər olaraq iki qrupa bölür. O, ümumi isimləri müəyyən adlar altında qruplaşdıraraq təsnifat aparmışdır. Onun təsnifatına nəzər salsaq görərik ki, bu təsnifat M.Hüseynzadənin təsnifatından bir qədər fərqlənir:

a) *Məkan adları:* kənd, qəsəbə, aran, yaylaq və s.

b) *Zaman adları:* zaman, vaxt, qərinə, yaz, yay, payız, qış, yanvar, şənbə və s. Yusif Seyidov qeyd edir ki, zaman bildirən isimlər ilkin olaraq hərəkətin,hadisənin zamanını bildirmək üçün yaranmamışdır, bunlar zaman ölçülərinin adlarıdır.

c) *Təbiət hadisələrinin adları:* qar, yağış, bulud, ildırım, şimşək, günəş v s.

d) *Bitki adları:* budaq, ağac, çinar, sərv, yasəmən, qızılgül və s.

e) *Canlı aləmin adları:* adam, ceyran, maral, toyuq, ayı, pələng və s.

f) *Canlıların bədən hissələrinin adları:* baş, göz, ayaq, barmaq, ağız, və s.

g) *Qohumluq bildirən adlar:* ata, ana, baba, nəticə, nəvə, xala, bibi, əmi və s. Y. Seyidov qohumluq bildirən adların əksəriyyətinin milli xüsusiyyət daşıdığını qeyd edir.

h) *Ev əşyalarının adları:* xalça, qab, qaşıq, yorğan və s.

i) *Elm və mədəniyyət sahələrinə aid terminlər:* fonetika, leksika, morfologiya, rübai, komediya, piano, tar və s.

j) *Kütləvi informasiya sahəsinə aid adlar:* telefon,jurnal, qəzet, televiziya, diktor və s.

k) *İctimai həyatın müxtəlif sahələrinə aid söz və terminlər:* müdir, polis, nazirlik, parlament, rektor, prorektor və s.

l) *Metal adları:* polad, gümüş, mis və s.

m) *Tikinti materiallarının adları:* sement, qapı, pəncərə, daş və s.

n) *Peşə, sənətlə əlaqədar isimlər:* müəllim, memar, filoloq, mühəndis və s.

o) *Mücərrəd anlayışların adları:* xəyal, düşüncə, məhəbbət, sevgi, arzu, yaxşılıq və s.

Xüsusi isimləri isə Y.Seyidov belə qruplaşdırmışdır:

1. İnsan adları:

A) Dini və əfsanəvi adlar:

1) İnsanlığın ilkinləri sayılan mələklərin adları: Adəm və Həvva, Adəmin övladları: Habil, Qabil.

2) Allahın baş mələklərinin adları: Cəbrayıl, Mikayıl, İsrafil, Əzrail.

3) Peyğəmbərlərin adları: Xızr, Nuh, Davud, Süleyman, İbrahim, İlyas, Yunus, Yaqub, Yusif, Musa, İsa, Məhəmməd.

4) On iki imamın adları: Əli, Həsən, Hüseyn, Zeynalabdin, Məhəmmədbağır, Cəfəri-Sadıq, Museyi-Kazım, Rza, Məhəmmədtağı, Əli Əl-Nəqi, Həsən Əsgəri, Mehdi.

5) Əfsanəvi şəxslərin adları: Zevs, Loğman, Harun , Tomris və s.

B) Tarixi şəxsiyyətlərin adları: Xaqani, Nizami, Nəsimi, Xətai, Füzuli, Vaqif, Tusi, Babək və s.

C) Ədəbi surət adları: Leyli, Məcnun, Fərhad, Şirin, Koroğlu və s.

2. **Yer adları:** Azərbaycan, Bakı, İstanbul, Türkiyə, London və s.

3. **Səyyarələrin adları:** Günəş, Ay, Merkuri, Mars, Venera, Saturn, Yupiter.

4. **Əsər adları:**

A) Dörd müqəddəs kitabın adları: Quran, Tövrad, Zəbur, İncil.

B) Digər əsərlərin adları: "Leyli və Məcnun" , " Söhbətül- Əsmar" , " Dəhnamə" , " Rəşid bəy və Səadət xanım", " Poçt qutusu" və s.

Y.Seyidov isimlərin "canlı və cansız isimlər" adlı bölgüsünə qarşıdır. O bölgünün belə adlandırılmasının düzgün və dəqiq olmadığını söyləmişdir. Fikrini də belə əsaslandırır ki, sözə canlı və cansız deyilməz. O bu bölgünün "canlı və cansız əşyaların adlarını bildirən isimlər" adlandırılmasının tərəfdarıdır. Bundan əlavə Y.Seyidov bu bölgünün isimlərin leksik- semantik mənasına əsaslandığını və isim kimi bu sözlərin bir-birindən fərqlənmədiyini deyir: Azərbaycan dilində qrammatik qaydaların fəaliyyəti baxımından at ilə ot sözünün, insan sözü ilə inam sözünün fərqi yoxdur. Yəni bu sözlərdə morfoloji dəyişmələr eyni yolla əmələ gəlir. Seyidovun fikrincə bizim dilimizdə bu bölgüyə ehtiyac yoxdur. Amma rus dilində bu bölgüyə ehtiyac vardır. Çünki bu dildə canlı əşyaların adlarını bildirən isimlərlə cansız əşyaların bildirən isimlər eyni cür hallanmır və cəmlənmir. Rus dilində bu bölgü qrammatik kateqoriyaların mahiyyətinin açılmasına kömək edir.

Qəzənfər Kazımov da isimləri müxtəlif qruplara ayıraraq onları leksik-semantik cəhətdən təsnif etmişdir. O, isimləri lüğəvi mənasına görə 2 qrupa ayırır: canlı varlıqların adlarını bildirən isimlər və cansız varlıqların adlarını bildirən isimlər. Canlı və cansız varlıqların adlarını bildirən isimlər də 2 qrupa ayrılır: xüsusi və ümumi isimlər. Xüsusi və ümumi isimlərin tərifi yuxarıda verilmişdir. Xüsusi isimləri Q. Kazımov belə qruplaşdırır:

a)antroponimlər (insan adları bildirənlər. Buraya şəxsin öz adı, atasının adı, soyadı, təxəllüsü, ləqəbi daxildir)

b)toponimlər (yer adları billdirənlər)

c) ktematonimlər, kosmonimlər və hidronimlər

d)xrematonimlər (maddi-mədəniyyət əşyalarının adları, kitab, qəzet, jurnal adları)

Q. Kazımov ümumi isimləri isə belə qruplaşdırır: *yaxınlıq, qohumluq, dostluq tipli əlaqə və münasibətləri bildirən sözlər; heyvan adları bildirənlər; quş adları bildirənlər; cansız əşya adlarını bildirənlər; ictimai hadisə adlarını bildirənlər; təbiət hadisələrinin adlarını bildirənlər; zaman adları bildirənlər; məkan adlarını*

bildirənlər; elm adlarını bildirənlər; əlamət, keyfiyyət, vəziyyət adlarını bildirənlər; bədən üzvlərinin adlarını bildirənlər, mənəvi və mücərrəd anlayışların adlarını bildirənlər.

Ədəbiyyat

1.Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı, "Şərq-Qərb", 2007, 280 s..

2.Seyidov Y.M. Azərbaycan dilinin qrammatikası Morfologiya (üçüncü nəşr). Monoqrafik dərs vəsaiti. Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, 371 s..

3.Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Nurlan", 2010, 400 s..

Л.НОВРУЗОВА

О КЛАССИФИКАЦИИ ЛЕКСИКО-СЕМАНТИЧЕСКИХ ГРУПП СУЩЕСТВИТЕЛЬНЫХ

РЕЗЮМЕ

Существителные-важная частъ нашего словарного запаса. Существителные обозначают имена всех живых и неживых существ. Грамматическое значение существительного начинается с существительного, за которым следует существительное. Потому что другие части речи обусловлены существованием объекта. Существительные отличаются от других частей речи своим разнообразием. Лексические и семантические особенности всех существительных не одинаковы. Она делятся на разные лексико-семантические группы. Лексико-семантическая классификация существительных проводится различными лингвистами мира. Они пытались разработать классификацию, охватывающую все существительные. Некоторые из них были успешными, а некоторые классификации не полностью охватывали существительные лексически и семантически. Азербайджанские лингвисты Мухтар Гусейнзаде, Юсиф Сеидов и другие классифицировали существительных. Юсиф Сеидов говорит, что лексико- семантическая классификация существительных необязательно должна охватывать всех существительных в нашем языке. Он утверждает, что в нашем языке, в отличие от русского, такие группы существительных слабо связанное с грамматическими категориями.

Газанфар Казимов также входит в число наших лингвистов, которые лексически и семантически классифицируют существительные. Интересна и его классификация. Обратим внимание на классификации наших лингвистов, которые классифицируют существительные . Мы увидим, что их общей чертой является разделение существительные каждого на общие и специальные. Однако классификация существительных как нарицательных, так и собственных была разной. Но это разница не большая разница. Есть еще сходства.

Ключевые слова: существительное, лексико-семантические группы, имея в виду, типы значений существительных, особые существительное, общие существительные.

L.NOVRUZOVA

ABOUT THE CLASSIFICATION OF LEXICAL-SEMANTIC GROUPS OF NOUNS

SUMMARY

Nouns are an important part of our vocabulary. They represent the names of all living and non-living beings. The grammatical meaning of the noun begins with the noun, the order of the parts of speech in connection with the expression of the object. Because other parts of speech are conditioned by the existence of an object. Nouns are different from other parts of speech because of their variety.The lexical and semantic features of all nouns are not the same. They divide into different lexical-semantic groups. Lexical-semantic classification of nouns was carried out by Azerbaijani linguistics and world linguistics. They tried to develop a classification that covered all the nouns. Some of them were successful, and some classifications did not fully cover the nouns lexically and semantically. Azerbaijani linguists Mukhtar Huseynzade, Yusif Seyidov and others classified the nouns. Yusif Seyidov says that the lexical-semantic classification of nouns does not need to cover all nouns in our language. He argues that in our language, unlike in Russian, such groups of nouns are poorly related to grammatical categories.

Gazanfar Kazimov is also among our linguistics who classify nouns lexically and semantically. Its classification is also interesting. Let's pay attention to the classifications of our linguistics who classify nouns. We will see that their common feature is the division of the nouns of each into proper and common nouns. However , the classification within both common and proper nouns has each been different. But this difference is not a big difference. There are more similarities.

Key words: nouns, proper nouns, common nouns, lexical-semantic groups, meaning, types of meaning of nouns.

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **filologiya elmləri doktoru, professor İsmayıl Məmmədov**
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

MÖHSÜN Z.NAĞISOYLU
Akademik
AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru

ŞƏHLA A.ABDULLAYEVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin
Siyasi Sənədlər Arxivinin aparıcı məsləhətçisi

FEYZULLAH SACİD ÜLKÜNÜN HƏYAT VƏ YARADICILIĞINA QISA BAXIŞ

Açar sözlər: Feyzullah Sacid Ülkü, istiqlaliyyət, "Türk ocağı", türkçülük, "Atatürk marşı"

Şair, mütərcim, "Türk Ocağı"nın qurucularından olan Feyzullah Sacid Ülkü 1892-ci ildə Kırşehirdə, məmur ailəsində dünyaya gəlmişdir. Atası Mustafa Səbri bəyin Kırşehir Sancağı Mühasibə Baş Katibi vəzifəsində çalışdığı, anasının isə yalnız adının Əminə xanım olduğu məlumdur. Orta təhsilini Kırşehir rüşdiyyəsində alan Feyzullah Sacid daha sonra Ankara edadiyyəsini əla qiymətlərlə bitirmiş və 1908-ci ildə Mülkiyyə Məktəbinə qəbul olunmuşdur. 1912-ci ildə oradakı təhsilini də müvəffəqiyyətlə başa vuraraq, həmin ilin oktyabr ayında Kadıköy Nümunə Məktəbində Türk dili müəllimi kimi işə başlamışdır. Burada üç il işləyən F.Sacid 27 yanvar 1915-ci il tarixində əsgərliyə çağırılmış, Yıldız Yedeksubay Təlimgahında əsgəri təlimi bitirdikdən sonra kiçik leytenant rütbəsi ilə 3-cü Ordu Mənzil Nəqliyyə Birinci Batalyonuna daxil olmuş, Sarıqamış Cəbhəsinə göndərilmiş, əsgərlik dövründə Sarıqamış Cəbhəsi edadiyyəsində müəllimlik etmiş, 1918-ci ilin 1 dekabr tarixində ordudan tərxis olunmuşdur [6, s.1477; 8, s.21; 9, s.45].

Feyzullah Sacidin əsgər ikən əsgərlər üçün "Varlıq" qəzeti nəşr etdiyi qeyd olunmuşdur [6, s.1477]. Lakin şairin həyat və yaradıcılığının azsaylı tədqiqatçılarından olan Nazim Poladın araşdırmalarına görə, Sarıqamışdakı "Varlıq" qəzetinin ilk nömrəsi 1921-ci il 23 avqustda dərc olunmuşdur və 1918-ci ildə ordudan tərxis edilmiş Feyzullah Sacidin bu qəzetlə bir əlaqəsinin olması mümkün deyildir [9, s.45].

Feyzullah Sacid Türkiyə İstiqlaliyyət müharibəsinin başlanğıcında, yəni 1919-cu ilin mayından bir qədər sonra Türkiyə Kommunist Partiyası fəallarından olan,

sonralar TKP Mərkəzi Bürosunun sədri seçilmiş Mustafa Sübhi (1888-1921) ilə birgə ideoloji fəaliyyətə qatılmışdır. Həmin illərdə F.Sacid Bakıda həftədə iki dəfə çıxan "Yeni dünya" adlı qəzetin nəşrində yaxından iştirak etmişdir. Qeyd edək ki, Nazim Polad şairin Bakıda deyil, Moskvada həmin qəzetlə əməkdaşlıq etdiyini qeyd edir ki [9, s.45, 48], bu, yanlış fikirdir. Belə ki, həmin qəzet 1919-1921-ci illərdə Bakıda nəşr olunmuşdur. Qəzetin 1920-ci ilə aid 2(50)-6(54)-cü sayları Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin Elmi kitabxanasında mühafizə olunur.

Feyzullah Sacid 28 yaşında ikən, yəni 1920-ci ildə ailə həyatı qurur. Bu evlilikdən onun üç oğlu və üç qızı dünyaya gəlmişdir [6, s.1478]. Evləndikdən bir müddət sonra, 1920-ci ilin sonlarında şair kommunistlərdən uzaqlaşmaq qərarına gəlir [19]. Bunun səbəbi kimi F.Sacidin toyunun guya Mustafa Sübhinin toyu ilə Bakıda eyni gündə təşkil olunması, Sübhinin toy mərasiminin daha təmtəraqlı keçməsi və bunun şairin həsədinə, qısqanclığına səbəb olması ilə əlaqələndirirlər [bax: 9, s.45-46].

Kommunistlərlə əlaqəsini kəsən Feyzullah Sacid Türkiyəyə geri dönür və 19 noyabr 1922-ci il tarixində Namervan qəzası rəisi (qaimməqam) təyin olunur və 1932-ci ilə qədər Şavşat, Ürgüb, İncesu, Safranbolu, Baskil qəzaları qaimməqamlıqlarında çalışır. 1932-1945-ci illərdə müxtəlif məsul vəzifələrdə çalışan şair 1945-ci ilin sentyabr ayında Mülkiyyə Baş Müfəttişliyinə təyin olunur və 1952-ci il yanvar ayının 31-də təqaüdə çıxanadək orada işləyir [6, s.1477-1478]. F.Sacidin Cümhuriyyət Arxivində saxlanılan məktublarına əsasən belə qənaətə gəlmək olar ki, o, öz vəzifələrindən, işindən məmnun qalmamış və bir neçə dəfə yuxarı məqamlara üz tutaraq, ailəsini dolandıra biləcəyi bir işlə təmin olunmasını xahiş etmişdir. Nəticədə, gözlənilən cavabı almayınca, təqaüdə çıxmışdır [Bax: 9, s.46, 51]. Təqaüdə çıxdıqdan sonra ömrünün sonunadək İstanbulda yaşayan Feyzullah Sacidin 70-ci illərin əvvəllərində vəfat etdiyi məlumdur [8, s.21].

Fars, ərəb və fransız dillərini mükəmməl bilən F.Sacid 1908-ci ildən etibarən ədəbiyyat aləminə qədəm qoymuşdur. Məşhur türk alimi, şair və siyasətçisi Əhməd Tələt Onay (1885-1956) şeir yazma sənətini Feyzullah Sacidə özünün öyrətdiyini qeyd etmişdir [Bax: 9, s.46]. İlk vaxtlar "Ədəbiyyati-cədidə" cərəyanı nümayəndələrinin təsiri altında qalan F.Sacid daha sonra məşhur türk ictimai xadimi və şairi Ziya Gökalpın (1876-1924) təsiri ilə milli ədəbiyyat hərəkatına qoşulur və 1914-cü ildə ilk kitabını – "Ordumuza armağan" adlı 15 səhifəlik şeirlər toplusunu nəşr etdirir [14].

Həmçinin, o, 1912-ci ilin əvvəllərində çıxan "Rübab" jurnalının ilk 5 nömrəsinin "ədəbi müdir"i kimi jurnalın nəşrində yaxından iştirak edir [9, s.46].

1912-ci il martın 25-də yaradılmış "Türk Ocağı"nın qurucularından olan [9, s.47] Feyzullah Sacid öz yaradıcılığının müxtəlif dövrlərində müxtəlif səpkili şeirlər yazmışdır. Şairin kommunizm ideyalarına "sitayiş etdiyi" 1919-1920-ci illərdə qələmə aldığı şeirlərində bəzən Allaha qarşı etiraz, dinə mənfi münasibət sezilsə də,

türkçülük şairin bütün yaradıcılığı boyu dəyişməyən bir mövzu olaraq başlıca yeri tutmuşdur. Belə şeirlərdən bir nümunə gətirək:

Sorun bizi tarixdən, sorun bizi... Nələr der?
Yer yüzündə nə arslan bir millətiz biz ərlər!
Uğradıqca, saldıqca vəqt-vəqt və yer-yer,
İnləmişdir şu göklər, titrəmişdir bu yerlər...
Bizə dəmir biləkli, tunc yürəkli TÜRK derlər!

Bilən bilir biz kimiz?! Beş bin yıllıq millətiz!
Adımız: Gök, Yıldırım, Dəmir, Qaya, Dağ, Dəniz!
Hində, Çinə, İrana, hər yana at salan biz!
Gökdən işarət alıb, Şərqdən Qərbə geçmişiz...
Bizə Günün yoldaşı, Ayın eşi TÜRK derlər!

...Səsimiz var göklərdə, izimiz var cəhanda,
Mədəniyyət tacını geyən biziz Turfanda,
Nuh idik yer yüzündə köpürən hər tufanda,
Qanımızdan şö`lə var bu gün belə hər qanda,
Bizə soylar irmağı, şan qaynağı TÜRK derlər!

Onu da qeyd edək ki, yuxarıda bir neçə parçası nümunə gətirilən "Türklərin türküsü" adlı şeir, Nazim Poladın yazdığına görə, Türkiyədə dərs kitablarına da salınmışdır [9, s.49]. N.Polad şeirin ilk dəfə 1935-ci ildə "Birlik" jurnalında nəşr edildiyini qeyd edir, lakin həmin şeir hələ 1920-ci ildə Bakıda çap edilmiş "Fəryad" kitabında "Türkün xitabı – 4. Əski türklük" başlığı və Abdulla Şaiqə ithafla dərc olunmuşdur [1, s.31-32].

Feyzullah Sacid 1919-cu ildə "Yaradılış cilvesi" şeirlər toplusunu, 1929-cu ildə Ömər Xəyyamın rübailərinin, 1945-ci ildə isə Cəlaləddin Ruminin "Məsnəviyi-Mənəvi"sinin tərcüməsini nəşr etdirir [7; 10; 18]. Şairin həmçinin müxtəlif illərdə "Ülker", "Devrim Üzü: İnkilap sanatkarı", "Ülkü ve Şiir", "Fatih ve İstanbul", "Yahya Kemal`ın Şiirleri ve Tenkitleri", "Kore Mucizesi ve şehidin sesi" adlı kitabları çapdan çıxmışdır [11; 12; 13; 15; 16; 17].

1919-1920-ci illərdə Feyzullah Sacid Bakıda "Azərbaycan", "Yeni dünya" qəzetləri, "Qurtuluş və "Füqəra füyuzatı" jurnallarında bir sıra şeirləri ilə çıxış etmişdir. Bununla yanaşı, 1920-ci ildə şairin "Fəryad" adlı kitabı da nəşr olunmuşdur.

"Qurtuluş" jurnalının 1 aprel 1920-ci il tarixli 1-ci sayında "Fəryad" kitabı haqqında belə bir məlumat verilir: "Bu günlərdə düşmən təərrüzünə uğrayan Aydın, Zəngəzur və Naxçıvan məzlumlarına Yardım Komitəsinin nəşriyyatı olmaq üzrə möhtərəm şair Feyzullah Sacid bəyin "Fəryad" adlı bir kitabçası nəşr edilmiş və füruşa qoyulmuşdur. "Fəryad" gözəl və nəfis bir surətdə on mənzuməyi havi 32 səhifəlik bir kitabçadır. "Fəryad" həssas bir şairin lisanilə millətin ruhundan qopan

fəryadları təsvir ediyor. "Fəryad"ın satışından hasil olan fayda qaçqınlar üçündür" [5].

"Fəryad" kitabına daxil olan "Gözəl İzmirim", "İzmirli bir çocuğun türküsü", "Gönlümün fəğanı", "Hicran içində", "Türkün xitabı" və s. şeirlərində şair sevimli Vətəninin, millətinin başına gətirilən oyunlardan danışır, haqq səsini yüksəldərək milləti, torpağı üçün ədalət tələb edir.

Şair azərbaycanlı qardaşlarına "məzlum türkün böyük acılarından kiçik bir hədiyyə" adlandırdığı bu kitabın başlanğıcında azərbaycanlıları və osmanlıları "soydaşlıq aləmində yekparə və bölünməz bir şəxsiyyət" olan Böyük Türklüyün ayrılmaz iki üzvü hesab edir, onların bir-birinin – öz dil və din qardaşlarının dərdlərinə etinasız qala bilmədiklərini, acısını bölüşdüklərini belə qələmə alır: "Sevgili İzmirimizin uğradığı faciəyə qarşı azəri türkü, əminəm ki, tiyatro seyrcisi gibi qalmadı. Onun vicdan aləmini ağlatan məzlumanə fəryadlarını, qaneəm ki, ən əvvəl və ən çoq azərilər duydu. Mə`sum Zəngəzur və Naxçıvan iztirabını da ən çox və ən çabuq Osmanlı nəfəri duydu. Bunu gördüyüm üçün mütəsəlliyəm... İzmirin yarası bənim duyğumdan çox dərin, İzmirin və qardaşları Zəngəzur və Naxçıvanın fəryadı bənim fəryadımdan çox yüksəkdir" [1, s.3].

İzmir yarası şairin qəlbində böyük iz qoymuşdu. 1919-cu il 25 may tarixində İstanbulda qələmə alınmış "Gözəl İzmir" şeirində şair İzmirin yunanlar tərəfindən işğalı zamanı türk qadın və uşaqlarının başına gətirilən məzalimdən bəsh edir, doğma yurdu İzmirin dərdinə şərik olur:

Can təndən ayrılır gibi ayrıldın,
Həmiyyət xənçəri gibi sıyrıldın,
Çarpışıb kəmiklər gibi qırıldın,
İzmirim, İzmirim, şanlı İzmirim!
Dağları, taşları qanlı İzmirim! [1, s.5]

Şair beynəlxalq ictimaiyyətin bu haqsızlıqlara göz yummasından gileylənir, Uca Tanrıya səslənərək, nədən bu zülmün qarşısını almadığını soruşur, azad yaradılmış türk oğlunun bu zülmlərə artıq dözə bilmədiyini, kölə olmaqdansa, ölmənin daha gözəl seçim olduğunu vurğulayır:

Vilson susuyor, o də`va susuyor!
İnsanlar susuyor, Mövla susuyor!
Qiyamət qoparkən səma susuyor!
İzmirim, İzmirim! İnliyormusun?
Ey saxta fəzilət, dinliyormusun?

Əsir yaratmayan ulu Tanrımız!
Əsirmi doğaçaq bizim yavrumuz?
Yetməzmi toprağa girdik yarımız?
Biz də öləcəksək, yaşatmayaydın!
Sürünmək içinsə, yaratmayaydın! [1, s.7, 10]

İzmir hadisələrindən bir gün sonra qələmə alınmış "İzmirli bir çocuğun türküsü" adlı şeirində isə şair izmirli körpənin dilindən qəlbinin yanğısını dilə gətirir, gözəl Vətəninin başına gətirilənlərə qarşı haqq səsini yüksəldir:

Gətir, annəm, kəfənimi geyəyim,
Yerim yoxdur, sürünməyim cəhanda.
Məzarlara düşüb "Vətən" deyəyim,
Öksüz qaldım, vətənsizim Vətəndə.
Bən öləyim... siyah olsun kəfənim,
Al bayrağım bu gün siyahdır bənim.

Uyuyurkən evimizi basdılar,
Həmşirəmi saçlarından asdılar,
Əllərindən mıxladılar babamı,
Dağıtdılar ocağımı, obamı.
Yuvasız quş gibi nasıl yaşayım?
Yuva deyə məzarlara qoşayım? [1, s.11-12]

Şairin düşüncələrində bir kədər və üzüntüylə yanaşı, gələcəyə inam, tükrün gücünə, birliyinə, torpaq sevgisinə güvən də hiss olunur:

Getmə yolcum, getmə... düşman deyilsin,
Sən bir yaxşı soysun, yaman deyilsin,
Ocağa atəşsin, duman deyilsin,
Yurddan çıxarılır, fəqət çıxılmaz! [1, s.15]

Şair türkçüdür, onun üçün ən müqəddəs xalq – türklər, ən müqəddəs torpaq – Turandır. O, öz xəyalının həyata keçəcəyinə inanır, bir gün bu vəfasız, zalım, qaranlıq dünya üzünə bir ədalət günəşi doğacağına, Böyük Turan ideyasına tam qəlbilə inanır:

Sevilən gözəllər gözəl deyildi,
Bir gözəl sevdim ki, "Vətən" dedilər.
Vəfasız əməllər əməl deyildi,
Qoşduğum əmələ "Turan" dedilər...

Bana gizli səslər veriyor afaq:
Bitər bu ayrılıq, keçər bu nifaq...
Gördüm ki, Doğuda söküyor şafaq,
Doğacaq günəşə "Turan" dedilər! [1, s.17, 19]

Azərbaycan mətbuatında gözəl vətənpərvər şeirləri ilə çıxış edən Feyzullah Sacid üçün Azərbaycan doğma Vətəndir, şairin "Ey ruhumun milli sevdası!" deyə müraciət etdiyi üçrəngli bayraq onun da müqəddəs bayrağıdır:

Türküm! Gökdən yücə durur bənim qururum,
Qururumla yıldızlara qanad vururum!
Bən alnımı günəşlərə eş tutmam!

Bən ruhumu gölgələrlə avutmam!
Uçub gedən bulutlara baxıb da,
Al-yaşıl-göy bayrağımı unutmam!

Ey bayrağım! Ey ruhumun milli sevdası!
Ey "ideal" bəharının tazə qönçəsi!
Süzülərək mavi gökə açıl, gül,
Açmış, densin, türk ruhu bir yeni gül!
Gölgən bizi oqşayaraq sardıqca,
Bir həqiqət olsun yücə təxəyyül! [4]

Şair Azərbaycan xalqının istiqlal sevincinə də şərikdir, bu bayram onun bayramıdır, bu istiqlal onun azadlıq və müstəqilliyidir və o da digər türk qardaşlarıyla birgə bu günü fəxrlə qeyd edir:

Salamladı bizi dün
Sabahlayan, doğan gün.
Əbədiyyət içində
Bir gəlir böylə düğün.
Ey bayrağım, ey hilal!
Qutlu olsun istiqlal!

...Ey azəri-türk qızı,
Mavi, yaşıl, qırmızı
Bayrağına əlmasla
İşlə ayı, yıldızı.
Gönlünü bu eşqə sal,
Qutlu olsun istiqlal! [2]

Feyzullah Sacidin şeirlərində Tanrıdan giley öz yerini geniş tapıb. Bunu həm kommunizm ideologiyasının şairin düşüncələrinə təsiri, həm də sevimli Vətəninin, millətinin başına gələn zülmlərlə, haqsızlıqlarla əlaqələndirmək olar. Bəzən də şair bütün bu zülmlərin, bəlaların Allahın insanlara olan küskünlüyündən irəli gəldiyini düşünür:

Ey bizləri zülmlərlə ağladan,
Qəlbimizi ələmlərlə sızladan,
Ey bizlərə darğın olan Tanrımız!... [3]

Musiqiyə böyük həvəsi olmuş Feyzullah Sacidin bir neçə bəstəsi də vardır. Bunlardan ən məşhuru sözləri də şairin özünə aid olan "Atatürk marşı"dır:

Türk`e, insanlığa, hakka inandın,
Bir şimşeğe benzer kılıç kuşandın;
Avucunda ateşi nur`a çevirdin,
Karanlık geçmişi, taht`ı devirdin.

... İnsanlığı sevdin duyarak Türk`ü,
Kalbinde okudun medeniyyeti.
İnandın kardeşlik en yüce ülkü,
Ufukda gördün bir dünya cenneti!...

...Ey yüceden yüce, büyükden büyük!
Ey ülkü, ey inan, ey üstün insan!
Bir çamur küre`ye sığmaz Atatürk!...
Uyan! Güneş gibi haşşmetle uyan [6, s.1479-1480].

Feyzullah Sacid Ülkünün zəngin və çoxşaxəli yaradıcılığının böyük hissəsi, təəssüf ki, hələ də türk oxucusuna təqdim olunmamışdır. Nazim Poladın çox doğru qeyd etdiyi kimi, şairin çap olunmuş kitablarına daxil olmayan bir çox əsərləri "Hıyaban", "Mehtap", "Şehbal", "Musavver Erganun", "Tiraje", "Hakk`ın İlavesi", "İfham", "İçtihat", "Büyük Duygu", "Rübap", "Türk Yurdu", "Cümhuriyyet", "Damla", "Konya Halkevi", "Ülkü", "Yeni Türk", "Yeni Adam" kimi Türkiyə mətbu orqanlarının səhifələri arasında qalmaqdadır [bax: 9, s.51].

Ümid edirik ki, şairin tərcümələri, eləcə də istər Türkiyə, istərsə də Azərbaycan mətbuatında dərc olunmuş şeirləri tezliklə araşdırıcıların diqqətini cəlb edərək nəşr və elmi-ədəbi ictimaiyyətə təqdim olunacaqdır.

Ədəbiyyat:

1. Sacid, Feyzullah. Fəryad. Bakı, 1920
2. Sacid, Feyzullah. İstiqlal bayramı // "Azərbaycan" qəzeti, 1920, №18, s.3
3. Sacid, Feyzullah. Qurtuluş səsləri. Ailə tərbiyəmiz // "Qurtuluş" jurnalı, 1920, №1, s.5
4. Sacid, Feyzullah. Sevgili Azərbaycan için // "Azərbaycan" qəzeti, 1920, №2, s.3
5. Yeni kitab. Fəryad // "Qurtuluş" jurnalı, 1920, №1, s.10
6. Çankaya, Ali Mücellidoğlu. Yeni Mülkiye Tarihi ve Mülkiyyeliler (Mülkiye Şeref Kitabı). IV.Cilt, Ankara, Mars Matbaası, 1968-1969
7. Mevlana, Celaleddin Rumi. Ülkü, Feyzullah Sacit. Mesnevi. İstanbul: Türkiye Yayınevi, 1945
8. Mülkiyeli Bir sanatcı // Mülkiye Dergisi 4(31), 1973, s.21
9. Polat Nazım.H. Türk Ocağı Kurucularından Feyzullah Sacit Ülkü (1892-1973?) // Türk Yurdu dergisi, mart 2012, sayı: 295, s.45-51
10. Sacit, Feyzullah. Hayyam`ın rübaileri ve manzum tercümeleri. İstanbul: Cihan Matbaası, 1929
11. Ülkü, Feyzullah Sacit. Devrim Üzü: İnkilap Sanatkarı. İstanbul: Müallim Ahmet Halil Kitaphanesi, 1935
12. Ülkü, Feyzullah Sacit. Fatih ve İstanbul. İstanbul: Ülkü basımevi, 1950
13. Ülkü, Feyzullah Sacit. Kore Mucizesi ve şehidin sesi. İstanbul: Ülkü Basımevi, 1951

14. Ülkü, Feyzullah Sacit. Ordumuza Armağan. İstanbul: İkbal Kütübhanesi, Şems Matbaası, 1330
15. Ülkü, Feyzullah Sacit. Ülker. İstanbul: Halit Kitaphanesi, Türkiye Matbaası, 1932
16. Ülkü, Feyzullah Sacit. Ülkü ve Şiir. Birinci Kitap: Şiirler. İstanbul: Türkiye Yayınevi, 1948
17. Ülkü, Feyzullah Sacit. Yahya Kemal`ın Şiirleri ve Tenkitleri. İstanbul: Sıralar Matbaası, 1965
18. Ülkü, Feyzullah Sacit. Yaradılış Cilvesi. İstanbul: Kanaat Matbaası, 1335
19. Yastıman, Dursun. Şair, Bilgin və "Komünist"Füyzullah Sacit Ülkü / http://kirsehircigdem.net/sair-bilgin-ve-komunist-feyzullah-sacit-ulku/

М.НАГИСОЙЛУ, Ш.АБДУЛЛАЕВА

КРАТКИЙ ОБЗОР ЖИЗНИ И ТВОРЧЕСТВА ФЕЙЗУЛЛАХА САДЖИТА ЮЛЬКЮ

РЕЗЮМЕ

Турецкая литература является одной из великих литератур человечества. Начиная с начала XIX века, была проделана огромная работа по изучению жизни и творчества турецких поэтов. Тем не менее имеются некоторые представители турецкой литературы, как диванной поэзии (XIII-XVII вв.), так и национальной (XVIII-XX вв.), имена которых известны лишь немногим специалистам данной области. Одним из таких поэтов является Фейзуллах Саджит Юлькю, переводчик, один из основателей организации «Тюрк Оджагы» («Тюркский очаг»).

Фейзуллах Саджит, свободно владеющий арабским, персидским и французским языками, начал публикацию своих стихов с 1908 года. И в 1914 году был опубликован его первый сборник стихов под названием «Ордумуза армаган» (В дар нашей армии). В 1919-1920 гг. Фейзуллах Саджит, будучи в Баку, печатался в газетах «Азербайджан» и «Ени дунья» (Новый мир) и в журналах «Гуртулуш» (Спасение) и «Фугара фуюзаты» (На благо бедноты). Также, в 1920 году была опубликована книга «Фарьяд» (Крик) – сборник стихов, посвященный беженцам-мусульманам из Айдина, Зангезура и Нахичевани, столкнувшиеся со зверством армян.

К сожалению, большая часть творчества Ф.Саджита до сих пор не была представлена читателям и исследователям. Многие стихи, которые не включены в изданные книги поэта, все еще ждут своих исследователей на страницах турецких журналов «Хиябан» (Улица), «Мехтап» (Лунный свет), «Дамла» (Капля), «Юлькю», «Ени Адам» (Новый человек), также в азербайджанской прессе 1919-1920 гг.

Данная статья посвящена исследованию жизни и творчества Фейзуллаха Саджита Юлькю. Также в статье впервые для современного читателя

представлены стихи Ф.Саджита, опубликованные в 1919-1920 гг. в азербайджанской прессе и в сборнике «Фарьяд».

Ключевые слова: Feyzullah Sajit Ulku, independence, “Turk Ojaghi” (the Turkish Hearth), pan-Turkism, “Ataturk march”

M.NAGHISOYLU, SH.ABDULLAYEVA

A BRIEF OVERVIEW OF THE LIFE AND WORKS OF FEYZULLAH SAJIT ULKU

ABSTRACT

Turkish literature is one of the great literatures of mankind. The life and works of Turkish poets have been extensively studied since the beginning of the 19th century. However, there are some representatives of Turkish literature, both Diwan poetry (13th -17th centuries) and National period (18th-20th centuries), whose names are known only to some experts in this field. One of such poets is Feyzullah Sajit Ulku, the poet, translator and one of the founders of the organization “Turk Ojaghi” (the Turkish Hearth).

Feyzullah Sajit, fluent in Arabic, Persian and French, began publishing his poetry in 1908. His first collection of poems was published in 1914, under the title “Ordumuza Armaghan” (A Gift For Our Army). Feyzullah Sajit, being in Baku in 1919-1920, published his poems in the newspapers “Azerbaijan” and “Yeni Dunya” (the New World) and in the magazines “Gurtulush” (the Salvation) and “Fugara Fuyuzati” (For The Benefit Of The Poor). Also, the poetry collection “Faryad” (the Scream), dedicated to Muslim refugees from Aydin, Zangezur and Nakhchivan, faced with the atrocities of Armenian bandits, was published in 1920.

Unfortunately, most of the poems of F.Sajit have not yet been presented to the readers and researchers. Many poems that are not included in the published books of the poet are still waiting for their researchers on the pages of Turkish magazines “Hiyaban” (the Street), “Mehtap” (the Moonlight), “Damla” (the Drop), “Ulku”, “Yeni Adam” (the New Man), also in the Azerbaijan press of the years 1918-1920.

This article is devoted to the study of the life and works of Feyzullah Sajit Ulku. Also, in the article, the poems by F.Sajit, published in the Azerbaijan press in 1919-1920 and in “Faryad” poetry collection.

Keywords: Фейзуллах Саджит Юлькю, независимость, «Тюрк оджагы» (Тюркский очаг), пантюркизм, «Марш Ататюрка»

Redaksiyaya daxil olma tarixi: 02.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: Filologiya elmləri doktoru Paşa Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur

VÜSALƏ ELXAN QIZI AĞABƏYLI
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
Email: vusale.agabeyli@gmail.com
Orchid ID: https://orcid.org/0000-0003-1560-028X

BƏDİİ ƏDƏBİYYATDA FEMİNİZMİN SOSİAL-SİYASİ İDEALOGİYASI

Xülasə

Feminizm cərəyanını və feminist nəzəriyyələri araşdırmaq son zamanlar böyük maraq doğurur. Əslində, tədqiqat baxımından maraqlı görünən bu nəzəriyyələr feminizm sosial-siyasi idealogiyanı həm də bədii ədəbiyyata gətirir. Feminist nəzəriyyələrdə öz əksini tapan fikir və mühakimələrin bədii ədəbiyyata reprezentasiyası mütləq şəkildə mövcud olur. Tədqiqatlar göstərir ki, feminizm cərəyanı və feminist nəzəriyyələr siyasi, ictimai, tarixi, sosial və mədəni amilləri özündə cəmləşdirir. Beləliklə də, bütünlüklə kompleks şəklində həmin amillərin bədii mətnlərdə tərənnüm olunmasına yol açılır. Feminizm nəzəriyyələri ənənəvi cəmiyyətdə bir çox məsələləri olduğu kimi avtomatik qəbul edən, aksioma kimi dəyərləndirənlərin qarşısında onları düşünməyə vadar edən bir sıra sual və problemlər ortaya qoyur. İstər cəmiyyətdə, istər siyasətdə istərsə də ailədə qadın və kişi arasında daim fərq qoyulub. Qadın və kişi arasındakı fərq nədən irəli gəlir? Doğurdan da, bu fərqləndirmə onların fizioloji quruluşundan, bioloji təbiətindən asılıdırmı? Yoxsa yaşadıqları cəmiyyətin siyasi ideologiyasından, sosial-mədəni dəyərlərindən irəli gəlir? Adətən, psixoloqlar ailənin daha möhkəm, övladın psixoloji cəhətdən daha sağlam böyüməsi üçün ailədə patriorxal fiqurun – atanın daha güclü və daha zəhmli olmasının tərəfdarıdır. Bəs, görəsən, qadınların daha çox ev işləri və uşaqlara baxmaqla məşğul olmaları onların öz arzularıdır? Bəlkə bütün bunlar təbiətin deyil, cəmiyyət və ailənin onlara mədəni ənənələr vasitəsilə təlqin etdiyi dəyər və normalardır? Qadınlar çox vaxt kişilərdən istər iqtisadi, istərsə psixoloji asılı təqdim olunur. Eyni fikirlər bədii ədəbiyyatda da öz əksini tapır. Hətta zorlanma hallarında belə, əksər vaxt, kişi yox qadın günahkar çıxarılır. Bu və buna bənzər problemlərin araşdırılması və həlli yolunda aparılan araşdırmalarda gender tədqiqatçıları sistemli araşdırmalar aparır. Bütün bu kimi suallara cavab axtarışında olan feminizm nəzəriyyələri və gender tədqiqatları sağlam və demokratik cəmiyyətin bərqərar olması üçün də əhəmiyyətli rol oynayır. Cəmiyyətin feminist tənqidindən və onun əsas dəyərlərindən, tamamilə, aydın olur ki, gender problemlərinin hesabı bizim dünyagörüşümüzün əsaslarını dəyişir. Bundan başqa, gender tədqiqatları insan sivilizasiyasının tarixinin yenidən dərk edilməsi məsələsini irəli çəkir.

Açar sözlər: *feminizm, ədəbiyyat, nəzəriyyə, gender, kişi, qadın, cins*

Giriş

Cinslər arasındakı ayrı-seçkilik, onlar arasında rol bölgüsünün qeyri-bərabər aparılması cəmiyyətin bütün təbəqələrini düşündürməmişdir. İstər kişi olsun, istərsə, qadın tarixi və ənənəvi davranış qaydalarını və rol bölgüsünü olduğu kimi qəbul edir, hüquq pozuntusu, hər hansı genderə qarşı diskriminasiya məsələsini isə ümumiyyətlə, düşünmürdülər. Yəni, din, mentalitet və ənənəvi əxlaq normaları bir növ müxtəlif cəmiyyətlər üçün müqəddəsləşdiyindən ədalətin pozulması halları bəziləri üçün heç dərk edilmir. Həm qadınlar, həm də kişilər cəmiyyətdə aparılmış ümumi bölgünü qəbul edir ki, kişilər daha müstəqil, daha fəal, daha qətiyyətli addımlar ata bilər, qadınlar isə daha emosional, daha utancaq, daha çox özünü fəda edən, mətbəx işlərinə bağlı olan, uşağın qayğısı ilə məşğul olan bir varlıq olmalıdır. Qadınların hakimiyyətdə, siyasətdə yüksək vəzifələrdə təmsil olunmaması, təhsil hüququndan uzaqlaşdırılması, erkən evliliyə sövq edilməsi, etiraz səsini ucadalda bilməməsi, qarşı cinsə etiraz edə bilməməsi, zorlanma hallarında susdurulması və daha çox əzilən tərəf olması halları cəmiyyətin çox az təbəqəsini düşündürürdü. Təbii ki, ilkin olaraq, öz dəyərini dərk etməyən, öz amalını müəyyənləşdirməyən qadın öz hüquqlarını da qoruya bilməzdi. Məsələnin, xüsusilə, bu tərəfini düşünən, qabardan feministlərin hərəkatının əsas mahiyyəti də cəmiyyətdə məhz demokratik hüquqların bərpası və qorunmasına yönələn addımlar idi. Ənənəvi patriarxal dünyagörüşü sistemində mövcud olan anlayış, norma və prinsiplərə tənqidi münasibət üzərində yaranan feminizm nəzəriyyələri yeni postmodernist dünyagörüşünün, postneoklassik nəzəriyyələrin formalaşmasına təsir göstərmişdir.Çünki feminizm cəmiyyətin, mədəniyyətin, ailənin tədqiqinə metodoloji olaraq cinslərin tənqidi təhlilindən başlayır. Müasir feminizmin ənənələrə münasibəti əvvəlki yanaşmalardan fərqlidir.

Feminizmin əsas istiqaməti və mahiyyəti

Ənənəvi cəmiyyətdə kişi-insan mentallığı eyni olaraq qəbul olunur, lakin qadın mentallığı onlardan fərqli hesab olunur. Bu fikrə münasibət bildirərək Sulamif Fayerstoun özünün "Cinsin dialektikası" kitabında belə qeyd edirdi: "Əgər təbiət qadını kişidən fərqli etmişsə, cəmiyyət onu insandan fərqli edibdir." [1, s.45] Qadınlar öz təbiətindən asılı olaraq müəllim, dərzi, şəfqət bacısı, dayə olmağa üstünlük verirlər, yoxsa bu cəmiyyətin onlar qarşısında qoyduğu bir seçimdir? Niyə əksər qadınlar kişilərlə müqayisədə qayğıkeş, fədakar, namuslu, həssas, nəvazişli, mərhəmətli olur, bu onların təbiətidirmi? Eləcə də, kişilərin siyasətçi, döyüşçü, idarəçi, fəal, davakar olması onların təbiətinin məhsuludurmu? Kişiləri fərqləndirən hansı keyfiyyətlərdir ki, cəmiyyəti onlar idarə edir? Kişilərin üzərinə düşən yük, güc, qeyrət məsələləri onların özündən asılıdırmı, yoxsa bir cəmiyyətin anarxiyaya çevrilməməsi üçün mütləq şəkildə kişidə cəmləşən güc mənbəyinə ehtiyac var?

Biodetermenist konsepsiyaların tərəfdarları olan Z.Freyd, U.Spenser, T.Parsonsa kişi başlanğıcını əsas təməl hesab edirdilər. Kişi fiziki cəhətdən qadından

güclü olduğu üçün ailənin təminatı üçün evdən kənarda fiziki işlərlə məşğul olmasını, qadının isə ailə-uşaq qayğısına qalmasını təbii hesab edir və bu cür rol bölgüsünü normal qəbul edirlər. Biodetermenist nəzəriyyələrin kökündə qadın və kişi cinsini fərqləndirən cəhətlər bioloji, psixoloji və genetik dəlillərə əsaslanır. Kişilərin daha çox riyaziyyat, məntiq, fizika, kimya sahələrində, qadınların isə dil, ədəbiyyat sahələrində üstünlük əldə etmələri də bu nəzəriyyənin fonunda duran intellektual fəqləri əks etdirir. Lakin feministlər bunu patriarxal düşüncənin tərkib hissəsi kimi qəbul edərək etiraz edirlər. [6, s.4-5]

Z.Freydin psixoanalitik nəzəriyyəsi biodetermenist konsepsiyalar arasında önəmli yer tutur. Z.Freydin təhtəlşüur nəzəriyyəsinə əsaslanaraq formalaşan psixoanalitik feminizmin nümayəndələri Freydin qadın və kişilərin intim təsəvvürləri barədə müddəalarını qəbul edirdilər. Digər feministlər, xüsusilə, radikal feministlər bunu qəbul etmir. Belə ki, Freyd qadın-kişi rollarının bölgüsünün anatomiya ilə əlaqələndirir, yəni, o, qadının sosial passivliyinin, kişinin isə sosial aktivliyinin onların cinsi mənsubiyyətləri ilə əlaqəli olduğunu sübut etməyə çalışır. [14, s.383-385] Radikal feministlər isə Freydin biodetermenist konsepsiyalara əsaslanan təhtəlşüur nəzəriyyəsinə qarşı çıxaraq, hətta, öz cinsi funksiyalarından imtina etməyi çıxış yolu hesab edirlər. [12, s.122]

Sulamif Fayerstounun daha öncə qeyd etdiyimiz "Cinsin dialektikası" və digər tədqiqatları da böyük mübahisələr səbəb olmuş və gender nəzəriyyələrinin meydana çıxmasına təkan vermişdir. Fayerstoun düşünürdü ki, cinsi rolların tədricən silinməsi, qadın və kişilərin reproduktiv-produktiv rolları arasındakı fərqlərin aradan qalxması təsəvvür edilən utopik cəmiyyətdə insanların süni vasitələrlə dünyaya gətirilməsi texnologiyasının inkişafı nəticəsində mümkün ola biləcək. O, bunun üçün "bioloji inqilab" ola biləcəyini düşünürdü. [9, s.44-45]

Feminizm cərəyanları və nəzəriyyələr

Əslində, feminizm cərəyanlarının öz aralarında da problemlərə fərqli yanaşmalar müşahidə olunur. Feministlər özlərinin radikal, mülayim, siyasi-ideoloji, elmi-nəzəri yanaşmalarına görə fərqli cəbhələrə bölünmüş (radikal feminizm, psixoanalitik feminizm, liberal feminizm, sosialist-marksist feminizm, postmodern feminizm və s.) və vahid bir cəbhədə birləşə bilməmişlər. [10, s.233]

Çünki mədəni feminizm tərəfdarlarının bəziləri cinslər arasındakı fərqin bioloji fərq olduğunu, yəni yaradılışdan irəli gəldiyini deyirlər. Digər qrup feministlər isə cinslərarası fərqin cəmiyyətin yaratdığı bir fərq olduğunu, yəni, cinslərin doğulduğu cəmiyyətin keçirdiyi tarixi inkişaf prosesi nəticəsində kişilərin qadınların mədəniyyətini, xarakterini istismar etməsilə bu cür fərq yarandığını deyirlər. Mədəni feminizm nəzəriyyəsinin nümayəndələri olan Mary Dely, Ursula King və başqaları qadın mənəviyyatı və mənəvi dəyərlərini kişi mənəviyyatından daha üstün, daha humanist hesab edirlər. Eko-feministlərin nümayəndələri Mary Dally, Susan Griffin də qadın mənəviyyatının kişi mənəviyyatından üstün olduğunu

bildirsələr də, patriarxal cəmiyyət tərəfindən qadın mərhəmətinin mənfi qiymətləndirilodiyini iddia edirlər.

Liberal feminizm və sosialist-marksist feminizm tədqiqatçıları kapitalist və sosialist sistemlərin nəzəriyyələrini müdafiə etdikləri üçün onlar çox var siyasi alətə çevrilirlər. Liberal feministlər hesab edirlər ki, cinslərin qeyri-bərabərlik qadınlarda müəyyən vətəndaş və hüquqi haqların pozulması və ya olmamasının nəticəsidir. Bety Freidan və onun tərəfdarları bu cərəyanın nümayəndələri idi. [1, s.25]

Liberal feministlər radikal feministlər kimi sərt mövqedə deyillər. Onlar radikal feministlər kimi bütün hüquqların kişilərdən alınaraq qadınlara üstünlük verilməsini deyil, bərabərhüquqluluğun təmin olunmasını tələb edirlər. Qadınların həzz obyekti kimi görünməsinə, qeyri-ciddi sahələrdə işləməsinə etiraz bildirirlər. Bəzi qadınların mühakimə qabiliyyətinin zəifliyini onların ailə qayğıları ilə məşğul olduqları üçün rahat təhsil ala bilmək imkanı olmaması ilə əlaqələndirirlər. Liberal feministlər bildirir ki, qadının təhsili, peşəkarlığı onun iqtisadi müstəqilliyini artırmaqla yanaşı, onun potensial imkanlarının da açılmasına şərait yaradır. Bu baxımdan da, kişilər güclü, müstəqil, bərabər imkanlara malik qadını özlərindən asılı hala sala bilmədikləri üçün onlara qarşı çıxır. [7, s.122]

Radikal feminizmin ilk dəfə əsası qoyulmuş və klassik əsərinə çevrilmiş1949-cu ildə Simona de Bovuarın "İkinci cins" əsərində olduğu kimi, digər radikal feministlər Kate Millet, Sulamif Fayerstoun, Mary Dely və başqaları hər bir dövrdə və hər bir cəmiyyətdə qadını məzlum, kölə hesab edirlər. Onlar sosial-mədəni sitemlərin kökündən dəyişməsinin yeganə yolunu counterculture theory - əksmədəniyyət nəzəriyyəsinin tətbiq olunmasında görürdülər. Onlar qadın ədəbiyyatı, qadın mədəniyyəti, qadın musiqisi, qadın üslubu və digər sahələri fərqləndirməklə yanaşı, kişinin qadın törətdiyi zorakılıq növlərinə, intim istismara, çox uşaqlılığa təhrikə, qadınlara qarşı psixi və fiziki zorakılığa, qadından imtim obyekt kimi istifadə və təhqir edilməsinə, abortun qadağan olunmasına və bunun kimi başqa məsələlərə qarşı çıxırdılar. [9, s.56]

Feminist sosial-siyasi idealogiyanın bədii ədəbiyyata təsiri.

Simone de Bouvar "İkinci cins" əsərində yazır ki, əgər cəmiyyətdə qadın və kişi eynidirsə, niyə indiyə qədər hansısa bir kişi, kişi haqlarının qorunması, kişilərin diskriminasiyaya uğramasının qarşısını almaq üçün bizim kimi bir əsər yazmaq məcburiyyətində qalmayıb, niyə kişilər heç ehtiyac duymurlar özlərini cəmiyyətə sübut etməyə, niyə onlar kişilər nə istəyir, kişilər kimdir sualının axtarışına çıxmır? Çünki təbiət də, cəmiyyət də, hətta qadın da bilir ki, kişi nə istəyir, kişinin özünü sübut etməsinə ehtiyac yoxdur. Çünki bəşəriyyət də elə kişidir, təbiət də, tarix də kişi üçün yazılır, müharibələr də kişilər üçündür. Buna görə də Simone de Bouvar kişini *Self (özü),* qadını isə *The Other (digəri)* adlandırır. Bəs qadın niyə tez-tez mühakimə olunur ki, "qadın kimi ol, qadın kimi davran, özünü qadın kimi apar". Kimdir ki, qadın? Bouvar qadının yalnız reproduktivlik və seks üçün lazım olduğunu bildirir: *She is a womb, an ovary; she is a female: this word is enough to define her.* [4, s.40]

Bouvar qadın və kişini bir cinsin çoxalmaq məqsədi güdən iki fərqli növü hesab edir: *Males and females are two types of individuals who are differentiated within one species for the purposes of reproduction;*[4, s.41] Aristotelin, Saint Tomasın qadınlar haqqında fikirlərini tənqid edən Simone de Bouvar hətta Hippokrat təlimlərində də toxumun iki formasından bəhs olunur: zəif və ya qadın hüceyrə, güclü və ya kişi hüceyrə. [4, s.41]

Bədii ədəbiyyatda feminist yazıçı kimi tanınan Margaret Atwoodun yaradıcılığında feminist nəzəriyyələrin əsas motivləri yer alır. "The Edible Woman", "The Handmaid's Tale", "Life before Man" və s.əsərlərin müəllifi olan Atwood "The Handmaid's Tale" (1985) əsərində, eynilə, Simon de Bouvarın nəzəriyyəsində yer alan fikirləri bədii ədəbiyyata gətirərək qəhrəmanın dilindən yazır: *"We are for breeding purposes...We are two-legged wombs, that's all: sacred vessels, ambulatory chalices."* [3, s.142]

Margaret Atwood "The Handmaid's Tale" əsərində təsvir etdiyi distopik cəmiyyətdə daha öncə qadına verilən sərbəstliyin qınanıldığını və bu sərbəstliyin Qərbdən gəldiyini diqqət önünə çəkməyə çalışır: *Then I think: I used to dress like that. That was freedom. Westernized, they used to call it.* [3, s.34] Hamilə qala bilməyən, uşaqsalan, uşaq dünyaya gətirə bilməyən qadını fərqli formada klassifikasiya edən Atwood onları "Unwomen" (qeyri-qadınlar) adlandıraraq, koloniyalara sürgün olunub aclığa məhkum olmasından bəhs edir: *Unwomen go to the Colonies and starve to death. After that, reclassification I could become an Unwomen.* [3, s.34]

Doğrudan da, müasir dövrün tibb və texnologiyası o qədər sürətli inkişaf edib ki, süni mayalanmalar, cinsi əlaqə baş vermədən, kişi təmasına ehtiyac duyulmadan donor spermaların istifadəsi, qadın yumurta hüceyrələrinin xüsusi laboratoriyalarda dondurulması, şüşə borularda mayalandırılması, hətta doğulacaq uşağın qız və ya oğlan olmasını seçim etmək, tək döl, əkiz və üçüz olmasına qərar vermək və s.planlı addımlar atmaq mümkündür. Bütün bunlar isə, bəziləri üçün insani münasibətləri bir-birinə yadlaşdıran, cəmiyyət üçün isə ağır fəsadlarla nəticələnə bilən proseslər hesab olunur.

Əslində, gender tədqiqatları meydana çıxana qədər istənilən dövrün ədəbiyyatında cəmiyyətin problemləri arasında qadın məsələləri, qadın problemləri də öz əksini tapırdı. Lakin problemə yanaşma və onu təqdimetmə fərqlidir. İngiltərədə viktoriya dövrü ədəbiyyatında qadın obrazları baş rolda təqdim edilsə də, bu cür qadınlar bəzən cəmiyyətin qınağına və müzakirəsinə səbəb olurdu. Məsələn, Thomas Hardinin "Far from the Madding Crowd" (1874) əsərində iqtisadi cəhətdən heç kəsdən asılı olmayaq, sərbəst və cəsarətli olan qadın baş qəhrəman Batşeba gözəl, gənc və sahibkar olaraq təqdim edilir. Lakin buna baxmayaraq, tragik çətinliklərlə üzləşir, sağlam, gənc və fermer sahibi olmasına baxmayaraq, həyatında bir kişinin önəmli olması sanki diqqət önünə çəkilir. Elə məhz onun yaşadığı acılar da uyğun "ər" obrazını seçməyə çalışarkən ortaya çıxır.

Thomas Hardinin digər əsəri "Tess of the d'Urbervilles" (1891) əsərində isə baş qəhraman Tess, eləcə də, digər qadınlar əziyyətli, keşmə-keşli həyat tərzi sürür. Bu cəmiyyətdə kişilər daha sərbəst, qadınlardan daha üstündürlər. Günahlar və səhvlər isə yalnız qadınlara aid edilir, qınaq obyektinə, əsasən, qadınlar çevrilir: *"There she could sit by her husband's side among the beer-drinkers, and forget that the children existed. It was one of the few bright moments in her hardworking life".* Əsərdə saflığı və avamlığı ucbatından zorlanan və zorlandığı şəxsdən hamilə qalan Tess cəmiyyət və ailəsi tərəfindən qınanılır. Günah onu zorlayanda yox, Tessin özündə axtarılır. Daha sonar övladını itirən və kasıb ailəsinə daim dəstək göstərməli olan Tess çox ağır və əzablı həyat yolu keçir. Müəllif isə, qadınların zatən öz səhvləri və təcrübələri üzərində öyrəndiklərini yazır: *"...the energy of her youth to help her recover from her experience. Women do usually live through such experiences. "Where there's life there's hope" is still true for most "betrayed" women".*

Nəticə. Bəzi feminist tədqiqatçılarının əsərləri, məsələn, Elen Siksu, Rozi Braydotti, Cudit Batler əsərləri fransız feminizmini postmodernist feminizm cərəyanı kimi tanınmasına şərait yaratdı. Bu nəzəriyyənin formalaşmasında Derrida, radikal feminizm nəzəriyyələrinin, poststrukturalizmin, Lakan psixoanalizinin təsiri olmuşdur. Postmodernist feministlər dil, hakimiyyət, "qadın" anlayışı kimi mövzular ətrafında biləşərək, özlərini feminist deyil, postfeminist adlandırırlar. [8, s.55]

Əksər feministlər hesab edirlər ki, postmodernist feministlər patriarxal cəmiyyətin qadınları susdurmaq üçün yaratdığı istiqamətdir. [11, s.58] Brisona görə isə postmodernist cəmiyyətdə insanlar gender rollarını özləri seçə, dəyişdirə bilməlidirlər. Belə olarsa, cəmiyyəti idarə edən qayda və normalar ortadan qalxar. [5, s.41]

Derrida və Lakanı tənqid edən postmodernist feministlər feminizmin maskulin çərçivədən çıxaraq müstəqil formada dil və fəlsəfəsinin yaradılmasını zəruri hesab edirdilər. Bununla onlar gender bərabərliyinə əsaslanan yeni postmodernist, demokratik, multikultural dünya nizamının əsasını qoydular. [2, s. 20-21]

Gender tədqiqatları və gender nəzəriyyələrindən danışarkən onu da qeyd etmək lazımdır ki, bu nəzəriyyələrlə bağlı elmə bir sıra yeni anlayışlar da daxil oldu. Məsələn, seksizm – qadınların bioloji cins kimi ayrıseçkiliyə məruz qalması, maskulinlik – cəmiyyətdə kişinin hakimiyyətinə haqq qazandırılması, androsentrizm – insan deyəndə əsasən kişinin nəzərdə tutulması, gender linqvistikası, feminist üslubu, genderləşmiş metaforalar və s. yeni anlayışlar var ki, onların da araşdırılması başqa mövzunu əhatə edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Abasov Ə., Mirzəzadə R. , Genderə giriş, Bakı, 2004, 120 s.
2. Ataman M. Feminizm: Geleneksel uluslararası ilişkiler teorilerine alternatif yaklaşımlar demeti. Alternatif Politika, cilt 1, №1, 2009, 1-41səh.
3. Atwood M. The Handmaid's tale. London, Vintage, 1996, 322 p.
4. Beauvoir S. The Second Sex, New York, Random House, 2010, 874 p.
5. Brown P. How and why are women more polite: some evidence from a Mayan community. In: Women and language in literature and society. McConnell-Ginet S., R. Borker, N. Furman (eds.) Praeger Publishers, 1980,111-136p.
6. Çimen D. Toplumsal cinsiyet eşitliği bağlamında televizyon reklamlarında kadın. Ankara. 2011, 148 s.
7. Donovan, J. Feminist Teori: Amerikan Feminizminin Entelektüel Gelenekleri. Çev: A. Bora, İstanbul. 1997, 233 s.
8. Воронина О.А. Теоретико-методологические основы гендерных исследований // Теория и методология гендерных исследований. М. 2001. 322 с.
9. Воронина О.А. Теория и методология гендерных исследований. Под общ.ред.— М.: МЦГИ - МВШСЭН - МФФ, 2001,416 с.
10. Жеребкиной И., Харьков, Спб., Введение в гендерные исследования. Часть 1. Учебное пособие. 2001,708с.
11. Ильин Е.П. Дифференциальная психофизиология мужчины и женщины. 2002, 58 с.
12. Уэст К., Зиммерманн Д. Создание гендера // Хрестоматия к курсу «Основы гендерных исследований». М. 2001, 433с.
13. Философия, М., 1998, стр.406
14. Фрейд З. Введение в психоанализ: Лекции.- М., -1989, 633 с.

VUSALA AGHABAYLI

SOCIO-POLITICAL IDEOLOGY OF FEMINISM IN LITERATURE

SUMMARY

The study of feminism and feminist theories has recently aroused great interest. In fact, these theories, which seem interesting from a research point of view, bring the socio-political ideology of feminism to literature as well. The reflection of ideas and discussions that are being discussed by the feminist theories, inevitably find their way to the fiction. Studies show that feminism and feminist theories combine political, social, historical, social and cultural factors. Thus, it is possible to glorify these factors in literary texts in a systematically complex way. Theories of feminism raise a number of questions and problems that make those who automatically accept many issues, as well as traditional axioms in traditional society,

think about them. There is a constant distinction between men and women in society, in politics and in family. What is the difference between a man and woman? Does this distinction really depend on their physiological structure and biological nature? Or does it stem from the political ideology and socio-cultural values of the society in which they live? Usually, psychologists are in favor of a patriarchal figure in the family - the father is stronger and more awesome, so that the family is stronger and the child grows up psychologically healthier. Is it women's desire to do more housework and look after children? Maybe all these are values and norms that society and the family instill in them through cultural traditions, not nature? Women are often presented as dependent on men, both economically and psychologically. The same ideas are reflected in the literature. Even in cases of rape, women are often found guilty, not men. Gender researchers conduct systematic research to investigate and address these and similar issues. Feminist theories and gender studies, which seek answers to all these questions, also play an important role in building a healthy and democratic society. From the feminist critique of society and its core values, it is clear that the account of gender issues changes the foundations of our worldview. In addition, gender studies raise the question of a re-understanding of the history of human civilization.

Keywords: *feminism, literature, theory, gender, men, women, sex*

ВУСАЛА АГАБЕЙЛИ

СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКАЯ ИДЕОЛОГИЯ ФЕМИНИЗМА В ЛИТЕРАТУРЕ

РЕЗЮМЕ

В последнее время большой интерес вызвало изучение феминизма и феминистских теорий. Фактически, эти теории, которые кажутся интересными с исследовательской точки зрения, несут социально-политическую идеологию феминизма и в литературе. Отражение идей и дискуссии, которые обсуждаются феминистскими теориями, неизбежно переходят в художественную литературу. Исследования показывают, что феминизм и феминистские теории сочетают в себе политические, социальные, исторические, социальные и культурные факторы. Таким образом, можно систематически комплексно прославить эти факторы в художественных текстах. Теории феминизма поднимают ряд вопросов и проблем, которые заставляют задуматься о них тех, кто автоматически принимает многие проблемы, а также традиционные аксиомы в традиционном обществе. В обществе, в политике и в семье существует постоянное различие между мужчинами и женщинами. В чем разница между мужчиной и женщиной? Действительно ли это различие зависит от их физиологического строения и

биологической природы? Или это проистекает из политической идеологии и социокультурных ценностей общества, в котором они живут? Обычно психологи выступают за патриархальную фигуру в семье - отец сильнее и круче, чтобы семья крепче, а ребенок рос психологически здоровее. Желание женщин больше заниматься домашним хозяйством и заботиться о детях? Может быть, все это ценности и нормы, которые общество и семья прививают им через культурные традиции, а не природу? Женщин часто представляют зависимыми от мужчин как в экономическом, так и в психологическом плане. Те же идеи отражены в литературе. Даже в случаях изнасилования часто виновными признаются женщины, а не мужчины. Гендерные исследователи проводят систематические исследования для изучения и решения этих и подобных проблем. Феминистские теории и гендерные исследования, которые ищут ответы на все эти вопросы, также играют важную роль в построении здорового и демократического общества. Из феминистской критики общества и его основных ценностей становится ясно, что учет гендерных вопросов меняет основы нашего мировоззрения. Кроме того, гендерные исследования поднимают вопрос о переосмыслении истории человеческой цивилизации.

Ключевые слова: *феминизм, литература, теория, гендер, мужчины, женщины, пол.*

Redaksiyaya daxil olma tarixi: 29.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya üzrə fəlsəfə doktoru Mahirə Hacıyeva**
tərəfindən çapa tövsiyə olunmuşdur

ATƏŞ ƏHMƏDLI

AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru,
atesehmedli@gmail.com

CABBAR SÜLEYMANOV
Bakı şəhər Mədəniyyət və Turizm Baş İdarəsi,
Şövkət Ələkbərova adına mədəniyyət evinin direktoru,
Cabar1957@bk.ru

AZƏRBAYCANLI AZSAYLILAR VƏ AZƏRBAYCAN FOLKLORU
(Şimal-şərq bölgəsi örnəkləri əsasında)

Xülasə

Məqalədə Azərbaycanın şimal-şərq hissəsində məskunlaşmış azsaylı xalqların ənənəvi mədəniyyətindən söz açılır. Məlum olur ki, bu xalqların ənənəvi mədəniyyəti Azərbaycan türkləri ilə daim təmasda inkişaf etmiş, formalaşmış və hazırkı səviyyəsinə gəlib çatmışdır. Ümumulikdə, bölgənin folklor mənzərəsi kifayət qədər dolğun və rəngarəng təsir bağışlayır. Konkret baxdıqda, epik yaradıcılığa aid nümunələrin bölgədə daha yayğın olduğunu görə bilirik. Dini mövzuda olan mətnlər bu anlamda üstünlük təşkil edir. Lirik səpkili örnəklərsə, əsasən, mərasimlərlə ilişkili təşəkkül tapmış və sonra da bölgədə genişlənmişdir. Tək-tək aşıq mövzularına rast gəlinsə də, ümumiyyətlə, aşıq sənəti bölğə üçün tarixən səciyyəvi olmayıb.

Araşdırma onu da əsaslandırdı ki, müxtəlif xalqların ortaq yaşadığı bu sosial-kulturoloji sfera ənənəvi dəyərlərə dayanaqlandığı üçün məhz bu günkü səviyyəyə yüksəlmişdir. Bu mövqe quruculuq işlərinə təminat olmasından savayı, həmin xalqların təhlükəsiz güzaran sürməsini də bir növ sığortalamışdır. Heç şübhəsiz ki, nə qədər aborigen xalqla inteqrasiya olunsalar da, kiçikliyindən asılı olmayaraq, bölgədə yaşayan hər bir xalqın özünəməxsus yaradıcılıq sahələri də vardır. Belə lokallaşma həmin xalqların lətifə janrına münasibətində daha səciyyəvi planda təzahürlənə bilir. Bu da əsas verir ki, hər bir azsaylı xalqın özünəməxsus qəhrəmam tipi ilə tanış olaq.

Fərqli dinlərə mənsub xalqların müsəlmanlarla birgə yaşaması bölgənin digər özəl bir cəhəti kimi diqqəti cəlb edir. Bu xalqlar öz milli və dini ənənəsini saxlamaqda tam sərbəstdirlər və bu anlamda heç zaman bölgədə təpki ilə üzləşməyiblər. Dağ yəhudiləri və xristianlar istisna olunmaqla, müsəlman qövmündən olan xalqların dini mahiyyət daşıyan ənənəvi mədəniyyəti, inancları, ritual və mərasimləri bir-birinə olduqca yaxındır. Bu da onlara bütöv bir mədəni sistemin oxşar komponentləri kimi yanaşmamıza imkan yaradır.

Önəmlisi odur ki, tolerantlıq hissi bölgədə olduqca güclü və dayanıqlıdır. Burada məskunlaşmış digər dinlərə mənsub insanların (məs. yəhudi, rus və qeyrilərinin) müsəlman qövmündən olanlarla əmin-amanlıq şəraitində yaşamaları və fəaliyyət göstərmələri üçün belə bir durum olduqca zəruridir. Bu həm azərbaycançılıq ruhunun bölgədə bərqərar olmasına, həm də vahid ideya əsasında ölkənin təhlükəsiz və təminatlı idarə olunmasına imkanlar açır. Düşünürük ki, bölgədə yaşayan xalqlar məhz bu xəttə dayanaqlanmaqla istənilən münasibətlər fonunda bir-biri ilə daha sıx inteqrasiya oluna və mədəniyyətlərini zənginləşdirə bilərlər.

Açar sözlər: azərbaycançılıq, azsaylılar, aborigen, tolerantlıq, ənənə, folklor, milli-mədəni

Giriş

Qədim mədəni mərkəzlərdən olan Dərbənd, Quba, Şabran və o cümlədən, Azərbaycanın şimal-şərq hissəsində yerləşən şəhərləri istər miladdan öncə, istərsə də sonrakı tarixi dönəmlərdə vaxtaşırı baş verən hərbi-siyasi yerdəyişmələrin, böyük köç etmələrin, ticarət, səyahət və digər təyinatlı gediş-gəlişlərin kəsişdiyi məntəqələrinə çevrilmişdir ki, bu da öz növbəsində həmin orientdə sosial həyatın dirçəlməsinə və yüksəlişinə öz təsirini göstərmişdir. Özəlliklə də, orta əsrlərdə Səfəvilərin əraziyə hərbi-siyasi yürüşlərinin baş verdiyi dönəmlərdə burada iri mərkəzlər yaradılmış, tikinti və bərpa işləri daha da sürətlənmişdir. Önəmlisi odur ki, həmin tikililərin meydana gəlməsinin özü maraqlı hadisələrlə ilişkilidir və həmin hadisələr də (mətndən öncəki təfərrüatlar) sonrakı yaradıcılıq üçün mənbə olmuş, ən əsası isə folklor qəliblərində təkmilləşərək yeni məzmun və mündəricə qazanmışdır. Bir sözlə, regionda yeni maddi mədəniyyət abidələrinin meydana gəlməsi buradakı mövcud mənəvi mədəniyyət sahələrinin də təkmilləşməsinə stimul vermişdir.

Quba da qatılmaqla Azərbaycanın şimal ərazilərində Qafqaz-İber dillərində danışan bir sıra azsaylı xalq yaşayır. Həmin kiçik xalqlara misal olaraq Şahdağ qrupu xalqlarından buduqları, qrızları və xınalıqları qeyd etmək olar. Digər müsəlman mənsublu tat əhali isə ərazidə daha geniş miqyasda yayılmışdır. Onlar əsasən şimaldan üzü Abşeron yarımadasına uzanan Xəzərətrafı ərazilərdə məskundurlar. Dağ yəhudiləri kimi məlum xalq isə tarixən Qırmızı qəsəbədə oturaqlaşmışdır. Onların bu ərazidə mövcud olması daha əvvəlki dönəmlərlə bağlıdır və hesablamalara görə bu dönəm iki min ilə yaxın bir dövrü əhatələyir (Alimlər dağ yəhudilərinin türk tayfası kimi bildiyimiz xəzərlərdən törəmə olduqlarını iddia edirlər). Bütün bu xalqların azərbaycanlılarla (oğuz türkləri ilə) əlaqələri tarixən təşəkkül tapmış dostluq və qohumluq münasibətlərinə əsaslanır. Əlavə edək ki, ərazidə nominal həddə ruslar da məskunlaşmışdır. Quba rusları XVIII əsrin sonunda dinə və kilsəyə qarşı çıxdıqlarına görə Rusiyadan Azərbaycana sürgün edilmiş malakanların varisləri hesab olunur. Bundan başqa, Qafqaz dillərinə mənsub olan

ləzgilər, ceklər kimi azsaylı xalqlar və digər etnik qruplar da hazırda ərazidə güzəran keçirməkdədir.

Azərbaycanda yaşayan azsaylılar uzun müddətdir ki, aborigen oğuzlarla mədəni və qohumluq əlaqələri zəminində inteqrasiyadadır. Belə bir hal ölkədə tolerantlıq ənənəsinin hələ çox-çox əvvəllər mövcud olduğundan xəbər verir. Bu əlaqələr həmin xalqların sosial-mədəni inkişafını təmin etməsi ilə yanaşı, həm də dövlətçiliyimizin inkişafını şərtləndirməsindən dolayı əhəmiyyətli hesab olunmalıdır. Ümumi cəhətlərinə görə oxşar təzahürlənsə də, maraqlıdır ki, hər bir azsaylı xalqın özünəməxsus səciyyəsi, adət-ənənəsi və folklor yaradıcılığı vardır. Öncə diqqətimizi bu xalqların daha çeşidli bərqərar olduğu Quba ərazisinə yönəldək.

Tarixi qaynaqlarda Quba toponiminin türk mənşəli olduğunu əsaslandıran kifayət qədər fakta rast gəlmək mümkündür. Məsələn, Qubanın qıpçak mənşəli tayfadan olduğu, Çerik (Qırğızıstanda ərazidir) tayfası tərkibinə daxil olan nəsillərdən sayıldığı, Fərqanə vilayətindəki Quba adlı şəhərlə eyni toponimik mahiyyət daşıdığı, Qarabağın aran hissəsindəki Quba toponimi ilə bağlılığı və s. haqda bu qaynaqlardan məlumat almaq olur (1, 82-83).

Siyasi coğrafiyasına görə Quba və ona bitişik ərazilər bir vaxtlar dövlətçilik tariximizdə mühüm mərhələ təşkil etmiş antik dövr Qafqaz Albaniyasının tabeliyində olub. Sonralar Şirvanşahlığın nəzarəti altına keçən bu ərazilər uzun müddət Şirvan şahları tərəfindən idarə olunub. Daha sonra isə həmin ərazilər Səfəvi dövlətinin tərkibində olmuş və xanlıqlar dövrünədək bu sürəc davam etmişdir. XIX əsrin əvvəllərindən etibarən isə vəziyyət kökündən dəyişdi. Belə ki, digər şimal ərazilərimiz kimi bu bölgə də Çar Rusiyası tərəfindən işğal olundu. XX əsrin əvvəllərinədək davam edən bu asılılığa Azərbaycanda çağdaş Cümhuriyyətin yaranması ilə son qoyulmuşdur. Qeyd üçün deyək ki, rusların işğalınadək bu bölgə müstəqil Quba xanlığı tərəfindən idarə olunub. A. Bakıxanovun "Gülüstani-İrəm" əsərində Qubanın adı o dövrün mərkəzi şəhərlərindən biri kimi qeyd olunur (2,13). Bu anlamda Quba və ətrafı artıq o dövrdə mədəni mərkəz kimi tanınırdı. İnzibati mərkəz kimi yüksəlişi təbii ki, şəhərin sosial - mədəni yüksəlişini də təmin etməli idi. Mədəniyyətin ən qədim qatları isə folklor və özəlliklə etnoqrafiyaya dair bilgilərə dayanıqlıdır.

Tatlar. Azərbaycanda ən geniş yayılmış etnik qrupdur. Əkinçiliklə məşğul olan əhali el arasında belə adlanarmış. Daha çox oturaq olduqları ərazilər Bakı (Abşeron yarımadası), Quba, Xızı, Şabran (Dəvəçi) və İsmayıllı rayonlarıdır (3, 37). Azərbaycanlılarla (oğuz türkləri ilə) birgə yaşayışa yiyələnmələri onların mənəvi yaradıcılıq sahələrinə də təsirsiz qalmamış, vəsf etdiklərində bu mahiyyət əksər hallarda açıq biruzə verilmişdir. Odur ki, ənənələrinə bağlı olmalarına baxmayaraq, həmin xalqlar bir çox yaradıcılıq aktlarında yerli (aborigen) xalqla təmasda iştirak etmiş, ortaq mövqe daşıdıqlarını bu vasitəylə ifadə etməyə çalışmışlar. Xüsusən də tat qadınları məişət işləri görən zaman türk xalqlarına məxsus bayatı, nəğmə düzüb-qoşar və səsləndirərdilər. Məsələn:

Nehrəm gəl, nehrəm,
Evimə qonaq gəlibdi.
Aşım yavan qalıbdı,
Nehrəm gəl, nehrəm.

Qodu-qodu mərasimi. Belə əhali üçün havanın necə olacağı başlıca şərt idi. Ritualın icrası bundan ibarət idi ki, ağac götürülərdi və qadın formasında bəzədilərdi. Əgər yağışa ehtiyac var idisə onu yaşıl rəngdə bəzəyər və qapı-qapı gəzdirərdilər. Sonra da cavan qızlar aşağıdakı misraları deyərdilər:

Qudu-qudu xoş gəldi,
Ardınca yağış gəldi.

Cavanlar çaylara gedərdilər, oradan çay daşı götürüb gələrdilər. Sonra da həmin daşla bulağın ağzını örtərək aşağıdakı misraları deyərdilər:

Çay daşı, çaxmaq daşı,
Xuda versin yağışı.

Elə olur ki, yağış çox yağır, hər tərəfi su basır. Belə halda onlar qodunu qırmızı rəngli parça ilə bəzəyərdilər. Bu isə artıq yağışın kəsilməsinə istəyi ifadə edirdi. Əski təsəvvürdə qırmızı rəng günəşin rəmzi idi. Ritual bayatı söylənilməklə müşaiyət olunardı. Üzlərini səmaya tutub həmin bayatıları avazla oxuyardılar:

Qodu qodunu gördünmü?
Qoduya salam verdinmi?
Ay dolanıb, batmağa,
Yaxın gəlib, yatmağa,
Yağış yağıb, islanıb
Gün gərək, qurutmağa.

Toy adətləri. Mağar quran zaman şax gətirilər, həmin şaxdan kəsib mağarı qurardılar. Ağacın qol-budağilə isə mağarı bəzəyərdilər. Qızlar bir yerə yığışar, ayinlər keçirərdilər. Oğlan evindən qız evinə xına gətirilərdi. Gəlin xınalanardı, sonra da yerdə qalan qızlar xınadan əllərinə yaxardılar. Elçilik, qızgördü, xınayaxdı eynilə oğuz turklərində olduğu kimidir.

Tatların dini bayramları da aborigen xalqdakından heç nəyi ilə fərqlənmir. Qurban və Ramazan bayramlarını bu mənada qeyd etmək olar. Novruz bayramı da elə bir fərqli səciyyədə keçirilmir. Səməni yetişdirilir, şirniyyatlar bişirilir, süfrəyə çərəz qoyulur və s. Çərşənbədə su üstünə gedərlər, çaydan bir dolab su gətirib ev-eşiyi yuyar, yığışdırarlar. Bayram günü kim yatardısa onun paltarını döşəyinə tikər, bəxtlərinin açılması arzusuyla qızlar ritual lar keçirərdilər.

Ərazi üzrə tatlar Qubada daha çox yayğındır və yerli əhali ilə sıx assimilyasiya olunublar. Bunun da əlamətləri sosial və mədəni həyatın bütün sferalarında hiss olunmaqdadır. Toy, yas demək olar ki, eyni ilə keçirilir. Folklorları isə ümumtürk folklorunun tərkib hissəsidir desək, yanılmarıq. Nağıl, bayatı və atalar sözü kimi

janrlarda bu mahiyyət aydın təsbit olunmuşdur. Qeyd üçün deyək ki, mərasimləri sərgilədən elementlər bu folklorda daha üstün mövqedədir.

Xatırladaq ki, Quba çoxmillətli ərazidir və bu xüsusiyyət Qubada yaranan folklorda da təzahürlənməkdədir. Özəlliklə lətifələrdə bu hal daha qabarıq büruzə verilir. Bəzi hallarda lətifə qəhrəmanları tat, digər halda kumuk, ya da buduk və s. azsaylılardan olur. Əslində belə bir yaradıcılıq prosesi həmin qrupların mental xüsusiyyətlərinə əsaslanır ki, digər məziyyətlər öz yerində, məhz bu cəhət baş qəhrəmanına ("etnik oppozisiya"lılığa) görə mövzunu səciyyələndirməyə imkan yaradır. Bu anlamda qəhrəmanı tat olan bir lətifəyə diqqət çəkək: "Bir tat qonşu kəndə kisə ilə qənd almağa gedir. Yolu cəspərdən – sıldırımlı qayalıqdan keçir. Kisəni eşşəyinə yükləyib geri qayıdan tat həmin sıldırımı keçəndə bərk tufan başlayır. Külək eşşəyi qayadan atır, qənd dərəyə düşüb islanır. Özü isə imkan tapıb qayaların arasında gizlənir. Bu vaxt ildırım çaxır, ətraf işıqlanır. Tat baxır ki, eşşək qayadan yıxılıb ölüb, qənd də ki, ələ gələsi deyil. Üzün göyə tutub deyir: "Külək əsdirdin, eşşək qayadan düşüb öldü, yağış yağdırdın, qənd islanıb heç oldu, indi də əlində çıraq axtarırsan ki, məni tapıb öldürəsən?!" (4).

Aşıq yaradıcılığı. Tatlar üçün aşıq yaradıcılığı o qədər də səciyyəvi deyil. Ancaq istisna hallarda onların arasında bu sahəyə də meyl göstərənlərin olduğunu araşdırma zamanı müəyyənləşdirə bildik. Belə ki, Qubanın Xaltanlı kəndindən olan Tağı bu sahədə özünü sınamış, aşıq ruhunda şeirlər yazmış, bədahətən sözlər qoşmuşdur. Doğulduğu obasının adını özünə təxəllüs götürmüş aşığı el arasında Xaltanlı Tağı deyə çağırarlarmış. Bölgədə aşıq haqqında bir çox məzəli əhvalatlar dolaşmaqdadır və onlardan birini burada qeyd etməyi lazım bildik. Deyilənə görə, Tağı çox kasıb olduğu üçün vaxtikən ailə qura bilməmişdir. Bunların da kəndində Xəlil adlı varlı bir bəy yaşayırmış. Tağı gedib Xəlil bəyə müraciət edir ki, ondan borc pul alsın və özünə toy etsin. Şair təbli olduğu üçün Tağı sözünə şeirlə başlayır:

Xəlil ağa səni deyib gəlmişəm,
Eşitmişəm aşığa şərafətin var.
Kasıbı dikəldən, acı doyduran,
Kəbeyi-Beytullahdan ziyarətin var.

Xəlil ağa aşığı dinləyir, amma əvvəlcə bir şey başa düşmür. Tağıya deyir ki, mətləbini aydın açıqlasın. Tağı sözünə şeirlə davam edir:

Başda ipək çarşab, dərayi-bafta
Arif olan geyməz, qoymaz zər-bafta
Nadan deyər, hər şeyin ucuzu gərək.

Xəlil bəy başa düşür ki, bunun sonrası ona baha başa gələcək. Odur ki, bəri başdan əlin atır cibinə və beş qramlıq bir qızıl çıxardıb verir Tağıya. Kasıb olsa da Tağı çox ürəyi geniş adam olub. Bura gələndə el-oba adəti üzrə Xəlil bəyə bir arı şanı sovqat da gətiribmiş. Tağı anlayır ki, bu beş qramlıq qızıl gətirdiyi şanını ödəməyəcək, nəinki artıq ola. Odur ki, pulu götürmür, şanıya da məhəl qoymayıb, sonda aşağıdakı misraları söyləyərək Xəlil bəylə vidalaşıb oradan çıxır:

Qarğadan qaz olmaz, quzğundan ördək.
Ətdən quyruq olmaz, dalaqdan böyrək.
Köhlən at tövləsində bəslənsə eşşək
Tükü təmiz olar, özü at omaz (4).

Azərbaycanda məskunlaşmış **yəhudilərin** böyük bir qismi əsasən Qubada (Qırmızı qəsəbədə) oturaqlaşmışdır. Yəhudi qövmünün də özünəməxsus folkloru və etnoqrafiyası vardır. Özəlliklə dini bayramları müsəlman qövmündən olanların bayramlarından seçilməkdədir. Bu mənada onların özünəməxsus "qurban kəsmə" mərasimləri vardır. "Yum Küpür" adlanan bu mərasim əsasən günahların bağışlanması günü kimi onların arasında qeyd olunur. Belə bir inam mövcuddur ki, (indiki, olsun ki, keçmişdə yaşanmış və gələcəkdə baş verə biləcək) günahlardan hifz olunması üçün insan mütləq qurban kəsməlidir. Bu məqsədlə oğlan uşaqları üçün xoruz, qız uşaqları üçün isə toyuq kəsilir. "Yum Küpür" bu qövmün arasında "Roşa Şana" (Yeni il) kimi qeyd olunan bayramdan təxminən on gün sonra keçirilir. Əsasən sentyabr-oktyabr aylarında keçirilən "Roşa Şana" gəzən bayramlara aiddir. Əvvəlki illə müqayisədə yetişəcək növbəti ildə bayramın keçirilməsi adətən fərqli dövrə düşür. Bu fərq təxminən 18 gün civarında olur. Ümumiyyətlə, yəhudi bayramlarının böyük əksəriyyəti gəzən təqvimlə ilişkilidir. "Yum Küpür"də bir gün oruc da tutulur. Qeyd üçün deyək ki, yəhudi xalqı bir il ərzində cəmi altı gün oruc tutur. Bunun da birincisi yeni ilin – "Roşa Şana"nın başlanğıcına təsadüf edir.

Dəfn adətləri bir, yeddi, otuz gün mərasimi ilə müşaiyət olunur. Adət üzrə mərhumun ili on bir ayda da keçirilə bilir. Ancaq bu o halda mümkün hesab olunur ki, hüzür yiyəsi ölən adam üçün hər il ehsan vermək istəyində olsun. Digər illərdə ehsan nəzərdə tutulmursa, o zaman mərhumun ili on iki ayın tamamında keçirilir.

Pesax əsasən aprel ayında keçirilən müqəddəs dini bayramdır. Bayram adətən səkkiz gün çəkir. Tipologiyasına görə xristianların "Pasxa", müsəlmanların "Novruz"u ilə müqayisə oluna bilər. Bayramda hər şey təzələnir. Hətta bayrama qədər istifadə olunmamış ərzaqlar belə bir qayda olaraq evdən yığışdırılır. Paylanılası paylanır, evdə qalanı isə Pesax qurtaranadək üzə çıxarılmır. Yəhudilərin pritçalarında (rəvayətlərində) bayramları haqqında ətraflı məlumat verilmişdir.

Şabran rayonu Böyük qafqazın şimal-şərqində yerləşir. Rayonun təxminən beşdə bir hissəyədək ərazisi şərqdən Xəzər dənizi ilə əhatə olunmuşdur. Bu cəhət ərazinin yerləşdiyi mövqeyi daha da əlverişli etmişdir. Mərkəzi şəhər də daxil olmaqla, rayon əvəllər Dəvəçi (Dəvəçibazar) adlanmışdır. Bizim eranin ikinci əsrində Ptolomeyə aid mənbədə şəhərin adı Şapothrenae kimi qeyd olunur. Digər mənbələrə görə Şabran şəhəri erkən orta əsrlərdə Şərvan vilayətinin mərkəzi və Massaget Arşakilərinin siyasi mərkəzi olmuşdur. Son illər ərzində ciddi arxeoloji işlər aparılmış ərazidə bir çox əhəmiyyətli tarixi qatlar üzə çıxarılmışdır. Tarixdən vilayət kimi bildiyimiz və eynilə şəhər tipli mövcud olmuş Şəraban (Şəbran) ərazisindən kifayət qədər maddi sübutlar aşkarlanmışdır ki, bu da ərazinin əhəmiyyətli inkişaf

dövrü keçirdiyini bir növ əsaslandırır. Bəzi mənbələrdə Şabranın Sasani hökmdarı I Xosrov Ənuşirəvanın dövründə (531-579) salındığı bildirilir.

Bundan başqa hazırda ərazidə bir çox maddi sübutlar mövcuddur ki, bunlar da ərazinin mühüm tarixi və mədəni inkişaf mərhələlərindən keçdiyini vurğuladır. Bu tarixi-mədəni abidələrdən Çıraqqala özəlliklə qeyd olunmalıdır. Memarlıq üslubu qalanın müdafiə məqsədi üçün tikildiyini bəlli edir. Qalanın baş bürcünün üzərində tonqal yandırılarmış ki, bu da düşmənin yaxınlıqda olduğuna xəbərdarlıq işarəsi imiş. Rəvayətə görə Çıraqqala sözü də buradan yaranmışdır.

Ərazinin belə əhəmiyyətli tarixə malik olması şübhəsiz ki, onun zəngin qeyri-maddi irsə də məxsus olduğuna dəlalət edir. Şabranın musiqi ilə müşayiət olunun kaloritli folkloru vardır. Əsasən bu musiqi "Çıraqqala" zurnaçılar xalq kollektivinin ifasında təqdim olunur. Kollektiv sırf multikultural zəmində təşkil olunmuş, burada aparıcı xalqdan başqa tat, ləzgi və digər azlıqların da nümayəndələri yer almışdır. "Şabran yallısı", "Cəngi" kimi musiqi və rəqs ifaları onların repertuarında daha üstün mövqedədir. Azərbaycançılığa təməl olması, fikrimizcə, bu musiqinin geniş şəkildə təbliğini şərtləndirmişdir. Qeyd üçün deyək ki, "Çıraqqala" zözü ərazidə çox yayğındır və məğrurluq rəmzi daşıdığına görə bu ifadə müxtəlif sahələrə sirayət etmiş, geniş işləklik qazanmışdır.

Rayonda həmçinin "Xınayaxdı" adı ilə tanınan xaql kollektivi də fəaliyyət göstərir. Dağbilici kənd mədəniyyət evinin nəzdində yaradılan və etnik azlıqların da təmsil olunduğu bu kollektivin özünəməxsus repertuarı vardır. Folklor tərtibatlı mahnı və rəqs ifaları kollektivin repertuarında üstünlük təşkil edir. Toy mərasimlərimizin əsas tərkib hissələrindən olan "elçilik", "nişan", "xınayaxdı" ritualları, o cümlədən əkinçilik həyatı ilə bağlı kompleks mərasimlər kollektivin repertuarında daha geniş təbliğ olunmaqdadır.

Şabran ərazi baxımından Quba-Siyəzən orientinə düşdüyündən bu orienti əhatələyən tematika da ərazinin folklor düzənində aparıcı mövqedədir.

Maraqlıdır ki, Azərbaycanda bir çox müqəddəs yerlər və ziyarətgahlar vardır ki, həmin yerləri qeyri millətlərdən və dinlərdən olan insanlar da ziyarət edirlər. Bu səciyyəli yerlərdən biri də "Beş barmaq" dağında yerləşmiş və "Xıdır Zində" kimi bizə tanıdılmış ziyarətgahdır. Tarix və Zaman diktə edir ki, bu səciyyəli yerlər təkcə ziyarətgah funksiyası daşımamış, bəşəri mahiyyət kəsb etməsilə həm də insanlığı cazibəsinə sala bilmişdir.

Özəlliklə də, Xızır peyğəmbərlə əlaqələndirildiyindən bu yer insanlığa daha maraqlı və cazibədar görünür. Bu haqda ərazidə çoxlu əfsanə və rəvayətlər də dolaşmaqdadır. Önəmlisi odur ki, istər aparıcı etnos olsun, istərsə də yerli azlıqlar, ərazinin bütün sakinləri bu türlü örnəkləri əcdadlarının "mənəvi mirası" hesab edir, onlara "sakral dəyər" kimi yanaşırlar. Belə örnəklərdən birinin qısa süjeti ilə tanış olaq: "El yaddaşında belə söz-söhbət gəzir ki, guya Beşbarmaq dağı bir vaxt üç qardaşın pənah yeri, məskəni, yurd-yuvası imiş. Qardaşlar bir-birinə can deyib, can eşidər, arxa, dayaq durarmışlar. Böyük qardaşın sözü, tapşırığı özündən balacalar üçün qanun imiş.

Onun adı Xıdır-Zində, ortancıl qardaşın adı Xıdır-İlyas, sonbeşiyinin adı isə Xıdır-Nəbi imiş. Günlərin bir günü böyük qardaş kiçik qardaşı yanına çağırır. Ona bir xəlbir uzadıb qayıdır ki, susuzluqdan dilim-dodağım quruyub. Tez ol, mənə bir su! Xıdır Nəbi xəlbir əlində su ardınca Xəzərə tərəf cumur. Xəlbiri suya salır, nə qədər əlləşirsə su götürə bilmir. Böyük qardaş da gözləyə-gözləyə qalır. Kiçik qardaşından bir səs-soraq çıxmadığını görüb, bu dəfə su götürmək üçün Xıdır İlyası yollayır. Ortancıl qardaşın da gəlib çıxmadığını görüb təşvişə düşür. Sonbeşiklə ortancıl qardaş böyük qardaşlarının tapşırıqlarını yerinə yetirə bilmədiklərini görüb Allaha yalvarıb-yaxarır, daşa dönmələri üçün dualar oxuyur. Xıdır-Zində Baba dağı ilə üzbəüz Xəzərdəki sal qayalar deyirlər ki, daşa dönmüş qardaşlardır" (5, 66-67).

Nəticə

Beləliklə, Azərbaycanın Şimal-Şərq hissəsindəki mövcud təbii-sosial və mədəni şəraiti ötəri də olsa gözdən keçirtdik. Araşdırmamızdan məlum oldu ki, müxtəlif xalqların ortaq yaşadığı bu sosial-kulturoloji sfera ənənəsinə dayanaqlı olduğu üçün bu günkü səviyyəyə yüksəlmişdir. Araşdırma onu da əsaslandırdı ki, nə qədər inteqrasiya olunsalar da, kiçikliyindən asılı olmayaraq, bölgədə məskunlaşmış hər bir xalqın özünəməxsus yaradıcılıq sahələri də vardır. Önəmlisi odur ki, tolerantlıq hissinin bölgədə güclü olması burada məskunlaşmış digər dinə mənsub insanların da (məs. yəhudi, rus və qeyrilərinin) müsəlmanlarla əmin-amanlıq şəraitində yaşamasını təmin etmişdir. Bu həm aparıcı etnosun onlara münasibətini bariz şəkildə ortaya çıxarır, həm də azərbaycançılıq ideyasının bölgədə bərqərar olmasına, bu ideyanın həmin xalqlara daha dərindən aşılanmasına geniş imkanlar açır. Belə ki, bölgədə yaşayan xalqlar məhz bu xəttə dayanaqlanarlarsa, sosial-mədəni, ailə quruculuğu və digər münasibətlər zəminində daha böyük nailiyyətlər əldə edə bilərlər. Qeyd üçün deyək ki, qazanılmış ortaq dəyərlərin saxlanılması və gələcəyə daşınmasını sığortalamasından dolayı həm də bu xətt olduqca əhəmiyyət kəsb edir.

Araşdırmamızdan o da bəlli oldu ki, tarixən bölgədə təşəkkül tapmış ortaq ənənəvi yaradıcılıq sahələri hazırda funksionallığını saxlamaqdadır. Digər halda əmin olduq ki, beynəlmiləlçilik, tolerantlıq, əmin-amanlıq və bu kimi bəşəri təmayüllərin bölgədə daha erkən bərqərar olması həmin yaradıcılıq ilişkilərinin buradakı təşəkkülünü şərtləndirmişdir. Araşdırma bizə belə bir qənaəti də təlqin etdi ki, ortaq mədəni sistemin daşıyıcısı olmalarından dolayı, həm də bu xalqlar sosial həyat, məişət tərzinə, bir çox davranış stereotiplərinə və ümumi düşmənə qarşı mübarizə əzmlərinə görə də ortaq mövqeyə yiyələnə bilmişlər. Bütün bunlarsa onu vurğuladır ki, bu inteqrasiya davam etdikcə bölgədə ortaq yaradıcılığa meyl də səngiməyəcək, qazanılan dəyərləri qoruma və gələcəyə daşıma instinkti onlarda daha da güclənəcəkdir.

ƏDƏBİYYAT

1. Böyük Qafqazın Cənub-Şərq hissəsinin toponimiyası, Bakı, Elm, 1993
2. Bakıxanov A. Gülüstani-İrəm, EA nəşr., Bakı, 1951
3. Həvilov H. Azərbaycan etnoqrafiyası, Bakı, Elm, 1991
4.“Azərbaycanlı tatlar”, sənədli film, İctimai TV, 2008
5. Quba-Şabran folklor örnəkləri, 1 kitab, Bakı, 2013

PhD Atesh Ahmedli
Jabbar Suleymanov

AZERBAIJANI MINORITIES AND AZERBAIJANI FOLKLORE
(Based on the samples from the north-east region)

Summary

In the article it is said about the traditional culture of the minorities inhabiting in the north-eastern part of Azerbaijan. It is known that the traditional culture of these peoples in constant contact with the Azerbaijani Turks developed, formed and reached its current level. In general, the folklore activity of the region impresses with its richness and diversity. Looking specifically, one can see that examples of epic creativity are more common in the region. In this sense, the texts on religious themes are dominated. The samples of lyrical style were formed mainly in connection with ceremonies and then spread in the region. Despite the fact that there were separate ashug topics, in general ashug art was not typical for the region historically.

The investigation also proved the fact that this socio-cultural sphere, in which different peoples coexist, has risen to today’s level precisely because of the traditional values. This position, in addition to being a guarantee against construction work, also somehow insured the safe living of these peoples.

Undoubtedly, no matter how integrated with the indigenous people, regardless of their small number, each people living in the region have their own areas of creativity. Such localization may manifest itself in a more characteristic way in the relation of these peoples to the genre of joke. It also gives us the opportunity to get acquainted with the unique type of hero of each national minority.

Living together the peoples of different religions with Muslims attracts attention as another special feature of the region. These nationalities are completely free to preserve their national and religious traditions and in this sense have never faced a negative reaction in the region. The traditional culture, beliefs, rites and rituals of the peoples of the Muslim highlands, which have a religious character, are quite close to each other, with the exception of mountain Jews and Christians. It also allows us to treat them as analogous components of the entire cultural system.

It is important that the sense of tolerance is quite strong and stable in the region. Such situation is extremely necessary in order for people who have settled here and

belong to other religions (for example, Jews, Russians and others) to live and act in peace with Muslims. It opens up opportunities both for the establishment of the spirit of Azerbaijanism in the region and for the safe and guaranteed governance of the country on the basis of a single idea. We consider that the peoples living in the region, relying on this line, against the background of any relations, can integrate more closely with one another and enrich their culture.

Key words: Azerbaijanism, minorities, aboriginal, tolerance, tradition, folklore, national-cultural

АТЕШ АХМЕДЛИ
ДЖАББАР СУЛЕЙМАНОВ

АЗЕРБАЙДЖАНСКИЕ МЕНЬШИНСТВА И АЗЕРБАЙДЖАНСКИЙ ФОЛЬКЛОР

(На основе образцов Северо-Восточного региона)

Резюме

В статье рассказывается о традиционной культуре малочисленных народов, населяющих северо-восточную часть Азербайджана. Выясняется, что традиционная культура этих народов в постоянном контакте с азербайджанскими тюрками развивалась, формировалась и достигла своего нынешнего уровня. В целом, фольклорное творчество региона впечатляет своим богатством и разнообразием. Конкретно посмотрев, можно увидеть, что примеры эпического творчества более распространены в регионе. В этом смысле преобладают тексты на религиозную тематику. Образцы лирического стиля формировались в основном в связи с церемониями, а затем распространились в регионе. Несмотря на то, что встречались отдельные ашыгские темы, в целом ашыгское искусство исторически не было характерно для региона.

Исследование также обосновало тот факт, что эта социально-культурологическая сфера, в которой сосуществуют разные народы, поднялась на сегодняшний уровень именно из-за традиционных ценностей. Эта позиция помимо того, что была гарантией от созидательных работ, еще и как-то застраховала безопасное проживание этих народов. Несомненно, как бы ни были интегрированы с коренным народом, независимо от его малочисленности, у каждого народа, проживающего в регионе, есть свои области творчества. Такая локализация может проявляться в более характерном плане в отношении этих народов к жанру анекдота. Это также дает нам возможность познакомиться с уникальным типом героя каждого народного меньшинства.

Совместное проживание народов разных религий с мусульманами привлекает внимание как еще одна особая черта региона. Эти национальности полностью свободны в сохранении своих национальных и религиозных традиций и в этом смысле никогда не сталкивались с негативной реакцией в регионе. Традиционная культура, верования, обряды и обряды народов мусульманского нагорья, имеющие религиозный характер, достаточно близки друг другу, за исключением горских евреев и христиан. Это также позволяет нам относиться к ним как к аналогичным компонентам всей культурной системы.

Важно то, что чувство толерантности довольно сильна и устойчива в регионе. Такая ситуация крайне необходима для того, чтобы поселившиеся здесь люди, которые принадлежат к другим религиям (например, евреи, русские и другие), могли жить и действовать в мире с мусульманами. Это открывает возможности как для утверждения в регионе духа азербайджанства, так и для безопасного и гарантированного управления страной на основе единой идеи. Мы считаем, что народы, проживающие в регионе, опираясь именно на эту линию, на фоне любых отношений могут более тесно интегрироваться друг с другом и обогащать свою культуру.

Ключевые слова: азербайджанство, малочисленные, абориген, толерантство, традиция, фольклор, национально-культурный

Redaksiyaya daxil olma tarixi: 29.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy**
tərəfindən çapa tövsiyə olunmuşdur

SELCAN QAFFARLI
Bakı Dövlət Universiteti, doktorant
s.gaffarli@landauschool.com

BABA BƏY ŞAKİR SATİRASININ TƏNQİD HƏDƏFLƏRİ

Açar sözlər: *Baba bəy Şakir, satira, mühit, ziyalı, mövqe, realist, humanist, cəmiyyət, maarifçi, xalq, problem, şair, həqiqət, poeziya tərbiyə*
Keywords: *Baba bay Shakir, environment, intellectual, position, society, enlightener, education, poet, the truth, poetry, problem, people,*
Ключевые слова: *Баба бек Шакир, поет, поэзия, среда, интеллигент, позиция, правда, народ, проблем, гуманист, общество, просветитель, воспитание*

XIX əsrin ilk yarısında Azərbaycan xalqının taleyində baş verən mühüm hadisə Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil edilməsi ilə bütövlükdə mədəniyyətdə olduğu kimi, ədəbiyyatda da qərbyönümlü meyllər olduqca güclənir. Bunun təsiri altında ədəbiyyatda milli və realist-dünyəvi motivlər aparıcı mövqeyə çıxır. Molla Pənah Vaqif yaradıcılığının bilavasitə təsiri altında Qarabağ ədəbi mühitində tənqidi-realist satiranın Qasım bəy Zakir (1784-1857), Baba bəy Şakir kimi nümayəndələri yetişərək uzun müddət poetik inkişafın istiqamətini müəyyənləşdirir.

Əksər mədəni dünya xalqlarında olduğu kimi, Azərbaycan ədəbiyyatında da XIX əsr görünməmiş sürətli inkişaf, humanist ideallara, maarifçiliyə doğru dönməz bir yürüş, ağılın hakimiyyətini əsaslandırmağa ilk ciddi cəhd dövrü kimi özünü büruzə verir. Xüsusən Azərbaycanın Şimal hissəsinin Rusiyaya birləşdirilməsindən sonra, bu tarixi prosesin bütövlükdə mürtəce, müstəmləkəçi mahiyyətinə baxmayaraq, ədəbi-mədəni inkişafda cənubla müqayisədə müəyyən irəliləyişlər müşahidə edilir. Bu irəliləyişlərin sübutu XIX əsr satirik poeziyanın geniş vüsət almasıdır. Çünki artıq şairlər ətarfında baş verən həqiqətləri görür, bu həqiqətləri açıq söyləyə bilmədikləri üçün satirada istifadə edirdilər.

Beləliklə, XIX əsr Azərbaycan poeziyasının əsas qollarından biri də realist satiradır. Ölkənin sosial-iqtisadi həyatında ictimai və milli zülmə, müstəmləkəçilik siyasətinə qarşı etiraz mövcud vəziyyətdən narazılıq əhvali-ruhiyyəsinin qüvvətlənməsi və xalq azadlıq hərəkatının genişlənməsi bədii ədəbiyyatda kəskin açıq tənqidi pafosun meydana gəlməsi ilə nəticələnir; əsrlər boyu gah dəhşətli faciələrlə ağlayan gahda azadlıq həsrəti ilə alışıb yanan gözəllik və məhəbbəti tərənnüm edən qəhramanlara və hökmdarlara mədhiyyə oxuyan təbiətə, bahara, gülə və bülbülə nəğmələrə qoşan bəşərriyət indi bədii təfəkküründə tənqidə geniş yer verir, "həyat haqqında amansızcasın açıq danışan əsərlər yazırdılar. Şeirdə

demokratizmin, həyatiliyin sosial məzmunun güclənməsi obrazlar sistemində təbiiliyin artması, mövcud cəmiyyətə, ictimai quruluşa maarifçi baxışın dərinləşməsi, ən başlıcası isə əsrin ortalarında dünya tarixinin "tam mənada komizm mərhələsinə qədəm qoyması" və "getdikcə daha artıq istehza doğurması" poeziyyada satira və realizmin yaranması üçün obyektiv şərait, zəmin idi. Tarixi şərait, ictimai mühütdə gördükləri mənəvi-əxlaqi eybəcərlik saf bəşəri duyğular haqqında nəğmələr qoşan Azərbaycan şairlərini məhəbbət və gözəlliyin tərənnümünə dair odlu lirika ilə kifayətlənməyə qoymur, onları kəskin tənqidi-satirik əsərlər yazmağa təhrik edirdi. B.Şakir, Q.Zakir, M.Nadim kimi sənətkarların yaradıcılığı Azərbaycan şeirində yeni ədəbi cəriyanın meydana gəlməsini göstərirdi. Bu cərəyanın tənqid obyekti narazı salan məsələr çox idi. Lakin onlar əməkçi xalqın həyatı, ağır güzaranı ilə hər şeydən artıq maraqlanırdılar. Yoxsul kəndlinin, rəiyyətinin çətin dolanışığı, rəncbərin insan yerinə qoyulmaması, bir tikə çörəkdən ötrü bütün günü bəylərin qapısında xidmət edən kəndlinin dözülməz vəziyyəti B.Şakirin, M.Nadimin şeirlərində dərin hüznlə, kədər hissi ilə onları incidən bəylər və ağalar isə hədsiz qəzəblə təsvir olunurdu. Kəndlilərin vəhşicəsinə istismar olunduqlarını bicincilərin haqqını kəsən camaatı susuz qoyan mülkədarların yırtıcı təbiətinin realist boyalarla təsvir edən Nadim "Mahmud" satirasında təhkimçi – feodal quruluşunun zülm və zorakılığını, rəncbərlərin kotana qoşulduqlarını ürək ağrısı ilə kəskin daxili etiraz ruhunda göstərirdi:

Mahmud! Əya rəncbərara mərdi-yeganə,
Nahaq yerə rəncidə olub gəlmə fəğanə,
Xaliq sizi rəncbər yaradıbdır bəyə, xanə.
Hərçənd gərəkdir qoşalar at bu kotanə,
At olmasa, heç incimə, insan da qoşarlar. (6, s. 155)

Hakim siniflərin tənqid, çarizmin qayda-qanunlarına, yerli feodalların özbaşınalığına etiraz, habelə ayrı-ayrı yaramaz sosial tipləri ifşa satirik şeirin başlıca motivləri idi. Doğrudur, satiriklərin əsərlərində cəmiyyətin siyasi-iqtisadi əsaslarına toxunulmur, eybəcərliklərin əsas kökləri göstərilmirdi: bununla belə onlar mənfiliklərin bilavasitə "sahibi-ixtiyarla" əlaqədar oldugunu, cəmiyyətin xəstə hal aldığını bildirirdilər. Məsələn, Baba bəy Şakir murovların oğrularla, yolkəsənlərlə dilbir olub, onlardan rüşvət almalarını,qubernator və sərdarın isə bu işə göz yummalarını çəkinmədən cəsarətlə deyirdi:

Bu nə qubernator, bu necə sərdar?!
Dağılıb vilayət, oldu tarımar;
Cəldlanibdi rüşvəto murovlar,
Xəlqin işi ahü əfğanə dönüb. (6, s. 156)

Başqa bir şeirində Şakir fitnəkar "bodzat" bəylərin komendant və canişinə rüşvət verməklə vəzifəyə keçib.əhaliyə divan tutduqlarını təsvir etmişdi. Ümumiyyətlə, Baba bəy Şakir XIX əsr Azərbaycan ədəbiyyatının ən güclü satiriklərindən biridir.

O, Şuşada Məhəmmədəli bəy oğlu Sarıcalı-Cavanşir adlı ziyalının ailəsində dünyaya gəlmişdir. Mükəmməl mədrəsə təhsili almış, ana dili ilə yanaşı bir neçə Şərq dillərini də bilirdi. O, Baba bəy Pənahəli xanın böyük qardaşı Fəzləli bəyin nəvəsidir. O, Mehribanlı Baba bəy kimi də tanınır. Qasım bəy Zakir ilə həm dost, həm də qohum idi. Baba bəy Şakir 1844-cü ildə vəfat edib. "Şakir" təxəllüsü ilə şeirlər yazan bab bəy Azərbaycan satirik ədəbiyyatının nümayəndələrindəndir. Onun satira hədəfləri dövrün azğın qubernatorları və dövlət məmurlarıdır. Şairin məşhur şeirləri bunlardır: "Bir parası mümtüz edib Camalı", "Dönüb", "Gəlməz", "Üstünə", "Yetmədi", "Ay mədəd".

Sağ olasan, ay İstepan yüzbaşı,
Yaxşı adam, yaxşıların yoldaşı.
Aşırarsan əgər ola qan işi,
Şənin üçün qəməndanlıq yaraşı…

Bu nə qubernator, bu nə sərdar?
Dağılıb vilayət oldu tar-mar!
Cəldələnibdir rüşvətə murovlar,
Xalqın işi ah-əfqanə dönübdür.(6, s. 157)

Baba bəy şakir bu kimi satirik şeirləri ilə təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün Yaxın Şərq ədəbiyyatında satirik düşüncənin daha da inkişafına xidmət etmişdir. Məhz Baba bəy kimi şairlərin sayəsində XIX əsr poeziyasında satirik şeirlər ədəbi prosesdə güclü qola çevrildi. Şakir həm də klassik poeziyamızda aşıq şerinin poetik ənənələrini davam etdirən şairlərdən biridir. Onun poeziyası həm də aşıq ədəbiyyatının nümunələri hesab edilir. Əslində Zakir ədəbi məktəbinin nümayəndəsi olan şair, həm də Zakirin qohumlarından olmuşdur. Zakir hətta onun ölümü ilə əlaqədar "Maddeyi-tarix " yazmışdır. Şairin Zakirlə olan müaşirəsi da məlumdur. Baba bəy Şakirin qoşmalarında ictimai motivlər güclüdür. Xüsusilə, Zakir ədəbi məktəbinə məxsus satira onun poeziyasında da yüksək səviyyədədir:

Az qalıbdır çıxsın əflakə nalə,
Rəiyyətmi dözər bu alhaalə,
Edənlər artırıb elə həvalə,
Çapar xana qızıl pulu təhmilat. (6, s. 154)

Onun Qasım bəy Zakirə və Gəncüm Ağaya yazdığı məktublarında XIX əsrin əvvəllərində Azərbaycan siyasi həyatında baş verən hadisələr, xalqın güzəranı, əhalinin maddi ehtiyacları təsvir edilmişdir:

Özün divanbəyi, tutduqca dilin,
Gərəkdir deyəsən dərdini elin,
Tutalım padşaha çatmayır əlin,
Qubernata, ya sərdara ərz elə! (6, s. 156)

Bu bəndə Şakir Zakirə daha böyüklərə əl çatmırsa, xalqın problemlərini qubernatora çatdırmağı məsləhət gorur. Halbuki, o yaxşı bilirdiki, qubernator, nə də başqaları xalqın hec bir dərdini dinləmir, problemlərini nəinki həll etmək istəmir, əksinə daha agır qanunlar çıxarırdılar.

Quberniya bina olandan bəri,
Oğrunun hər biri bir xanə dönüb;
Yox yetişən ərzə, divan eyləyən,
Dağılıb vilayət, viranə dönüb. (6, s. 156)

Bu satirasından da göründüyü kimi Şakir açıq şəkildə qubernatorların xalq üçün, kəndlilər üçün heç bir qeyd olunası işlər görmədiyini, vilayətin viran olduğunu dağıldıgını göz önünə gətitir.

Murovlar buyurur oğurlayın at,
Naçalnikdən eyləməyin ehtiyat,
Olmaz urusluqda eyləmək isbat,
Onunçün tülkülər aslanə dönüb.(6, s. 157)

Bu satirasında özbaşınalığın vüsət aldığını, oğurlugun adi bir hala çevrildiyini, qanunların ancaq qubernatorların işlərinə gəldikdə pozmaqlarını, adi kəndlinin isə bu sübuta yetirə bilmədiyi üçün əli-qolu bağlı olmasını 4 cümlə ilə çox gözəl ifadə etmişdir:

Var idi on atım, iyirmi malım,
Qərəz, bir tövr ilə keçirdi halım,
Yığıb bir hal ilə apardı zalım,
Qapımız sovrulmuş xırmanə dönüb.

Dəxi bizdə qalmayıbdır dana
Gedirik sərdarə yetişdik cana,
Olubdur ogrular sahibi-xana
O ki ev sahibi mehmana dönüb. (6, s. 156)

Kəndlilərin min bir zəhmətlə qazandıqlarını murovlar, qubernatorlar oğurlayır, talayır yazıq kəndli səsini çıxara bilmirdi. Səsini çıxaranın isə aqibəti bəlli idi. Qazamat! Şakir bu bəndlərlə dövrə sanki, güzgü tuturdu. Bu güzgüyə baxmaq isə cəsərət tələb edirdi. Nece eybəcər insan güzgüyə baxmaz, nifrət edərsə, elə də o

dövrün zülmkarları öz əməllərini görməzdən gəlirdilər. Şakir isə bu eybəcərlyə dözə bilmir, fikirlərini satira yolu ilə ifadə edirdi. Onun güzgüsü isə satiraları idi.

Tamam oğurluqda olubdur pərgar,
Yatmayıb sübhədək dartar nə ki var,
Qarabağın malı bostanə dönüb.
Qalmışıq məəttəl sultanlı, xanlı, (6, s. 156)

Bu bəndə Şakir "Sultanlı, xanlı" ifadəsi ilə, əslində, yalnız adi kəndlilərin deyil, Qarabag bəylərinin də mal-dövlətlərinin əllərindən alındığına eyham vurur. Taraixdən də məlum oldugu kimi Çar Rusiyası Azərbaycana qarşı işgalcılıq planlarını yerinə yetirərkən, bəylərin mülkləri kimi statuslarını da əllərindən alırdı. Çünki nüfuzlu bəylərin xalqı istədiyi tərəfə yönləndirəcəkərindən qorxurdu.

Rəsuldan şərm yox, Allahdan da bim,
Allah rizasına danışmaz heç kim,
Qarabağ düzəlməz, mənim əzizim,
Çünki öz əhlimiz şeytanə dönüb. (6, s. 157)

Sonda isə bu satira ilə fikirlərimizi yekunlaşdırmaq istərdim. Baba bəy Şakir bu satirasında "Çünki öz əhlimiz şeytana dönüb" deməklə "sapı özümüzdən olan baltalar"I da unutmadığını bildirib. Həqiqətən Çar Rusiyasının uzun müddətli siyaətinin əsəs dayaqlarından biri də öz millətimizdən olan satqınlar idi. Çox təssüflər olsun ki, illər boyu belə ikiüzlü insanlar olub. Şakirin isə əsas məziyyəti öz satiralarında poetik, bədii bir dildə bütün bu fikirlərini ifadə etməsidir. Vulqarlığa qaçmadan,xalq dilində məntiq və ağılla doğru cümlələri qurmaqla, vacib məsələlərə diqqət çəkmişdir. O dövrü bilməyən bir insan təkcə Şakirin satiralarını oxumaqla o dövrün mənzərəsini beynində canlandıra bilər. Şakirin böyüklüyü budur. Poetik mənzərini satirik bir dildə ifadə etmək

Baba bəy Şakir aşıq deyildi, o klassik ədəbiyyatımızın istedadlı şairlərindən biridir. Şairin yazdığı müxəmməslərdə, məsnəvilərdə, qəsidələrdə də aşıq şerinin poetik ənənələri özünü büruzə verir. Belə ki, aşıq şerinə məxsus sadə danışıq dili, frazeoloji və idiomatik ifadələr onun klassik üslubda yazdığı şerlərində də var:

Eşşəyin gər axurun sim ilə təmir edəsən,
Qarnını kişmiş ilə şamü səhər sir edəsən,
Çulunu atlasü ya tirmeyi- Kəşmir edəsən,
Zəri-xalisdən ona noxtavü zəncir edəsən,
Qədrü qiymətdə yenə atdan olur ərzani.

Şairin müxəmməsindən olan bu misralarda adı danışıq dili, xalq təfəkkürü öz ifadəsini tapmışdır. Xalq danışıq dilində olan "Eşşək nə qanır zəfəran nədir" və ya "Təzək, bəzək götürməz" kimi atalar sözlərini şair məharətlə divan ədəbiyyatına gətirmişdir. Halbuki, divan ədəbiyyatında əsrlərdən bəri təsvirçilik ənənəsi, yüksək pafos, təmtəraqlı bənzətmələr prioritet olmuşdur. Şairlər adətən şəhər və saray mühiti ilə bağlı əlamətləri şerə gətirirdi. Aşıq şeri ilə bərabər divan ədəbiyyatının janrlarında şer yazmaq Vaqif, Zakir ədəbi məktəbinin poetik ənənəsi idi. Baba bəy Şakir də həmin ənənəni layiqincə davam etdirmiş və klassik janrlarda da əsərlər yazmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. II cild Bakı, Maarif, 1982, 428 s.
2. AMEA Əİ M. F. Axundzadənin arxivi. F-2 s.v.418.
3. Ənvər Çingizoğlu, Cavanşir eli: Sarıcalılar, Bakı, Mütərcim, 2015, 352 s.
4. Mir Cəlal, Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, Elm və təhsil, 2018, 560 s.
5. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi, (Dərslik). Bakı, Proqres nəşriyyatı, 2012, 434
6. Sənan İbrahimov. Vahid Şərq ədəbi prosesi (XVI-XX əsrlər). Bakı, "Ecoprint", 2020, 560 səh.
7. Şakir Baba bəy. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1985. 230 s.

QAFFARLI SELCAN

BABA BƏY ŞAKİR YARADICILIĞININ SATİRİK TƏNQİD HƏDƏFLƏRİ

XÜLASƏ

Baba bəy Şakir XIX əsr Azərbaycan satirik ədəbiyyatının ən böyük nümayəndələrindən biridir. Baba bəy Şakir satirik şeirləri ilə təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün Yaxın Şərq ədəbiyyatında satirik düşüncənin daha da inkişafına xidmət etmişdir. Məhz Baba bəy kimi şairlərin sayəsində XIX əsr poeziyasında satirik şeirlər ədəbi prosesdə güclü qola çevrildi.

Onun satiraları, poetik gücü, məntiqli eyhamları, düzgün və seçilmiş tənqid hədəfləri, bu tənqid hədəflərinin ifşası üçün secilmiş qüvvətli cümlələri satirlarına rəngli çalarlar qatır. Bu məqalədə də məhz onun ən güclü satiraları seçilmiş və təhlil edilmişdir. Təhlil zamanı satrirasında yer verdiyi mövzular vurğulanmış, Şakirin bu mövzulara baxış aspekti dərindən təhlil obyektinə çevrilmişdir. Şakir satiralarında özbaşınalığın vüsət aldığını, oğurlugun adi bir hala çevrildiyini, qanunların ancaq kəndlilər üçün olduğunun, qubernatorların işlərinə gəldikdə bu qanunlara məhəl qoymadıqlarını, adi kəndlilərin necə hüquqsuz olduğunu, təqsirləri olmadıqda belə sübuta yetirə bilmədiyi üçün həbsə salındıqlarını poetik və satirik dillə verirdi. Məqaləmizdə onun güclü satiralarından olan nümunələrin mövzuları və ideyaları göz önünə gətirilir.

Nəyə görə bu mözulara müraciət etdiyi aydınlaşdırılır. Məqalə müəllifi bu satiraları doğuran şəxsi və ictimai meylləri də, yazıçının ziyalı mövqeyini də müxtəlif mövzular konteksində təhlil obyektinə çevirmişdir. Tədqiqatçıların araşdırılan problemlə bağlı fikir və mülahizələrinə nəzər salınmışdır.

GAFFARLİ SELJAN

OBJECT OF SATIRICAL CRITICISM IN BABA BEY SHAKIR'S WORK

SUMMARY

Baba Bek Shakir is one of the greatest Azerbaijani satirical literature representatives of the 19th century. Baba Bek Shakir, with his satirical poems, contributed to the further development of satirical thoughts in Azerbaijani literature, yet in addition in the entire literature of the Middle East.

By virtue of poets such as Baba Bek, satirical poetry in 19th century poetry turned into a powerful branch of the literary process. His satire, poetic power, logical allusions, correct and well-chosen objects of criticism, harsh sentences picked to uncover these objects of criticism add color to his satyrs. This article additionally chose and analyzed his most powerful satires. During the analysis, the topics of his satire were emphasized, and the perspective of Baba Bek Shakir on them became the object of more profound analysis. In his satires, Shakir wrote in poetic and satirical expressions that arbitrariness was an everyday occurrence and robbery was usual, the laws concerned only peasants, as the governors disregarded them, and the peasants did not have any rights, but were only imprisoned for the fact that they could not prove their innocence.

Our article explores topics and idea examples from his powerful satyrs. It clarifies why he did it. The author of the article turned these satires into objects of analysis with regards to various topics, both personal and social patterns, as well as the intellectual position of the writer.The perspectives and assessments of researchers on the issue under study were considered.

ГАФФАРЛИ СЕЛЬДЖАН

МИШЕНИ САТИРИЧЕСКОЙ КРИТИКИ ТВОРЧЕСТВА БАБА-БЕЯ ШАКИРА

РЕЗЮМЕ

Баба Бек Шакир является одним из величайших представителей азербайджанской сатирической литературы XIX века. Баба Бек Шакир своими сатирическими стихами способствовал дальнейшему развитию сатирических мыслей не только в азербайджанской литературе, но и во всей литературе Ближнего Востока. Благодаря таким поэтам, как Баба Бек, сатирические стихи в поэзии XIX века стали сильной ветвью литературного процесса. Его сатиры,

поэтическая сила, логические аллюзии, правильные и хорошо подобранные объекты критики, резкие предложения, выбранные для разоблачения этих объектов критики, добавляют красочности его сатирам. В этой статье также были отобраны и проанализированы его самые сильные сатиры. В ходе анализа были подчеркнуты темы его сатиры, и взгляд Баба Бек Шакира на эти темы стал объектом более глубокого анализа.

В своих сатирах Шакир писал в поэтических и сатирических выражениях, что произвол был обычным явлением и воровство было обычным делом, законы касались крестьян, а правители игнорировали их, и то, что обычные крестьяне не имели прав и были заключены в тюрьму за то, что не смогли доказать свою невиновность. В нашей статье рассматриваются темы и идеи примеров из его сильных сатир. Поясняется, зачем он это делал. Автор статьи превратил эти сатиры в объекты анализа в контексте различных тем, как личных, так и социальных тенденций, а также интеллектуальной позиции писателя. Учитывались взгляды и мнения исследователей по исследуемой проблеме.

Redaksiyaya daxil olma tarixi: 29.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **filologiya elmləri doktoru Sənan İbrahimov**
tərəfindən çapa tövsiyə olunmuşdur

RÖYA MÜRŞÜDOVA

Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
Rəşid Behbudov küç. 134
roya.meftunqizi@mail.ru

"BÜTÜN DEYILƏNLƏRƏ RƏĞMƏN" AZƏRBAYCAN DRAMATURGİYASINDA AĞA MƏHƏMMƏD ŞAH QACAR OBRAZI

Məlum olduğu kimi Ağa Məhəmməd şah Qacar şəxsiyyətinə milli düşüncə tariximizin müxtəlif mərhələlərində müraciət edilmişdir. Yusif Vəzir Çəmənzəminlinin "Qan içində", Yusif Səmədoğlunun "Qətl günü", Əbdürrəhman bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", Səməd Vurğunun "Vaqif", Əli Əmirlinin "Bütün deyilənlərə rəğmən və ya Ağa Məhəmməd şah Qacar" əsərlərində Qacarın bədii obrazı yaradılmışdır. Hər bir söz adamı Qacarı müxtəlif baxış bucağından təqdim etmiş, oxşar və fərqli "Xacə şahı" oxuculara tanıtmışdır. Qacarın həyatı, yaşadıqları onu tarix səhnəsində özəl bir şəxsiyyətə çevirmiş, zaman-zaman söz adamlarının diqqətini çəkmiş, ziddiyyətli fikirlərə aydınlıq gətirmək məqsədilə bir-birindən maraqlı Qacar obrazları yaradılmışdır. Lakin "bütün deyilənlərə rəğmən" tarixi şəxsiyyət haqqında deyilənlər sadəcə "aysberqin" görünən tərəfidir.

Azərbaycan ədəbiyyat tarixində ilk dəfə Ağa Məhəmməd şah Qacar mövzusuna, şəxsiyyətinə müraciət edən görkəmli yazıçımız Əbdülrəhim bəy Haqverdiyev olmuşdur. Yazıçı "Ağa Məhəmməd şah Qacar" faciəsində tarixi şəxsiyyət Qacarı əvvəldən hadisələrin inkişafına doğru ağıllı, tədbirli, əmrlərdə belə ölçüsünü aşmayan hökmdar kimi təqdim edir. Ə.Haqverdiyev Qacara tarixi şəxsiyyət kimi dəyər verir, hər bir addımında haqq qazandırır, onu qələminin ucuyla dairəyə alaraq ünvanına söylənəcək, zaman-zaman üzləşəcəyi qınaqlardan qorumağa cəhd etmişdir Qacarın "qəddarlığı" belə süjetin inkişafında yazıçı tərəfindən müxtəlif vəziyyətlərdə psixoloji cəhətdən əsaslandırılmışdır. Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Əli Əmirli görünür bu səbəblərdən dolayı, Qacar şəxsiyyəti ətrafında dolaşan suallara aydınlıq gətirmək, birtərəfli səslənən fikirləri tamamlamaq, bəlkə də dəyişdirmək məqsədilə sözügedən mövzuya müraciət etməyə zərurət duymuşdur. Əli Əmirli hökmdar Qacar, oğul Qacar, qardaş Qacar, zahid Qacarı tamaşaçıya mənəvi halı-mimləri fonunda təqdim edir. Daxili səs-Qacarın monoloqları özü ilə tamaşaçını, oxucunu tanış edir.

Açar sözlər: Ağa Məhəmməd şah Qacar, faciə, şəxsiyyət, tarix, ölüm

Tarixin öz mürəkkəbliyi və gərgin dramatizmilə səciyyələnən ictimai-siyasi prosesləri hər zaman bədii ədəbiyyata təsir göstərmiş, onun humanitar ideya istiqamətləri və meyllərinin müəyyənləşdirilməsində əhəmiyyətli yer tutmuşdur.

Sosial və ictimai həyatın, insanın mənəvi dünyasının problemləri bədii yaradıcılığın müxtəlif janrlarında ifadə olunmuş, ədəbiyyat onların həlli yollarına yönəldilmişdir.

Görkəml alman yazıçısı Tomas Brussiqin təbiri-caizsə "...insan yaddaşı böyük yox, çox böyük iqtidara malikdir: o möcüzələr yaratmağa və insanı keçmişi ilə barışdırmağa qadirdir. Onun ürəyində baş vermiş bütün dəhşətləri aradan qaldırır, kökünü kəsir və nastolji örtünü incəliklə qoruyur. Xoşbəxt insanların pis yaddaşı və yaxşı xatirələri olur" (3, 92). Bu fikirlərdən yola çıxaraq tarix səhnəsində öz mürəkkəb, çoxrəngli portireti ilə yaddaşlarda qalan Ağa Məhəmməd şah Qacarın xoşbəxt insanlardan fərqli olaraq "yaxşı yaddaşı" amma "pis" xatirələri olmuşdur. Uşaqlıqdan aldığı fiziki və mənəvi travma onun qüdrətli, cahangir bir sərkərdə, müdrik hökmdar kimi yetişməsinə mane olmasa da, onun daxili dünyasını alt-üst etmiş, əbədi əzabkeşə çevirmişdir. Qacarın həyatı, yaşadıqları onu tarix səhnəsində özəl bir şəxsiyyətə çevirmiş, zaman-zaman söz adamlarının diqqətini çəkmiş, ziddiyyətli fikirlərə aydınlıq gətirmək məqsədilə bir-birindən maraqlı Qacar obrazları yaradılmışdır. Lakin "bütün deyilənlərə rəğmən" tarixi şəxsiyyət haqqında deyilənlər sadəcə "aysberqin" görünən tərəfidir. Ədəbiyyatşünas D.Zatonskinin təbirincə desək "Sözün birbaşa və xüsusi mənasında yaradıcılığı insanşünaslıq olan sənətkar üçün insan hər şeyin ölçüsü olmaqdan əlavə bir də "sirrdir", müəmmadır. Onu yenidən açmaq lazım gəlir. Yəni onun təbiəti və varlığı haqqında keçmişdə də deyilmişlər azdır və ya bəs deyil" (16, 92). Belə tarixi şəxsiyyətlərdən biri də Ağa Məhəmməd şah Qacardır. Şəxsiyyəti haqqında müxtəlif fikirlər söylənən, qəddarlığı ilə bağlı rəvayətlər dolaşan, yaddaşlarda "Mənim ürəyim də, qəlbim də qandır / Dünya qan üstündə bir xanimandır" (15, 68) sözləri ilə heykəlləşən Ağa Məhəmməd şah Qacar.

Azərbaycan ədəbiyyat tarixində ilk dəfə Ağa Məhəmməd şah Qacar mövzusuna, şəxsiyyətinə müraciət edən görkəmli yazıçımız Əbdülrəhim bəy Haqverdiyev olmuşdur. Yazıçı "Ağa Məhəmməd şah Qacar" faciəsində tarixi şəxsiyyət Qacarı əvvəldən hadisələrin inkişafına doğru ağıllı, tədbirli, əmrlərdə belə ölçüsünü aşmayan hökmdar kimi təqdim edir: "...Əbdürrəhim bəy Haqverdiyevdən başqa, demək olar ki, heç bir Azərbaycan alim yazıçı, düşüncə və söz adamı ölümündən keçən 200 ildə Ağaməhəmməd şahın üzərinə ən müxtəlif düşmənlərimizin yaxdığı ləkələri təmizləməyə azca da olsa çalışmayıb. Məhz Əbdürrəhman bəy ilk dəfə olaraq "Ağaməhəmməd şah Qacar" adlı faciəsində böyük imperatorumuzu xalqının sevgisini qazanmağa can atan, düşməni silahdan çox tədbirlə məğlub etməyə üstünlük verən, özünü heç bir çətin durumda itirməyən ağıllı, təmkinli və tədbirli hökmdar, ölkəsini işğalçılardan təmizləyən bacarıqlı sərkərdə, beynəlxalq siyasi şəraiti yaxşı bilən, müharibə qanunlarına bələd olan mahir diplomat kimi səciyyələndirib, onun şəxsi faciələrinin və bəzən onu amansız olmağa sövq edən amillərin mahiyyətini açmağa çalışıb" (12, 10). Lakin ədəbiyyatşünaslar arasında bu fikri təkzib edən qənaətlər də az olmamışdır. Görkəmli ədəbiyyatşünas Yaşar Qarayev "Süjetin, hadisələrin mərkəzində öz qorxunc ehtirası ilə Qacar dayanır. O, fiziki cəhətdən xəstə, daxilən eybəcər, əzazil və bədsifətdir.

Lakin iradə və hissiyyatında təcəssüm edən qətiyyət və qüvvət qeyri-adi və qorxuncdur. Təbiətən təhqir olunduğu üçün heç bir müqəddəslik, xeyirxahlıq və vicdan idealı tanımır, məhəbbət, mərhəmət hissindən mərhum, eqoist və ikiüzlüdür"(9, 89).

Və yaxud tədqiqatçı Haqverdiyevin yaratdığı Qacar obrazı haqqında qeyd edir ki, "Hakimiyyət ehtirası onu hər cür alçaqlığa əl atmağa sövq edir, onu əsirlikdən xilas edərək hakimiyyət başına gətirən doğma qardaşı Cəfərqulu xanı öldürür, Əli xanın gözlərini çıxartdırır. O o qədər qəddardır ki, öldürtdüyü Kərim xanın sümüklərini yataq otağının astanasında dəfn edir ki, hər gün onun sümükləri üzərinə ayaq basanda "bütün yaraları yaddan çıxsın" (9, 89). Lakin bu fikirlər Əbdürrəhim bəy Haqverdiyevin yaratdığı Qacar obrazı üçün səciyyəvi səslənmir. Yazıçı Qacarın Tiflis şəhərini yandırılması əmrini verəndə də, qardaşlarını, hətta Cəfərqulu xanı öldürəndə də, Qarabağı mühasirədə saxlayanda belə müəllif mövqeyində qan içən, qəddar hökmdar kimi təqdim olunmur. Əksinə Haqverdiyev Qacara tarixi şəxsiyyət kimi dəyər verir, hər bir addımında haqq qazandırır, onu qələminin ucuyla dairəyə alaraq ünvanına söylənəcək, zaman-zaman üzləşəcəyi qınaqlardan qorumağa cəhd etmişdir. Dramaturq tarixi hadisələri bütün detalları ilə əks etdirərək Qacarın yuxarıda sadalanan "qan içən", "qəddar" qərarlara hansı səbəbdən gəldiyini də təsvir etmişdir. Şahlıq uğrunda mübarizə ərəfəsində Cəfərqulu xan qardaşının yolunda başından keçməyə hazır olduğu halda, Qacar İran taxtına sahib olduqdan sonra İsfəhan şəhərinin idarəçiliyini ona vermədiyi üçün inciyir, şahın göndərdiyi məktubları cavablandırmır. Qacarın qardaşının ölümünə qərar verməsi onun "qan içən", "alçaq" mənəviyyatının deyil, gec-tez Cəfərqulu xandan gələcək təhlükədən sadəcə qorunmaq üçün bir hökmdar fəhmi idi. Özünün də qeyd etdiyi kimi "Qacara qədər hələ heç kəs Xacə olaraq İran taxtında əyləşməmişdi. Üzləşdiyi bütün insanlarda "doğmaz", "törəməz" bir insan təəssüratı yaradan şaha yadlar deyil, hətta ən yaxın adamları da həqarətlə baxır, rişxənd edir, qəlbini yaralamaqdan çəkinmir, onu İran taxtına sahib hökmdar kimi qəbul etmirdilər. Tarixdən məlum olduğu kimi "Ağaməhəmməd şah Qacarın bir hökmdar kimi hakimiyyətini sürdürməsi, istər əyanlarına, istərsə də sıravi təbəələrinə öz nüfuzunu qəbul etdirməsi başqa şahlara nisbətən müqayisəolunmaz dərəcədə çətindir, çünki tarixdə Ağaməhəmməd şaha qədər hələ heç bir xədim nəinki şah, heç ən kiçik bir bölgənin ağası, yaxud qoşun başçısı ola bilməmişdi, çünki adamlar belə şəxsin ağalığını özlərinə həqarət sayardılar" (12, 40). Həqiqətən də hadisələrin inkişafında Qacara qarşı ünvanlanmış təhqirlərin qarşılığında şiddət göstərməmək, cəzalandırmamaq ağılasığmaz bir reaksiya kimi görünərdi. Fərqli münasibət isə "peyğəmbəranə" bir humanistlik olardı ki, o zaman reallığa sığmazdı. Nadir şahın oğlu Şahruxun "Mən iyirmi yaşından indiyədək öz korluğuma ağlayırdım. Ağlamaqdan da gözümün yaşı qurtarıb əvəzinə ciyərimin qanı gəlib tökülürdü. İndi mən şükür eləyirəm Allahın dərgahına ki, mən koram və mənim atam Nadir şah padşahın məsnədində əyləşəni gözlərim görmür. Kim deyir dünyada insaf var? Kim deyir ki, dünyada ədalət var? Əgər dünyada insaf

və ədalət olsaydı Nadir şahın Rzaqulu Mirzə tək istəkli oğlu öz atasının xacəsini qabağında əsir saxlanmazdı. Kim deyir dünyada insaf var? Kim deyir dünyada ədalət var? Əgər dünyada insaf və ədalət olsaydı, tərlan yerində zağ və zəğan oturmazdı" (7, 189-190). İnsan ləyaqətini, ən bakir duyğularını alçaldan sözlərdən sonra Qacarın Şahruxun beyninə qurğuşun tökdürməsi insanlıq nöqteyi-nəzərindən ağlasığmaz olsa da, Şahruxun da İran şahının şəninə söylədiyi təhqir də (fiziki çatışmazlıq ilə bağlı) insanlığa sığmır (hər ikisinə elədiklərini). Nəticə məntiqli şəkildə səbəbdən doğur, Qacarın "qəddarlığı" yazıçı tərəfindən müxtəlif vəziyyətlərdə psixoloji cəhətdən əsaslandırılır. Hökm sahibi olmayan əsirin davranışı şahın qəzəblənməsini şərtləndirir. Mövcud şəraitdə zalımlıqdan daha çox ona qarşı adekvat reaksiyası kimi görünür. Bu məqam görkəmli dramaturqumuz Hüseyn Cavidin "Topal Teymur" əsərinini finalını xatırladır: əsir Yıldırıma özünə xitabən yazılmış təhqiramiz məktubu uzadan Teymurun: "Lütfən şu məktubu oqurmusunuz? sualına Yıldırımın "zatən yazıldığı zaman oqunmuş" (4, 301) söyləməsi eyni münasibəti sərgiliyir və hiddət doğurur. Faciədə Qacar istənilən bir vəziyyətdə atacağı addımların özünə hesabatını verir, başqa yol olmadığı üçün siyasətin tələbi olduğunu əsas gətirir. Qardaşının özü üçün deyil gələcəkdə varisi üçün təhlükə olacağını duyan şah İranın gələcək rifahı naminə onu öldürməyə məcbur olur.

Və yaxud İran şahı Kərim xan Zənd Qacarın atası Məhəmmədhəsən xanın başını öz oğluna göstərmək kimi "ağlasığmaz" həzzdən belə çəkinmir. Dirisindən intiqam almağa imkan tapmadığı üçün heç olmasa qəlbində yığılmış ağrı-acını, atasının qatilinə qarşı kinini onun sümüklərindən də olsa alması zalımlıqdan daha çox Qacarın yaddaşında daşıdığı acı xatirələrin özünüifadəsi, nəticəsi kimi dəyərləndirilə bilər. "İstər hakimiyyətdə, istərsə də adi həyatda qazandığı möhtəşəm qələbələrini o, xədimliyi üzündən bütün yaşamı boyunca bir an da unuda bilmədiyi şəxsi psixoloji sarsıntılarından yuxarıda dayanmaq bacarığı sayəsində əldə edib. Ancaq özünə də qalib gəlmək bacarığına o, hədsiz ruhi göynərtilər bahasına yiyələnib- bir çox tarixçilərin bildirdiyinə görə, Kirmanın fəthindən sonrakı bütün şahlığı boyunca onu bir dəfə də gülən görməyiblər" (12, 40).

"Bakı-1501" romanında Şah İsmayılın babası Şeyx Cüneydin, atası Şeyx Heydərin qisasını almaq üçün Şirvana hücum etməsi və Fərrux Yasarı məğlub edərək öldürməsi, şahın nəşini axtarmağa əmr verməsi ilə bağlı, təsvirlər bu baxımdan oxşarlığı ilə diqqət çəkir. Və qəribədir ki, ədəbiyyatşünasların sözügedən romanla bağlı təhlillərində bu məqamlar "diqqət çəkmədiyi" halda, Qacarla bağlı yazılmış bir çox tədqiqatlarda onun bu "zalımlığı" qabardılır. Görünür, sovet dövründə S.Vurğunun yaddaşlarda daşlaşdırdığı "Qacar" obrazı haqqında fikirlər digər əsərlərin təhlillərinə də yansımış, hamı ümumi mövqeydən çıxış etməyə çalışmışdır. Yaradılan Qacar obrazı nümunəsindən çıxış edərək görkəmli ədəbiyyatşünasların birtərəfli münasibəti zaman-zaman tarixi şəxsiyyətin portretinin yaddaşlarda "şər qüvvə" kimi iz buraxmasına gətirib çıxartmışdır. Oxucunu yazıçı məqsədindən uzaqlaşdırmışdır. Tədqiqatçı Mətanət Saraclı haqlı olaraq görkəmli yazıçının

əsərindən çıxış edərək qeyd edir ki: "Müəllif Qacarı qeyd etdiyimiz kimi öz fərdi keyfiyyətləri ilə də fərqləndirir: - parçalanmış İranı birləşdirməyə çalışan ağıllı, qətiyyətli siyasətçidir. - İranın keçmiş şöhrəti ilə öyünüb onu qaytarmağa çalışan vətənpərvərdir. Bütün cəhdlərinə baxmayaraq özünü Şah İsmayıl, Şah Abbas səviyyəsində görməyib, onların taxdığı atributları hələ özünə layiq bilməyən təvazökar sərkərdədir. Ən nəhayət, dünya nemətlərindən məhrum edildiyi üçün özünün şəxsi faciəsinin heyfini bütün cəmiyyətdən, bütün bəşərdən almağa qadir olan və bunu bacaran tragik xarakterdir" (8, 32). Haqverdiyev süjetin inkişafında həqiqətən əvvəldən axıra kimi Qacara haqq qazandırır. Elə bu səbəbdən də biz Qacarın hər vəziyyətində müdrik bir siyasətçinin addımlarından kənar, ağıla sığmayan, cəmi-bəşəri məhv etməyə yönəlmiş, "iblisə uymuş" bir vücud olması qənaəti ilə razılaşa bilmərik. Çünki ömrünün böyük bir hissəsini: yeniyetməlik və gənclik çağlarını atasının qatili Kərim xan Zəndin yanında keçirən, şahın süfrəsindən yeyən, məclislərində yuxarı başda əyləşən, xəzinəsindən təqaüd alan bir şəxsin "bəşərdən", "cəmiyyətdən" və dünyadan qisas almaq kimi hisslərlə yaşaması illərlə səbr edib düşməni qarşısında susmağı bacaran Qacara xas xarakterik bir sifət kimi dəyərləndirilə bilməz. Bu keyfiyyətlər birmənalı şəkildə Ağa Məhəmməd şah Qacarın çox böyük bir siyasətçi olduğunun göstəricisidir. Hətta mənəvi və fiziki ağrıları da bu keyfiyyətlərinin üstünə gələrək onu tarix səhnəsində tragik qəhrəmana çevirir. Qacarın öz sözləri ilə desək: "Üzümə adil hökmdar deyib, xəlvətdə qəddar, xunxar söylədilər, səbəbini də xacəliyimdə gördülər. Bir oğlunun boynunu vurdurub, ikisinin də gözünü tökdürən Şah Abbasa, vəliəhdi Rzaqulu xanın gözlərinə mil çəkdirib kor eləyən Nadir şaha qəddar demədilər. Bu minvalla mənim xeyrə, mərhəmətə açıq qəlbimi daşa döndərdilər. Bitib-tükənməyən qovğalar, müharibələr, qisas alovu ilə şölələnən əməllərim çox şeyi unutdurdu mənə, ruhumun kamilləşməsi yolunda görəcəyim işlər çıxdı yadımdan. Gecələr dua elədim, namaza durdum, gündüzlər baş kəsdim, qan tökdüm, savab əvəzinə günahlar yığdım üstümə, amma bu, mənim günahım, mənim taqsırım deyildi, bu, hər bir hökmdarın tale yazısıdır, zira hakimiyyət və mütləq ədalət, bunlar bir-birindən nə qədər uzaqdır" (5).

Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Əli Əmirli görünür bu səbəblərdən dolayı, Qacar şəxsiyyəti ətrafında dolaşan suallara aydınlıq gətirmək, birtərəfli səslənən fikirləri tamamlamaq, bəlkə də dəyişdirmək məqsədilə sözügedən mövzuya müraciət etməyə zərurət duymuşdur. Əli Əmirlinin əsəri Ağa Məhəmməd şah Qacarın gündəliyidir desək , qəribə səslənməz. Artıq bu əsərdə oxucu Qacarla daha yaxından tanış olur. "Bir insanı tanımaq üçün onu sevmək lazımdır" (L.Feyrbax) fikrindən çıxış etsək dramaturq süjet boyu Qacarı oxucuya tanıtmaq üçün onu sevdirməyə çalışır: "Bütün İran bilir ki, Ağa Məhəmməd şah Qacar nahaq cəza vermir, nahaq da mükafatlandırmır. Xəyanətə öz çəkisində cəza, xidmətə isə xidmətin özündən qat-qat üstün mükafat. Budur mənim ədalət tərəzim" (5) deyərək öz hökmdar konsepsiyasını bəyan edir. Və "ədalət tərəzisi" ifadəsi Qacarın dilindən verilən sadəcə gəlişi gözəl söz deyil, eyni zamanda hər addımında

onu mizanı pozmağa, özünə belə həddi aşmağı qoymayan maddi əşya, daha dəqiq desək "ədalət Allahı"nın bütüdür. Mövlanənin "Bu qədər oxudun nəyi bildin? Həddimi" kəlamı ömrünün çox hissəsini elmi bilikləri öyrənməyə həsr etmiş Məhəmməd şah olduqdan sonra belə həddini bilmək və bu həddi gözləmək fəhmini vermişdi. Hər bir şeyin artıqlığı dərddir düşüncəsi ilə hər bir addımını öz "tərəzisində" ölçməyə çalışır ki, çəkidə ədaləti və ədalətsizliyindən heç kimə artıq pay düşməsin. Və bu yolu özündən, özünə qarşı ədalətli olmaqdan başlayır. Allahı belə dərk etmək özünüdərk etməkdən başlayırsa, Qacar bir şah olaraq içdiyi sudan, yediyi yeməkdən başlayaraq pəhrizkarlıq yolunu tutur, yanlış addım atmamaq üçün "tərəzisini" gözünün qarşısından götürməyə belə qoymur. Qacarın bu cəhətini xüsusi vurğulayan Əli Əmirli yeməyində belə həddini aşmağı özünə icazə verməyən bir şəxsin etdiyi müharibələrdə, "tökdüyü qanlarda" ölçü, hüdud, mizan tərəzi tanımaması, /Bir boynu olsaydı bəşəriyyətin onu bir qılıncla vurardım yəqin/ (15, 68) söyləməsi inandırıcı və məntiqli səslənmir. Sağlam deyil, xəstə təfəkkürün sayıqlaması kimi qavranılır, tarixdə öz ağıl və bacarığı ilə avropalı tarixçilərin belə diqqətini çəkmiş Qacarın bədii ədəbiyyat vasitəsilə yaddaşlara köçürülmüş qorxunc portreti onun bir siyasi xadim, ədalətli şah kimi təqdiminə mane olur, şəxsiyyətinə dərin kölgə salır və bu kölgənin altında Ağa Məhəmməd şah Qacar bütöv əzəməti ilə görünmür.

Əli Əmirli Qacarı müxtəlif tərəflərdən təqdim etməyə çalışır: insan Qacar, oğul Qacar, qardaş Qacar, hökmdar Qacar. Lakin dramaturqu Qacar sərkərdə, şah, müdrik siyasətçidən çox insan kimi maraqlandırır.

"İnsan iztirabını təsvir edən tragediya": "Bütün deyilənlərə rəğmən, və ya Ağa Məhəmməd şah Qacar" əsəri birmənalı şəkildə "insan iztirab üçün yaranmamışdır!" ideyasını təlqin edir. Və Qacar faciə qəhrəmanı kimi dünya ədəbiyyatının ən məşhur tragik obrazları ilə eyni məkanı bölüşür. Əgər "Edipin faciəsi insani müdrikliyin məhdudluğunda, Hamletin zəifliyi ümumiyyətlə bəşəri qüdrətin zəifliyində idi"sə (9, 23), Qacarın faciəsi mənəvi ağrılarında və bir an belə yaddan çıxarmadığı, Allahın deyil, insan övladının əli ilə törədilmiş şikəstliyində idi. Prometeydə isə "...iztirab rəmzi məna ilə yanaşı, həm də xalis iztirabın özünü ifadə edir və həqiqi mənada fiziki, cismani bir əzabdır. Əksinə, ruhən və mənən o rahat və xoşbəxtdir. Burada fiziki işgəncə də elə məhz ruhani rahatlığın təminatı naminədir. Yunan titanı fəal fədakardır. O, iztiraba nifrət edərək iztiraba dözür!" (9, 24). Lakin çox təəsüf ki, Qacar Prometey qədər rahat və xoşbəxt deyil və bu iki vacib duyğunun yoxluğu onun "ruhi narahatlığının" səbəbidir.

Ömrünün böyük bir hissəsini Kərim xan Zəndin sarayında keçirən, şahın dəftərxana rəisi olan, onunla eyni süfrəni paylaşan, ən ağıllı həmsöhbəti, məsləhətinə könül qızdırdığı Ağa Məhəmməd göz dustağı olduğu müddətdə özünün söylədiyi kimi hətta tez-tez tülkü ovuna çıxarmış: "Kərim xan Zəndin əsiri olanda tülkü ovuna gedərdim. Ələ gətirdiyim heyvanın boynuna zınqırov bağlayıb sərbəst buraxardım. Tülkü bu zınqırov səsindən hürküb özünü ora-bura vurur, vurnuxur, kol-kosa girir,

əldən düşənəcən ulayırdı, amma hər tərpənişindən cingildiyən səsdən yaxa qurtarmaz, təbiidir ki, ov da eləyə bilməzdi, hürküdərdi cəmi heyvanatı. Tədricən bu yad səsə alışan tülkü yaxşı ov eləyə bilməsə də ac da qalmırdı, yaşamağın çəmini tapırdı, amma heç vaxt cütləşə bilmirdi, dişi tülkülər zınqırovun səsindən qorxub qaçırdılar. Yalqızlığa tab gətirə bilməyən zavallı heyvan qüssədən, tənhalıqdan hey ulayar, nəhayətdə canını tapşırardı. Mənim bütöv İran səltənətinə hökmü çatan Ağa Məhəmməd şah Qacarın içində boynunda zınqırov asılmış bədbəxt bir tülkü daim ulayır" (5) söyləyən Qacarın faciəsi bu etirafında bütün əzəməti ilə görünür. Onun mənəvi yaşantıları, ağrıları Babəkin doğranması, Nəsiminin soyulması, Kopernikin yandırılması qədər dəhşət və kədər doğurur.

Cəfərqulu xanı gözləyən Qacarın "işıqları gur eləyin, gərək barədərim bir vaxt iyrənib üzündən öpmədiyi qardaşının cah-calalını görsün" (5) söyləyir. Dramaturq ən incə bir nüansa, tarixi materiallarda və xüsusilə də Qacar haqqında yazılmış bədii əsərlərdə onun qardaşlarına belə aman verməyən, canlarına qıyan qəddar təbiətinə deyil, əksinə doğmaları tərəfindən belə sevilməməsi, hətta ən sevimli qardaşı Cəfərqulunun da ona qarşı olan qeyri-səmimi münasibətinə diqqət çəkir. Qacarın dəvətini qəbul edib saraya gələn Cəfərqulu xanın anası Ceyran xanıma "Qardaşım bizdən ağıllıdır. Məndən gələcək təhlükəni o mənim özümdən tez duydu. Şeytan çoxdan girmişdi ürəyimə, bunu iti fəhminlə sən də bilirdin, ana. Şükür ki, Ağa Məhəmməd tez tərpəndi. Ağıllı adam bəlanı dəf eləyəndirsə, müdrik adam bəlanın yaranmasına imkan verməyəndir. Nə qədər ki, fitnə odu alovlanmayıb, onu tədbir suyu ilə söndürmək məsləhətdir, sabaha qalsa güclənib yanğına çevrilər. Qardaşım odu vaxtında, qığılcım halında olanda mənim isti qanımla söndürdü" (5). Və bu etiraflardan da görürük ki, yazıçı Qacarı belə addımları atmağa məcbur edən səbəbləri göstərməyə çalışır. Şahın içərisində yuva salmış təzadlı, bir-birinə qarşı durmuş ruh halı-mim formasında şahın mənəvi və maddi dünyasında konflikt yaradır. Və əsər boyu qəhrəmanın ruh halının varlığından kənarda verilməsi orijinallığı ilə maraq doğurur. Sevən mim, Taclı mim, Qız mim xarici mühitin müxtəlif vəziyyətləri kimi Qacara təsir edib onu yönləndirməyə çalışırlar. Anası Ceyran xanım ilə görüşərkən ətrafına ana sevgisi çiləndiyi üçün ən məhrəm sirlərini, zəif və güclü tərəflərini biruzə verməkdən çəkinməyən şah "Niyə mən gülə bilmirəm, ana" (5) deyib daxilində baş verən tufanlardan, tənha olmasından danışır. Çevrəsində çoxlu sayda insanlarla əhatələnməsinə baxmayaraq anasına "Mən tək sənə inanıram" deməsi "...zahirən parıltılı həyat tərzi içində olan şahın daxili dünyasının sönüklüyündən" (10, 141), yalqızlığından xəbər verir.

Ən maraqlı məqamlardan biri də ondadır ki, əsərdə konflikt hadisələrin inkişafında deyil, Qacarın öz içərisində baş verir. Dramaturqlar Qacarı bir hökmdar, bir sərkərdə kimi verdikləri halda Əli Əmirlini Qacarın yalnız insani tərəfləri, müxtəlif vəziyyətlərdə keçirtdiyi hisslər daha çox düşündürür. "Hərb və sülh" romanının müəllifi L.N.Tolstoy yazı prosesində "Nataşa Rostovanın keçirdiyi hisslər məni Austerleç və Borodino döyüşlərindən daha çox maraqlandırırdı" (13, 8)

söyləyirdi. Necə ki, Əli Əmirli hökmdar Qacar, oğul Qacar, qardaş Qacar, zahid Qacarı tamaşaçıya mənəvi halı-mimləri fonunda təqdim edir. Daxili səs-Qacarın monoloqları özü ilə tamaşaçını, oxucunu tanış edir.

Faciədə müxtəlif obrazlar yer alsa da, onların hər biri Qacarın müxtəlif xüsusiyyətlərini üzə çıxartmaq, bütöv bir şəxsiyyət kimi təqdimatına xidmət edir. Əli Əmirlinin Qacarı sanki əsrlər boyu ona ünvanlanmış sualları cavablandırmaq, ziddiyyətli şəxsiyyəti ilə bağlı məsələlərə aydınlıq gətirmək, qəzəblənmiş rəssam fırçasında eybəcər hala salınmış portretini əlavə boyalardan təmizləmək üçün tarix səhnəsinə gəlir, əvvəlki əsərlərdəki birtərəfli təsvirləri tamamlayır. Qacarın şəxsiyyəti, obrazı, yarımçıq qalmış portreti tamamlanır.

Digər dramturqlardan fərqli olaraq Əli Əmirlinin əsərində Qacar dünya malında gözü olmayan, zahiri dəbdəbədən qaçan, mənən asket olan bir zahid kimi təqdim olunur. Öz ağlı və müdrik addımları ilə şahlıq taxtını ələ keçirən Ağa Məhəmməd hakimiyyətin verdiyi səlahiyyətlərdən yalnız bir sərkərdə kimi istifadə edir, cəzaya layiq olanı cəzalandırdığı kimi, bəzən də günahkarı müdrikliyinə sığınaraq əfv edir, görməzdən gəlir.

Dramaturq əsərin əvvəlində "Var- dövlət rəmzi olan az sayda əşyalar səhnənin asketik təsirini azalda bilmir. Qara və orda-burda işıldayan qızılı rəngli rənglər gülməyən, sevinməyən, taleyinə bədbəxtlik möhürü vurulmuş insanın-hökmdarın əhval-ruhiyyəsinə uyğun olan nigaranlıq və gərginlik ovqatı" (5) ilə oxucunu Ağaməhəmməd şahın gərgin ovqatından, həyatından xəbərdar edir. Ağaməhəmməd şahın ənənəvi obrazından fərqliliyi ilə seçilir. Bu Qacar içində kələf kimi dolaşmış qəmlə, sevinci üz-üzə qoyan bir insandır. Qüdrət sahibi olmasına baxmayaraq tənhalıqdan əziyyət çəkir, daxilində yuva salmış bir zınqırov səsi daim onun ruhunu narahat edir. Və bu baxımdan Əli Əmirlinin təqdimatında biz tənha, ətrafındakı insanlardan özgələşmiş, "kor bəxtinə" qəlbinin dərinliyində yas tutan Ağaməhəmməd şah Qacarın-qüdrətli bir ölkənin hökmdarının böyük faciəsinin ifadəsini görürük. Şahın zahiri dəbdəbədən uzaq birisi olması dramaturq tərəfindən xüsusilə vurğulanır. Dünyanın bütün eyş-işrətindən uzaq olan, tərkidünya həyat tərzi sürən şahın ölüm mələyini böyük bir sevinclə qarşılaması uzun illərdən bu yana zindanda olan ruhunun qurtuluş məqamıdır. Məhz ölüm nəticəsində onun içindəki zınqırov əbədi dillənir, əzablar içərisində çırpınan ruhu nəhayət ki, rahatlıq tapır. Sufilərin fikrincə "Ölüm bədənə məhkum olunmuş ruhun azadlığa qovuşma məqamıdır". Y.Qarayev qeyd edir ki, "Tragediyada ölüm-daha ülvi, təmiz və yüksək ictimai-əxlaqi vəziyyətə keçid deməkdir" (9, 26). Qacar da "Sənsən yuxuda gördüyüm gözəl ölüm, tanıdım" (5) deyib ölümü belə bir sevinclə qarşılayır, əzablarının bitdiyi an kimi dəyərləndirib, əbədi rahatlıq tapmaq üçün ruhunu təslim edir.

Yəqin bundan sonra da necə ki bu vaxta qədər yazılıb, Qacar və digər tarixi şəxsiyyətlər haqqında bir-birindən maraqlı əsərlər yazılacaq. Və hər müəllif bu şəxsiyyətlərə öz dunyaduyumu bucağından yanaşacaq və həm oxşar, eyni zamanda

da fərqli obrazlar yaradacaqlar. Və əsl həqiqət yenə müəmmaya dönəcək və yazarlarımız bacardıqları qədər bu müəmmanı çözməyə çalışacaq. Böyük yazıçı L.N.Tolstoyun təbirincə desək "Çiçəyin üstündə oturan arı körpə uşağı sancır; Uşaq arılardan qorxub deyir ki, arıların məqsədi adamı sancmaqdır. Şair isə çiçəyi soran arıya tamaşa edir və deyir ki, arının məqsədi çiçəyin ətrini sormaqdır. Arıçı isə görür ki, arı çiçəklərin tozunu və şirəsini yığıb pətəyə gətirir, buna görə deyir ki, arının məqsədi bal yığmaqdır. Başqa bir arıçı ilə arıların həyatını daha da dərindən öyrənib deyir ki, arı çiçəyin tozunu və şirəsini cavan arıları bəsləmək və ana arı yetişdirmək üçün yığır, arıların məqsədi-nəsl artırmaqdan ibarətdir. Həqiqətdə isə arının əsas məqsədi insan ağlının dərk edə bildiyi birinci, ikinci və üçüncü məqsəddən ibarət deyildir. İnasanın ağlının bu məqsədləri öyrənmək sahəsində nə qədər müəssər olması aydın bir şəkildə meydana çıxır. İnsana ancaq arının həyatının başqa həyat hadisələri ilə müqayisəsini müşahidə etmək müəyyəsərdir. Tarixi şəxsiyyətlərin və xalqların haqqında da bunu demək lazımdır" (14, 113).

Mövlana Cəlaləddin Ruminin qənaətincə: "Allah insanı hər nəfəsdə yenidən yaradır". Faciənin sonunda müəllif sanki Qacarı ölüm anında yenidən yaradır, onun varlığına hakim kəsilmiş əzabın miqyasını, dərinliyini bütün çılpaqlığı ilə təqdim edir. Əsər boyu Qacarın şahid olunan ağrı-acısı bir kəlmədə ümmana dönür və tamaşaçını özündə "qərq edir. Dramaturq əzabın özünü belə obrazlaşdırmağa müəssər olur. Lakin oxucunun düşüncəsində yenə bir müəmma qalır: "bütün deyilənlərə rəğmən" tarixi şəxsiyyət Qacar sözügedən müəlliflərin yaratdığı Qacarların əslində hansıdır?!..

Ədəbiyyat:

1.Azərbaycan tarixi. Redaktor: prof. Süleyman Əliyarlı. Bakı: "Azərbaycan", 1996

2.Борев Ю. О трагическом. Москва: Советский писатель., 1961, 392 с.

3.Бруссиг Т. Солнечная аллея. Пер.с. нем. М. Рудницкий. М: Слова/ Slovo, 2004, 192 с.

4.Cavid H. Əsərləri. Beş cilddə. III cild. Bakı, "Lider nəşriyyatı". 2005, 305 səh.

5.Əmirli Ə. "Bütün deyilənlərə rəğmən və ya"Ağa Məhəmməd şah Qacar" http://booklikes.com/butun-deyil-nl-r-r-m-n-v-ya-a-a-m-h-mm-d-ah-qacar mirli/book,10986756

6.Gevr J. Xacə şah. Bakı: "Gənclik". I kitab, 1993; II kitab, 1994

7.Haqverdiyev Ə. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyatı". 2005, 504 səh.

8.Həsənova (Saraclı) M. Ə.Haqverdiyevin faciəsində ümümiləşdirmə və fərdiləşdirmə// Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2010/3,

9.Qarayev Y. Faciə və qəhrəman. Azərbaycan SSR EA nəşriyytaı. Bakı, 1965, 192 səh.

10. Mirzəyeva Y. Bütün deyilənlərə rəğmən və ya Ağa Məhəmməd şah Qacar tarix pyesində gerçəkliyin bədii inkiası. Bakı// Kültür evreni, səh 139- 144.

11. Mustafayeva A. Qacar səhnədə dünən və bu gün// Qobustan: Sənət toplusu, 2017, №2. səh. 27-29.
12. Tahirzadə Ə. Ağaməhəmməd şah Qacar (Tərcümeyi-hal oçerki). Bakı, "Kür" nəşriyyatı, 2002, 44 səh.
13. Tolstoy L.N. Hərb və sülh. Dörd cilddə, I cild. Bakı, "Şərq və Qərb", 2006, 376 səh.
14. Tolstoy L.N. Hərb və sülh. Dörd cilddə, III cild. Bakı, "Şərq və Qərb", 2006, 416 səh
15. Vurğun S. Seçilmiş əsərləri. Beş cilddə. IV cild. Bakı, "Şərq-Qərb", 2005, 400 səh.
16. Затонский Д. Художественные ориентиры XX века. М: Советский писатель. 1988

Р. МУРШУДОВА

ОБРАЗ АГА МАГОМЕД ШАХА КАДЖАРА В АЗЕРБАЙДЖАНСКОЙ ДРАМАТУРГИИ "НЕСМОТРЯ НА ВСЕ СКАЗАННОЕ"

РЕЗЮМЕ

В статье проводится интересная сравнительная паралель между ранее написанными об известном государственном деятеле Ага Магомеде шахе Каджаре произведениями, трагическпя личность которого всегда была в центре деятелей слова. Как известно, к личности Ага Мохаммад Шаха Гаджара обращались на разных этапах истории нашей национальной мысли. «В крови» Юсифа Вазира Чаманзаминли, «В крови», «День убийства» Юсифа Самедоглу, «Ага Мохаммад Шах Гаджар» Абдуррахмана бека Хагвердиева, «Вагиф» Самада Вургуна создали художественный образ Гаджара. Каждый словес представлял Гаджара с разных сторон, знакомил читателей с похожим и непохожим на него «Хаджа Шаха».

Впервые в истории азербайджанской литературы наш выдающийся писатель Абдулрахим бек Хагвердиев обратился к теме и личности Ага Мохаммад Шаха Гаджара. В трагедии «Ага Мохаммад Шах Гаджар» писатель представляет историческую личность Гаджара как мудрого, расчетливого правителя с самого начала, не превышавшего в своих приказах такой меры. В статье приверженность Абдуррахим бека Хагвердиева к историческим истинам и неискажение истории оценивается как основная причина создания персонажа при создании образа Гаджара, оставившего след в памяти как противоречивая и сложная личность в трагедии «Ага Мухаммад Шах Гаджар». Трагедия шаха, искалеченного в детстве, изображалась как результат трагического характера и

судьбы. Хотя физические и эмоциональные травмы его детства не помешали ему вырасти могучим воином, мудрым правителем, он перевернул свой внутренний мир с ног на голову и превратил его в вечного мучителя. Жизнь и переживания Гаджара превратили его в особенного человека на исторической сцене, время от времени привлекали внимание людей, и были созданы интересные образы Гаджара, чтобы прояснить противоречивые мнения. Однако, «несмотря ни на что», сказанное об исторической фигуре - лишь верхушка айсберга. Был сделан вывод, что литературный образ может отображать объект и процесс в настоящем, прошлом и будущем времени и что литературный образ может иметь определенное содержание.

В трагедии Али Амирли « Несмотря на все сказанное или Ага Магомед шах Каджар" автор сравнивает образы Каджара, созданными в литературе до него. Драматург создал образ Каджара с его сложной судьбой, со всеми особенностями характера на фоне различных событий. Отмечается также, что писатель, создавая образ Каджара, оптрается на конкретные исторические факты, и это привело к необыкновенно правдивому изображению характера шаха.

Созданный Али Амирли образ Каджара отличается от ранее созданных другими писателями образом тем, что у него шах чтит религию, книги, науку, не является стороником накопительства и стяжательства. Один из самых интересных моментов в произведении заключается в том, что конфликт происходит не в развитии событий, а в самом Гаджаре.

В то время как драматурги изображают Гаджара как правителя и полководца, Али Амирли больше озабочен человеческой стороной Гаджара и чувствами, которые он испытывает в различных ситуациях. Несмотря на свою силу, он страдает от одиночества, и звук колокольчика, гнездящийся внутри него, всегда тревожит его душу. И с этой точки зрения в презентации Али Амирли мы видим выражение великой трагедии Агамахаммад Шаха Гаджара, правителя могущественной страны, который был одиноким, непохожим на окружающих его людей, оплакивая «слепую удачу» в глубине своего сердца..

Ключавие слова: Ага Магомед шаха Каджар, трагедия, идентичность, история, смерть

R. MURSHUDOVA

"DESPITE ALL THAT HAVE BEEN SAID" THE CHARACTER OF AGHA MOHAMMED SHAH QAJAR IN AZERBAIJANI DRAMA

SUMMARY

The article draws an interesting comparative parallel between the works written earlier about the famous statesman Agha Mohammed shah Qajar , whose tragic personality has always been at the center of the figures of the word. As you know, the personality of Agha Mohammad shah Qajar was addressed at different stages in the history of our national thought. "In the Blood" of Yusif Vazir Chamanzaminli, "In the Blood", "The Day of the Murder" by Yusif Samedoglu, "Aga Mohammad shah Qajar" by Abdurrahman bey Khagverdiyev, "Vagif" of Samad Vurgun created the artistic image of Qajar. Each word represented Qajar from different sides, acquainting readers with the similar and dissimilar "Hajj Shah".

For the first time in the history of Azerbaijani literature, our outstanding writer Abdulrahim bey Khagverdiyev turned to the topic and personality of Agha Mohammad Shah Qajar. In the tragedy "Agha Mohammad Shah Qajar" the writer presents the historical personality of Qajar as a wise, calculating ruler from the very beginning, who did not exceed such a measure in his orders. In the article, the adherence of Abdurrahim bey Khagverdiyev to historical truths and non-distortion of history are assessed as the main reason for creating a character when creating the image of Qajar, who left a mark in memory as a controversial and complex personality in the tragedy "Agha Mohammad Shah Qajar". The tragedy of the Shah, crippled in childhood, was portrayed as the result of a tragic character and fate. Although the physical and emotional trauma of his childhood did not prevent him from growing up as a powerful warrior, a wise ruler, he turned his inner world upside down and turned him into an eternal tormentor. Qajar's life and experiences turned him into a special person on the historical stage, attracted people's attention from time to time, and interesting images of Qajar were created to clarify conflicting opinions. However, "in spite of everything", what has been said about the historical figure is only the tip of the iceberg. It was concluded that a literary image can reflect an object and a process in the present, past and future tense, and that a literary image can have a certain content.

In the tragedy of Ali Amirli, "Despite everything said or Aga Mohammad Shah Qajar," the author compares the images of Qajar created in the literature before him. The playwright created the image of Qajar with his difficult fate, with all the features of his character against the background of various events. It is also noted that the writer, creating the image of Qajar, relies on specific historical facts, and this has led to an unusually truthful depiction of the shah's character. The image of Qajar created by Ali Amirli differs from those previously created by other writers in that

his shah honors religion, books, science, is not a supporter of hoarding and acquisitiveness. The playwright created the image of Qajar with its complex fate, with all the characteristics of the character against the background of various events. It is also noted that the writer, creating the image of Qajar, leans on specific historical facts, and this led to an unusually truthful depiction of the character of the shah. The image of Qajar created by Ali Amirli differs from previously created by other writers in the way that the shah honors religion, books, science, is not a supporter of accumulation and money-grubbing. One of the most interesting moments in the work is that the conflict does not take place in the development of events, but in Qajar himself. While playwrights portray Gajar as a ruler and commander, Ali Amirli is more concerned with the human side of Qajar and the feelings he experiences in various situations. Despite his strength, he suffers from loneliness, and the sound of the bell nesting inside him always disturbs his soul. And from this point of view, in Ali Amirli's presentation, we see the expression of the great tragedy of Agha Mohammad shah Qajar, the ruler of a powerful country, who was lonely, unlike the people around him, mourning "blind luck" in the depths of his heart .

Key words: Agha Mohammed shah Qajar, tragedy, identity, history, death

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Hacıyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

MAHİRƏ TAHIR QIZI HACIYEVA
Filologiya üzrə fəlsəfə doktoru.
Azərbaycan Dillər Universiteti
Email: mhacieva@hotmail.com
https://orcid.org/0000-0002-6922-4286

H. C. UELLS YARADICILIĞINDA UTOPIYA.

Xülasə

Utopiya ədəbiyyatının tədqiqi bir neçə əsas tendesiyaya söykənir. Bədii utopiyanın ayrıca janr kimi araşdırılması belə istiqamətlərdən biridir. Daha bir istiqamət onu elmi-fantastik bədii ədəbiyyat hesab edir. Bütün utopiya əsərləri bu cür səciyyələndirilə bilməz. Pastoral utopiya və ya feminist utopiyası və s. kimi qələmə alınmış əsərlər də mövcuddur. Bu əsərlərin əksəriyyəti elmi-fantastik elementlərə yer ayırmır. Buna görə də "Speculative" anlayışı adı çəkilən əsərlərin təyinedicisi kimi istifadə olunur. Bu əsərlərin əsas xarakterik xüsusyyəti hadisələrin qeyri-real aləmdə, xəyali bir dünyada baş verməsidir. H. G. Uells yaradıcılığı bu janrın təhlili üçün zəngin materiala mailkdir. Yazıçı, bu janrı, onu narahat edən məsələlərin müzakirə meydanı olaraq, islahatlarla bağlı fərziyyələrinin bədii şəkildə təqdim olunduğu bir meydan olaraq görürdü.

Bizi maraqlandıran, elmi-fantastik bədii əsərləri ilə kifayət qədər tanınmış H.G.Uellsin utopiya əsərləridir. Yazıçı cəmiyyətdə islahata ehtiyac duyduğu məsələləri, problemlərin həllini bədii utopiyalarında da müzakirə edmişdir. Uells, yaradıcılığı boyu, onu incidən məsələləri işıqlandırırdı. Yazıçı bu məsələlərin həlli yollarının mövcud olduğu bir utopiya axtarışında idi. Onun utopiyaları müəyyən özünəməxsus xüsusiyyətləri ilə seçilir. Uellsin qəhrəmanları birdən-birə paralel dünyaya, aid olduqları cəmiyyətdən daha mükəmməl olan, lakin, onun nüsxəsi olan bir dünyaya düşür. Adətən onlar bu səyahətdə tək deyil, tanıdıqları adamlarla birgədir. Qəhrəmanlar qoşulduqları cəmiyyətin utopiya olduğunu anlayır, buna çox da təəccüblənmir. Bu cəmiyyətlərə intqrasiya gözləniləndir, dil problemi yoxdur. Lakin, aradakı yadlığın itməsi də mümkün deyil. Nə qədər günahsiz olsalar da gəlmələr bu mükəmməl cəmiyyətlərdə çağrılmamış qonaqdır. Bu xüsusiyyətlərdən sonuncular utopiya ənənəsi kimi mövcuddur. Digər amillər isə Uells yaradıçılığını özünəqədərki utopiyalardan fərqləndirir.

Açar sözlər: utopiya, qəhrəman, cəmiyyət, islahat, fərziyyə.

Giriş

Bədii əsərin ərsəyə gəlməsi müəyyən məqsəd daşıyan bir prosesdir. Bu mənada utopiya ədəbiyyatı sadəcə "yaxşı yer"in tərənnümü kimi təhlil edilə bilməz. Utopiya əsərləri, müəlliflərin həllini axtardıqları məsələlərin, dövrlərində aktuallıq kəsb edən problemlərin müzakirəsini apardıqları bədii mətnlərdir. Herbert Corc Uells elmi-fantastik janrın görkəmli nümayəndələrindən biri kimi təqdim olunur. Onun əsərləri futuristik xüsusiyyəti ilə seçilir, müəllif dövrünün bir sıra yeniliklərini qabaqlayaraq yaradılmasından xeyli əvvəl onların bədii təsvirini təqdim edir. Bu mənada Uells gələcəyi qabaqcadan görən bir yazıçı olaraq tanınır. Bu gələcək daha çox utopik gələcəkdir. Bu mənada yazıçının yaradıcığında Utopiya müəyyən özünəməxsus xüsusiyyətlər daşıyır. Biz onun iki utopiya əsərini, "A Modern Utopia" (1905) və "Men like Gods" (1923) əsərlərini təhlil edirik.

"A Modern Utopia" romanının əvvəlində müəllif bundan öncəki işlərində cavabını tapmağa çalışdığı sualların cavabını, təqdim etdiyi problemlərin həllini tapmadığı üçün təkrar cəhd edəcəyini vurğulayır. Buna görə də qeyd edir ki, "If you are not already a little interested and open-minded with regard to social and political questions, and a little exercised in self-examination, you will find neither interest nor pleasure here" [4,4]. Əsərin "Müasir utopiya" adlanması da bu fikirlərdən irəli gəlir. Oxucuya aydın olur ki qarşısındakı əsər özündən əvvəl yazılan utopiya əsərlərindən fərqlənəcək, müəyyən yeni istiqamətlər təqdim edəcək bir əsərdir. Uells əsərini fəlsəfə və bədii təhkiyyənin qarışımı hesab edir. Əsərin roman adlanması da bir qədər şübhə doğrur, o bu janrda qələmə alınmış əsərlərdən fərqlənir.

Bənzər yolla utopiyaya səyahət edən digər bir qrup isə Uellsin "men like Gods" əsərinin qəhrəmanlarıdır. Uells ümumiləşmələr aparmaqdansa insanın fərdi keyfiyyətlərinin diqqət mərkəzində olduğu utopiya axtarışında idi. O bu utopiyanın paralel aləmdə mövcudluğunu təsvir edirdi. Lakin, unutmayaq ki, müəllif sosial-siyasi problemləri işiqlandırdıqda belə bədii əsər yazıçının təxəyyülünün məhsuludur. Utopiya ədəbiyyatı isə fərziyyələr üzərində qurulur. Onlar hansısa fəaliyyət planı və ya mümkün gerçəkiliyin, mümkün gələcəyin təsviri kimi qəbul edilə bilməz. Bu mənada Uells fərziyyələrinin ciddiyə alınmasını məsləhət görmürdü. Bununla belə onun sağlığında da bu cür cəhdlərin olduğu, yazıçının əsərlərindən ruhlanaraq müəyyən icma və klubların yaradıldığı məlumdur.

Müasir utopiya.

Uellsin müasir utopiyası tarıxın elə bir dönəmində işıq üzü gördü ki, dövrün hadisələri ilə tam səsləşdi. Buna baxmayaraq, əsərin üslubu müəyyən tənqidlərə də yol açdı. Əsərdə vahid bir hekayənin olmaması, təqdim olunan problemlərin həllinə yönəlmiş konkret addımların təklif olunmaması bir qədər narahatlıq yaradır. Buna görə də əsri sonuna qədər oxumaq hər bir oxucu üçün maraqlı olmaya bilər. Lakin, qeyd etmək yerinə düşər ki müəyyən fikirlər, irqi, qadın bərabərliyi kimi məsələlər kifayət qədər diqqəti cəlb etmişdi. Hətta, Amber Reeves əsərdən bəhrələnərək

utopiyalılar üçün klub yaratmışdı. Bu "Fabian" cəmiyyəti ilə əlaqəli olaraq meydana çıxmışdı.

Müəllifin də qeyd etdiyi kimi, müasir utopiya özünəqədərki utopiya əsərlərində təqdim olunmuş bir sıra məsələlərə fərqli yanaşır. Əsərin üslubu özünəməxsusdur. Təsadüfi deyil ki, M. Şerborn əsəri modern deyil postmodern utopiya hesab edərək yazır, "The book's elaborate structure, requiring constant shifts in the reader's imaginative and intellectual engagement, makes it not so much a modern as a postmodern Utopia.." [3, 198]. Bildiyimiz kimi utopiya əsərləri müəyyən xüsusiyyətlərinə görə bənzərdir. Adətən qəhrəman özü də bilmədən heç kimə məlum olmayan utopik dünyanı kəşf edir. Bu dəniz səyahəti zamanı yolunu itirib naməlum adaya düşmək, və ya qəribə şəkildə zamanda səyahət etmək sayəsində baş vermiş ola bilər. H.C. Uells bir qədər də irəli gedərək qəhrəmanını sanki qalaktikalar arası səyahət etdirir. Bu qəfil baş verir, qəhrəman oturduğu yerdə izaholunmaz və olunmayan şəkildə utopiyaya düşür. Bu utopiya yerlə eynidir, onun bir nüsxəsidir, lakin, mükəmməl nüsxəsidir. Digər utopiya əsərlərində qəhrəmanın səyahətində yalqız olması şərtdir, sanki onun tapdığı bu mükəmməl yeri başqa heç kim tapa bilməz, onun hekayəsini nə təsdiq nə də təkzib edəcək bir yol yoldaşı var. Uellsin "Owner of the voice", "səsin sahibi" deyə təqdim etdiyi təhkiyyəçi qəhrəmanı isə tək deyil, öz botanist yoldaşı ilə birlikdədir. Söhbət açdığımız bu məsələlər sadə bir roman daxilində təsvir olunmur. Əsərin əvvəlində yazıçı məqsədini açıqlayır, "In its two predecessors the treatment of social organisation had been purely objective; here my intention has been a little wider and deeper, in that I have tried to present not simply an ideal, but an ideal in reaction with two personalities." [4, 3]. Əsərin sələfləri deyərkən yazıçı "Anticipations" və "Mankind in the Making" əsərlərini nəzərdə tutur. Əsər boyu oxucu utopiyanın addım-adım formalaşmasını müşahidə edir, özünəqədərki utopiya əsərləri ilə müqayisəsini görür. Bu müqayisəni elə yazıçı özü aparır, "That, indeed, is the cardinal assumption of all Utopian speculations old and new; the Republic and Laws of Plato, and More's Utopia, Howells' implicit Altruria, and Bellamy's future Boston, Comte's great Western Republic, Hertzka's Freeland, Cabet's Icaria, and Campanella's City of the Sun, are built, just as we shall build, upon that, upon the hypothesis of the complete emancipation of a community of men from tradition, from habits, from legal bonds, and that subtler servitude possessions entail." [4, 9]. Utopiya cəmiyyəti adətən müəlliflərin müasiri olduqları dövrdəki adətlərin, yaşayış və yanaşma tərzinin dəyişməsi sayəsində mükəmməlləşən bir cəmiyyətdir. Uellsin utopiyası da eyni ənənəni davam etdiriir, lakin o oxucu üçün bu məsələni aydınlaşdırır. Müəllif qəhrəmanın birdən-birə düşdüyü və İtaliyanın bir nüsxəsi olaraq təqdim etdiyi ərazi boyu gəzdirdikcə yerin paraleli olan bu dünyanın utopiya olması üçün lazım gələn dəyişiklikləri sadalayır. O, müəyyən bir qayda üzrə öz yaratdığı utopiyada hərəkət edir və bir-bir azadlıq, burada uyğun davranış, geyim, iqtisadiyyat, qanun, iş və s. kimi məsələlərə toxunur. Biz onunla ənənəvi utopiyaların təsviri əsasında məlum

olan və onun təqdimatında yeni ştrixlər qazanan utopiyanın təsvirinin formalaşmasında iştirak edirik. İlk növbədə, əvvəlki utopiyalarda həyat stabildi, yeknəsəkdi, nsanlar individuallıqdan məhrumdur, hamı və hər şey çox ümumidir. Bu da onları reallıqdan uzaqlaşdırır. Uells utopiyada, insanın dəyişməyə qadir olduğu adətlər və konvensiyalarda dəyişim istəyir. Onun utopiyası bir planetdir. Bu tamamilə bizim planetə bənzər bir yeridr. Buna görə də daha real və mümkündür, "Out beyond Sirius, far in the deeps of space, beyond the flight of a cannon-ball flying for a billion years, beyond the range of unaided vision, blazes the star that is our Utopia's sun" [4, 13]. Lakin, bu heç də digər utopiyalarda olduğu kimi müəllifin haqqında danışdığı yerin mövcud olmasını israrla sübut etməyə çalışmaq kimi başa düşülməməlidir. Biz bədii əsər oxuduğumuzu unutmuruq. Bu daim xatırlanır, "Thank Heaven this is my book, and that the ultimate decision rests with me" [4. 47].

Utopiyada hər şey müəyyən qaydalara uyğun və səliqəli olmalıdır. Dünyada isə əksinə, bir sistemsizlik, ziddiyyət və dolaşıqlıq var. Onun utopiyasında bir dil var. Qəhrəmanların dili. Bu cəmiyyətdə uçuşlar sınaqdan keçirilir. Burada Bekonun Solomon evi artıq reallaşıb. Biz qəhrəmanın, botanistlə birgə qəflətən düşdüyü utopiyada dağdan mehmanxanaya doğru gedərkən təsəvvür etdiyi utopiyanın təsvirini oxuyuruq. Bu onun gəldiyi dünyadakı hər şeyin və hər kəsin daha mükəmməl kopyasının, ekvivalentinin olduğu bir dünyadır.

Əsərdəki botanist obrazı da diqqəti cəlb edir. Bəzən belə hiss olunur ki, əslində botanist də qəhrəmanın özüdür. Biz sanki özünü iki fərqli adam kimi görən bir qəhrəmanla qarşılaşmışıq. Daha bir maraqlı obraz isə qəhrəmanın qarşılaşdığı ilk utopiyalı insanlardan olan, təbiəti sevən və yaşadığı bu mükəmməl yeri çatışmazlıqlarına görə sərt tənqid edən utopiyalıdır. Onun utopiyadan başqa bir dünyada yaşayışın bundan qat-qat bərbad olması haqqında eşitdiklərinə inamı yoxdur, hardasa bu qədər bədbəxtliklərə düçar olmuş bir aləm mövcud ola bilməz. Lakin, təəssüf ki, "But there's no limit to the extent to which a world of men may get out of gear" [4, 87]. Bu obraz utopiyanın yeni gəlmələrə münasibəti kimidir. Gəlmələrin dünyaları haqqında nağıllara inanmır, belə bədbəxtliyi mümkünsüz hesab edir və onlara nə inam nə də dözüm göstərir.

Uellsin utopiyası bir sıra məsələlərə müəllifin həllini təqdim edir. Cəmiyyətdə əhalinin artımını problem kimi qəbul edən yazıçı utopiyada evlilik və uşaqların doğumunun müəyyən həddə qədər olmasını, qadın və kişilərin fərqli cins kateqoriyalarına ayrılmamasını məsləhət görür. Dövlət də kişi və qadınların işlərinə iki halda qarışa bilər-valideyinlik və azadlıqlar arasında meydana çıxa biləcək qarşıdurma zamanı. Qadın azadlığı məsələsinə xüsusi diqqət ayıran müəllif mükəmməl cəmiyyətdə onların mövqeyi barədə özənəqədərki fikitləri, xüsusilə Platon və Aristotelin düşüncələrini müqayisəli həhlil edərək qadının utopiyada azad olmasını harmoniya üçün vacib hesab edir.

Uells müasiri olduğu dünyanın mükəmməl bir nüsxəsini yaratmaq cəhdinə daha bir əsərində, "Men Llike Gods" utopiyasında təkrar qayıdır. Əsərin qəhrəmanı

cənab Banstbl yaşadığı gərginlikdən, evdəki və işdəki işlərin çoxluğundan yorulmuş bir insandır. Onun istirahətə ehtiyacı var. Qeyd etdiyimiz kimi, Uells yaradıcılığında hər bir əsər fəlsəfi, sosial, siyasi problemlərin müzakirə meydanı kimi nəzərdə tutulur. Bu baxımdan haqqında danışdığımız obrazı yorğun insanlığın simvolu kimi qəbul edə bilərik. Bu obrazın utopiyaya səyahət etməsi də eyni problemlərin həll olunmuş şəkildə mövcud olduğu cəmiyyət təsəvvürünü yaratmaq və xəyali həyatla mövcud həyatın müqayisəsini aparmaqdır. Qəhrəmanımız yenə də, qəflətən, izah olunmaz şəkildə özünü utopiyada görür. İstirahət etməyə yollanərkən, maşınla yolda hərəkət edərkən birdən-birə paralel bir dünyaya düşür. O yalnız deyil, yolda ondan bir qədər qabaqda irəliləyən limuzində aralarında siyasi xadimlərin, filosof və tanınan ziyalıların olduğu sərnişinlər var. Onlar da bu qəribə səyahətdə qəhrəmanın yol yoldaşıdır. Təəccüblü də olsa qəhrəmanlar elə ilk müşahidələrindən belə qnaətə gəlirlər ki, yerdə deyillər, yerə bənzər lakin mükəmməl bir aləmdədirlər. Bu aləmin bir adı var, "Nowhere. Or if you prefer the Greek of it, we are in Utopia." [1, 21] Yerlilərlə fərqi göstərmək üçün müəllif onları "Apollo" yerdən gəmiş insanları isə "Earthlings" adlandırır. İnkişafda üç min il irəli olan bu cəmiyyətlə müayisədə dünya "Great Confusion" dövründədir.

Adətən utopiya dünyasına səyahət edən qəhrəmanlar orada yadelli olaraq qalır. Əvvəl-axır geri qayıtmaq lazım gəlir. Mükəmməl cəmiyyət bu qüsurlu, inkişafda geri, arzuolunmaz qonaqları qəbul etmək istəmir. Nəticədə, qəhrəmanlar bəzən Utopiyadan sevdikləri insanların köməyi ilə canını qurtarır, bəzən özləri də bilmədən, getdikləri anlaşılmaz şəkildə də geri dönmüş olurlar. Qəhrəmanlar bu yad aləmə məftun olsalar da ora aid olmadıqlarına, mükəmməl dünyanın bir hissəsi olmadıqlarına görə qüsurlu davranış nümayiş etidirirlər. Bu məqsədyünlü deyil, adətlərə olan bələdsizliklə izah oluna bilər. Digər tərəfdən isə dünyada xarakterik xüsusiyyət olan tamahkarlıq, ambisiya, eqoizm kimi mənəvi xarakter xüsusiyyətləri onları müəyyən xoşagəlməz addımlar atmağa sövq edir. Uellsin qəhrəmanları da eyni şəkildə Utopiyanın işğalı planları qururlar. Bu onların utopiyaya gətirdiyi xəstəlik üzündən yaranan epidemiya səbəbilə bir qayalığa sürgün edilməsindən sonra baş verir. Deməli, istəyərəkdən və ya istəmədən, gəlmələr utopiya cəmiyyəti üçün arzuolunmazdır. Onlar mövcud harmoniyanı pozan amil kimi nəzərə çarpır. Buna görə də Utopiyada qalmağı arzulayan cənab Banstbl yerlilərdən bu cür cavab alır,

"-Nevertheless, I gather, I at least may be of service in Utopia?

-You can.

-How?

-By returning to your own world." [1, 173]. Arzu olunmayan gəlmələrin mükəmməl cəmiyyət üçün edə biləcəyi ən böyük yaxşılıq bu cəmiyyəti tərk etmələridir. Mükəmməl cəmiyyət ideal insanlardan formalaşır. Utopiyaya düşmüş qəhrəmanlar hələ gəldikləri dünyanın eybəcərliyindən qurtulmamış, müəyyən inkişaf yolu keçərək mükəmməlliyə nail olmamış insanlardır. Deməli, onlar utopiyada

yamaq kimi, ləkə kimi duracaqlar. Bu ləkə harmoniyanı pozur. Ona görə də, yox edilməlidir.

Uellsin elmi-fantastik əsərlərinin bir çoxunda utopiya ab-havası duyulur. Onun ən tanınan əsərlərindən biri olan "The Time Machine" (1895) qəhrəmanın zamanda səyahətini mümkün edən bir vasitə ixtira etməsindən danışır. Bu zamanda səyahət əslində Uellsin gələcək utopiyalar üçün bir ideyadır. Uells qəhrəmanları utopiyaya səyahət edərkən həm də zamanda səyahət etmiş, gələcəyə getmiş olurlar. Bu paralel bir aləmdə mövcud olan gələcəkdir. Fərq ondadır ki, adı çəkilən əsərdə bu hadisə texnoloji əsasa malikdir, ən azından texnoloji inkişaf fərziyyəsi ilə izah olunur. Təhlil etdiyimiz əsərlərdə isə belə bir izah da yoxdur. Bu möcüzə kimi də təqdim olunmur, sadəcə təbii, mümkün bir proses olaraq görünür.

Uellsin utopiyası heç də hər zaman müsbət reaksiya doğurmayıb. Tənqidçilərin arasında C. Oruell, A. Haksli kimi yazıçılar da yer alırdı. Uellsin elmi-texniki yeniliklərdən bəhrələnən mükəmməl gələcək ideyası heç də mümkün hesab olunmurdu, "Orwell does not deny that something like the Wellsian world state may come into existence in the long term, but for now science and technology have put power into the hands of crazed war lords rather than men of peace" [3, 369]. Hakslinin distopiyası Uellsin futurustik utopiyalarının tam əksi kimi diqqəti cəlb edir. Bu ondan irəli gəlirdi ki, iyirminci əsrin əvvəlləri gələcəyin utopiya deyil daha çox distopiya xarakterli olacağı proqnozunu verirdi. Haqqında danışdığımız bu məqam bədii müzakirə platformasında gələcəyi fərqli boyalarla təsəvvür edən yazıçıların mübahisəsi kimi görünür.

Nəticə

Biz adətən oxşar xüusiyyətlər daşıyan əsərləri eyni ad altında qruplaşdıraraq təhlil edirik. Bura mövzu, üslub, ideya istoqaməti və s. kimi xüsusiyyətlər daxildir. Bu heç də hər bir əsərin individual keyfiyyətlərinin nəzərə alınmaması deyil. Yəni, bir çox halda, bədii əsəri hansısa termin altında qruplaşdırmaq cəhdi subyektivdir, Atvudun sözləri lə desək "Much depends on your nomenclatural allegiances, or else on your system of literary taxonomy."[2, 10]. Ümumiləşdirmələr tədqiqatçının işini sistemləşdirməyə yardım edir. Bu baxımdan H.C. Uells yaradıcılığı elmi-fantastik, utopiya, futuristik və bunların hamısını ümumiləşdirən "Speculative" (fərziyyə) janr olaraq qəbul olunur. Təbii ki eyni ad altında təhlil olunan bir sıra əsərlər kimi Uellsin bədii irsi də ümimiləşmə daxilində təhlil oluna bilər. Lakin, Uells üçün xarakterik müəyyən xüsusiyyətlər də yox deyil. Yazıçın "A Modern Utopiya" əsərində həm üslubi xüsusiyyətlər, həm məsələnin təqdimatı, həm də həlli üsullarının müzakirəsi fərqli səpkidədir. Bu əsər yazıçının da qeyd etdiyi kimi, özünəqədərki utopiya ədəbiyyatının görmədəyi məsələlərə toxunmaq, onların düzgün təqdim etmədiyi problem həllərinə yeni baxış təqdim etmək məqsədi daşıyır. Əsər boyu oxucu bu dünyanın, mükəmməl adlana biləcək yerin qurulmasında iştirak edir, yazıçı ilə bərabər bu mükəmməliyi yaratmağın yollarını araşdırır. Sanki, bu əsər bir plandır.

Yazıçının eyni mövzuda qələmə aldığı digər utopiya romanı, “Men like Gods” süjetin pərakəndəliyinə görə tənqid olunur. Lakin, əsərdə diqqəti cəlb edən müəyyən məsələlər var. Bu ilk növbədə “Earthling”, dünyalı kimi təqdim olunan insanların mükəmməl cəmiyyətdəki yeri, daha doğrusu “yersizliyi” məsələsidir. Uells bədii ədəbiyyatda gələcəkdən bəhs edən bir çox əsərlərin əksinə olaraq gələcəyi distopiya deyil, utopiya-yaxşı yer olaraq görürdü.

Ancaq, bu yaxşı yerdə onun müasiri olan dünyadan gəlmiş qəhrəmanların özlərinə yer tapması qeyri-mümkün görünür. Deməli, mükəmməl cəmiyyət üçün hansısa sistemli tərəqqidən danışılarkən insanın mənəvi və fiziki inkişafının vacibliyi unudulmamalıdır. Mükəmməl cəmiyyətin formalaşması mükəmməl insanın formalaşması səyəsində baş verə bilər.

МАХИРА ГАДЖИЕВА

УТОПИЯ В ТВОРЧЕСТВЕ Х. К. УЭЛЛСА

РЕЗЮМЕ

Изучение утопической литературы базируется на нескольких основных направлениях. Одним из таких направлений является изучение художественной утопии как отдельного жанра. Другое направление считает это фантастикой. Не все утопические произведения можно так охарактеризовать. Есть также произведения, написанные как пасторальная утопия или феминистская утопия. Большинство этих работ не содержат места для элементов научной фантастики. Поэтому термин «спекулятивный» используется как определяющий для этих работ. Главная характерная черта этих работ - события происходят в нереальном мире, в мире воображаемом. Творчество Г. Дж. Уэллса - богатый источник материала для анализа этого жанра. Писатель видел в этом жанре площадку для обсуждения волнующих его вопросов, арену для художественного изложения своих предположений о реформе.

Нас интересуют утопические произведения Герберта Уэллса, известного своими фантастическими произведениями. Писатель обсуждал вопросы, нуждающиеся в реформировании общества, решение проблем в своих художественных утопиях. На протяжении своей карьеры писатель затрагивал вопросы, которые его волновали. Писатель искал утопию, в которой существовали решения этих проблем. Его утопии отличаются некоторыми особенностями. Главные герои Уэллса внезапно попадают в параллельный мир, мир, который более совершенен, чем общество, к которому они принадлежат, но является его копией. Обычно они не одни в этом путешествии, но они с людьми, которых они знают.

Главные герои понимают, что общество, в которое они вступают, - это утопия, и не слишком удивляются. Интеграция в эти общества возможна, и

языковых проблем нет. Однако невозможно потерять отчуждение между ними. Какими бы невинными они ни были, в этих идеальных обществах незнакомцы - незваные гости. Последняя из этих особенностей существует как традиция утопии. Другие факторы отличают работу Уэллса от предыдущих утопий.

Ключевые слова: утопия, герой, общество, реформа, гипотеза

MAHIRA HAJIYEVA

H. G. WELLS' UTOPIC VISION

SUMMARY

The study of utopian literature is based on several main areas. One of these areas is the study of artistic utopia as a separate genre. Another trend considers this to be science fiction. Not all utopian works can be characterized in this way. There are also works written as a pastoral utopia or a feminist utopia. Most of these works contain no room for science fiction elements. Therefore, the term "speculative" is used as a defining one for these works.

The main characteristic feature of these works is that the events take place in an unreal world, in an imaginary world. The work of H. G.Wells'fiction is a rich source of material for the analysis of this genre. The writer saw in this genre a platform for discussing issues of concern to him, an arena for the artistic presentation of his assumptions about reforms.

We are interested in the utopian works of H.G. Wells. The writer discussed issues in need of reforming society, solving problems in his artistic utopias. Throughout his career, the writerraised issues that worried him. The writer was looking for an utopia in which there were solutions to these problems. His utopias differ in some peculiarities. Wells' main characters suddenly find themselves in a parallel world, a world that is more perfect than the society to which they belong to, but is a copy of it.

They are usually not alone on this journey, but they are with people they know. The main characters understand that the society they are entering is a utopia, and are not too surprised. Integration into these societies is possible, and there are no language problems. However, it is impossible to lose the alienation between them. They may be innocent still in these ideal societies, strangers are intruders. The last of these features exists as a utopian tradition. Other factors differentiate Wells' work from previous utopias.

Key words: utopia, protogonist, society, reform, hypothesis.

İstifadə olunmuş ədəbiyyat.

1. Herbert George Welss. Men like Gods. Minela, NewYork:Dover Publications. 2016, 192p.
2. Margaret Atwood. In Other Worlds. SF and Human imagination. New York: Doubleday. 2011, 189p.
3. Michael Sherborne. Another Kind of Life.London and Chicago: Piter Owen. 2010, 498p.
4. https://freeclassicebooks.com/H.G.%20Wells/A%20Modern%20Utopia.pdf

Redaksiyaya daxil olma tarixi: 23.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **fil.f.d.,dos. V.E.Ağabəyli**
tərəfindən çapa tövsiyə olunmuşdur

ADİLOVA GÜLQIZ HACIBALA QIZI,
Bakı Slavyan Universiteti,
b/müəllim.
e-mail: gulagh2@gmail.com

BAYATILARDA SADƏ CÜMLƏLƏRİN POETİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Bayatılar poetik mükəmməlliyi ilə diqqəti cəlb edən şifahi ədəbi dil nümunəsidir. Bu folklor nümunələrində ümumxalq dilinin incəlikləri qorunur. Eyni zamanda, Azərbaycan ədəbi dilinin fonetik, leksik və qrammatik normalarının spesifik xüsusiyyətləri əks olunur. Kiçik həcmli lirik parçalarda xalq dilinin saflığı, söz ehtiyatının zənginliyi, qrammatik quruluşunun səlisliyi aydın hiss olunur. Tədqiqat işi də "Bayatılarda cümlələrin poetik xüsusiyyətləri" adlandığı üçün bayatı kontekstindəki cümlələr linqvistik- poetik baxımdan araşdırılır.

Bayatılar ümumxalq bədii təfəkkürünün, poetik düşüncəsinin özünəməxsus bədii ifadə tərzidir. Burada xalqın təbii dilinin qrammatik quruluşu, poetexniki səviyyəsi əks olunub. Bayatıların dili xalqın gerçəkliyi dərk etdiyi şəkildə ifadə etdiyi dildir. İnsanın estetik hisslərinin ilk mənbəyi təbiətin ecazkar gözəlliyidir. Məhz bu gözəlliyi təlqin edən təbiətin obrazlı əksi kimi nəğmələr,bayatılar və digər ibtidai poeziya nümunələri meydana gəlmişdir.

Araşdırmalar bunu deməyə imkan verir ki, bayatılar təkcə xalqın sifahi söz sənəti kimi dəyərli deyil. Bunlar həm də əsrlər öncə xalqımızın bədii düşüncə tərzinin necə formalaşmağa başlamasından və zaman keçdikcə daha da inkişaf edərək zənginləşməsindən xəbər verir. Dilin qrammatik quruluşundan xəbərsiz insanların 4, 5, bəzən də 6 misralıq lirik parçalarda sadə cümlənin bütün növlərinə dair birdən səkkizə qədər cümlə qurmaq bacarığı görünür. Bu səbəbdən də poetik sintaksisin bayatı kontekstində araşdırılması linqvistik baxımdan maraq doğurur.

Sintaktik vahidlər sintaksisin tədqiqat obyekti kimi daha çox nitq fəaliyyəti ilə bağlı olduğu üçün sintaktik vahidlərin bu xüsusiyyətləri poetik sintaksis sahəsindəki tədqiqatlar nəticəsində üzə çıxır və poetik təhlilin mühüm sahəsi hesab olunur.

Məhz buna görə də, cümlənin poetik sintaksisinin bayatı kontekstində araşdırılması maraqlı dil faktlarını üzə çıxarmağa imkan verir.

Açar sözlər: bayatı , xalq yaradıcılığı, poetik sintaksis, sadə cümlə , poetik düşüncə

Fikrin ifadə vasitəsi olan cümlənin poetik sintaksisinin tədqiqinin şifahi dil materiallarının əsasında aparılması böyük əhəmiyyət kəsb edir. Şifahi xalq ədəbiyyatıtı nümunələri, o cümlədən, bayatılar əsrlər öncə xalqımızın şifahi nitqinin, bədii düşüncə tərzinin necə formalaşmağa başlamasından və zaman keçdikcə daha da

inkişaf edərək zənginləşməsindən xəbər verir. Professor Q.Kazımov dilimizin sintaktik quruluşunun təşəkkül tarixinin çox qədim olduğunu, Azərbaycan dilinin hazırki sintaktik quruluşu ilə "Dədə Qorqud"un, daha qədim bayatı və xalq mahnılarımızın dil quruluşu arasında əsaslı fərq olmadığını qeyd edir. (7.s.7).

Azərbaycan dilçiliyində linqvistik poetikanın, xüsusən də, poetik sintaksisin tədqiqi sahəsində bir sıra uğurlu tədqiqat işləri aparmış prof. K. V. Nərimanoğlunun fikrincə sintaksis dil dəyişmələrinin daha geniş dairəsini əhatə etdiyindən poetik dilin xüsusiyyətləri daha çox sintaksis sahəsində özünü büruzə verir. Buna görə də bir söra poetik cizgilərlə səciyyələnən folklor dilinin araşdırılmasına poetik sintaksisin öyrənilməsindən başlamağı məqsədəuyğun hesab edir. (13.s.36).

Antik və qədim dövrlərdən bəri poetika termini həm nəzmlə, həm də nəsrlə yazılmış bədii əsərlərin dilinə və quruluşuna aid termin kimi, ədəbiyyat haqqında elmin adı kimi tarix boyu işlənmişdir. Antik dünyanın ən böyük poetika nəzəriyyəçisi olan Aristotel özünün "Poetika" əsərində göstərir ki, hər bir sənətn məqsədi təbiətən çatışmayan şeyləri tamamlamaqdan ibarətdir" (2.s.8). Ancaq burada irəli sürülən fikirlər adi sözlərlə ifadə olunmamalıdır. Sənətkar sözün əsil mənasında poetik sənət nümayiş etdirməlidir .

Azərbaycan dilinin poetik sintaksisinin bayatılar əsasında tədqiq olunması tədqiqat materialının bir sıra spesifik xüsusiyyətləri ilə bağlıdır. Çünki folklor hər hansı bir xalqın ədəbi dilinin, bədii mədəniyyətinin tarixən necə formalaşmasının və inkişafının göstəricisidir.

Müasir dilçiliyin ən böyük banisi hesab edilən F. de Sössür poetik mətnlərin tələffüzü öyrənmək üçün qiymətli material olduğunu, şeir sənəti sisteminin hecaların sayı, onların kəmiyyəti, ayrı-ayrı səslərin təkrarı ilə bağlı olduğunu, poetik mətnlərin özündə fonologiyanın müvafiq məsələlərinə dair qiymətli material hifz edə biləcəyini göstərir (6.s.105). Buna görə də bayatıların linqvo-poetik baxımdan tədqiqata cəlb olunması müasir dilçiliyin ən aktual məsələlərindəndir. Aşağıdakı nümunəyə fikir verək:

Aşiqəm, ya xam əldə, *Dutdum* hicran yaxasın,
Ögrənir ya xam əl də, Gördüm öz yaxam əldə (10. s.18).

Burada *ögrənir, dutdum,* sözləri bizə orta əsrlər ədəbi dilinin fonetik sistemindəki səs əvəzlənmələri və səs artımı və s. haqqında məlumat verir.

Bayatıların linqvopoetik strukturunun formalaşmasında dilin bütün səviyyələrindəki ekspressivlik əsas amil kimi özünü göstərir. Məs.:

Yox, Aşiq, səndə qalsın, Can məndə qərar tutmaz,
Səndədir, səndə qalsın, Göndərim, səndə qalsın (9.s.52).

Sözlərin strukturunda səslərin müəyyən ardıcılliqla düzülüşü, misradaxili hecaların bölgüsü və s.vasitələr fonetik səviyyənin, *Can məndə qərar tutmaz*, *göndərim, səndə qalsın* ifadələri leksik və qrammatik səviyyənin göstəricisidir. Beləliklə, poetizm fonetik, leksik və morfoloji elementlərin strukturunu şərtləndirir.

Bunlar da öz növbəsində dilin sintaktik quruluşunun poetexniki səviyyəsinin həm formalaşmasında, həm də müəyyən edilməsində əsaslı rol oynayır.

İrəli sürülən nəzəri fikirlərdən də aydın olur ki, bədii yaradıcılıq həyatın bir növ təqlidindən doğur. Bu təqlid adi təqlid deyil, bədii təqliddir. Həyat və təbiət hadisələrinin obrazlı, bədii inikasıdır. Bu cür inikas insanlarda diqqətə çatdırmaq istədikləri hər hansı məlumata diqqətin daha da artırlması istəyindən irəli gəlmişdir. Bu baxımdan, Praqa dilçilik məktəbinin görkəmli nümayəndələrindən R.Yakobson dilin poetik funksiyasını belə izah edir: "Məlumata istiqamətlənmə, belə ki, məlumata diqqətin məlumat xatirinə artırılması dilin poetik funksiyası adlanır"(14.s.202).Bunlar da öz növbəsində, dilin sintaktik quruluşunun formalaşması üçün əsas amil olur.

Şifahi xalq ədəbiyyatı nümunələri əsrlər öncə onu yaradan xalqın şifahi nitqinin, bədii düşüncə tərzinin necə formalaşmağa başlamasından və zaman keçdikcə daha da inkişaf edərək zənginləşməsindən xəbər verir. Buna görə də poetik sintaksisin bayatı kontekstində araşdırılması linqvistik baxımdan maraq doğurur. Çünki ilkin poeziya örnəklərinin sintaktik strukturunun müasir dilçilik elmi üçün əhəmiyyəti böyükdür.

R.Yakobson folklorda struktur təhlil üçün xüsusilə uyğun olan ən aydın və stereotipik şeir formalarını tapmaq mümkün olduğunu, xalq poeziyasında bütün dil səviyyələrinin – fonoloji, morfoloji, sintaktik və leksik səviyyələrin uğurla öyrənilə bilməsini qeyd edir(14.s.194.)

Beləliklə, irəli sürülən nəzəri fikirlərdən də aydın olur ki, bədii yaradıcılıq həyatın bir növ təqlidindən doğur. Bu təqlid adi təqlid deyil, bədii təqliddir. Həyat və təbiət hadisələrinin obrazlı, bədii inikasıdır:

Yüksək emosionallığa malik olan bayatılarda intonasiyanın rolu daha qabarıq hiss olunur. Buradakı, bəlkə də, həmin anda adi görünən misraları oxuyub dərk etdikcə, onlardakı daxili dinamiklik bizi heyrətə gətirir:

Duman , gəl get bu dağlardan. Nə gözlərim səni görsün,
Dağlar yeni bar eyləsin. Nə könlüm qubar eyləsin (9.s.36).

Beləliklə də, özlərinin də xəbərləri olmadan insanların iç dünyaları ilə təbiət arasında təbii bir bağ – harmoniya, ahəngdarlıq yaranır. Zaman keçdikcə yazı və oxu haqqında təsəvvürləri olmayan insanlar bu vasitələrdən məharətlə istifadə edərək artıq özlərinin "nitq kitabları"nı - nəğmələrini, laylalarını, bayatılarını, dastanlarını və s. yaradırlar. Bununla da xalq yaradıcılığına poetiklik, emosionallıq təbii şəkildə gəlir.

İ. İ. Kovtunovanın fikrincə poetik sintaksis problemi nitqin dilçiliyi ilə əlaqədar olduğu üçün nitq tipinin funksional məqsədi və ünsiyyətin xarakterik şərtləri dil vasitələrinin semantikasında və funksiyalarında öz əksini tapmışdır (8.s.12).

Cümlənin poetik sintaksisinin bayatı kontekstində tədqiqi bir sıra maraqlı dil faktlarını üzə çıxarmağa imkan verir Çünki, şifahi ədəbiyyat nümunələri qırıq – qırıq

kəlmələrdən sözə, sözdən söz birləşmələrinə, söz birləşmələrindən sadə və daha mürəkkəb konstruksiyalı cümlələrə keçən insanların ibtidai bədii təfəkkürünün poetik məhsulu olmaqla yanaşı, xalq dilinin təkamül prosesinin də bilavasitə göstəricisidir. Prof. Q. Kazımov dilimizin sintaktik quruluşunun "Dədə Qorqud" dilinin sintaktik quruluşindan əsaslı fərqlənmədiyini, yenilənmənin zənginləşmə və səlisləşmə prosesində baş verdiyini, sözlərin söz birləşməsi və cümlə şəklində, cümlələrin mətn şəklində əlaqələndirilməsi texnikasının təkmilləşmə, zənginləşmə istiqamətində irəliləmiş olduğunu göstərir (8.s.15-16).

Çoxsahəli , mürəkkəb sintaktik vahid olduğu üçün sintaksis üzrə müasir əsərlərdə cümlə bir sıra aspektlərdən tədqiq olunur ki, onlardan ən mühümü də bunlardır: məntiqi, struktur, kommunikativ və semantik (4.s.65).

Cümlənin məntiqi aspektdən təhlili dedikdə məntiqi – sintaktik istiqamətdə dil və təfəkkürün forma və vahidlərinin qarşılıqlı dialektik vəhdətinə əsaslanan təhlili nəzərdə tutulur. Eyni zamanda, burada dil və təfəkkürün qarşılıqlı əlaqə və münasibətləri də aydın olur. Əks halda onların təbiəti dərk edilə bilməz.

Məntiqi aspektdən çıxış edən filosoflar fikrin üç növdə ifadə olunmasını göstərirlər: məlumatverici fikir, təhrukedici fikir, sualedici fikir (4.s.66). Bu o deməkdir ki, cümlə məlumat, sual və əmr məqsədi ilə işlədilir və hər birinin özünəməxsus xüsusiyyətləri var.

Bayatılardakı cümlələr xalqın müəyyən hadisə əşya, əlamət və s. haqqında düşüncəsinin özünəməxsus deyim tərzidir. Buna görə bayatılarda ən çox işlədlən cümlələr də nəqli cümlələrdir. Nəqli cümlələr hər cür cümlə strukturlarını – sadə və mürəkkəb, cüttərkibli və təktərkibli, müxtəsər və geniş, yarımçıq və bütöv cümlə formalarını əhatə edir. Məs.:

Qızılgüləm,dəstəyəm, Əyil, üzündən öpüm,
Bülbüləm, qəfəsdəyəm. Ayrılaq, yol üstəyəm (1.s.49).

Bayatı səkkiz sadə cümlədən ibarətdir. Bunlardan beşi nəqli cümlə. Üçü isə əmr cümləsidir. Sadə, cüttərkibli yarımçıq cümlələrdə eyni ritm və harmoniyanın gözlənilməsi, həmçinin, sözlərdəki səslərin alliterasiyası bayatıların dilinin linqvo-poetik özəlliyini üzə çıxarır.

Nəqli cümlələr təsdiq və inkarda olurlar:

Aşıq yüzilə dəgər, Gün var, yüz ilə dəgər.
Şana yüzilə dəgər, Sənilə keçən günüm,
İl var ,bir günə dəgməz, Biri yüz ilə dəgər(10.s.68).

Verilmiş bayatı strukturuna görə da maraqlıdır. Xalqın əsrlər öncə yaratmış olduğu bayatının altı misralı olduğu görünür. Buradakı cümlə tipləri, onların strukturları, müasir dil faktları ilə səslənməsi diqqəti cəlb edir. Bayatının ilk iki misrası eyni quruluşlu sadə cümlələrdir. Üçüncü, dördüncü misralar qarışıq tipli tabesiz mürəkkəb cümlələrdir. .Beşinci və altıncı misralardaki sadə cümlədə fikir bitir. Kömponentlərdəki cümlələrin təsdiq və inkarda olması, oradakı sözlərin və

səslərin həmahəngləşməsi cümlənin poetik siqlətini üzə çıxarır. Bu bayatı nümunəsini makro mətn hesab etmək olar.

Məlumdur ki, sintaksisin mərkəzi qrammatik vahidi sadə cümlələrdir. Sadə cümlələr mürəkkəb cümlələrin və mətnin formalaşmasında əsas hissə kimi çıxış edir. İfadələrdən ibarət olan sadə cümlələrdə söz formaların öz qrammatlk xüsusiyyətləri var: xüsusi bir qrammatik formaya görə yaranır; linqvistik mənalara, formal xüsusiyyətlərə, intonasiya dizaynına və dəyişmə qabiliyyətinə malikdir.

Sadə cümlənin diferensial əlamətləri üç əsas istiqamətdə nəzərdən keçirilir: struktur, semantik və kommunikativ.

1. Cümlənin struktur cəhəti aşağıdakı xüsusiyyətlərin ayrılmasını təmin edir:
- Cümlənin ifadə olunmasının / bölünməzliyinin təbiəri;
- Predikativ əsasın ifadə üsulu;
- kompozisiyanın tamlığı (Struktur cəhətdən məcburi əsas üzvlərin olması)

2. Cümlənin semantik cəhəti aşağıdakı xüsusiyyətlərin ayrılmasını təmin edir:
- funksiya (ifadənin məqsədi) – sorğu-sual, motivasiya;
- duyğusal hərəkətlilik (nida, neytral);
- emosional xüsusiyyətlər;
- predikativ münasibətlərin xarakteri (müsbət - mənfi);

3.Cümlənin kommunikativ tərəfi aşağıdakı xüsusiyyətlətin ayrılmasını təmin edir:
- aktual (tematik) bölgü;
- məlumatverici mərkəz və onun aktuallaşdırılması üsulu.

Bütün yuxarıda sadalanlardan bir daha aydın olur ki, cümlələrin bir qismində əşya və hadisələr haqqında məlumat verilir. Fikir ya təsdiq, yada inkar edilir; bir qrup cümlələrdə isə əksinə olur. Danışan müəyyən məsələ haqqında başqasından məlumat almaq, fikrini tamamlamaq, dəqiqləşdirmək məqsədi ilə həmin cümlələrdən istifadə edir, digər qrup cümlələrdə istək, arzu, əmr, xahiş və s. ifadə edilir. Bu baxımdan cümlə məqsəd və intonasiyaya görə dörd yerə bölünür:

Nəqli cümlədə hadisə, əşya və əlamət haqqında adi yolla məlumat verilir. Burada fikir ya təsdiq, ya da inkar olunur. Bu cümlələr ümumi qaydalar əsasında qurulur, yəni dilə məxsus söz sırası gözlənilir. Lakin istər yazılı ədəbi dılə, istərsə də şifahi ədəbi dilə aid olan lirik mətnlərdə ifadə olunacaq fikrin təsir gücünü artırmaq məqsədi ilə söz sırası çox zaman pozulur. Məsələn:

Çıxdım hündür divara, Mən baxdım, o baxmadı,
Baxdım bir gözəl yara, Qəlbimə vurdu yara (9.s.2*0*).

Burada beş sadə cümlə var. Birinci və ikinci cümlələrdə xəbər əvvəl, sonrakı iki cümlədə isə mübtəda əvvəl işlənib. Cümlənin müəyyən hissəsində ton nisbətən yüksəlir, sona yaxın isə adi hala düşür, ya da zəifləyir.

Qədim türk şeirlərinin dilində olduğu kimi, Azərbaycan bayatılarında da çox zaman poetik misraların sonunda eyni qrammatik formalardakı samitləri müşahidə etmək mümkündür.Məs.:

Mixək əkdim, gördülər, Bəxtəvər o qıza ki,
Qönçə - qönçə dərdilər. Sevdiyinə verdilər (9.s.236).

Nümunədən də göründüyü kimi, affikslər qafiyə yaradır həm də samitlərin alliterasiyası (r) feillərin əsaslarından başlayır.

XVI əsrdə Məhəmməd İbn Məkki tərəfindən yazıya köçürülən bir bayatı nümunəsinə fikir verək:

Mən aşiq, yasəmən siz, Gülşənsiz, yasəmənsiz.
Bağların yasəmənsiz, Yoğ aqlayan dost kuyndə,
Mən öldüm gülə həsrət, Getməyin yasə mənsiz (10.s.13).

Göründüyü kimi, istər söz əvvəlində, istərsə də söz sonlarında eyni samit səslərin təkrarı – alliterasiya obrazlılığı daha da artırır. Bu da ümumxalq bədii təfəkkürünün poetik siqlətini üzə çıxarır.

Digər bir bayatıya nəzər yetirək:

Aşıq, bu gül butandı, Ayla gün bəhsə girdi,
Gül dəstəsi tutandı. Camalından utandı (1.s.106).

Bayatıda birinci və ikinci cümlələr ismi xəbərli, üçüncü və dördüncü cümlələr isə feili xəbərlidir. Burada *g, t, d* səslərinin alliterasyası poetik vasitə kimi ritm yaradır.

Qədim bayatılarda söz kökündəki son samitlərin təkrarına aid nümunələr göstərir ki, poetik folklor formasının quruluşunda paralel quruluşdan əlavə, xalq poeziyasına xas olan qafiyənin yaranması üçün müəyyən şərtlər vardır (11.s.86). Misraların sonunda eyni sonluqlarla bitən sözlərdə müəyyən səslər eyni ardıcıllıqla yerləşdirilir. Alliterasıya sistemi baxımından bu hal ritm və harmoniya yaradan vasitə kimi lirik mətnlərin poetik potensialını üzə çıxarır.

Bayatıları incələdikcə xalqın bədii düşüncə tərzi qarşısında heyrətlənməyə bilmirsən. İyirmi səkkiz hecadan ibarət dörd misrada səkkiz sadə cümlə yaratmaq bacarığı ümumxalq bədii təfəkkürünün linqvo-poetik potensialının siqlətindən xəbər verir. Aşağıdakı bayatıya nəzər yetirək:

Qızılgüləm,dəstəyəm. Əyil, üzündən öpüm,
Bülbüləm, qəfəsdəyəm. Ayrılaq, yol üstəyəm (1.s.49).

Bayatıda səkkiz sadə cümlə var. Bunlardan beşi nəqli cümlə,üçü isə əmr cümləsidir. Bütün cümlələr sadə, cüttərkibli, yarımçıq cümlələrdir.

Bayatı kontekstində elə sadə nəqli cümlələr var ki, onların biri və ya bir neçəsi predikativ göstəriciyə malik deyil, yəni predikativliyin morfoloji ifadəsi – şəkilçi olmur. Belə konstruksiyalarda predikativlik söz sırası və intonasiya ilə formalaşır:

Dağının başı qara, Bu gün mən bir qız gördüm,
Dibinin daşı qara, Gözü şux, qaşı qara (3.s.85).

Burada dörd sadə cümlə var. İlk iki cümlə predikativ göstəricisi olmayan müxtəsər cümlələrdir. Sonuncu iki cümlə isə mürəkkəb konsrtuksiyalı təyin budaq cümləli tabeli mürəkkəb cümlənin komponentləridir. Budaq cümlənin özündə də

predikativ göstəriciyə malik olmayan iki müxtəsər nəqli cümlə var. Eyni zamanda buurada *d – ş; q – ş* samitlərinin alliterasiyası lirik parçaya yeni bir poetik çalar qazandırır.

1. Bir nazlı yar görmüşəm,
   Buxaq billur, göz ala (9.s.38).
2. Gözəl bir qız sevmişəm,
   Ay camallı, göz qara(1.s.85).

Hər iki bayatıda üçüncü və dördüncü misralar bağlayıcısız tabeli mürəkkəb cümlələrdir. Birinci tərəf, yəni baş cümlələr sadə, cüttərkibli, geniş nəqli cümlələrdir. Budaq cümlələr isə predikativ göstəricisi olmayan cümlələrdir.

İnsanlar yaranışdan onları maraqlandıran hər hansı məsələnin həllini tapmaq arzusunda olublar. Bunun üçün sual vermək, nəyi isə öyrənmək arzusu ön planda olub. Bu məqsədlə işlədilən cümlə sual cümləsi adlanır. Sual cümlələri bir neçə yolla əmələ gəlir. Bu vasitlərdən biri də sual intonasiyasidır.Yəni heç bir qrammatik vasitə olmadan sual cümləsi yaranır. Aşağıdakı bayatıya nəzər salaq:

Ceyran, çölə gedirsən?
Ördək, gölə gedirsən?
Yara bir xəbər apar,
Bizim elə gedirsən? (9.s.177).

Göründüyü kimi, burada işlənən dörd sadə cümlənin üçü ancaq sual intonasiyası ilə düzələn sual cümlələridir. Bu cür sual cümlələri öz strukturlarına görə nəqli cümlələrə çox bənzəyir. Yuxarıdakı nümunədən də göründüyü kimi, nəqli cümlələri heç bir dəyişiklik etmədən xəbərin son hecasını bir qədər uzun tələffüz etməklə sual cümlələrinə çevirmək olar.

Tək-tək bayatılar da var ki, orada həm sual intonasiyası ilə, həm də digər vasitə ilə yaranan sual cümlələri var:

O kimdir atar məni?
Hər dərdə qatar məni?
Namərd gəlib dost olmaz
Dostluqda satar məni (3.s.67).

Bayatılarda maraq doğuran hallardan biri də sual cümlələrinin daha qüvvətli alınması üçün şifahi dildə çox az işlənən,lakin yazılı dil üçün heç də xarakterik olmayan bəzi xüsusi vasitələrdən istifadə olunmasıdır.

1. Dağlar o dağlarmola?
   Bar verən bağlarmola?
   Necə ki, mən ağladım
   Yarəb, yar ağlarmola? (1.223).
2. Bağda biyan varmola?
   Gülə ziyan varmola?
   Sonsuzun bir günündə
   Yazıq deyən varmola? (9.137).

Bu cümlələrdə *dağlarmola, bağlarmola, ağlarmola, varmola,* sözlərindəki *mola* sual cümləsinin formal əlaməti kimi görünsə də, əslində *-mı (-mi, -mu, -mü)* sual ədatlarının və fikrə münasibət bildirən *görəsən* ara sözün mənasını özündə birləşdirir. Bu, canlı xalq danışıq dili üçün xarakterik xüsusiyyətlərdən biridir. Burada sual ədatı ilə modal sözün qovuşağında iki sait yanaşı gəldiyi üçün tələffüzdə birinci sait düşüb. Digər bir bayatıda isə bunun başqa forması nəzərə çarpır.

Toy elə gəlim toya,
Qurbanam belə boya
Bu gün gördüyüm yarı,
Bir də görrəmi ola?(1.17).

Əslində,cümlədəki *ola* suala şübhəlik, ehtimal kimi mənalar verən *görəsən, görən, olmuya* modal sözünü əvəz etmişdir.

Sual cümlələri cavab almaq məqsədi ilə işlənsə də, onların heç bir cavab tələb etməyən formaları da var. Bunlara ritorik suallar deyilir və bunlar bədii ifadə vasitələrindən biri hesab olunur. Məs:

Dərd məni almadımı? Çox gözləməm var idi,
Döşəyə salmadımı? Gözümdə qalmadımı? (1.s.92)

Burada işlənən üç sual cümləsi cavab almaq məqsədi ilə işlənməyib. Əslində danışan dərdin onu özündən almasını, döşəyə salmasını, çox gözləməsi olmasına baxmayaraq, hamısının gözündə qalmasını nəql edir.

Bayatı kontekstində sadə cümlənin məqsəd və intonasiyasına görə bütün növlərinə kifayət qədər rast gəlinir. Nida cümlələri fikrin daha emosional ifadə olunmasını təmin edir, ekspressivliyi artırır ki, bu da dilin poetik vüsətindən xəbər verir. Nida cümlələrinin yaranmasında nida intonasiyasının rolu böyükdür. Belə cümlələrdə şadlıq, heyrət, təəssüf, istehza, nifrət, sevinc və s. emosional münasibətlər qabarıq əks olunur. Bu cür nida cümlələrinin əmələ gəlməsində xitabların da xüsusi rolu vardır:

Aman fələk, ax fələk! Mənə elçi gələndə,
Çıx qapıdan bax, fələk! Get evini yıx, fələk! (9.s.56)

Nida cümlələrinin əmələ gəlməsind bir vasitə də nidaların özləridir. Nida cümlələrinin mənaları onlarda işlənən nidalardan çox asılıdır.

1. Haray, ellilər, haray!
Şana tellilər, haray!
Köçümü sel apardı,
Əli bellilər, haray! (9.s.51).

2. Əziziyəm, dedi vay**!**
Dedi,aman**!** Dedivay!
Gülşəndən bir səs gəlir,
Heç bilmirəm nədi, vay! (19.s.61).

Göründüyü kimi, birinci bayatıdakı *haray* nidası yardım, kömək mənasını, ikinci bayatıda *aman, vay* nidaları isə qorxu, həyəcan ifadə edir.

Verilmiş bayatılar bir də onunla fərqlənir ki, başdan-ayağa obrazlı söz və ifadələlə zəngindir. Məhz elə üslubi çalarlığı ilə seçilən sözlər poetik sözlər adlanır və cümlənin ümumi mənasına yeni çalar gətirir.

Cümlənin məqsəd və intonasiyasına görə növlərindən biri də əmr cümləsidir ki, bu da bir növ əmr, arzu, xahiş, məsləhət, öyüd- nəsihət və s. bildirir. Bu tipli cümlələrin formalaşmasında əsas vasitə intonasiyadır. Eyni zamanda, feilin əmr formasının, əmr ədatlarının da əmr cümləsinin yaranmasında rolu var:

1. Duman, gəl, get bu dağlardan,
Dağlar yeni bar eyləsin.
Nə gözlərim səni görsün,
Nə könlüm qubar eyləsin (9.s. 162).

2. Qoy gedim yurda məni,
Tapşırma qurda məni
Gözü yolda qalan var,
Öldürmə,burda məni 9.s.74).

Nümunələrdən də göründüyü kimi, əmr cümlələrinin yaranmasında həm əmr ədatlarının, həm də feilin əmr formasının rolu var. Əmr ədatları fikrin daha emosional ifadəsinə xidmət edir. Bu zaman söz sanki poetik dona bürünür.

Cümlədə sözün poetik vüsət alması ədəbi dilin səciyyəvi xüsusiyyətlərindən-dir. Fikrin obrazlı ifadəsi həyat həqiqətinin bədii dona bürünməsidir. Başqa cür desək, poetik sözlər bir başa estetik düşüncənin obrazlı və və daha lətif ifadəsidir.

Bayatılarda xalq sadəcə, təbiəti təsvir etməklə kifayətlənmir. Bunlarda sadə xalq dilinin səs sisteminin melodik ritmi, sintaktik vahidlərinin tipi və strukturu görünür. Dilin qırıq-qırıq kəlmələrdən sözə, sözdən daha böyük ifadə vasitələrinə - cümləyə gedən yolu görünür.

Nümunələr bir daha sübut edir ki, söz bədii mühitdə - cümlədə yeni rəng alır, yeni çalar qazanır:

ƏDƏBİYYAT

1. Abdulla və b. Azərbaycan bayatıları.Bakı-,1984.
2. Aristotel. Poetika. Bakı-2006.
3. Bayatılar və manilər. AMEA-nın Folklor institutu.Bakı-2005.
4. Babaytseva. V.V. Sintaksisin əsas vahidləri. Azərbaycan dili və ədəbiyyatı tədrisi..Bakı-1978.
5. Dəmirçuzadə Ə. Kitabi-Dədə Qorqud dastanlarının dili. Bakı-1959,.
6. Ferdinand de Sössür. Ümumi dilçilik kursu. Bakı, BDU nəş.,2003.
7. Kazımov.Q. Müasir Azərbaycan dili. Sintaksis.Bakı-2004,
8. Ковтунова И.И. Роэтический синтаксис . Москва: Наука, 1986.
9. Qasımov H. Bayatılar. Bakı-1960.
10. Məmmədova A. BayatılarşBakı-1977.
11. Стеблева.И.В. Развитие тюрских поэтических форм в XI веке. Москва 1971.
12. Vəliyev K. Azərbaycan eposunun poetik sintaksisi. Bakı-Oskar-2009.
13. Vəiyev K. Linqvistik poetikaya giriş. Bakı-Oskar-2009..
14. Якобсон.Р. Поэтик синтаксис». Структурализм.» «За» и« против» , М., 1976,

Q.Q.ADILOVA

ПОЭТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРОСТЫХ ПРЕДЛОЖЕНИЙ В БАЯТЫ

РЕЗЮМЕ

Баяты – образец устного литературного языка, которые привлекают внимание своим поэтическим совершенством. В этих образцах фольклора сохранены тонкости национального языка. В то же время отражены особенности фонетических, лексических и грамматических норм Азербайджанского литературного языка. Чистота разговорного языка,

богатство лексики, беглость грамматической структуры отчетливо ощущаются в небольших лирических пьесах. Поскольку исследовательская работа называется «Поэтические особенности предложений в баяты», предложения баяты изучаются с лингво-поэтической точки зрения.

Баяты – это всенародный стиль художественного выражения национально-художественного и поэтического мышления. Он отражает грамматический строй и поэтический уровень естественного языка народа. Баяты – это язык, на котором люди воспринимают реальность. Первым источником эстетического чувства человека является изумительная красота природы. Именно образное отражение природы вдохновляет эту красоту, проявлением песен, баяты и других образцов первобытной поэзии.

Исследования показывают, что баяты ценны не только как словесное искусство народа. Они также показывают, как художественное мышление нашего народа начало формироваться веками назад и со временем становилось все богаче. Люди, не знакомые с грамматической структурой языка, демонстрируют способность составлять от одного до восьми предложений по всем типам простых предложений в лирических отрывках из 4-х, 5-и, а иногда и из 6 строк. По этой же причине, лингвистический интерес представляет изучение поэтического синтаксиса в контексте баяты.

Поскольку синтаксические единицы больше связаны с речевой деятельностью как объектом исследования, эти особенности возникают в результате исследований в области поэтического синтаксиса и считаются важной областью поэтического анализа.

Поэтому изучение поэтического синтаксиса предложения в контексте баяты позволяет выявить интересные лингвистические факты.

Ключевые слова: *баяты, народное искусство, поэтический синтаксис, простое предложение, поэтическое мышление.*

G.H.ADILOVA

POETIC FEATURES OF SIMPLE SENTENCES IN BAYATIES

SUMMARY

Bayaty is an example of oral literary language attracting attention with its poetic perfection. The subtleties of the national language are preservedin these folklore samples. At the same time, the specific features of the phonetic, lexical and grammatical norms of the Azerbaijani literary language are reflectedhere. The purity of the vernacular, the richness of the vocabulary, the fluency of the grammatical structure are clearly felt in small lyrical passages. As the research work is called “Poetic features of simple sentences in bayaties”, the sentences in the context of bayaty are studied from the linguistic-poetic point of view.

Bayaty is a unique style of artistic expression of national artistic and poetic thinking. It reflects the grammatical structure and poetic level of the natural language

of the people. The language of bayaties is the language in which the people perceive reality. The first source of human aesthetic sense is the marvelous beauty of the nature. Songs, bayaties and other primitive poetry samples have emerged as the figurative reflection of nature inspiring this beauty.

The research allows to suggest that bayaties are not valuable just as the people's verbal art. They also give information how the artistic way of thinking of our people began to be formed centuries ago and became richer and richer over time. It is shown in bayaties that people unaware of the grammatical structure of the language show the ability to compose one to eight sentences on all types of simple sentences in lyrical passages of 4, 5, and sometimes 6 hemistiches. Therefore, the study of poetic syntax in the context of bayaty is interesting from the linguistic point of view.

As the syntactic units are more related with speech activity as the research object of the syntax, these features of syntactic units emerge as a result of research in the field of poetic syntax and are considered an important area of the poetic analysis.

That is why the study of the poetic syntax of the sentence in the context of bayaty allows us to reveal interesting linguistic facts.

Keywords: bayaty, folk art, poetic syntax, simple sentence, poetic thinking

Redaksiyaya daxil olma tarixi: 23.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov**
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏLAHƏT SOLTANQIZI QƏDİROVA
Filologiya üzrə fəlsəfə doktoru
Az.MİU-nun nəzdindəki İnşaat kolleci
Ayna Sultanova küç.,11
melahet.soltanqizi@gmail.com

XXI ƏSRIN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN-BELARUS ƏDƏBİ ƏLAQƏLƏRİ

XÜLASƏ

Məqalə Azərbaycanın müstəqilliyi dövründə Azərbaycan –Belorus ədəbi əlaqələri mövzusundadır. Azərbaycan və Belorus prezidentlərinin qarşılıqlı işgüzar səfərləri bu iki respublika arasında həm iqtisadi ,həm mədəni, həm də ədəbi əlaqələrin inkişafına səbəb olmuşdur.Yaxın bir neçə il ərzində Belorus yazıçılarının əsərləri Azərbaycanda, Azərbaycan yazıçılarının bədii yaradıcılığı isə Belorusiyada tərcümə olunaraq kütləvi tirajlarla nəşr olunmuşdur.

XXI əsrin əvvəllərindən etibarən Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan-Belorus ədəbi əlaqələri güclənmiş, iqtisadi, mədəni və elmi əlaqələr xeyli genişlənmişdir. Azərbaycanın Belorusiya respublikası ilə qarşılıqlı əməkdaşlığı ölkəmizin xarici dövlətlərlə olan yeni münasibətlərinin, bərabərhüquqlu süveren dövlətlərin dostluq və qardaşlıq əlaqələrinin parlaq nümunəsi, beynəlxalq məsələlərdə bərqərar olmuş yeni siyasi-iqtisadi və milli ideoloji təfəkkürün ifadəsidir. Bu münasibətlərin hərtərəfli inkişafında respublikamıza gələn belorusiyalı alimlərin, yazıçı və publisistlərin xüsusi əməyi vardır. Onların bir qismi vətənə döndükdən sonra Belorusiyanın müxtəlif mətbuat orqanlarında ölkəmizin bugünkü vəziyyəti, iqtisadiyyat, mədəniyyət sahəsində qazanılan uğurlar barəsində, burada tanış olduqları və qarşılıqlı fikir mübadiləsi etdikləri azərbaycanlı alim, yazıçı və mədəniyyət xadimləri ilə görüşləri haqqında məqalələr, publisistik yazılar, oçerk və reportajlar nəşr etdirir. Azərbaycana aid səfər təəssüratları və bədii nümunələri qələmə alırlar.

Açar sözlər: müstəqillik, ədəbi əlaqələr, tərcümə,poeziya, nəsr, yazıçı, dünya mədəniyyəti.

Dövlətlər arasında ədəbi əlaqələrin genişlənməsinin əsas səbəblərindən biri yazıçıların, şairlərin qarşılıqlı səfərləri, səyahət zamanı yol qeydləri, səfər təəssüratları, gəzdikləri, gördükləri ölkə haqqında şeir, oçerk və publisistik yazılar qələmə almasıdır.

XX əsrin sonu XXI əsrin əvvəllərindən etibarən Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan-Belorus ədəbi əlaqələri xeyli genişlənmişdir.

Azərbaycanın Belorusiya respublikası ilə qarşılıqlı əməkdaşlığı ölkəmizin xarici dövlətlərlə olan dostluq və qardaşlıq əlaqələrinin parlaq nümunəsidir. Ədəbi əlaqələrin hərtərəfli inkişafında respublikamıza gələn belorusiyalı alimlərin, yazıçı və publisistlərin xüsusi əməyi vardır. Onların bir qismi vətənə döndükdən sonra Belorusiyanın müxtəlif mətbuat orqanlarında ölkəmizin bugünkü vəziyyəti, iqtisadiyyat, mədəniyyət sahəsində qazanılan uğurlar barəsində, burada tanış olduqları və qarşılıqlı fikir mübadiləsi etdikləri azərbaycanlı alim, yazıçı və mədəniyyət xadimləri ilə görüşləri haqqında məqalələr, publisistik yazılar, oçerk və reportajlar nəşr etdirir. Azərbaycana aid səfər təəssüratları və bədii nümunələri qələmə alırlar.

Müstəqillik dövrünə qədər— SSRİ dövründə Azərbaycan-Belarus ədəbi əlaqələrinin inkişafına təkan verən bir sıra dəyərli bədii nümunələr yüksək səviyyədə Azərbaycan və Belarus dillərinə tərcümə olunmuşdur. Yazıçıların qarşılıqlı işgüzar səfərləri, Belarusiyada Azərbaycan, Azərbaycanda Belarus ədəbiyyatı və mədəniyyəti günlərinin keçirilməsi, yazıçıların qurultaylarının çağırılması, həmin qurultaylarda bədii ədəbiyyatların tərcüməsi məsələləri haqqında xüsusi müddəaların qərar şəklində qəbul olunması, SSRİ adlı Ittifaqın idarəetmə proqramına daxil olan, sistemli şəkildə həyata keçirilən hadisələr idi.

İki müstəqil dövlətlər kimi Azərbaycanla Belarusiya arasında əməkdaşlığın müasir mərhələsi öz rəsmi başlanğıcını 11 iyun 1993-cü il tarixindən götürür. Həmin tarixdən "Diplomatik münasibətlərin qurulması haqqında" protokolun imzalanması iki ölkə arasında diplomatik münasibətlərin əsası qoyulmuşdur. Ötüb keçən illər ərzində ikitərəfli münasibətlərin möhkəm ənənələri – səmimilik, etibarlılıq, dostluq və qarşılıqlı mədəni münasibətlər üzərində qurulmuşdur. Ümumiyyətlə, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında XX əsrin 20-ci illərindən bu yana müxtəlif dövrlərdə qarşılıqlı əməkdaşlıq mövcud olub. Hər iki ölkə arasında siyasi-iqtisadi, humanitar və digər sahələrdə səmimi dostluq münasibətləri əsaslı təməllər üzərində qurulub. Ötən illər ərzində Azərbaycanla Belarus arasında əməkdaşlıq MDB çərçivəsindən kənara çıxaraq, ikitərəfli əlaqələrin dərinləşməsinə möhkəm baza yaradıb. Azərbaycanla Belarus arasında diplomatik əlaqələrin yaradılması haqqında protokol 1993-cü il iyunun 11-də Afinada imzalanıb. 2006-cı ilin fevral ayında Belarusun Azərbaycanda, həmin ilin avqust ayında isə Azərbaycanın Belarusda səfirlikləri açılıb.

Ölkələrarası əməkdaşlığın inkişafı dövlət başçılarının və dövlət rəsmilərinin qarşılıqlı səfərləri ilə daha da möhkəmlənib. Belə ki, 2000-ci ilin 1 dekabr tarixində ümummilli lider Heydər Əliyev Minskdə keçirilmiş MDB ölkələrinin Sammitində iştirak etmək məqsədilə Belarusda olub. Ulu öndər, həmçinin, 2001-ci il 31 may-1 iyun tarixlərində Minskdə keçirilən MDB iştirakçı dövlətlərinin başçıları Şurasının növbəti iclasında iştirak etmək üçün bu ölkəyə səfər edib. Ülu öndərimiz Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin Belarusa ilk rəsmi

səfəri 2006-cı il 17-18 oktyabr tarixlərində baş tutub. Dövlət başçısı eyni zamanda, 2006-ci il 28 noyabr tarixində Minsk şəhərində keçirilmiş MDB-nin iştirakçı dövlətlərin Dövlət başçıları Şurasının növbəti iclasında iştirak etmək məqsədilə həmin ölkədə səfərdə olub. 2007-ci il 1-3 may tarixlərində Belarus prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi səfəri, 2009-cu il 11-13 noyabr tarixlərində isə prezident İlham Əliyevin həmin ölkəyə rəsmi səfəri baş tutub.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan prezidenti İlham Əliyevin 2012-ci il avqustun 28-29-da Belarusa rəsmi səfəri ikitərəfli münasibətlər baxımından xüsusilə yaddaqalan olub. Səfər çərçivəsində belaruslu həmkarı Aleksandr Lukaşenko ilə görüşən prezident İlham Əliyev Azərbaycan-Belarus əməkdaşlığını belə xarakterizə edib: "Münasibətlərimiz dinamizmin, konkretliyin və qətiliyin çox yüksək səviyyəsi ilə seçilir. Ən başlıcası isə odur ki, qəbul edilən qərarların həyata keçirilməsi mexanizmi özünün ən ali mərhələsinə çatdırılıb".

Qeyd edək ki, Belarus prezidenti Aleksandr Lukaşenko da bir neçə dəfə ölkəmizə rəsmi səfər edib. Dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. 2008-ci il iyulun 18-19-da isə Azərbaycan Parlamentinin 90 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə iştirak etmək üçün Belarusun Milli Məclisinin Nümayəndələr Palatasının sədri V.Popov ölkəmizə səfər edib. Onu da qeyd edək ki, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında indiyədək xeyli sənəd imzalanıb. Beləliklə, Belarusla Azərbaycan arasında dövlətlərarası münasibətlərin daha da dərinləşdirilməsi üçün geniş imkanlar mövcuddur. İkitərəfli əlaqələrin dinamizminə hökumət səviyyəsində qarşılıqlı təmaslarla yanaşı, hər iki ölkənin müvafiq qurumları arasında əldə olunmuş razılaşmalar da mühüm təsir göstərməkdədir.

2009-cu ildə yaradılmış Azərbaycan-Belarus Dostluq və Əməkdaşlıq Cəmiyyəti mədəniyyətlərarası dialoqun inkişafına əhəmiyyətli töhfə verir. Bu qeyri-formal təşkilata Azərbaycanın elm, mədəniyyət, incəsənət, təhsil və biznes dairələrinin nümayəndələri daxildir. Cəmiyyətin aktiv fəaliyyəti Belarus rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Bu səbəbdəndir ki, cəmiyyətin 4 üzvü (Arif Mehdiyev, Ziyad Səmədzadə, Zərifə Salahova və Xanlar Fətiyev) Belarusiya dövlət mükafatlarına layiq görülmüşdür.

2009 və 2010-cu illərdə Dostluq və Əməkdaşlıq Cəmiyyətinin üzvü və Bakı Miniatür Kitab Muzeyinin yaradıcısı Zərifə Salahovanın təşəbbüsü və bilavasitə iştirakı ilə Belarusiyanın Milli Kitabxanasında miniatür kitabların sərgisi təşkil edilmişdir. Həmin Cəmiyyət vasitəsi ilə reallaşdırılmış əhəmiyyətli layihələrdən biri 2010-cu ildə Bakı Slavyan Universitetində Belarus Dili və Mədəniyyəti Mərkəzinin açılması olmuşdur. Maksim Tank adına Belorus Dövlət Pedoqoji Universitetinin, Belorus Respublikasının Azərbaycandakı Səfirliyinin birgə səyi nəticəsində yaradılmış Belorus Dili və Mədəniyyəti Mərkəzi 2010-cu il 4 iyunda Belorus Respublikasının prezidenti Aleksandr Lukaşenko tərəfindən təntənəli şəkildə açılmışdır. Azərbaycan-Belorus ədəbi-mədəni əlaqələrinin

inkişafında böyük rolu olan bu mərkəzin əsas vəzifəsi Azərbaycan və Belorusiya arasında mədəni əlaqələri geniş inkişaf etdirmək, gənclərin hər iki ölkənin mədəniyyətinə, təhsilinə, maarifinə və elminə marağı artırmaqdır.

Azərbaycan Xarici İşlər Nazirliyi yaxın-uzaq ölkələrdə fəaliyyət göstərən səfirliklərimizin xalqın ədəbi-mədəni sərvətinin təbliği, geniş yayılması sahəsində gördükləri işlər barədə faktları daim mətbuatda işiqlandırır. "Ədəbiyyat qəzeti"nin 2010-cu il 26 noyabr tarixli sayında (səh.1,2) Belarusiyanın "Neman" dərgisinin redaktoru Ales Badakın Azərbaycanın Belarusdakı səfiri Əli Nağıyevlə müsahibəsi dərc olunub. "Cavidin əsərlərindən mən saatlarla sitat gətirə bilərəm" adlı müsahibədə Hüseyn Cavidin yaradıcılığının təbliği problemlərindən danışılır. Həmin müsahibə Belarusiyada "Neman" dərgisində və "Lim" qəzetində dərc olunub. Belarusun yaradıcı ziyalılarının qəzeti olan "Lim"in 2010-cu il 41-ci sayında Hüseyn Cavidin şeirlərindən nümunələrin Belarus dilinə tərcüməsi də dərc olunmuşdur.

İki müstəqil ölkənin teatr kollektivləri arasında da əməkdaşlıq geniş şəkildə inkişaf etməkdədir. 2011-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə Belarus Milli Akademik Böyük Opera və Balet Teatrı arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Hər il Belarus və Azərbaycanın onlarla səhnə ustası, dirijor, aparıcı aktyor və baletmeystrləri uğurla qastrol səfərlərinə gedirlər. Belarus Respublikasının Milli Akademik Böyük Opera və Balet Teatrında Qara Qarayevin "Yeddi gözəl" baletinin səhnəyə qoyulması əlamətdar bir hadisə idi. Tamaşanın uğuru nəinki Belarusda Azərbaycan musiqisinə, həm də bütövlükdə Azərbaycana marağı artırmışdır.

Azərbaycan və Belarus xalqlarının möhtəşəm dostluq festivalları olan "mədəniyyət günləri" qarşılıqlı olaraq hər iki ölkədə keçirilir. 2007-ci və 2013-cü illərdə Belarusiyada "Azərbaycan mədəniyyəti günləri", 2008-ci və 2012-ci illərdə isə Azərbaycanda "Belarus mədəniyyəti günləri" keçirilmişdir.

Azərbaycan nümayəndələri müntəzəm olaraq Belarusun təşkil etdiyi "Listopad" ("Лістапад"), "Vitebskdə Slavyan bazarı" ("Славянский базар в Витебске"), "Dostluq çələngi" ("Венок дружбы"), "Ağ çadır" ("Белая вежа"), Yuri Başmet Festivalı kimi beynəlxalq tədbirlərdə iştirak edirlər.

XXI əsrin əvvəllərindən başlayaraq Azərbaycan və Belarus Respublikaları arasında ədəbi əlaqələr də xeyli inkişaf etmişdir. Azərbaycan Yazıçılar Birliyinin katibi Ç.Abdullayev Belarus Yazıçılar Birliyinin qurultayında iştirak etmişdir. Azərbaycan Respublikasının Belarus Respublikasındakı sabiq səfiri İ.Vahabzadə Belarus Yazıçılar Birliyinin üzvü seçilmişdir. O, həmçinin Belarus Yazıçılar Birliyinin orqanı olan "Ağ çadır" ("Белая вежа") jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.

Ədəbi əlaqələrin müxtəlif formaları arasında birinci dərəcəli həlledici və aparıcı amil, şübhəsiz, bədii tərcümədir. Azərbaycanın müstəqilliyi dövründə bu sahədə çox böyük işlər görülmüşdür. 2011-ci ildə nəşr olunan "XX əsr dünya

ədəbiyyatı antologiyası" kitabının III cildində Belorus yazıçısı Vasil Bıkovun "Estafet" adlı hekayəsi dərc olunub. Hekayəni Azərbaycan dilinə Nəriman Əbdülrəhmanlı tərcümə etmişdir (1,69-76).

"Kaspi" qəzetinin 2013-cü il 5 mart tarixli sayında (səh.4) Elcan Salmanqızının "Münasibətlərin inkişafı üçün lazımi əlaqələr sistemini qurmağa nail olmuşuq" adlı müsahibə dərc olunub. Müsahibədə Belarusun Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Patskeviç "Kaspi"nin suallarını cavablandırır. Həmin müsahibədə —"Ölkələr arasında mədəni və humanitar sahədəki əməkdaşlıq hansı səviyyədədir?"— sualına hörmətli səfir belə cavab verir: –"Məmnuniyyətlə deyə bilərəm ki, Belarusla Azərbaycan arasındakı humanitar əməkdaşlıq yüksək səviyyədədir.İki ölkənin Elmlər Akademiyasının səyi nəticəsində iqtisadiyyat, fizika, kimya, genetika və zoologiya sahələrində tətbiqi xarakter daşıyan elmi-texniki işlər görülüb. 2013-cü ilin yanvar ayında Azərbaycan Prezidenti yanında Elmin İnkişaf Fondu,Belarusun Fundamental Tədqiqatlar üzrə Respublika Fondu, Belarus MEA birgə yeni elmi layihələr müsabiqəsi elan etdi. Zaman keçdikcə, Azərbaycan gəncləri ali təhsil almaq üçün Belarus ali məktəblərini daha çox seçirlər. Hal- hazırda Belarusda tibb, informasiya texnologiyaları, tikinti və arxitektura, kənd təsərrüfatı istiqamətlərində 140-dan çox Azərbaycan vətəndaşı təhsil alır. Daxili İşlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyinin xətti ilə digər proqramlar üzrə təhsil müəssisələrində 200-dən çox kursant təhsil alır. 2012-ci ildə dörd Belarus ali məktəbi "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsil proqramı"na daxil edilib.

Tibb sahəsində də davamlı əlaqələr qurulub. Müntəzəm olaraq, Belarus mütəxəssisləri müxtəlif sahələrdə azərbaycanlı həmkarları ilə birlikdə yüksək texnologiyalı əməliyyatlar həyata keçirirlər. Ümumilikdə qeyd etmək olar ki, ikitərəfli Belarus-Azərbaycan əməkdaşlığının humanitar və mədəni tərkibi o dərəcədə rəngarəngdir ki, bu müsahibəmiz onun bütün aspektlərini əhatə etmək gücündə deyil".

2013-cü ildə Belorus yazıçısı Ales Karlyukeviçin "Dələ inşa yazır" adlı nağıllardan ibarət kitabı S.Nuruqızı tərəfindən rus dilindən Azərbaycan dilinə tərcümə olunmuşdur (2, 85).

2015-ci il 23 may tarixində "525-ci qəzet"də İsfəndiyar Vahabzadənin tərcüməsində Belorus xalq şairi Yanka Kupalanın "Ulduzlar","Kədərliyəm, ya Rəbbim!","Xoşbəxtlik" adlı şeirləri dərc olunub (3,19). Həmin ildə "Azərbaycan"jurnalının 12-ci sayında (səh.133-141) Belorus yazıçısı Ales Badakın "İdeal oxucu "adlı hekayəsi dərc olunub. Hekayəni Azərbaycan dilinə Kamran Nəzirli tərcümə edib. Eyni ildə Belorus yazıçısı Ales Karlyukeviçin "Şuburşunun macəraları" (kiçik məktəbyaşlı uşaqlar üçün) adlı kitabı S.Nuruqızı tərəfindən rus dilindən Azərərbaycan dilinə tərcümə olunub (4, 61).

Məşhur Belorus yazıçısı, 2015-ci ildən Nobel mükafatı laureatı Svetlana Aleksiyeviç dünyada çox nüfuzlu bir yazıçı olmasına baxmayaraq onun əsərləri

yalnız Azərbaycanın müstəqilliyi dövründə dilimizə tərcümə olunmuşdur. "Müharibənin qadın olmayan üzü" adlı romanı 2016-ci ildə Əyyub Qiyas tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq "Qanun" nəşriyyatında işıq üzü görmüşdür (5,400). Elə həmin il yazıçının "Sonuncu şahidlər" adlı əsəri Kifayət Haqverdiyeva tərəfindən dilimizə tərcümə olunaraq (rus dilindən) "TEAS. Press Nəşriyyat evi" ndə çap olunmuşdur (6, 316).

Müstəqillik dövründə eyni zamanda Svetlana Aleksiyeviçin əsərləri Azərbaycan ədəbiyyatşünasları tərəfindən araşdırılaraq təhlilə cəlb olunmuşdur. "Azərbaycan"jurnalının 2016-cı il 3-cü sayında Qazi Vahidin "Qırıq talelərin pazl tablosu" adlı məqaləsi dərc olunmuşdur. Müəllif Belorus yazıçısı Svetlana Aleksiyeviç və onun "Vremya cekond xend" kitabı ilə bağlı düşüncələrini paylaşır (7,139-144). Həmin ildə "Ədəbiyyat qəzeti" nin 13 avqust tarixində (səh.24-25) Minsk Yazıçılar İttifaqının sədri Ales Karlyukeviçin ədəbiyyatşünas alim İradə Musayeva ilə müsahibəsi dərc olunmuşdur. "Əlinizlə insan nəbzini tutun" adlı həmin müsahibədə məşhur Belorus yazıçısı Svetlana Aleksiyeviçin "Müharibənin qadın olmayan üzü "adlı əsəri müzakirə olunur (8, 24-25). Həmin ilin 3 oktyabr tarixində "Bizim yol" qəzetində Belorus yazıçısı Ales Karlyukeviçin ədəbiyyatşünas alim İradə Musayeva ilə "Nobelçilərin əksəriyyəti publisist yazarlardır"adlı müsahibə dərc olunub (9,13).

Şair Çingiz Əlioğlu Belarus Yazıçılar İttifaqının üzvüdür. Şair dörd il öncə ədəbiyyata töhfələrinə görə, qurum tərəfindən ordenlə təltif olunub. Daha sonra prezident Lukaşenkonun əmri ilə iki ölkə arasında mədəni və humanitar əlaqələrin inkişafına, Belarus mədəniyyətinin və ədəbiyyatının təbliğinə, informasiya və mətbuat sahəsində beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə sanballı töhfəsinə görə, "Fransisk Skorina" medalı ilə təltif olunub. Belarusda bir neçə mətbuat orqanının redaksiya heyətinin üzvü olan Ç.Əlioğlunun bu dövr ərzində həmin ölkədə üç kitabı nəşr olunub.

2016-cı ilin 26 yanvar tarixində "Yeni Azərbaycan" qəzetində Belorus yazıçısı Ales Karlyukeviçin "Çingiz Əlioğlu Azərbaycanda Belorus ədəbiyyatının təbliğatçısıdır" adlı mətn dərc olunub (səh.6).Məqalədə Ç.Əlioğlunun Azərbaycan-Belorus ədəbi əlaqələrinin inkişafındakı xüsusi xidmətlərindən danışılır.

2017-ci il "Qobustan sənət toplusu" adlı dərginin 1- ci sayında (səh.33-95) Belorus yazıçısı "Vasil Bıkovun axır sözü: Müharibə nə tez yaddan çıxdı?!" adlı mətn dərc olunub. Elə həmin il "Azərbaycan" jurnalının 6-cı sayında Belorus şairi Tatyana Sivetsin "Bakı" adlı poeması dərc olunmuşdur. Poemanı Azərbaycan dilinə Könül Arif tərcümə etmişdir. Şairə həmin poemada Azərbaycana –Bakıya səfəri zamanı Azərbaycan xalqının nə qədər mehriban, səmimi, qonaqpərvər olduğundan danışır. Gördüklərini, daxilən yaşadıqlarını, Qubada ermənilər tərəfindən törədilən soyqırımı nəticəsində diri –diri gömülən insanların sür-sümüklərini seyr edərkən Belorusların da qanlı-qadalı

müharibələrdən yan keçmədiyini, müharibənin qara buludlarının zaman-zaman onun ölkəsini də bürüdüyünü xatırladır (10, 105-112). Eyni ildə "Ədəbiyyat qəzeti"nin 12 avqust tarixində Ales Karlyukeviçin "Yuliya Aleyçenkonun işığı" adlı məqaləsi dərc olunub Məqalədə Belorus şairi Yuliya Aleyçenkonun ədəbi yaradıcılığı və tərcümə sahəsindəki xidmətlərindən söz açılır.

2017-ci ilin 26 iyul tarixində "Mütərcim" nəşriyyatı tanınmış Belarus yazıçıları Nikolay Çergineç, Ales Badak və Georgi Marçukun kitablarını Azərbaycan dilində çap edib. Kitabları Azərbaycan dilinə tanınmış ədəbiyyatşünas, yazıçı və tərcüməçi Kamran Nəzirli çevirib.

Nikolay Çergineçin "Oğullar" adlı kitabına yazıçının eyni adlı romanı daxil edilib. O, həm də tanınmış siyasətçi, Belarus Ali Məclisinin deputatıdır, əməkdar incəsənət xadimidir. Çergineç Belarus ədəbiyyatına ilk dəfə olaraq milis dedektivi janrını gətirib, bir neçə kinossenari və teatr tamaşasının müəllifi, Beynəlxalq Yazıçılar Cəmiyyətinin, Rusiya və Belarus Yazıçılar İttifaqlarının həmsədridir. Azərbaycan dilinə tərcümə olunaraq oxuculara təqdim olunan "Oğullar" romanı mənasız "əfqan müharibəsi"ndən bəhs edir; bu müharibədə iştirak edən yazıçı həm əfqan-sovet döyüşçülərinin dostluğunu, həm də gözüyaşlı sovet analarının iztirab və qayğılarını qələmə alıb.

Ales Badakın hekayələr kitabına onun son illər yazdığı "Görüntünün o biri üzü", "İdeal oxucu", "Yağışdan qurtulan gün" və digər hekayələri daxil edilib. Georgi Marçukun "Qorın çayının adamları" adlı kitabında isə tanınmış yazıçının hekayələri yer alıb.

2018-ci il 7 mart tarixində Bakı Slavyan Universitetində (BSU) Azərbaycanda Belarus Təhsil Günləri çərçivəsində "Azərbaycan və Belarus ali təhsilinin beynəlmiləlləşdirilməsi" adlı tədbir keçirilib. Tədbirdə Belarus Respublikası Təhsil Nazirliyinin müxtəlif nümayəndələri iştirak ediblər.

Rus mühacirlərinin ABŞ-da nəşr etdirdiyi "Novıy jurnal" adlı ədəbi-publisistik dərgidə 2018-ci ilin mart ayında 2015-ci ilin Nobel mükafatçısı Svetlana Aleksiyeviçlə "Biz gələcəyə hazır deyilik " adlı müsahibə dərc edilib. Nadir Qocabəyli "Ədəbiyyat qəzeti"nin 2018-ci il 30 iyun (səh.9) tarixində Svetlana Aleksiyeviçlə olan həmin müsahibəni tərcümə edərək oxucuların diqqətinə çatdırmışdır.

2018-ci ilin 21 aprel tarixində "525-ci qəzet" də Belorusda çıxan " Polımya" ədəbi jurnalının məsul katibi tənqidçi ədəbiyyatşünas Yuliya Aleyçenkonun "Salam Kamran"adlı kiçik həcmli məqaləsi dərc olunub. Müəllif məqalədə ədəbiyyatşünas alim, tərcüməçi, yazıçı Kamran Nəzirlinin yaradıcılığı,onun ədəbiyyata gətirdiyi mövzular, ziddiyyətli obrazları haqqında öz düşüncələrini paylaşır.Onun həyatın ən mühüm problemlərindən yazmaq bacarığını vurğulayır. Həmin ilin 12-14 may tarixində "Kaspi" qəzetində K.Nəzirlinin tərcümə etdiyi, Belorus Respublikasının İnformasiya naziri Ales Karlyukeviçin "Azərbaycan və Rıqor Borodulin" adlı məqaləsi dərc olunub. Məqalədə Belorusiyanın klassik şairi Rıqor Borodulinin sovet

dövrü Azərbaycan Belorus ədəbi əlaqələrinin inkişafında böyük rolu olduğunu vurğulayır.Rıqor Borodulinin tez-tez Bakıya səfərindən, Azərbaycan ziyalıları ilə görüşündən,onun yazıçı Sabir Əhmədovla, şair-publisist Məmməd İsmayılla şəxsi tanışlığından söz açır.

"Bizim yol" qəzetinin 2018-ci il 3 oktyabr sayında (səh.13) "Nobelçilərin əksəriyyəti publisist– yazarlardır" adlı müsahibə dərc olunub. Həmin müsahibə Minsk Yazıçılar İttifaqının sədri Ales Karlyukeviçin ədəbiyyatşünas İradə Musayeva ilə 2015-ci ildə Nobel mükafatına layiq görülmüş Belarus yazıçısı Svetlana Aleksiyeviçin yaradıcılığı, xüsusən də, məşhur yazıçının "Müharibənin qadın olmayan üzü" adlı romanı haqqındadır.

2019-cu il 10 yanvar tarixində (səh.15) "Palitra" qəzetində " dünyanın 100 dilinə tərcümə olunmuş kitab Mərkəzi Elmi Kitabxanaya hədiyyə edilib" adlı məlumat dərc edilib. Məlumatda deyilir ki, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına Belarus İnformasiya Nazirliyinin "Petrus Brovka adına Belarusiya Ensiklopediyası" nəşriyyat evindən şair Yanka Kupalanın "O gələn kimdir?" kitabı hədiyyə edilib. Şeirin 1905-1907-ci illərdə yazılması ehtimal olunur. Azərbaycanın xalq şairi Rəsul Rzanın dilimizə tərcümə etdiyi bu şeirdə müəllif Belorus xalqının inqilabdan əvvəlki obrazını təcəssüm edib. Həmin ildə "Ədalət " qəzetinin 08 iyun tarixində Belorus yazıçısı Ales Karlyukeviçin "Valideynlər hər zaman xeyirxah olurlar" adlı hekayəsi dərc olunub. Hekayəni rus dilindən Azərbaycan dilinə ədəbiyyatşünas alim K.Nəzirli tərcümə edib. Kamran Nəzirli hekayəni oxuculara təqdim etməmişdən qabaq yazıçı haqqında qısa məlumat verib.Ales Karlyukeviç Azərbaycan Yazıçılar birliyinin üzvüdür. Belorusiyada tez-tez Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı layihələr həyata keçirir. Ales Karlyukeviçin "Maksimkanın Vətəndə və diğər ölkələrdə sərgüzəştləri" və "Su ömrü" kitabları "Mütərcim" nəşriyyatında "Dünya uşaq ədəbiyyatı" seriyası ilə K.Nəzirlinin tərcüməsilə çap olunub. Onun nağıl və hekayələrinin əsas ideyası və mövzusu Vətən sevgisidir, valideyn, övlad məhəbətidir (11,12). Eyni ildə hekayələrdən ibarət "Belorus uşaq ədəbiyyatı antologiyası" F.Əsgərli tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq "Renessans –A " nəşriyyatında şap olunmuşdur. Həmin ilin 28-30 sentyabr (səh. 15) tarixində "Kaspi" qəzetində Fəridə Uğurun "Müharibənin qadın olmayan üzü" adlı məqaləsi dərc olunmuşdur. Məqalə Belorus yazıçısı Svetlana Aleksiyeviçin "Müharibənin qadın olmayan üzü" adlı romanı haqqında ədəbiyyatşünasın düşüncələrindən ibarətdir.

2019-cu il 11 fevral tarixində Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Naum Qalperoviç, Tatyana Sivets, Yuliya Aleyçenko və Valeriya Sarotnikin belorus dilinə tərcümə etdiyi "Müasir Azərbaycan ədəbiyyatı antologiyası– Poeziya" kitabı XXVl Minsk Beynəlxalq Kitab Sərgisində təqdim olunub. Tədbirdə kitabı tərcümə etmiş şair tərcüməçilər çıxış edərək bu dəyərli ədəbiyyatın nəşrinin Azərbaycan-Belorus ədəbi əlaqələrinin inkişafında böyük əhəmiyyətindən danışıblar. Kitaba müasir Azərbaycan poeziyasının Səməd Vurğun, Mikayıl Müşfiq, Rəsul Rza, Əli

Kərim, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə, Məmməd Araz, İsa İsmayılzadə, Ələkbər Salahzadə və digər bu kimi parlaq simalarının şeirləri toplanıb. Həmin ilin 27 iyul tarixində ”Ədalət” qəzetində Belorus şairi Lyudmila Kebiçin Kamran Nəzirlinin tərcüməsində “Söz”,”Kəndə qaçıram”,“Mənim virtual sevimlim”,”Yollardan biri” adlı şeirləri dərc olunub. Kebiç Lyudmila Antonovna Belorus Yazıçılar İttifaqının Qrodno vilayəti üzrə sədridir. O həm də Rusiya-Belorus İttifaq dövləti Yazıçılar birliyinin üzvüdür. Eyni ildə “525-ci qəzet”in 13 aprel tarixində Belorus şairi Yuliya Aleyçenkonun “Bakı– Xoşbəxt adamın yol qeydləri” adlı mətn dərc olunub. Şair Azərbaycana səfəri zamanı yaşadığı xoş təəssüratları qələmə alır. Uzun zamandan bəri Azərbaycana səyahət etməyi planlaşdıran şairə səfərə çıxmamışdan qabaq bir proqram tərtib etdiyindən danışır. Azərbaycanın tarixi abidələrindən, muzeylərindən, torpağında min bir məhsul yetişən ölkəmizin insanlarından, məişətindən, mətbəxindən söz açır.

2019-cu ilin 9-15 iyul tarixlərində “Türküstan” qəzetində “Yazıçı K.Nəzirlinin yaradıcılıq gecəsi keçirilib” adlı məlumat dərc olunub. Belorusiyanın Qrodno vilayətinin Poreçye istirahət mərkəzində Azərbaycan yazıçısı K.Nəzirlinin yaradıcılıq gecəsinin keçirilməsi barədə məlumat verilir. Belorus Respublikası İnformasiya Nazirliyi və Belorus Yazıçılar Birliyinin təşkil etdiyi gecədə Kamran Nəzirli böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi ilə əlaqədar Prezident sərəncamından, qüdrətli söz ustadının ümumbəşər mədəniyyətinə bəxş etdiyi zəngin mədəni-mənəvi dəyərlərdən, mütəfəkkir şairin dərin poetik fikirlərindən danışıb. Gecədə “Nəsimi 650” adlı təqdimat, habelə “Nəsimi” bədii filmindən fraqmentlər nümayiş etdirilib. Rusiya, Ukrayna, Litva, Polşa, Latviya, İsrail, Almaniya və digər ölkələrin nümayəndələri, habelə Belorusiyanın bir qrup yazıçı və şairləri qarşısında çıxış edən Azərbaycan yazıçısı həm də Azərbaycan –Belorus ədəbi əlaqələrindən danışıb.

Nəticə: Ədəbiyyatın auditoriyası böyükdür. Çünki ədəbiyyat sərhəd tanımır. Hər bir yeni yaranan əsər dünyanın müxtəlif dillərinə tərcümə olunaraq dili və dini müxtəlif olan oxuculara çatdırılmalıdır. Ədəbiyyat nə qədər geniş ərazidə tanınarsa, söz, sənət adamları nə qədər bir-birlərinə bələd olarlarsa, hesab edirəm ki, düşüncə adamının birliyi dünyada gedən mənfi proseslərə əks təsir göstərə bilər. Və bu, bütövlükdə qlobal düşüncəyə təsir edə bilər.

ƏDƏBİYYAT

1. XX əsr dünya ədəbiyyatı antologiyası” III cild, Bakı,”Şərq-Qərb”,2011, 488 s., səh.69-76.
2. Ales Karlyukeviç.”Dələ inşa yazır”.Bakı, Təhsil, 2013, 85 s.
3.Yanka Kupala. Şeirlər. Tərcümə edən: İ.Vahabzadə. “525-ci qəzet”, 23 may 2015-ci il, səh.19.
4. Ales Karlyukeviç . “Şuburşunun macəraları” Bakı, Təhsil, 2015, 61s.

5. Svetlana Aleksiyeviç.”Müharibənin qadın olmayan üzü”. Rus dilindən tərcümə edən: Əyyub Qiyas. Bakı, “Qanun Nəşriyyatı, 2016, 400 s.
6.Svetlana Aleksiyeviç “Sonuncu şahidlər”. Rus dilindən tərcümə edən: Kifayət Haqverdiyeva..Bakı.TEAS. Press Nəşriyyat evi,2016, 316 s.
7. Qazi Vahid. “Qırıq talelərin pazl tablosu” Azərbaycan jurnalı, № 3, səh.139-144.
8. İ.Musayeva “Əlinizlə insan nəbzini tutun” Ədəbiyyat qəzeti, 2016, 13 avqust, səh.24-25.
9. İradə Musayeva.”Nobelçilərin əksəriyyəti publisist yazarlardır” “Bizim yol” qəzeti, 3 oktyabr, 2018-ci il, səh.13.
10. Tatyana Sivets “Bakı”(poema) “Azərbaycan” jurnalı № 6, 2017, səh.105-112.
11. Ales Karlyukeviç. “Valideynlər hər zaman xeyirxah olurlar” (hekayə) “Ədalət “ qəzeti, 8 iyun,2019-cu il,səh.12.

МАЛАХАТ СОЛТАНКЫЗЫ ГАДИРОВА

АЗЕРБАЙДЖАНО-БЕЛОРУССКИЕ ЛИТЕРАТУРНЫЕ ОТНОШЕНИЯ В НАЧАЛЕ XX ВЕКА.

РЕЗЮМЕ

Статья посвящена теме Азербайджано-Белорусских литературных связей в период независимости Азербайджана. Взаимные деловые визиты президентов Азербайджана и Беларуси обусловили развитие и экономических, и культурных, а также литературных связей между двумя этими республиками. В течение последних нескольких лет в Азербайджане были переведены и изданы массовым тиражом произведения белорусских писателей, а в Беларуси - литературное творчество азербайджанских писателей.

С начала XXI века после обретения Азербайджаном независимости Азербайджано-Белорусские литературные связи стали усиливаться, значительно расширились экономические, культурные и научные связи. Взаимное сотрудничество Азербайджана и Беларуси является блестящим примером новых отношений нашей страны с иностранными государствами, дружеских и братских связей равноправных суверенных государств, выражением нового политико-экономического и национального идеологического мышления, устоявшегося в международных вопросах. Белорусским ученым, писателям и публицистам, прибывающим в республику, принадлежит особая заслуга во всестороннем развитии этих отношений. Некоторые из них после возвращения на родину в различных печатных органах Беларуси издают статьи, публицистические записи, очерки и репортажи о сегодняшнем состоянии нашей страны, успехах, достигнутых в сфере экономики, культуры, встречах с азербайджанскими учеными, писателями и культурными деятелями, с которыми познакомились здесь и провели взаимный

обмен мнениями. Делятся впечатлениями от поездок и художественными образцами, касающимися Азербайджана.

Ключевые слова: независимость, литературные связи, перевод, поэзия, издание, писатель, мировая культура.

MALAHAT SOLTANGIZI GADIROVA

AZERBAIJANI-BELARUSIAN LITERARY RELATIONS IN THE EARLY TWENTIETH CENTURY

SUMMARY

The article speaks about the Azerbaijan Belarus literary relations during the independence period of Azerbaijan Republic. Mutual official visits of each presidents, Azerbaijan and Belarus, stimulated the development of economic, cultural and literary relations between two republics. In few years, the works of Belarusian writers have been translated into Azerbaijani, and the works of Azerbaijani writers have been translated into Belarusian and published in mass scale in Belarus.

In the early 21st century, since Azerbaijan gained its independence literary relations have been strengthened and economic, cultural and scientific branches have expanded.

Interaction of Azerbaijan with the Republic of Belarus is a bright example of new relations, friendship of sovereign states of equal rights of our republic with foreign countries. And it's the reflection of new economic, political and national ideological thinking established in international affairs. The Belarusian scholars, writers and publicists come to our country have a great role in establishing and development of these relations. Some of them have published articles, publicistic materials, essays and interviews in Belarusian media about the current state of our country, about successes in the sphere of economy and culture, about the various scholars, writers and cultural figures whom they met here and exchanged views. They share impressions and literary notes about the trip to Azerbaijan

Key words: independence, literary relations, translation, poetry, prose, writer, world culture

Redaksiyaya daxil olma tarixi: 23.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə** tərəfindən çapa tövsiyə olunmuşdur

İLHAM QAZIZADƏ
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent,
AMEA Memarlıq və İncəsənət İnstitutu
Hüseyn Cavid peospekti
nigarqazizade@gmail.com

XX ƏSRİN BİRİNCİ VƏ İKİNCİ YARISINDA AZƏRBAYCAN DRAMATURGIYASINDA YARANAN KOMEDİYALARIN SƏHNƏ TƏCƏSSÜMÜ
(1-ci məqalə)

XÜLASƏ

XX əsrin 40-cı illərinin ikinci yarısında meydana atılan «konfliktsizlik nəzəriyyəsi» onsuz da bədiilik baxımından geriləyən teatrlara pis təsir göstərdi. Repertuarda bir-birindən zəif pyeslərin sayı çoxaldı. Aşağı səviyyəli əsərlərin səhnəyə yol tapması hər şeydən əvvəl ölkədə yaranmış ictimai-siyasi mühitin gərginləşməsi ilə əlaqədar idi. Müharibədən sonra yenidən şəxsiyyətə pərəstiş xəstəliyi yeni bir axında həyatın bütün sahələrinə hücum etdi. Belə bir qorxunc şəraitdə gerçəkliyi olduğu kimi əks etdirmək qeyri-mümkün hal idi. Cəsarətli sənətkarların əksərini 37-ci ilin irticası süpürüb aparmışdı. O illərin dəhşətləri az-çox yazmaq qabiliyyəti olanları qorxutmuşdu. Təbii ki, onlar yaltaqlanmaqdan, yalan yazmaqdansa, susmağı üstün tuturdular. (1, səh. 112)

30-cu illərdə müasir mövzulu komediya janrı sahəsində böhran hökm sürən zaman səhnəyə qoyulan pyeslər üzərində teatrlar imkan daxilində yaradıcılıq əməliyyatları aparmağa çalışırdılar. Əfsus ki, kollektivlərin əməyi həmişə lazımi nəticə ilə yekunlaşmırdı. Buna da səbəb dramaturji materialda həll olunan məsələlərin kifayət qədər günün vacib problemlərinə toxunulması idi.

S.Rəhmanın 40-cı illərdə oynanılan «Aydınlıq» və «Aşnalar» pyesləri «konfliktsizlik nəzəriyyəsi» dövrünün məhsulu olduqlarından bədiilik baxımından xatalardan xali deyildilər. Birinci əsərdə dramaturq kəndin əsas qayğılarından yan keçərək, su ilə təmin olunmaq üstündə iki kolxoz arasında söz-söhbəti, ikinci əsərdə isə sosialist mülkiyyətinə xor baxanların həyati baxışları deklarativ tərzdə söylənilir, əsərlərdəki obrazların daxili aləmləri tam aydınlığı ilə açılmırdı. Uğursuzluğu doğuran əsas səbəblərdən biri də dramaturji materialın komik macəralar və məzhəkə xarakterli vəziyyətlərlə yüklənməsi olmuşdur.

Açar sözlər: dramaturgiya, komediya janrı, rejissor, yaradıcı heyət, tamaşa

«Konfliktsizlik nəzəriyyəsi»nin doğurduğu repertuar böhranı illərində teatrlar yenidən artıq dəfələrlə səhnədə sınanmış pyeslərə müraciət edirdilər. Onlardan biri

də C.Cabbarlının «Dönüş» əsəri idi. Pyesdə zəngin irsinə bir növ yekun vuran böyük sənətkar teatrımızı sənətin yüksək zirvəsində görmək arzusunu ifadə etmişdir Akademik Dram teatrının hazırladığı quruluşda yaradıcı heyət (rejissor A.İsgəndərov, H.Sadıqzadə, rəssam İ.Axundov) əsərin xalqın həyatı ilə bilavasitə əlaqəsi olan leytmotivi ilk planda verilməsinə diqqət yetirməyə çalışmışlar. Pyesdə təsvir olunan köhnəliklə mübarizə, novatorluğun konservatizm üzərində qələbəsi yalnız səhnə sənəti ilə deyil, hətta mübarizə real həyatda özün büruzə verirdi.

Söhbət gedən tamaşada pyesdəki ikinci şəklin ixtisarı təəssüf doğururdu. Bu şəkildə müəllif Hikmət Arifin nitqində işlətdiyi istilahların özünün də mənasını bilmədiyi gülüş doğururdu: ekspozisiya, eksplikasiya, substrat və s.

Pyesdə olduğu kimi tamaşanın içərisində də Gülbaharın hazırladığı tamaşada gənc qüvvələrin şüarlarına müvafiq olan yeni dekorları, mizanları, intonasiyanı, pafosu görmürük. Quruluş barədə məqalə yazan S.Dağlının bu iradı ilə müəyyən dərəcədə razılaşmaq olar. Lakin rəyçi «Xasməmmədin son səhnələrdə ilk şəkillərdəki geyimində çıxır» yazarkən dəyişikliyi iştirakçıların geyimində axtarması məsələyə formal yanaşma təsiri bağışlayır. (səh. 114, 2),

Tamaşada Ötkül Zalımbəyli fəhlə-müxbir və həvəskar kimi verilib. Quruluşda bu surət C.Cabbarlının qrimi ilə çıxış edir və iştirakçılar əksər hallarda onu «gicbəsər» adlandırırlar. Rəyçi bu halı dramaturqa hörmətsizlik kimi qiymətləndirir. Bizcə, yaradıcı heyət məsələyə bu yanaşmaqla hər bir dövrdə bəzən bu yönlü ziyalıların başa düşünülmədiyini, əksinə «gicbəsər» sözünün o dövrdəki başabəla ziyalılara aid olduğuna işarə edirdi.

Ümumiyyətlə, tamaşada L.Bədirbəyli (Gülsabah), S.Hacıyeva (Xurşud), İ.Osmanlı (Əlimuxtar), M.Mərdanov (Əmrullah) aktyor əməkdaşlarının tipik surətlərini yaradırdılar. Bu ifalar arasında Ə.Sultanovun (Qüdrət Aslan), F.Fətullayevin (Arif Hikmət), M.Novruzovanın (Qəmər) oyunları ümumi ansamblın fonunda sönük görünürdülər.

C.Cabbarlı yaradıcılığının son nəğməsi sayılan «Dönüş» pyesinin bu quruluşu sənətkarlıq səviyyəsi, müasir səslənmə baxımından hər bir dövrdə səhnəmizin fəxri olduğunu bir daha sübuta yetirirdi.

Artıq 1950-ci illərin ortalarında SSRİ-nin bir sıra qabaqcıl teatr kollektivlərində ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrlə əlaqədar eynitipli pyeslərin sxematikliyinə, səhnədə stereotip xarakter almış solğunçuluğa, darıxdırıcılığa qarşı barışmaz mövqe hiss olunurdu. Dramaturji materialda özünü büruzə verən müsbət surətlərin mənfilərə nisbətən bədiilik baxımından əsaslandırılmış fəal təsviri güclənirdi. Dövrün tələblərini ödəyən pyeslərin səhnəyə yol tapması aktyor sənətkarlığının da yenilənməsinə imkan yaratdı. Bu yönlü dəyişikliklər Azərbaycan teatrında nisbətən müsbət istiqamətli təmayüllərin canlanmasına təkan verdi. Artıq yazılan pyeslərin əksərində müsbət qəhrəmanların nəsihətçiliyinin əvəzinə sağlam həyat düşüncəsinə əsaslanan obrazlar nisbətən

üstünlük təşkil edirdi. Belə bir vəziyyət komediya janrına həsr olunan pyeslərdə və onların səhnə təcəssümündə də müşahidə olunurdu.

Bu baxımdan S.Rəhmanın ilk tamaşası 9 mart 1961-ci ildə oynanılan «Əliqulu evlənir» pyesində dramaturgiyamızda müsbət dəyişiklik müəyyən dərəcədə özün göstərirdi. Pyesin səhnə yozumunu verən Mehdi Məmmədov və rəssam İ.Axundov əsərin əsas qayəsini qabarıq verməklə, eybəcərliyə qarşı gülüş oyadan tamaşanı ərsəyə gətirmişlər. Tərtibatda üzüm tənək budaqlarının tamaşa salonuna tərəf uzadılması, epizodların birində telefon budkasının bilavasitə tamaşaçılara yaxınlaşdırılması, bəzi iştirakçıların səhnədən salona addımlaması və sonra geriyə qayıtması tamaşaçı ilə səhnə arasındakı əlaqənin təsvirində hadisələrin müasirliyə yaxınlığını göstərmək məqsədi güdülüb. Əsasən yaradıcılığında qərb klassik komediyasının əyləncə teatrallığına meyl göstərən M.Məmmədov bu quruluşda da öz dəst-xəttinə sadiq qalmışdır.

Əliqulu tamaşanın əsas tənqid hədəfidir. Obraz həyatda mövcud olan tiplərin eybəcərliyini özündə cəmləşdirib. Rol seçimində rejissor baş rola əvvəl M.Sənanini nəzərdə tutmuşdur. Lakin sonra rol ikinci iştirakçısı A.Gəraybəyliyə həvalə edilmişdi. İfaçının rol üzərindəki aktyorluq sənətkarlığını və fantaziyasını yüksək qiymətləndirən rəyçi B.Adil Əliqulu obrazını A.Gəraybəylinin «ikinci yaradıcısı» adlandırmışdı.

Əliqulunun səhnəyə ilk çıxışında evdəkilər onun bikef və acıqlı olduğundan təəccüblənirlər, arvadı və qızı paltosunu soyundururlar. Hadisələr inkişaf etdikcə onun əvvəlki səhnələrdəki zahirən vahiməliyi qorxaqlıqla əvəzlənir, obrazın təbiətən bəsitliyi, bayalığı üzə çıxır.

Nazlı obrazı H.Qurbanovanın ifasında müvəffəqiyyətlidir. Hiss olunur ki, bu obraz Əliqulunun «evləndirilməsi» xatirənə əsərə daxil edilib. Lakin Nazlı ilə Əliqulunun evlənmə əhvalatı süni dolaşıqlıq yaradır. Belə bir priyom köhnə və işlənmiş vasitənin təkrarlanması təsirini bağışlayır.

Tamaşanın hər bir iştirakçısı oyununa inamla yanaşdığı üçün İ.Osmanlnın Xəlili, M.Novruzovanın Gövhəri, L.Bədirbəylinin Qumralı, B.Əsgərovun Kamalı, M.Sadıxovun Sıfırı maraqlı alınmışlar. Təəssüf ki, bu cür xoş sözləri F.Fətullayevin Rövşəni, H.Məlikovanın Yasəməni barədə söyləmək mümkün deyil. Əvvəla qeyd etmək lazımdır ki, Rövşənlə arvadı arasındakı konflikt bir qədər əsaslı qurulmalı idi. Digər tərəfdən isə aktyor F.Fətullayev qısqanclıq hissini həddən ziyadə karikatura şəklində təqdim edirdi.

Rejissor müəllifə tamaşanı Yasəməni salonla əlaqə saxlamaq, aparıcı kimi verməyi məsləhət görüb. Lakin Yasəmən obrazı pyesdə bu səpkidə lazımi inkişafını tapmayıb.

Tamaşa mənəvi ideallar aşılayan nikbin şuxluğu, məzəli situasiyaları və ən başlıcası isə uğurlu quruluşa malik olması ilə nəzəri cəlb edirdi.

Ötən əsrin 50-ci illərinin axırlarında yeni yazarların sayəsində Azərbaycan dramaturgiyasında müasir mövzuya həsr olunmuş komediyaların sayı artdı. Bu

sahədə Altay Məmmədovun yaradıcılığı xüsusilə seçilirdi. O ədəbiyyat aləminə öz orijinal hekayələri ilə gəlmişdir. Fikrini çatdırmaq baxımından yeni bədii vasitələrdən bacarıqla istifadə etmək meyli müəllifin pyeslərində də üstünlük təşkil edirdi.

Həyatda özünə əsaslı şəkildə yer tapmış yerliçilik, dostbazlıq, qohumbazlıq kimi qeyri-normal cəhətləri A.Məmmədov «Həmyerlilər» satirik komediyasına aparıcı tənqid hədəfi seçmişdir. Pyes müəllifin ilk səhnə əsəri olduğuna baxmayaraq, orada qoyulan məsələlər yerliçilik və dostbazlıq ifşası çərçivəsindən çıxaraq, bu eybəcərliyin doğurduğu və xalqın şüuruna mənfi təsir göstərən saxtakarlıq, yaltaqlıq, əliəyrilik və ikiüzlülük kimi hallar kəskin ifşa obyektinə çevrilmişdir. İctimai təminat idarəsinin müdiri Balvaz Balvazov yerlipərəstliyə qapılaraq, düşdüyü gülünc-vəziyyət, baş mühasib Gümüş Gümüşovun müxtəlif fırıldaq vasitələrə əl atması, Zərişin vəzifəli adamın hesabına ömür sürmək istəyi kimi komik ünsürlərlə aşılanmış əsər teatrın istedadlı aktyoru M.Bürcəliyevin rejissor olduğu «vəziyyətlər komediyası» səpkili quruluşunda nisbətən müsbət həllini tapmışdır.

Gəncə teatrında artist M.Cəfərovun ustalıqla oynadığı Gümüş Gümüşov obrazı rejissor traktovkasının aydın bir tərzdə büruzə çıxmasına xeyli köməklik göstərirdi. Aktyor ikiüzlü və tamahkar Gümüş Gümüşovun xarakterini həyati müşahidələrinə əsaslanaraq, o qədər canlı və inandırıcı yaradırdı ki, tamaşaçıda bu tipli adamları mühafizə edib yaşadan mühitə qarşı kəskin nifrət oyadırdı. M.Cəfərov obrazın təbiətən iyrəncliyini daha qabarıq vermək naminə ona yeni rənglər, boyalar əlavə edirdi. Onun oyunundan belə bir fikir hasil olurdu ki, acgöz adam eybəcərliyini ört-basdır etmək üçün yaltaq olur, yaltaq isə qorxaq və hiyləgərliyi öz həyat amalının başlıca xüsusiyyəti seçir.

M.Bürcəliyevin oynadığı Sarı Sarızadə rolu da çox həyatidir. Özünü şikəst kimi göstərən «12 xəstəliyə məruz qalmış» Sarızadə Balvazovun və Gümüşovun köməyi ilə təqaüd alır. Lakin o heç də şikəst və xəstə deyil, alverçidir. Sarızadənin zəhmətsiz gəlir dalınca qaçmaq hərisliyi onu mənəvi cəhətcə şikəst etmişdir.

Tamaşada iştirak edən aktyorlardan A.Məmmədov (təqaüdçü Nuru), H.Sərkərli (Xanımqız), Ə.Məmmədov (qoca təqaüdçü) və başqaları yaramazlar aləminin ifşasında fəal rol oynayan obrazları yaradırlar. Məhz onların yaradıcı oyunları həyatdakı mənfi hallara qarşı «nikbin bir ruhu» artırırdı. (№ 279, 9).

Tamaşanın ideya – tərbiyəvi təsirini yüksəltmək üçün rəyçi Ə.Ağamirovun fikrincə, rejissor M.Burcəliyev dördüncü şəkildəki yerlipərəstlərin qonaqlığı, Gümüş rolunun yuxusu və final səhnəsinə komediya janrına məxsus oynaqlıq, ifadəli hərəkətlər, dinamika versəydi tamaşa daha artıq baxımlı alınardı.

Azərbaycan Akademik Teatrda 1961-ci ilin 2 dekabrında premyerası[i] olan Ş.Qurbanovun «Əcəb işə düşdük» pyesində zavod əməkdaşlarının qarşısına qoyulan yüksək səviyyəli vəzifələri yerinə yetirmək üçün qüvvələrini səfərbər alanlar yeniliyin qarşısına çəpər çəkənlərə barışmaz mövqe tutublar. Pyesin konflikti də İlqar və onun iş yoldaşları ilə zavodun səmərələşdirmə bürosunun mühəndisi Abış

Surxayeviç arasındadır. Müəllif əsərə Abış Surxayeviçin həyat yoldaşı meşşan təbiətli qadını da daxil etmişdir. O da əri kimi mənəviyyatca düşgün həyat tərzi sürür. Dramaturji materialda İlqarın irəli sürdüyü səmərələşdirici təklifinin müəssisəyə verəcəyi xeyir bir neçə sözlə deyilir, onun əsas mahiyyəti açıqlanmır. Məhz əsərdəki mövzu xırdalığı İlqar və tərəfdaşlarının kifayət qədər yersiz çarpışmaları üzərində qurulmuşdu.

Quruluşun rejissoru T.Kazımov səhnəyə aktyorların yaradıcılıq potensialını göstərən mizanlar yaratmağa çalışmışdır. Tamaşanın rəssamı S.Şərifzadə əsərdəki hadisələrin dinamikliyini, müəssisə mühitinin təsvirini canlandıran arxa pərdədən istifadə etmişdir.

Akademik teatrın səhnəsində ilk işi olan Ə.Ağayev Abış Surxayeviç obrazı ilə komik surətləri yaratmaqda ustad sənətkar olduğunu sübuta yetirdi. Aktyor obrazın mənfi xüsusiyyətlərini açmaq sahəsində təbii ştrixlərdən yerli-yerində istifadə edirdi. İfaçı Abış Surxayeviçin mənasız, cılız həyat tərzini aşkarlamaqla tamaşaçıda belə yönlü tiplərə qarşı kəskin tənqid hədəfi doğururdu.

Tamaşada komik situasiyaların artmasında Əntiqə obrazının iştirakçıları L.Bədirbəyli və B.Şəkinskayanın yaradıcılıq səylərini göstərmək lazımdır. Hər iki aktrisanın pyesin yalnız bir şəklində görünmələrinə baxmayaraq, həyatda rastlaşdığımız bu yönlü tüfeyli qadınların tipik surətlərini açıqlayırlar. Lakin Əntiqənin ifaçıları oyunlarında bəzi hallarda gülüş yaratmaq naminə lazımsız hərəkətlərə yol vermələri təəssüf doğururdu.

Zavodun gözətçisi İmran kişi və süpürgəçi Məsmə xanımın ifaçıları S.Hacıyeva və A.H.Cavadov rollarına məsuliyyətlə yanaşaraq, təbii oyunları ilə tamaşaçılarda yaxşı təəssürat oyadırdılar. Əfsus ki, quruluşun bir qrup iştirakçıları (Dilarə – S.Bəsirzadə, Məlahət – H.Məlikova, İlqar – A.Rzayev, Eldarov – Şamxalov və b.) rollarına yaradıcı münasibətlə yanaşmadıqları aydın şəkildə nəzərə çarpırdı. Digər tərəfdən İlqarın verdiyi səmərələşdirici təklif qovluğunun Misirxanov tərəfindən itirilmə əhvalatı çox uzadılır. Yeri gəlmişkən təcrübəli aktyor M.Sənaninin Misirxanov obrazında həddən artıq gülüş doğuran hərəkətlərə uyması tələbkar tamaşaçıda xoş hiss oyatmırdı.

Dramaturji materialda mövcud olan nöqsanlar tamaşanın hazırlanması müddətində yaradıcı heyət tərəfindən aradan qaldırılmadığı üçün bir neçə ifaçının işi istisna edilərsə, digər iştirakçıların quruluşa lazımi səviyyədə yanaşmamaları aydın tərzdə nəzərə çarpırdı. Məhz bu baxımdan quruluşun rəyçisi yazısını «Canlı xarakterlər və kölgələr» adlandırmaqda haqlı idi.[ii] Zəngin tarixə malik Akademik Dram Teatrımızın səhnəsində rəydə qeyd edildiyi kimi, həyatın özünü yox, kölgəsini göstərən pyeslərin oynanması yalnız təəssüf hissi oyadırdı.

Yaradıcılığı boyu əsərlərində xalqın vacib problemlərini əks etdirən M.İbrahimov **«Kəndçi qızı»** komediyasında da irəliləyişə maneçilik törədən zərərli, pis əməlli adamları tənqid etmişdir. Müəllifin pyesi «lirik komediya» adlandırması

heç də tənqidin zəifliyinə dəlalət etmir, ifşanın sağlam mövqedən təcəssümünə imkan yaradırdı. (*№ 13., 9)*

Azərbaycan Dövlət Akademik Dram Teatrında tamaşaya qoyulan (premyera 1962, 21 dekabr) (rejissor M.Məmmədov, rəssam S.Şərifzadə, bəstəkar S.Hacıbəyov) əsərdə yaradıcı heyət işıqlandırılan məsələlərin mənfi cəhətlərini ön planda verib, onlara gülüş doğurmaq, müsbət xüsusiyyətlərin təbliğini vacib saymışdır.

Otuz il tələbələrə elmin sirlərini öyrədən Mahmud Səfayi rolunun ifaçısı A.Gəraybəyli elmin həyat meyarını düzgün əxz etdiyini oyununda büruzə verir. O, oğlunun səhv əməllərinə də əsl ziyalı kimi səbirlə, təmkinlə münasibətini bildirir. Aktrisa F.Qədrinin Reyhan xanımı ərinin həyat amallarını layiqincə, hərarətlə və səmimi səpkidə təmsil edir.

Ziyalı ailəsində boya-başa çatan Vahid heç də mənəvi cəhətdən korlanmış, o illərdə əksər yaşıdlarının ala-bəzək geyimi ilə nəzərə çarpmağa səy göstərmir, ailədə qayğısız həyat sürməyə adət etdiyindən kənddən gəlib zəhmətkeş traktorçu qız Bənövşə kimilərə bir qədər laqeyd münasibət bəsləyir, boş vaxtlarını radioqəbulediciyə qulaq asmaqla keçirir. İlk səhnələrdə H.Turabovun Vahidi Bənövşəyə alçaq nəzərlə baxır, onun həyat baxışlarını xəfif gülüşlə qarşılayır. O, elmi məfhum və istilahlarla traktorçunu çaşdırmağa cəhd edir, qız isə özünü sadəlövhlüyə vuraraq, oğlanı səhv təsəvvürlərində daha dərinliyə getməyə vadar edir, bununla da kəndçi qızının şəhərli oğlanı doladığı aşkarlanır.

Tamaşa boyu Vahidin hər bir fikri ilə razılaşan Bənövşəni «Hamlet tələsi» səhnəsində işvəkar həkim qız simasında görürük. Hər iki halda aktrisa H.Qurbanova yaradıcılıq palitrasına uyğun tərzdə olan hərəkət manerasının plastikliyi, səs tembrini idarə etməsi sayəsində çətin vəzifənin öhdəsindən ustalıqla gəlirdi.

Tamaşada əsil tənqidi gülüş doğuran surətlər Şəkərlinski və onun əlaltısı Alışovdur. Şəkərlinski vaxtilə professor Səfaiyə böhtan atmaqla onu həbsə aldırmışdı. Kərtənkələ kimi həm quruda, həm də suda yaşamağa öyrəşən Şəkərlinski hal-hazırdakı situasiyaya görə indi yaltaqlıq, pay-savaşla professorun qılığına girməyə çalışır, lakin niyyətinə nail olmur. Üstəlik xalq teatrının fəalları «Hamlet tələsi» tamaşasında onun alçaq əməllərini gülüş hədəfinə çevirirlər. Aktyor İ.Osmanlı bu yaramaz adamın iyrənc hərəkətlərinin ifşasını, hamıya yaltaqlanması, baxışı ilə ətrafdakıların hər bir hərəkətlərini kinayəli baxışı ilə süzməsi ilə obrazın iç simasını açmağa nail olurdu. Şəkərlinski xarakterinin tamamilə açıqlanmasında arvadı Göyərçinin (L.Bədirbəyli) taleyinə biganəliyi, bəd ayaqda çirkin hərəkətlərinə tərəfdar olan Alışovu (artist Ə.Ağayev) da pis vəziyyətdə qoyması onun qorxulu adam olduğunu sübuta yetirirdi.

Quruluşun baxımlı alınmasında aktyorlardan A.Rzayevin (Allan), H.Məlikovanın (Ayxan), B.Əsgərovun (Rəşid), C.Hacıyevanın (Nisa xala) rolları üzərindəki səyləri nəzərə çarpırdı.

İnqilab imzalı müəllifin məqaləsində pyesin 14 ildən sonrakı quruluşunda (rejissor Ə.Quliyev, rəssam S.Haqverdiyeva, bəstəkar S.İbrahimova) əvvəlkindən

əsaslı fərq olmadığı göstərilir. Yalnız yazının sonunda rəssam işinin reallıqla uyuşmayan tərtibatı; rejissorun pyes üzərində apardığı əməliyyatların hamısının heç də işin ümumi xeyrinə olmadığı qeyd olunur.

Xuraman Novruzovanın məqaləsində isə pyesin ikinci səhnə yozumuna iddialı, müəyyən qədər qərəzli münasibət duyulur. Müəllifin fikrincə, yeni quruluşda heç bir yaradıcı əmək müşahidə olunmadığı üçün müsbət qəhrəman probleminə bu cür qayıtmağa ehtiyac yox idi; baş qəhrəman Vahidə «tövbələtmə dərsi»nin verilməsi bu günkü bənövşələr üçün səciyyəvi deyil; aktrisa V.Fətullayeva Bənövşənin xarakterini dəyişə bilməmişdi; aktyor F.Poladovun Vahidinin Bənövşə ilə «oyunu» bu günlə müqayisədə sadəlövh görünür; Vahidin kəndçi qızına ikrah doğuran hərəkətləri müasir xarakterə köhnə münasibətdir; Şəkərlinskinin geyim və zahiri görkəmi bir vaxt mənfi tiplərin təsviri üçün istifadə olunurdu, indiki bu ştampın təkrarının bərpası yersizdir; əgər ilk quruluşun «teatrda teatr» üsulunda əsas vurğu Bənövşə və Vahid xəttinə yönəlmişsə, indi bu «tələ» Şəkərlinski və Alışovun tənqidinə istiqamətlənib; quruluşun musiqisi cərəyan edən hadisələrin leytmotivinə çevrilmir. (*№ 31*., 10)

İstifadə olunan ədəbiyyat

[1]C.Cəfərov. Rejissor sənətkarlığı. B., 1969, səh. 112, (rus dilində).
[1] Azərbaycan teatr antologiyası, 2-ci cild, B., 2013, səh. 59.
[1] S.Dağlı. «Ölməz sənətkarın son nəğməsi». «Kommunist» qəzeti, 1960, 31 mart, № 76.
[1] Əli Ağamirov. «Kirovabad teatrının tamaşaları haqqında». «Kommunist» qəzeti, 1960, 17 dekabr, № 216.
[1] Alı Ağamirov. «Əliqulu evlənir». Kommunist, qəzeti, 1961, 3 iyun, № 129.
[1] C.Cəfərov. «Həmyerlilər», «Ədəbiyyat və incəsənət» qəzeti, 1961-ci il, 14 fevral, № 5.
[1] B.Adil. «Əliqulu-Gəraybəyli», «Bakı» qəzeti, 1961, 27 noyabr, № 279.
[1] Cabir Səfərov. «Canlı xarakterlər və kölgələr». «Ədəbiyyat və incəsənət» qəzeti, 1962, 10 fevral, № 6.
[1] M.Arif. «Kəndçi qızı». «Kommunist» qəzeti, 1963, 16 yanvar, № 13.
[1] İnqilab. «Kəndçi qızı»nın ikinci həyatı. «Bakı» qəzeti, 1976, 17 iyun, № 142.
[1] Xuraman Novruzova. Bənövşə «təzələnmək» istəyir. «Ədəbiyyat və incəsənət» qəzeti, 1976, 31 iyul, № 31.

ИЛЬХАМ ГАЗИЗАДЕ

ВОПЛОЩЕНИЕ КОМЕДИЙ В АЗЕРБАЙДЖАНСКОЙ ДРАМЕ, СОЗДАННЫХ В ПЕРВОЙ ПОЛОВИНЕ XX ВЕКА

РЕЗЮМЕ

«Теория бесконфликтности», возникшая во второй половине 40-х годов XX века, сове первое влияние оказала на театры, которые итак приходили в упадок с точки зрения искусства. В репертуаре увеличилось количество слабых пьес. Появление на сцене низкоуровневых произведений было связано, в первую очередь, с напряжением социально-политической обстановки в стране. После войны болезнь культа личности снова на новом течении охватила все сферы жизни. В такой ужасной ситуации невозможно было отразить реальность такой, какая она есть. Большинство отважных художников были сметены реакцией 37-го года. Ужась тех лет напугали тех, кто более или менее умел писать. Конечно, они предпочитали молчать, нежели льстить или лгать.

В период кризиса жанра современной комедии 30-х годов театры старались проводить как можно больше творческих операций над поставленными пьесами. К сожалению, работа коллективов на всегда заканчивалась желаемым. Причиной этому была в том, что драматург не достаточно затрагивал актуальных вопросов дня вопросами, которые решались в материале.

Ключевые слова: драматургия, жанр комедии, режиссер, Творческий коллектив, спектакль.

ILHAM QAZIZADEH

THE EMBODIMENT OF COMEDIES IN AZERBAIJANI DRAMA IN THE FIRST HALF OF THE TWENTIETH CENTURY

SUMMARY

The “conflict-free theory” that emerged in the second half of the 1940s had its first impact on theaters that were already lagging behind in terms of art. The number of weak plays in the repertoire has increased. The emergence of low-level works on the stage was primarily due to the tense socio-political environment in the country. After the war, the disease of cult of personality again attacked all spheres of life in a new stream. In such terrible situation, it was impossible to reflect the reality as it is. Most of the brave artists were swept away by the reaction of 1937. The horrors of those years frightened those who could more or less write. Of course, they preferred to remain silent rather than flatter or lie.

During the crisis of the modern comedy genre in the 1930s, theaters tried to carryout creative operations on plays staged as much as possible. Unfortunately, the work of the teams did not always end in the desired result. The reason for this was that the issues addressed in the playwright's material did not touch on the important issues of the day.

Key words: dramaturgy, comedy genre, producer, Creative staff, performance.

Redaksiyaya daxil olma tarixi: 24.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarov**
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNAY VƏLİBƏYLİ
Qərbi Kaspi Universiteti
Istiqlaliyyat 31
gunayvalibayli@gmail.com

ARCHITIPICAL AND PSYCHOANALYTICAL REVIEW OF "DISGRACE" BY J.M. COETZEE

SUMMARY

The problem of racial discrimination and the analysis of the characters according to the archetypes and psychoanalytics is very actual in Modern literature. In this point, J.M. Coetzee is really important writer in Postcolonial literature, who described the daily life and culture of Post-Apartheid South Africa in his novel "Disgrace". This novel takes special place in Postcolonial word literature because of its deep meaning and description of the people's suffering and depression related to colonialism and racial discrimination. But this novel is not only famous for its topic, but also famous for its style. The writer used majority of postmodernist literary devices, such as "multilingualism, intertextuality, boomerang effect, collage and mixture of two opposite time periods and so on, in this novel. The characters of the novel sometimes depend on their own faults, sometimes the traces of the history. Firstly, the characters seem simple and usual, but if the reader is able to analyze them according to the archetypical theory by C.Jung and psychoanalytical theory by S.Freud, then everything started to seem controversial and complicated. Of course, such kind of writing requires a great talent.

This article aims to analyze the issue of racial complexity and the dilemma afflicting a white writer writing in post-apartheid South Africa. Years of colonial and apartheid history in South Africa have exerted an immense strain on the writers and are the acid test of white liberal sensibility in South Africa. Realism has been preferentially selected by the writers to reunite fiction and history. The dilemma before the white writer is whether he can represent the reality through the use of metafictional techniques, metonymy and colonial violence.

"Disgrace" is unique stylistically because even though it is written by a third person narrator, David Lurie's point of view dominates the story. 'Free indirect discourse' and 'third person limited' are terms that describe this mode of writing. Coetzee decision to use this technique gives his audience access to not only Lurie's spoken words but also his unspoken thoughts. The reader becomes intimately familiar with Lurie's desires, passions, and discourse.

Keywords: architypes of anima and shadow, racial discrimination, active and passive usurpation, postmodernism, karma, psychoanalytical explanation

Racial domination and oppression in South Africa began with the advent of the colonialism during the mid-seventeenth century. Colonization was an important factor that paved the way to apartheid. The word apartheid means "separateness" and it was a policy of racial segregation. Apartheid as a practice in South Africa was a discourse which segregated the blacks from the whites. The whites were considered as superior to the blacks on the basis of race and color. The discourse of apartheid led to the empowerment of the whites and disempowerment of the blacks. The blacks were excluded from the areas classified for the whites. The blacks were discriminated against by the whites and were denied all the privileges.

Post Apartheid writers such as Andre Brink, Breyten Breytenbach, Achmat Dangor, Damon Galgut, J.M. Coetzee and Nadine Gordimer have focused on current issues of violence, crime, race and power in South Africa. These writers have been influential in bringing world consideration to the legacy of colonialism and the unfair apartheid in their native country. The end of apartheid, ushered in a new intermediary stage for South African writers. Writers who were once at ease with addressing polemic themes in their works are now challenged to forsee a new future for South African culture. Such writers are also confronted with the intricate undertaking of neither ignoring nor dwelling in South Africa's racially charged history.

Among the major South African writers J. M. Coetzee takes a special place in postcolonial literature with writing directly about life under Post Apartheid. His country's disgrace has always figured in his work. In this article, the theme of racial discrimination and other related contents will be analyzed and discussed according to the novel "Disgrace" written by J. M. Coetzee. "Disgrace" offers a particular point of view that is historically and literarily distinct. Because the novel wrestles deeply with questions of history and justice, a basic familiarity with South African history will open up the story for readers. It is set shortly after the end of apartheid, the period of legally enforced segregation that endured in South Africa from 1948 to 1994. Most of the novel's actions take place in the South African city of Cape Town and in the rural Eastern Cape near Grahams town.

Racial diversity, conflict, oppression, and stratification have been features of South African society since the first days of European colonialism in the early 17th century. Because of its strategic location along the sea route from Europe to Asia, the lands of the Cape's indigenous population were occupied by settlers and merchants from the Netherlands and other European countries as well as by slaves from other parts of Africa and Asia.

"Disgrace" may be classified as postmodern, postcolonial, post-apartheid literature by a white author. This complex classification speaks to the novel's techniques, subject matter, and perspective. It's also worth noting that before *Disgrace*, Coetzee's work was largely allegorical, and this novel represents his first full-fledged attempt at realism. Nevertheless, there is still a symbol system in the

novel that has been interpreted as an allegory for the Truth and Reconciliation Committee, which was a committee established to investigate human rights violations and violent crimes committed during apartheid.

Postcolonial fiction examines colonialism's continuing effects on a society after the end of formal colonial rule. The genre takes for granted that colonialism's effects continue to direct and shape individuals and society. Postcolonial authors are usually concerned with putting forth the long-suppressed point of view of the people who bore the oppression of colonialism. *Disgrace* is distinct in this aspect. J.M. Coetzee is white and, therefore, of the race of the colonizers rather than the colonized. The protagonist and the most developed characters in *Disgrace* are also white. The novel examines from a white perspective the shifts in the postcolonial (and postapartheid) social order where white dominance is no longer an assumption. Coetzee depicts his white characters, such as David Lurie, Lucy Lurie, and Bev Shaw, as they adjust to this shift. The novel reflects the struggle of postcolonial whites to accept a new social position that may be characterized by being indebted, useless, or even dependent on others.

Disgrace is set in post-apartheid South Africa. Even though apartheid has legally ended, its legacy still haunts the country. Robbery and vandalism frequent the countryside. Rape is a common occurrence. The outrage from a history of oppression and violence cannot be suppressed. J.M. Coetzee brings racial tensions to the forefront of the novel when David Lurie arrives in Salem. His daughter, Lucy, is one of the few white farmers remaining in the region. In the back of her property lives an African named Petrus who helps around the farm tending to the garden and helping with the farm. He is in a subservient position. The racial dynamics become more strained when Petrus is implicated in indirectly facilitating a robbery on her land. He disappears when three men attack and comes back with building supplies to renovate his new house. The division becomes clear when Lurie confronts Petrus. The end of the novel however does not allow for such a clear distinction when Lucy becomes pregnant with one of the robbers' children and thus becomes a part of Petrus' family, though unwillingly.

The novel focuses on the issue of racial complexity and dilemma of the white writer writing in post apartheid South Africa. In “Disgrace”, Coetzee involves us in the struggle of a discredited university professor David Lurie – a White South African to secure his own and his daughter’s honor in the new situation that has arisen in South Africa after the fall down of white supremacy. Here Coetzee has been concerned with a noteworthy issue of the reversal of power between the whites and the blacks in post apartheid South Africa. David Lurie is the main character in the novel and he is forced to teach communications at Cape Town Technical University. After seduction of one of his non-white student, Melanie, he has to resign from his job. The girl lodges a complaint against him and he has to speak to a committee of

inquiry who wants him to repent publically. He refuses to apologize in public and decides to leave Cape Town to see his daughter Lucy in the countryside.(6-180)

To be able to open the inner sides of the major characters, especially David Lurie, firstly the reader should have psychological and psychoanalytical knowledge about the human personality. The protagonist of the novel is David Lurie who is a stubborn and proud man. He rapes his student, Melanie Isaacs. But the interesting and controversial side of this passive extortion is that, David Lurie doesn't want to confess it directly. Actually the reader is not able to see this rape as an active extortion, because David Lurie doesn't beat Melanie, or Melanie doesn't even shout at all. David Lurie forces Melanie to share her bed with him not with an active way, not with thumping or covering her mouth to prevent her shouting and asking help for someone. Melonie's situation psychologically the same as Lusy's, but physically quite different. Firstly, in Chapter two we see that David Lurie started to annoy and disturb Melonie with his harmful desire:

'You're very lovely,' he says. 'I'm going to invite you to do something reckless.' He touches her again. 'Stay. Spend the night with me.' Across the rim of the cup she regards him steadily. 'Why?' 'Because you ought to."Why ought I to?' 'Why? Because a woman's beauty does not belong to her alone. It is part of the bounty she brings into the world. She has a duty to share it.' 'And what if I already share it?' In her voice there is a hint of breathlessness. Exciting, always, to be courted: exciting, pleasurable. 'Then you should share it more widely.'Smooth words, as old as seduction itself. Yet at this moment he believes in them. She does not own herself. Beauty does not own itself. 'From fairest creatures we desire increase,' he says, 'that thereby beauty's rose might never die.' (1:16)

From this part of the novel we see the first attempt of professor to reach his own satisfaction. But unfortunately he pretends that it is a normal relationship between a very young student and an old professor. At the beginning of the Chapter Three, the writer uses hermeneutics and literary technique of postmodernism-the game with the reader and changes the meaning of the name "Melonie": "Melanie - melody: a meretricious rhyme. Not a good name for her. Shift the accent. Meláni: the dark one." (1:17). Here the word collocation of "dark one" can be understood in two aspects: Firstly, it should be considered in the meaning of racial discrimination (because Melanie was dark skinned), secondly, it was a precursor of dark days for David Lurie like leaving his job and witnessing his daughter's rape.

Chapter three is very important part of the novel, because majority of the conflicts are in this chapter. At the beginning of the chapter we see the term "usurpation" is analyzed by professor: 'The same word usurp recurs a few lines later. Usurpation is one of the deeper themes of the Alps sequence. The great archetypes of the mind, pure ideas, find themselves usurped by mere sense-images". (1-20) Both the students of David Lurie and the readers of the novel start to analyze and understand the meaning of this term. This word also predicts about Melanie's and

Lucy's fates. And this word is analyzed by David Lurie himself. He doesn't accept his morally and psychologically usurpation of Melanie, but he will obliged to accept his daughter's usurpation by African guys. In this point, we see the racial discrimination clearly.

After the passive rape David Lurie realized his fault: "He obeys, but then, when he reaches his car, is overtaken with such dejection, such dullness, that he sits slumped at the wheel unable to move. A mistake, a huge mistake" (1-23). Finally, he was enlightened that, his feelings and deeds toward Melanie is nothing except the usurpation.

According to Carl Jung's archetypical theory, we can analyze "anima and animus" through Lurie's personality and psychology. The anima and animus are described in Carl Jung's school of analytical psychology as part of his theory of the collective unconscious. Jung described the animus as the unconscious masculine side of a woman, and the anima as the unconscious feminine side of a man, each transcending the personal psyche. Jung's theory states that the anima and animus are the two primary anthropomorphic archetypes of the unconscious mind, as opposed to the theriomorphic and inferior function of the shadow archetypes. He believed they are the abstract symbol sets that formulate the archetype of the Self.

Coetzee's "Disgrace" we see David Lurie's ups and downs about his feelings to Melanie and at the end of Chapter three we are able to discover his secret sides of psychology. After the passive rape, David started to feel regret. Until that point he couldn't think logically and only wanted to get what his body wants. Because Melanie was his anima of his feelings. This anima called him and forced him to make a huge mistake and after the deed he started to think logically and analyze the things that happened. Afterwards he awakened and because of this fault the archetype "shadow" started to work. David tries to hide his fault in the shadow. ''We want to give you an opportunity to state your position.' 'I have stated my position. I am guilty.' 'Guilty of what?"Of all that I am charged with.'
'You are taking us in circles, Professor Lurie.' 'Of everything Ms Isaacs avers, and of keeping false records.'' From these statements we clearly see that, Prof.Lurie well-aware of his deeds and realizes that it was a huge fault. He confesses that he made a mistake, but he doesn't utter it in an expected way. All the members of the Committee are curious about hearing the word "rape", even if David Lurie confesses that he has raped the girl, the Committee can forgive him and keep him in his own position. But David Lurie sharply hides his fault and doesn't call it a rape, he calls it only a guilt.

This is the ultimate transgression, following which he is invited to explain his actions to a university disciplinary committee. The panel is not primarily out to punish him but to extract a confession and expression of remorse from him. Given his recalcitrance, there is no option but to dismiss him from his job.

His failure to express his remorse reflects a rigidity which is against the spirit of the times. This needs to be understood against the background of the university, which is going through ationalization; hence, people in the community are required to make adjustments. Because the Classics and Modern Languages departments were closed down as part of the rationalization going on in the university, Lurie now teaches Communications Skills. (2-5)

Coetzee is really talented writer about using other texts in his novels to make a relationship between his own characters and other books in the world literature. In chapter four, David Lurie explains Byron and he talks about Lucifer: “Lucifer, the dark angel, does not need to breathe. All of a sudden he finds himself cast out into this strange "breathing world" of ours.A being who chooses his own path, who lives dangerously, even creating danger for himself. 'Exactly. Good or bad, he just does it. He doesn't act on principle but on impulse, and the source of his impulses is dark to him. "His madness was not of the head, but heart."(1-29) From these statements we actually see David Lurie’s soul through Lucifer and it seems that he confesses evil sides his own personality too with explaining Lucifer’s character. Because his attitude and deeds toward Melanie was like an evil’s attitude, he just did it without understanding it was good or bad. It was an impulse, an energy and the reaction of his passion.

David’s days at his daughter’s house in Cape opens new dark pages in his life. Lurie’s empathy for dogs falls short of the one world but does involve a shift in his attitude toward the soul, which is the anima’s original meaning. In a conversation about “a higher life” with her father, Lucy states at the end of Chapter Eight: “This is the only life there is. Which we share with animals. That’s the example I try to follow.” Lurie responds: “We are of a different order of creation from animals. Not higher, necessarily, just different”(1-63). Lucy’s atheism results in her perception that sharing life with animals has moral implications. The difference between humans and animals, for Lucie, perhaps stays upon academic values like civilization, language, reason, education, and scholarly achievements. The statement about the height of animals is probably a rhetorical flourish that signals his belief in the opposite, but a strand of a references to the soul illuminates his growing empathy and suggests that his disgrace is a portal to personal growth.

It is in the very absurdity of this book that the force of Coetzee’s articulation of disgrace is most profoundly registered. Animals may mean nothing, may be nothing in the largest world of the novel, but it is precisely as a consequence of their lack of power that they come to assume an exemplary, transformative status. Put at its starkest, the novel’s articulation of disgrace cannot succeed without animals. Coetzee’s elaboration of the word, concept, gift of disgrace achieves its undeniably impressive deepening and broadening only when the condition comes to articulate not just David’s individual fall, or Lucy’s rape and subsequent silence, or the state of disgrace that postapartheid South Africa, but when it comes to embrace the being of

animals themselves: in other words, when the notion of disgrace has expanded to include all animals, nonhuman as well as human. All animals, alive and dead. (6)

At the heart of J.M. Coetzee's *Disgrace* is a gang rape, which is followed by the immolation of the victim's father. As it happens, the burning-alive of David Lurie is bungled; perhaps
fittingly, given the succession of failures in his life, he fails as a martyr. The rape of his daughter Lucy is managed more efficiently, however, and is the starting point for what follows. Actually the reader doesn't know the reason why Lucy is raped; no reasons are given in the text, and the motives of the men involved can only be guessed at. 'I think they are rapists first and foremost', Lucy later reflects—by then aware that they were also guilty of thefts, of killing the dogs she has been boarding, and of the attack on her father. Anything else, she suggests, 'is just incidental. A side-line. I think they *do* rape …'(4)

But it is considered the existence of karma is true. Although the writer doesn't show it clearly that it is because of the boomerang effect, but we can easily understand that even David Lurie himself understood the reason why his daughter raped. The rape happens off-stage, and Lucy never answers questions about her experience directly. David's first response to the combined theft, gang rape, attempted murder, and dog massacre is to see it as an exhaustion of the thesaurus of synonyms; its enormity swallows words, it is an instance of the sublime of terror and so on. Music, it would seem, is not the only way of moving beyond words. Lucy's ordeal of rape comes to us only through what David sees of its effects; for him, it is a rite of passage that ages him prematurely in a country overwhelmingly of the young: he becomes as a child to his child. The revolutions of history have their parallel in this revolution of the generations. Whether as father or intellectual, he has no role in relation to her – he cannot protect her, cannot be her guide; and his appeal to the wider context of the deed meets only with silence from her side. Next to her way of dealing with the event, his suggestions ring with the thinness of abstractions. He applies to her the words – disgrace, shame – that have been applied to his own condition, and tries to use them to explain her refusal to report the crime.

The rape of Lucy by three black men is clearly related to revelation of one's power. In the novel it seems that the crucial objective of the rape is not related to addressing a physical desire only but it is conducted in order to manifest power as well. Lucy decides to give birth to the child she is carrying as a result of rape and Lucy's child can be represented as the symbolic heir of post apartheid South Africa. The novel draws a parallel between Melanie's rape by Lurie, and Lucy's gang rape by three black men. What Coetzee depicts is not the concept of 'eye for eye' which the blacks avenged, for their humiliations suffered in the past but develops the trope of 'rape' to depict the manifestation of power.

He remembers his deeds and at the end of the novel after his daughter's rape he went to meet Melonie's father and went to their house to apologize because of his

deeds. He thought that if he apologizes, everything will be changed for Lucy's life. But it was too late, because those rapes would be the dark pages for both Melanie and Lucy. Her lack of interest in revenge is fully understandable. Given that she refuses to tell the police what happened to her (she reports the theft and the attack on her father, but not the rape) or otherwise to tell of the assault, some other justification must be offered for seeing her as one who bears witness.

"Disgrace", in its portrayal of South African society, is not very different from Coetzee's earlier fictions. Indeed, the novel appears to suggest that posta-partheid society, like apartheid society, is defined by an absence of ethical action, and that recent political changes have not affected the base of sociality that is, the way in which the individual conceives of his/her relations to his/her fellow human beings. It is probable that this aspect of *Disgrace* will elicit much negative response from readers and that the standard charge of political conservatism will be levelled at Coetzee.(5)

Coetzee represents metafictional character and especially the idea of authorship through a metaphor which invokes the idea of "fatherhood" over a text. Some critics suggest that the fight over authorship is typical of postcolonial novels and that this concept is typically deconstructive. To write the novel, J. M. Coetzee resorts to multilingualism as a poetic technique. Coetzee integrates so many languages in Disgrace that it could be hypothesized that multilingualism prevails as an artistic phenomenon, which may bring the hermeneutist reader to ask the question and make the reader awaken. The meaning of the notion of multilingualism, which is relevant to the analysis, is both denotative and connotative. If the first sense refers to the use of many different kinds of languages in Disgrace, the second one is related to the metaphorical signification perceived through the ways in which the author reveals his cultural competence by the creation of a polyphonic enunciation in the narratives. Multilingualism is used as a writing device in Disgrace. Postmodern concepts such as "hybridity", "fragmentation" and "polyphony" are also used in this novel.

There is also postmodernist time illusion in this novel. There is an interesting description of two time periods in Chapter Two: "Sitting side by side they watch. Two dancers on a bare stage move through their steps. Recorded by a stroboscopic camera, their images, ghosts of their movements, fan out behind them like wingbeats. It is a film he first saw a quarter of a century ago but is still captivated by: the instant of the present and the past of that instant, evanescent, caught in the same space."(1-15) From this paragraph the reader sees that Coetzee describes two opposite time periods together with the help of technological device and literal language. The writer mentions a lot of well-known writers and major characters of some masterpieces, like, Lucifer, Faust, Madame Bavari, to make the reader stay in tuned and think analytically. Although this novel is full of postcolonial characteristics, but the readers shouldn't forget about the period of the writing date. Because of

postmodernity, the writer requires an intellectual reader to understand all allusions and metaphors described in this novel.

Ədəbiyyat

1. J.M. Coetzee's "Disgrace" pdf
2. J.M. Coetzee's *Disgrace* as an Allegory of the Pain, Frustration, and Disorder of Post-Apartheid South Africa
3. Graham St. John Stott "Rape and Silence in J.M. Coetzee's Disgrace", Philosophical Papers, 2009
4. Mike Marais "The possibility of ethical action: JM Coetzee's Disgrace**."** 2008
5. Attwell, David. "Coetzee and Post-Apartheid South Africa." Journal of Southern African Studies 27.04.2001
6. http://www.jstor.org/stable/20058782

GÜNAY VƏLİBƏYLİ

J.M.KUTZENİN "RÜSVAYÇILIQ" ƏSƏRİNİN ARXETİPİK VƏ PSİXOANALİTİK TƏDQİQİ

XÜLASƏ

İrqi ayrıseçkilik problemi və əsərin obrazlarının psixoanalitika və arxetiplərə əsasən təhlili müasir ədəbiyyatda çox aktualdır. Bu məqamda irqi müstəmləkəçilik dövründən sonrakı Cənubi Afrikanın mədəniyyət və gündəlik həyatını "Rüsvayçılıq" əsərində geniş şəkildə təsvir edən J.M.Kutze Postkolonial ədəbiyyatda çox mühüm bir yer tutur. Bu roman irqi ayrıseçkilikdən və müstəmləkəçilikdən əziyyət çəkən insanların üzüntülərini və depressiyalarını təsviri və kəsb etdiyi dərin mənalarına görə Postkolonial ədəbiyyatda xüsusi seçilir. Amma bu roman yalnız təsvir etdiyi mövzusuna görə deyil, həmçinin üslubuna görə də məşhurdur. Yazıçı postmodernizmə aid olan bədii teknikaların əksəriyyətindən- çoxdillilik, intertekstuallıq, bumeranq effekti, kollaj, iki bir-birinə zidd olan zaman kəsiyinin eyni anda təsvir edilməsi və s- bu romanda istifadə etmişdir. Romandakı obrazlar bəzən öz günahlarından, bəzən də tarixin izlərindən asılı olaraq əzab çəkirlər. İlk öncə romanın obrazları oxucuya adi və sadə görünür, amma əgər oxucu bu obrazları K.Yunqun "arxetiplər nəzəriyyəsi"nə və Z.Froydun "psixoanalizm nəzəriyyəsi"nə müvafiq olaraq təhlil edərsə, bu zaman bütün sadə görünən xarakterlər daha mürəkkəb bir şəkil alacaqdır. Əlbəttə ki, bu şəkildə yazmaq özü böyük bir istedad tələb edir.

Bu məqalə ağdərili bir yazıçının əks etdirdiyi irqi qarışıqlıq probleminin və dilemmanın təhlilinə yönəlib. Cənubi Afrikada illərlə hökm sürən müstəmləkə və

irqçilik tarixi yazıçıların üzərində böyük bir təzyiq yaratmışdır. Realizm, yazıçı tərəfindən təxəyyül və tarixi yenidən birləşdirmək üçün məqsədli olaraq seçilmişdir. Ağdərili yazıçının düşüncəsində yaranan dilemmanın səbəbi isə yazıçının bütün bu gerçəklikləri bədii vasitələrlə, metonimiya ilə müstəmləkəçiliyin şiddətini oxucuya ötürə bilmə gücünə malik olub, olmayacağı haqqında düşünməsidir.

"Rüsvayçılıq" əsərinin unikallığı həm də ondan ibarətdir ki, əsəri təhkiyə edən üçüncü şəxs olsa da, biz hadisələri David Lurinin nəzər nöqtəsindən görürük. "Sərbəst dolayı diskurs" və "məhdud üçüncü şəxs" bu tip yazı növünü təsvir edən terminlərdir. Yazıçının bu texnikadan istifadə etməkdə məqsədi oxucularını yalnız Lurinin dediyi sözlərdən yox, həmçinin Kutzenin öz düncələrindən də xəbərdar etmək istəməsidir. Bunun nəticəsində oxucu Lurinin arzuları, istəkləri və düşüncələri ilə tanış olur.

Açar sözlər: anima və kölgə arxetipi, irqi ayrıseçkilik, aktiv və passiv qəsb, postmodernizm, karma, psixoanalitik izah

ГЮНАЙ ВАЛИБАЙЛИ

АРХИТИПИЧЕСКИЙ И ПСИХОАНАЛИТИЧЕСКИЙ ОБЗОР «DISGRACE» ДЖ. М. КУТЗИ

Резюме

Проблема расовой дискриминации и анализа персонажей по архетипам и психоаналитике очень актуальна в современной литературе. В этом отношении Дж. М. Кутзи - действительно важный писатель в постколониальной литературе, описавший повседневную жизнь и культуру Южной Африки после апартеида в своем романе «Позор». Этот роман занимает особое место в постколониальной словесной литературе из-за его глубокого смысла и описания страданий и депрессии людей, связанных с колониализмом и расовой дискриминацией. Но этот роман известен не только своей тематикой, но и своим стилем. В этом романе писатель использовал большинство постмодернистских литературных приемов, таких как многоязычие, интертекстуальность, эффект бумеранга, коллаж и смешение двух противоположных периодов времени и так далее. Герои романа иногда зависят от собственных недостатков, иногда от следа истории. Во-первых, персонажи кажутся простыми и обычными, но если читатель сможет проанализировать их в соответствии с архетипической теорией К. Юнга и психоаналитической теорией С. Фрейда, то все кажется спорным и сложным. Конечно, такой стиль письма требует большого таланта.

Эта статья направлена на анализ проблемы расовой принадлежности и дилеммы, с которой сталкивается «белый» писатель в Южной Африке после апартеида. Годы колониальной истории и апартеида в Южной Африке вызвали огромное напряжение у писателей и стали серьезным испытанием для либеральной чувствительности «белых» в Южной Африке. Писатели предпочли реализм для воссоединения художественной литературы и истории. Дилемма, стоящая перед «белым» писателем, заключается в том, может ли он изобразить реальность с помощью мета-фиктивных техник, метонимии и колониального насилия.

«Позор» уникален стилистически, потому что, несмотря на то, что он написан рассказчиком от третьего лица, точка зрения Дэвида Лурье доминирует в истории. «Свободный косвенный дискурс» и «ограниченное третье лицо» - это термины, которые описывают этот способ написания. Решение Кутзи использовать эту технику дает его аудитории доступ не только к словам Лурье, но и к его невысказанным мыслям. Читатель близко знакомится с желаниями, страстями и дискурсом Лурье.

Ключевые слова: архетипы анимы и тени, расовая дискриминация, активная и пассивная узурпация, постмодернизм, карма, психоаналитическое объяснение.

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **filologiya elmləri üzrə fəlsəfəd doktoru Ramidə Mirzəfərova**
tərəfindən çapa tövsiyə olunmuşdur

NİGAR YUNUS
Azərbaycan Rəssamlar İttifaqının üzvü
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
Bakı 3 saylı Uşaq İncəsənət Məktəbinin müəllimi
e-mail: nigar_yunus@mail.ru

QACARLAR SÜLALƏSININ 4-CÜ ŞAHI RƏSSAM, ZƏRGƏR, ŞAIR VƏ FOTOQRAF KIMI

Xülasə

Məzmun etibarilə məqalə Qacar dövlətinin 4-cü şahı Nəsirəddin şahın yaradıcılığından, onun əsrlərlə gizli qalan bədii istedadının üzə çıxarılmasından, şahın xüsusi diqqət ayırdığı rəngkarlıq və dekorativ tətbiqi sənət nümunələrindən ibarətdir. Məqalənin əvvəlində şahın həyatından qısaca bəhs edilir. Tarixi hökmdar olması ilə yanaşı o, həm də rəssam, zərgər, şair və "Qacarlar"ın ilk fotoqrafı olmuşdur. Məhz bu prizmadan araşdırılan yeniliklər, bizim zamana kimi təsviri incəsənət aləminə məlum olmayan, yaxud yarımçıq məlum olan faktlar üzə çıxarılmışdır. Buna sübut və nümunə olaraq rəssamlıq və zərgərlik əsərləri göstərilmiş, ətraflı təhlil verilmişdir. Həmçinin məqalədə yer alan əsərlərin bir-birilə müqayisəsi göstərilib. Nəsirəddin şah Qacarın poeziyaya olan marağı qısa olaraq şərh edilmişdir. Həmçinin öz müəllifi olduğu ağ-qara fotoşəkillər məqalənin reproduksiya qismində yer alır. Beləliklə, bəşəriyyətin hökmdar kimi tanıdığı Qacar şahının görünməyən (bilinməyən) bədii tərəfləri və xobbisi bu məqalədə analiz edilərək dəyərləndirilmişdir. Hər birinə ayrı-ayrılıqda yanaşılmış və təsvir edilmişdir.

Açar sözlər: Qacarlar sülaləsi. 4-cü şah. Rəssam, zərgər, şair, fotoqraf. Dekorativ tətbiqi sənət. Nəsirəddin şah Qacar. Şeirlər. Anes əl-Doleh. Rəngkarlıq əsəri. Naməlum rəssam. Fotoşəkil. Zərgərlik nümunələri. Gülüstan sarayı. XIX əsr. Qızıl eqret. Günəşin şüaları. Brilliant.

Qacar dövləti özünün maraqlı və təkrarolunmaz tarixi ilə yadda qalmışdır. Sözü gedən sülalə 1796-1925-ci illər ərzində İran ərazisində hökmranlıq etmiş Azərbaycan-türk sülaləsi idi. Bu dövləti müxtəlif dövrlərlə 7 şah idarə etmişdir: Ağa Məhəmməd şah Qacar, Fətəli şah, Məhəmməd şah, Nəsirəddin şah, Müzəffərəddin şah, Məhəmmədəli şah və Sultan Əhməd şah Qacar. [9] Təsviri incəsənət tarixində bu görkəmli şəxsiyyətlərdən əsasən ikisinin – Fətəli şah və Nəsirəddin şahın adı daha çox maraq doğurur. Məlumdur ki, Fətəli şah Qacar öz hökmranlığı dövründə (1797-1834) rəssamlığa olduqca böyük maraq göstərmiş, öz saray rəssamlarına həmişə diqqət ayırmış, hətta rəngkarlığın (yağlı boyanın) sirlərini öyrənmələri üçün onları Avropaya ezam etmişdi. XIX əsr Qacar rəngkarlığında bu şahın mükəmməl portretləri sənət dünyasnda əvəzolunmazdır.

Bəhs olunacaq şəxsiyyət – Qacarlar sülaləsinin 4-cü hökmdarı Nəsirəddin şah Qacardır. Nəsirəddin mirzə Məhəmməd şah oğlu Qacar 1831-ci ildə Cənubi Azərbaycanın Təbriz şəhərində dünyaya gəlmişdir. Mükəmməl saray təhsili görmüş Nəsirəddin Mirzə atası Məhəmməd şah vəfat etdikdən sonra, 1848-ci ildə 17 yaşında taxta çıxır. [9] O, 48 illik hakimiyyəti ərzində möhtəşəm sənət əsərlərinin yaradılmasına səbəb olmuşdur. Nəsirəddin şah poeziya, rəssamlıq, zərgərlik və fotoqrafiya ilə çox maraqlanırdı. Müəllifi olduğu fotolar, rəngkarlıq və zərgərlik əsərləri Qacarlar tarixində ilklərə imza atmış faktlardır desək, yanılmarıq.

Nəsirəddin şahın yaratdığı rəngkarlıq əsərinə bariz nümunə - dövrümüzədək gizli qalan və naməlum adı ilə tanınan yağlı boya ilə işlənmiş əsərdir. Bu möhtəşəm tablonun müəllifi və adı tədqiqat araşdırmalarım nəticəsində aşkarlanmışdır. Tədqiqi araşdırmalardan məlum oldu ki, XIX əsrə aid edilən naməlum rəssama məxsus "Avropa zövqlü gənc qadın" [7] adlı rəngkarlıq tablosunda (texnika: yağlı boya) əslində Nəsirəddin şah Qacarın ən sevimli həyat yoldaşı Anis Əl-Doleh təsvir edilmişdir. [3] Rəngkarlıq əsəri Nəsirəddin şahın özü tərəfindən fırçaya alınmışdır, köməkçi vasitə kimi isə müəllifi özü olduğu fotoşəkil çıxış edir. Maraqlıdır ki, hər iki faktor, həm tablo, həm də fotonun müəllifi incəsənət tarixində bu vaxta qədər "naməlum" kimi qeyd olunub. [7] Lakin fotoşəkildəki qadının simasından onun şahın zövcəsi – Anis Al-Doleh (Fatimə sultan) olduğunu bilirik, həmçinin qadının fotoşəklinin sinəsi çılpaq vəziyyətdə çəkilməsindən fotonu çəkən müəllifin şübhəsiz ki, Nəsirəddin şah olduğu qənaətinə gəlirik. [4] Çünki İslam dininin şəriət qanunlarına görə, qadınların məhrəm yerlərini həyat yoldaşlarından başqası görə bilməzdi. Araşdırmalar zamanı sözü gedən fotonu Gülüstan sarayının Multimedia sənədləri mərkəzində gördüm. Həmin fotonun aşağı hissəsində qara qələmlə fars əlifbasında "Anes Al-Doleh" yazılmışdı. [6] Nəsirəddin şahın əsas qadını olan Anis Əl-Doleh əslən gürcü kökənli olsa da İranın Mazandaran əyalətində doğulmuşdu. Həmin sinəsi çılpaq vəziyyətdə çəkilən fotoda o, gənc yaşlarındadır. Qeyd edim ki, Gülüstan sarayının fotomərkəzində Anis Əl-Dolehin və digər zövcələrin çılpaq sinəli və açıq-saçıq fotolarından bir deyil, bir neçə ədəd mövcuddur. Onların media üzünə çıxarılmasına İranda icazə yoxdur.

Taxta çərçivəli əsər janr etibarilə bütöv fiqur (təntənəli) portretlərdən hesab edilir və ölçüsü 152x78 sm.-dir. [7-8] Tablo olduqca poetik tərzdə fırçaya alınmışdır. Nəzərə alsaq ki, Nəsirəddin şahın həm də şeirlər yazması bu rəngkarlıq əsərinə də təsirsiz ötüşməyib. Rəngkarlıq tablosunda təsvir olunan qadının kimliyini ortaya çıxarmağıma Nəsirəddin şah Qacarın özünün çəkdiyi ağ-qara effektli fotoşəkil səbəb oldu. Həmin fotoşəkil ilə bəhs etdiyim yağlı boya əsərində bədii oxşarlıqlar və uyğunluqlar mövcuddur. [3] Hərəmi Anes Əl-Doleh və ya Fatimə sultanın sinəsi çılpaq vəziyyətdə olan sözü gedən fotoşəkli hal-hazırda Tehranda, Gülüstan sarayının Multimedia Sənədləri Mərkəzinin arxivində qorunub saxlanılmaqdadır, lakin İslam dininin şəriət qanunlarına uyğun gəlmədiyinə görə orada həmin fotoşəklin mətbuatda dərc olunmasına icazə verilmir.

Ağ-qara rəngli fotoşəkildə qadının baş geyimi və ona bərkidilən sallanma bəzəklər diqqəti cəlb edir. Eləcə də boynundakı sinəbəndlər öz dekorativliyi ilə seçilir. Eyni detalları "naməlum rəssam"ın tablosunda da görürük. Hətta şahın həyat yoldaşının sinə bəzəklərinə diqqətlə nəzər yetirsək, orada tam mərkəzdə muncuqlardan asılan bir medalyonu görə bilərik, hansı ki, tablodakı qadının sinəsindəki bəzəkdə də girdə medalyon özünə yer alır. Və bu klon-medalyon təsvir edilən qadının qulaqlarında asılan sırqalar, başında saçına bərkidilən eqret broş və geyimindəki bir neçə xırda bəzəklərlə dəstdir. İkinci ən yüksək ehtimal verən detal isə, hansı ki, bizə bəlli edir ki, bu, həqiqətən də Nəsirəddin şahın ən sevimli xanımı Anis Əl-Dolehin əksidir və məhz sözü gedən həmin fotodan köçürülmüşdür – tablodakı qadının yalnız sinəsinin çılpaq göstərilməsi, hər iki sübutda sinəyə qədər uzanan sallanma bəzəklərin olması və muncuqların qulaq hissədən başlanıb üzün çənə boyu ətrafında dövrələnməsidir. Fotoya diqqətlə baxsaq, şahın qadınının arxasında arka görə bilərik. Eyni tipli arkaya tobloda təsvir edilən qadının arxa fonunda da təsadüf edilir. Fotodakı Anis Əl-Dolehin oturuş qaydası, baxışları, əllərinin qoyuluşu (sol əli sağ əlinin üstə), əllərin həm fotoda, həm də tabloda zərif görünməsi, üz cizgiləri (çatma qaşları, gözləri, burnu və dodağı), sallanma baş-boyun bəzəkləri, geniş valanlı ətək forması eynilə rəngkarlıq əsərində dəqiqbədəqiq uyğunluq və vəhdət təşkil edir. Sadəcə bir fərqli nüans nəzərimizdən qaçmayır – rəngkarlıq tablosundakı qadının fotodakından fərqli olaraq ətəyinin uzun verilməsi və dayanmış (ayaqüstə) təsvir edilməsi. Fotoda şahın həyat yoldaşı qısa, balet ətəklərini xatırladan çox geniş şort-ətək geyinmişdir. Hansı ki, bu geyim tərzi Nəsirəddin şahın demək olar ki, bütün saray xanımları üçün xarakterik idi. Hər iki dəlili tutuşdursaq, görərik ki, ətəklərin hər ikisinin sonluğunda nazik, dövrəmə lent var. Onların geyindikləri ayaqqabılar belə formaca oxşardır, eynidir desək, yanılmarıq. [4] Həmçinin fotoda qadının açıq yaxalı köynəyinin qollarında (aşağı ucluqlarda) yuxarıya doğru çevrilən muncuqlu valan diqqəti cəlb edir, bu cür geyim detalını rəssam öz çəkdiyi tabloda da göstərmişdir.

Nəsirəddin şah Qacar poeziyaya da biganə deyildi. Şah öz şeirlərini "Naser" (Nasir/Nəsir) təxəllüsü ilə yazırdı. Onun nəzmli əsərlərindən Kərbəla səfəri zamanı İmam Hüseynə (ə) həsr etdiyi mərsiyəsi qəribə nəzmi ilə seçilir. O, öz dini şeirlərinin əksəriyyətini İmam Hüseynə və digər Kərbəla şəhidlərinə həsr etmişdi. [12] Nəsirəddin şah Qacarın şeirlər toplusu divanı da vardır. Hansı ki, bu kitab ilk dəfə İranda, hicri-şəmsi tarixlə 1390-cı ildə (1965) "Elm" nəşriyyatında çap edilmişdir. [12]

Şahın dövründə ilk saray fotoqrafı adını almış rus mənşəli Anton Sevryuqin olsa da, Nəsirəddin şah öz hərəminin bir çox fotolarını özü çəkərdi. Gülüstan sarayının Multimedia sənədləri mərkəzində onun fotoqraflığının ən gözəl sübutları yerləşir. Müəllifi özü olduğu fotoşəkillər o qədər çoxdur ki, 10-larla fayllı papkaların hər birinə baxmaq 1 gündən çox zaman aparır. Vaxtı ikən şah öz sarayında hətta fotostudiya emalatxanası da açdırmış və bu sahəni özünə bir həvəs, məşğuliyyətə çevirmişdi. [6] Yuxarıda qeyd etdiyim hərəm xanımlarının yarıçılpaq şəkilləri də

orada gizli olaraq atlas bir albomun içərisində saxlanılırmış. Tarixi şəxsiyyətin fotoqrafiya sənətinə, fotoqraflığa bu dərəcədə meylliliyi bizdə maraq doğurmaya bilməz.

Zərgərlik sənəti sahəsində isə şahın bir yox, bir neçə əsərləri mövcuddur ki, onlardan 3-ü elmi-tədqiqi araşdırmalarım nəticəsində üzə çıxarılmışdır. Belə ki, XIX əsrə aid edilən üç zərgərlik əşyasının – nəciblikdə bir-birinə çox bənzəyən iki eqret və şahın özünün olan firuzə qaşlı unikal eqretini məhz Nəsirəddin şahın sənət əsəri olduğunu düşünürəm. Brilliant və sapfirdən işlənmiş qızıl eqret XIX əsrə aid olunur. [1, 2] Bu dövr isə bilavasitə Nəsirəddin şahın həyat illəri ilə üst-üstə düşür. Qeyd edim ki, eqret baş bəzək əşyası idi, onu xüsusən şahlar və şahzadələr öz baş geyimlərinə bərkidirdilər. Eqretlərin zəngin bəzədilməsi ilə onu taxan sahibinin maddi statusu müəyyən edilirdi. [5] Nəsirəddin şahın zövqündə olan digər zərgərlik nümunələrindən biri elə Nəsirəddin şahın hakimiyyət illərinə (1848-1896) aid olunan brilliant qaşlardan və iki zümrüddən ibarət qızıl eqretdir. [1, 2] Bundan öncə qeyd etdiyim qızıl eqretlə bu eqret bədii kompozisiya forması baxımından çox oxşardır, bu da əşyanın eyni insanın təxəyyül bəhrəsi olduğuna dəlalət edir, zira dəst-xətt dəyişmir. Belə düşünməyimə başlıca səbəb, bizə məlum olan "Günəş orderi"dir ki, "Neşane-aftab" adı ilə məhz Nəsirəddin şah Qacarın özü tərəfindən əsası qoyulmuşdur. [10] Yaradılması 1873-cü ilə təsadüf edilən bu orderin dizaynını şahın özü çəkmiş və onun sifarişi və əmri ilə ərsəyə gətirilmişdir. Orderin üst forması günəşin saçaqlarını simvolizə edir, hansı ki, bu günəş şüaları Qacar dövlətinin siyasi emblemində, gerb və bayrağında da mövcuddur. Təbii olaraq bu simvol dövlətin həmin siyasi atributundan götürülərək zərgərlik əşyasına əlavə edilmişdir. Qeyd etdiyim iki eqretdə də bu detalı görmək mümkündür: eqretin yuxarı hissəsində mərkəzə qədər kəsilmiş günəş və onun şüalarının bədii təsviri. Zərgərlikdə məhz bu ideya, bu dizayn Qacarlar dekorativ tətbiqi sənəti üçün bir ilk idi və bu innovasiya Nəsirəddin şahın mükəmməl zərgərlik fantaziyası sayəsində qazanılmışdır.

XIX əsrin 4-cü rübündə yaradılan daha bir zərgərlik məmulatı Nəsirəddin şah Qacarın firuzə və brilliant qaşlı qızıl eqretidir. [2, 11] Hesab edirəm ki, unikal görkəmə malik bu zərgərlik əsərinin dizaynı şahın özünə məxsusdur. Kiçik ölçülü zərgərlik nümunəsinin təsvirində kənarlarda əlində qılıncla dayanmış iki aslan, arxasında günəşin şüaları, alt hissədə mərkəzdə farsca epiqrafik yazı, tam yuxarıda isə yenə də günəşin saçaqlarını və tovuzquşunun quyruğundakı ləlekləri xatırladan metal çıxıntılar vardır. Həmin çıxıntıların üzərindəki firuzə qaşında Nəsirəddin şahın portretləri həkk olunub (ümumilikdə 9 portret). Eqret hal-hazırda İran Mərkəzi bankının Milli Cəvahirat Xəzinəsində saxlanılır. [2]

Tarixdə "ilk şəhid olan Qacar şahı" adı ilə yadda qalan Nəsirəddin şah 1896-cı ildə Tehranda Şah Əbdüləzim məscidində namaz qılarkən Mirzə Rza Kirmani tərəfindən qətlə yetirilmişdir.

“Anes Əl-Doleh oğlu ilə”. Gülüstan sarayının Multimedia sənədləri Mərkəzi. Fotoqraf: Nəsirəddin şah Qacar. XIX əsr.

“Həyat yoldaşı Anes Əl-Dolehin portreti”. Rəssam: Nəsirəddin şah Qacar. Yağlı boya; 152x78 sm. XIX əsr.

“Anes Al-Dolehin fotoşəkli”. Fotonun müəllifi: Nəsirəddin şah Qacar. Gülüstan sarayının Multimedia sənədləri Mərkəzi.

“Sapfir və brilliant qaşlı qızıl eqret.
Dizaynı: Nəsirəddin şah Qacar. XIX əsr.

“İki zümrüd və brilliantlarla inkrustasiyalanmış qızıl eqret”.
Dizaynı: Nəsirəddin şah Qacar. 1848-1896-cı illər.

“Günəş orderi”. Yaradıcısı və dizaynı: Nəsirəddin şah Qacar. 1873.

Nəsirəddin şahın firuzə və brilliant qaşlı qızıl eqreti.
Dizaynı və müəllifi: Nəsirəddin şah Qacar. XIX əsrin 4-cü rübü.

Nigar Yunusova

4th KING OF THE GAJARS DYNASTY, AS AN ARTIST, JEWELER, POET AND PHOTOGRAPHERS

SUMMARY

In terms of content, the article consists of the works of Nasireddin Shah, the 4th Shah of the Gajar state, the discovery of his artistic talent, which has been «hidden» for centuries, and the examples of dyeing and decorative applied art that the Shah pays special attention to. At the beginning of the article, the life of the king is briefly described. In addition to being a historical ruler, he was also an artist, jeweler, poet and the first photographer of the "Gajars dynasty". It is through this prism that the researches, the facts that are unknown or incompletely known to the world of fine arts until our time, have been revealed. As a proof and example of this, works of art and jewelry were shown, and a detailed analysis was given. Also, a comparison of the works was mentioned in the article with one another. Nasireddin Shah Gajar's interest in poetry was briefly commented on. His own black-and-white photographs are also reproductions of the article. Thus, the invisible (unknown) artistic aspects and hobbies of the Ghajar Shah, recognized by mankind as a ruler, are analyzed and evaluated in this article. Each is approached and described separately.

Keywords: The Gajars dynasty. 4th king. Artist, jeweler, poet and photographers. Poems. Naseraddin king. Anes al-Doleh. Painting work. Unknown artist. Decorative applied art. Photo. Jewelry patterns. XIX century. Gold egret. The sun's rays. Golestan palace. Brilliant.

Нигяр Юнус

ЧЕТВЕРТЫЙ ШАХ ДИНАСТИИ КАДЖАРОВ В КАЧЕСТВЕ ХУДОЖНИКА, ЮВЕЛИРА, ПОЭТА, И ФОТОГРАФА

РЕЗЮМЕ

По своему содержанию статья состоит из творчества 4-го шаха Каджарского государства - Насиралдин шаха, о выявлении его веками «скрытого» художественного таланта, из образцов живописи, и декоративного прикладного искусства, которому шах уделял особое внимание. В начале статьи коротко говорится о жизни шаха. Будучи историческим правителем, он так же был художником, ювелиром, поэтом, и первым фотографом «Каджаров». Именно через эту призму раскрываются исследуемая новизна, факты, которые до нашего времени неизвестны или не полностью известны миру изобразительного искусства. В качестве доказательства и примера этого показываются, и подробно исследуются произведения изобразительного, декоративно-прикладного искусства и ювелирного дела (ювелирные произведения), дан подробный анализ. Так же демонстрируется сравнение произведений друг с другом. Интерес Насираддин шаха Каджара к поэзии был кратко прокомментирован в статье. Его черно-белые фотографии, авторами которых он является сам, также являются репродукциями статьи. Таким образом, в этой статье проанализированы и оценены невидимые (неизвестные) художественные стороны и увлечения Гаджар-шаха, известного человечеству как правитель. Каждый из них был рассмотрен и описан по отдельности.

Ключевые слова: Династия Каджаров. Четвертый шах. Художний, ювелир, поэт и фотограф. Насреддин шах. Стихи. Анис аль-Долех. Художественное произведение. Неизвестный художник. Фотография. Декоративно-прикладное искусство. Ювелирные украшения. XIX век. Золотой эгрет. Солнечные лучи. Дворец Голестан. Бриллиант. XIX век.

Biblioqrafiya

1.«Национальная сокровищница Ирана». Реза Саджади. 2012. www.liveinternet.ru

2. «Cards. 49» by Central Bank of Islamic Republic of Iran Treasury of National Jewels.

3. «The mystery hidden in the picture of an unknown artist – was revealed!». Nigar Yunus. Austrian Journal of Humanities and Social Sciences. EastWest. July-August. 2016.

4. Найден автор таинственного произведения «неизвестного художника». (The Author of the Mysterious Work "Unknown Artist" is found). Nigar G. Yunusova. Eastern European Scientific Journal. Düsseldorf - Germany. 2016.

5. «Qacarlar dövrünün sirli zərgərlik sənəti». Nigar Yunus. "Üç nöqtə" qəzeti. № 013 (3704) / 23 yanvar, 2016. Bakı.

6. Multimedia Documents Center of Golestan palace. Tehran, Iran

7. «Искусство Ирана. Каджарская живопись». **http://kovlam**. livejournal.com

8. «Персидская живопись – Шиитская энциклопедия». https://www.shiizm.ru

9. Naser al-Din Shah Qajar. https://en.wikipedia.org

10. «Order of Aftab». https://en.wikipedia.org

11. «Bejeweled Persia – historic jewelry from the Qajar Dynasty». Reena Ahluwalia. February 17, 2016. https:// www.reenaahluwalia.com

12. «معرف ی‌د الدی‌ر ناصـــ اشـــعار کامـــل قاجـــاری‌وان شـــاه ن .» ظم کـاظـاهره ی‌طـ 26 may, 1399. https:// www.salis.110.ir

P.S. Müəllif hüquqları qorunur və məqalədən müəllifin icazəsi olmadan istifadə etmək qadağandır.

Redaksiyaya daxil olma tarixi: 30.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Gülrəna Qacar**
tərəfindən çapa tövsiyə olunmuşdur

NURANƏ ƏSƏDULLAYEVA,
Filologiya üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
İstiqlaliyyət küçəsi, 53; e-mail: x_nura_x@list.ru

1920-1930-CU İLLƏR AZƏRBAYCAN ƏDƏBİYYATINDA DİN VƏ DİN XADİMLƏRİ İDEOLOJİ DÜŞMƏN OBRAZINDA

Xülasə

Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra ədəbi prosesdə bir müddət durğunluq yaranmışdı. Bunun əsas səbəblərindən biri yeni cəmiyyətin qurulması idi. Digər səbəb "nədən yazmaq" və "necə yazmaq" kimi məşhur suallara cavab axtarılması idi. İlk vaxtlar sülh missiyası ilə gələn bolşevizm siyasi sahədə öz iç üzünü göstərməkdə idi. Hər gün yeni ideoloji düşmən obrazları nişan verilirdi. Hələ müsavatçı, qolçomaq, satqın, sabotajçı, bəy, xan və dövrün ideolojisindən irəli gələn başqa obrazların yaradılması qarşıda idi. Keçmişin üzərindən xətt çəkmək istəyini gizlətməyən bolşevik ideologiyası ilk olaraq xalqın keçmişini, milli və dini kimliyini ideoloji hədəf götürdü. Bu ideologiya xalqları yeni yaranmış bir cəmiyyət olaraq təqdim edirdi. Hər şeyi bolşevizmin, sosializmin gətirdiyini sübut etmək üçün xalqın tarixini danmaq, milli kimliyinə şübhə ilə yanaşmaq, yaxud yeni milli kimlik vermək rejimin əsas məqsədlərindən idi. Bu kimi ideoloji, siyasi təzyiqlər təbliğat maşını ilə xalqın beyninə yeridilirdi. Nəticədə yeni ictimai fikir formalaşdırılırdı. Ədəbiyyatın da təbliğatın bir ruporuna çevrilməsi prosesində din və din xadimlərinin tənqidi və ifşası başlıca yer tuturdu. Dini dəyərlərə yeni meyarlarla yanaşma yeni həyatın tələbi kimi önə çəkilirdi.

Məqalədə 1920-30-cu illərdə yazıb yaradan Ə.Vahid, M.S.Ordubadi, Ə.Nəzmi, Ə.Razi, Nofəl və başqa satiriklərin şeirlərində din və din xadimlərinin ideoloji düşmən obrazı kimi təqdimindən bəhs olunur. Göstərilir ki, 1920-ci illərə qədər də tənqid obyekti olan bu mövzu mövcud ideologiya müstəvisində artıq siyasi meyarlarla təqdim olunurdu. Ədəbiyyatda sosialist realizmi prinsipi yalnız islamın deyil, hər hansı dini dünyagörüşün əleyhinə çıxırdı. Bu və digər şairlər şeirlərində ayrı-ayrı din xadimləri ilə yanaşı, dinin özünü də tənqid obyekti kimi götürürdülər. Bu zaman siyasi-ictimai arenada da dinə və din atributlarına qarşı total bir hücum var idi. Din xadimləri tənqid olunur, məscidlər bağlanır, dini bayramlar qadağan olunur, namaz qılanlar ifşa edilirdi. Bütün bunlar yeni cəmiyyət quruculuğu fonunda baş verirdi.

Açar sözlər: ədəbiyyat, ideologiya, din, din xadimləri, ideoloji düşmən

1920-1930-cu illərdə ilk ideoloji düşmən obrazları arasında din xadimləri də var idi. Lakin burada bir məsələni xüsusi qeyd etmək lazımdır. 1920-ci illərə qədər də Azərbaycan ədəbiyyatında və publisistikasında tənqid olunan din xadimlərinin obrazına tez-tez rast gəlinirdi. M.F.Axundzadə, N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Nəzmi kimi məşhur realistlər və tənqidi realistlərin əsərlərində bu və ya digər şəkildə din xadimlərinin obrazı yaradılmışdır. Yaradılan bu obrazlar həyatın reallıqlarından doğurdu. Yəni bu tənqidin obyektiv və subyektiv səbəbləri vardı. Başqa cəmiyyətlərə nisbətən geridə qalan Azərbaycan cəmiyyətinin irəli getməsinin qarşısının alınmasında din xadimləri bu və ya digər şəkildə maneə kimi görülürdü. Burada bir obyektivlik də var idi; din xadimləri başqa xalqların dindarlarına nisbətən cəmiyyətin formalaşmasında əsaslı rol oynaya bilmirdi. Əksinə mədəni inkişafın bir sıra faktorlarına, yeniliklərə qarşı çıxırdı. Lakin 20-ci illərdə din və din xadimlərinin tənqidinin əsasında ideoloji meyillər dayanırdı. Bu ideoloji meyillərin ədəbiyyata yansımasını tənqidçi Əli Nazim 1927-ci ildə yazdığı "Bugünkü ədəbiyyatımız haqqında" adlı məqaləsində belə ifadə edirdi: "Oktyabr inqilabı, Şura hökuməti, proletar hakimiyyəti vücuda gətirildi. Böyük istehsal müəssisələri milliləşdirildi; ictimai torpaq bölümü həyata keçirildi və bir sözlə, hər şey alt-üst edildi. Bu böyük işlərin nəticəsində isə yeni bir ideologiya meydana çıxdı. Bütün həyatımız bu ideologiya ilə canlanmağa başladı. Bu ideologiyanın bir qolu olan ədəbiyyatda da böyük bir inqilab-proletar sinfinin xüsusi ədəbiyyatı yaranmağa başladı" (1, s. 50).

Əlbəttə, milli ədəbiyyatımız gənc tənqidçi Ə.Nazimin dediyi kimi, "inqilab-proletar sinfinin" xüsusi ədəbiyyatı yaranmasa da, bir müddət bu istiqamətdə inkişaf etmiş, bir çox ideoloji obrazların yaranmasına səbəb olmuşdur. Bu obrazlardan biri də din xadimləri idi. Bu illərdə din xadimləri, eləcə də dinin özünün tənqidi "Tənqid-təbliğ" satira-agit teatrında, satirik poeziyada və meyxanalarda öz əksini tapırdı. "Molla Nəsrəddin" jurnalının yarandığı dövrdən hədəf aldığı müsəlman aləminin tənqidi bu illərdə də davam etmişdir. Lakin indi hədəflərdə müəyyən siyasi çalarlar da var idi; indi satira Sabir ictimai yüksəkliyindən enərək yeni quruluşun-sosializmin əl-ayağına dolaşan ayrı-ayrı din xadimlərinə tuşlanmışdı. Ədəbiyyatşünas Bədirxan Əhmədovun yazdığı kimi: "Mahiyyətcə özündə əsaslı ictimai-siyasi dəyişikliyi ehtiva edən "inqilabdan doğulanlar"ın açdığı ideoloji cəbhələrdən biri də dinin və fanatizmin ifşası oldu. Dindarların yeni cəmiyyətdə əl-qolları yığışdırılsa belə, hələ də hər cür yeniliyə qarşı neqativ münasibətlərini bildirməkdən çəkinmirdilər" (2, s. 230). Bu illərdə yazıb yaradan Ə.Vahid, M.S.Ordubadi, Ə.Nəzmi, Ə.Razi, Nofəl və başqa satiriklərin şeirlərində dinin müəyyən atributları (məscid, ramazan bayramı, mərsiyəxan, qurban bayramı, orucluq və s.) tənqid olunaraq yeni cəmiyyətin qarşısında ideoloji maneə kimi görülürdü. Məsələn, Nofəlin "Cəbrayıllı mərsiyəxan" (3, s. 3) şeirində mərsiyəxanın xarici görünüşü (qarnını piy basması, kələyə dönməsi, boynu yoğun olması və s.) tənqid hədəfi olurdu. Şeirdə mərsiyəxanın nədən tənqid hədəfi olmasının ictimai səbəbləri görünmür. Yalnız onun xarici görünüşü ("Boynu

ol qədr yoğundur ki, kəmənd atmalıdır,/Çıxıban qarnının üstündə at oynatmalıdır”) ilə bağlı bəzi təsvirlər yer alır ki, bu təsvirlərdən mərsiyəxanlığın tənqidinin mahiyyəti aydın olmur. Şairin “Obaşdanlıq” şeirində isə ramazan ayının gəlişi ilə insanların oruc tutmaq ayininin tənqidinin əsasında dövrün siyasi baxışları dururdu. Orucluğun gəlməsi ilə “ruzə bazarı”nın açılması, “tirboyun vaizlərin” bir çox xəridarının çıxması, “bozbaş parının” qazanda qaynaması vaizlərin obaşdanlıq yeməsi üçün bir hazırlıq kimi görünür. Plovu Bisütuna, vaizi Fərhada bənzədən şair yüz minlərlə insanın inancına bolşevik nöqteyi-nəzərdən baxır. Oruc tutanların obaşdanlıq yeməsi və oruc tutmasına məna verən satirik şair yazır:

Basıbdır vaizin piy qarnını ac qalmasın netsin,
Avamın dalına buynuz qoyub qan almasın, netsin,
Kəsib başın toyuqtək, qol-qanadın yolmasın, netsin
Bilik yoxdur, araya köhnə söhbət salmasın, netsin,
Salıblar müftəxorlar aləmə fəryad obaşdanlıq,
Yatıb-qalxar çəkər-məxluq əlindən dad obaşdanlıq (4, s. 4).

Ramazan ayının bütün müsəlman aləminin bir dini atributu olduğunu, oruc tutmaq üçün təkcə vaizlərin deyil, sadə adamların da obaşdanlığa qalxması, oruc tutmasını nəzərə almış olsaq, şairin xalqın dini hissiyatına ideoloji yöndən yanaşdığını görə bilərik.

Bu cür şeirlər yalnız yeni yazanlar, necə deyərlər, “oktyabrdan doğulanlar” tərəfindən yazılmırdı, hətta Sabirin müasirləri Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Razi kimi şairlərin şeirlərində, ayrı-ayrı felyetonlarda da öz əksini tapırdı. Ə.Nəzmi “Orucluq” şeirində “Yenə gəldi, gül üzündən götürüb niqab orucluq,//Yenə verdi şəhrə, kəndə yeni abü-tab orucluq”,-deyə orucluğun gəlişi ilə cəmiyyətdə yaranan canlanmanı ifşa etməyə çalışırdı. Orucluğun gəlməsini “Yenə gəldi səcdəgaha-yenidən şərəf, səfa, ruh,/Yenə cənnətin, behiştin-qapısı edildi məftuh”, -deməklə xalqın orucluğa münasibətini göstərirdi. Şeirdə xalqın orucluq ayına hazırlaşması və bunun üçün böyük tədarük görülməsi də deyilir:

Olacaqdır əhli-Bakı-yenə də bu il birinci,
Nə qədər burada varmış-üləma, mürid, dinçi,
Görülür böyük tədarük-nə qızıl qalır, nə inci,
Nə qədər səxi bir yerdə-tanımır hesab orucluq,
Yenə gəldi, gül üzündən-götürüb niqab orucluq (5, s. 3)

Satirik şair Bakı, Gəncə və başqa yerlərdə ayrı-ayrı molla və din xadimlərinin orucluqdakı roluna toxunaraq, insanların onu intizarla gözləməsini satirik ifşaya məruz qoyur. Əlbəttə, dinə qarşı siyasi münasibət, Qurana, İncilə, Tövrata qarşı açılan mübarizə kontekstində bu cür şeirlərin yazılması həm də ictimai fikri ifadə edirdi. Şair ictimai həyatda dinə qarşı gedən bu mübarizəni təqdir edərək yeni cəmiyyətin din xadimlərini getdikcə zərərsizləşdirməsini təqdir edirdi. Şeyx Əbülfəzin bolşeviklər tərəfindən zərərsizləşdirməsi, məhv edilməsi də deyilir:

Mütəəssifanə yoxdur-aralıqda Şeyx Əbülfəzl,
Kişidə var idi əlhəq-yekə möcüzə, kərəm, fəzl,
Heyif oldu bolşeviklər-onu bildir, etdilər əzl,
Bu cahan olaydı, ey kaş-o günü xərab orucluq,
Yenə gəldi gül üzündən-götürüb niqab orucluq (5, s. 3)

Ə.Nəzminin "Mədəni inqilab" şeirində də bu mövzu davam etdirilərək din xadimlərinin dilindən "Ax mədəni inqilab, ax mədəni inqilab,//Döndərib əhvalımı işləri etdin xərab",-deyə kinayə ilə yeni cəmiyyətin gətirdiyi mədəni inqilabın xalqın mənəvi aləminə vurduğu zərbə təsvir edilirdi. Satirik qəhrəmanın düşüncəsinə görə mədəni inqilab yalnız qadınların çadrasını atmasını saxlamamış, həm də "əzadarlığı, məscidi, matəm, yası" atmağı öyrətmişdir. İndi nə Quran, nə İncil, nə də Tövrata baxan vardır:

Biz dəxi dünya görüb ömr elədik çox zaman,
Kim eşidiub ismini, indiyəcən ver nişan,
Var nə Quranlarda bu, nə buyurub rövzəxan,
İncili, Tövratı aç, bax bu risalə, kitab,
Ax, mədəni iniqlab, ax, mədəni inqilab (6, s. 3).

Ə.Nəzminin "Bəhanədir" ("Molla Nəsrəddin", 1926, №52, s. 4) şeirində isə mövhumatçıların və qolçomoqların Şura seçkilərinə təsir imkanları təsvir olunur. Siyasi mübarizədə köhnəlik adı ilə cəmiyyətin müəyyən qütbləri bu seçkilərdə istədiyi şəkildə iştirak edə bilmirdi. İndi "təkər tərsinə" işləyirdi; nökərlərin bəyin, xanın başına çıxdığı bir dövrdə axundlar, "köhnə əba, əmmamələr" tarixin arxivinə atılmaqda idi. "O malın hanı?!" satirik şeirində də tənqid hədəfi yenə din, məscid olurdu. Şeirdə mollaların və dinin indiki durumunu göz önünə gətirən şair onun keçmişinə üz tutur və bu keçmişin şanlı, şöhrətli vaxtını xatırladır. Bununla şair həm də yeni cəmiyyətdə dinin, din xadimlərinin nə qədər təzyiq altında olduğunu bildirmək istəmişdir. İndi mollalların keçmişdəki nüfuzu, dəbdəbəsi, cəlalı, hökm və fərmanı yoxdur. İndi onların təsiri məsciddən kənara çıxmır:

Məskənin məsciddi, məkanın minbər,
Yardımçın allahlar, imam, peyğəmbər,
Söylərdən yerdən yox, göylərdən xəbər,
Mehrabın, azanın, Bilalın hanı?
İndi orucluqdur, yanmır qəndillər,
Yoxdur o keçmiş ki, şükuhlu əllər,
Ancaq tənqidinə açılmış əllər,
Cavabın, təkfirin, əmsalın hanı? (7, s. 3)

Ə.Nəzminin satirik qəhrəmanı bir din xadimidir; baxmayaraq ki, indi işləri o qədər də yaxşı getmir, orucluq olsa da, qəndillər yanmır, daha əvvəlki kimi yeyə bilmir və qarnı şişmir. İndi tamamilə başqa bir zaman gəlmişdir və bu zaman onların bütün hakimiyyətini əlindən almışdır. Şairin satirik qəhrəmanı tamamilə qatı qara rəngdə verilir və biz onu təkcə din xadimi kimi deyil, həm də xalqı aldadan fırıldaqçı

bir din xadimi kimi görürük. “Ac xəlqi məscidə maltək qatan”, “Cənnətlər, qəsrlər, qızlar satan”, “Avam kütləni tez aldadan” din xadimləri indi tənəzzül dövrünü yaşayırdı. Bəzən şair kəskin satirik qatılaşdırmaya gedirdi. Bu qatılaşdırma, əslində tənqidi realizmin əlamətlərindən idi ki, bolşevik ideologiyasını təbliğ edir və ona qarşı dövrün ideoloji silahlarını işə salırdı. Xüsusilə, mollaları komsomolla təhdid etməsi və qorxutması dövrün ideoloji meyillərindən irəli gəlirdi:

Bəsdir məscidlərdə saldın rəxtixab,
Tüksüz qıcağında meyl etdin şərab
Sən hansı pislikdən etdin ictinab?
İnsanlıq, mərifət, kamalın hanı?
Artıq bunlar yetər, məsciddən rədd ola!
Haydı, yeyin tərpən, gəlir komsomol! (7, s. 3)

Ə.Nəzminin Sabirin müasiri olarkən də din xadimləri əleyhinə şeirləri vardır; bu şeirlərdə şair problemin ictimai köklərini tapır, din xadimlərini cəmiyyəti inkişaf etməyə qoymayan geriliklərin səbəbi kimi görürdü. Bu dövrdə də çox zaman eyni kontekstdən çıxış edirdi, çünki hələ də bir çox din xadimləri cəmiyyətin inkişafından geridə qalırdı. Lakin bu cür tənqidlər bəzən də siyasi yöndən təqdim olunaraq “Bax budur islamçılıq, bax budur ədəb-din,// Həzrəti osman ilə olsun atan hımnişin”,- deyərək islam ideoloji yönündən yanaşır, islamçılığı bir ideologiya olaraq qəbul etmək istəmirdi.

Sabirin müasirlərindən biri Əli Razinin də 20-30-cu illərdə yaradıcılığında dinin tənqidi davam etmişdir. Onun “Molla Nəsrəddin”də çap olunan bəzi şeirlərində mollalar, din xadimləri tənqid olunurdu. Lakin bu tənqidin əsasında ictimai problemlərdən daha çox dövrün təbliğatı dayanırdı. Aydındır ki, mollalar əsrin əvvəllərində də satirik poeziyanın əsas tənqid hədəflərindən biri idi. Ancaq bu tənqidlərdə satirik qəhrəman təhqir olunmur, onun əməlləri tənqid edilirdi. Bu tənqidlərdə müsbət ideal özünü göstərirdi. 20-30-cu illərdə isə bu daha çox kommunist ideologiyasının dinə, dini ayinlərə və atributlarına qarşı bir ideoloji mübarizə vasitəsinə çevrildi. Məsələn, Ə.Razinin “Mollalar” şeirinə nəzər salaq. Burada mollalar ictimai həyata təsir vasitəsi kimi deyil, ümumi şəkildə tənqid olunur. Bəzən isə bu tənqid təhqirə belə keçir, bolşevik münasibəti bəsləyirdilər:

Məscidi murdar etdilər,
Ayğıra döndü mollalar.
Vicdanı pamal etdilər,
Yaxşı tutundu mollalar.

Var hacı Molla Şıxəli,
Düşüb hamıdan irəli.
Sağrısı titrər məsəli,
Sanki qoyundur mollalar (8, s. 85).

Satirik şairin tənqid hədəfi gah ayrılıqda molla (Hacı Molla Şıxali) olur, gah da bütün mollaları ümumiləşdirərək nəticə çıxarır. Mollaların "məscidi murdar" etmələri obyektivliyi əks etdirmədiyi kimi, "ayğıra döndü mollalar", "sanki qoyundur mollalar" epitetləri ümumiyyətlə mollalların ünvanına deyilmiş ictimai münasibətləri aydın etmir. Bu ondan irəli gəlirdi ki, şairin satirik hədəfləri tipikləşdirilmədiyindən tənqid də ictimai dərinliyə getmirdi; nəticədə satirik şair ümumi sözlərlə mollaları təhqir edirdi.

İlk satirik şeirlərini "Babayi Əmir" jurnalında dərc etdirən Əliağa Vahid 20-30-cu illərdə də satirik yaradıcılığa sadiq qalmış və bir çox satirik obrazlar yaratmışdır.O, "Quba meydanı", "İnsan oluram", "Qoçu", "Sür dərəyə", "Dəllalların hiyləsi", "Lotular ocağı" və s. onlarla şeirlərində dövrün ziddiyyətlərini və anomaliyalarını satirik obrazlar vasitəsilə tənqid etmişdir. Bütün satirik şairlər kimi, Ə.Vahid də molla, ruhani, eləcə də bəzi din xadimləri haqqında şeirlər yazmışdır. Bu mövzu həm də digər formalarda (felyeton, hekayə və s.) təsvir edilirdi. Bu mövzuya həsr edilmiş şeirlərində Ə.Vahidin dövrün ideoloji meyillərinə uyduğu, bir çox məsələləri birtərəfli göstərdiyi də aydın olur. "Molla zaman", "Dövran bizim oldu", "Gözün aydın", "Köhnə müsəlmanlara", "Dərviş", "Şeyxə bir imdad", "Şeyxə bir hədiyyə" və s. şeirlərində dindarların yeni cəmiyyətdəki statuslarında ideoloji parametrlər gözlənilirdi. Yeni cəmiyyətdə mollaların, ruhanilərin, başqa din xadimlərinin səsi siyasi səbəblərdən eşidilmirdi. Ədəbiyyatın bu mövzuya yanaşmasında bir çox müsbət amillər olsa da (bu kontekst XIX əsrin sonu XX əsrin əvvəllərindən ədəbiyyatımızda yeni bir istiqamət kimi formalaşmışdı), indiki cəmiyyətdə din xadimlərinə münasibətdə dövrün ideologiyası aparıcı rol oynayırdı. "Molla Zaman" şeirində satirikin tənqid hədədi olan Molla Zaman ramazan günləri kontekstində götürülür, "Çün nəfi yetər Molla Zamana, rəmazanın,//Çıxsa Rəmazan, canı çıxar Molla Zamanın" uğurlu satirik bənzətmədən sonra ümumən əhli-şəriət məsələsinə toxunur:

Varsa əgər islamda çox əhli-şəriət,
Olmaz biri bu Molla Zaman kimi, həqiqət,
Bu ayda bununtək çıxaran olmadı şöhrət,
Oldu bu kimi rəhbəri hər yoldan azanın,
Çıxsa ramazan, canı çıxar Molla Zamanın (9, s. 52).

Bu cür şeirlərdə mollalların tənqidi ilə ramazan ayının, qurbanlığın və s. dini ayinlərin tənqidi qarışdırılırdı. Mollaların "on bir ay həsrətində olduqları" ramazanın gəlişi arasında əlaqə bəzən satirik detallarla deyil, birbaşa tənqid vasitəsilə deyilirdi. Ramazanın gəlməsi ilə mollaların bir-birinə "gözaydınlığı" verməsi, ramazanı "qarət ayı" kimi təqdim etməsi bu dini atributa ideoloji yöndən baxmasından irəli gəlirdi. "Dövran bizim oldu" satirik şeirində şairin ramazana ideoloji yöndən yanaşdığını görürük. Şair bu ayı "mollalların keyf zamanı" adlandırır, on bir ay həsrətində olduğu bu ayı səbirsizliklə gözlədiklərini, onun gəlişi ilə ruhlarının təzələndiyini, hər gün namaz qılaraq bu günə çatdıqlarını dilə gətirməklə yanaşı, onun tarixi kökünü də

şübhə altına alırdı. Ramazan ayının islamdan gələn tarixi və Quranın təfsiri də tənqid hədəfi edilirdi:

İslamidə var gərçi min illərlə bu adət,
İndi ki, bilən yox nədən olduğu ibarət.
Jurnalçı min il yazsa, ayılmaz bu cəmaət,
Sür, Molla Zaman, atını, meydan bizim oldu,
Yüz yerdə yenə vədeyi—ehsan bizim oldu.
Hər tövr onu biz qurarıq püxtəvü xamə,
Şeytan da bizim tək çala bilməz onu damə,
Təfsir eləmək sureyi-Quranı əvamə.
Hiylə toru qurmaq ona əlan bizim oldu,
Yüz yerdə yenə vədeyi-ehsan bizim oldu (9, s. 50).

Ə.Vahid bəzi ruhanilərin, mollaların xalqı aldadaraq varlanmasını, dualar yazmasını tənqid edərək onların satirik obrazını yaradırdı, lakin ümumiyyətlə din, islam əleyhinə yönəlmiş şeirlərində isə ideloji meyillərdən çıxış edirdi. Xüsusilə, dini atrubutları ələsalma, istehza və kinayələrində dövrün ideologiyasının təsirini aydın görmək olardı.

20-30-cu illərdə M.S.Ordubadinin yazdığı satirik şeirlərdə iki istiqamət başlıca yer tuturdu; birincisi, beynəlxalq aləmin tənqidi, ikincisi, din əleyhinə yazılmış şeirlər. Onun şeirləri, əsasən "Molla Nəsrəddin" jurnalında, "Kommunist" və "Yeni fikir" qəzetlərində dərc edilirdi. Onun bu illərdə dərc edilən şeirlərində həm mollalar, həm də dinə münasibətdə siyasi parametrlər gözlənilirdi. "Mollanın yuxusu (din əleyhinə şeirlər). Bakı, Azərnəşr, 1929, 60 s.) və "Din əleyhinə şeirlər (1914-1931). Bakı, Azərnəşr, 1937, 72 s.) kitablarında dövrün ideologiyası özünü aydın şəkildə biruzə verir. Beləliklə, 20-30-cu illərdə satirik şeirin dini atributların təsvirində ideoloji meyilləri əsas götürdüyünü aydın görmək olar. Bu ondan irəli gəlirdi ki, ədəbiyyat həyatın güzgüsü olaraq həyatı olduğu kimi əks etdirirdi. Proletar diktaturasının hökm sürdüyü və xalqın tarixinə, milli-mənəvi dəyərlərinə qarşı total hücum edildiyi bir zamanda ədəbiyyat da bu siyasətin bir parçasına çevrilirdi.

ƏDƏBİYYAT:

1. Nazim Ə. Seçilmiş əsərləri. 2 cilddə, I c., Bakı: 1961
2. Əhmədov B. Azərbaycan satirasının inkişaf problemləri (1920-1980-ci illər). Bakı, Elm, 2000, 296 s
3. Nofəl. Cəbrayıllı mərsiyəxan. Molla Nəsrəddin, 1922, №8
4. Nofəl. Obaşdanlıq. Molla Nəsrəddin, 1922, №12
5. Kefsiz. Orucluq. "Molla Nəsrəddin", 1922, №10
6. Kefsiz. Ax, mədəni inqilab. "Molla Nəsrəddin", 1928, №44
7. Kefsiz. O malın hanı?! "Molla Nəsrəddin", 1929, №7
8. Razi Ə. Dabanı çatdax xala. Bakı, Azərnəşr, 1936, 92 s.
9. Vahid Ə. Seçilmiş əsərləri. 2 cilddə, I c., Bakı, Azərnəşr, 1975, 295 s.

НУРАНА АСАДУЛЛАЕВА

РЕЛИГИЯ И РЕЛИГИОЗНЫЕ ДЕЯТЕЛИ В ОБРАЗЕ ИДЕОЛОГИЧЕСКИХ ВРАГОВ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ 1920-1930 ГОДОВ

РЕЗЮМЕ

После оккупации Азербайджана большевиками литературный процесс на некоторое время застопорился. Одной из главных причин этого было создание нового общества. Еще одна причина заключалась в том, чтобы искать ответы на популярные вопросы, такие как «о чем писать» и «как писать». Первоначально большевизм, пришедший с миротворческой миссией, проявлял свою сущность в политической сфере. Каждый день формировались новые образы идеологических врагов. А впереди предстояла задача создать новые вражеские образы вытекающие из идеологии того времени такие как мусават, гольчомаг, предатель, саботажник, бек, хан и другие. Большевистская идеология, не скрывавшая своего желания стереть из памяти прошлое, в первую очередь было нацелена на прошлое народа, национальную и религиозную идентичность.

Эта идеология представляла народы как новообразованное общество. Одной из главных целей режима было отрицание истории народа, подвергнуть сомнению их национальную идентичность или дать им новую национальную идентичность, чтобы доказать, что все было создано большевизмом и социализмом. Такая идеология была внедрена в умы людей посредством политического давления и пропаганды. В результате сформировалось новое общественное мнение. Критика и разоблачение религии и духовенства сыграли ключевую роль в процессе превращения литературы в рупор пропаганды. Подход к религиозным ценностям с новыми критериями выдвигался как требование новой жизни.

В статье рассматривается представление религии и религиозных деятелей как идеологических врагов в стихах А.Вахида, М.С.Ордубади, А.Назми, А.Рази, Нофаля и других сатириков в 1920-30 г. Отмечается, что тема которая была предметом критики еще до 1920-х годов начиналось рассматриваться уже по политическим критериям и была представлена на уровне существующей идеологии. В литературе принцип соцреализма противопоставлялся не только исламу, но и любому религиозному мировоззрению. В своих стихах поэты наряду с отдельными религиозными деятелями рассматривали и саму религию как объект критики. В то время была также тотальная атака на религию и религиозные атрибуты на социально-политической арене. Религиозные деятели подвергались критике, мечети были

закрыты, религиозные праздники были запрещены, а верующие были разоблачены. Все это происходило на фоне построения нового общества.

Ключевые слова: литература, идеология, религия, духовенство, идеологический враг

NURANA ASADULLAYEVA

RELIGION AND RELIGIOUS FIGURES AS AN IMAGE OF IDEOLOGICAL ENEMY IN THE AZERBAIJANI LITERATURE OF 1920-1930 YEARS.

SUMMARY

After the occupation of Azerbaijan by the Bolsheviks, the literary process was stagnated for some time. One of the reasons of it was the establishment of the new society. The other problem was searching answers to such popular questions as “what to write?” and “how to write?” Initially, Bolshevism, which came with a peace mission was exposing itself in the political sphere. Every day new images of ideological enemies were targeted. The creation of the images of Musavatists,fists, traitors, saboteurs, beys , khans and others, arising from the ideology, were still ahead. The Bolshevik ideology, which did not hide its desire to destroy the past, first targeted the people’s past, its national and religious identity. This ideology presented nations as a new-formed society.

One of the main goals of the regime was to deny the history of the people, to question their national identity or to give them a new national identity in order to prove that everything were brought by Bolshevism and socialism. Such ideological and political pressure was injected into the minds of the nation by the propaganda machine of the time. As a result, a new public opinion was formed in the society. Criticism and exposure of the religion and religious figures played the role of key in the process of turning literature into the mouthpiece of propaganda. New criteria in approach to religious values was put forward as a requirement of new life.

The article discusses the presentation of religion and religious figures as ideological enemies in the creative activity of A. Vahid, M. S. Ordubadi, A. Nazmi, A. Razi, Nofal and other satirists who wrote in 1920-30 years. It is noted that until 1920’s, this topic, which was the subject of criticism, was already presented on the level of existing ideology by political criteria. In literature, the principle of socialist realism was opposed not only to Islam, but to any religious worldview. Such poets considered religion itself as an object of criticism along with individual religious figures in their poems.

There was a total attack on religion and religion attributes in the political and social arena at that time. Religious figures were criticized, mosques were closed, religious holidays were forbidden and worshippers were exposed. All this was happening against the background of the establishment of new society.

Key words: literature, Ideology, religion, religious figures, ideological enemy

Redaksiyaya daxil olma tarixi: 26.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **Akademik Rafael Hüseynov tərəfindən çapa tövsiyə olunmuşdur**
tərəfindən çapa tövsiyə olunmuşdur

VÜQAR TEYMURXANLI,
filologiya üzrə fəlsəfə doktoru,
ADPU-nun Quba filialı,
Quba, Fətəli xan küçəsi 4
Email: vüqar.teymurxanli@mail.ru

AZƏRBAYCAN ƏDƏBİYYATININ MƏNBƏ VƏ QAYNAQLARINDA MİLLİ DÜŞÜNCƏNİN FORMALAŞMASI

Açar sözlər: ədəbiyyat, mənbə və qaynaq, milli düşüncə, vətən, kimlik

Azərbaycan xalqı tarix boyu böyük bir milli özünütanıma prosesindən keçmişdir. Bu proses müxtəlif mərhələlərdən ibarət olmaqla yanaşı, həm də müxtəlif komponentlərdə (vətən, yurd, torpaq sevgisi, milli kimlik, milli ideya, millətçilik, vətənçilik və s.) təzahür etmişdir. Zaman-zaman xalq bu mərhələlərdən keçərək milli özünütanımanın ən yüksək səviyyəsinə çatmış və dövlətçiliyini formalaşdıra bilmişdir. İnsan hər şeydən əvvəl, mənsub olduğu xalqın keçmişini, bugününü müəyyənləşdirib gələcəyə doğru istiqamət alır. Əvvəlki dövrlərdə ayrı-ayrı komponentlər, kiçik epizodlar nəticəsində öz əksini tapan milli düşüncə XX əsrin əvvəllərindən xalqın ədəbi, bədii, mədəni fəaliyyət potensialı artaraq milli ideya ətrafında birləşməyə doğru getmişdir. Milli taleyə gedən yolda fərdi məsuliyyət və cavabdehlik hissi getdikcə vətəndaşlıq yetkinliyini formalaşdırmışdır. Aydındır ki, hər hansı bir xalqı, milləti milli ideya formalaşdırdığı kimi, millət də milli ideyanı yaşadır və onu müxtəlif mərhələlərdə yeni formalarda təzahür etdirir.

Milli şüurun tərkib hissələrindən biri vətənçiliyin, vətənpərvərliyin formalaşması millət və ya hər hansı bir xalqın inkişaf tarixində həmişə mühüm yer tutmuşdur. Vətənpərvərlik mənəvi və sosial-siyasi həyatda insanın müvafiq şəkildə öz müqəddəratını təyin etməsi üçün tələb edilən dəyər münasibətlərinin və mənəvi dəyərə əsaslanan təsəvvürlər sisteminin əsasını ehtiva edir. Milli vətənpərvərliyin strukturuna müxtəlif kanonlar və stereotiplər daxildir; milli mənlik şüuru bu və ya digər milli-etnik birliyin ümumiləşdirilmiş baxışlarını, münasibət və təsəvvürlərini özündə əks etdirir. Vətənpərvərlik, vətənçilik isə fərdiyyətçilik baxımından şəxsidir, hər şeydən öncə, müəyyən bir fərd, hər hansı bir milli etnik qrupun təmsilçisi tərəfindən milli şüurun müəyyən tərkib hissələrinin qavrama səviyyəsini ifadə edir. Bu zaman millətin hər bir təmçilçisi özünü onun bir hissəsi kimi başa düşür və milli mədəniyyətin daşıyıcısı olur. Səməd Vurğun vətənpərvərliyi insan hisslərinin ən ali mərtəbəsi kimi dəyərləndirərək yazırdı: "İnsan hissləri içində ən müqəddəs, əbədi, tərəqqi və inkişafa təkan verən amillərdən biri, bəlkə də ən mühümü vətənpərvərlikdir...Mənsub olduğu xalqın varlığı ilə fəxr etməyən, onun eşqini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan bir insan və vətəndaşlıq haqqını dərk edə bilməz, ona vətənpərvər demək də gülünc olar" (1, 317).

Vətən, vətənçilik və vətənpərvərlik anlayışları yalnız tarixi anlayışlar deyil, həm də xalqın, cəmiyyətin qəlbində özünə yer etmiş bir məhəbbət hissidir. Bu anlayışlar hər bir fərdin mənəvi məsuluyyət hissi və vətəninə, elinə, yurduna bağlılığıdır. Vətənə, xalqa məhəbbət hissi zaman-zaman bədii düşüncə vasitəsilə formalaşma dövrü keçirmişdir. Azərbaycan ədəbiyyatının ən qədim dövründən başlayaraq ədəbiyyatda milli düşüncə müxtəlif mərhələlərdən keçərək vətəndaşlığa qədər yüksəlmişdir. Milli düşüncənin formalaşması məsələsinə toxunan M.C.Cəfərov yazır: "Vətənə məhəbbət hissi məqsədli, müntəzəm, ardıcıl tərbiyənin nəticəsidir. Bununla belə, bu hissin tərbiyəsi, xüsusən, ilk formalaşma prosesində təbiətin bir parçası və ən kamil əsəri olan insanın hissi həyatının təbii meyillərinə də əsaslanır" (2, s. 42).

Hər bir yazılı ədəbiyyat öz mənbəyini şifahi xalq ədəbiyyatından götürür və bütün inkişafı boyu bu mənbəyə bu və ya digər şəkildə müraciət edir. Yəni ağız ədbiyyatı yazılı ədəbiyyat üçün əzəli və əbədi qaynaqlardan biri hesab olunur. Bu mənada, klassik yazılı ədəbiyyatımızın ilkin mənbəyi kimi şifahi ədəbiyyatı götürmək oalr. Bu ədəbiyyatın bayatılar, şərqilər, əfsanələr, rəvayətlər, nağıllar, dastanlar kimi ən qədim formaları həm də xalqın milli düşüncəsini ifadə edir. Şifahi xalq ədəbiyyatı və mifologiya hər hansı bir formada milli düşüncənin, vətənçilik və vətənpərvərliyin başlanğıcıdır. Y.Lotmanın "Kim əcdadının adını çəkə bilirsə, o, siyasi cəhətdən mövcuddur" fikrində mif və folklorda milli düşüncə elementlərinin varlığı əks olunur.

Folklorda laylalar və bayatılar xalqın bədii düşüncəsini əks etdirən ən qədim formalardan biridir. Mövsüm və mərasim nəğmələri, xalq arasında oynanan "kosa-kosa" oyunu, kilimarası və s. formalar hər gələn nəsilə keçmişin ənənəsini yaşatmaq impulsu verir. Bu cəhətdən Novruz bayramı xalqın milli varlığını, düşüncəsini, həyata münasibətini ifadə edən ən mühüm faktorlardan biridir. Novruz bayramı ərəfəsində oxunan mahnılar bu bayramın özü qədər qədim olmaqla yanaşı, həm də əcdadlarımızın milli təfəkkürünü yaşadır. Əlbəttə, bunlar rəmzlərdir və bu cür simvollar mifoloji və folklor nümunələrində geniş yayılmışdır. Mifoloq Arif Acalovun fikrincə "Mifologiya dünyanı özünəməxsus qanun və vasitələrlə biçimləyən və izah edən dinamik işarələr sistemidir" (3, 14). Azərbaycan xalq mərasim və mövsümlərində (səpin, qırxın, biçin və s.) yaranan mahnılarda xalq düşüncəsi və yaşadığı həyat uzun əsrlərdir yaşayır. "Günəşi dəvət" mərasimində qədim azərbaycanlıların müqəddəs hesab edikləri tarixi düşüncə öz bədii ifadəsini tapır.

Mahmud Kaşğarlının "Divani lüğətit-türk" əsərində bir çox poetik ağılar vardır ki, bizim tarixi keçmişimizi əks etdirir. Bu ağıların vəsf, tərənnüm xüsusiyyəti onların mənəvi tərbiyə mahiyyətini ifadə edir. Alp Ər Tonqanın ölümünə deyilmiş ağılar, onların məzmunu və bədii-estetik təsir qüvvəsi bunu deməyə əsas verir. Bu isə Azərbaycan xalqının tarixi keçmişinin varlığını sübut edən amillərdəndir:

Alp Ər Tonqa derlər bir xaqan vardı,
Ona yer üzü dar, göy üzü dardı.
Tuğ eləmişdi göy üzünə günəşi,
Bilgəlikdə dəi yoxdu bir eşi.
Göy türk, Uyğur, Karluk və Qaraxanlı,
Daha neçə türklər, adları sanlı.
Onu özlərinə ata saydılar,
Şöhrətini dörd bucağa yaydılar.
Uçmağa varınca ol ulu xaqan,
Yıxıldı üstlərinə göy kurıqan...
Anca qanlı yaş töküb yoğladılar,
Çığrışıb ağladılar, ağladılar (4, 27).

Alp Ər Tonqanın həyatına, şücaətinə həsr edilmiş "Alp Ər Tonqa" dastanında da bu böyük xaqanın şücaətləri əks etdirilir. Burada qəhrəmana həsr edilmiş şeirlərdə vətəni qoruyan qəhrəmanın cəsarəti və şücaəti tərənnüm edilir, ölümü zamanı insanlar kədərlənir və ağılar deyirlər. E.Əlibəyzadə bu fikirdədir ki: "Bu şeirlərdə qədim keçmişimizin müqəddəs ruhu yaşayır, xalqımızın ulu sərkərdəsi olan böyük məhəbbəti, onun qəhrəmanlıq şöhrətinə olan ehtiramı yaşayır" (5, 16).

Yazılı qaynaqlardan bəhrələnən klassik ədəbiyyatda xalqın vətənçilik, milllilik düşüncəsinin formalaşdığını aydın görmək olar. Bu qaynaqlar içərisində "Avesta" kitabı əsas yerlərdən birini tutur. Bu kitaba görə dünya iki qüvvə tərəfindən idarə olunur; bunlardan biri Xeyir allahı Hürmüzd-Ahurəmazda, digəri isə Şər allahı Əhrimən-Anqromanyudur. Bu, əzəli başlanğıcın Xeyir və Şərin, Həqiqət və Yalanın bir-birinə qarşı durmasıdır. "Avesta"nın Azərbaycan bədii düşüncəsinə, xüsusilə, klassik ədəbiyyata təsiri çox olmuşdur. "Dədə Qorqud" dastanında, N.Gəncəvinin "İskəndərnamə" əsərində, Nəsiminin, Həbibinin, Füzulinin, Saib Təbrizinin qəzəllərində zərdüştilik fəlsəfəsinin izlərini görmək mümkündür. "Avesta"nın xüsusilə "Qatlar" və "Yeşt"lər hissəsi bədii düşüncə məhsulu hesab edilir və mənzum şəkildə yazılıb. "Avesta"nın "Yeşt" hissəsində xalqın milli düşüncəsi, həyat və dünya haqqında düşüncələri, eləcə də, təfəkkür tərzi ifadə olunur: "1. Ey Məzda, səndən tələb edirik ki, davranış, söz və sitayiş üçün verəcəyin mükafatdan və ölkə idarə etmək qüvvəsində daha çox bizə bağışlayasan. 2. Ürəyi doğruluqla yoğrulmuş o pak dindar şəxs xeyirxah düşüncələri və əməllərinin hamısını sitayiş nəğmələri ilə birlikdə sənin dərgahına gətirdi, sitayiş üçün, ey Məzda. 3. Ey Əhura və ey doğruluq friştəsi, biz namazla bərabər sizə məyəzd təqdim edirik ki, bütün insanlar uğurlu davranış vasitəsilə ölkəyə çatsınlar" (6, 78).

Azərbaycan həyatının keçmişi ilə bağlı olan "Astiaq" və "Tomris" əfsanələri xalqın milli düşüncəsini, vətənçilik duyğularının ifadəçisi kimi səslənir. Astiaqda və midiyalılarda belə bir təsəvvür var idi ki, iranlı heç zaman hakimiyyətə iddialı ola bilməz. Lakin hadisələr elə gətirir ki, Astiaqın ona etdiyi zülmdən inciyən Harpaq Kirlə birləşərək Midiyanı məğlub edir və Astiaqı əsir alır. Bu zaman Harpaqla Astiaq

arasında bir mükalimə olur. Həmin söhbətdə midiya xalqının vətəni, hakimiyyəti qorumaq düşüncəsinin çox möhkəm olduğu üzə çıxır. Harpaq ona deyir: "-Mənə öz oğlumun ətini yedirtdiyin ziyafət yadındadırmı? Elə şahlıqmı yaxşıdır, yoxsa belə köləlikmi?

Bu xəyanətdə Harpaqın əli olduğunu görən Astiaq deyir:

-Sən axmaq və ən şərəfsiz bir adammışsan. Ona görə axmaqsan ki, qurduğun bu hiylə, bu xəyanət nəticəsində özün taxta sahib ola biləcəyin halda, onu başqasına vermisən. Ona görə şərəfsizsən ki, əgər şahlığı mütləq başqa birinə vermək lazım idisə, onu sən bir midiyalıya verə bilərdin. İndi sənin şərəfsizliyin ucundan heç bir təqsiri olmayan midiyalılar kölə oldular" (5, 56). Burada Astiaqı düşündürən əsas məsələ hakimiyyətə özünün sahib olması əvəzinə bir başqasına verməsi olur. Astiaqın fikrincə, Harpaq hakimiyyətə özü sahib çıxmalı olduğu halda, onu bir iranlıya verməklə şərəfsizlik etmişdir.

Azərbaycan torpağının ilk qüdrətli qadın hökmdarı Tomrisin Kirə yazdığı iki məktubunda onun nə qədər vətənini sevdiyi, qorxmaz və şücaətli olduğu bir daha aydın olur. Birinci məktubunda yazırdı: “Midiyalıların hökmdarı! Öz niyyətindən əl çək. Axı, sən qabaqcadan bilməzsən, bu körpülərin çəkilməsi sənə xoşbəxtlik gətirəcək, ya yox. Bunu burax, öz ölkənə padşahlığını elə və paxıllıq etmə ki, biz hakimiyyətimizi sürürük. Lakin əlbəttə, sən bu məsləhətə abxmaq istəmirsən, sülhü qorumağı yox, istədiyin kimi hərəkət etməyi üstün tutursan. Əgər sən massagetlərə ehtirasla hücum çəkmək niyyətindəsənsə, onda çay üzərində körpü salınması işini dayandır. Sakitcə keç gəl bizim ölkəmizə, çünkü biz çaydan üç günlük məsafəyə çəkilərik. Əgər sən bizi öz torpağına buraxmağı daha münasib hesab edirsənsə, onda o cür hərəkət elə” (7, 121).

Tomris ağıllı olduğu kimi, cəsarətlidir, vətənini çox sevir, işğala qarşı əvvəlcə özünün diplomatik gücündən istifadə etmək istəyir. Doğrudur, ilk döyüşdə Kir qələbə çalır, lakin bu müvəqqəti xarakter daşıyır və Kir bu qələbəyə hiylə və məkrlə nail olur. Bu döyüşdə Tomrisin oğlunu da əsir götürür. Oğul və vətən dərdi Tomrisin əzmini bir az da artırır. Ona görə də Kirə daha kəskin və onu ittiham edən məktub yazır. Bu məktubundan görünür ki, onun oğlunu əlindən almaq olar, ancaq əymək, sındırmaq olmaz. İkinci məktubunda yazırdı: “Qaniçən Kir! Bu qələbənlə qürrələnmə! Sən silah gücü ilə döyüşdə mərdi-mərdanə yox, məkrlə, üzüm tənəyinin sizin də ağlınızı əlinizdən alan barı ilə çaxır başınıza vurduğu zaman, necə ki, siz, f'arslarda (keflənərək) ləyaqətsiz nitqlər axmma qoşulursunuz, bax, bu cür zəhərlə mənim oğlumu da məğlub saldin. İndi mənim xcyirxah məsləhətimə qulaq as. Mənim oğlumu ver və sağ-salamat mənim torpağımdan çıx get, onsuz da massaget ordusunun üçdı birini həyasızlıqla məhv etdin. Əgər sən getməsən, onda Tanrı (günəşə and içirəm ki, mən massaget hökmdarı, həqiqətən, sənə qan içirəcəyəm, çünki sən qandan hələ doymamısan” (7, s. 122). Xalq şairi Səməd Vurğun da “Yandırılan kitablar” şeirində Tomrisin bu şücaətini yüksək qitymətləndirərək yazırdı:

Bir varaqla tarixləri, utan mənim qarşımda,
Anam Tomiris kəsmədimi Keyxosrovıın başını?
Koroğlunun, Səttarxanın çələngi var başında.
Nəsilləriim qoymayacaq daş üstiində daşını,
Anam Tomiris kəsmədimi Kcyxosrovun başını? (8, 45)

Ərəb istilasından əvvəlki dövrə aid də bəzi bədii nümunələrdə də milli düşüncənin formalaşmasını görmək olar. VII əsrdə yaşamış Davdəkin Cavanşirin ölümünə həsr etdiyi şeiri Musa Kalankutyunlunun "Alban ölkəsinin tarixi" əsərində vətən, yurd, qəhrəmanlıq düşüncəsi təsvir olunur. Şeirdə xəyanət nəticəsində öldürülmüş Cavanşirin vətənpərvərliyini, xalq üçün böyük sərkərdə olmasını tərənnüm edir və onun ölümünə ağı deyir. Bu şeirdən sərkərdənin xalq içində böyük hörmətə və nüfuza sahib olduğunu görürük. Yalnız ideya cəhətdən deyil, həm də bədii cəhətdən maraqlı olan şeirdə diqqəti çəkən başqa bir cəhət isə şairin xalq ruhunu, vətəni müdafiə ruhunu ifadə etməsidir.

Orxon Yenisey abidələri xalqın ruhunu ifadə etməsi baxımından ən zəngin mənbələrdən biridir. Orxon-Yenisey abidələrində xalqın milli düşüncəsi, vətənpərvərlik nümunəsi, qəhrəmanlıq aspektləri başlıca yer tutur: “Doqquz Oğuz bəyləri, xalqı bu nitqimi yaxşıca eşit, diqqətlə dinlə! İrəlidə - şərqdə, sağda - cənubda, geridə - qərbdə, solda - şimalda, orada mərkəzi xalqım hamısı mənə tabedir, bu qədər xalqı mən çoxaltdım. Orada indi pisliklər yoxdur. Ötügən dağında türk xaqanı oturubsa, eldə dərd-sər yoxdur. İrəlidə Şantun düzünədək qoşun çəkdim, dənizə çatmağıma az qaldı, sağa Doqquz Ərsənkədək qoşun çəkdim, Tibetə çatmağıma az qaldı, arxa tərəfdə İnci çaymı keçərək Dəmir qapıyadək qoşun çəkdim, solda Yir Bayırku yerinədək qoşun çəkdim...” (9, ...) Bu mətndə qədim əcdadlarımızın çox geniş bir əraziyə nəzarət etməsi, yaşaması, dövlətçilik və qəhrəmanlıq nümunəsi göstərməsi əks olunur.

"Tonyukuk", "Kültigin" abidələrində türk xalqının qəhrəmanlıq səlnaməsi əks etdirilir. Qədim türklərin dünya, insan, Tanrı haqqında baxışları və düşüncələrindəki vətənçilik hisslərini burada da görmək mümkündür. "Qara xalqım, möhkəmlənin", "El qanununu dağıtdınız, əfsus, siz, elim, xanım...", "Dörd ayaqlı ilxım, səkkiz ayaqlı dövlətim (olduğu üçün) dərdim yox idi" və s. başdaşı yazılarında bədii düşüncə ifadə edilmişdir. Yollig Tiginin yazdığı Gül Tigin abidəsində qəhrəmanın bir xalq və dövlət haqqında fikirləri bədii şəkildə belə ifadə olunurdu: "Üstdə mavi göy, altda qonur yer yarıldıqda ikisinin arasında insan oğlu yaranmış. İnsan oğlunun üzərində əcdadı Bumın xaqan, İstemi xaqan (taxta) oturmuş. Oturub türk xalqının elini, qanununu yaratmış, tərtib etmiş. Sonra Tanrı buyurduğu üçün, Tanrının iradəsi olduğu üçün, özümün bəxtim olduğu üçün xaqan oturdum... Qismətim olduğu üçün öləsi xalqı diriliyə yükəsltdim, yalın xalqı donlu, yoxsul xalqı varlı, az xalqı çox etdim" (9, S.).

Xalqın yurd sevgisi ən qədim dövrlərdən Hun dövlətinin gerçək qurucusu Metenin davranışında da öz əksini tapmışdır. Mete və onun fəaliyyəti ilə bağlı

yazılmış əfsanə və rəvayətlərdə, tarix kitablarında təsvir edilən bir çox hadisə vətənsevərliyin, özünütanımanın təzahürüdür. Bir rəvayətdə Hun dövlətinin şərqində yaşayan monqol-tatarların münasibətləri əks etdirilir. Hun dövlətində dövlət və vətən əhəmiyyətli məsələlər seçilmiş şəxslərin qurultayında müzakirə edilir və uyğun qərarlar qəbul edilirdi. Tatar hökmdarı Hun ölkəsindən heç bir məhsulu, tarlası, meşəsi, yeraltı sərvəti, əhalisi olmayan bir torpaq parçasını tələb etdikdə qurultay bu tələb ilə razılaşır, faydasız bir torpağın verilməsində bir zərər olmayacağını bildirir. Mete bəylərin təklifinə etiraz edir və deyir: "Vətən bizim mülkümüz deyil, məzarda yatan atalarımızın və qiyamətə qədər doğulacaq törəmələrimizin bu mübarək torpaq üzərində haqları vardır. Vətəndən – istər bir qarış qədər olsun, yer verməyə heç kəsin səlahiyyəti yoxdur. Buna görə də müharibə edəcəyik. Bax, indi mən atımı düşmənə doğru sürürəm. Ardımca gəlməyən edam olunacaqdır",- deyərək tatarların üzərinə yeriyir. Qədim qaynaqların xəbər verdiyi bu hadisəni qələmə alan görkəmli mütəfəkkir Ziya Göyalp davam edərək yazırdı: "Əski türklərin gözündə vətənin nə qədər əziz olduğunu, bu tarixi hadisədən anlaya bilərik" (10, s. 114). Bu fakt həm də Azərbaycan xalqının qədim əcdadlarında vətənə, torpağa olan münasibətin təzahürüdür.

VIII əsrə aid edilən Orxon mətnlərində Göytürk dövlətinin tarixi mahiyyəti əks olunur. Göytürk hökmdarı Bilgə Xaqan ona aid mətnlər vətənpərvərliyi ilə seçilir. Burada türk xalqının məruz qaldığı fəlakətlər də öz əksini tapır. Bununla belə, ən böyük məsuliyyəti xaqanların biliksizliyində, maarifsizliyində görürdü ki, bunun da müəyyən səbəbləri vardı. Bu mətnlərin bəhs etdiyi Bilgə Xaqanın obrazı da yaradılır. Bilgə Xaqan türk xalqının səadət və fəlakətlərini xarici qüvvələrdə deyil, türklərin özündə axtarırdı və onları ağıllı, ədalətli və milli şüura sahib olmalağa çağırırdı. Onun türk xalqına müraciətlərində milli şüuru formalaşdırma komponentlərinə rast gəlirik: "Ey Türk və Oğuz Bəyləri, milləti, dinləyiniz! Üstdə Göy basmadığı, altda Yer dəlinmədiyi halda Sənin elini və dövlət nizamını kim pozdu? İtaətin sayəsində səni yüksəldən hakim Xaqanına və müstəqil dövlətinə pislik edən sən özün oldun. Silahlı və mizraqlı əskərlərmi gəlib səni dağıtdı və apardı? Ey mübarək Ötükən xalqı! Siz qalxıb Şərqə və Qərbə köçdünüz. Taleyiniz bu oldu ki, qanın su kimi axdı, sümüklərin dağ kimi yığıldı. Oğulların kölə, qızların cariyə oldu. Ey Türk Milləti! Titrə və özünə dön! Sən özünə dönəndə böyük olursan!" (11, s. 54).

Ümumiyyətlə, Bilgə Xaqanın bu cür çıxışlarında vətən duyğusu ən yaxşı şəkildə ifadə olunur və vətəni qorumaq üçün Tanrının da onlarla olduğu bildirilirdi. Təsadüfi deyil ki, Orxon abidələrini üzə çıxaran V.Tomsen Bilgə Xaqanın bu çıxışlarının mahiyyətini ifadə edərkən milliyyətçilik ifadəsini işlədərək yazmışdır: "Bilgə Xaqanın bu ifadələri milliyətçilik tarixində misli görülməmiş ulu duyğuları və sülhsevərliyi göstərməkdədir" (12, s. 106).

"Kitabi Dədə Qorqud" dastanında yurd sevgisi, vətən amalı və idealı demək olar ki, hər boyda özünü göstərir. "Qazan xanın evinin yağmalandığı boy"da kafirlər Qazan xanın evini yağmalayıb, xanımını qırx incə belli qızla əsir götürdükdən sonra

qoyunlarını da aparmaq istəyirlər. Bunun üçün Qaraca Çobana üz tutaraq "Ay çoban, uzaqdasan-yaxındasan, bəri gəl! Baş endirib təzim et! Bizə salam ver, öldürməyək! Səni Şöklü Məlikin yanına aparaq, bəylik alıb verək",-sözlərinə Qaraca çobanın verdiyi cavab onda yurd, vətən idealını ortaya çıxarmalıdır ki, onlara:

Boş-boş danışma, itim kafir!
İtimlə bir yalaqdan yal icən azğın kafir,
Altındakı alaca atını nə oyursən?
Ala başlı kecimcə gorunməz mənə!
Başındakı dəbilqəni nə oyursən, ay kafir?" (13, s. 23),

-deyə cavab verir və onlardan bəylik almaqdansa, döyüşməyi üstün tutur. Qaraca çobanın bu hərəkəti qədim oğuzların düşüncəsində milli özündərkin nə qədər önəmli yer tutduğuna ən yaxşı və ibrətli nümunədir.

"Kitabi Dədə Qorqud" dastanındakı "Dirsə xan oğlu Buğac xan boyu", "Salur Qazanın evinin yağmalandığı boy", "Baybörənin oğlu Bamsı Beyrək boyu", "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy", "Duxa qoca oğlu Dəli Domrul boyu", "Qanlı Qoca oğlu Qanturalı boyu", "Basatın Təpəgözü öldürdüyü boy", "Bəkil oğlu İmran boyu", "Uşun Qoca oğlu Səyrək boyu", "Salur qazanın dustaq olduğu və oğlu Uruzun onu xilas etdiyi boy", "İç Oğuza Dış Oğuzun dönük çıxması və Beyrəyin öldüyü boy" boyların hər birində qəhrəmanlıq salnaməsi yazılır. Hər bir boyun öz qəhrəmanı var. Dastandakı boyları birləşdirən ümumi cəhət böyük Oğuz ellərinin həyatının, dövlətçilik ənənəsinin yaşadılması və təsvir olunmasıdır.

Dastan bədii-emosional gözəlliyi, maraqlı süjet və məzmun zənginliyi ilə yanaşı, milli düşüncə aşılaması, fəlsəfi dünyagörüşü, təfəkkür genişliyi ilə zəngin bir mənbə rolunu oynayır. Buradakı müdrik, dünyagörmüş, hətta müqəddəs hesab olunan Dədə Qorqud xalqın idrakının, milli düşüncəsinin ifadəsi kimi səslənir. Onun dilindən söylənilən hər bir əhvalat xalq həyatı ilə bağlı olur və arxasında böyük təcrübənin, müdrik bir nəticənin, düşüncənin zəkasını əks etdirir. Bu cür düşüncə sahibi olan xalqın həyat, cəmiyyət, yaşamaq uğrunda mübarizəsi də kifayət qədər yetkin olur. Onun hərəkətlərindən, düşüncələrindən böyük bir müdriklik və bu müdrikliyə söykənən qəhrəmanlıq səhifələri boylanır. Hər bir toplumun, xalqın, millətin qəhrəmanlıq, mədəniyyət tarixi ilə yanaşı, təfəkkür tarixi də mövcuddur. Bu gün varlığında türk ruhu yaşayan hər bir kəs əcdadlarımızın təfəkkür və düşüncə genişliyi və səviyyəsi ilə fəxr edə bilər.

Beləliklə, Azərbaycan ədəbiyyatının mənbə və qaynaqlarında xalqın milli düşüncəsini ifadə edən qəhrəmanlıq, doğruçuluq, vətəni sevmək kimi faktorların olduğunu görmək olar. Bu əsərlər yalnız bədii cəhətdən deyil, milli vətənpərvərlik baxımından da aktuallığını qoruyub saxlayır. Bütün bunlar onu göstərir ki, qədim Azərbaycan ədəbiyyatının mənbə və qaynaqlarında qəhrəmanlıq, vətənpərvərlik motivləri çoxluq təşkil edir. Bu motivlər sonralar azərbaycançılığın formalaşmasında özünəməxsus rol oynamışdır.

ƏDƏBİYYAT

1. Vurğun S. Seçilmiş əsərləri. 6 cilddə, V c., Bakı, Elm, 1967
2. Cəfərov M.C. Həmişə bizimlə. Bakı, Yazıçı, 1982
3. Acalov A. Ön söz. Azərbaycan mifoloji mətnləri. Bakı, 1988
4. Türklerin Altun kitabı, I c., Ankara, 1958
5. Əlibəyzadə E. Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər). Bakı, 1987
6. "Avesta", I kitab, Bakı, "Azərnəşr", 1996
7. Azərbaycan ədəbiyyatı tarixi, I c., Bakı. Elm, 1960
8. Vurğun S. Əsərləri. 6 cilddə, II c., Bakı, 1976, s. 45
9. Rəcəbov Ə., Məmmədov Y. Orxon Yenisey abidələri. Bakı, 1993
10. Göyalp Ziya. Türkçülüyün əsasları. Bakı, 1991, səh 119. Bakı 2010
11. Orkun, H.Namik. Əski Türk Yazıları, Ankara, 1986
12. V.Tomson. Moğolıstanda eski Türkce kitabeler, TM, III cild, 1986
13. "Kitabi Dədə Qorqud". B., 1988

VÜQAR TEYMURXANLI

AZƏRBAYCAN ƏDƏBIYYATININ MƏNBƏ VƏ QAYNAQLARINDA MILLI DÜŞÜNCƏNIN FORMALAŞMASI

XÜLASƏ

Məqalədə Azərbaycan ədəbiyyatının mənbə və qaynaqlarında milli düşüncə komponentləri araşdırılır. Göstərilir ki, bədii düşüncədə milli xüsusiyyətlər, xarakter və kimlik məsələləri əsas yer tutmuşdur. Azərbaycan xalqı tarix boyu böyük bir milli özünütanıma prosesindən keçmişdir. Bu proses müxtəlif mərhələlərdən ibarət olmaqla yanaşı, həm də müxtəlif komponentlərdə (vətən, yurd, torpaq sevgisi, milli kimlik, milli ideya, millətçilik, vətənçilik və s.) təzahür etmişdir. Zaman-zaman xalq bu mərhələlərdən keçərək milli özünütanımanın ən yüksək səviyyəsinə çatmış və dövlətçiliyini formalaşdıra bilmişdir. Azərbaycan ədəbiyyatının mənbə və qaynaqlarında xalqın milli düşüncəsini ifadə edən qəhrəmanlıq, doğruçuluq, vətəni sevmək kimi faktorların olduğunu görmək olar. Bu əsərlər yalnız bədii cəhətdən deyil, milli vətənpərvərlik baxımından da aktuallığını qoruyub saxlayır. Azərbaycan şifahi xalq ədəbiyyatının bayatılar, rəvayətlər, əfsanələr kimi formaları ilk qaynaqlardaı təşkil edir. "Avesta" kitabında xalqın milli etnik düşüncəsini ifadə edən bədii nümunələr çoxdur. "Astiaq" və "Tomris" əfsanələrində də xalqın mərdlik və vətənpərvərlik xüsusiyyətləri göstərilir. "Orxon Yenisey" abidələri, "Dədə Qorqud" dastanı və s. mənbələrdə qəhrəmanlıq, vətənpərvərlik motivləri çoxluq təşkil edir. Bu nümunələrdə xalqın həyat, cəmiyyət, yaşamaq uğrunda mübarizəsi də kifayət qədər yetkin olur. Bunlar həm də bir toplumun, xalqın, millətin qəhrəmanlıq, mədəniyyət tarixi ilə yanaşı, təfəkkür tarixi də mövcuddur. Bu gün varlığında türk ruhu yaşayan hər bir kəs əcdadlarımızın təfəkkür və düşüncə genişliyi və səviyyəsi ilə fəxr edə bilər. Bu motivlər sonralar azərbaycançılığın formalaşmasında özünəməxsus rol oynamışdır.

Key words: Azerbaijani literature, homeland, national identity, azerbaijanism
Ключевые слова: литература, литературные источники, национальное мышление, родина, идентичность.

VUGAR TEYMURKHANLI

NATIONAL IDENTITY AND AZERBAIJANISM IN THE CLASSICAL AZERBAIJANI LITERATURE

ABSTRACT

In the article the issues on formation of national thought in classical Azerbaijani literature are investigated. It is shown that as Azerbaijani classical literature has long developed in the context of Oriental literature, the topics developed were common. At the same time, the literature of this period included themes on national thought. Poets also wrote stories or verses about recent historical events and personalities, brought the image of these personalities to the literature. In these works, along with the propagation of Islam, we come across the name of the place where the poet belongs to. So, in classical Azerbaijani literature we come across various manifestations forms of patriotism, national thought and Azerbaijanism. Description of national identity in Qatran Tabrizi's, Khatib Tabrizi's, Khagani Shirvani's and Nizami Ganjavi's creative work in this form was due to his love for his homeland and people. Kh.Shirvani expresses national and homeland identity and praise of Shirvan in his works. N.Ganjavi shows that

The praise of the homeland and its people in N.Ganjavi's works shows that national thought has a special place in literature. The fact that the poet brought Alexander the Great to Azerbaijan-Barda shows that the poet belongs to this country. At the meeting between Alexander and Nushaba, the Azerbaijani girl's behaviour before the great conqueror is given as a manifestation of national identity. Bringing this context to the fore in studying classical literature reveals a new approach to literature and increases the interest of young people in literature.

Key words: Azerbaijani literature, homeland, national identity, azerbaijanism

ВУГАР ТЕЙМУРХАНЛЫ

ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНОГО МЫШЛЕНИЯ В ЛИТЕРАТУРНЫХ ИСТОЧНИКАХ АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

В статье исследуются составляющие национального мышления в источниках и родниках азербайджанской литературы. Показано, что в художественном мышлении главное место занимал вопросы национальных особенностей, характера и идентичности. На протяжении всей истории Азербайджанский народ прошел через великий процесс формирования

национального самосознания. Этот процесс состоял из разных этапов, но также проявлялся в разных компонентах литературного выражения (родина, страна, любовь к земле, национальная идентичность, национальная идея, национализм, патриотизм и т.д.). Время от времени народ проходил эти этапы, достигал высшей ступени национального самосознания и сумел сформировать свою государственность. В литературных источниках Азербайджана всегда присутствовал такие факторы, как героизм, честность, патриотизм, которые выражали любов к своему народу и Родине. Эти работы остаются актуальными не только с точки зрения искусства, но и с точки зрения национального патриотизма. Баяты, легенды, рассказы являлись первоисточниками устной народной литературы Азербайджана. В книге «Авеста» много художественных примеров, выражающих национально-этническое мышление народа. Легенды об Астиаге и Томрисе также свидетельствуют о мужестве и патриотизме народа. Памятники «Орхон Енисей», эпос «Дада Горгуд» и др. источники полны героических и патриотических мотивов. В этих примерах борьба людей за жизнь, за общество и за выживание является вполне зрелой. Наряду с историей героизма и культуры общества, народа и нации существует также история мышления. Каждый, кто сегодня живет в тюркском духе, может гордиться широтой и уровнем сознания и мышления наших предков. Эти мотивы впоследствии сыграли особую роль в формировании азербайджанства.

Ключевые слова: литература, литературные источники, национальное мышление, родина, идентичность.

Redaksiyaya daxil olma tarixi: 26.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli**
tərəfindən çapa tövsiyə olunmuşdur

ELMAN QƏHRƏMAN OĞLU NOVRUZOV

AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

XANDƏMİRİN "TARİXİ-HƏBİBÜLSEYR" ƏSƏRİNDƏ SEYİDLƏR VƏ ALİMLƏR (I məqalə)

XÜLASƏ

Xacə Qiyasəddin ibn Xacə ibn Həmaməddin Məhəmməd ibn Xacə Cəlaləddin ibn Burhanəddin Məhəmməd Şirazi əl-Hüseyni-Xandəmir, Mirməhəmməd ibn Seyid Büvhanəddin Xavənd şah ibn Kəmaləddin Mahmud Bəlxi-Mirxondun nəvəsidir.

Xandəmirin (1475-1536) "Tarixi-Həbibülseyr" əsəri XVI əsrdə fars dilində yazılmış ən qiymətli əsərlərdən biridir. O, Yer üzündə həyatın əmələ gəlməsindən Səfəvilər imperiyasının hakimiyyətinin əvvəlinə qədər çox böyük bir dövrü əhatə edir.

Bu əsərdə həm də o dövrün böyük yaradıcı şəxsiyyətləri (seyidlər, şairlər, yazıçılar, alimlər, tarixçilər və başqaları) haqqında zəngin və maraqlı məlumatlar mövcuddur. Bu baxımdan mövcud araşdırmada Xandəmirin zəngin yaradıcılığının daha geniş və əhatəli öyrənilməsi, xüsusən də, müstəqillik şəraitində onun "Tarixi-Həbibülseyr" əsərinin Azərbaycan dilinə tərcüməsi və hərtərəfli elmi-tədqiqata cəlb edilməsi zərurəti vurğulanır.

Açar sözlər: Azərbaycan, Xandəmir, "Tarixi-Həbibülseyr", seyid, alim, tarix

Xandəmirin (1475-1536) fars dilində qələmə alınmış "Tarixi-həbibülseyr" əsəri (3) olduqca dəyərli olduğuna görə, xəttatlar tərəfindən üzü ən çox köçürülən əsərlər sırasında yer alır. Daşbasma üsulu rəvac olandan sonra bu əsər dəfələrlə basılmışdır. Ona görə də dünyanın müxtəlif ölkələrində onun kifayət qədər əlyazma, ələlxüsus, daşbasma nüsxələri qorunub saxlanılır.

Əsl adı "حبيب السير فى اخبار الافراد البشر" ("Həbibülseyr fi əxbari-əl-əfrad"- "Hadisələr və insanlar haqqında məlumatlar barədə sevimli yaddaş") olan bu əsəri çapa hazırlamış Cəlaləddin Humayi onu "Tarixi-Həbibülseyr" kimi təqdim etmişdir.

Əsərin dili olduqca ibarəli və qəlizdir. Əlbəttə, Xandəmirin dərin zəka və düşüncəsi, qeyri-adi istedadı, fars və ərəb dillərini mükəmməl bilməsi, dövrünün elmlərini, məxsusən, islamın ehkamlarını və Qurani-Kərimi mükəmməl bilməsi, o dövrün üslubu da nəzərə alınmalıdır.

C.Humayi monqol istilasından Səfəvilərin əvvəllərinə qədərki farsdilli məşhur əsərlərin və onların müəlliflərinin, o cümlədən, Xandəmirin "Tarixi-Həbibülseyr" əsərinin adını çəkir:

1. Əlaəddin Ətamülk Cuyni. Tarixi-cəhanqoşa;

2. Xacə Rəşidəddin Fəzlullah Həmədani Vəzir. Camee-əttəvarixi-Rəşidi;
3. Ədib Abdulla Şirazi. Tarixi-Vəssaf;
4. Ədib Fəzlullah. Tarixi-moəccəm;
5. Həmdullah Müstövfi Qəzvini. Tarixi-qozidə və nezhətülqülub;
6. Qazi Bizavi. Nizamültəvarix, Təfsiri-Bizavi;
7. Qazi Əhməd Qəffari. Tarixi-nigarestan və cəhanara;
8. Şərəfəddin Əli Yəzdi. Zəfərnameyi-Teymuri;
9. Kəmaləddin Əbdülrəzaq Səmərqəndi. Mətləüssəidun;
10. Hafiz Əbru (Şəhabəddin Abdulla bin Lütfullah Xafi). Zebdətültəvarix;
11. Müəyyənəddin Məhəmməd/Səfzari. Rövzətülcenat fi tarixi-mədinəti-Herat (Sultan Hüseyn Bayqaraya ithaf olunub);
12. Fəsih Əhməd bin Cəlaləddin Məhəmməd. Kitabi-məcməəlfəsihi;
13. Mirxond Əmir Mahmud Bəlxi. Rövzətüssəfa (7 cilddə). 77 yaşında vəfat edib və Şeyx Bəhaəddinin məqbərəsində basdırılıb. Rzaqulu xan Hidayət, Nəsirəddin şahın zamanında ona 3 cild (Səfəvi, Əfşar, Zənd və Qacarlardan Nəsirəddin şaha qədər) əlavə edib və Rövzətüssəfayi-Nasiri (10 cild) əsərini yazıbdır;
14. Xandəmir. Tarixi-Həbibülseyr.

Təəccüblüdür ki, bu siyahıda Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Dəstur əl-katib fi təyin əl-məratib" ("Vəzifələrin təyin olunmasında katiblərə göstəriş") adlı 3 cildlik fundamental əsərinin adı yoxdur, halbuki bu əsər ensiklopedik bir əsərdir və bütövlükdə Şərqin tarixi, dövlətçiliyi, elm, mədəniyyət və ədəbiyyatı, bütövlükdə məişətinin öyrənilməsi üçün əvəzsiz bir qaynaqdır (2).

Xandəmirin ata-babaları yüksək dövlət işlərində çalışmışlar. Lakin o, siyasət və dövlət işlərindən uzaq olmuş, yaradıcılıq fəaliyyətinə üstünlük vermişdir.

Belə məlum olur ki, "Tarixi-Həbibülseyr" əsəri yazarkən Mirxondun "Rouzətüssəfa" əsəri (4) və çox güman ki, digər çoxsaylı mənbələrdən, xüsusən də, Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə"sindən (1) istifadə olunmuşdur.

"Tarixi-Həbibülseyr"in başqa bir xüsusi əhəmiyyəti ondan ibarətdir ki, əsərdə 1495-ci ildən sonrakı dövrə aid böyük şəxsiyyətləri-seyid, alim, şair, şeyx, tarixçi, filosof, dövlət xadimləri və s. haqqında ayrıca məlumat verir, yəni əsər həm də təzkirə xarakterli olub, çox qiymətli mənbədir.

Xandəmirin "Tarixi-Həbibülseyr" əsərinin təzkirəvari hissələrində ardıcıllıq və nizam-intizam gözlənilməmişdir; əlifba sırası, biblioqrafik göstəricilər, müəlliflərin bir çoxunun anadan olma və ölüm tarixi və s. kimi məlumatlar ya, yoxdur, da naqisdir. Bütün bunlar əsərin fövqəladə əhəmiyyətinə xələl gətirmir. Əsərin təzkirə hissələrindən dərlədiyimiz bir neçə nümunəyə diqqət yetirək:

Şeyx Fəriddəddin Əttar Nişaburini "Böyük şeyx" adlandıran tarixçi, şairin "Məntiqülteyr" və qəzəllərdən ibarət "Divan"ının adını çəkir, əsərlərinin şərhə və bəyana ehtiyacı olduğunu vurğulayır, onun 114 il yaşadığını, kafirlər tərəfindən öldürüldüyünü qeyd edir (3, II c., s. 333-334).

Əsərin təzkirə hissələrində hər bir şəxsiyyət üçün tutarlı oxşar epitet və təmtəraqlı ifadələrin işlədilməsini ümumi səciyyə kimi dəyərləndirmək olar.

Bəzən təzkirədə adı keçən şəxsiyyət haqqında olduqca məhdud, lakin çox tutarlı və maraqlı məlumatlar verilir, məsələn, İmami Herəvi haqqında verilmiş aşağıdakı ifadələr kimi: "Fəsahətdə və bəlağətdə öz zamanının əvəzolunmazlarındandır. O dərəcədə məharətlidir ki, onun Şeyx Sədiyə bərabər tutur, hətta ondan üstün hesab edirlər." (3, III c., s. 387). Bu baxımdan "Tarixi-Həbibülseyr" əsərini böyük tarixi şəxsiyyətlər, o cümlədən, alim və şairlər haqqında ümumi məlumat (soraq) kitabı hesab etmək olar. Müəllifin fikri hər hər hansı şəxsiyyət haqqında monoqrafiya yazmaq olmamışdır. Nəticədə 100-lərlə tarixi şəxsiyyətin adı "Tarixi-Həbibülseyr" əsərinin vasitəsi ilə günümüzə qədər gəlib çatmışdır.

Bəzən isə haqqında söhbət gedən şəxsiyətlərin, alim və şairlərin cəmiyyətdə tutduğu vəzifələr haqqında da məlumat verilir. Bu da əhəmiyyətli bir məsələdir. Bəzi məlumatlar isə bugünkü təqiqatçını da təəccübləndirir, məsələn, Elməddin Əbülqasım bin Məhəmməd bin Yusif əl-Bərzani böyük hafiz olmuşdur; o, hədisə dair 20 cildlik irihəcmli bir əsərin müəllifidir (3, III c. s. 265).

"Tarixi-Həbibülseyr"in təzkirə hissələrinin ilkin tədqiqi ilə təkcə zahiri (təxəllüs) göstəricilərinə görə, aşağıdakı 10-larla azərbaycanlı şair və alimin adını müəyyənləşdirmək mümkün olmuşdur: Şeyx Əbu Əli Sina, Mövlana Kəmaləddin Məsud Şirvani, Mövlana Əlaadilin Əli Quşçu, Əmir Seyid Əli bin Şəhab bin Məhəmməd əl-Həmədani, Cəlaləddin Mahmud əl-Qəzvini, Şeyx Səfi əl-Həqq və əl-Həqiqə və əl-Əddin əl-Ərdəbili, Şeyx Şərəfəddin Təvil Qəzvini, Şeyx Səədəddin Qutluq Xacə Xalidi Qəzvini, Mövlana İsmayıl Təbrizi, Mövlana Hacı Məhəmməd Təbrizi və s. Heç şübhə etmirik ki, ətraflı araşdırma ilə 100-lərlə həmyerlimiz ədəbiyyat və mədəniyyət tariximizə qovuşdurulacaqdır.

Xandəmirin "Tarixi-Həbibülseyr" əsərinin təzkirə hissələrindən dərlənmiş seyid və alimlərin bəziləri:

1. Şeyx Fəridəddin Əttar Nişapuri.
2. Şeyx Səid ibn Əəm Həkim Sənai.
3. Şeyx Rəziəddin Əli Lala əl-Qəznəvi.
4. Əhməd bin Həsən Meymənd.
5. Əbu Əli Həsən bin Məhəmməd.
6. Şeyx Əbu Əli ibn Sina.
7. Xacə Nəsirəddin əl-Tusi əbu Cəfər.
8. Şeyx Bəhaəddin Məhəmməd bin Hüseyn bin Əhməd əl-Xətibi əl-Bəkri.
9. Şeyx Sədrəddin Məhəmməd bin İshaq əl-Konyəvi.
10. Şeyx Məhəmməd Kəcucani.
11. Şeyx Ouhədəddin Hamid Kirmani.
12. Şeyx İzəddin Nəzəri.
13. Mövlana Qütbəddin Əllamə Şirazi.

14. Hafiz Əli bin Əbxəb bin Osman bin əl-Sai.
15. Rəşiq əl-Qətni.
16. Seyid Cəmaləddin Kaşi.
17. Məlik Rəziəddin.
18. İmadəddin Füzuli.
19. Məcid Həmgər.
20. İmami Herəvi.
21. Rəziəddin Məhəmməd bin Əli bin Yusif əl-Şatibi.
22. Yusf bin Məhəmməd əl-Katib.
23. Əbu Səid Nasirəddin Abdulla əl-Beyzavi.
24. Cəmaləddin Məhəmməd bin Süleyman.
25. Zeynəddin Əli bin əl-Said.
26. Nəcməddin Zərkub.
27. Mövlana Həbətullah.
28. Mövlana Məhiəddin.
29. Şeyx Osman Saveçi.
30. Şəmsəddin Əbiduş
31. Rəfiəddin Bekrani.
32. Rüknəddin.
33. Şəmsəddin Kaşi.
34. Şeyx Cəmaləddin Mütəhərhəli.
35. Şeyx Əbdürrəhman Xorasani.
36. Mövlana Qütbəddin Mahmud.
37. Mövlana Şəhabəddin Abdulla əl-Şirazi.
38. Əbu Süleyman Fəxrəddin Davud Binakati.
39. Məhəmməd bin Əsəd bin Abdulla əl-Nəcəfi əl-Təstəri.
40. Seyid Şərəfəddin Xəttat Şirazi.
41. Şeyx Səfi əl-Həqq və əl-Həqiqə və əl-Əddin əl-Ərdəbili.
42. Şeyx Şərəfəddin Təvil Qəzvini.
43. Şeyx Səədəddin Qutluq Xacə Xalidi Qəzvini.
44. Şeyx Rüknəddin Əlaüddövlə Simnani.
45. Şeyx Övhədi İsfahani.
46. Qazi İzəddin Əbdürrəhman bin Rüknəddin bin Əhməd bin Əbdülqaffar əl-Ənci.
47. Mövlana Qütbəddin.
48. Hafiz Əbdürrəzaq əl-Futi.
49. Mövlana Cəlaləddin Ətiqi.
50. Fəxrəddin Fəthullah Həmdullah əl-Mustovhi.
51. Abdullah bin əl-Əbidi əl-Fərqani.
52. Əbu əl-Məkarim Fəxrəddin Əhməd bin əl-Həsən əl-Caebərdi.
53. Şəmsəddin Mahmud bin Əbu əl-Qasım Əhməd əl-İsfəhani.

54. Hafiz Nəcməddin Əli bin Əbdükafi.
55. Məhəmməd bin Abdulla bin Malik əl-Ciyani.
56. İmam Şeyx Yəhya Məhiəddin.
57. Şeyx Əbu İshaq İbrahim bin Müasiryar əl-Cəbəri.
58. Şeyx Yasin əl-Məğribi.
59. Seyfəddin Qələdun ibn əl-Buxari əl-Məhdəs.
60. Şeyx Əfifəddin Süleyman bin Əli Qulməsani.
61. Hafiz Əllamə Məsud bin Əhməd əl-Harisi.
62. Cəmaləddin Məhəmməd bin Mükərrəm əl-Ənsari.
63. Məhdəs Əllamə Süleyman bin Həmzə əl-Müqəddəsi.
64. Bədrəddin Məhəmməd bin İbrahim.
65. Əbülfət Məhəmməd bin Məhəmməd bin Məhəmməd bin Məhəmməd Seyid Ünnas əl-Yəməri.
66. Qütbəddin Əbdülkərim bin Əbdülnur əl-Hələbi əl-Misri.
67. Cəlaləddin Mahmud əl-Qəzvini.
68. Məhəmməd bin İbrahim əl-Cəzəri əl-Şafei əl-Dəməşqi.
69. Şəhabəddin Məhəmməd bin Əhməd əl-Xəlili.
70. Mövlana Cəlaləddin Məhəmməd əl-Bəlxi.
71. Şəmsəddin Məhəmməd bin Əhməd bin Osman əl-Zəhəbi.
72. Xacə Məhəmməd Parsa vələdi-Məhəmməd bin Mahmud əl-Hafezi.
73. Elməddin Əbülqasım bin Məhəmməd bin Yusif əl-Bərzani.
74. Şəmsəddin Abdulla Məhəmməd bin Əhməd əl-Məruf.
75. Nəcməddin Əbdürrərman bin Yusifəddin əl-Əsfəvi.
76. Səlahəddin Xəlil bin Eybək əl-Səfədi.
77. Əfifəddin Abdulla bin Əsəd əl-Yafei.
78. Tacəddin əbu əl-Nəsr Əbdülvahab bin Təqiəddin Əli.
79. Əbu Hefs Ömər bin əl-Həsən bin Müzəyyəd bin Amil əl-Mərağı əl-Hələbi əl-Məzəni.
80. Bürhanəddin İbrahim bin Əhməd əl-Şami.
81. Səracəddin Ömər bin Əli əl-Ənsari.
82. Zeynalabdin Əbdürrəhim bin əl-Hüseyn əl-İraqi.
83. Mövlana Nizaməddin Əbdürrəhim əl-Xafi.
84. Xacə Qütbəddin Yəhya.
85. Qazi Cəlaləddin Mahmud İmami.
86. Sübhani Əmir Nəsrullah Səncani.
87. Xacə Müəyyəddin Məhəmməd Cami.
88. Xacə Ziyaəddin Yusif.
89. Əmir Fəxrəddin Mahmud Müstövfi.
90. İmami Herəvi.
91. Xacə Şəmsəddin Məhəmməd.
92. Məlik Müəyyənəddin Məhəmməd Pərvanə Rumi.

93. Mövlana Nurəddin Rəsədi.
94. Məlik İftixarəddin Zuzəni.
95. Mövlana Cəlaləddin Mahmud Zahid Morğabi.
96. Əmir Seyid Əli bin Şəhab bin Məhəmməd əl-Həmədani.
97. Baba Səngu.
98. Mövlana Zeynəddin Əbubəkr Taybadi.
99. Xacə Bəhaəddin Nəğşbənd.
100. Xacə Əlaəddin Əttar.
101. Mövlana SəədəddinMəsud bin Ömər əl-Təftazani.
102. Əmir Seyid Şərifəddin Əli əl-Cürcani.
103. Mövlana Abdullah bin Mövlana Lisaməddin Məhəmməd.
104. Mövlana Nizaməddin Şami.
105. Şeyx Şəmsəddin Məhəmməd bin Məhəmməd əl-Cəzəri Nurullah Morqde.
106. Qazi Qütbəddin Abdullah əl-İmami.
107. Seyid Bürhanəddin Əşrəf bin Mübarək şah.
108. Şeyx Kamal Xocəndi.
109. Mövlana Məhəmməd Şirin Məqrebi.
110. Mövlana Səfiəddin Xetlani.
111. Şeyx Mahmud Zəngi Əcəmi Kirmani.
112. Mövlana Əli Bedər.
113. Xacə ƏsmətullaBuxari.
114. Mövlana Nəcməddin əl-Taremi.
115. Xacə Əli Təbrizi əl-Şətrənci.
116. Mövlana Hüsaməddin İbrahim şah Kirmani.
117. Xacə Lütfüllh bin Xacə Əziz Vazei.
118. Əmir Qiyasəddin Məhəmməd.
119. Şeyx Məhiyəddin Məhəmməd əl-Qəzali əl-Tusi.
120. Mövlana Nurəddin Lütfullah.
121. Mövlana RüknələddinMəhəmməd əl-Xafi.
122. Xacə Əbu əl-Vəfa Xarəzmi.
123. Mövlana Kəmaləddin Hüseyn Xarəzmi.
124. Seyid Sədrəddin Yunis əl-Hüseyni.
125. Əmir Qasım Ənvar.
126. Xacə Məhəmməd Əsğər.
127. Şeyx Zeynəlləddin Əbubəkr əl-Xafi.
128. Qazi Sədrəddin Məhəmməd.
129. Mövlana Ziyaəddin Nurullah əl-Xarəzmi.
130. Mövlana Cəlaləddin bin Məhəmməd Qaini.
131. Şeyx Əbusəid.
132. Şeyx Əbdülqadir Quyəndə.
133. Seyid Nürəddin Məhəmməd.

134. Mövlana Şəmsəddin Məhəmməd.
135. Ustad Qəvaməddin Memar Şirazi.
136. Mövlana İmaməddin Əbdüləziz Əbhəri.
137. Mövlana Yəhya Seybək.
138. Mövlana Şərqəddin Əli əl-Yəzdi.
139. Mövlana Şəhabəddin Əbdülrəhman Lisan.
140. Murtuza Səhaf.
141. Baba Sevdayi.
142. Mövlana Mahmud Arifi.
143. Əmir Şahi Ağamülk.
144. Mövlana Şəmsəddin əl-Hərudi
145. Mövlana Cəfər Təbrizi.
146. Zikr Rükn əl-Səltənə və əl-Xiafə Mirzə Əlaüddövlə.
147. Mirzə Uluq bəy Məhəmməd Torağay Gürgan.
148. Mövlana Nəfis.
149. Xacə Üsaməddin.
150. Xacə Əfzələddin Keşi

Şah İsmayıl 1524-cü ildə dünyasını dəyişəndən bir neçə il sonra, yəni 1527-ci ildə Hindistana köçən Xandəmir, 1536-cı ildə burada dünyasını dəyişmiş və vəsiyyətinə uyğun olaraq, Xacə Nizaməddin Övliya[1] qəbristanlığında Əmir Xosrov Dəhləvinin[2] qəbrinin yanında basdırılmışdır.

Xandəmirin "Tarixi-həbibülseyr" əsərində haqqında bəhs olunan azərbaycanlı seyid, şair və alimlərin daha ətraflı və müfəssəl öyrənilməsi məqsədi ilə əsərin Azərbaycan dilinə tərcümə edilməsi və geniş elmi-tədqiqata cəlb olunması vacibdir.

ƏDƏBİYYAT

1. Rzayeva R.N. Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsəri. Bakı: Papirus NP. 2016, 196 s.
2. Ализаде А. А. Мухаммад ибн Хиндушах Нахчывани. Дастур ал катиб фи тайин ал-маратиб: (Руководство для писца при определении степеней). В 2-х т./ Крит текс, предисл. и указат. Москва: Наука, т. 1, ч 1., 1964, 586 с.; Т.1.ч.2., 1971, 566 с.; Т.2., 1976, 569 с.
3. خواند امیر. تاریخ حبیب السیر. در 4 جلد. زیر نظر دکتر محمد دبیر سیاقی. با مقدمه استادجلال الدین همائی. تهران: انتشارات کتابفروشی خیام. 1362 . 2930 ص.
4. میرخوند محمدبن خاوندشاه بلخی. روضةالصفا. تهذیب و تلخیص دکتر عباس زریاب، ۲ مجلد، تهران ۱۳۷۳.

[1] Xacə Nizaməddin Övliya-Sufizmin, əsasən Hindistanda yayılmış Şistiyyə təriqətinin 5 əsas şeyxindən biri

[2] Əmir Xosrov Dəhləvi (1253-1325)-Məşhur Hindistan şairi, alimi və musiqiçisi

Эльман Новрузов Гахраман оглы

СЕИДЫ И УЧЕНЫЕ В ПРОИЗВЕДЕНИЕ «ТАРИХИ-ХАБИБУЛСЕЙР» ХАНДЕМИРА (статья I)

Аннотация

Хадже Гиясаддин ибн Хадже ибн Хамамеддин Мухаммед ибн Хадже Джаледдин ибн Бурханеддин Мухаммед Ширази ал-Гусейни-Хандемир внук Мирмухаммеда бин Сейид Бурханеддин Хавенд шах ибн Кямаладдин Махмуд Балхи-Мирхонда.

Произведение “Тарихи-Хабибулсейр” Хандемира (1475-1536) одно из ценных произведений, написанных на персидском языке в началах 16 вв. Оно охватывает очень большую эпоху-с создания жизни на Земле до начала правления империи Сафавидов.

В этом произведение, а также имеются богатые и интересные информации о великих творческих людях (сейиды, поэты, писатели, ученые, историки и др.) того времени и подчёркивается необходимость изучения богатого творчества Хандемира, в рамках более масштабного и полного исследования, особенно перевод его произведения “Тарихи-Хабибулсейр” в Азербайджанский язык и привлечение его к широкому научному исследованию в условиях независимости.

Ключевые слова: Азербайджан, Хандемир, “Тарихи-Хабибулсейр”, сеид, ученый, история

Elman Q. Novruzov

SAYYIDS AND SCIENTISTS IN THE WORK “HABIBULSEYR” BY HANDEMIR (article II)

Resume

Xaje Qiyasaddin ibn Xaje ibn Hamameddin Muhammad ibn Xaje Celalleddin ibn Burhaneddin Muhammad Shirazi al-Huseyni-Handemir is grandson of Mirmuhammad bin Seyid Burhaneddin Xavand shah ibn Kamaladdin Mahmud Balhi-Mirhond.

"Tarixi-Habibulseyr" work by Handemir (1475-1536) is one of the most valuable works written in the Persian language in the beginnings of the 16 century. That surrounds many large period-from the beginnings of life on Earth until beginnings of the authority of Safavids Empire.

There are very much rich and interesting knowledge about great creative mens (sayyids, poets, writers, scientists, historians and so.) in this work, too and is

emphasized the necessity of more comprehensive and detailed searching of this creation in the under the rich basic of creation of Handemir, especially translation the work of "Tarixi-Habibulseyr" into Azerbaijani and drowing into large research work after translation, in the frame of sovereignty.
Keywords: Azerbaijan, Handemir, "Tarixi-Habibulseyr", sayyid, scientist, history.

Redaksiyaya daxil olma tarixi: 27.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **filologiya üzrə fəlsəfə doktoru Şəmsi Pənahoğlu**
tərəfindən çapa tövsiyə olunmuşdur

ZEYNALLI JALƏ ELŞEN

Bakü Devlet Üniversitesi, Z.Xəlilov küç.23
j.zeynalli
@mail.ru

YAŞAR KEMAL'İN İNCE MEMED ROMANINDA KARAKTER PROBLEMİ

Rusca: Яшар, Кемаль, роман, общество, сопротивление
Key words: Yashar Kemal, novel, , society, resistance
Anahtar kelimeler: Yaşar Kemal, roman, toplum, direniş

İnce Memed kimilerine göre bir aşk destanı, kimilerine göre kahramanlık öyküsü, kimilerine göre de eşkiyalık maceralarıdır. Lakin tüm bu vasıflarla beraber "İnce Memed" bir direniş ve hayata ve toplum üyelerine karşı verilen yaşam mücadelesidir. Yaşar Kemal'in romanları içerisinde önemli bir yeri olan "İnce Memed" ağa-köylü, toplum-insan, düzen-halk ilişkisini oldukça gerçekçi şekilde yansıtan bir romandır. "Romanın başlarında İnce Memed Abdi Ağa'nın dayaklarına maruz kalan ve dul anasıyla beraber Dikenlidüzü köyünde ırgatlık yaparak kıt kanaat geçinen zayıf, çelimsiz, pısırık bir delikanlıdır. Abdi Ağa, ağası olduğu köylerde tüm toprakların sahibidir ve köylünün ürettiği ürünün üçte ikisine el koymaktadır. Toplam üretimin üçte biriyle yetinmek zorunda kalan özellikle kuraklık zamanlarında karınlarını doyuracak kadar yiyecek bulmaya bile zorlanmakta ancak Abdi Ağa'ya seslerini çıkaramamaktadırlar." [2] Memed yetimdir ve köyün ağası Abdi ağa bu durumdan faydalanır, başlarında bir babanın olmaması onun için zulmünün sınırlarını da aradan kaldırır. Romanının en belirgin konusu ağaların yoksul halka yaptığı zorbalıklardır, bununla beraber zulüm, sömürü, baskı, adaletsizlik, toprak hırsı, acizlik, sahipsizlik temaları çarpıcı bir şekilde işlenmiştir. Roman sosyal adaletsizlikle mücadele ve bu adaletsizliğin altında yatan sebepler üzerinde kurulmuşdur. Adalet nedir? Kaynağını nerden alır? Adalet savaşır mı? Hangisidir adalet; ağanın bir gecede bulduğu mu çağlar boyu savaşta ve barışta istenen Memedinki mi? Hangi adalet galipse daha güzeldir dünya? [6, s.2] Yaşar Kemal hemen hemen her romanında kendi içinde birer direniş destanı yaratmıştır. Yazarın şiirsel dili tüm sihri ve akıcılığı ile okuru büyüler, İnce Memedin yaşadıklarına, çektiği acılara ortak oluruz. Yaşar Kemal bize Anadolu köylüsünün çağdaş dünyadan çoktan kopmuş düzenini ve bu düzenden çıkarı olan "ağa/bey" gibi karşıt güçlere yalnız başına direnen Memed'in mücadelesini anlatır. Romanın ilk bölümünde yazar bize köylünün yaşadığı ortamı, hangi güçlüklerle mücadele ettiğini göstermekle direnişin kaçınılmaz olduğunu, İnce Memedi yetişdirenin aslında bu ortam olduğunu gözler önüne serer. Yazarın köy hayatına bu denli aşina olması

hayatının bir kısmını köyde geçirmesi ve köy hayatını iyi bilmesi ile açıklayabiliriz. "Yaşar Kemal kendisiyle yapılan bir söyleşide, "Türkiye'de ilk köylü asıllı romancının" kendisi olduğunu dile getirir." [4, s. 175]

Yazarın bize yapıtın başkişisi olan İnce Memed'in kimsesiz, elinde hiç bir şeyi olmayan bir çocuk olarak göstermesi bizi haksızlıklara karşı mücadeleye cesaretlendirir. Memed daha küçük bir çocukken köydeki haksızlığa, Abdi ağa'nın zulmüne dayanamaz ve köyden kaçar. Memedin bu adımı herkesi şaşırtır, çünkü bu zamanadek kimse Abdi ağa'nın köyünden kaçmamış, kaçamamışdır. Çünkü bunu akıllarına bile getirmemişlerdir. Köylülerin bu denli zulme boyun eğmesini ağanın zorundan, başlarına gelecek felaketlerden korkması ile açıklamak mümkündür. Yaşar Kemal yıllar yılı beş köyün ağası Abdi ağa'nın kurduğu "hakimiyet"e boyun eğen köylüleri İnce Memed'in bu hakimiyete karşı direnişi ile hakkını aramaya davet eder. İnce Memed ilk önce kendi isteği ile eşkiya olup dağa çıkmaz, buna mecbur kalır. "İnce Memed ruhunda duyduğu özel görevi yerine getirmek için dağlara çıkar. Köy halkının da sevdiğinin de var olmaları ya da tükenip gitmeleri dağa çıkmak zorunda kalacak "Mecbur Adam"a bağlıdır. Mecbur adamı dağa çıkartan, kör bağırsak haline getirilmiş, sosyal adaletin sağlan(a)madığı düzendir." [7, s. 40] Daha sonra ise bu durumdan köylülerin hakkını savunmak, onlara elinden geldiğince yardım edebilmek için faydalanır. Türk edebiyatında eşkıyalık teması 1500'lü yıllardan beri işlenegelmiştir. Anadolu; hak yiyenlerin, adaletsizliklerin, zulümlerin önünü Yunus'un, Köroğlu'nun, Dadaloğlu'nun, Pir Sultan Abdal'ın, Kuyucaklı Yusuf'un, İnce Memed'in cesareti, söz'üyle kesmiştir. İnce Memed soylu eşkıyalığın bengü taşı gibidir. [5, s.1]

Abdi ağa'nın köylüye sunduğu yaşam ölümden beterdir. İnsanlar kışın yiyecek yemek, giyecek kıyafet bulamaz. İnce Memed'in ilk direnişi Abdi ağanın elinden kaçıp özgürce yaşayabileceği bir köy araması ile başlar. Küçük bir çocukken bile özgürlük, Abdi ağanın olmadığı bir dünyada yaşamak, kendi toprağını ekip-biçmek fikri Memedi rahat bırakmaz. Gerekirse ölümü bile göze alan bu çocuk ilk isyanını böyle seslendirir: "Giderim bulurum o köyü. Kimse bilmez oraya gittiğimi. Gider bulurum. Giderim işte. Çoban olurum işte. Çift sürerim işte. Anam beni arasın işte. Arasın aradığı kadar. Keçi sakallı göremez yüzümü. Göremez işte. Ya köyü bulamazsam? Bulamam! Aç kalır ölürüm. Ölürüm işte." [4, s. 13-14] Bu düşünce ile köyünü, evini, anasını terk eden Memed yaşlı Süleymanın evine sığınır, ona çobanlık yapar. Belki de hayatında ilk defa insani muamele gören, dövülüp aşağılanmadan gün geçiren Memed burada mutludur. Bir süre burada Süleymanın ailesi ile yaşar fakat Memed anasını özlemişdir. Ve bu özlem onu için-için yer bitirir. "Acaba keçi sakallı Abdi anama ne yaptı?" diye düşünmekten alıkoyamaz kendini. Ve nihayet özlemine yenik düşer, kendini ele verir ve köyüne geri döner. Memed'in kötü günleri bununla bitmez… Memed artık büyümüş, genç delikanlı olmuşdur. Ve büyük bir aşkla sevdiği Hatçe zorla Abdi ağa'nın yeğenine nişanlanır. Bunun üzerine Memed'in asıl direniş öyküsü başlar. Ve bununla da, tüm hayatı değişir. Hatçeyle

birlikde kaçmaya karar veren Memed olaylara itirazını bu şekilde belirtir. Lakin şans yine Memedden yana değildir ve kısa sürede Memed ve Hatçe izi sürülerek bulunur. Tam bu sırada Memed bir karar vermelidir: ya Abdi ağa'ya teslim olup cezasını çekmeli, ya da cezaya layik olan kişinin cezasını kendi vermeli. Memed ikinci yolu seçer ve Abdi ağa'yı ve yeğenini vurur. Yeğeni ölür, Abdi ağa yaralanır, Hatçe ise köye dönmek zorunda kalır. Memed de eşkiyalara katılıp dağa çıkar. Fakat o, çetesine katıldığı Deli Durdu gibi değildir, haklıyla haksızı ayırır, kimseye kötülük etmek derdinde değildir. Bunu Deli Dursun Kerimoğlu'nu soymak isterken ona karşı gelmesinde görürüz. Deli Durduyu karşısına almak pahasına da olsa, Kerimoğlu'nun ona yaptığı iyiliği unutmaz ve onu büyük bir utançdan kurtarır. Abdi ağa'nın zulmüne boyun eğmediği gibi, Deli Durdu'ya da karşı gelir Memed. İyi insanların küçük düşürülmesine göz yumamaz ve kendi yöntemleri ile zalimin cezasını vermeye hazırdır. Tüm yaşananlarla birlikte köylüler arasında İnce Memed'in şanı yayılmaktadır. Nice destansı öyküler dillere düşmüş, herkes bir İnce Memeddir konuşuyor. Yazar İnce Memed'i kendi isteği ile deyil, zorunlu şartlardan eşkiyalığa düşmesine okuru inandırıyor ve herkesin, özellikle de haksızlık altında ezilen köylünün onu sevdiğini göstermekle İnce Memed'e karşı bir sevgi yaratmayı ve onu anlamamızı sağlıyor. İnce Memedin başkaldırısı ile ilgili Yaşar Kemalin kendi dilinden şu sözler sarf edilmiştir: "Ben İnce Memedde başkaldırıyı savundum. İnsanoğlunun en büyük değerlerinden birisi, başkaldırıdır. İnsanın doğaya başkaldırışı, insanın insana başkaldırışı, insanın zulme başkaldırışı…" [5, s. 36]

İnce Memed ezilen, sömürülen halkın kahramanına çevrilmişdir. Ve onu diğer eşkiyalardan ayıran en önemli özelliklerden biri de geçimini halkı ezerek, inciterek sağlayıp zengin olmayı düşünmez. İnce Memed'in başkaldırısı sisteme değil, sistemin yetişdirdiği temsilcilere karşıdır. İnce Memed konuya o kadar derin yanaşmaz, Abdi ağa'nın, tek bir kötünün ölümü ile sistemin düzeleceğine, insanların refah içinde yaşayacağına inanır. Yazar Abdi ağa'nın ölümü ile zayıfların her zaman kaybedeceğini, güçlülerin ise kazanacağı fikrini yerle bir eder. İnce Memed kendi başkaldırısı ve direnişi ile köylüye umut ışığı olmuş, onları iyiliğin kazanabileceğine inandırmıştır. Yazarın düşüncesine göre "hiçbir zulüm ve kötülük yerde kalmaz". "Ey insanoğlu başkaldır!" diye bağırıyordu... "Korkma! İçindeki o yüz bin yıllık ağanın, korkunun üstüne yürü! Ona başkaldır. Önce içindeki, yüreğindeki zinciri kopar, başkaldır. Sonra dünyanın bütün zincirlerini kır, tekmil kötülüklere başkaldır! İyilik getir. Getirdiğin iyilikler de belki bir gün insanlar için kötülük olur, kendi iyiliğine de başkaldır!" [1, s. 25]

İnce Memed ağa zulmü ve adaletsizliği ile büyümüştür. Daha küçücük bir çocukken Abdi ağanın köyünde çocuğa verilen deyeri Memedin bu sözleriyle anlarız: "Dursun dedi ki, bizim köyde, dedi, çocukları dövmezler. Çocukları çifte salmazlar." [4, s. 16] Süleyman efendiye sığınan Memed köyden kaçış sebebini şöyle izah eder: " Beni,' dedi, 'döve döve öldürürdü. Hem çift sürdürürdü çakırdikenlikte yalınayak. O da ayazda. Hem öldürürdü. Birinde beni bir dövdü, bir dövdü… Bir ay

yataktan kalkamadım. Herkesi döver ya, beni çok döver. Anam diyor ki, Sarı Hocanın muskası olmasaymış, ben ölürmüşüm…" [4, s. 20] Ancak İnce Memed'in Abdi ağaya olan kininin, nefretinin bir sebebi de Memedin dağa çıkmasından sonra anası Döneyi döve-döve öldürmesi ve Hatçeyi suçsuz yere hapse attırmasıdır. Memed bunu kabullenemez, etdiyi suçun Abdi ağa'nın yanına kalmasına göz yumamaz. Memed'in nefreti öfke ve düşmanlığın kaynağına yönelik bir eğilimdir. Burada gördüğümüz zayıf, ezilen halkın yalnız olması, kendi başının çaresine bakmak zorunda kalmasıdır. İnce Memed kimseden bir destek görmeyince Abdi Ağa'nın cezasını kendi vermek zorunda hiss eder. Romanın birinci ciltinin sonunda Memed seçim karşısında kalır: ya Abdi ağa'yı boşverip afdan yararlanacaq ve rahat bir hayat yaşayacaq, ya da Abdi ağa'yı öldürecek, hayatı pahasına kendini ve köylüyü bu işgenceden kurtaracaq. Memed'in seçtiği yol direnişinin sonucudur, çocukluktan beri kalbine, aklına yer etmiş, onu rahat bırakmayan bir düşüncenin neticesidir. Memed'in bu direnişi işe yarar mı?- orası sorgulanır. Çünki sistem nice Abdi ağalar yetişdirir, nice ağaları cezasız koyar. Köylünün sesini ise duyan yoktur.

Bir çok nedenle İnce Memed'in Türk edebiyat tarihindeki en önemli romanlardan biri olduğunu rahatlıkla söyleyebiliriz. Bu nedenlerden en önemlisi ise kanaatimizce romanda ezilen insanı başkaldırıya, direnişe çağırmak, insanın tüm yaratılış içinde en güçlü, en özgün yaratılış olduğuna inanmasını sağlamakdır. Usta yazar bunu küçücük, arkasız bir çocuğun büyüyüp de bir şahsiyete bürünürken yaşadıklarının timsalinde gözler önüne sermeyi başarmıştır.

Ədəbiyyat

1. Camus, A. Başkaldıran İnsan. İstanbul: Can Yayınları, 2012. 285 s.
2. http://ydemokrat.blogspot.com/2009/12/ince-memed.html
3. Kaplan R. Cumhuriyet Dönemi Türk Romanında Köy. Ankara: Akçağ Yayınları, 1997. 624
4. Kemal Y. İnce Memed I cilt. Yapı Kredi Yayınları, 2020. 436 s.
5. Özcan Ü. Roman tekniği bakımdan Yaşar Kemal'in İnce Memed adlı yapıtı. Ardahan Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2015. 172 s.
6. Şeker B., Baytmaz G. İnce Memed ve sivil itaatsizlik. Türkiye iş bankası kültür yayınları, 2013. 8 s.
7. Uysal A. Yaşar Kemal'in İnce Memed romanının mekan-insan ilişkisi bağlamında değerlendirilmesi. Uluslararası sosyal bilimler dergisi, 2016. 48 s.

JALƏ ZEYNALLI

YAŞAR KAMALIN "İNCƏ MƏMƏD" ROMANINDA XARAKTER PROBLEMI

XÜLASƏ

Yaşar Kamal Türkiyə ədəbiyyatının ən önəmli nümayəndələrindən biridir. Yaşar Kamal yaradıcılığının şahəsəri hesab olunan "İncə Məməd" İncə Məməd trilogiyasının birinci romanıdır. Və bu roman Yaşar Kamala dünya səviyyəsində şöhrət qazandırdı. İncə Məməd romanın baş qəhrəmanıdır, hadisələr də onun ətrafında cərəyan edir. O, ağa zülmü və ədalətsizliyi ilə böyümüşdür. Romanın əsas mövzusu da əzilən xalqın müqaviməti və etiraz səsidir. Əsərdə əsas konflikt İncə Məməd və Abdi ağa arasında baş verir. Abdi ağa kəndlilərə zülm edir, öldürür, əməyini istismar edir. Bununla belə, kəndliyə kömək edəcək kimsə yoxdur. Belə bir cəmiyyətdə nəhayət Ağaya qarşı gələ bilən, onu cəzalandırmaq istəyən bir şəxsiyyət yetişir. Məmədin Abdi ağaya olan kininin, nifrətinin bir səbəbi də Məmədin qaçaq olmasından sonra ağanın onun anasını döyə-döyə öldürməsi və sevdiyi qızı günahsız olduğu halda həbsə atdırmasıdır. Məməd bunu qəbul edə bilmir, ağanın etdiklərinin cəzasız qalmasına göz yummaq istəmir. Burada gördüyümüz isə zəif, əzilən xalqın yalnız olması, özü öz başının çarəsinə baxmaq məcburiyyətində qalmasıdır. Odur ki, İncə Məməd də heç kimdən dəstək görmədiyi üçün Abdi ağanın cəzasını özü vermək məcburiyyətində hiss edir. Romanın birinci cildinin sonunda İncə Məməd seçim qarşısında qalır: ya Abdi ağanı düşünmədən onu bağışlayacaq və rahat bir həyat yaşayacaq, ya da onu öldürəcək öz həyatını qurban verib kəndliləri bu işgəncədən qurtaracaq. Məmədin seçdiyi yol dirənişinin nəticəsidir. Uşaqlıqdan bəri qəlbinə, ağlına yerləşmiş bir düşüncənin nəticəsidir.

"İncə Məməd"in Türkiyə ədəbiyyatının ən yaxşı romanlarından biri olduğunu söyləmək mümkündür. Bunun əsas səbəblərindən biri isə romanda əzilən insanı baş qaldırmağa, üsyana səsləyiş, onu güclü olduğuna inandırmaq məsələsidir. Böyük yazıçı bunu azyaşlı bir uşağın böyüyüb şəxsiyyətə bürünərkən yaşadıqlarının timsalında bizə təqdim etməyi ustalıqla bacarır. Məqaləmizdə İncə Məmədin başına gələn əhvalatlar fonunda onun haqsızlığa qarşı mübarizəsi, üsyanı və xarakteri təhlil olunmuşdur.

ZEYNALLI ZHALA

SUMMARY
CHARACTER PROBLEM IN YASHAR KEMAL'S NOVEL "INCE MEMED"

Yasar Kemal is one of the most important figures in Turkish literature. His novel "Memed, my hawk" is the first novel in his İnce Memed tetralogy. And this novel gaved to Yashar Kemal a national reputation. Ince Memed is a main character

of novel's and events unfold around him. He grew up with agha cruelty and injustice. The main theme of the novel is the resistance and protest of the oppressed people. The main conflict in the work is between Inca Mamad and Abdi agha. Abdi agha persecutes the peasants, kills them and exploits his labor. However, there is no one to help the villagers. In such a society, a person grows up who can eventually go against the tree and want to punish him. One of the reasons for Mamad's hatred for Abdi agha is that agha beat his mother to death and imprisoned his lover while she was innocent. Mamad cannot accept this and does not want to tolerate his master's impunity. What we see here is that weak, oppressed people are alone and have to take care of themselves. For this reason, Inca Mamad felt obliged to punish Abdi Ağa himself, as he did not get support from anyone. At the end of the first volume of the novel, Inca Mamad faces a choice: either he will forgive Abdi Agha without thinking and live a comfortable life, or he will save the villagers from this torture by killing him and sacrificing his life. The path chosen by Mammad is the result of resistance. It is the result of a thought that has been in his heart and mind since childhood.

It is possible to say that İnce Memmed is one of the best novels in Turkish literature. One of the main reasons for this is to raise the oppressed person in the novel, to call for rebellion, to convince him that he is strong. The great writer can present this to us in the example of what a little boy experiences when he grows up and takes on a personality. Our article analyzes Inja Mammad's struggle against injustice, rebellion and character against the background of the stories that happened to him.

ЗЕЙНАЛЛЫ ЖАЛЕ

ПРОБЛЕМА ХАРАКТЕРА В РОМАНЕ «ИНДЖЕ МЕМЕД» ЯШАРА КЕМАЛА

РЕЗЮМЕ

Яшар Кемаль – один из самых важных фигур в турецкой литературе. Его роман «Мемед, мой ястреб» - первый роман в его тетралогии «Индже Мемед». И этот роман принес Яшару Кемалю национальную репутацию. Индже Мемед – главный герой романа. И события разворачиваются вокруг него. Он вырос с ага-жестокостью и несправедливостью. Основная тема романа - сопротивление и протест угнетенного народа. Главный конфликт в произведении - между Индже Мамадом и Абди ага. Абди ага преследует крестьян, убивает их и эксплуатирует их труд. Однако помочь сельчанам некому. В таком обществе вырастает человек, который со временем может пойти против Абди аге и захотеть его наказать. Одна из причин ненависти Мамада к Абди аге заключается в том, что ага забил его мать до смерти и заключил в тюрьму его любимую женщину, когда она была невиновна. Мамад не может этого принять и не хочет мириться с безнаказанностью своего хозяина. Здесь мы видим, что слабые, угнетенные люди одиноки и должны

заботиться о себе. По этой причине Индже Мамад чувствовал себя обязанным наказать самого Абди Ага, так как он не получил поддержки ни от кого. В конце первого тома романа Индже Мамад стоит перед выбором: либо он простит Абди Агу, не задумываясь, и будет жить комфортной жизнью, либо он спасет жителей деревни от этой пытки, убив его и пожертвовав своей жизнью. Путь, выбранный Мамедом, является результатом сопротивления. Это результат мысли, которая была в его сердце и уме с детства.

Можно сказать, что «Индже Мамад» - один из лучших романов турецкой литературы. Одна из основных причин этого - поднять угнетенного человека в романе, призвать к бунту, убедить его в своей силе. Великий писатель может представить это нам на примере того, что переживает маленький мальчик, когда вырастает и приобретает индивидуальность. В нашей статье анализируется борьба Инджи Мамеда с несправедливостью, бунтом и характером на фоне произошедших с ним историй.

Redaksiyaya daxil olma tarixi: 27.11.2020
Çapa qəbul olunma tarixi: 05.12.2020
Rəyçi: **prof. Firuzə Ağayeva**
tərəfindən çapa tövsiyə olunmuşdur

XRONİKA

ELM və MƏDƏNİYYƏT: XRONİKA

yubileylər, konfranslar, elmi toplantılar, təqdimatlar, sərgilər, nəşrlər

İslam Əməkdaşlıq Təşkilatının Elm və Texnologiya üzrə Daimi Komitəsi (COMSTECH) Beynəlxalq Türk Akademiyası və Qazaxıstan Mədəniyyət Nazirliyi ilə birgə İslamabadda türk və İslam dünyasının dahi alimi və filosofu Əbu Nəsir Məhəmməd Əl Fərabinin 1150 illik yubileyi münasibətilə tədbir keçirib.

Azərtac xəbər verir ki, Pakistan Prezidenti, COMSTECH-nin sədri Arif Alvinin sədrlik etdiyi tədbirdə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Baş katibinin müavini Askar Mussinov, Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırali, həmçinin İslam və Avropa ölkələrindən 120 şərqşünas alim iştirak edib.

İki gün davam edən tədbirdə tədqiqatçı-alimlərin Əl Fərabinin elmi fəaliyyəti və əsərləri haqda məruzələri dinlənilib. Əl Fərabinin dövrümüzə gəlib çatan 117 kitabı məntiq, metafizika, əxlaq, siyasi elmlər, musiqi, sosiologiya və tibbə aiddir.

Türk Tarix Qurumu Nəvvabın əsərini çap edib

Türkiyənin mötəbər elmi qurumlarından olan Türk Tarix Qurumu, XIX-XX əsrlərdə Şuşada yaşayıb-yaratmış şair, rəssam, xəttat, musiqişünas və bir çox adlarla tanınmış alim Mir Möhsün Nəvvabın (1833– 1918) “1905-1906-cı illərdə erməni müsəlman davası” əsərini çap edib.

Real faktlar əsasında qələmə alınan və ermənilərin 1905-1906-cı illərdə törətdiyi vəhşilik və cinayət əməllərini tam gerçəkliyi ilə əks etdirən bu əsər bir sıra aktual mətləblərə aydınlıq gətirir. Kitabı türk dilində nəşrə hazırlayan Karabük Universitetinin Beynəlxalq münasibətlər kafedrasının rəhbəri Ali Asker və Sivas Cümhuriyyət Universitetinin müəllimi Serap Bozpolat Ayan Şuşanın azad edildiyi tarixi günlərdə belə bir əsərin nəşr edilməsinin son dərəcə əlamətdar hadisə olduğunu qeyd edirlər.

Электронная информационная база о Шуше

Азербайджанская национальная библиотека имени М.Ф.Ахундзаде подготовила электронную информационную базу под названием «Шуша - Жемчужина Карабаха». Как сообщили Азертадж в библиотеке, база состоит из таких разделов, как «История», «Выдающиеся личности», «Культурное наследие», «Шуша – жемчужина Карабаха», «Книги», «Статьи», «Издания Азербайджанской национальной библиотеки» и «Видеогалерея.

В электронной инфобазе имеются сведения об истории Карабаха и города Шуша, его административном делении, книгах о культурных памятниках, статьи, фото, видео и др. документы.

Qafqaz Albaniyası saytı fəaliyyətə başladı

Baku Network Beynəlxalq analitik mərkəzi Bakı Beynəlxalq Multikulturalizm mərkəzinin və Prezident yanında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Şurasının maddi yardımı ilə Qafqaz Albaniyası ilə bağlı yeni media platforması təsis edib. Saytı yaratmaqda əsas məqsəd Azərbaycan tarixində önəmli yeri olan Qabqaz Albaniyasının irsinin təbliğ olunmasıdır.

Tanınmış media eksperti və siyasi icmalçı, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli yeni media platforması faktını yüksək qiymətləndirib. O deyib ki, tarixi saxtalaşdıraraq müxtəlif üsullarla Qafqaz Albaniyası irsini mənimsəməyə çalışan ermənilərin yalanlarını ifşa etmək, dünya ictimaiyyətinə tarix haqqında dəqiq bilgilər vermək baxımından bu resurs önəçmli rol oynayacaq.

Bildirildiyinə görə yeni sayt Qabqaz Albaniyasının tarixinə aid bilgilərlə yanaşı, qədim albanların varisləri (udinlər və b.), alban abidələri, o cümlədən Azərbaycan ərazisindəki monastrlar haqqında da davamlı məlumatlar verəcəkdir.

Книга азербайджанского ученого издана в Анкаре

В канун нового года издательство «Гюлнар Яйынлары» в Анкаре массовым тиражом выпустила монографию известного азербайджанского журналиста, доктора филологических наук профессора Бакинского Госуниверситета Гулу Магеррамли «Радио-театральное искусство».

В предисловии данной книги руководитель отдела Медиа и журналистики Стамбульского Университета «Йени юз ил» профессор Юджель Сары презинтовавший книгу турецкому читателю, высоко оценил художественную систему драматическую направленность азербайджанского радиотеатра.

Воспринятая с интересом монография нашла отклик и у известных специалистов в области радиоисследований , таких как, проф.Айсель Азиз и проф. Камиле Акгюль.

Ədəbiyyat və mətbuat xadimi haqında kitab

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri doktoru Əlizadə Əsgərlinin "Teymur Əhmədov: ədəbiyyat və mətbuat xadimi" kitabı nəşr olunub.

Kitab görkəmli ədəbiyyatşünas alim və publisist, Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Teymur Əhmədovun 90 illik yubileyinə töhfə olaraq Elmi şurasının qərarı ilə çap edilib.

Monoqrafiyada professor Teymur Əhmədovun həyatı və mühitinə, elmi və bədii yaradıcılığına ümumi nəzər yetirilib. Tədqiqatda Teymur Əhmədov XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı kimi diqqət obyektinə çəkilib, onun milli mətbuat tarixi və jurnalistika sahəsində fəaliyyətindən də bəhs olunub.

Hazırladı: **Arzu İsayeva**
filologiya üzrə fəlsəfə doktoru

MÜNDƏRİCAT

QULU MƏHƏRRƏMLI
HƏSƏN BƏY ZƏRDABİ VƏ "BAKİNSKİ LİSTOK" QƏZETİ 3

AFAQ RAMİZ qızı AĞAYEVA
KOMMUNİKASİYANIN QEYRİ-VERBAL ELEMENTLERİ : DURĞU İŞARƏLƏRİ.....10

KÖNÜL DƏNZİYEVA
AZƏRBAYCAN FOLKLOR MATERİALLARINDAKI
BÜTÖV VƏ YARIMÇIQ CÜMLƏLƏRDƏ RASİONAL
FİKRİN İFADƏ STRUKTURLARI 20

ŞƏLALƏ QULİYEVA
RADİODA KÜY SƏSLƏR 31

LƏTAFƏT ƏLIYEVA
NİTQ VƏ MƏTNİN İNTERFERENSİYASI.....42

NƏRMİN ŞAHMƏMMƏDOVA
QRAMMATİKA DİL SƏRİŞTƏSİNİN KOMPONENTİ KİMİ 51

NƏZAKƏT HƏSƏNOVA
BƏDİİ MƏTN ÜZRƏ METAFORLARIN XÜSUSİYYƏTLƏRİ.....58

FƏRİDƏ CƏMİLLİ
GENDERIN KIŞI VƏ QADIN YAZIÇILARIN
NƏSRININ DILINDƏ TƏZAHÜRÜ 67

AYTƏN HACIYEVA
ŞƏRT BUDAQ CÜMLƏLİ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRDƏ
ZAMANLARIN UZLAŞMASI PROBLEMİ 73

SALIFOVA AYTƏKIN YUSIF QIZI
SƏMƏD VURĞUN VƏ BƏDİİ TƏRCÜMƏLƏRİNİN DİLİ.....80

ZENFİRA NİFTƏLİYEVA
SƏİDƏ ZEYNALOVA
İNGİLİS DİLİNDƏ LEKSİK ALINMALARIN FONETİK MƏNİMSƏNİLMƏSİ 89

ƏSƏDULLAYEVA AKİF QIZI
NIZAMI GƏNCƏVİ "XƏMSƏ"SİNDƏ FELİN KEÇMİŞ ZAMAN FORMALARI 94

SEVINC CƏFƏROVA
DİLİN SİYASİ-İQTİSADİ AMİLLƏRİ 101

AYTƏN ƏFƏNDİYEVA
ANLAMA LINQVİSTİK HADİSƏ KİMİ 111

X.M. İSMAYILOVA
İNGİLİS DİLİNDƏ SİNONİMİYA VƏ FEİLİ TƏRKİBLƏRİN SİNONİMLİYİ 118

XƏLİLOVA G.Ş.
MÜASİR İNGİLİS DİLİNDƏ NEOLOGİZMLƏRİN FORMALAŞMA
YOLLARININ TƏHLİLİ 127

SƏBINƏ SEYIDOVA
AZƏRBAYCAN FRAZEOLOGIYASININ TƏDQIQINDƏ FRAZEOLOJI
VAHIDLƏRIN EKVIVALENTLIYININ ROLU 136

İLAHƏ MƏMMƏDOVA
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ DİSTANT TƏHSİLİN ROLU 145

ƏLİYEVA RƏNA MİRZƏBABA QIZI
İSPAN DİLİNDƏKİ *DİOS* "TANRI" KOMPONENTLİ DİNİ FRAZEOLOGİZMLƏRİN
FRAZEOSEMANTİK METOD ÜZRƏ TƏHLİLİ 154

HACIYEVA RƏSMİYƏ SƏYAF QIZI
ƏBDÜRRƏHİM BƏY HAQVERDIYEV MILLI ANA DILIMIZIN
TƏƏSSÜBKEŞLƏRİNDƏN BİRİ KİMİ 164

FƏRİDƏ HÜSEYNOVA
SEMANTIC MEANINGS AND BELIEF STATES 173

LEYLA RZAYEVA
HIGHLIGHTS OF THE LIFE AND WORK
OF JAMES FENIMORE COOPER 179

TƏRLAN ƏLIYEVA
AZƏRBAYCAN DİLİNİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİNİN TARİXİ ASPEKTDƏ
ÖYRƏNİLMƏSİNDƏ TARİXİ KOMMENTARİYALARDAN
İSTİFADƏNİN ƏHƏMİYYƏTİ 188

MURAD MEHDİZADƏ
MİKAYIL MÜŞFİQİN DİLİNDƏ BƏDİİ İFADƏLİLİK YARADAN VASİTƏLƏR 198

ДЖАВАИР ГУСЕЙНОВА
ФОРМИРОВАНИЕ И СТАНОВЛЕНИЕ ПОНЯТИЯ «КОНЦЕПТ»
В КОГНИТИВНОЙ ЛИНГВИСТИКИЕ 206

LEYLA NOVRUZOVA
İSİMLƏRİN LEKSİK-SEMANTİK
QRUPLARININ TƏSNİFATI HAQQINDA 214

ƏDƏBİYYATŞÜNASLIQ

MÖHSÜN Z.NAĞISOYLU
ŞƏHLA A.ABDULLAYEVA
FEYZULLAH SACİD ÜLKÜNÜN HƏYAT VƏ YARADICILIĞINA QISA BAXIŞ.....221

VÜSALƏ ELXAN QIZI AĞABƏYLI
BƏDİİ ƏDƏBİYYATDA FEMİNİZMİN SOSİAL-SİYASİ İDEALOGİYASI 230

ATƏŞ ƏHMƏDLI
CABBAR SÜLEYMANOV
AZƏRBAYCANLI AZSAYLILAR VƏ AZƏRBAYCAN FOLKLORU 239

SELCAN QAFFARLI
BABA BƏY ŞAKİR SATİRASININ TƏNQİD HƏDƏFLƏRİ.....250

RÖYA MÜRŞÜDOVA
"BÜTÜN DEYILƏNLƏRƏ RƏĞMƏN" AZƏRBAYCAN
DRAMATURGİYASINDA AĞA MƏHƏMMƏD ŞAH QACAR OBRAZI.....258

MAHİRƏ TAHIR QIZI HACIYEVA
H. C. UELLS YARADICILIĞINDA UTOPIYA.....271

ADİLOVA GÜLQIZ HACIBALA QIZI
BAYATILARDA SADƏ CÜMLƏLƏRİN POETİK XÜSUSİYYƏTLƏRİ 280

MƏLAHƏT SOLTANQIZI QƏDİROVA
XXI ƏSRIN ƏVVƏLLƏRİNDƏ
AZƏRBAYCAN-BELARUS ƏDƏBİ ƏLAQƏLƏRİ 291

İLHAM QAZIZADƏ
XX ƏSRİN BİRİNCİ VƏ İKİNCİ YARISINDA AZƏRBAYCAN
DRAMATURGIYASINDA YARANAN KOMEDİYALARIN SƏHNƏ TƏCƏSSÜMÜ 302

GÜNAY VƏLİBƏYLİ
ARCHITIPICAL AND PSYCHOANALYTICAL REVIEW OF "DISGRACE" BY J.M.
COETZEE 311

NİGAR YUNUS
QACARLAR SÜLALƏSININ 4-CÜ ŞAHI RƏSSAM, ZƏRGƏR,
ŞAIR VƏ FOTOQRAF KIMI 322

NURANƏ ƏSƏDULLAYEVA,
1920-1930-CU İLLƏR AZƏRBAYCAN ƏDƏBİYYATINDA
DİN VƏ DİN XADİMLƏRİ İDEOLOJİ DÜŞMƏN OBRAZINDA 331

VÜQAR TEYMURXANLI,
AZƏRBAYCAN ƏDƏBİYYATININ MƏNBƏ VƏ QAYNAQLARINDA
MİLLİ DÜŞÜNCƏNİN FORMALAŞMASI 341

ELMAN QƏHRƏMAN OĞLU NOVRUZOV

XANDƏMİRİN "TARİXİ-HƏBİBÜLSEYR" ƏSƏRİNDƏ SEYİDLƏR VƏ ALİMLƏR ...351

ZEYNALLI JALƏ ELŞEN

YAŞAR KEMAL'İN İNCE MEMED ROMANINDA KARAKTER PROBLEMİ 360

XRONİKA

Hazırladı – **Arzu İsayeva** 367

«Elm və təhsil» nəşriyyatının direktoru:
Filologiya elmləri doktoru, professor Nadir MƏMMƏDLİ

Dizayn: Kamran İbrahimov

Çapa imzalanmış 24. 12. 2020
Şərti çap vərəqi 23,5 Sifariş № 598
Kağız formatı 60x84 1/8. Tiraj 300.

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində
hazır elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

i

ii